# AZƏRBAYCAN DİLİ 2

# METODİK VƏSAİT



## 1-ci və 2-ci hissə




LAYİHƏ

Ülkər Nurullayeva
Şəhla Zahidova
İradə Bayramova
Aysel Xanalıyeva

# AZƏRBAYCAN DİLİ 2

# METODİK VƏSAİT



## 1-ci hissə

Ümumtəhsil məktəblərinin
2-ci sinfi üçün Azərbaycan dili (tədris dili kimi) fənni üzrə
METODİK VƏSAİT
(qrif nömrəsi: 2019-134)

**Tədris Resursları Mərkəzi**

Nəşrlə bağlı irad və təklifləri
derslik@arti.edu.az
və derslik@edu.gov.az
elektron ünvanlarına
göndərə bilərsiniz.

LAYİHƏ

## GİRİŞ

**1. Dərsliyin strukturu** ........ 3
**2. Dərslik komponentləri və əlavə resurslar** ........ 4
**3. 1-ci sinifdə mənimsədilmiş bilik və bacarıqlar** ........ 7
**4. Məzmun standartları və təlim nəticələri** ........ 9
**5. Qiymətləndirmə** ........ 14

## DƏRSLƏR ÜZRƏ ŞƏRHLƏR VƏ TÖVSİYƏLƏR

**1-ci bölmə. Ailə və məktəb** ........ 21
1. Yay tətili ........ 22
2. Qohumlar ........ 29
3. Doğma məktəb ........ 35

**2-ci bölmə. Sağlam həyat** ........ 42
1. Gün rejimi ........ 43
2. Hisslər və emosiyalar ........ 48
3. İdman ........ 55

**3-cü bölmə. Təbiətin sirləri** ........ 62
1. Təbiət hadisələri ........ 63
2. Heyvanlar aləmi ........ 70
3. Bitkilər aləmi ........ 75

**4-cü bölmə. Yaxşı nədir, pis nədir** ........ 84
1. Əsl dost ........ 85
2. Sədaqət ........ 90
3. Qənaət ........ 95

LAYİHƏ

# GİRİŞ

## 1. Dərsliyin strukturu

**Tədris vahidləri.** 2-ci sinifdə Azərbaycan dilinin tədrisinin 8 mərhələdə keçilməsi nəzərdə tutulur. Dərslik komplektində bu mərhələlər ayrı-ayrı bölmələr (tədris vahidləri) şəklində təqdim olunmuşdur. Beləliklə, dərslik 8 bölmədən ibarətdir; hər yarımil üçün 4 bölmə nəzərdə tutulmuşdur.

Hər bir bölmədə təqdim olunan tədris materialları vahid mövzu ilə bağlıdır. Bölmələr fəsillərə, fəsillər isə dərslərə bölünür. Hər bölmə 16-18 dərs, hər dərs bir qoşasaat (2 dərs saatı – 90 dəq) üçün nəzərdə tutulmuşdur. Fəsillərdə, adətən, bütün məzmun xətləri əhatə olunur. Əsas fəaliyyət oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri uzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır.

**Saatlar üzrə bölgü.** 2-ci sinifdə Azərbaycan dilinin tədrisinə 340 saat ayrılır: 34 həftə x 10 saat. 1-ci yarımil üçün bölmə və fəsillərin saatlar üzrə bölgüsü aşağıdakı kimidir.

| | Fəsil | Dərs | Saat |
|---|---|---|---|
| 1-ci bölmə. AİLƏ VƏ MƏKTƏB | | | |
| 1 | Yay tətili | 6 | 12 |
| 2 | Qohumlar | 6 | 12 |
| 3 | Doğma məktəb | 4 | 8 |
| Ümumiləşdirici təkrar | | 1 | 2 |
| 1-ci bölmə üzrə cəmi | | 17 | 34 |
| 2-ci bölmə. SAĞLAM HƏYAT | | | |
| 1 | Gün rejimi | 6 | 12 |
| 2 | Hisslər və emosiyalar | 6 | 12 |
| 3 | İdman | 5 | 10 |
| Ümumiləşdirici təkrar | | 1 | 2 |
| 2-ci bölmə üzrə cəmi | | 18 | 36 |
| 3-cü bölmə. TƏBİƏTİN SİRLƏRİ | | | |
| 1 | Təbiət hadisələri | 6 | 12 |
| 2 | Heyvanlar aləmi | 5 | 10 |
| 3 | Bitkilər aləmi | 5 | 10 |
| Ümumiləşdirici təkrar | | 1 | 2 |
| 3-cü bölmə üzrə cəmi | | 17 | 34 |
| 4-cü bölmə. YAXŞI NƏDİR, PİS NƏDİR | | | |
| 1 | Əsl dost | 5 | 10 |
| 2 | Sədaqət | 5 | 10 |
| 3 | Qənaət | 7 | 14 |
| Ümumiləşdirici təkrar | | 1 | 2 |
| 4-cü bölmə üzrə cəmi | | 18 | 36 |
| CƏMİ | | 70 | 140 |

1-ci yarımil üçün Azərbaycan dili üzrə dərs saatlarının sayı həftədə 10 saat olmaqla 17 həftə üçün 170 saat (85 dərs) təşkil edir. Həftə üçün ayrılmış 5 dərsdən biri sərbəst dərs kimi nəzərdə tutulmuşdur. Müəllimlərə həmin saatlarda dərsi aşağıdakı fəaliyyətlər üzrə qurmaq tövsiyə olunur:

1. Sinifdənxaric oxu
2. Müxtəlif tipli imla mətnlərinin yazılması
3. Həftə ərzində gözlənilən səviyyədə reallaşmamış təlim nəticələri üzrə iş
4. Dərslərdə aşağı nəticələr göstərən şagirdlərlə diferensial təlimin təşkili
5. “Söz boğçası” ilə iş

LAYİHƏ

6. Rollu oyunlar
7. Nitq bacarıqlarını inkişaf etdirən intellektual oyunlar
8. Layihə tapşırıqları üzrə təqdimatlar
9. Həftə ərzində keçilmiş materiallar üzrə formativ qiymətləndirmə və özünüqiymətləndirmənin təşkili
10. Kiçik summativ qiymətləndirmənin təşkili

## 2. Dərslik komponentləri və əlavə resurslar

Təqdim olunan dərslik komplekti mövzuların tədrisi, bilik və bacarıqların qiymətləndirilməsi baxımından bir-birini tamamlayan üç kitabdan ibarətdir: dərslik, iş dəftəri və metodik vəsait.

**Şagird kitabı**nda müvafiq məzmun standartlarını reallaşdıran tədris materialları əks olunur. Metodik vəsait və iş dəftəri şagird kitabının məzmunu ilə bağlıdır.




Dərsliyin 1-ci yarımil üçün nəzərdə tutulan hissəsi 4 bölmədən ibarətdir. Hər bir bölmə titul səhifəsi ilə başlayır və ümumiləşdirici təkrar üçün nəzərdə tutulmuş səhifə ilə bitir. Bölməyə daxil olan mövzular yeni səhifədən başlayır. Hər bir dərsə aid olan sual və tapşırıqlar əlifba sırası ilə düzülmüşdür.

Dərslikdə bir sıra materiallar rubrikalar (təkrar olunan başlıqlar) şəklində təqdim olunur:

1. Söz boğçası. 1-ci sinifdə olduğu kimi, bu dərslikdə də mətndə rast gəlinən yeni sözlər hələlik izahsız təqdim edilir.




2. Sözlərin yazılışı. Deyilişi və yazılışı fərqlənən sözlərin orfoqrafik normalara uyğun yazılışı


"T", yoxsa "D"

| Doğru | Səhv |
|---|---|
| dəstə | dəsdə |
| əstə | əsdə |
| istəmək | isdəmək |
| taxta | taxda |
| həftə | həfdə |

3. Bunları bilməliyik. Dil qaydaları və nitq bacarıqları üzrə filoloji anlayışların və qaydaların təqdimatı




**3.** Faydalı məsləhət. Nitq bacarıqlarının inkişafı üzrə tövsiyələr




LAYİHƏ




**İş dəftəri** keçilən mövzunun şagirdlər tərəfindən daha dərindən mənimsənilməsinə xidmət edir. Buradakı sual və tapşırıqlar tətbiqi xarakterlidir və daha çox oxu, yazı, dil qaydaları məzmun xətləri ilə bağlıdır. Xüsusilə də yazı ilə bağlı məzmun standartlarının reallaşdırılmasında ağırlıq yükü iş dəftərinə düşür. İş dəftəri eyni zamanda formativ qiymətləndirməyə, təlim prosesinin monitorinqinə və şagirdin inkişaf dinamikasının izlənilməsinə imkan verir.

**Metodik vəsait**:

1. Hər bir dərs üçün məzmun standartlarından doğan təlim nəticələrini müəyyənləşdirir.

2. Dərslikdə verilmiş materiallardan səmərəli istifadə üçün müvafiq təlim strategiyaları təklif edir.

3. Bütün məzmun standartlarını əhatə etmək üçün əlavə materiallar (dinləmə və imla mətnləri, debat, məruzə, müzakirə, inşa mövzuları, summativ qiymətləndirmə materialları və s.) təqdim edir.




Hər bir bölmənin girişində bölmədəki tədris materiallarının icmalı və dərslik komponentləri üzrə bölmənin məzmun xəritəsi verilir.

Hər bir dərsin şərhində aşağıdakı məqamlar öz əksini tapır:

- məzmun standartlarından çıxan təlim nəticələri;
- dərs üçün lazım olan əlavə resurslar və köməkçi vasitələr;
- dərsin qısa planı;
- mövzuya yönəltmə (motivasiya) üzrə tövsiyələr;
- təlim texnologiyaları üzrə tövsiyələr;
- tapşırıqların məqsədi və şərhi;
- növbəti dərsə hazırlıq.

Dərslərin şərhi məzmun xətlərinə əsaslanan struktura malikdir. Şərh olunan tapşırıq və fəaliyyətlər bu prinsipə əsasən qruplaşdırılır. "Müəllimin nəzərinə!" rubrikasında bəzi tədris materialları ilə bağlı ümumi elmi-metodoloji məsələlər daha dərindən açıqlanır, eləcə də tədris prosesində ortaya çıxa bilən bəzi problemlərin həlli üçün yollar göstərilir. "Diferensial təlim" rubrikasında bilik və bacarıq səviyyəsi kəskin fərqlənən şagirdlərlə iş üsullarının tətbiqi üzrə tövsiyələr verilir.

**Əlavə resurslar**. Dəfələrlə qeyd olunduğu kimi, fənn üzrə dərslik komplektləri təlim prosesində standartlara nail olunması üçün yaradılan minimum resurslardır. Məzmun standartlarının tam və effektiv şəkildə reallaşdırılması üçün tədris prosesində imkan olduğu təqdirdə əlavə tədris resurslarından – ***sinifdənxaric oxu*** materiallarından, ***lüğətlərdən*** və ***qiymətləndirmə vəsaitlərindən*** istifadə olunması tövsiyə edilir.

Bundan əlavə, sərbəst dərslərdə müəllim uşaqların iştirakı ilə hazırlanmış müxtəlif tipli intellektual oyun materiallarından istifadə edə bilər. Bu materiallar texnologiya dərslərində və ya valideynlərin iştirakı ilə evdə hazırlana bilər. Belə ki, müəllim həmin oyunları ailədə tətbiq etməyi valideynlərə də tövsiyə edə bilər.

<u>"Doqquzdaş"</u>

Bu oyunu yalnız məktəbdə deyil, evdə, valideynlərin iştirakı ilə də oynamaq olar. "Doqquzdaş" sinif şəraitində oynanılarkən şagirdlər iki və daha artıq qrupa bölünürlər.

LAYİHƏ

Oyunda tərəflərinə hərflər yazılmış kiçik kublardan – zərlərdən istifadə olunur. Kubun 6 tərəfi olduğundan burada 54 (9x6) hərf iştirak edir. Azərbaycan dilində 32 hərf olduğundan dilimizdə daha çox işlənən hərflər (əsasən, saitlər) bir neçə kubda təkrarlanır. Müəllim və ya şagirdlərdən biri kubları müəllim masasının üstünə atır. Üstə düşən hərflər yazı taxtasına yazılır. Bu hərflərin köməyi ilə daha çox söz düzəldən qrup oyunda qalib gəlir.

Bu kubları şagirdlər özləri müəllimin köməyi ilə karton və ya qalın kağızdan düzəldə bilərlər. Hərflərin kublar üzrə aşağıdakı şəkildə paylanması tövsiyə olunur.




1. B, Ş, D, T, X, I
2. A, O, E, U, Ə, İ
3. Ü, H, S, E, K, İ
4. I, Ö, Ə, Ü, O, A
5. Ç, P, G, M, N, R
6. Z, J, E, Ö, Y, Q
7. A, Ə, E, K, F, İ
8. D, C, Ğ,  V, X, B
9. S, Ə, L, N, P, T

<u>Söz-loto</u>

Bu oyunu sinifdə cütlərlə oynamaq daha məqsədəuyğundur. Hər cütə bir altıxanalı kart verilir. Kartın hər xanasında müəyyən bir məna qrupunun adı var; məsələn: “quş”, “geyim”, “əmək aləti”, “meyvə”, “tərəvəz” və s. Müəllimin masasının üstündə müxtəlif varlıqlar çəkilmiş şəkillər – kartlar olur. Müəllim hər hansı şəkil kartını götürüb varlığın adını ucadan deyir; məsələn: “kirpi”. Bu zaman kartında “Vəhşi heyvan” xanası olan cüt deməlidir: “məndə”. Şəklin adını deyən şagird müəllimə yaxınlaşıb həmin şəkli verir. Cütlük həmin şəkli kartdakı müvafiq xanaya qoyur və həmin cütlükdən bir nəfər masaya yaxınlaşıb başqa şəkil götürür. Beləcə, cütlərdən birinin kartındakı xanalar dolana qədər oyun davam edir.




*<u>Qeyd</u>. “Vəhşi heyvan” xanası başqasının da kartında ola bilər. Lakin şəkli hamıdan tez “məndə” qışqıran cütlük əldə edir.*

Loto kartlarını şagirdlər özləri müəllimin köməyi ilə karton və ya qalın kağızdan düzəldə bilərlər.

LAYİHƏ

## 3. 1-ci sinifdə mənimsədilmiş bilik və bacarıqlar

Məlumdur ki, fənn kurikulumlarında təsbit olunmuş məzmun standartları siniflər üzrə yüksələn inkişaf xətti təşkil edir. Azərbaycan dili fənnində bu dinamikanı duymaq bəzən çətin olur; məsələn, sözün mənasını izah etmək və ya mətndəki əsas fikri müəyyənləşdirmək kimi bacarıqlar sinifdən-sinfə müxtəlif cür ifadə olunaraq təkrarlanır. Bununla belə, həm dil qaydaları, həm də nitq bacarıqlarına aid bir sıra qaydalar və filoloji anlayışlar var ki, onlar kifayət qədər konkretdir və bu qayda və anlayışların təqdim olunmasındakı dinamikanı izləmək mümkündür. Ona görə də istənilən mərhələdə tədrisə başlayarkən əvvəlki tədris mərhələlərində mənimsədilmiş elmi anlayışları nəzərə almaq lazımdır.

Beləliklə, şagird 1-ci sinifdə aşağıdakı bilik və bacarıqlara yiyələnmişdir:

Söz ehtiyatı üzrə:

Sözün mənasını anladığını aşağıdakı yollarla nümayiş etdirir:

- sözü müvafiq şəkillə eyniləşdirir;
- sözü müvafiq izahla eyniləşdirir;
- sözü cümlədə mənasına uyğun işlədir.

(1-ci sinifdə şagirdin yiyələndiyi söz ehtiyatı növbəti səhifədə verilir.)

Oxu üzrə:

- sağdakı sütunda verilmiş terminlərin iştirakı ilə formalaşan tapşırıqları anlayır və yerinə yetirir;
- sözləri hecalamadan, bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur;
- nəzm və nəsrlə yazılmış mətnləri fərqləndirir;
- sadə mətnlərin məzmunu üzrə sualları cavablandırır;
- kiçikhəcmli mətnlərdə müəllifin oxucuya çatdırmaq istədiyi fikri müəyyənləşdirir.

Yazı üzrə:

- hüsnxət normalarına uyğun yazır;
- tanış olduğu məlumatları yazıda əks etdirir;
- öz fikir və duyğularını iki-üç cümlə ilə ifadə edir;
- təqdimat üçün hazırladığı vizual materialları yazılı şərhlərlə müşayiət edir.

Dil qaydaları üzrə:

- cümlənin əsas formal əlamətlərinə (böyük hərflə başlayır, sonunda nöqtə və ya sual işarəsi qoyulur) bələddir;
- sait və samiti fərqləndirir;
- hərfləri əlifba sırası ilə sadalayır;
- sözü hecalara bölür;
- nəqli və sual cümlələrini fərqləndirir;
- ad, əlamət, say, hərəkət bildirən sözləri fərqləndirir;
- şəxs, yer və xüsusi heyvan adlarının böyük hərflə yazıldığını bilir;
- məqsəd və intonasiyadan asılı olaraq cümlənin sonunda müvafiq durğu işarəsi qoyur.

**1-ci sinifdə mənimsədilmiş filoloji anlayışlar**

Dil qaydaları üzrə

- səs
- hərf
- əlifba
- söz
- sait
- samit
- heca
- cümlə
- nöqtə
- ad bildirən sözlər
- şəxs adları
- yer adları
- əlamət bildirən sözlər
- hərəkət bildirən sözlər
- say bildirən sözlər
- nəqli cümlə
- sual cümləsi
- yaxınmənalı söz
- əksmənalı söz

Oxu məzmun xətti üzrə

- müəllif
- əsas fikir
- illüstrasiya
- hekayə
- nağıl
- şeir
- bənd
- misra
- sətir
- qafiyə
- başlıq (sərlövhə)
- obraz
- baş qəhrəman
- xarakter
- mətnin planı
- abzas
- açar söz

LAYİHƏ

## 1-ci sinifdə “Söz boğçası” rubrikasında verilmiş sözlər

acımaq
ada
ağappaq
aktyor
akvarium
al
alaçıq
and-aman eləmək
asudə vaxt
aşkar etmək
azdırmaq
başlıq
batut
bezmək
bəhanə
bərəkətli
bərəlmək
biçmək
boy atmaq
boylanmaq
canı qurtarmaq
canlanmaq
caynaq
cəld
cəsarət
cığır
cihaz
cild
cizgi filmi
cummaq
çaxmaq
çanaq
çat-çat
çeşmə
çevik
çəmən
çəpər
çətir
çör-çöp
çul
daxma
davranış
dayaz
dəhşətli
dərə
dərnək
dərs olmaq
dərs vermək
dəyənək
didik-didik
dirək
diş fırçası
diş məcunu
doğma
dolça
dövr etmək
eksponat
elektrik cərəyanı
elektrik cihazı
el-oba
eskiz
etiraf
ədəb
əhliləşdirmək
əkinçi
əl saxlamaq
əlacsız
əldə etmək
əldən düşmək
ərazi
fayton
fədakar
fəxr etmək
fərdi
fərəhlənmək
fəth etmək
fırtına
fikrə dalmaq
gigiyena
gimnastika
gizlənqaç
göstəriş
göz oxşamaq
gözümün işığı
gözünə sataşmaq
gümrah
halqa
haray salmaq
hayına çatmaq
heyif çıxmaq
hədiyyə
həyəcan
hıçqırmaq
hiylə işlətmək
hobbi
hücum etmək
xəbərdarlıq
xəcalət çəkmək
xəritə
ildırım
işarə
işğal etmək
işıqfor
kainat
karusel
kefi kök olmaq
keşikçi
kədərli
kəndir
kəsici alət
kəşf
kitabxana
kol
komanda
kor-peşman
kosmik gəmi
kosmonavt
kosmos
kömür
köz
kral
kunq-fu
kuzə
küpəgirən qarı
kürk
qabartmaq
qadağan
qarış-qarış
qaya
qayda
qayğı
qəddar
qəfəs
qəlyanaltı
qəm
qəmgin
qərara gəlmək
qəsr
qəzəblənmək
qığılcım
qısılmaq
qida
qoç
qonaqpərvər
qovun
qövs
qüllə
layla
lent
leysan
lift
mağara
mahir
masa
maşa
mayak
mayallaq aşmaq
menyu
meydan
məhsul
məlumat
mərhəmət
məskən
məşq
mikrob
mikroskop
molbert
möcüzə
muzey
müəllif
müsabiqə
müşahidə
nahar
naxış
nərildəmək
niyyət
nur
oba
od
ordu
ovuc
oymaq
ömür sürmək
öyünmək
pazl
pətək
pilləkən
piyada zolağı
planet
plastilin
polad
raket
resept
rəf
rəftar etmək
riayət etmək
sahil
sanama
sapsarı
sarılmaq
sel
səbət
səbri tükənmək
səki
səma
səma cismi
sərgi
sərvət
sığınmaq
skafandr
skamya
skuter
soyad
şəfəq
şimşək
şöhrət
şüa
taqət
tamahkar
teleskop
təbrik
təhlükə
təklif
təqdim etmək
təngnəfəs
təpə
tərkib
təsəlli
təşəkkür
təşvişə düşmək
tövlə
tufan
turist
üzr istəmək
üzüyün qaşı
vahiməli
vitamin
yadigar
yarıq
yarış
yaylaq
yeraltı keçid
yerüstü keçid
yola düzəlmək
yolmaq
yumaq
zəlzələ
zəmi
zənbil
zərbə
zingildəmək

LAYİHƏ

## 4. Məzmun standartları və təlim nəticələri

Aşağıda məzmun standartlarının tədris prosesində reallaşdırılması yolları açıqlanır. Hər dərsdə bir və ya bir neçə alt standartın reallaşdırılır. Dərslərdə qoyulan təlim məqsədləri – gözlənilən şagird nailiyyətləri məzmun standartlarına doğru aparan addımlardır.

Dinləmə

**1.1.1. Müxtəlif mətnləri dinləməklə anladığını nümayiş etdirir.**
- Dinlədiyi mətn üzrə sualları cavablandırır.
- Suallara və illüstrasiyalara əsasən dinlədiyi mətni şərh edir.
- Dinlədiyi mətnlə bağlı analoji həyat hadisələrindən, cizgi filmlərindən misal gətirir, müqayisələr aparır.
- Dinlədiyi informativ mətndəki məlumatlara aydınlıq gətirmək üçün suallar verir.
- Dinlədiyi mətnin mövzusu ilə bağlı əlavə məlumatlar almaq məqsədilə suallar verir.
- Dinlədiyi mətnin davamını müəyyən edir.
- Dinlədiyi mətni genişləndirərək nəql edir.

**1.1.2. Dinlədiyi fikirlə bağlı münasibətini əsaslandırır.**
- Müzakirə zamanı danışanın fikrinə adekvat reaksiya verir.
- Dinlədiyi mətndəki məlumatları əvvəl bildikləri ilə müqayisə edir.
- Fikir bildirərkən aldığı məlumatdakı faktlara əsaslanır.
- Dinlədiyi və bildiyi məlumatlar arasındakı ziddiyyətləri aşkar edir.
- Dinlədiyi fikirlə bağlı öz mülahizələrini söyləyir.
- Dinlədiyi mətnlə bağlı fikirlərini bildirir.
- Dinlədiyi mətndə mənəvi dəyərlərlə bağlı məqamlara münasibət bildirir.
- Dinlədiyi mətndəki əsas fikri şərh edir.

Danışma

**1.2.1. Müşahidə etdikləri, eşitdikləri və oxuduqları haqqında danışır.**
- Tanış mövzu ətrafında söhbət edir.
- Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir.
- Qeyri-verbal ünsiyyət vasitələrindən (jest, mimika) istifadə edir.
- Mövzu ilə bağlı araşdırma apararaq sadə formalı təqdimatlar edir.
- Oxuduqlarını həyatda gördükləri ilə müqayisə edir.
- Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür.
- Varlığın əlamətlərini sadalamaqla təsvir edir.
- Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir.
- Hər hansı prosesin mərhələlərini düzgün ardıcıllıqla sadalayır.
- Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir.

**1.2.2. Aldığı məlumatla bağlı fikrini ifadə edir.**
- Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir.
- Oxuduğu və ya dinlədiyi mətnlə bağlı emosional düşüncələrini ifadə edir (bəyəndim, bəyənmədim, yazığım gəldi, təəccübləndim) və əsaslandırır.
- Öz biliklərinə əsaslanaraq problemin həlli ilə bağlı fikir yürüdür.
- Mövzu ilə bağlı təxəyyülünə uyğun mətn qurub danışır.
- Həyatda gördüklərindən verilmiş atalar sözünə uyğun nümunə gətirir.
- Verilmiş plan əsasında mətni genişləndirir.

LAYİHƏ

**1.2.3. Danışarkən fəal leksikadan və sadə sintaktik konstruksiyalardan istifadə edir.**
- Qrammatik cəhətdən düzgün cümlələr qurur.
- Vəziyyətə uyğun olaraq ünsiyyət formalarını dəyişir (fikir bildirir, başqalarına qulaq asır, sual verir, sualı cavablandırır).
- Situasiyadan asılı olaraq nitqində müvafiq nitq etiketlərindən (salamlaşma, sağollaşma, üzrxahlıq) istifadə edir.
- Danışarkən yeni öyrəndiyi söz və ifadələrdən yerli-yerində istifadə edir.
- Təqdimat zamanı vizual materialları şifahi şərhləri ilə müşayiət edir.

<u>Söz ehtiyatı</u>
**2.1.1. Yeni sözləri müvafiq məna qrupuna aid edir və anlayışın əlamətlərini sadalayır.**
- Sözlər arasında məna assosiasiyası yaradır.
- Verilmiş sözlərə xas olan ümumi məna və ya əlaməti müəyyənləşdirir.
- Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır.
- Verilmiş məna qrupuna aid sözləri müəyyənləşdirir.
- Verilmiş sözlərin ümumi anlayışla bağlılığını izah edir.
- Verilən təsnifat qruplarına daxil olan sözləri sadalayır.
- Əsərdəki obrazın xarakterik cəhətini müvafiq əlamət bildirən sözlə adlandırır.
- Eyni məna qrupuna aid olan varlıqlar arasındakı fərqli əlamətləri sadalayır.
- Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir.
- Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir.

**2.1.2. Kontekstdən çıxış edərək uyğun gələn sözü müəyyən edir.**
- Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır.
- Sözü cümlədə mənasına uyğun işlədir.
- Eyni məna qrupuna aid olan sözləri kontekstə görə fərqləndirir.

**2.1.3. Sözlərin yaxınmənalı və əksmənalı qarşılığını müəyyənləşdirir.**
- Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir.
- Yaxınmənalı sözlərin məna çalarları arasındakı fərqi izah edir.
- Sözün kontekstə görə mənasını yaxınmənalı sözün köməyi ilə izah edir.
- Kontekstə uyğun olaraq sözün əksmənalı qarşılığını seçir.

**2.1.4. Sadə frazeoloji ifadələrin mənasını izah edir.**
- Mətndə rast gəldiyi frazeologizmləri həqiqi mənalı sözlərlə əvəz edir.
- Frazeoloji ifadələri cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir.
- Frazeoloji ifadələrlə onların izahlarını uyğunlaşdırır.

<u>Oxuyub-qavrama</u>
**2.2.1. Səsli oxu zamanı mətni anladığını nümayiş etdirir.**
- Mətni ucadan oxuyarkən cümlələri məqsəd və intonasiyaya görə fərqləndirir.
- Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur.
- Şeir oxuyarkən misralar və bəndlər arasında pauza edir.
- Obrazların nitqini müəllif nitqindən ayıran durğu işarələrini tanıyır.
- Sözü düzgün oxumadıqda cümlədə ifadə olunan fikrə əsaslanaraq öz səhvini düzəltməklə yenidən oxuyur.
- Səs tonunu mətnin məzmununa uyğun tənzimləyir.
- Dinləyicilərin başa düşəcəyi tərzdə oxuyur.



LAYİHƏ

- Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir.
- Bədii və informativ mətnləri oxuyarkən müvafiq səs tonu seçir.
- Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir.
- Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir.
- Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur.
- Bədii mətni oxuyarkən jest və mimikadan istifadə edir.
- Mətni durğu işarələrinə əməl etməklə düzgün intonasiya ilə oxuyur.
- Mətni səsli oxuyarkən deyilişi çətin olan söz və ifadələri düzgün tələffüz edir.

**2.2.2. Bədii və informativ mətnləri fərqləndirir.**
- Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir.
- Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir.
- Verilmiş məlumatlardan istifadə etməklə informativ mətn qurur.
- İnformativ mətndəki əsas məlumatları həyatda gördükləri ilə müqayisə edir.
- Mətndə fakt və münasibət ifadə edən fikirləri fərqləndirir.

**2.2.3. Mətnin quruluşunun və struktur elementlərinin məzmunla bağlılığını müəyyən edir.**
- Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir.
- Mətnə əsasən hekayə xəritəsi tərtib edir.
- Mətnin hissələrini yarımbaşlıqlar və ya sual cümlələri ilə ifadə edir.
- Başlıq, altbaşlıq, yarımbaşlıq, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunun təqdim edilməsində rolunu dəyərləndirir.
- Mətnin əsas hissələrini ümumiləşdirərək nəql edir.
- Mətni tərtib etdiyi plan əsasında nəql edir.
- Mətndə öz əksini tapmış fakt və hadisələri müəyyən edir.
- Mətnin adı ilə məzmunu arasındakı bağlılığı izah edir.
- Fakt və hadisələrin mətndəki yerini müəyyən edir.
- Vizual informasiyanın qrafik strukturunu müəyyənləşdirməklə ondan səmərəli istifadə edir.
- Mətnin kompozisiyasında problemin yaranması və həlli məqamlarını müəyyən edir.
- Mətni obrazlardan birinin dilindən nəql edir.

**2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir.**
- Mətnin məzmunu ilə bağlı suallar tərtib edir.
- Obrazlarla bağlı fakt və hadisələri müəyyənləşdirir.
- Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir.
- Mətndəki əsas fikirlə bağlı öz şəxsi həyatından nümunələr gətirir.
- Mətndəki hadisə və obrazları həyat haqqında düşüncələri ilə əlaqələndirir.
- Obrazı və onun davranışlarını qiymətləndirməklə (xeyirxahdır, qəddardır, yaxşı davrandı/pis davrandı və s.) mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür.
- Tanış atalar sözlərindən mətndəki əsas fikrə uyğun olanını seçir.
- Mətndəki problemin həllini öz həyat təcrübəsində seçdiyi həll yolu ilə əlaqələndirir.
- Mətndə oxuduqlarından çıxış edərək həyatda qarşılaşdığı məsələlərə aydınlıq gətirir.
- Mətndəki əsas fikri həyatda gördükləri ilə müqayisə edərək şəxsi qənaətini bildirir.
- Oxuduğu və dinlədiyi mətnlər arasındakı ideya yaxınlığını müəyyən edir.
- Mətndəki obrazın xarakterini səciyyələndirməklə əsas fikrə münasibətini bildirir.
- Mətndən faktlar gətirməklə fikrini əsaslandırır.
- Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir.
- Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir.

LAYİHƏ

**2.2.5. Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir.**
• Bir-biri ilə bağlı iki hadisədən hansının səbəb, hansının nəticə olduğunu müəyyən edir.
• Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir.
• Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir.
• Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir.
• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir.
• Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir.
• Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir.
• Mətnin məzmunu ilə bağlı "Səbəb-nəticə cədvəli"ni tamamlayır
• Bilik və təxəyyülünə əsaslanaraq mətnin məzmununu dəyişir.

Yazı

**3.1.1. Yazısının aydın və oxunaqlı olması üçün müvafiq yazı normalarına əməl edir.**
• Sözlər, cümlələr, abzaslar arasında uyğun boşluqlardan istifadə edir.
• Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir.
• Sözləri müəyyən olunmuş xətt boyunca düzgün yazır.

**3.1.2. Dinlədiyi, oxuduğu, həyatda gördüyü hadisə və faktlar əsasında mətn yazır.**
• Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır.
• Mətnə əsasən obrazın yazılı portretini yaradır.
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır.
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır.

**3.1.3. Eşitdikləri və gördükləri haqda yazarkən münasibətini ifadə edir.**
• Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir.
• Esse yazısında mühakimə xarakterli cümlələrdən istifadə edir.
• Esse yazarkən problemə münasibətini fakt və arqumentlərlə əsaslandırır.

**3.1.4. Yazılı təqdimat (məktub, açıqça, elan, şüar, gündəlik, layihə işi, dəvətnamə) üçün müxtəlif vizual forma və üsullar seçir.**
• Təqdimat üçün seçdiyi vizual materialları yazılı şərhləri ilə müşayiət edir.
• Təlimata əsasən yazılı təqdimat hazırlayır.
• Müəyyən məqsədlə anket yazır.
• Yazılı təqdimatını struktur xüsusiyyətlərinə uyğun olaraq tərtib edir.
• Müəyyən mövzu üzrə çağırış xarakterli cümlə yazır.
• Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir.
• Gündəlik tərtib edərkən onun struktur xüsusiyyətlərinin tələblərinə əməl edir.

**3.1.5. Özünün və başqasının yazısını dil qaydaları baxımından təkmilləşdirir.**
• Dil qaydalarına əməl etməklə mətndəki səhvləri düzəldir.
• Cümlələrdə mətnin məzmununa uyğun düzəlişlər edir.

Dil qaydaları

**4.1.1. Saitləri növlərinə görə (qalın, incə, dodaqlanan, dodaqlanmayan) fərqləndirir.**
• Qalın və incə saitləri fərqləndirir.
• Dodaqlanan və dodaqlanmayan saitləri fərqləndirir.

LAYİHƏ

- Saitləri növlərinə görə qruplaşdırır.
- Ahəng qanununa tabe olan sözləri müəyyən edir.

**4.1.2. Sözlərin sətirdən-sətrə keçirilməsi qaydalarını tətbiq edir.**
- Sözləri sətirdən-sətrə düzgün keçirir.

**4.1.3. Səs və hərf tərkibi fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir.**
- Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir.
- Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (*ü-u, a-ə*) və samitlərin (*k-g, t-d*) düzgün yazılış qaydalarına riayət edir.

**4.1.4. Lüğətlə iş zamanı hərflərin əlifba sırasından istifadə edir.**
- Yeni sözün yazılışını bildirmək üçün tərkibindəki hərfləri adları ilə sadalayır (sətir: *se, ə, te, i, er*).
- Əlifba sırasından istifadə etməklə izahlı lüğətdən lazım olan sözü tapır.

**4.1.5. Ad, əlamət, say, hərəkət bildirən sözlərin bəzi qrammatik xüsusiyyətlərini müəyyənləşdirir.**
- Ad bildirən sözlərin tək və ya cəmdə olduğunu müəyyənləşdirir.
- Cəm şəkilçisini sözə əlavə edərkən ahəng qanununa uyğun düzgün variantını seçir.
- Ad bildirən sözlərin ümumi və ya xüsusi olduğunu müəyyənləşdirir.
- Əlamət bildirən sözləri məna qruplarına görə (rəng, dad və s.) fərqləndirir.
- Miqdar və sıra saylarını fərqləndirir.
- Hərəkət bildirən sözlərin təsdiq və ya inkarda olduğunu müəyyən edir.
- Hərəkət bildirən sözləri zamana görə fərqləndirir.
- Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir.
- Gözlə görünən və gözlə görünməyən varlıqları fərqləndirir.

**4.1.6. Cümlənin qrammatik əsasını müəyyən edir və məqsəddən asılı olaraq cümləni genişləndirir.**
- Cümlədə subyekt və hərəkəti müəyyən edir.
- Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur.
- Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir.
- Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir.

**4.1.7. Cümlədə durğu işarələrindən (sual işarəsi, nida işarəsi, vergül, qoşa nöqtə, tire) yerli-yerində istifadə edir.**
- Dialoqlarda durğu işarələrindən (tire, qoşa nöqtə) yerli-yerində istifadə edir.
- Cümlədə həmcins üzvlər arasında vergül işarəsindən istifadə edir.
- Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir.
- Nəqli cümlələrə sual verməklə sual cümləsi qurur.
- Müraciət bildirən sözlərdən sonra vergül işarəsindən istifadə edir.

LAYİHƏ

## 5. Qiymətləndirmə

Müasir qiymətləndirmə metodikası özündə bir çox məqamları birləşdirən mürəkkəb və çoxşaxəli prosesdir. Bu məqamları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Qiymətləndirmənin məqsədi
2. Qiymətləndirmə materialı
3. Qiymətləndirmə meyarları
4. Qiymətləndirmənin prosedur qaydaları (*Bu qaydalar Təhsil Nazirliyinin direktiv sənədləri və təhsil qurumlarının bu sənədlərə uyğun qərarları ilə müəyyən olunur.*)

**Məqsəd.** Tədris qiymətləndirmədən başlanır. Belə ki, şagirdin ilkin səviyyəsini qiymətləndirmədən, yəni diaqnostik qiymətləndirmə aparmadan hər hansı mövzunu öyrətməyə başlamaq düzgün olmazdı. Odur ki ilkin qiymətləndirmənin məqsədi tədrisi şagirdin səviyyəsinə uyğun qurmaqdır. Formativ qiymətləndirmə isə müəllimə imkan verir ki, "əlini daim şagirdin nəbzində saxlasın". Bu qiymətləndirmə tədris prosesində şagird nailiyyətlərinin monitorinqini aparmaq məqsədi güdür.

Müasir təhsilin əsas məqsədi məzmun standartları ilə ifadə olunan məqsədlərə nail olmaqdır. Hər bir təhsil pilləsinin sonunda keçirilən yekun (summativ) qiymətləndirmə şagirdin bu məqsədə nə dərəcədə nail olduğunu göstərir.

Beləliklə, qiymətləndirmənin üç əsas məqsədi aşağıdakılardır:

1) tədrisi şagirdin səviyyəsinə uyğun qurmaq;
2) şagirdin irəliləyişlərini izləməklə tədrisi daha səmərəli şəkildə təşkil etmək;
3) nəzərdə tutulan təhsil pilləsi üçün standartların nə dərəcədə reallaşdığını yoxlamaq.

**Qiymətləndirmə materialı (mətnlə iş)**

Azərbaycan dili fənnində əsas tədris və qiymətləndirmə materialı kimi mətn və onunla bağlı tapşırıqlar çıxış edir. Mətn bütün məzmun xətləri üzrə standartları reallaşdırmağa imkan verir:

• **Söz ehtiyatı.** Mətn oxunduqdan sonra (oxu zamanı və ya ondan əvvəl) yeni sözlər üzərində iş aparılır.

• **Oxu.** Müxtəlif oxu strategiyaları tətbiq etməklə şagirdlərdə sürətli oxuyub-qavrama bacarıqları inkişaf etdirilir.

• **Dinləmə və danışma.** Mətnin məzmunu və ya ideyası üzrə müzakirə, debat, layihə işləri təşkil etməklə şagirdlərdə şifahi nitq bacarıqları inkişaf etdirilir. (Dinləmə bacarığı ayrıca dinləmə mətni üzərində iş vasitəsilə də inkişaf etdirilə bilər.)

• **Yazı.** Oxunmuş mətnin məzmunu və ideyası ilə yaxından tanışlıq ifadə və esse yazıların təşkilinə də imkan yaradır.

• **Dil qaydaları.** Mətnlərdə müxtəlif dil qaydaları və filoloji anlayışların mənimsədilməsi üçün zəngin nitq materialı təqdim olunur.

Mətnlə bağlı tapşırıqların bir çox modelləri var ki, təqdim olunan dərslik komplektində onlardan geniş istifadə edilir:

*1. Uyğunluğu müəyyən et.* Söz ehtiyatının və mətnin məzmununun mənimsədilməsi üçün istifadə olunur; məsələn, mətndə rast gəlinən yeni sözlərlə onların izahlarını və ya illüstrasiyalarla mətnin hissələrini uyğunlaşdırmaq tapşırılır.

*2. Doğru, yoxsa yanlış.* Bu model mətndəki faktoloji materialın daha dərindən mənimsədilməsi üçün tətbiq olunur. Şagirdlər mətnlə bağlı verilmiş cümlələrdən hansının doğru, hansının yanlış olduğunu müəyyən etməlidirlər.

*3. Ardıcıllığı bərpa et.* Mətnin abzasları (və ya abzasın cümlələri) qeyri-ardıcıl şəkildə verilir. Ardıcıllığı bərpa etmək tələb olunur.

LAYİHƏ

4. *Mətnin davamını təxmin et.* Şagirdlərdə oxuyub-qavramanı və yaradıcı təxəyyülü inkişaf etdirir.

5. *Boşluğu doldur.* Mətndə müəyyən sözlərin (cümlələrin) yeri boş buraxılır. Uyğun gələn vahidləri yerinə qoymaq tələb olunur.

6. *Dördündən biri fərqlidir.* Verilmiş dörd vahiddən (sözdən, ifadədən) üçü məntiqi qanunauyğunluqla bağlıdır, biri isə bu qanunauyğunluğa tabe deyil.

7. *Ardıcıllığı davam etdir.* Verilmiş vahidlər arasında müəyyən qanunauyğunluq var. Bu qanunauyğunluğa tabe olan variantı seçmək lazımdır.

Bu cür modellər və onların variantları onlarladır. Bu modellərdən istifadə etməklə müəllimlər özləri də müəyyən mətnlər əsasında şagirdlərin nitq bacarıqlarını inkişaf etdirə və onları qiymətləndirə bilərlər.

**Qiymətləndirmə meyarları**

Azərbaycan dili üzrə qiymətləndirmə hər bir məzmun xətti üzrə ayrıca aparılmalı, daha sonra orta qiymət çıxarılmalı və beləliklə, şagirdin səviyyəsi müəyyən olunmalıdır. Belə bir qiymətləndirmə şagirdin yalnız Azərbaycan dili üzrə deyil, ümumiyyətlə, təhsilindəki uğur və geriləmələrin səbəbini aydınlaşdırmağa və müvafiq ölçülər götürməyə imkan verir. Belə ki, istənilən dərsdə şagird oxuyur, dinləyir, yazır, danışır. Əgər şagirdin oxu və ya dinləmə bacarığı zəifdirsə, deməli, onun anlama (qavrama, mənimsəmə) qabiliyyəti zəifdir. Əgər yazı və ya danışma qabiliyyəti güclüdürsə, deməli, onun özünüifadə qabiliyyəti güclüdür. Beləliklə, nitq bacarıqlarını qiymətləndirməklə biz şagirdin aşağıdakı qabiliyyətlərini aşkar etmiş oluruq:

Oxu → yazılı informasiyanı qavrama
Dinləmə → şifahi informasiyanı qavrama
Yazı → yazmaqla özünüifadə
Danışma → şifahi özünüifadə

Qeyd etmək lazımdır ki, *qiymətləndirmə yaddaşa əsaslanmamalıdır. Tədris prosesində oxunmuş və ya dinlənilmiş mətnlərdəki informasiya summativ qiymətləndirmə obyekti ola bilməz.*

Bəzən eyni nitq materialı (mətn) iki və ya üç məzmun xətti üzrə qiymətləndirmə üçün istifadə oluna bilər; məsələn, oxuyub-qavrama üçün nəzərdə tutulmuş mətn söz ehtiyatını və yazı bacarığını qiymətləndirmək üçün zəngin material verə bilər. Dinləmə üçün nəzərdə tutulmuş mətn isə yazı (ifadə) bacarığını yoxlamağa imkan verir.

Müəllimlər şagird nailiyyətlərinin gündəlik monitorinqi üçün müxtəlif qiymətləndirmə cədvəllərindən istifadə edə bilərlər. Aşağıda verilən dinləmə və danışma üzrə qiymətləndirmə cədvəlləri, ilk növbədə, formativ qiymətləndirmə üçün nəzərdə tutulmuşdur. Bu cədvəllər nümunə xarakteri daşıyır. Hər bir müəllim tədris prosesində reallaşdırılmış təlim nəticələrindən və mövcud prosedur qaydalarından çıxış edərək öz qiymətləndirmə cədvəllərini yarada bilər.

**Dinləmə** bacarığının qiymətləndirilməsi həm müşahidə, həm də iş vərəqləri – dinləmə mətni üzrə sual və tapşırıqlar əsasında aparılır. Bu zaman aşağıdakı meyarlardan istifadə etmək olar:

- Dinlədiyi mövzuya dair suallar verir.
- Dinlədiyi mətnlə bağlı faktoloji suallara cavab verir.
- Debat zamanı opponentini dinləyir və əks-arqumentlər hazırlayır.
- Müzakirə zamanı səhv hesab etdiyi fikrə qarşı tolerantlıq (dözümlülük) nümayiş etdirir.
- Dinlədiklərinə qarşı etika çərçivəsində reaksiya verir.
- Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını müəyyən edir.
- Dinlədiyi bədii mətnin ideya məzmununu müəyyən edir.
- Dinlədiklərində ilk dəfə eşitdiyi sözlərin mənasını təxmin edir.
- Mənasını bilmədiyi sözləri qeyd edir və aydınlaşdırmağa çalışır.

LAYİHƏ

- Dinlədiyi mətnin necə davam edəcəyini təxmin edir.
- Dinlədikləri ilə bağlı öz həyatından və ətrafda gördüklərindən nümunələr gətirir.

**Danışma** yeganə nitq bacarığıdır ki, yalnız müşahidə əsasında qiymətləndirilir. Bu zaman danışma bacarığı üzrə summativ qiymətləndirmə formativ qiymətləndirmələrin nəticəsi əsasında aparılır. Şifahi nitqi müşahidə yolu ilə aşağıdakı meyarlar vasitəsilə qiymətləndirmək olar:

- Aydın səslə, axıcı və səlis danışır.
- Danışarkən özünü sərbəst hiss edir.
- Nəzərlərini dinləyicilərdən qaçırmır.
- Sözləri düzgün tələffüz edir.
- Cümlələri düzgün və anlaşıqlı qurur.
- Müəyyən fikirlə bağlı öz mövqeyini əsaslandırır.
- Danışarkən mövzudan kənara çıxmır.
- Hadisələri ardıcıllıqla nəql edir.
- Nitq etiketlərindən yerli-yerində istifadə edir.
- Nitqində yeni öyrəndiyi söz və ifadələrdən istifadə edir.
- Hadisəni nəql edərkən obrazın xarakterinə uyğun danışır.
- Danışıq zamanı yersiz hərəkətlərə yol vermir.
- Təkrar olunan yersiz sözlərdən istifadə etmir.
- Nitqinin emosionallığını artırmaq üçün jest və mimikalardan istifadə edir.

Meyarları səviyyələr üzrə bölüb bu cür holistik qiymətləndirmə cədvəlləri hazırladıqdan sonra bütün nitq bacarıqları üzrə analitik qiymətləndirmə cədvəli də tərtib etmək olar.

**Oxu** üzrə qiymətləndirmə şagirdin intellektual bacarıqlarının ölçülməsində böyük əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, ifadəli oxu və oxuyub-qavrama bacarıqlarının qiymətləndirilməsi müxtəlif meyarlar və üsullarla həyata keçirilir.

*İfadəli oxu* (2.2.1) üzrə qiymətləndirmə müşahidə əsasında aparılır və bu zaman aşağıdakı meyarlardan istifadə etmək olar:

- Aydın səslə, axıcı və səlis oxuyur.
- Müəllif nitqindən obrazların nitqinə keçərkən səs tonunu dəyişir.
- Hər bir obrazın nitqini onun xarakterinə uyğun səsləndirir.
- Obrazların hiss və həyəcanını ifadə etmək üçün jest və mimikalardan istifadə edir.

*Oxuyub-qavrama* (2.2.2 – 2.2.5) yeni mətn əsasında qoyulmuş sual və tapşırıqlar üzrə qiymətləndirilir.

Şüurlu oxunun qiymətləndirilməsi zamanı mətnin çətinlik dərəcəsi (həcmi, yeni söz və ifadələrin sayı, bədii, yoxsa elmi olması) nəzərə alınmalı və qiymətləndirmə üçün ayrılmış müddət ona uyğunlaşdırılmalıdır.

MV-nin giriş hissəsində (səh. 10-12) oxu və söz ehtiyatı üzrə onlarla təlim nəticəsi təqdim olunmuşdur. Onlardan hər biri qiymətləndirmə zamanı meyar kimi qəbul oluna bilər. Müəllimlər qiymətləndirmə üçün yeni mətn və suallar tərtib edərkən hər bir sual və tapşırığın hansı meyara uyğun gəldiyini aydın təsəvvür etməli, qiymətləndirmə cədvəlində ona uyğun qeydlər aparmalıdırlar.

**Yazı** üzrə alt standartları və onlardan irəli gələn təlim məqsədlərini idraki səviyyələrə bölmək lazım gəlir:

I səviyyə – yazıda hüsnxət normalarına riayət etmək;
II səviyyə – orfoqrafik normalara uyğun yazmaq;
III səviyyə – bildiklərini yazıda ifadə etmək;
IV səviyyə – hiss və düşüncələrini yazıda ifadə etmək;
V səviyyə – özünün və başqasının yazısını dəyərləndirmək.

Lakin yazı bacarığının özünəməxsusluğu ondadır ki, burada "səviyyə" sözü bir qədər başqa



LAYİHƏ

anlamdadır. Şagirdin 4-cü səviyyəyə yetişməsi heç də onun 1-ci və ya 2-ci səviyyəyə nail olmasının göstəricisi deyil. Başqa sözlə, gözəl və maraqlı inşa yazan şagirdin xətti və orfoqrafiyası qüsurlu ola bilər. Deməli, yazı bacarığı üzrə yuxarıda qeyd etdiyimiz səviyyələr şaquli deyil, üfüqi səviyyələrdir, yəni avtonom bacarıqlardır. Odur ki bu yazı bacarıqlarının hər biri üzrə şaquli səviyyələri müəyyən etmək lazımdır. Digər tərəfdən IV səviyyəni yoxlamaq üçün istifadə olunan esse üsulu bütün səviyyələri yoxlamaq imkanı verir.

İmla yazılar 1-ci və 2-ci səviyyələri yoxlamaq və inkişaf etdirmək üçün ənənəvi fəaliyyət növüdür. İmlalar öyrədici və yoxlama xarakterli ola bilər. Formativ qiymətləndirmə zamanı imladan geniş istifadə etmək olar. Bu zaman yazı (3.1.1), oxu və dil qaydaları üzrə məzmun standartlarının inteqrasiyası məqsədəuyğundur.

*Sadə (orfoqrafik) imla*. İmlanın ən bəsit və yazı texnikası zəif olan şagirdlər üçün nəzərdə tutulmuş növüdür. Mətn səsləndirilərkən deyilişi və yazılışı fərqlənən sözlər əvvəlcə orfoepik, sonra isə orfoqrafik normalara uyğun tələffüz olunur. Durğu işarələrinin yeri bildirilir. Bu imla növünün məqsədi şüurda səslə hərfi eyniləşdirmək, hüsnxət normalarına uyğun yazmaq bacarıqlarını inkişaf etdirməkdir.

*Xəbərdarlıqlı imla***.** Müəllim əvvəlcədən imla mətninin yazılışında ehtimal olunan orfoqrafik səhvləri açıqlayır. Orfoqram (müəyyən sözlərdə fərqli tələffüz olunan hərf) aydın, ucadan tələffüz olunur, hecalarla, xüsusi vurğu altında deyilir. Bundan sonra imla orfoepik qaydalara uyğun səsləndirilir və şagirdlər tərəfindən yazılır.

*Vizual (görüntülü) imla.* Xarakterinə görə "Üzündən köçürmə" yazı fəaliyyətinə yaxındır. Əvvəl deyilişi və yazılışı fərqlənən sözlər lövhədə yazılır, orfoqram izah olunur. Sonra üstü örtülərək müəllimin orfoepik qaydalara uyğun diktəsi ilə mətn yazılır.

*İzahlı imla.* İmladan əvvəl ehtimal olunan səhvlərlə bağlı müvafiq orfoqrafik və qrammatik qaydalar təkrarlanır. Mətn əvvəl bütöv, sonra cümlə-cümlə oxunur. İmla yazıldıqdan sonra izah olunmuş qaydaların tətbiqi yoxlanılır və şagirdlərə "Bu söz necə tələffüz olunur? Bəs niyə belə yazdın? Burada hansı qayda özünü göstərir?" deyə suallar verilir.

*Lüğət üzrə imla (özünüqiymətləndirmə)***.** Mətn orfoepik qaydalara uyğun səsləndirilir. Sonra şagirdlərə vaxt verilir ki, düzgün yazılışında şübhələndikləri sözləri orfoqrafiya lüğəti ilə tutuşdursunlar və səhvlərini düzəltsinlər.

*Cütlərlə imla (bir-birini qiymətləndirmə)***.** İmla yazıldıqdan sonra yanaşı oturan şagirdlər bir-birinin yazısını oxuyur və səhvləri qeyd edirlər.

*Yaradıcı imla***.** Bu imlalar mətn üzərində çalışmalarla müşayiət olunur; məsələn, müəllim mətndəki cümlələrin ardıcıllığını pozmaqla diktə edir. Şagirdlər imlanı yazdıqdan sonra mətni ardıcıllıqla köçürürlər.

İfadə yazılar kiçik summativ qiymətləndirmələr üçün daha məqsədəuyğundur. Çünki bu üsul yazı bacarığı üzrə birinci üç səviyyəni (hüsnxət, orfoqrafiya, özünüifadə) qiymətləndirməyə imkan verir. Dinləmə bacarığı qiymətləndirildikdən sonra şagirdlər həmin mətn üzrə ifadə yazırlar. Beləliklə, bir mətn əsasında həm dinləmə, həm də yazı bacarıqları qiymətləndirilir.

**Dil qaydaları** üzrə kiçik summativ qiymətləndirmə testlər və açıq suallar əsasında aparılır. Bu zaman qaydalar üzrə biliklər deyil, qaydaların yazıda tətbiqi yoxlanılır.

**Sosial bacarıqların qiymətləndirilməsi**

Nitq bacarıqları ünsiyyət vasitəsi olaraq sosial bacarıqlardır. Bu baxımdan şagirdlərin cütlər və qruplarla iş zamanı, eləcə də müzakirələrdə və debatlarda fəallığı qiymətləndirmə obyekti olmalıdır. Aşağıda sosial bacarıqlarla bağlı qiymətləndirmə cədvəllərinin nümunələri verilmişdir.

LAYİHƏ

| Kiçik qruplarda iş zamanı qrup üzvünün qiymətləndirilməsi<br>Şagirdin adı, soyadı ___________________________ | | | |
|---|---|---|---|
| *Meyarlar* | *Bəli* | *Qismən* | *Xeyr* |
| Qrupun ümumi vəzifəsini dərk etməyə çalışır. | | | |
| Qrupda vəzifəsini aydınlaşdırır. | | | |
| Üzərinə düşən vəzifəni yerinə yetirməyə çalışır. | | | |
| Müzakirələrdə fəallıq göstərir. | | | |
| Qrup yoldaşlarına kömək etməyə çalışır. | | | |
| Danışanın sözünü kəsmir. | | | |
| Qrup yoldaşı səhv danışanda onu danlamır. | | | |
| Mənsub olduğu kollektivin qərarına hörmətlə yanaşır. | | | |
| Qrup liderinin göstərişlərinə sözsüz əməl edir. | | | |
| Kollektivdə qəbul olunmuş qaydalara riayət edir. | | | |
| Qrup halında çalışmalar zamanı fikirlərini başqaları ilə bölüşür. | | | |
| Razılaşmadığı fikirlərə çəkinmədən etiraz edir. | | | |

| Kiçik qruplarda iş zamanı qrup liderinin qiymətləndirilməsi<br>Şagirdin adı, soyadı ___________________________ | | | |
|---|---|---|---|
| *Meyarlar* | *Bəli* | *Qismən* | *Xeyr* |
| Qrupun fəaliyyətini düzgün yönəldə bilir. | | | |
| Yalnız özü danışmır, başqalarına da imkan yaradır. | | | |
| Qrup üzvlərini daim həvəsləndirir. | | | |
| Qrup üzvü səhv danışanda onu danlamır. | | | |
| Çətin anlarda məsuliyyəti öz üzərinə götürür. | | | |
| Müəyyən vəzifələr üçün qrup üzvlərini düzgün seçir. | | | |
| Kollektivdə qəbul olunmuş qaydalara riayət edir. | | | |
| Kollektivdə çoxluğun qərarına tabe olur. | | | |
| Qrup üzvlərinə hörmət, ədalət və qayğıkeşlik nümayiş etdirir. | | | |

**Özünüqiymətləndirmə**

Şagirdin müntəzəm olaraq özünü qiymətləndirməsi tədris prosesində maraqlı psixoloji məqamlardan biridir. Bu, şagirdin özünüidarə bacarığını inkişaf etdirir, öz zəif və üstün cəhətlərini daha dərindən duymağa imkan verir, müəllim qiymətləndirməsinə etibar yaradır və beləliklə, şagird nailiyyətlərinin monitorinqini daha da zənginləşdirir və tamamlayır. Belə bir qiymətləndirmə zamanı şagird müəyyən bacarıq üzrə hansı səviyyəyə çatdığını, bundan sonra nə etməli olduğunu dərk edir. Özünüqiymətləndirmə üçün xüsusi qiymətləndirmə materialı tələb olunmur.

LAYİHƏ

## OXU BACARIĞI ÜZRƏ
## ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ
(NÜMUNƏ)

Şagirdin adı, soyadı ________________________________________

*(müsbət cavabı sualın qarşısındakı xanada işarə et)*

Oxuyarkən fikrimi mətn üzərində cəmləyirəm. ☐
Səssiz oxu zamanı dodaqlarımı tərpətmirəm. ☐
Oxuyarkən barmağımla sətirləri izləmirəm. ☐
Oxuduqlarımı təsəvvürümdə canlandırıram. ☐
Xarakterin daxili aləmini anlayıram. ☐
Maraqlı fikirləri özüm üçün qeyd edirəm. ☐
Fikrim yayınarsa, həmin hissəni təkrar oxuyuram. ☐
Başa düşmədiyim sözləri araşdırıram. ☐
Oxuduqlarımı başqaları ilə bölüşürəm. ☐

Mətni oxuduğum zaman üzləşdiyim çətinliklər:

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Oxumaq bacarığımı artırmaq üçün nə etməliyəm?

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

**Şagirdlərin bir-birini qiymətləndirməsi**

Bu qiymətləndirmə üsulundan danışma, ifadəli oxu, məruzə, rollu oyun kimi fəaliyyət növlərinin qiymətləndirilməsində daha çox istifadə oluna bilər. Bunun üçün şagirdlər aşağıda nümunəsi verilmiş qiymətləndirmə cədvəlindən və ya üzərində 1-dən 5-ə kimi qiymət yazılmış vərəqlərdən istifadə edə bilərlər. Hər bir şagird müvafiq vərəqi yuxarı qaldırmaqla çıxış edən şagirdə öz qiymətini verir.

Bundan əlavə, şagirdlər bir-birinin imla, ifadə yazılarını və esselərini də qiymətləndirib öz münasibətlərini bildirsələr, maraqlı nəticələr əldə etmək olar.

Şagirdlərin bir-birini qiymətləndirməsi, sadəcə, qiymət qoymaqla bitməməlidir. Hər bir şagird qoyduğu qiyməti əsaslandırmalı, görülən işdə mənfi və müsbət cəhətləri sadalamağı bacarmalıdır. Beləliklə, şagirdlərdə analitik qiymətləndirmə bacarığını inkişaf etdirmək olar.

LAYİHƏ

**DANIŞMA BACARIĞI ÜZRƏ**
**BİR-BİRİNİ QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ**
(daha çox debat, məruzə, "Akvarium" üsulunun tətbiqi zamanı istifadə olunur)

| Qiymətləndirən şagirdin adı, soyadı ______<br>Spikerin adı, soyadı ______ | | | |
|---|---|---|---|
| *Meyarlar* | *Bəli* | *Qismən* | *Xeyr* |
| Aydın səslə danışırdı, mən onu rahat eşidirdim. | | | |
| Cümlələri anlaşıqlı idi, danışığını yaxşı başa düşürdüm. | | | |
| Sərbəst idi, bir neçə dəfə gözlərimə baxdı. | | | |
| Yeri gəldikdə mimika və jestlərdən istifadə edirdi. | | | |
| Lazımsız əl-qol hərəkətlərinə yol vermirdi. | | | |
| Hisslərini daha yaxşı anlatmaq üçün səs tonundan düzgün istifadə edirdi. | | | |
| Mövzudan kənara çıxmırdı. | | | |
| "Adı nədir...", "şey..." kimi yersiz sözlərə yol vermirdi. | | | |

Hər ayın sonunda müəllim bütün qiymətləndirmə materiallarını ümumiləşdirərək hər bir şagird haqqında belə bir qiymətləndirmə cədvəli hazırlaya bilər.

| NİTQ BACARIQLARININ ÜMUMİ QİYMƏTLƏNDİRİLMƏSİ<br>(ay ərzində müşahidələrin nəticəsinə əsasən doldurulur) | | | | | |
|---|---|---|---|---|---|
| Şagirdin adı, soyadı ______ | | | | | |
| Səviyyələr | Dinləmə | Danışma | Oxu | Yazı | Dil qaydaları |
| Yüksək səviyyədədir. | | | | | |
| İnkişaf edir. | | | | | |
| Aşağı səviyyədədir. | | | | | |
| Qeydlər: ______ | | | | | |

LAYİHƏ

bölmə **1** # AİLƏ VƏ MƏKTƏB

| Mövzu | | **Ailə və məktəb** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | Şəkil üzrə danışma, hadisələrin ardıcıllığı üzrə danışma, mətnin davamının təxmin edilməsi, şagirdlərin təqdimatı |
| | Söz ehtiyatı | Sözün izah edilməsi yollarının mənimsədilməsi, ümumi məna, izahlı lüğətlə tanışlıq, qohumluq bildirən sözlər və mətnlərdə rast gələnən yeni sözlərin mənimsədilməsi |
| | Oxu | • Kiçikhəcmli mətnlərin müvafiq səs tonu ilə oxunması |
| | Yazı | Açıqçanın yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Qalın və incə, dodaqlanan və dodaqlanmayan saitlər<br>• Ahəng qanunu |
| | Filoloji anlayışlar | Sözün izahı, əlamət və ümumi məna, izahlı lüğət, qalın və incə, dodaqlanan və dodaqlanmayan sait, ahəng qanunu, hekayə xəritəsi |
| Kompetensiyalar | | • Ailə üzvlərinə, qohumlarına və müəllimlərinə sevgi, hörmət<br>• Məktəbə maraq, sevgi |

*1-ci bölmənin tədrisi şagirdlərin məktəb mühitinə adaptasiya dövrünə təsadüf etdiyindən bu bölmədə təqdim olunan mövzular ailə və məktəblə bağlıdır.*

*Başlanğıc mərhələdə şagirdlərin nitqinin məzmunundan asılı olmayaraq təqdir olunması, ona müsbət reaksiya verilməsi onların tətil fasiləsindən sonra məktəb mühitinə adaptasiyasını sürətləndirə bilər.*

**Öncədən vacib olan bilik və bacarıqlar:**

– özü (ailə üzvləri, qohumları) haqqında rabitəli cümlələrlə danışır;

– sözləri hecalamadan, bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur;

– nəzm və nəsrlə yazılmış mətnin əsas struktur elementlərini (bənd, misra, abzas, başlıq və s.) tanıyır;

– mətnin məzmunu ilə bağlı əsas anlayışları (“zaman”, “məkan”, “obraz”, “baş qəhrəman”, “əsas hadisə”, “əsas fikir” və s. ) tanıyır;

– mövzu ilə bağlı sadə şifahi və yazılı təqdimat hazırlayır;

– sait və samit səsləri fərqləndirir.

**Diferensial təlim**

Bu bölmənin tədrisi zamanı mövzuların mənimsədilməsində şagirdlərin fəaliyyətinə fərdi diferensial yanaşma faydalı ola bilər. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

– sözlərin izah edilməsi;

– deyilişi və yazılışı fərqlənən bəzi sözlərin (usta, həftə, qəhrəman, həyəcan və s.) düzgün yazılışı;

– saitlərin növlərinin (qalın, incə) mənimsədilməsi.

Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**1-ci bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** izahlı lüğət, üzərində sözlərin izahı yazılmış kartlar və s.

LAYİHƏ

fəsil 1 YAY TƏTİLİ

## 1-ci dərs. Yay tətili təəssüratları

• Dərslik: səh. 7-8 • İş dəftəri: səh. 2

**Təlim məqsədləri**

• Vəziyyətə uyğun olaraq ünsiyyət formalarını dəyişir (fikir bildirir, başqalarına qulaq asır, sual verir, sualı cavablandırır) (st. 1.2.3).
• Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir (st. 1.2.1).
• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Fənn üzrə tədris resursları ilə tanışlıq |
| 2 | **Danışma** | Tətil təəssüratları, süjetli şəkil kompozisiyası üzrə mətnqurma |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər tədris ilində istifadə edəcəkləri yeni resurslarla tanış olurlar. Müəllim sual verir:

– *Hansı mövzular, bölmələr sizi daha çox maraqlandırır?* Şagirdlər dərsliyin məzmunu ilə bağlı ilkin təəssüratlarını danışırlar.

### Danışma

1.2.3 **Tapşırıq A (dərslik).** Danışma fəaliyyəti I bölmənin titul səhifəsində verilmiş şəkil və suallar əsasında yerinə yetirilir. Şagirdlər şəkildəki sözləri oxuyur və tapşırıqda verilmiş suallar əsasında qohumları haqqında danışırlar.

**Müəllimin nəzərinə!** Bölmənin ikinci fəsli qohumluq bildirən sözlərin mənimsədilməsinə həsr olunduğu üçün bu dərsdə qohumlar mövzusunun yay tətili ilə əlaqəli şəkildə müzakirəsinə çalışmaq lazımdır.

Müəllim şagirdlərə danışma üzrə bir neçə qaydanı xatırladır (təlimatları əmr şəklində ifadə etmək tövsiyə olunmur):

– *dərsdə söylənilən fikirlərə və suallara diqqətlə qulaq asmalıyıq. Çünki dinlədikdən sonra bu suallarla bağlı öz fikrimizi bildirməliyik;*

– *danışmaq istəyərkən gözləmək lazımdır ki, müəllim və ya yoldaşınız fikrini bitirsin* və s.

Yaxşı olardı ki, müəllim danışma üzrə vacib hesab etdiyi qaydanı xüsusi vurğulasın. Məsələn, onu "Qızıl qayda" adlandırsın. Bu, şagirdləri həmin qaydaya həmişə riayət etməyə sövq edə bilər.

1.2.1 **Tapşırıq B (dərslik). Auksion.** Müəllim şagirdlərin rabitəli mətn qurması üçün hazırlıq məqsədilə auksion keçirə bilər. Auksionun bir neçə mərhələdə keçirilməsi tövsiyə olunur:

1. Müəllim şagirdlərin diqqətini illüstrasiyaya yönəldir, şəkillərə aid açar sözləri oxumağı və əlavə sözlər söyləməyi tapşırır. Şagirdlər sözlər dedikcə müəllim həmin sözləri lövhədə yazır.

Şagirdlərə xatırlatmaq lazımdır ki, oyun zamanı təkrar söz söyləmək olmaz. Sonuncu sözü deyən şagird qalib elan olunur. Tapşırığın bu üsulla yerinə yetirilməsi şagirdlərin söz ehtiyatının möhkəmləndirilməsinə, həmçinin diqqətin inkişafına kömək edir.

2. Müəllim şəkillərə aid cümlələr söyləməyi tapşırır. Şəklə aid sonuncu cümlə söyləyən şagird qalib elan olunur. Şəkillərə aid cümlələrin söylənilməsi növbəti mərhələdə rabitəli mətn qurmağa kömək edir.

3. Müəllim sonda şagirdlərə süjetli kompozisiya üzrə mətn qurub danışmağı tapşırır. Onlara xüsusi göstərişlər də verə bilər:

*1. Əvvəlcə zaman və məkanla bağlı danışın.*

*2. Sonra obrazları sadalayın. Əsas obrazlara ad verə bilərsiniz.*

*3. Sonra əsas hadisəni danışın.*

*4. Sonda hadisələrin davamını düşündüyünüz kimi davam etdirin.*

Əlavə suallar vasitəsilə mövzu şagirdlərin həyatı ilə əlaqələndirilir:

– *Piknikə getmisinizmi? Haralarda olmusunuz? Maraqlı hadisələr baş veribmi?*

**Müəllimin nəzərinə!** Bu dərsdə bütün şagirdlərin yay tətili təəssüratları haqda danışmalarına vaxt ayrılmalıdır. Müəllim çalışmalıdır ki, hər bir şagird özü haqda danışmağa cəhd etsin. Bu onların tətildən sonra dərs mühitinə adaptasiyasına kömək edə bilər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq C (dərslik).** Bu fəsildə sözün izahı ilə bağlı bilik və bacarıqlar mənimsədilir. "C" tapşırığında şagirdlərin maraq dairəsinə uyğun sözlər seçilmişdir. Bu əşyaların adlarının öyrənilməsi və istifadə edilməsi şagirdlərin söz ehtiyatının düzgün istiqamətdə inkişafına kömək edir. Müəllim şagirdlərin diqqətinə tapşırıqda verilən bəzi varlıqların adlarını (dondurma, çətir, gözlük, səndəl) xüsusilə çatdırmalıdır. Bununla şagirdlərin nitqinin təmizliyi qorunur, dil daşıyıcılarının varvarizmlərdən yersiz istifadəsinin qarşısı alınır.

LAYİHƏ

**Cütlərlə iş.** Tapşırıq ümumi siniflə şifahi olaraq yerinə yetiriləndən sonra cütlər “Söz boğçası”ndakı sözləri oxuyaraq uyğun sözlə birləşdirirlər; məsələn: balıqqulağı – 5, çətir – 3 və s.

**Tapşırıq A, B (iş dəftəri).** Bu tapşırıqlar şagirdlərin söz ehtiyatını möhkəmləndirməyə xidmət edir.

**Müəllimin nəzərinə!** Şagirdlərin söz ehtiyatı nəzarətdə saxlanılmalıdır. Yeni sözlər “Söz boğçası”nda toplanmalı və növbəti dərslərdə həmin sözlər üzrə iş aparılmalıdır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Vəziyyətə uyğun olaraq ünsiyyət formalarını dəyişir (fikir bildirir, başqalarına qulaq asır, sual verir, sualı cavablandırır). | Tap. A (dərslik) |
| Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir. | Tap. B (dərslik) |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Şəkildəki varlıqların adlarını tanıyır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə dərsliyin 8-ci səhifəsində verilmiş sözlərə dair kartlarda izahlar yazması tövsiyə olunur.

## 2-ci dərs. Sözün mənası

• Dərslik: səh. 9-10 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**

• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).
• Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir (st. 2.1.1).
• Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır (st. 2.1.2).

• **Köməkçi vasitələr (təchizat):** üzərində izahlar yazılmış rəngli kağızlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İzah yazılmış kağızların və əşyaların nümayişi |
| 2 | **Oxu. Söz ehtiyatı** | İzahların oxunması, varlığın əlamətlərini sadalamaqla sözlərin izah olunması, tapmacalar üzrə iş |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim hazırladığı izahlar yazılmış kağızları bir-bir nümayiş etdirir və soruşur:

*– Sizcə, bu kağızda hansı əşya barədə yazılıb?*

*Müəllim sinifdə müxtəlif əşyalar nümayiş etdirərək şagirdlərin iştirakı ilə həmin əşyaların əlamətlərini sadalaya bilər.*

### Oxu. Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik). Cütlərlə oxu.** Cütlər verilmiş cümlələri birlikdə oxuyub müzakirə edirlər. Bu üsul şagirdlərin əməkdaşlıq şəraitində analiz etmək bacarıqlarını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Cümlələrin aid olduğu sözləri cütlərin yazılı şəkildə təqdim etməsi tövsiyə olunur. Bu, müəllimin cütləri qiymətləndirmə işini asanlaşdıra bilər.

**“Faydalı məsləhət” rubrikası.** Rubrikada verilmiş tövsiyələr şagidlərin bildiyi sözlərin leksik mənasını izah etmək bacarığının formalaşdırılmasına yönəlmişdir. Sözü lüğətdə göstərildiyi kimi (feili tərkiblərinin köməyi ilə adlıq cümlə şəklində) izah etmək mürəkkəb idraki prosesdir. Ona görə də 2-ci siniflərin yaş səviyyəsinə uyğun olaraq sözü izah etmək bacarığı mərhələli olaraq mənimsədilir.

Şagirdlər artıq 1-ci sinifdə sözün leksik mənasını bir neçə yolla izah etməyi mənimsəmişlər:

• İzahı tələb olunan sözə:
– yaxınmənalı söz seçməklə: qaçmaq – yüyürmək;
– əksmənalı söz seçməklə: gözəl – çirkin olmayan.

Dilin lüğət tərkibində çoxlu sayda konkret isimlər var ki, onların izahını ifadə etdikləri varlıqların əlamətlərini sadalamaqla izah etmək mümkündür.

**Müəllimin nəzərinə!** Rubrikada “əlamət” sözü geniş mənada işlənmişdir və təkcə əlamət bildirən sözlər (sifət) nəzərdə tutulmur. Bu, şagirdlərdə çaşqınlıq yarada bilər. Bu zaman müəllim izah etməlidir ki, varlığın əlamətini izah edərkən əlamət bildirən sözlərin iştirak etməsi vacib deyil; məsələn, “A” tapşırığında “yelpik” haqqında belə bir əlamət verilir: *Əllə yellətdikdə külək yaradır* və s.

2.1.1 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda şagirdlərdən əlamət bildirən sözlərin köməyi ilə sözləri izah etmək tələb olunur. Şagirdlər əvvəlcə anlayışa uyğun gələn əlamət bildirən sözləri seçir, sonra həmin sözlərin iştirakı ilə cümlə qurub anlayışı izah edirlər.

2.1.2 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq modeli oxuyub-qavrama bacarığını və məntiqi təfəkkürü inkişaf etdirmək üçün effektiv üsullardan biridir. Şagirdlər natamam cümlədəki açar sözlərə



LAYİHƏ

(əlamətlərə) diqqət edir, sözlər arasında məntiqi əlaqə qurmaqla cümləni tamamlayırlar.

2.1.1 **Tapşırıq C (dərslik).** Şagirdlər 1-ci sinifdə mövzularla bağlı əyləncəli oxu materialı kimi təqdim olunmuş tapmacalarla tanışdırlar. Bu dərsdə isə tapmacanın mahiyyətinin açılması və sözün izahı ilə əlaqəli şəkildə mənimsədilməsi qarşıya məqsəd kimi qoyulmuşdur.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrika vasitəsilə şagirdlərə tapmacanın mahiyyətini izah edir.

**Tapşırıq B, C (iş dəftəri).** Tapşırıqlar məntiqi təfəkkürün inkişafına və varlığın xüsusiyyətlərini tanıma, izahetmə bacarıqlarının inkişafına yönəlmişdir. "C" tapşırığında tapmacada verilən üstüörtülü əlamətlər izahedici cümlələr şəklində ifadə olunmuşdur. Şagirdlər tapmacanın misralarından çıxan nəticəyə uyğun cümlələri seçməklə məntiqi təfəkkürlərini inkişaf etdirirlər.

Tapmacaların cavabları: *alçak, üzüm.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tap. A, B, Ç, D (dərslik) |
| Varlığın əlamətlərini sadalamaqla sözü izah edir. | Tap. C (dərslik)<br>Tap. A, B, C (iş dəftəri) |
| Cümlədəki sözlər arasında məntiqi əlaqə qurmaqla cümləni tamamlayır. | Tap. A (iş dəftəri) |

## 3-cü dərs. "Sevimli güllər" (I hissə)

• Dərslik: səh. 10-11 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

• Səs tonunu mətnin məzmununa uyğun tənzimləyir (st. 2.2.1).
• Mətndəki problemin həllini öz həyat təcrübəsində seçdiyi həll yolu ilə əlaqələndirir (2.2.4).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir (2.2.5).
• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).
• Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir (st. 2.1.1).
• Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir (st. 2.1.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar üzrə müzakirə |
| 2 | **Oxu** | "Sevimli güllər" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazların davranışlarına münasibət |
| 4 | **Söz ehtiyatı** | Varlığın əlamətləri, yaxınmənalı sözlər |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim suallar verir:

*– Dostlarınız sizə gəlirmi və ya siz dostunuzgilə gedirsinizmi? Birlikdə nə edirsiniz? Hansı oyunlar oynayırsınız?*

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər mətnin adını və mətnə aid şəkillərə baxaraq mətnin məzmununu təxmin edib söyləyirlər.

**Xəyalında canlandırma.** Mətn 1-ci şəxsin dilindən söylənildiyi üçün oxu prosesində mətnin məzmununa uyğun səs tonu və səs çalarlarından, həmçinin müvafiq jest və mimikalardan düzgün istifadə edilməsi məqsədəuyğundur. Buna görə də mətnin əvvəlcə müəllim tərəfindən məqsədəuyğun qaydada oxunması tövsiyə olunur. Müəllim mətni oxumazdan öncə şagirdlərə mətn oxunduqca hadisələri göz önünə gətirmələrini və əhvalatı kimin söylədiyini tapmağı tapşırır.

Müəllim mətni oxuduqdan sonra soruşur:

*– Əhvalatı kim danışır?*

Şagirdlər Teymurun nitqinə əsasən əhvalatı söyləyənin adının Nihad olduğunu müəyyən edirlər (*– Nihad, mən daha gedim, evdə narahat olarlar*).

Sonra müəllim "Söz boğçası" üzrə iş aparır. Əvvəlcə sözlərin mənası üzrə şagirdlərin təxmini fikirlərini soruşur, sonra yaxınmənalı sözlərin köməyi ilə sözlərin izahını dəqiqləşdirir.

Daha sonra şagirdlər özlərini Nihadın yerində təsəvvür etməklə mətni müəllimin oxuduğu qaydada oxuyurlar. Dinləmə zamanı şagirdlərin hadisələri göz önünə gətirmələri və tanış olmayan sözlərin əvvəlcədən izah edilməsi şagirdlərin oxu prosesində obrazların keçirdiyi hiss-həyəcanı səs tonunda və üz cizgilərində ifadə etməsinə kömək göstərir.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin qarşıya çıxan problemi həll etmək üsullarını düşünmək kimi vacib həyati bacarığı inkişaf etdirir. Tapşırıqdakı sual ətrafında müəllimə bütün şagird-



LAYİHƏ

lərin fikirlərini soruşmaq tövsiyə edilir. Bir çox şagirdlər, çox güman ki, mətndə danışılan əhvalata bənzər hadisə ilə üzləşib. Ona görə də müəllimin yönəldici sualları ilə şagirdlər öz həyatlarından nümunələr gətirməklə problemin həlli yollarını təklif edirlər. Bu tapşırıq həmçinin mətnin ikinci hissəsini oxumağa maraq oyadır.

2.2.3 **Tapşırıq C (dərslik).** Müəllim şagirdlərin oxuyub-qavradığını yoxlamaq üçün onların diqqətini mətnə aid olan ikinci illüstrasiyaya yönəldir və soruşur:

*– Şəkildəki obraz kimdir? Teymurdur, yoxsa Nihad?*

**Müəllimin nəzərinə!** Bütün şagirdlərin cavabını effektiv yoxlamaq üçün "Nihad" deyənlər əlini qaldırsın" kimi üsullardan istifadə edə bilər.

Sonra şagirdlər şəkli təsvir edərək mətndən uyğun hissəni tapıb yenidən oxuyurlar.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Tapşırıq vasitəsilə şagirdlər obrazları təhlil edir, onların hərəkətlərinə münasibət bildirirlər. Müəllim çalışmalıdır ki, şagirdlər obrazlara münasibət bildirərkən fikirlərini əsaslandırsınlar. Obrazların hərəkətlərini təhlil etməklə düzgün nəticənin çıxarılması şagirdlərdə bir sıra əxlaqi dəyərlərin formalaşmasına müsbət təsir göstərir.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırığın əsas məqsədi şagirdlərdə hadisələr arasında səbəb və nəticə əlaqəsini müəyyən etmək bacarığını inkişaf etdirməkdir.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq D (dərslik).** Şagirdlər tapmacaları bir-bir oxuyur, müəllim tapmacalarda şagirdlərə tanış olmayan söz və ifadələri (*darı, bar, mat qoymaq*) izah edir. Sonra şagirdlər tapmacalardakı əlamətlərə uyğun gələn sözləri (*buğda, qızılgül*) müəyyən edirlər. İkinci tapmacanı mətnlə əlaqələndirirlər.

2.1.1 Müəllim şagirdlərə tapmacalardakı əlamətlərdən istifadə etməklə buğda və qızılgülün əlamətlərini sadalamağı tapşırır; məsələn:

*Buğda – balaca, sarı olur, darıya bənzəyir, ondan çörək hazırlanır, zəmilərdə yetişir.*

*Qızılgül – ətirlidir, çox gözəl olur, tikanlıdır.*

Bu fəaliyyət şagirdlərə iş dəftərindəki "B" tapşırığını müstəqil yerinə yetirmələrinə kömək edir.

**Tapşırıq C (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərdə sözləri izah etmək bacarığını inkişaf etdirməkdir.

**Diferensial təlim**

Müəllim çətinlik çəkən şagirdlərə yönəldici suallar verməklə kömək edə bilər; məsələn:

*– Şahmatı neçə nəfər oynayır? Şahmat taxtasında hansı rənglər var? Hansı fiqurlar var? Xalça nə məqsədlə istifadə olunur? Onu nədən hazırlayırlar?*

2.1.3 **Tapşırıq E (dərslik).** Şagirdlərin diqqəti mətndə fərqləndirilmiş sözlərin iştirak etdiyi cümlələrə yönəldilir. Şagirdlər həmin sözləri yaxınmənalı qarşılığı ilə əvəz edib cümlələri köçürməlidirlər. Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə, eləcə də yazı bacarığının inkişafına yönəlmişdir.

**Tapşırıq B (iş dəftəri).** Yeni öyrədilən sözlər üzrə möhkəmləndirmə məqsədi daşıyır.

**Müəllimin nəzərinə!** Yaxınmənalı sözləri bilməyin əhəmiyyəti vurğulanmalı və şagirdlərin diqqətinə çatdırılmalıdır:

*– Dilimizdə elə sözlər var ki, onları izah etmək üçün həmin sözlə yaxınmənalı olan sözlərdən istifadə etməliyik; məsələn: çilik-çilik – qırıq-qırıq, sınıq-sınıq* və s.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Səs tonunu mətnin məzmununa uyğun tənzimləyir. | Tap. A (dərslik) |
| Problemin həlli yolunu göstərir. | Tap. B (dərslik) |
| Obrazlara münasibət bildirir. | Tap. Ç (dərslik) |
| Varlığın əlamətlərini sadalayır. | Tap. D (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Yaxınmənalı sözləri müəyyən edir. | Tap. D (dərslik)<br>Tap. B (iş dəftəri) |

## 4-cü dərs. "Sevimli güllər" (II hissə)

• Dərslik: səh. 12-13 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**

•Səs tonunu mətnin məzmununa uyğun tənzimləyir (st. 2.2.1).
•Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
• Mətni tərtib etdiyi plan əsasında nəql edir (st. 2.2.3).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 2.2.3).
• Verilmiş plan əsasında mətni genişləndirir (st. 1.2.2)
• Mətni obrazlardan birinin dilindən nəql edir (st. 2.2.3).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Sevimli güllər” mətninin 1 -ci hissəsi üzrə sual-cavab |
| 2 | **Oxu** | “Sevimli güllər” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin planı üzrə iş, hekayə xəritəsinin tərtibi |
| 4 | **Danışma** | Mətni genişləndirib danışma |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim mətnin birinci hissəsi ilə bağlı sual-cavab edir. Mətnin ikinci hissəsi ilə bağlı şagirdlərin təxminlərini soruşur.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Mətnin 1-ci hissəsinin oxu üsulundan istifadə edilməklə mətnin davamı oxunur. Şagirdlər öz təxminlərini Nihadın problemi həll etdiyi üsulla müqayisə edirlər. Müəllim mətnlə bağlı faktoloji suallar verir:

*– Nihad anasını necə qarşıladı? Nihad niyə anasına Teymurla bağlı heç nə demədi? Sizcə, ana nə üçün Nihaddan əsl gülləri soruşmadı?*

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər “Sevimli güllər” mətninin 1-ci və 2-ci hissələrində baş verən əsas hadisələrin ardıcıllığını müəyyən etməklə mətn üzrə ümumiləşdirmə aparırlar.

2.2.3 **Tapşırıq B (dərslik).** Tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərə yönəldici suallar verir və  şagirdlərin cavabları əsasında lövhədə mətn üzrə plan tərtib edir:

1. Teymurun Nihadgilə gəlməsi
2. Teymurla Nihadın güləşməsi
3. Güldanın sınması
4. Teymurun getməsi
5. Nihadın evi təmizləməsi
6. Nihadın anasını qarşılaması
7. Ananın qızılgül rəsmini bəyənməsi
8. Teymurun və anasının Nihadgilə gəlişi

Şagirdlər lövhədəki ardıcıllıqla mətni nəql edirlər.

2.2.3, 2.2.5 **"Bunları bilməliyik" rubrikası.** 1-ci sinifdə şagirdlər oxuduqları mətnlə bağlı hekayə xəritəsinin sadə nümunələri üzərində işləmişlər. Bu dərsdə isə şagirdlər “hekayə xəritəsi” anlayışı, onun mahiyyəti və bu çalışma modelinin əhəmiyyəti ilə bağlı informasiya alırlar.

Şagirdlərin diqqəti rubrikaya yönəldilir və hekayə xəritəsinin ünsürləri bir-bir izah edilir.

Yaxşı olardı ki, müəllim rubrikada verilmiş hekayə xəritəsi nümunəsini A4 kağızda yazsın və bu nümunə üzərində şagirdlərə əyani şəkildə izah etsin. Eyni zamanda 1-ci sinifdə iş dəftərlərində verilən nümunələri də xatırlatmaq olar.

**Müəllimin nəzərinə!** Dərslikdə hekayə xəritəsinin ən çox istifadə olunan növünə aid nümunə verilmişdir. Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, elə mətnlər var ki, onlara aid hekayə xəritəsi qurulan zaman nümunədə göstərilən ünsürlərdən biri və ya bir neçəsi olmaya bilər.

**Tapşırıq B (iş dəftəri).** Öyrədilən yeni anlayışlar üzrə möhkəmləndirmə məqsədi daşıyır.

**Tapşırıq C (dərslik). Qruplarla iş.** Qruplar A4 kağızlarda müəllimin nümayiş etdirdiyi qaydada mətn üzrə hekayə xəritəsi tərtib edirlər. Şagirdlər hər bir anlayışla bağlı mətndən faktlar gətirməklə müzakirə edir, hekayə xəritəsində uyğun qeydlər aparırlar.

Hekayə xəritəsi tərtib edərkən şagirdlərə mətnin qısa məzmununu yazmaq çətin olarsa, müəllim onları iş dəftərindəki “A” tapşırığına və lövhədə yazılan mətnin planına yönəldə bilər.

Mətndəki hadisələr macəra xarakterli olduğundan mətnin ideyasını (əsas fikrini) müəyyənləşdirmək bir qədər çətindir. Buna baxmayaraq mətndən bir neçə əxlaqi dəyər (*sədaqətli olmaq, məsuliyyətli davranmaq, anaya hörmət etmək, səhvini anlamaq* və s.) çıxarıla bilər. Şagirdlər qruplarda bu barədə müzakirə aparmaqla yekun qərara gəlirlər. Sonda qrupların təqdimatları dinlənilir.

### Danışma

1.2.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş yönəldici sualları cavablandırmaqla hadisələri təxəyyüllərinə uyğun davam etdirirlər.

2.2.3 **Tapşırıq C (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırığın əsas məqsədi şagirdlərin yaradıcı təfəkkürünün və nəqletmə bacarığının inkişaf etdirilməsidir. Tapşırıq öncə müəllimin köməyi ilə bütün siniflə şifahi yerinə yetirilir. Şagirdlər mətndəki hadisələri Nihadın deyil, Teymurun dilindən nəql edirlər; məsələn:

*– Bir gün mən Nihadgilə getmişdim. Nihadın anası evdə yox idi. Biz onunla xeyli oynadıq. Nihadla güləşəndə stola dəydik* və s.

Şagirdlər tapşırığı müstəqil şəkildə yerinə yetirməklə yaradıcılıq qabiliyyətlərini nümayiş etdirirlər.

**Diferensial təlim.** Tapşırığın yerinə yetirilməsində çətinlik çəkən şagirdlərə belə tapşırıq verilə bilər:

*– Mətndə ən çox hansı hissə xoşuna gəldi? Həmin hissəni öz sözlərinlə yaz.*

LAYİHƏ

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Səs tonunu mətnin məzmununa uyğun tənzimləyir. | Tap. A (dərslik) |
| Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir. | Tap. A (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Mətni tərtib etdiyi plan əsasında nəql edir. | Tap. B (dərslik) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Verilmiş plan əsasında mətni genişləndirir. | Tap. Ç (dərslik) |
| Mətndəki hadisəni köməkçi obrazın dilindən yazır. | Tap. C (iş dəftəri) |

## 5-ci dərs. Sözün ümumi mənası

• Dərslik: səh. 13-14 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**

• Verilmiş sözlərin ümumi anlayışla bağlılığını izah edir (st. 2.1.1).
• Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir (st. 2.1.1).
• Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır (st. 2.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Əşyaları qruplaşdırmaq üzrə iş |
| 2 | **Söz ehtiyatı** | Sözün izahı, ümumi məna |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim partanın üstünə bir neçə məktəb əşyası (dəftər, qələm və s.) və tamamilə fərqli bir əşya (məs., fincan və ya alma) düzür və şagirdlərdən soruşur:

*– Bu əşyalardan hansı digərlərindən fərqlidir? Seçiminizi izah edin.*

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərdə sözlərin ümumi məna altında birləşməsi üzrə ilkin təsəvvür yaradılır. Şagirdlər verilmiş sözlər arasındakı ümumi məna əlaqəsini müəyyənləşdirməklə həmin söz sırasını davam etdirməlidirlər. Müəllim çalışmalıdır ki, şagirdlər sözlər arasında yaranan assosiasiyanı izah edə bilsin, seçdiyi varlıqla bağlı fikrini əsaslandırsın.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərin diqqətini rubrikaya yönəldir. Sözün ümumi mənasını rubrika üzərində izah edir. Sxemləri şagirdlərə aydınlaşdırır.

**Tapşırıq B (dərslik). Qruplarla iş.** Şagirdlər 1-ci sinifdə əldə etdikləri söz ehtiyatına əsasən tapşırığı yerinə yetirirlər. Qrupların təqdimatları dinlənilir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş əlamətlərin aid olduğu anlayışları müəyyən edib uyğun dairəyə yazdıqdan sonra müəllim şagirdlərə sxem vasitəsilə sözü izah etmək üsulunu başa salır. Nümunə əsasında şagirdlər digər sözləri də izah edirlər; məsələn:

*– Limon sarı, turş, sulu meyvədir.*

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər sözlərin aid olduğu ümumi mənanı müəyyənləşdirməklə söz ehtiyatlarında olan sözləri ümumi məna üzrə qruplaşdırmağı öyrənirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər şəkli verilmiş varlıqların əlamətləri haqqında danışır, sözlərin bildirdiyi ümumi mənanı söyləyirlər (heyvan, meyvə, tərəvəz, nəqliyyat vasitəsi və musiqi aləti).

2.1.1 **Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Bu tapşırıq vasitəsilə şagirdlərin sözün izahı ilə bağlı öyrəndikləri bilikləri ümumiləşdirilir. Cütlər müzakirə edərək izahlara uyğun gələn sözləri müəyyən etməklə yanaşı, sözün izah edilməsi modelindəki hissələri də (əlamət və ümumi məna) aydınlaşdırırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş sözlərin umumi anlayışla bağlılığını izah edir. | Tap. A,B (dərslik) |
| Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir. | Tap. C, Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.**
1. Növbəti dərsdə şagirdlərin izahlı lüğətlə tanış olmaları üçün dərsə izahlı lüğətin gətirilməsi tövsiyə olunur.
2. Şagirdlərə evdə əlifbanı təkrar etməyi tapşırmaq lazımdır.

LAYİHƏ

## 6-cı dərs. İzahlı lüğətlə tanışlıq

• Dərslik: səh. 14-15  • İş dəftəri: səh. 7

| Təlim məqsədləri |
|---|
| • Verilmiş sözlərə xas olan ümumi məna və ya əlaməti müəyyənləşdirir (st. 2.1.1).<br>• Əlifba sırasından istifadə etməklə izahlı lüğətdən lazım olan sözü tapır (st. 4.1.4).<br>• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).<br>• Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir (st. 2.1.1). |

• **Köməkçi vasitələr (təchizat):** izahlı lüğət
• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Əlifbanın xatırlanması |
| 2 | **Dil qaydaları** | Sözlərin əlifba sırası ilə düzülüşü |
| 3 | **Söz ehtiyatı** | İzahlı lüğət üzrə iş, izahlı lüğətin tərtibi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə hərfləri əlifba sırası ilə yazır. Hərflərdən bəzilərinin yerini boş buraxır. Şagirdlərə əlifba sırasını tamamlamağı tapşırır.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini şəkillərə yönəldərək onlara şəkildəki əşyaların ifadə etdiyi sözlərin ümumi mənasını müəyyən etməyi tapşırır. Şagirdlər varlıqları “Ev əşyaları” adı altında ümumiləşdirirlər.

**Cütlərlə iş.** Cütlər əşya adlarını əlifba sırası ilə düzürlər.

Sözlərin əlifba sırası ilə düzülüşü: *çarpayı, divan, kreslo, soyuducu, tozsoran, ütü.*

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırığın əsas məqsədi şagirdlərin əlifba sırası üzrə biliklərinin yoxlanılmasıdır.

4.1.4 **“Bunları bilməliyik” rubrikası.** Müəllim gətirdiyi izahlı lüğəti nümayiş etdirir və rubrikada təqdim olunmuş məlumatları söyləyir. Sonra şagirdlərin izahlı lüğətdən öyrənmək istədikləri bir neçə sözün mənasını izahlı lüğətdən taparaq oxuyur.

**Tapşırıq B (dərslik). Cütlərlə iş.** Cütlər izahlı lüğət nümunəsini nəzərdən keçirir. Lüğətin quruluşunu müzakirə edirlər.

Müəllim yönəldici suallar vasitəsilə şagirdlərin lüğətin quruluşu haqqında danışmasına nail olur.

Yönəldici suallar: *Bu lüğət nümunəsində hansı hərflərlə başlayan sözlər var? Nə üçün lüğətdə “balta” sözü “albalı” sözündən sonra yerləşib? Sizcə, lüğətdə şəkillər nə üçün verilir?*

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin bu fəsildə öyrəndikləri biliklərin möhkəmləndirilməsinə yönəlmişdir.

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər 1-ci sinifdə əldə etdikləri söz ehtiyatına əsasən əvvəlcə söz və izahları uyğunlaşdırır, sonra isə sözləri əlifba sırası ilə düzməklə lüğətin quruluşu üzrə biliklərini tətbiq edirlər.

2.1.1 **Tapşırıq Ç (dərslik). Yazı ilə inteqrasiya.** Tapşırığın əsas məqsədi şagirdlərin fəsil üzrə biliklərinin ümumiləşdirilməsidir. Şagirdlər bu fəsildə sözün izah edilməsi üçün ən geniş istifadə olunan üsulla tanış olublar. Tapşırıqda təqdim olunmuş sözlər də ifadə etdiyi varlığın əlamətlərini və istifadə məqsədini söyləməklə asan izah olunan sözlərdir. Buna baxmayaraq bu tapşırığın yerinə yetirilməsində müəllimin rolu və köməyi mühümdür.

**Qruplarla iş.** Qruplar onlara verilmiş sözlərin izahını müzakirə edir, hər bir sözün izahını bir kağızda (bir söz bir kağızda) yazırlar.

Qrupların təqdimatları dinlənilir. Sonda müəllim bütün sözlərin yazıldığı kağızları toplayır. İzahı yazılmış sözlər müəllimin köməyi ilə şagirdlər tərəfindən lövhədə əlifba sırası üzrə düzülür.

**Diferensial təlim**
Sözün izahını verməkdə çətinlik çəkən qruplar izahlı lüğətdən istifadə edə bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş sözlərə xas olan ümumi məna və ya əlaməti müəyyənləşdirir. | Tap. A (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Əlifba sırasından istifadə etməklə izahlı lüğətdən lazım olan sözü tapır. | Tap. A, C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir. | Tap. Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə qohumlarından biri və bir neçəsinin (əmi, dayı, xala, bibi, əmioğlu, dayıqızı və s.) şəklini gətirməyi tapşırmaq lazımdır.

LAYİHƏ

fəsil 2 QOHUMLAR

## 1-ci dərs. Qohumluq bildirən sözlər

• Dərslik: səh. 16 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**
• Verilmiş sözlərə xas olan ümumi mənа və ya əlaməti müəyyənləşdirir (st. 2.1.1).
• Dinləyicilərin başa düşəcəyi tərzdə oxuyur (st. 2.2.1).
• Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir (st. 1.2.1).
• Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır (st. 2.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Anlayışın çıxarılması |
| 2 | **Oxu** | "Mənim atam" şeirinin oxusu |
| 3 | **Danışma** | Qohumluq əlaqələrini göstərən sxemin izah olunması |
| 4 | **Söz ehtiyatı** | Qohumluq bildirən sözlərin mənimsədilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini bölmənin titul səhifəsinə yönəldir və soruşur.

*– Sizcə, nə üçün ailə və qohumlar birlikdə ağaca bənzədilir?*

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərin sözlərin ümumi mənası üzrə biliklərini möhkəmləndirməkdir. Şagirdlər bu tapşırıqla həm də fəslin mövzusunu müəyyən edirlər.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər "Mənim atam" şeirini oxuyurlar. Şeirdən aydın olur ki, bir adam digər qohumları üçün müxtəlif qohumluq münasibətində olur və müxtəlif adlarla (qardaş, dayı, əmi və s.) adlandırılır. Şagirdlər oxudan sonra müəllimin yönəldici sualları vasitəsilə şəkli təsvir edirlər:

*– Şəkildə kimlər təsvir edilmişdir? (qohumlar). Şeiri söyləyənin atası şəkildə kimdir? Onlar nə oynayırlar? Nənənin, babanın ətrafındakılar kimlər ola bilər? Onlar nə edirlər? Sizin də şəkil albomunuz varmı?* və s.

### Danışma

1.2.1 **Tapşırıq C (dərslik).** Tapşırığın əsas məqsədi sxem vasitəsilə şagirdlərə qohumluq əlaqələrini izah etmək və qohumluq bildirən sözləri mənimsətməkdir. Həmçinin şagirdlərin qrafik informasiyanı rabitəli cümlələr quraraq izah etmək bacarıqları formalaşdırılır.

**Cütlərlə iş.** Cütlər sxemi müzakirə edirlər. Sonra cütlərdəki şagirdlərdən biri növbə ilə nümunədə göstərilən kimi cümlələr qurub söyləyir. Digəri isə onu dinləyir və lazım gələrsə, səhvini düzəldir. Sonda cütlər bir-birini yoxlamaq üçün belə edə bilərlər: şagirdlərdən biri barmağını sxemdə "baba", "nənə" və s. sözlərin üzərinə qoyaraq yoldaşından həmin sözün mənasını soruşur. Beləliklə, cütlər əməkdaşlıq şəraitində yeni sözləri mənimsəyirlər. Bu zaman müəllim cütləri müşahidə edir. Onların sözləri nə dərəcədə mənimsədiyini sual-cavab əsasında müəyyənləşdirir.

**Təqdimat.** Şagirdlər gətirdikləri şəkillərin təqdimatını edirlər. Şəkildəki qohumlarının adlarını və onlarla qohumluq əlaqələrini izah edirlər. Təxminən belə olmalıdır:

*– Bu mənim əmimdir. Adı Asifdir. Asif əmim həkimdir. Bu isə bibimdir, bibimin 2 qızı var* və s.

### Söz ehtiyatı

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı müstəqil şəkildə yerinə yetirməklə qohumluq bildirən sözlərin mənasını mənimsədiklərini nümayiş etdirirlər.

2.1.2 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin söz ehtiyatını möhkəmləndirir, məntiqi təfəkkürlərini inkişaf etdirir. Tapşırıqdakı sxemlər şagirdlərə cümlələri tamamlamağa kömək edir.

Tapşırıqdakı cümlələr belə tamamlanmalıdır:
1. Samirin anası Ramizin qardaşıdır.
2. Samirin atası Aydının qardaşıdır.
3. Samirin anası Sevilin bacısıdır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir. | Tap. C (dərslik) |
| İzahların aid olduğu sözləri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Sözlər arasında məntiqi əlaqə qurmaqla cümləni tamamlayır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə dərsliyin 17-ci səhifəsindəki "A" tapşırığına hazırlıq üçün lazım olan materialları gətirmələri tapşırılır.



LAYİHƏ

## 2-ci dərs. "Ailə ağacı"nın hazırlanması. Qalın və incə saitlər

• Dərslik: səh. 17 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**
• Təlimata əsasən yazılı təqdimat hazırlayır (st. 3.1.4).
• Eyni məna qrupuna aid olan sözləri kontekstə görə fərqləndirir (st. 2.1.2).
• Qalın və incə saitləri fərqləndirir (st. 4.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şagirdlərin gətirdikləri əşyaların nümayişi |
| 2 | **Yazı. Söz ehtiyatı** | Təlimata əsasən ailə ağacının hazırlanması |
| 3 | **Dil qaydaları** | Qalın və incə saitlərin fərqləndirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə gətirdikləri əşyaları partalarının üzərinə düzməyi tapşırır.

### Yazı. Söz ehtiyatı

3.1.4, 2.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlər təlimatı öncə səssiz oxuyurlar. Daha sonra növbə ilə təlimatda göstərilən mərhələlərə uyğun əşyaları göstərməklə həmin mərhələni öz sözləri ilə izah edirlər. Sonda müəllim təlimatı özü izah edir və şagirdlər işə başlayırlar. Şagirdlər qohumluq bildirən sözlərlə bağlı biliklərini öz şəxsi nümunəsində tətbiq etməklə həmin sözlərin mənasını mənimsədiklərini nümayiş etdirirlər. Sonda hər bir şagird öz işini təqdim edir.

**Müəllimin nəzərinə!** Bu tapşırığın yerinə yetirilməsi şagirdlərin psixoloji durumunu öyrənməyə kömək edə bilər. Şagirdlərin ailə üzvləri və qohumlarından kimlərin adını yazmaları və "ağac"ın hansı hissəsindən asması şagirdin ailə vəziyyəti barədə informasiya ötürə bilər. Şagirdlərin davranışlarına mühüm təsir göstərən ailə münasibətlərinin öyrənilməsi müəllimə şagirdlərin təlim-tərbiyəsi işində yardım edir. Bu tipli tapşırıqların yerinə yetirilməsi zamanı müəllim ailə üzvlərindən biri və bir neçəsini itirmiş şagirdlərlə həssas davranmalı, məktəb psixoloqunun köməyindən istifadə etməlidir.

### Dil qaydaları

4.1.1 **Tapşırıq B (dərslik).** Bu tapşırıq şagirdlərin sait və samitlər üzrə 1-ci sinifdə öyrəndikləri bilikləri xatırlamasına yönəlmişdir.

**Tapşırıq C (dərslik).** Şagirdlər saitləri tələffüz edərək müqayisə etməklə saitlərin qalın və ya incə səslənməsi fərqini müşahidə edirlər.

**"Bunları bilməliyik" rubrikası.** Rubrikadakı məlumatlar oxunur. Saitlər fərqləndirilir.

**Müəllimin nəzərinə!** Saitlərin yaranma yerinə (dilönü, dilarxası və dilortası) görə fərqləndirilməsi şagirdlərin yaş səviyyəsinə uyğun olmadığı üçün müəllim şagirdlərə saitlərin qalın və incə tələffüzünü hiss edərək fərqləndirməsini mənimsətməlidir. Bunun üçün o bütün şagirdlərə tək-tək yaxınlaşmalı və onlardan "C" tapşırığında göstərilən kimi (*a-ə, ı-i və s.*) müqayisəli tələffüz etməyi və saitləri fərqləndirməyi tapşırmalıdır.

**Tapşırıq Ç (dərslik). Yazı ilə inteqrasiya.** Şagirdlərin dil qaydası üzrə biliklərini möhkəmləndirmə məqsədi daşıyır. Şagirdlər sözlərdəki qalın saitləri incə ilə əvəz edib başqa söz yaratmaqla (*baba – bibi* və s.) həmçinin söz ehtiyatlarını da nümayiş etdirirlər.

**Tapşırıq A, B, C (iş dəftəri).** Hər üç tapşırıq dil qaydası üzrə biliklərin möhkəmləndirilməsi məqsədi daşıyır.

**Müəllimin nəzərinə!** Şagirdlər arasında iş dəftərindəki "C" tapşırığında göstərildiyi kimi yarış keçirmək olar.

**Diferensial təlim**

Müəllim yarış keçirməzdən öncə tapşırıqdakı sözlərin ümumi mənasını (heyvan) soruşur və daha sonra yüksək hazırlıqlı şagirdlərə yarışın şərtinə əlavə olaraq ümumi mənası eyni olan (meyvə, tərəvəz və s.) sözlər seçməyi tapşıra bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təlimata əsasən yazılı təqdimat hazırlayır. | Tap. A (dərslik) |
| Eyni məna qrupuna aid olan sözləri fərqləndirir. | Tap. A (dərslik) |
| Qalın və incə saitləri müəyyənləşdirir. | Tap. C, Ç (dərslik)<br>Tap. A, B, C (iş dəftəri) |

LAYİHƏ

## 3-cü dərs. “Mənim babam” (I hissə)

• Dərslik: səh. 18-19 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**
• Səs tonunu mətnin məzmununa uyğun tənzimləyir (st. 2.2.1).
• Obrazlarla bağlı fakt və hadisələri müəyyənləşdirir (st. 2.2.4).
• Mətndəki əsas fikri həyatda gördükləri ilə müqayisə edərək şəxsi qənaətini bildirir (st. 2.2.4).
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2).
• Qalın və incə saitləri fərqləndirir (st. 4.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı əsasında söhbət |
| 2 | **Oxu** | “Mənim babam” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki obrazlara aid faktların təhlili, əsas fikrə münasibət |
| 4 | **Yazı** | Obrazın təsvir edilməsi |
| 5 | **Dil qaydaları** | Qalın və incə saitlər üzrə iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

*– Evinizdə divardan asılmış şəkil varmı? Həmin şəkildəki kimdir?*

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu.** Müəllim şagirdlərin diqqətini mətnə çəkilmiş illüstrasiyaya yönəldir və mətnin məzmununu təxmin etməyi tapşırır. Şagirdlər təxminlərini söylədikdən sonra mətni növbə ilə ucadan oxuyurlar. Müəllim şagirdlərə mətni oxuduqca obrazların adlarını qeyd etməyi və obrazlar haqqında olan məlumatlara diqqət etmələrini tapşırır. Müəllim şagirdlərin səs tonunu mətnin məzmununa uyğun tənzimləməsinə nəzarət etməli, müvafiq göstərişlər verməlidir. Müəllim şagirdlərin istər özləri, istərsə də yoldaşları tərəfindən oxunan mətni nə dərəcədə qavradığını öyrənmək məqsədilə oxu prosesi zamanı onlara obrazlarla bağlı suallar verməlidir. (*Ülviyyə Türkayın nəyidir? Təbriz kimin babasıdır? Osman kimin babasıdır?* və s.) Bu, növbəti tapşırığın yerinə yetirilməsi üçün hazırlıq rolunu oynayır. Oxu prosesindən sonra şagirdlər şəkillərin mətnin hansı hissəsinə aid olduğunu müəyyənləşdirirlər. “Söz boğçası” üzrə iş aparılır. Şagirdlər yeni sözləri cümlələrdə işlədir, müəllim həmin sözləri “Söz boğçası”na əlavə edir.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik). Tapşırıq A (iş dəftəri).** Tapşırıqların yerinə yetirilməsi ilə mətndəki faktların şagirdlər tərəfindən qavranıldığı yoxlanır.

“B” tapşırığının düzgün cavabı: 1, 3, 5, 6-cı fikirlər doğrudur.

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər öz babasını və ya başqasını nümunə gətirərək onların cavan və ya qoca olması barəsində danışır, mətndəki fikrə münasibət bildirir.

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş nümunə əsasında babalarının xarici görkəmini yazılı şəkildə təsvir edirlər.

**Müəllimin nəzərinə!** Növbəti bölmədə obrazın təsvir edilməsi üzrə daha dərindən iş aparılacaq.

### Dil qaydaları

4.1.1 **Tapşırıq Ç (dərslik). Tapşırıq C (iş dəftəri).** Tapşırıqlar qalın və incə saitlər üzrə biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Müəllimin nəzərinə!** Dərslikdəki “Ç” tapşırığının ikinci hissəsi yazılı şəkildə yerinə yetirilə bilər. Müəllim lövhədə nümunə yazır, məsələn, Aysel: a – qalın, e – incə saitdir.

Şagirdlər nümunə əsasında öz adlarındakı saitləri təhlil edirlər. Müəllim lövhədə şagirdlərin adlarını qruplaşdırır:

1. Yalnız qalın saitlər işlənən adlar
2. Yalnız incə saitlər işlənən adlar
3. Həm qalın, həm də incə sait işlənən adlar

**Riyaziyyatla inteqrasiya.** Hər bölgüyə aid adların sayı müəyyənləşdirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Səs tonunu mətnin məzmununa uyğun tənzimləyir. | Tap. A (dərslik) |
| Mətndə öz əksini tapmış fakt və hadisələri müəyyən edir. | Tap.B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətndəki əsas fikri həyatda gördükləri ilə müqayisə edərək şəxsi qənaətini bildirir. | Tap. C (dərslik) |
| Obrazı təsvir edir. | Tap. B (iş dəftəri) |
| Qalın və incə saitləri fərqləndirir. | Tap. Ç (dərslik)<br>Tap. C (iş dəftəri) |

LAYİHƏ

## **4-cü dərs.** “Mənim babam” (II hissə)

• Dərslik: səh. 19-20 • İş dəftəri: səh. 11

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çaları ilə ifadə edir (st. 2.2.1).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Həyatda gördüklərindən verilmiş atalar sözünə uyğun nümunə gətirir (st. 1.2.2).
• Obrazlarla bağlı fakt və hadisələri müəyyənləşdirir (st. 2.2.4).
• Dinlədiyi informativ mətndəki məlumatlara aydınlıq gətirmək üçün suallar verir (st. 1.1.1).
• Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (*ü-u, a-ə*) və samitlərin (*k-g, t-d*) düzgün yazılış qaydalarına riayət edir (st. 4.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamının təxmin edilməsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Mənim babam” mətninin davamının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin abzasları üzrə iş |
| 4 | **Danışma** | “Qəhrəmanlar unudulmur” mövzusunda söhbət |
| 5 | **Dinləmə** | Təbriz Xəlilbəyli haqqında mətnin oxunması |
| 6 | **Dil qaydaları** | Bəzi sözlərin düzgün yazılışının mənimsədilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər mətnə aid şəklə baxaraq mətnin davamını təxmin edirlər. Bununla şagirdlərdə mətnin davamını oxumağa maraq yaranır.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). Növbə ilə oxu.** Mətn şagirdlər tərəfindən növbə ilə oxunur. Oxu prosesində müəllim şagirdlərin mətndəki obrazların hiss-həyəcanını müxtəlif səs çaları ilə oxumalarına nəzarət edir. Yeri gəldikcə onlara müvafiq göstərişlər verir. Oxu prosesindən sonra müəllim şagirdlərdən tanış olmayan sözlərin mənasını soruşur, sonra onların mənasını izah edir. Həmin sözlər “Söz boğçası”na əlavə edilir.

### Oxuyub-qavrama

2.2.3 Müəllim faktoloji suallar verməklə şagirdlərin oxu prosesində diqqətli olmalarını yoxlayır:

– *Şəkildəki əsgərlər kim idi? Nə üçün qızlar şəkildə Osman babanı tanımadılar? Türkay nə üçün kövrəlmişdi?* və s.

**Tapşırıq B (dərslik).** Bu tapşırıq şagirdlərin mətnin abzaslarındakı əsas fikirləri müəyyən etmək bacarığını inkişaf etdirir. Müəllim digər abzaslara aid əlavə sual verə bilər:

– *Hansı abzasda Türkayın babasının həyatı haqqında məlumat alırıq?*

### Danışma

1.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər “Qəhrəmanlar heç vaxt ölmürlər” cümləsini izah edirlər. Şagirdlər müəllimin suallarına cavab verməklə tanıdıqları qəhrəmanlar haqqında danışırlar. Müəllim yönəldici suallarla şagirdləri küçələrə qəhrəmanların adlarının verilməsi, qəhrəmanlar haqqında şeirlərin, hekayələrin yazılması, onların heykəllərinin ucaldılması və s. barədə danışmağa sövq edə bilər.

Sonda belə bir qənaətə gəlinir: “Xalq vətən uğrunda canından keçmiş şəhidlərini, qəhrəmanlarını unutmur, onları həmişə xatirələrində yaşadır”.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A, B (iş dəftəri).** Tapşırıqlar vasitəsilə mətndəki faktlar üzrə ümumiləşdirmə aparılır. Bilməcəni yerinə yetirməklə şagirdlər mətndə sözü gedən qəhrəmanın Təbriz Xəlilbəyli olduğunu öyrənirlər.

### Dinləmə

1.1.1 Müəllim Təbriz Xəlilbəyli haqqında mətn oxumazdan öncə şagirdlərə tapşırır ki, mətni dinlədikcə başa düşmədiyiniz məqamları soruşun.

<u>Dinləmə mətni:</u>

*Təbriz Xəlilbəyli görkəmli şair Xəlil Rza Ulutürkün oğludur. O da atası kimi xalqını, vətənini sevən bir insan idi. Odur ki Qarabağ uğrunda döyüşlərin getdiyi vaxt o, könüllü olaraq cəbhəyə yollanır. Orduda göstərdiyi qəhrəmanlıqlara görə mükafatlara layiq görülür. Ancaq döyüşlərin birində 28 yaşında qəhrəmancasına həlak olur. Xalqımızın igid oğlu Şəhidlər xiyabanında dəfn edilir. Ona “Azərbaycanın Milli Qəhrəmanı” adı verilir.*

*Xalqımız öz qəhrəmanı ilə fəxr edir, heç vaxt unutmur. Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır. Onun haqqında şeirlər, hekayələr var.*

Müəllim şagirdlərin suallarını cavablandırır.

**Müəllimin nəzərinə!** Şagirdlərə Xəlil Rza Ulutürkün 1-ci sinifdə öyrəndikləri “Azərbaycan” şeiri xatırladıla bilər.

LAYİHƏ

### Dil qaydaları

**4.1.3** **Tapşırıq Ç (dərslik).** Şagirdlərin diqqəti mətndə göy rənglə verilmiş sözlərdəki saitlərin qalın və ya incə olmasına yönəldilir.

**"Sözlərin yazılışı" rubrikası.** Şagirdlər rubrikada verilmiş sözləri oxuyur, müəllim sözlərin düzgün yazılışını yadda saxlamağı tövsiyə edir.

**Tapşırıq D (dərslik). Tapşırıq C (iş dəftəri).** Tapşırıqlar rubrikada öyrədilən sözlər üzrə möhkəmləndirmə məqsədi daşıyır. Müəllim düzgün yazan şagirdlərə yoldaşlarının yazdıqlarını yoxlamağı tapşıra bilər. Bu onlarda məsuliyyət hissini gücləndirir və digər şagirdləri də yoldaşının tapşırığını yoxlamaq şansı qazanmağa həvəsləndirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tap. A (dərslik) |
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tap. B (dərslik) |
| Həyatda gördüklərindən verilmiş atalar sözünə uyğun nümunə gətirir. | Tap. C (dərslik) |
| Dinlədiyi informativ mətndəki məlumatlara aydınlıq gətirmək üçün suallar verir. | MV. Dinləmə mətni |
| Səs və hərf tərkibi fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir. | Tap. D (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Müəllim şagirdlərin diqqətini dərsliyin 21-ci səhifəsində verilmiş "D" tapşırığına yönəldir və onlara növbəti dərsdə təqdimat etmək üçün təlimat əsasında məlumat vərəqi hazırlamağı tapşırır.

## 5-ci dərs. Dodaqlanan və dodaqlanmayan saitlər

• Dərslik: səh. 20-21 • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**
- Dodaqlanan və dodaqlanmayan saitləri fərqləndirir (st. 4.1.1).
- Saitləri növlərinə görə qruplaşdırır (st. 4.1.1).
- Təlimata əsasən yazılı təqdimat hazırlayır (st. 3.1.4).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Qalın və incə saitlərin xatırlanması |
| 2 | Dil qaydaları | Dodaqlanan və dodaqlanmayan saitlərin mənimsədilməsi |
| 3 | Yazı | Yazılı təqdimatın dinlənilməsi |
| 4 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə bütün saitləri yazır və soruşur:

– *Saitlərin hansı növlərini tanıyırsınız?*

Şagirdlər qalın və incə saitləri müəyyən etdikcə müəllim lövhədə saitləri qruplaşdırır.

### Dil qaydaları

**4.1.1** **Tapşırıq A (dərslik).** Venn diaqramına əsasən "o" və "a" saitlərinin oxşar və fərqli xüsusiyyətləri müəyyənləşdirilir.

**"Bunları bilməliyik" rubrikası.** Rubrikadakı məlumat oxunur. Şagirdlər saitləri tələffüz edərək dodaqların vəziyyətinə görə fərqləndirir.

**Tapşırıq B (dərslik). Tapşırıq A, B, C (iş dəftəri).** Şagirdlərin yeni öyrədilən dil qaydası üzrə biliklərinin mənimsədilməsinə xidmət edir.

**4.1.1** **Tapşırıq C, Ç (dərslik).** Şagirdlər bu tapşırıqlarda saitləri növlərinə görə qruplaşdırmaqla dil qaydaları üzrə biliklərini möhkəmləndirirlər. "C" tapşırığında yalnız saitləri qruplaşdırmaq tələb olunursa, "Ç" tapşırığında saitlərin iştirak etdiyi sözləri qruplaşdırmaq tələb olunur. Tapşırığın qruplarla iş formasında aparılması şagirdlərin əməkdaşlıq şəraitində biliklərini tətbiq etmək, analiz etmək və bu kimi mühüm bacarıqlarının inkişafına təkan verir.

### Yazı

**3.1.4** **Tapşırıq D (dərslik).** Şagirdlər hazırladıqları yazılı təqdimatlarını növbə ilə nümayiş etdirirlər. Müəllim şagirdlərin təqdimata başlamasından öncə tapşırır ki, yoldaşınızı diqqətlə dinləyin, çünki sual verməlisiniz. Bu onlarda yoldaşlarını diqqətlə dinləmək, dinlədikləri fikirlərlə bağlı sual vermək bacarıqlarını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Sual verməkdə aktiv olan şagirdləri mükafatlandırmaq tövsiyə edilir. Bu, nisbətən zəif şagirdlərin fəallaşması üçün stimul verə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| Dodaqlanan və dodaqlanmayan saitləri fərqləndirir. | Tap. A, B (dərslik)<br>Tap. A, B, C<br>(iş dəftəri) |
| Saitləri növlərinə görə qruplaşdırır. | Tap. C, Ç (dərslik) |
| Yazılı təqdimat hazırlayır. | Tapşırıq D (dərslik) |

## 6-cı dərs. "Yadigar adlar"

• Dərslik: səh. 21-22 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

• Şeir oxuyarkən misralar və bəndlər arasında pauza edir (st.2.2.1).
• Danışarkən yeni öyrəndiyi söz və ifadələrdən yerli-yerində istifadə edir (st. 1.2.3).
• Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır (st. 2.1.2).
• Müəyyən məqsədlə anket doldurur (st. 3.1.4).
• Dodaqlanan və dodaqlanmayan saitləri fərqləndirir (st. 4.1.1).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. (st. 2.2.3).
• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şeirin məzmununun təxmin edilməsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Yadigar adlar" şeirinin oxusu, yeni sözlər üzrə iş |
| 3 | **Danışma** | Mövzu üzrə danışma |
| 4 | **Söz ehtiyatı. Yazı** | Qohumluq bildirən sözlər üzrə möhkəmləndirilmə |
| 5 | **Dil qaydaları** | Dodaqlanan saitlərin fərqləndirilməsi |
| 6 | **Oxuyub-qavrama** | Şəklin təsviri |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərin diqqəti şeirin adına yönəldilir. Şagirdlər şeirin adı ilə bağlı ilkin fikirlərini söyləməklə şeirin məzmununu təxmin edirlər.

### Oxu. Söz ehtiyatı.

2.2.1. **Tapşırıq A (dərslik).** Şeir növbə ilə oxunur. Şagirdlər oxuduqca bitkin fikir ifadə edən misralardan sonra müəllimin yönəldici sualları vasitəsilə həmin misraların məzmununu izah edirlər. Eyni zamanda oxuduqları misralarda onlara tanış olmayan sözləri (*dünyadan köçüb getmək, əvəz, el, oba, əsr, daşımaq* və s.) təxmin etdikləri şəkildə izah etməyə çalışırlar. Bu onların kontekstin məzmununa əsasən yeni sözlərin mənasını anlamaq bacarıqlarını inkişaf etdirir. Sonra yeni sözlər müəllim tərəfindən izah olunaraq "Söz boğçası"na əlavə edilir.

### Danışma

1.2.3 **Tapşırıq B (dərslik).** Tapşırığın əsas məqsədi qohumluq bildirən daha bir sözün (*nəvə*) mənasının mənimsədilməsidir. Şagirdlər "nəvə" sözünün mənasını anlayaraq öz nümunələrində istifadə edirlər.

Müəllim yönəldici suallar (*Bəs kimlər babasının və ya nənəsinin adını daşıyır? Öz adınızı bəyənirsinizmi?* və s.) verməklə adları "yadigar" olan şagirdlərlə söhbət aparır.

### Söz ehtiyatı. Yazı

2.1.2, 3.1.4 **Tapşırıq A, B (iş dəftəri).** Tapşırıqlar şagirdlərin "baba (nənə)–övlad–nəvə" qohumluq zəncirini dərk etməsi və müvafiq sözlərlə adlandırması bacarıqlarının inkişafına yönəlmişdir. Hər bir şagirdin dərs mühitində ailəsi ilə bağlı şəxsi məlumatlarını analiz etməsi və bu məlumatları yazıya köçürməsi ailə və məktəb bağının yaradılmasına kömək edir, şagirdi məktəb mühiti ilə doğmalaşdırır.

### Dil qaydaları

4.1.1 **Tapşırıq C (dərslik).** Şagirdlərin dil qaydaları üzrə öyrəndikləri biliklərinin tətbiqinə yönəlmişdir. Tapşırığın cütlərlə iş formasında yerinə yetirilməsi məqsədəuyğundur.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq Ç (dərslik).** Şeirin ikinci bəndində adı çəkilən Dədə Qorudla bağlı verilmiş mətn parçasını oxumaqla şagirdlər həm milli dəyərlərlə tanış olur, həm də şeiri oxuyub-qavramaq üçün əlavə informasiyadan istifadə etmək imkanı qazanırlar. Şagirdlər mətn parçasında rast gəlinən tanış olmayan sözlərin mənasını müəllimin və ya izahlı lüğətin köməyi ilə öyrənirlər.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə izahlı lüğətdən istifadə etməyi tapşırmazdan öncə onların istifadə etdikləri izahlı lüğətdə həmin sözlərin olduğunu yoxlamalı, izahın şagirdlərin yaş səviyyələrinə uyğunluğunu nəzərə almalıdır.

**Tapşırıq D (dərslik). Yazı ilə inteqrasiya.** Şagirdlər əvvəlcə şəkli təsvir edib danışırlar. Sonra oxuduqları mətndən istifadə edərək dəftərlərində şəkli təsvir edən cümlələr yazırlar. Bu, şagird-



LAYİHƏ

lərin oxuyub-qavrama, təsviretmə, eyni zamanda çap hərfləri ilə verilmiş mətni əlyazısı ilə köçürmək bacarıqlarını inkişaf etdirir.

**Söz ehtiyatı**

2.2.1 **Tapşırıq E (dərslik). Tapşırıq C (iş dəftəri).** Şagirdlər sözün izahı ilə bağlı öyrəndikləri bilikləri tətbiq edir, izah və əlamətlərin aid olduqları sözləri müəyyənləşdirməklə yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Danışarkən yeni öyrəndiyi söz və ifadələrdən istifadə edir. | Tap. B (dərslik) |
| Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır. | Tap. A (iş dəftəri) |
| Müəyyən məqsədlə anket yazır. | Tap. B (iş dəftəri) |
| Dodaqlanan və dodaqlanmayan saitləri fərqləndirir. | Tap. C (dərslik) |
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tap. Ç, D (dərslik) |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tap. E (dərslik)<br>Tap. C (iş dəftəri) |

## fəsil 3 DOĞMA MƏKTƏB

### 1-ci dərs. "Məktəb yolları"

• Dərslik səh. 23-24 • İş dəftəri: səh. 14

**Təlim məqsədləri**

- Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur (st. 2.2.1).
- Varlığın əlamətlərini sadalamaqla təsvir edir (st. 1.2.1).
- Mətnin məzmununa uyğun olan fikirləri müəyyənləşdirir (st. 2.2.4).
- Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir (st. 2.1.1).
- Ahəng qanununa tabe olan sözləri müəyyən edir (st. 4.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Məktəb" anlayışının çıxarılması |
| 2 | **Oxu** | "Məktəb yolu" şeirinin oxusu |
| 3 | **Danışma** | Yolların təsvir edilməsi |
| 4 | **Söz ehtiyatı** | "Söz boğçası" üzrə iş. Yer bildirən sözlərin izahı |
| 5 | **Dil qaydaları** | Ahəng qanununun mənimsədilməsi |
| 6 | **Danışma** | Yazılı təqdimatın dinlənilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

**Tapşırıq A (dərslik). Anlayışın çıxarılması.** Müəllim lövhədə dairə çəkir, dairənin kənarlarına tapşırıqda verilən sözləri yazır. Şagirdlər həmin sözləri ümumiləşdirən sözün "MƏKTƏB" olduğu qənaətinə gəlirlər. Bununla, onlar yeni fəslin mövzusunu müəyyən edirlər.

**Oxu. Söz ehtiyatı**

2.2.1 **Tapşırıq B (dərslik). Səssiz oxu.** Müəllim şagirdlərə şeiri oxumaq üçün vaxt verir. Şagirdlərə tapşırır ki, şeiri oxuduqca xəyallarında canlandırsınlar. Müəllim də daxil olmaqla sinifdə hər kəs fərdi şəkildə səssiz oxuyur. Bu üsul şagirdlərin müstəqil oxu bacarıqlarını inkişaf etdirir. Səssiz oxudan sonra şagirdlərə tanış olmayan sözlərin mənası izah olunur. Şagirdlər "hədər" sözünü izahlı lüğətdən tapıb mənasını oxuya bilərlər. Sözlər "Söz boğçası"na əlavə edilir.

**Müəllimin nəzərinə!** Şeir kiçik və ahəngdar olduğu üçün sonda "xorla oxu" üsulundan da istifadə etmək olar. Bu üsul sinifdə müəyyən qədər səs-küy yaratsa da, şagirdlərdə oxu prosesinə maraq yaradır, bir sıra mühüm bacarıqlar formalaşdırır.

**Danışma**

1.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər yolları təsəvvürlərlərinə gətirib təsvir etməkdə çətinlik çəkə bilərlər. Buna görə də müəllim şagirdlərlə əvvəlcə bostan, bağ, dağ haqqında söhbət apara bilər. Daha sonra şagirdlərə yönəldici suallar verməklə bostan yolu, bağ yolu, dağ yolunun daha ətraflı təsvir edilməsinə nail ola bilər.

**Diferensial təlim**

Müəllim daha fəal şagirdlərə əlavə suallar verə bilər: "Başqa hansı yolları saymaq olar?" (*kənd yolu, şəhər yolu* və s.) Müəllim sonra bütün sinfə müraciət edərək suallar verir: "Kəndə və ya şəhərə getmisinizmi? Həmin yolların fərqi nədir? Kənd yolu ilə getdikcə yolun ətrafında nələri görmək olur? (*qoyun-quzu, çəmənlik, yaşıl otlar, pambıq sahələri, meyvə-tərəvəz bazarı* və s.) Bəs şəhər yolunda nə görmək olar?" (*Hündürmərtəbli binalar, çoxlu maşınlar, çoxlu sayda yol hərəkət işarələri, işıqforlar* və s.) *Hansı yol sənin daha çox xoşuna gəlir? Nə üçün?*" və s.

LAYİHƏ

**Tapşırıq Ç (dərslik).** Müəllim yönəldici sual verir:

*– Müəllif "Məktəb yolunu hədər getmirlər" yazmaqla nə demək istəyir?*

Bu sual əsasında şeirin 2-ci bəndi təhlil olunur. Şagirdlər şəkil üzrə danışırlar. Özlərinin məktəb yolunu təsvir edib şəkillə müayisə edirlər. Müəllimin yönəldici sualları:

*– Məktəbə kimlə gəlirsiniz? Maşınla gəlirsiniz, yoxsa piyada? Məktəbə gəldiyiniz yolun ətrafında nələr görürsünüz?* və s.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirməklə şeiri oxuyub-qavradıqlarını nümayiş etdirirlər. Müəllimin tapşırığın şərtini ("inkar etmək" anlayışını) şagirdlərə izah etməsi tövsiyə olunur. Cavab: "Məktəb yolu tez unudulur" cümləsi şeirin ikinci bəndində deyilən fikri (*Həmişə düşür yada, Qoca olana qədər*) inkar edir".

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq D (dərslik). Cütlərlə iş.** Şagirdlər yer bildirən sözləri (bostan, bağ, aran, dağ, məktəb) seçib nümunədəki kimi izah edirlər. Bununla onlar sözün izahı üzrə öyrəndikləri bilikləri tətbiq edirlər. Şagirdlər sözləri sadə formada təxminən belə izah edə bilərlər:

- *Bostan – tərəvəz bitkilərinin əkildiyi yer*
- *Bağ – çoxlu meyvə ağacları olan yer*
- *Dağ – çox hündür, dik olan yer*
- *Məktəb – şagirdlərin elm öyrənmək üçün getdiyi məkan*

Müəllim sonda sözlərdən bəzilərini şagirdlərə izahlı lüğətdən tapmağı tapşıra bilər.

**Tapşırıq E (dərslik). Şaquli inteqrasiya.** Bu tapşırıq şeirin əsas struktur elementlərindən biri olan qafiyə haqqında 1-ci sinifdə öyrədilən biliklərin təkrarlanması və möhkəmləndirilməsinə yönəlmişdir.

### Dil qaydaları

4.1.1 **Tapşırıq Ə (dərslik). Tapşırıq B (iş dəftəri).** Tapşırıqların əsas məqsədi şagirdlərə qalın və incə saitləri xatırlatmaqla onların diqqətini ahəng qanunu haqqında yeni biliklərə yönəltməkdir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim ahəng qanununu şagirdlərə izah edir. Şagirdlər rubrikada göstərilən sxemləri nəzərdən keçirirlər. Müəllim lövhədə əlavə sözlər yazıb şagirdlərin köməyi ilə sözlərdəki saitlərin qalın və ya incə olduğunu sxemlər şəklində göstərməklə ahəng qanununu izah edir.

**Tapşırıq F (dərslik).** Tapşırıq iki mərhələdə yerinə yetirilir. Əvvəlcə ahəng qanununa tabe olan sözlər seçilib lövhədə yazılır. Şagirdlər növbə ilə lövhə qarşısına çıxaraq seçilən sözlərdəki saitlərin qalın və ya incə olduğunu göstərirlər. Tapşırıqdakı sözlər qruplaşdırıla bilər:

Qalın saitlərin ahəngi olan sözlər: *torpaq, Qobustan, qurbağa.*

İncə saitlərin ahəngi olan sözlər: *əkinçi, göyərçin, hiyləgər.*

Ahəng qanununa tabe olmayan sözlər: *muzey, mehriban, müharibə, teleskop.*

**Tapşırıq G (dərslik). Cütlərlə iş.** Cütlər müzakirə edərək ahəng qanununa tabe olmayan sözləri (*şagird, müsabiqə, qəhrəman*) müəyyənləşdirirlər.

**Tapşırıq C, Ç (iş dəftəri).** Tapşırıqları müstəqil yerinə yetirən şagirdlər ahəng qanununu mənimsədiklərini nümayiş etdirirlər. "Ç" tapşırığında sözlərin düzülüşü ahəng qanununa görə belədir:

incə, qalın, incə, qalın ..., ...
qalın, incə, qalın, incə, ..., ...
qalın, qalın, incə, incə, ...., ...
incə, incə, qalın, qalın, ..., ...

Bu tapşırıq şagirdlərin həm dil qaydaları üzrə biliklərini möhkəmləndirir, həmçinin məntiqi təfəkkürünü inkişaf etdirir.

**Diferensial təlim**

**Dəstək.** Müəllim tapşırığı yerinə yetirməkdə çətinlik çəkən şagirdlərə istifadə üçün sözlər verə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni müəyyən olunmuş vaxt ərzində səssiz oxuyur. | Tap. B (dərslik) |
| Varlığın əlamətlərini sadalamaqla təsvir edir. | Tap. C, Ç (dərslik) |
| Şeirin məzmununa uyğun olan fikirləri müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir. | Tap. D (dərslik) |
| Ahəng qanununa tabe olan sözləri müəyyən edir | Tapşırıq F, G (dərslik) Tapşırıq C, Ç (iş dəftəri) |

LAYİHƏ

## 2-ci dərs. “Yolda hadisə”

• Dərslik: səh. 25-26 • İş dəftəri: səh. 15

**Təlim məqsədləri**
• Verilmiş izahın, əlamətlərin, şəklin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).
• Frazeoloji ifadələri cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir (st. 2.1.4).
• Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Mətndən faktlar gətirməklə fikrini əsaslandırır (st. 2.2.4).
• Mövzu ilə bağlı təxəyyülünə uyğun mətn qurub danışır (st. 1.2.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şagirdlərin dərsə gələndə yolda müşahidə etdiklərini söyləməsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Yolda hadisə” mətninin oxusu. Yeni sözlər üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki hadisələrin ardıcıllıqla nəql olunması, mətndəki səbəb-nəticə əlaqəsinin müəyyən olunması |
| 4 | **Danışma** | Şəkillər üzrə mətnqurma |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

– *Uşaqlar, bu gün dərsə gələndə yolda nələri gördünüz? Hansı hadisə ilə qarşılaşdınız? Kimlərlə rastlaşdınız?* və s.

Müəllim yönəldici suallar verməklə çalışmalıdır ki, şagirdlər bu gün dərsə gələrkən yolboyu müşahidə etdiklərini danışa bilsinlər.

### Oxu. Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini mətnə çəkilmiş şəklə və mətnin adına yönəldir, mətnin məzmununu təxmin etmələrini tapşırır.

**Növbə ilə oxu.** Şagirdlər mətni növbə ilə oxuyurlar.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərin diqqətini “Söz boğçası”na yönəldir. Şagirdlər sözlərin təxmini mənasını söyləyirlər. Sonra müəllimin köməyi ilə bəzi sözlərin izahını izahlı lüğətdən taparaq oxuyurlar.

2.1.1, 2.1.4 **Tapşırıq A, B (iş dəftəri).** Tapşırıqlar vasitəsilə yeni sözlər mənimsədilir.

Şagirdlər mətnin məzmunu ilə tanış olduqdan sonra müəllim iki nəfəri lövhə qarşısına çıxarır və Nihadla Natiqin dialoqunu onlara oxutdurur. Digər şagirdlər onların nitqini dinləyir.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Müəllim soruşur:

– *Nihadla Natiq hadisəni danışarkən hansı səhvlərə yol verirdilər? Nə üçün müəllim onların danışıqlarından heç nə başa düşmədiyini söylədi?*

Şagirdlərin təxmini cavabları:

– *Onlar danışarkən tələsirdilər, bir-birini dinləmirdilər, hadisələri ardıcıllıqla danışmırdılar.*

**Müəllimin nəzərinə!** Bu dərsin əsas məqsədi şagirdlərə mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən etmək, hadisələri ardıcıllıqla danışmaq və ya yazmaq bacarığını aşılamaqdır.

Şagirdlər mətnin məzmunundan məntiqi nəticə çıxararaq müəllim obrazının nitqini “Hadisələri ardıcıllıqla danışın” cümləsi ilə tamamlayırlar.

**“Faydalı məsləhət” rubrikası.** Danışma bacarığı üzrə əsas məqamlar (hadisələrin ardıcıl danışılması, mövzudan kənara çıxmamaq) şagirdlərin nəzərinə çatdırılır.

**Tapşırıq C (dərslik).** Tapşırıq düzgün danışma bacarığının inkişafına yönəlmişdir. Danışma fəaliyyətinə keçməzdən öncə şagirdlər mətndəki obrazların nitqini (Nihad və Natiq) analiz edir, hadisələrin ardıcıllığını müəyyənləşdirirlər.

**Qruplarla iş.** Müəllim mətndə fərqləndirilmiş hissəyə aid hazırladığı vərəqləri qruplara paylayır. Qruplar Nihadla Natiqin nitqindəki hadisələrin ardıcıllığını müzakirə edərək cümlələri uyğun ardıcıllıqla nömrələyirlər.

Qruplardan biri təqdimat edir, digər qruplar onu dinləyir və həmin qrupun işini öz işləri ilə müqayisə edərək yoldaşlarının və ya özlərinin səhvlərini düzəldirlər. Bu fəaliyyət şagirdlərdə bir sıra mühüm bacarıqları inkişaf etdirir (əməkdaşlıq etmək, diqqətlə dinləmək, öz fikrini müstəqil söyləmək, digər fikirlərə hörmətlə yanaşmaq, analiz etmək, dəyərləndirmək, öz işini təkmilləşdirmək və s.).

**Tapşırıq C (iş dəftəri).** Tapşırığı müstəqil yerinə yetirməklə şagirdlər mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən etmək bacarıqlarını nümayiş etdirirlər.

2.2.5 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edirlər. Müəllim onların nəzərinə çatdırır ki, mət-



LAYİHƏ

nin ardıcıllığı o zaman pozulur ki, səbəb-nəticəni bildirən cümlələrin yeri səhv düşür. Bununla da şagirdlər səbəb-nəticə əlaqəsinin düzgün qurulmasının mətndə məntiqi ardıcıllığın yaranması üçün mühüm olduğunu dərk edirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər verilən cümlələrin mətndəki əsas hadisə ilə nə dərəcədə bağlı olduğunu müzakirə edir, danışarkən mövzudan kənara çıxmamaq qaydasını mənimsəyirlər. *Düzgün cavab: b), c).*

Müəllim onların nəzərinə çatdırır ki, əsas hadisənin nəql olunması zamanı həmin hadisə ilə birbaşa bağlı olan fikirlər deyilməlidir. Əks halda danışanın nitqi maraqsız, yorucu və anlaşılmaz olar.

2.2.4 **Tapşırıq D (dərslik).** Ümumi müzakirə yolu ilə verilmiş başlıqlar mətnin məzmunu ilə uyğunlaşdırılır. *Düzgün cavab: 1 və 3-cü başlıq.*

Şagirdlər başlıqları mətnlə əlaqələndirərkən fikirlərini əsaslandırmalıdırlar; məsələn, 2-ci başlıq mətnin məzmununa uyğun deyil. Çünki mətndə hadisələrin zamanı qış vaxtına (*Parkda yer buz idi*) təsadüf edir. 4-cü başlıq da uyğun deyil, çünki mətnin məzmununa əsasən Nihadla Natiq dərsə gedirlər.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərlə aşağıdakı sual ətrafında müzakirə apara bilər:

*– Sizcə, müəllim Nihadla Natiqi dərsə gecikdiklərinə görə bağışlamalıdırmı?*

### Danışma

1.2.2 **Tapşırıq E (dərslik). Qruplarla iş.** Müəllim hər qrupa bir şəkil verib mətn qurmağı tapşırır. Müəllimə qrup üzvlərinin müstəqil olaraq şəkil və cümlə ətrafında hadisələr düşünməsinə vaxt verilməsi tövsiyə olunur. Bu onların müstəqil düşünmə bacarıqlarının inkişafına kömək edər. Vaxt bitdikdən sonra qrup üzvləri düşündüklərini müzakirə edir, mətn qururlar. Sonda qrupların təqdimatı dinlənilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş izahın, əlamətlərin, şəklin aid olduğu sözü müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Frazeoloji ifadələri cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir. | Tap. B (iş dəftəri) |
| Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir. | Tap. B, C (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Mətnin məzmununa uyğun olmayan fikirləri müəyyənləşdirir. | Tap. Ç, D (dərslik) |
| Mətnin məzmunu ilə bağlı "Səbəb-nəticə cədvəli" tərtib edir. | Tap. Ç (iş dəftəri) |
| Şəkil üzrə təxəyyülünə uyğun olaraq mətn qurub danışır. | Tap. E (dərslik) |
| Danışarkən mövzudan kənara çıxmır. | Tap. E (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə kiçik vərəqlərdə peşə bildirən bir neçə sözün izahını yazmaq tövsiyə olunur.

## 3-cü dərs. "Padşah və müəllim"

• Dərslik: səh. 27-28 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri**

• Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir (st. 1.2.2).
• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Obrazı və onun davranışlarını qiymətləndirməklə (xeyirxahdır, qəddardır, yaxşı davrandı/pis davrandı və s.) mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür (st. 2.2.4).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 2.2.3).
• Yeni sözün yazılışını bildirmək üçün tərkibindəki hərfləri adları ilə sadalayır (*satir: se, ə, te, i, er*) (st. 4.1.4).
•Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (*ü-u, a-ə*) və samitlərin (*k-g, t-d*) düzgün yazılış qaydalarına riayət edir (st. 4.1.3).
• Dodaqlanan və dodaqlanmayan saitləri fərqləndirir (st. 4.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlərin izahları yazılmış kartların nümayişi |
| 2 | **Danışma** | Peşələr haqqında söhbət |
| 3 | **Oxu** | "Padşah və müəllim" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki əsas fikrin müəyyənləşdirilməsi, hekayə xəritəsi |
| 5 | **Dil qaydaları** | Sözlərin düzgün yazılışı, dodaqlanan saitlərin fərqləndirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim üzərində izahlar yazılmış kartları şagirdlərə bir-bir nümayiş etdirir və soruşur:

*– Bu izah hansı peşə haqqındadır?*

Şagirdlər hər izahın aid olduğu peşə bildirən sözü müəyyən edirlər.

LAYİHƏ

**Danışma**

1.2.2. **Tapşırıq A (dərslik).** Şagirdlər hər bir şəkildə təsvir olunmuş peşə sahibi haqqında (geyimi, ləvazimatları, gördüyü işlər və s.) danışırlar. Müəllim yönəldici suallar verməklə şagirdlərin daha ətraflı danışmasına kömək edə bilər.

– *Kosmanavtın geyimi necə olur? O necə adlanır? Həkim hansı ləvazimatlardan istifadə edir?* və s.

Sonra şagirdlər "Hansı peşəni daha vacib hesab edirsiniz?" sualı üzrə müzakirə aparırlar. Müzakirə zamanı şagirdlərin fikirlərini əsaslandırmasına çalışmaq lazımdır. Şagirdlər təxminən belə cavab verməlidirlər:

– *Mən həkim peşəsini vacib hesab edirəm. Çünki bizim sağlamlığımız hər şeydən önəmlidir.*

– *Mən isə yanğınsöndürəni vacib edirəm, çünki o olmasa, yanğın təhlükəsi zamanı köməksiz və çarəsiz qalarıq* və s.

**Tapşırıq B (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərin müxtəlif peşələr haqqında fikirlərini ümumiləşdirmək və onların diqqətini dərsin əsas mövzusuna yönəltməkdir.

**Oxu**

2.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər mətni növbə ilə ucadan oxuyurlar. Sonra mətnlə bağlı sualları cavablandırırlar.

2.2.4 **Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Cütlər mətndəki əsas fikri ("Müəllimə hörmət etmək hər bir kəsin borcudur") müzakirə edir, mətn üçün yeni ad təklif edirlər. Sonda cütlər təklif etdikləri adları sinfə təqdim edir, fikirlərini əsaslandırırlar.

**Tapşırıq A (iş dəftəri).** Mətndəki faktlara istinad edərək mətnin əsas fikrini (ideyasını) müəyyənləşdirmək bacarığını inkişaf etdirir.

**Düzgün cavablar: 2, 3, 5.**

Tapşırığın yerinə yetirilməsindən sonra şagirdlər müəllimin yönəldici sualları ilə tapşırığın məzmunu barədə müzakirə edə bilərlər.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər hekayə xəritəsini müstəqil şəkildə doldurmaqla mətni qavradıqlarını nümayiş etdirirlər.

**Dil qaydaları**

4.1.4 **"Sözlərin yazılışı" rubrikası.** Şagirdlərin diqqəti rubrikaya yönəldilir. Sözlər oxunur. Şagirdlər sözləri oxuyur, sözlərin tərkibində rənglərlə fərqləndirilmiş *t* və *d* hərflərinə diqqət yetirirlər. Müəllimin köməyi ilə qanunauyğunluğu müəyyən edir, bəzi sözlərdə "d" kimi tələffüz edilən samitin əslində "t" ilə yazıldığını öyrənirlər. Şagirdlər rubrikada verilən sözlərin hər birinin düzgün yazılışını bildirmək üçün hərfləri adları ilə səsləndirirlər; məsələn: dəstə – *de, ə, se, te, ə* və s.

4.1.3 **Tapşırıq D (dərslik). Tapşırıq C (iş dəftəri).** Tapşırığın əsas məqsədi yazılışı və tələffüzü fərqlənən bəzi ümumişlək sözlərin düzgün yazılış qaydalarını mənimsətməkdir. Şagirdlər *usda, isdi, asda* sözlərini seçib düzgün şəkildə yazırlar.

4.1.1 **Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq şagirdlərin həm dodaqlanan saitlər üzrə biliklərini, həm də söz ehtiyatını möhkəmləndirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir. | Tap. A, B (dərslik) |
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir | Tap. C (dərslik) |
| Obrazı və onun davranışlarını qiymətləndirməklə mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür. | Tap. Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətnə əsasən hekayə xəritəsini doldurur. | Tap. B (iş dəftəri) |
| Yeni sözün yazılışını bildirmək üçün tərkibindəki hərfləri adları ilə sadalayır. | "Sözlərin yazılışı" rubrikası |
| Deyilişi və yazılışı fərqlənən sözlərin düzgün yazılış qaydalarına riayət edir. | Tap. D (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Dodaqlanan və dodaqlanmayan saitləri fərqləndirir. | Tap. Ç (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim şagirdlərə növbəti dərsdə açıqça hazırlamaq üçün lazım olan materialları gətirməyi tapşırır.

## 4-cü dərs. "Müəllim". Açıqcanın tərtibi

• Dərslik: səh. 28-29 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

• Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur (st. 2.2.1).
• Sözlər arasında məna assosiasiyası yaradır (st. 2.1.1).
• Ahəng qanununa tabe olan sözləri müəyyən edir (st. 4.1.1).
•Yazılı təqdimatın struktur xüsusiyyətlərinə uyğun olaraq tərtib edir (st. 3.1.4).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlərin izahları yazılmış kartların nümayişi |
| 2 | **Oxu** | "Müəllim" şeirinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Şeirdəki əsas fikrin müəyyənləşdirilməsi |
| 4 | **Dil qaydaları** | Ahəng qanunu üzrə biliklərin möhkəmləndirilməsi |
| 5 | **Yazı** | Açıqçanın tərtibi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün müəllim haqqında mahnı səsləndirir.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər "Müəllim" şeirini növbə ilə ucadan oxuyurlar. Şeirin dili aydın və ahəngdar olsa da, şeirdə istifadə olunan bədii təsvir və ifadə vasitələrinin zənginliyi şagirdlərdə şeirin məzmununun dərk olunmasında çətinlik yarada bilər. Odur ki müəllim şeirin misralarında ifadə olunan fikirlərə aid yönəldici suallar verməklə məzmunun qavranılmasına çalışmalıdır.

### Oxuyub-qavrama

2.1.1 **Tapşırıq B (dərslik).** Şeirdə ifadə olunan bənzətmənin şagirdlər tərəfindən nə dərəcədə mənimsənildiyi yoxlanılır. Şeirdə müəllim bağbana, şagirdlər isə ağaca, meyvəyə bənzədilir. Tapşırıq yerinə yetiriləndən sonra müəllim şagirdlərə əlavə sual verir:

*– Şeirin müəllifi "Əkdiyin ağacların Gülü, çiçəyi solmaz" misraları ilə nə demək istəyir? Ağaclar deyəndə kimi nəzərdə tutur?*

Müəllim belə izah verə bilər: – *Müəllif demək istəyir ki, müəllimin yetişdirdiyi, elm, bilik verdiyi şagirdləri həyatda həmin bilik və bacarıqlardan hər zaman istifadə edir, uğurlar qazanırlar.*

### Dil qaydaları

4.1.1 **Tapşırıq C (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin ahəng qanunu üzrə öyrəndikləri biliklər təkrar olunur, möhkəmləndirilir.

**Cütlərlə iş.** Tapşırığın cütlərlə iş formasında yerinə yetirilməsi məqsədəuyğundur. Cütlər şeirin ikinci bəndindəki bütün sözləri təhlil edərək ahəng qanununa tabe olmayan sözü (*dünya*) müəyyənləşdirirlər.

**Diferensial təlim**
Cütlərin səviyyəsindən asılı olaraq müəllim onlara hər iki bəndi təhlil etməyi tapşıra bilər.

### Yazı

3.1.4 **Tapşırıq Ç (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərə açıqça tərtib etmək üçün lazım olan bilikləri vermək, onları açıqçanın strukturu ilə tanış etməkdir. Şagirdlər əvvəlcə açıqçanı oxuyurlar, sonra müəllim onların diqqətini açıqçanı müşayiət edən şərhlərə yönəldir. Açıqça ilə bağlı suallar cavablandırılır.

**Tapşırıq A (iş dəftəri).** Tapşırığın əsas məqsədi şagirdlərə açıqçanın tərtibi üzrə təlimat nümunəsi təqdim etmək, həmçinin onların oxuyub-qavrama bacarıqlarını inkişaf etdirməkdir.

**Tapşırıq D (dərslik).** Tapşırığı yerinə yetirməklə şagirdlər açıqçanın tərtibində istifadə olunan nitq etiketlərini mənimsəyirlər.

**Tapşırıq E (dərslik).** Şagirdlər iş dəftərində oxuduqları təlimata əsasən açıqça hazırlayırlar.

**Müəllimin nəzərinə!** İş dəftərindəki təlimat şagirdlərə kömək məqsədilə nümunə kimi verilmişdir. Şagirdlərə açıqça hazırlamaqda sərbəstlik verilməli, onların yaradıcılıq qabiliyyətləri nümunə kimi təqdim olunmuş təlimatla məhdudlaşdırılmamalıdır.

**Tapşırıq B (iş dəftəri).** Açıqça tərtib etmək bacarığının möhkəmləndirilməsi məqsədi daşıyır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur. | Tap. A (dərslik) |
| Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri sadalayır. | Tap. B (dərslik) |
| Ahəng qanununa tabe olan sözləri müəyyən edir. | Tap. C (dərslik) |
| Yazılı təqdimatını struktur xüsusiyyətlərinə uyğun olaraq tərtib edir. | Tap. Ç, D, E (dərslik)<br>Tap. A, B (iş dəftəri) |



LAYİHƏ

## Ümumiləşdirici dərs

• Dərslik: səh. 30 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Mətnin adı ilə məzmunu arasındakı bağlılığı izah edir (st. 2.2.3).
• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 2.2.3).
• Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır (st. 2.1.1).
• Saitləri növlərinə görə qruplaşdırır (st. 4.1.1).
• Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (*ü-u, a-ə*) və samitlərin (*k-g, t-d*) düzgün yazılış qaydalarına riayət edir (st. 4.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə öyrədilən mövzuların xatırlanması |
| 2 | **Oxu** | "Canlı saat" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Əsas fikrin və hadisələr arasında səbəb-nəticə əlaqəsinin müəyyələşdirilməsi, hekayə xəritəsinin tərtibi |
| 4 | **Söz ehtiyatı** | Ümumi mənanın müəyyənləşdirilməsi |
| 5 | **Dil qaydaları** | Saitlərin növlərinin fərqləndirilməsi, sözlərin düzgün yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə sual verir:

*– 1-ci bölmədə nələr öyrəndiniz?*

Bu sual vasitəsilə şagirdlər bölmə üzrə öyrəndikləri bilik və bacarıqları ümumiləşdirirlər.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti mətnin adına və mətnə çəkilmiş illüstrasiyaya yönəldilir. Şagirdlər mətnin məzmununu təxmin edirlər. Mətn növbə ilə oxunur. Müəllim şagirdlərin diqqətlə oxuduqlarını yoxlamaq üçün oxu prosesi ərzində faktoloji suallar verir.

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər mətndəki əsas fikri mətnin adı ilə əlaqələndirib fikir yürüdürlər. Bununla şagirdlər mətnin struktur elementlərinin onun məzmununun açılmasında rolunu dəyərləndirirlər.

2.2.5 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırığı yerinə yetirməklə mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirirlər.

*Orxan səhərlər yuxudan oyana bilmirdi, ona görə də dərsə gecikirdi.*

*Quşlar hər gün Orxanın pəncərəsinə qonurdu, çünki ondan yem istəyirdilər.*

*Orxan artıq dərsə vaxtında gedirdi, çünki səhər tezdən yem gözləyən quşlara dən verirdi.*

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Bölmənin tədrisində şagirdlərə hekayə xəritəsi üzrə biliklər verilmişdir. Bu dərsdə həmin biliklər xatırlanır, şagirdlərin bacarıqları yoxlanılır.

**Tapşırıq B (iş dəftəri).** Tapşırığı yerinə yetirməklə şagirdlər mətnin məzmunu ilə birbaşa bağlı olmayan cümləni seçməklə mətni qavradıqlarını nümayiş etdirirlər. Düzgün cavab: "*Sərçələr dən, soxulcan, tırtıl, böcəklə qidalanır".* Tapşırıq yerinə yetiriləndən sonra tapşırıq ümumi müzakirə olunur. Şagirdlər seçimlərini əsaslandırırlar.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (dərslik).** Bölmədə ümumi məna üzrə öyrədilən biliklərin təkrar edilməsinə yönəlmişdir. Şagirdlər hər sütunu uyğun söz seçməklə tamamlayır, həmin sözlərin aid olduqları ümumi mənanı izah edirlər.

### Dil qaydaları

4.1.1 **Tapşırıq D (dərslik).** Bölmə üzrə yazılışı və tələffüzü fərqli olan bəzi ümumişlək sözlərin düzgün yazılışı mənimsədilmişdir. Tapşırıq həmin biliklərin təkrar edilməsinə xidmət edir.

4.1.3 **Tapşırıq C, Ç (iş dəftəri).** Bölmədə şagirdlərə saitlərin növlərini fərqləndirmək üzrə dil qaydaları mənimsədilmişdir. Tapşırığı yerinə yetirməklə şagirdlər bölmə üzrə keçilən dil qaydalarını mənimsədiklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. A (iş dəftəri) |
| Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. C (dərslik) |
| Mətnin adı ilə məzmunu arasındakı bağlılığı izah edir. | Tap. B (dərslik) |
| Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır. | Tap. Ç (dərslik) |
| Saitləri növlərinə görə fərqləndirir. | Tap. C, Ç (iş dəftəri) |
| Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (*ü-u, a-ə*) və samitlərin (*k-g, t-d*) düzgün yazılış qaydalarına riayət edir. | Tap. D (dərslik) |

LAYİHƏ

bölmə **2**

# SAĞLAM HƏYAT

| Mövzu | | **Sağlam həyat** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | Qrafik informasiyanın şifahi təqdimatı, situasiyaya uyğun nitq etiketlərindən istifadə, təsviretmə |
| | Söz ehtiyatı | Tərtib etmək, əks etdirmək, plan, qrafik, bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə, bazar, mütaliə etmək, quyudan su çəkmək, maqnit, heyran qalmaq, bəkməz, cığal, yaxa, əlində qalmaq, səs-küylü, parlaq, əylənmək, atılıb-düşmək, xatirə, səmimi, müalicə etmək, yazıçı, körpələr evi, müddət, toplantı, hünər, nümayiş etdirmək, heyifsilənmək, övlad, uğur, cəzalandırmaq, sükuta qərq olmaq, mübarizə aparmaq, görmə qabiliyyəti, nikbin, ümidini itirmək, çəkinmək, haqq, təşkilat. |
| | Oxu | • Obrazların nitqindəki hiss-həyəcanın müxtəlif səs çalarları ilə ifadəsi<br>• Başlıq, altbaşlıq, yarımbaşlıq, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunun təqdim edilməsində rolunun dəyərləndirilməsi |
| | Yazı | • Şəkil və ya plan əsasında təsviri xarakterli mətnin yazılması<br>• Gün rejimi üzrə cədvəlin, gündəliyin tərtibi, anketin tərtib olunması<br>• Mövzu ətrafında fakt və münasibət bildirən cümlələrin yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Sözün sətirdən-sətrə keçirilməsi<br>• Əlamət bildirən sözlərin mənaca növləri |
| | Filoloji anlayışlar | Cədvəl, fakt və münasibət, mimika və jest, obrazın təsviri |
| Kompetensiyalar | | Sağlam həyat tərzinin insan sağlamlığı üçün əhəmiyyətini qiymətləndirmək, özünün və başqalarının sağlamlığını qorumaq, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması |

Bu bölmədə gün rejimi, hisslər və emosiyalar, idman mövzusu ilə bağlı həm informativ, həm də bədii mətnlər təqdim olunur. Əsas məqsəd bu mövzulardan istifadə etməklə dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, onların bu mövzularla bağlı söz ehtiyatını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır.

• Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnləri oxuyur.

• Cədvəl haqqında sadə məlumatları bilir.

• Sözləri düzgün hecalayır.

• Əlamət bildirən sözləri digər sözlərdən fərqləndirir.

**Mənimsəmədə çətinlik törədən məqamlar:**

• Sərbəst yazıların (gün rejiminin tərtib edilməsi, gündəlik, məktub) yazılması

• Fakt və münasibət bildirən cümlələrin fərqləndirilməsi

Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vasitələr:**

• Müxtəlif növ gündəlik xarakterli qeyd dəftərçələri

• Şagirdlərin keçən il yazdıqları məktublar

• Üzərində müxtəlif mimikaların təsviri olan kartlar

LAYİHƏ

fəsil **1** GÜN REJİMİ

## 1-ci dərs. "Aysunun gün rejimi"

• Dərslik: səh. 32-33 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri**
• Tanış mövzu ətrafında söhbət edir (st.1.2.1).
• Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur (st. 2.2.1).
• Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
• Vizual informasiyanın qrafik strukturunu müəyyənləşdirməklə ondan səmərəli istifadə edir (st. 2.2.3 ).

• **Köməkçi vasitələr:** qeyd dəftərçələri
• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Qeyd dəftərçəsi haqqında söhbət |
| 2 | **Danışma** | Bölmə titulundakı şəkil və suallar üzrə iş |
| 3 | **Oxu. Söz ehtiyatı** | Gün rejimini əks etdirən cədvəlin oxusu, "Söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | "Gün rejimi"ni əks etdirən cədvəlin hazırlanması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə qeyd dəftərçələri nümayiş etdirir. Aşağıdakı suallarla şagirdləri müzakirəyə cəlb edir:

– *Bu dəftərçələr sizə tanışdırmı? Sizcə, bu dəftərçələrdən nə üçün istifadə olunur?*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Danışma fəaliyyəti titul səhifəsində verilmiş şəkillər əsasında yerinə yetirilir. Şagirdlər tapşırıqdakı suallara cavab verməklə şəkildə gördüklərini təsvir edir, mövzu ilə bağlı müzakirədə iştirak edirlər. Müəllim şagirdləri danışma fəaliyyətinə həvəsləndirmək üçün mövzunu onların şəxsi həyatı ilə əlaqələndirir:

• Bəs siz gündəlik işlərinizi planlaşdırırsınızmı?
• Planlaşdırma üçün qeydlərinizi necə aparırsınız?
• Qeydlərinizi hara yazırsınız?

### Oxu. Söz ehtiyatı

2.2.1, 2.1.2 **Tapşırıq A (iş dəftəri). Tapşırıq B (dərslik).** Şagirdlər onlara verilmiş vaxt ərzində "Aysunun gün rejimi" haqqında cədvəli səssiz oxuyurlar. Müəllim şagirdlərdən tanış olmayan söz və ifadələrin (*plan, qrafik, tərtib etmək, əks etdirmək*) təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər cədvəli oxuduqdan sonra aşağıdakı sualları cavablandırırlar:

• Aysu hansı tarix üçün planlaşdırma aparıb?
• Bu tarix həftənin hansı gününə təsadüf edir?
• Cədvəlin hansı sütunu günün vaxtları haqqında məlumat verir?
• Günün hansı vaxtlarında Aysunun işi daha çoxdur?
• Günün hansı vaxtında Aysunun asudə vaxtı çox olur?

Müəllim yuxarıdakı suallarla həm şagirdlərin cədvəldəki məlumatları necə qavradıqlarını yoxlayır, həm də onların diqqətini cədvəlin strukturuna yönəldir. Cədvəlin hər bir sütununun, sətirlərinin funksiyasını izah edir.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə riyaziyyat fənnindən cədvəl haqqında öyrəndikləri məlumatları xatırladır.

**"Faydalı məsləhət" rubrikası.** Şagirdlər bu rubrikada verilmiş məlumatları oxuyaraq cədvəlin əhəmiyyətini daha dərindən anlayırlar.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər onlara təqdim edilmiş hazır cədvəli doldururlar. Cədvəldə sabahkı günün tarixini göstərir, həftənin hansı günü olduğunu qeyd edirlər. Daha sonra gün ərzində görüləcək işləri planlaşdırırlar. Göstərilən vaxta aid işlərin ardıcıl qeyd olunmasına diqqət edilməlidir.

**Tapşırıq C (dərslik).** Şagirdlər bu tapşırıqda təlimata uyğun olaraq cədvəl hazırlayırlar. Dərslikdəki "B", iş dəftərindəki "A" tapşırığı bu tapşırığın asanlıqla yerinə yetirilməsinə yönəlmişdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tap. A (dərslik) |
| Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur. | Tap. B (dərslik) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | "Söz boğçası" rubrikası |
| Cədvəlin sütün və sətirlərinin məqsəd və məzmununu müəyyən edir. | Tap. B, C (dərslik) Tap. A (iş dəftəri) |



LAYİHƏ

## **2-ci dərs.** "Faydalı gün"

• Dərslik: səh. 33-34 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**
• Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir (st. 1.2.1).
• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 2.2.3).
•Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir (st. 3.1.4).
• Dil qaydalarına əməl etməklə mətndəki səhvləri düzəldir (st. 3.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya sualının müzakirəsi |
| 2 | **Danışma** | Şəkil üzrə mətn qurub danışma |
| 3 | **Oxuyub-qavrama** | Mətnlə bağlı sualların cavablandırılması, hekayə xəritəsi, məktubun tərkib hissələri |
| 4 | **Yazı** | Məktub yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Nə üçün bəzən getdiyimiz yerlərə gecikirik və ya görəcəyimiz işləri unuduruq? Bu problemi necə həll etmək olar?" sualları ilə şagirdləri müzakirəyə cəlb edir.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər açar sözlərdən də istifadə etməklə şəkildə gördüklərini təsvir edir, şəkil kompozisiyası üzrə mətn qurub danışırlar.

### Oxuyub-qavrama

2.2.1 **Tapşırıq B (dərslik). İstiqamətləndirilmiş oxu.** Müəllim şagirdlərə tapşırır ki, mətnin hər abzasını oxumağa başlamazdan öncə lövhədəki sualı oxusunlar.

Hər yeni abzasın oxunmasına başlanarkən müəllim müvafiq sualı lövhədə yazır. Suallar:

<u>1-ci abzas:</u> *Nə üçün qızı "Gecikən Fidan" adlandırırdılar?*

<u>2-ci abzas:</u> *Sənubər kim idi?*

<u>3-cü abzas:</u> *Fidan ilə Sənubər necə vaxt keçirdilər?*

<u>4-cü abzas:</u> *Fidanı hansı sual düşündürürdü?*

Şagirdlər mətnin hər abzasını oxuyub müvafiq sualı cavablandırırlar.

Müəllim sonuncu abzasla bağlı əlavə suallar verir:

*– Siz Fidanın sualını necə cavablandırardınız? Onun problemini necə həll etmək mümkündür?*

Şagirdlərin cavabları dinlənilir.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnin hekayə xəritəsini tərtib etməklə mətndəki əsas faktları yadda saxladıqlarını nümayiş etdirirlər.

2.2.3 **Tapşırıq C (dərslik).** Bu tapşırıqda şagirdlər əməli yazı nümunəsi ilə, məktubla tanış olurlar. Məktublar məzmunca və formaca bir-birindən fərqlənir. Bu dərsdə məhz Nurcanın Fidana yazdığı məktub müzakirə edilir.

Şagirdlər təqdim olunmuş məktubun abzaslarını bir-bir oxuyur, müəllimin yönəldici sulları ilə məktubun abzaslarını verilmiş yarımbaşlıqlarla uyğunlaşdırırlar. Fidanın sualına "məsləhət" yarımbaşlığı altında verilmiş abzasdan cavab taparaq hər bir abzasın mahiyyətini anladıqlarını nümayiş etdirirlər.

### Yazı

3.1.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər onlara təqdim edilmiş plana uyğun Fidana məktub yazırlar. Məktubun 4-cü abzasında Fidana məsləhətlər verilməlidir.

**Diferensial təlim.** Məktub yazarkən məsləhət verməkdə çətinlik çəkən şagirdlər dərslikdə onlara təqdim edilmiş məsləhətlərdən istifadə edə bilərlər.

3.1.5 **Tapşırıq B (iş dəftəri).** Məqsəd şagirdlərin I sinifdə cümlə haqqında öyrəndikləri qaydaları (cümlənin ilk sözünün böyük hərflə yazılması, cümlələrin sonunda müvafiq durğu işarələrinin qoyulması) möhkəmləndirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir. | Tap. A (dərslik) |
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. B (dərslik) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. A (iş dəftəri) |
| Mətnin hər bir abzasının məzmununu müəyyən edir. | Tap. C (dərslik) |
| Məsləhət məzmunlu məktub yazır. | Tap Ç (dərslik) |

LAYİHƏ

## 3-cü dərs. Sözlərin sətirdən-sətrə keçirilməsi

• Dərslik: səh. 35 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**
• Sözləri sətirdən-sətrə düzgün keçirir (st. 4.1.2).
• Sözü düzgün oxumadıqda cümlədə ifadə olunan fikrə əsaslanaraq öz səhvini düzəltməklə yenidən oxuyur (st.2.2.1).
• Dil qaydalarına əməl etməklə mətndəki səhvləri düzəldir (st. 3.1.5).

• **Köməkçi vasitələr:** rəqəm kartları, söz kartları.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Heca haqqında biliklərin xatırlanması |
| 2 | **Dil qaydaları** | Sözlərin sətirdən-sətrə keçirilməsi |
| 3 | **Yazı** | Sətirdən-sətrə səhv keçirilmiş sözlərin qaydalara uyğun yazılışı |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə müxtəlif sayda hecalardan ibarət olan sözlər yazır. Şagirdlər növbə ilə lövhəyə yaxınlaşır, sözləri oxuyur, sözdəki saitlərin altından xətt çəkir, neçə hecalı söz olduğunu müəyyənləşdirirlər. Beləliklə, heca haqqında 1-ci sinifdə aldıqları biliklər xatırlanır və təkrar edilir. Bu dərsdə heca haqqında biliklərə yeni əlavələr ediləcək.

### Dil qaydaları

4.1.2 **Tapşırıq A (dərslik). Tapşırıq A (iş dəftəri)**. Tapşırıqlar sözün sətirdən-sətrə keçirilməsi üzrə dil qaydasının mənimsədilməsi üçün hazırlıq rolunu oynayır. Şagirdlər tapşırıqlar vasitəsilə I sinifdə heca üzrə aldıqları bilikləri təkrar edirlər.

**Tapşırıq B (dərslik).** Şagirdlərin diqqəti məktubdan verilmiş nümunəyə cəlb edilir. Şagirdlər həmin nümunəni oxuyurlar. Sətirlərin sonlarına diqqət edirlər. Müəllim tapşırıqdakı suallara əlavələr edərək soruşur:

• *Nə üçün bəzi sətirlərin sonunda boş yer qalmasına baxmayaraq növbəti söz yeni sətirdən yazılıb? Həmin sözü sətrin sonundakı boşluğa yerləşdirə bilmərikmi?*

• *Nə üçün sətrin sonundakı söz çox sıx yazılıb? Hərfləri bu qədər xırda yazıb sıxlaşdırmaq əvəzinə başqa nə edə bilərik?*

**“Bunları bilməliyik” rubrikası.** Bu rubrikada şagirdlərə sözlərin sətirdən-sətrə keçirilməsi qaydaları izah edilir.

4.1.2 **Tapşırıq C (dərslik). Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqlar sözlərin sətirdən-sətrə keçirilməsi haqqında biliklərin möhkəmləndirilməsinə yönəldilib.

### Oxu

2.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş mətni oxuyurlar. Sətirdən-sətrə səhv keçirilmiş sözlərin sətirdən-sətrə düzgün keçirilmə qaydasını "Bunları bilməliyik" rubrikasına əsaslanaraq izah edirlər.

### Yazı

3.1.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər sətirdən-sətrə səhv keçirilmiş sözləri tapıb altından xətt çəkirlər. “Belə keçirilə bilər” sütununda isə həmin sözlərin sətirdən-sətrə düzgün keçirilməsi variantlarından mətnə uyğun olanını yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin sətirdən-sətrə keçirilməsi qaydalarını tətbiq edir. | Tap. B, C (dərslik) Tap. B (iş dəftəri) |
| Sətirdən-sətrə düzgün keçirilməyən sözləri düzgün hecalamaqla oxuyur. | Tap. Ç (dərslik) |
| Dil qaydalarına əməl etməklə mətndəki səhvləri düzəldir. | Tap. C (iş dəftəri) |

## 4-cü dərs. Gündəliyin tərtibi

• Dərslik: səh. 36-37 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri**
• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Vizual informasiyanın qrafik strukturunu müəyyənləşdirməklə ondan səmərəli istifadə edir (st. 2.2.3 ).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Verilmiş sözlərə xas olan ümumi məna və ya əlaməti müəyyənləşdirir (st. 2.1.1).
• Gündəlik tərtib edərkən onun struktur xüsusiyyətlərinin tələblərinə əməl edir (st. 3.1.4).
• Sözləri sətirdən-sətrə düzgün keçirir (st. 4.1.2).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualının müzakirəsi |
| 2 | **Danışma** | Asudə vaxt mövzusunda söhbət |
| 3 | **Oxu** | Gündəlik nümunəsinin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Gündəlikdəki faktların müqayisəsi |
| 5 | **Yazı** | Gündəliyin tərtibi, sözlərin sətirdən-sətrə düzgün keçirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Boş vaxtlarınızda nə edirsiniz?" sualı ilə şagirdləri müzakirəyə cəlb edir.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti dərslikdə verilmiş şəkillərə yönəldilir. Onlar şəkillərə baxaraq uşaqların asudə vaxtlarını necə keçirdikləri haqqında danışırlar.

### Oxu

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər Lalə və Şahinin gündəliklərindən verilmiş səhifələri diqqətlə oxuyurlar. Daha sonra müəllimin yönəldici suallarına cavab verirlər:

- *Oxuduğunuz məlumatlar kimlərə aiddir?*
- *Bu məlumatlar hansı günlərə dair yazılıb?*
- *Lalə asudə vaxtlarında hara gedib?*
- *Şahin asudə vaxtlarında nə edib?*

Müəllimin yönəldici sualları şagirdlərin diqqətini lazımi məlumatlara cəlb edir. Bu məlumatlar dərslikdə verilmiş "C" tapşırığını yerinə yetirərkən istifadə ediləcək.

Müəllim Lalə və Şahinin gündəliyinin nümunəsi əsasında gündəliyin əsas struktur elementlərini (gün, ay, həftənin günü) izah edir.

### Söz ehtiyatı

2.1.1 **"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Söz boğçası"ndakı sözlərə yönəldir və onlara həmin sözlərin ümumi mənasını (həftənin günləri) müəyyənləşdirməyi tapşırır.

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, bu sözlər şagirdlərin daha çox istifadə etdikləri *birinci gün, ikinci gün* və bu kimi ifadələrlə qarşılaşdırılaraq mənimsədilsin.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş cümlələri oxuyur və bu məlumatların kimə aid olduğunu müəyyənləşdirirlər. Bununla da verilmiş mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

### Yazı

3.1.4 **Tapşırıq Ç (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərə gündəliyin tərtibi qaydalarını mənimsətməkdir. Şagirdlər təlimatdakı ardıcıllığa uyğun olaraq dünənki gün haqqında qeydlər aparırlar.

**Müəllimin nəzərinə!** Arzu edən şagirdlər müəyyən bir dəftər ayıraraq özləri üçün gündəlik tərtib edə bilərlər.

4.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər asudə vaxt mövzusu ilə bağlı verilmiş şəkillərə aid bir neçə cümlə yazırlar. Bu zaman onlardan sözləri sətirdən-sətrə düzgün keçirmək tələb olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tap. A (dərslik) |
| Gündəliyin strukturu ilə bağlı sualları cavablandırır. | Tap. B (dərslik) |
| Verilmiş sözlərin aid olduğu ümumi mənanı müəyyən edir. | "Söz boğçası" rubrikası |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. C (dərslik) |
| Təlimat əsasında gündəlik tərtib edir. | Tap. Ç (dərslik) |
| Sözləri sətirdən-sətrə düzgün keçirir. | Tap. A (iş dəftəri) |

## 5-ci dərs. Qrafik informasiyanın oxunması

• Dərslik: səh. 37-38 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri**
- Vizual informasiyanın qrafik strukturunu müəyyənləşdirməklə ondan səmərəli istifadə edir (st. 2.2.3).
- Müəyyən məqsədlə anket doldurur (st. 3.1.4).
- Sözləri sətirdən-sətrə düzgün keçirir (st. 4.1.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Asudə vaxt" anlayışı ətrafında şaxələndirmə |
| 2 | **Oxuyub-qavrama** | Verilmiş diaqramın oxusu, diaqramın hazırlanması. Cədvəl üzrə iş |
| 3 | **Yazı** | Sorğu keçirməklə diaqramın hazırlanması |
| 4 | **Dil qaydaları** | Sözlərin sətirdən-sətrə keçirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim yazı taxtasında dairə çəkir, içərisinə "Asudə vaxt" yazır. Şagirdlər bu anlayışla bağlı müxtəlif sözlər söyləyirlər. Müəllim dairənin kənarında müvafiq qeydlər aparır.

LAYİHƏ

**Oxuyub-qavrama**

2.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlərə 2-ci sinif şagirdlərinin asudə vaxtları haqqında məlumatları əks etdirən diaqram təqdim edilir. Əvvəlcə şagirdlərə riyaziyyat dərsində diaqram haqqında aldıqları məlumatlar xatırladılır. Daha sonra onlara tapşırıqda təqdim olunmuş diaqramla tanış olmaq, məlumatları oxumaq üçün müəyyən vaxt verilir. Ayrılan vaxt bitdikdən sonra şagirdlər diaqrama aid sualları cavablandırırlar.

**Əlavə suallar:**

• *Diaqramda şagirdlərin asudə vaxtlarındakı hansı məşğuliyyətləri haqqında məlumatlar öz əksini tapıb? Bu sualı cavablandırmaq üçün diaqramın hansı hissəsinə baxdınız?*

• *Sorğuya neçə uşaq cəlb edilib? Bu sualı cavablandırmaq üçün nə etdiniz?*

• *Neçə uşaq asudə vaxtını mütaliə edərək keçirir? Diaqramın hansı sütunu bu suala cavab verir?*

• *Neçə uşaq asudə vaxtını dostları ilə keçirməyə üstünlük verir?*

Bu tapşırıq şagirdlərdə konkret mənbədən istifadə edərək suallara cavab tapmaq bacarığını inkişaf etdirir.

**Yazı**

3.1.4 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda şagirdlər öz sinif uşaqlarının asudə vaxtlarını necə keçirdiklərini əks etdirən diaqram hazırlamalıdırlar. Fəaliyyətin uğurlu alınması üçün müəllim şagirdləri "addım-addım" təlimatlandırır.

**I addım.** Şagirdlər sorğu anketi tərtib edirlər. Sorğu anketinin nümunəsi dərslikdə verilib. Hər bir şagird adi dəftər vərəqində nümunəyə uyğun sorğu anketi hazırlayır. Daha sonra parta yoldaşı ilə dəyişir.

**II addım.** Şagirdlər anketi doldururlar. Hər bir şagird anketin müvafiq sətrində asudə vaxtını necə keçirdiyini yazır.

**III addım.** Sorğu anketləri bir yerə toplanır. Şagirdlər növbə ilə anketlərdən birini götürüb oxuyurlar. Müəllim isə lövhədə həmin məlumatı simvollarla qeyd edir; məsələn: "televizora baxmaq" qırmızı kub ilə işarə edilir. Beləliklə, bütün anketlərdə olan məlumatlar qruplaşdırılır.

**IV addım.** Fəaliyyət yoxlama ilə yekunlaşır: *"Sorğu neçə nəfər arasında keçirilib? Sinifdə neçə uşaq var? Diaqramda qeyd olunan hər bir məlumat neçə nəfərə aiddir?*

**Tapşırıq A, B (iş dəftəri).** Tapşırıqlar vizual informasiyadan məlumat almaq bacarığının inkişafına yönəlib. Şagirdlərin "A" tapşırığını yerinə yetirməsi "B" tapşırığında təqdim olunmuş cədvəl üzrə məlumatların daha asanlıqla qavranılmasını təmin edir.

Şagirdlər məlumatları oxuyur və cədvəlin uyğun qrafasına baxaraq doğru, yoxsa yanlış fikirləri müəyyənləşdirirlər. 1, 3 və 4-cü cümlələr doğru, digər cümlə isə yanlışdır.

**Dil qaydaları**

4.1.2 **Tapşırıq C (dərslik).** Bu tapşırıq sözlərin sətirdən-sətrə keçirilməsinə dair qazanılmış biliklərin möhkəmlənməsinə xidmət edir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər bu tapşırıqda çoxhecalı sözlərin sətirdən-sətrə keçirilməsi üçün bütün variantlarını qeyd edirlər; məsələn, "Azərbaycan" sözü *Azər-baycan, Azərbay-can* variantlarında sətirdən-sətrə keçirilə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Vizual informasiyanın qrafik strukturunu müəyyənləşdirməklə ondan səmərəli istifadə edir. | Tap. A (dərslik)<br>Tap. A, B (iş dəftəri) |
| Müəyyən məqsədlə anket tərtib edir. | Tap. B (dərslik) |
| Sözləri sətirdən-sətrə düzgün keçirir. | Tap. C, Ç (dərslik) |

## 6-cı dərs. "Qəribə qız"

• Dərslik: səh. 38-39 • İş dəftəri: səh.24

**Təlim məqsədləri**

•Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).
• Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir (st. 2.2.5).
• Oxuduğu və ya dinlədiyi mətnlə bağlı emosional düşüncələrini ifadə edir (bəyəndim, bəyənmədim, yazığım gəldi, təəccübləndim) və əsaslandırır (st. 1.2.2).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Oxuyub-qavrama** | "Qəribə qız" mətninin oxusu |
| 3 | **Söz ehtiyatı** | "Söz boğçası" rubrikası üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Hadisələrin inkişaf xətti |
| 5 | **Danışma** | Debat |
| 6 | **Oxuyub-qavrama** | Əsas fikrin müəyyənləşdirilməsi |
| 7 | **Yazı** | Mətnin qısa məzmununun ardıcıllıqla yazılması |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim *"Dostlarınızla birlikdə olanda vaxtınızı necə keçirirsiniz? Onlarla birlikdə keçirəcəyiniz vaxtı planlaşdırırsınızmı?"* sualları ilə şagirdləri müzakirəyə cəlb edir.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (dərslik).** Mətnin ilk hissəsi şagirdlər tərəfindən səssiz şəkildə oxunur. Şagirdlər mətndən illüstrasiyanın məzmununa uyğun gələn hissəni müəyyən edirlər. Mətnin hər bir hissəsinə aid verilmiş sualları cavablandırırlar. Oxu prosesində verilən suallar şagirdlərə fikirlərini cəmləməyə, hadisələri izləməyə yardımçı olur. Eyni zamanda müəllim üçün oxu prosesini dəyərləndirməyə, anlaşılmaz qalan məsələlərə vaxtında müdaxilə etməyə imkan yaradır.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıq vasitəsilə yeni öyrəndikləri sözləri mənimsədiklərini nümayiş etdirirlər.

2.2.5 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin təxminetmə bacarığının inkişafına yönəlib.

Şagirdlər onlara təqdim edilmiş illüstrasiyaya əsasən uşaqların həyatında baş verəcək dəyişiklikləri təxmin edirlər:

– *Uşaqlarda kitaba qarşı maraq oyandı. Leyla uşaqlarla oynamağa başladı. Uşaqlar arasında isti münasibət yarandı.*

1.2.2 **Tapşırıq C (dərslik). Debat.** Bu tapşırıqda bir-birinə zidd olan iki fikir öz əksini tapıb. Eyni fikri dəstəkləyən şagirdlər bir qrupda toplaşırlar. Onlara fikirlərini əsaslandırmaq üçün hazırlaşmağa vaxt verilir. Hər bir qrupun nümayəndələri növbə ilə fikirlərini izah edir, əsaslandırırlar. Bu tapşırıq debat aparmaq, müzakirə etmək, fikir söyləmək, fikrini əsalandırmaq kimi önəmli bacarıqların inkişafına yönəlib.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər oxuduqları mətndə verilmiş əsas fikri müəyyənləşdirməyə çalışırlar. Tapşırıqda əsas fikri tapmaq üçün ipucu olaraq şəkil də təqdim edilmişdir. Əsas fikir: "Vaxtı düzgün bölüşdürmək, hər bir işə vaxt ayırmaq fayda verər".

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq iki mərhələdə yerinə yetirilir. Şagirdlər:

1) mətnə əsasən şəkillərin ardıcıllığını müəyyənləşdirir və uyğun rəqəmləri boş xanaya yazırlar (doğru cavab: 3, 2, 1);

2) hadisələrin ardıcıllığına uyğun olaraq mətnin qısa məzmununu yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkillərlə mətnin hissələri arasındakı uyğunluğu muəyyən edir. | Tap. A (dərslik) |
| Sözün kontekstə görə mənasını yaxınmənalı sözün köməyi ilə izah edir. | Tap. A (iş dəftəri) |
| Mətnə çəkilmiş illüstrasiyaya əsasən hadisələrin davamını təxmin edir. | Tap. B (dərslik) |
| Oxuduğu mətnlə bağlı fikir yürüdür və fikrini əsaslandırır. | Tap. C (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. Ç (dərslik) |
| Oxuduğu mətnin qısa məzmununu hadisələrin ardıcıllığına uyğun yazır. | Tap. B (iş dəftəri) |

## fəsil 2 HİSSLƏR VƏ EMOSİYALAR

## 1-ci dərs. "Cığal öskürək"

• Dərslik: səh. 40-41 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri**

• Eyni məna qrupuna aid olan sözləri kontekstə görə fərqləndirir (st. 2.1.2).
• Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
• Başlıq, altbaşlıq, yarımbaşlıq, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunun təqdim edilmə-sində rolunu dəyərləndirir (st. 2.2.3).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir (st. 2.2.5).
• Gündəlik tərtib edərkən onun struktur xüsusiyyətlərinin tələblərinə əməl edir (st. 3.1.4).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Fəslin adının müzakirəsi |
| 2 | **Söz ehtiyatı** | Hiss bildirən sözlərin fərqləndirilməsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Cığal öskürək" şeirinin oxusu |
| 4 | **Oxuyub-qavrama** | "Cığal öskürək" şeirinin qavranılması |
| 5 | **Yazı** | Plana uyğun gündəliyin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldərək soruşur:

– *Sizcə, bu fəsildə biz nə haqda müzakirələr aparacağıq?*

Şagirdlər sual ətrafında fikirlərini söyləyir, fəslin mövzusunu təxmin edirlər.

Müəllim *hiss* və *emosiya* sözlərinin mənasını dəqiqləşdirmək üçün müxtəlif mimika və jestlər nümayiş etdirə bilər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Tapşırıq hiss və emosiya bildirən sözlərin şagirdlərin nitqində istifadə edilməsinə yönəlib. Şagirdlər verilmiş şəkillərdəki uşaqların üz cizgilərinə uyğun sözlər seçirlər. Sonra müəllim nümunəni izah edir. Nümunədəki sual modellərindən istifadə edərək şagirdlər şəkildəki uşaqların üz ifadələrinə əsasən onların keçirdiyi hisslər haqqında danışırlar:

– Rəşad nə edir?
– Rəşad kədərlənir.
– Rəşad hansı hissi keçirir?
– Rəşad kədər hissi keçirir.
– Rəşadın kədərinin səbəbi nə ola bilər?
– Rəşadın sevimli oyuncağı sınıb.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda şagirdlər şəkillərin məzmununa uyğun gələn hiss-həyəcan bildirən sözləri krossvordun uyğun xanalarına yazırlar. Bununla şagirdlərin ümumi mənası eyni olan sözlər üzrə söz ehtiyatları artırılır. Şagirdlərə istifadə üçün sözlər təqdim edilmişdir ki, bu da tapşırığın yerinə yetirilməsinə kömək edir.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər onlara verilmiş vaxt ərzində "Cığal öskürək" şeirini səssiz oxuyurlar. Bu zaman obrazın nitqinə diqqət edir, onun keçirdiyi hisslərlə tanış olurlar. Daha sonra şagirdlər şeiri səsli oxuyurlar. Müəllim şagirdlərin nitqinə, obrazın nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə etmələrinə diqqət etməlidir. Müəllim şagirdlərdən tanış olmayan söz və ifadələrin *(bəkməz, cığal, yaxa, əlində qalmaq)* təxmini mənasını soruşur. Söz və ifadələrin dəqiq mənası izah olunduqdan sonra şagirdlər onları müxtəlif cümlələrdə işlədirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlər şəkillə şeir arasında olan uyğunsuzluğu müəyyən edib, fikirlərini əsaslandırırlar.

– *Şeirin məzmununa görə Süsən məktəb üçün darıxır və kədərlənir. İllüstrasiyada isə Süsən şən əhvali-ruhiyyədə təsvir edilmişdir.*

2.2.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər əsas obrazın dilindən deyilən misraları müəyyənləşdirir və ümumiləşdirərək öz sözləri ilə nəql edirlər.

2.2.5 **Tapşırıq D (dərslik). Yazı ilə inteqrasiya.** Şeirdəki hadisələrlə bağlı *niyə? nə üçün?* suallarına cavab verərək tapşırıqdakı cümlələri tamamlayırlar. Bu tapşırıq şagirdlərdə analiz etmək, hadisələrin başvermə səbəblərini araşdırmaq kimi vacib bacarıqları inkişaf etdirir.

### Yazı

3.1.4 **Tapşırıq E (dərslik)**. Bu tapşırıqda şagirdlər şeirin əsas qəhrəmanının (Süsənin) dilindən gündəlik yazırlar. Yazı işi dərslikdə verilmiş plana uyğun aparılır. Tapşırıq şagirdlərin praqmatik mətnləri məzmun, kompozisiya və struktur xüsusiyyətlərini nəzərə almaqla tərtib etmək bacarığını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Eyni məna qrupuna aid olan sözləri kontekstə görə fərqləndirir. | Tap. A (dərslik) |
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tap. B (dərslik) |
| Mətnin məzmunu ilə illüstrasiya arasındakı uyğunsuzluğu müəyyən edir. | Tap. C (dərslik) |
| Mətndə fakt və hadisələrin aid olduğu hissələri müəyyən edir. | Tap. Ç (dərslik) |
| Mətndəki hadisələrin səbəbini müəyyənləşdirir. | Tap. D (dərslik) |
| Gündəliyi struktur xüsusiyyətlərini nəzərə alaraq tərtib edir. | Tap. E (dərslik) |

LAYİHƏ

## **2-ci dərs.** "Qeyri-adi begemot" (I hissə)

• Dərslik: səh. 41-42 • İş dəftəri: səh. 26

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 2.2.1).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır (st. 2.1.2).
• Sözün kontekstə görə mənasını yaxınmənalı sözün köməyi ilə izah edir (st. 2.1.3).
• Cümlələrdə mətnin məzmununa uyğun düzəlişlər edir (st. 3.1.5).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Oxu** | "Qeyri-adi begemot" mətninin I hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Əsas fikrin müəyyənləşdirilməsi |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Yazı** | Cümlələrin məzmunca təkmilləşdirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə sual verir:

– *"Qeyri-adi" nə deməkdir? Qeyri-adi olan varlıqlarla rastlaşmısınızmı? Onların qeyri-adiliyi haqqında danışın.*

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu.** Mətnin I hissəsi şagirdlər tərəfindən növbə ilə oxunur. Müəllim şagirdlərin obrazın nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə etməsinə diqqət edir. Mətnin bəzi abzaslarından sonra suallar təqdim edilib ki, bu da şagirdlərə fikirlərini cəmləməyə, hadisələri izləməyə yardımçı olur. Eyni zamanda müəllimə oxu prosesini dəyərləndirməyə, anlaşılmaz qalan məsələlərə vaxtında müdaxilə etməyə imkan yaradır.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(səs-küylü, parlaq, əylənmək, atılıb-düşmək)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır. Şagirdlər hər bir sözə uyğun cümlə qururlar.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Bu tapşırıq şagirdlərdə əsaslandırmaq, sübut etmək kimi vacib bacarıqları inkişaf etdirir.

Şagirdlər onlara təqdim edilmiş fikirləri təsdiq etmək üçün mətndən cümlələr seçib oxuyurlar. Bununla da mətni oxuyub-anladıqlarını nümayiş etdirirlər; məsələn: "Keçirdiyimiz hisslər rəngimizin dəyişməsinə səbəb olur" fikrini mətndəki "Hippo qorxudan ağappaq ağarmışdı" cümləsini oxumaqla təsdiqləyə bilərlər. "Peyvənd insanları yoluxucu xəstəlikdən qoruyur" fikrini isə "Əgər peyvənd edilməsə, sarılıq tutar" cümləsini oxumaqla təsdiqləmək olar.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq C (dərslik).** Tapşırıqda şagirdlərə mətnin məzmununu əks etdirən cümlələr təqdim olunmuşdur. Cümlələrdə əsas fikri açan sözlər buraxılmışdır. Şagirdlər həmin sözləri bərpa etməklə mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Şagirdlər həmçinin hiss və emosiya bildirən sözləri cümlədə düzgün işlətməklə söz ehtiyatlarını möhkəmləndirirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər cümlədə buraxılmış sözləri müəyyən etməklə yeni sözləri nə dərəcədə anladıqlarını nümayiş etdirirlər.

2.1.3 **Tapşırıq B (iş dəftəri).** Sözlərin yaxınmənalı qarşılığını seçməklə onları anladıqlarını nümayiş etdirirlər.

### Yazı

3.1.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlərə "Qeyri-adi begemot" mətninin I hissəsinə aid cümlələr təqdim edilib. Cümlələrdəki fərqləndirilmiş sözlər mətnin məzmununa uyğun deyil. Şagirdlər həmin sözləri mətnin məzmununa uyğun sözlərlə əvəz edib köçürürlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | Tap. A (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. B, C (dərslik) |
| Sözü cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir. | Tap. A (iş dəftəri) |
| Sözün kontekstə görə mənasını yaxınmənalı sözün köməyi ilə izah edir. | Tap. B (iş dəftəri) |
| Cümlələrdə mətnin məzmununa uyğun düzəlişlər edir. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə növbəti dərsdə istifadə etmək üçün məkan (kitabxana, zoopark, dayanacaq, mağaza və s.) şəkilləri əldə etmək tövsiyə olunur.

LAYİHƏ

## 3-cü dərs. Əlamət bildirən sözlərin məna növləri

• Dərslik: səh. 43 • İş dəftəri: səh. 27

**Təlim məqsədləri**
• Varlığın əlamətlərini sadalamaqla təsvir edir (st. 1.2.1).
• Əlamət bildirən sözləri məna qruplarına görə (rəng, dad və s.) fərqləndirir (st. 4.1.5).
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Anlayışın çıxarılması |
| 2 | **Danışma** | İllüstrasiyaların təsvir olunması |
| 3 | **Dil qaydaları** | Əlamət bildirən sözlərin məna növlərinin mənimsədilməsi |
| 4 | **Danışma** | Şəklin təsvir edilməsi |
| 5 | **Yazı** | Şəkil üzrə təsviri mətnin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Anlayışın çıxarılması.** Müəllim lövhəyə arxasında limon şəkli olan bir kart yapışdırır. Kartın ətrafına "gizlədilmiş anlayış"a (limona) aid *oval, sarı, turş, kiçik* sözlərini yazır. Axtarılan söz tapıldıqdan sonra kartın şəkil olan üzü çevrilir. Müəllim: *"Cavabı tapmaqda sizə hansı sözlər kömək etdi?"* sualını verməklə şagirdlərin diqqətini əlamət bildirən sözlərə yönəldir.

**Tapşırıq A (dərslik). Şaquli inteqrasiya.** Şagirdlər bu tapşırıq vasitəsilə I sinifdə öyrəndikləri dil qaydaları üzrə biliklərini xatırlayır, təkrar edirlər.

### Danışma

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlərin diqqəti keçən dərsdə oxuduqları "Qeyri-adi begemot" mətninə çəkilmiş şəkillərə (çimərlik və həkimin otağı) yönəldilir. Şagirdlər şəkildə gördüklərini təsvir edirlər. Təsvir zamanı "A" tapşırığında verilmiş sözlərdən də istifadə edə bilərlər. Müəllim bu tapşırıqla şagirdlərin diqqətini əlamət bildirən sözlərə yönəldir və təsvir zamanı bu sözlərin rolunu onların nəzərinə çatdırır.

**Qruplarla iş.** Hər bir qrup şəkil haqqında 3-4 cümlədən ibarət rabitəli mətn təqdim edir. Digər qrup mətni dinlədikdən sonra öz əlavələrini edir.

**Müəllimin nəzərinə!** Müəllim əvvəlcədən şagirdlərə yoldaşlarının təqdimatını diqqətlə dinləməyi və əlavələr etməklə genişləndirməyi tapşırır.

### Dil qaydaları

4.1.5 **"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik" rubrikasına yönəldir. Onlara əlamət bildirən sözlərin məna növləri haqqında məlumat verir. Təsvir zamanı forma, dad, rəng, həcm bildirən sözlərin rolunu vurğulayır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş əlamət bildirən sözləri məna növlərinə görə qruplaşdırmaqla yeni biliklərini möhkəmləndirirlər.

**Tapşırıq C (dərslik). Anlayışın çıxarılması. Oyun**. Üzərində məkan şəkilləri olan kartlar şagirdlərə paylanır. Lakin kartlar gizli saxlanılmalıdır ki, onu görməsinlər. Hər bir şagird öz kartındakı məkanı təsvir edir, digərləri isə onu tapır. Bu tapşırıqla əlamət bildirən sözlərin hansı varlığa aid olduğunu müəyyənləşdirməklə yanaşı, sözün izahını vermək bacarığı da inkişaf etdirilir.

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Şagirdlər qruplara ayrılırlar. Hər bir qrup onlara təqdim edilmiş şəkildəki məkanı təsvir edir. Onlara ayrılmış vaxt bitdikdən sonra hər bir qrup 4-5 cümlədən ibarət rabitəli mətn təqdim edir.

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş şəkli təsvir edirlər. Təsvir zamanı onlara təqdim edilmiş sözlərdən də istifadə edə bilərlər. Bu tapşırıq əlamət bildirən sözlərdən istifadə edərək təsviri mətn yazmaq bacarığının formalaşdırılmasına yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əlamət bildirən sözlərin köməyi ilə şəkli təsvir edir. | Tap. B (dərslik) |
| Əlamət bildirən sözləri məna qruplarına görə (rəng, dad və s.) fərqləndirir. | Tap. A (iş dəftəri) |
| Verilmiş əlamətə uyğun varlığı müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir. | Tap. Ç (dərslik) |
| Əlamət bildirən sözlərdən istifadə etməklə təsviri mətn yazır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdlərə mimika və jestlər haqqında məlumat veriləcək. Bu məqsədlə müəllimə növbəti dərsdə nümayiş etdirmək üçün müxtəlif mimika və jestləri göstərən maska, obraz, klounların şəkillərini və yaxud videoların hazırlamaq tövsiyə edilir.

LAYİHƏ

## 4-cü dərs. “Qeyri-adi begemot” (II hissə)

• Dərslik: səh. 44-45 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri**

• Varlığın əlamətlərini sadalamaqla təsvir edir (st. 1.2.1).
• Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 2.2.1).
• Başlıq, altbaşlıq, yarımbaşlıq, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunun təqdim edilmə-sində rolunu dəyərləndirir (st. 2.2.3).
• Qeyri-verbal ünsiyyət vasitələrindən (jest, mimika ) istifadə edir (st. 1.2.1).
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2).
• Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır (st. 2.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mimika və jestlərin obrazlı nümayişi |
| 2 | **Danışma** | Şəklin təsvir edilməsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Qeyri-adi begemot” mətninin II hissəsinin oxusu |
| 4 | **Oxuyub-qavrama** | İllüstrasiya ilə mətnin uyğunluğu |
| 5 | **Danışma** | Hisslərin mimika və jestlərin köməyi ilə ifadəsi |
| 6 | **Yazı** | Təsviri xarakterli mətnin yazılması |
| 7 | **Söz ehtiyatı** | Eyni hisslə bağlı olan sözlərin ad, əlamət, hərəkət bildirməsinə görə qruplaşdırılması |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim mimikaları nümayiş etdirən maskaların, obrazların, klounların şəkillərini və ya videolarını təqdim edir və sual verir:

– *Şəkildə gördüyünüz üz cizgiləri sizə nədən xəbər verir?*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Tapşırıq iki mərhələdə yerinə yetirilir. Şagirdlər:

1) mətnə çəkilmiş illüstrasiyaya əsasən Hipponun otağını təsvir edirlər. Müəllim şagirdlərə təsvir edərkən əlamət bildirən sözlərin müxtəlif məna növlərindən (ölçü, rəng, forma) istifadə edə biləcəklərini xatırladır;

2) mətnə çəkilmiş illüstrasiyaya əsasən obrazlar arasındakı dialoqun məzmununu təxmin edib danışırlar. Tapşırığın bu mərhələsini bir neçə cüt arasında rollu oyun kimi də keçirmək olar.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik).** Mətnin II hissəsi şagirdlər tərəfindən növbə ilə oxunur. Müəllim oxu prosesində şagirdlərin obrazın nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə etmələrinə diqqət yetirməlidir.

Oxu zamanı lazım gəldikcə mənası şagirdlər tərəfindən anlaşılmayan sözlər izah edilir.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq C (dərslik).** Müəllim şagirdlərin diqqətini mətnə çəkilmiş sonuncu illüstrasiyaya yönəldir. Şagirdlər obrazların üz ifadələrinə, əl-qol hərəkətlərinə baxıb onların hansı hissləri keçirdiklərini izah edirlər. Mətnin həmin şəklə aid hissəsini tapıb oxuyurlar.

### Danışma

1.2.1 **“Faydalı məsləhət” rubrikası.** Bu rubrikada şagirdlərə mimika və jestlər haqqında məlumat verilir. Fikrin daha dəqiq çatdırılmasında mimika və jestin rolu izah edilir.

**Tapşırıq Ç (dərslik)**. Şagirdlər “Qeyri-adi begemot” mətninin I hissəsini yada salır, Hipponun keçirdiyi hissləri xatırlayır, mimika və jestlərin köməyi ilə həmin hissləri nümayiş etdirirlər.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan yaradır, onlarda düşüncələrini yazı ilə ifadə etmək bacarığını inkişaf etdirir.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq D (dərslik).** Bu tapşırıqda şagirdlərdən eyni hisslə bağlı olan sözləri ad, əlamət və hərəkət bildirməsinə görə fərqləndirmək tələb olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əlamət bildirən sözlərdən istifadə etməklə varlıqları təsvir edir. | Tap. A (dərslik) |
| Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | Tap. B (dərslik) |
| Şəkillərlə mətnin hissələri arasındakı uyğunluğu müəyyən edir. | Tap. C (dərslik) |
| Qeyri-verbal ünsiyyət formalarından (jest, mimika, poza) istifadə edir. | Tap. Ç (dərslik) |
| Əlamət bildirən sözlərdən istifadə etməklə təsviri mətn yazır. | Tap. A (iş dəftəri) |
| Verilmiş sözləri aid olduqları ümumi anlayışlar üzrə qruplaşdırır. | Tap. D (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə nümayiş etdirmək üçün “Doktor Aybolit” cizgi filmindən kiçik bir fraqmentin əldə olunması tövsiyə edilir.

LAYİHƏ

## 5-ci dərs. "Nəriman Nərimanov haqqında xatirələr"

• Dərslik: səh. 46-47 • İş dəftəri: səh. 29

**Təlim məqsədləri**

• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1)
• Mətndə fakt və hadisələrin aid olduğu hissələri müəyyən edir. (st. 2.2.3).
• Mətndən faktlar gətirməklə fikrini əsaslandırır (st. 2.2.4).
• Varlığın əlamətlərini sadalamaqla təsvir edir (st. 1.2.1).
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Doktor Aybolit" cizgi filmindən fraqmentin nümayişi |
| 2 | **Danışma** | Həkim peşəsi haqqında söhbət |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Nəriman Nərimanov haqqında xatirələr" mətninin oxusu. "Söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Abzaslarla iş, fikrin əsaslandırılması |
| 5 | **Danışma** | Nəriman Nərimanov obrazının təsviri |
| 6 | **Yazı** | Ailə üzvlərindən birinin təsviri |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Doktor Aybolit" cizgi filmindən kiçik bir fraqment nümayiş etdirməklə şagirdlərin diqqətini mövzuya yönəldir.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər həkim peşəsi haqqında bildiklərini danışırlar.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). Növbəli oxu.** Şagirdlər "Nəriman Nərimanov haqqında xatirələr" mətnindəki cümlələri növbə ilə ucadan oxuyurlar. Hər abzası oxuyub bitirdikdən sonra müəllim faktoloji suallar verməklə şagirdlərin həmin hissəni nə dərəcədə oxuyub-qavradıqlarını yoxlayır. Müəllim şagirdlərdən tanış olmayan sözlərin (*xatirə, səmimi, müalicə etmək, yazıçı, körpələr evi*) təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, uyğun abzasların sonuna əlavə edirlər. Beləliklə, hər bir abzasın məzmununu anladıqlarını nümayiş etdirirlər. Doğru cavablar: 1 – b, 2 – c, 3 – a.

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyurlar. Mətndən həmin fikirləri təsdiq edən cümlələr seçməklə əsaslandırırlar. Oxuyub-qavramanı yoxlayan bu tapşırıq eyni zamanda şagirdlərin diqqətini obrazın təsvirinə yönəldir.

**"Faydalı məsləhət" rubrikası.** Şagirdlərin diqqəti "Faydalı məsləhət" rubrikasına yönəldilir. Verilmiş nümunə əsasında obrazın təsviri haqqında tövsiyələr verilir.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan yaradır. Eyni zamanda şagirdlərin diqqətini obrazın təsviri üçün lazımi məqamlara yönəldir.

### Danışma

1.2.1 **Tapşırıq D (dərslik).** Şagirdlər mətnin məzmununa əsasən onlara təqdim edilmiş plan əsasında Nəriman Nərimanov obrazını təsvir edirlər.

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər plan əsasında ailə üzvlərindən birini təsvir edən mətn yazırlar. Müəllim şagirdlərin diqqətini yarımbaşlıqlara yönəldir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tap. A (dərslik) |
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. B (dərslik) |
| Nitqində yeni öyrəndiyi sözlərdən kontekstə uyğun istifadə edir. | "Söz boğçası" rubrikası |
| Verilmiş cümlələrin mətndəki yerini müəyyən edir. | Tap. C (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. Ç (dərslik) Tap. A (iş dəftəri) |
| Əlamət bildirən sözlərdən istifadə etməklə varlığı təsvir edir. | Tap. D (dərslik) |
| Plan əsasında təsviri mətn yazır. | Tap. B (iş dəftəri) |

LAYİHƏ

## 6-cı dərs. Təsvir

• Dərslik: səh. 47-48 • İş dəftəri: səh. 30

| Təlim məqsədləri |
|---|
| • Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).<br>• Eyni məna qrupuna aid olan sözləri kontekstə görə fərqləndirir (st. 2.1.2).<br>• Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir (st. 2.2.5).<br>• Varlığın əlamətlərini sadalamaqla təsvir edir (st. 1.2.1).<br>• Kontekstə uyğun olaraq sözün əksmənalı qarşılığını seçir (st. 2.1.3). |

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Hadisələrlə hisslərin uyğunlaşdırılması |
| 2 | **Oxuyub-qavrama** | Təsvirə uyğun obrazın müəyyənləşdirilməsi |
| 3 | **Söz ehtiyatı** | Hisslərin adının müəyyənləşdirilməsi |
| 4 | **Oxuyub-qavrama** | Hisslərin səbəbinin müəyyənləşdirilməsi |
| 5 | **Danışma** | Süjetli şəkil kompozisiyası üzrə iş |
| 6 | **Söz ehtiyatı** | Əksmənalı ad, əlamət və say bildirən sözlərin müəyyənləşdirilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhənin sol tərəfinə "Sabah babamla göbələk yığmağa gedəcəyəm", "Bu gün başım ağrıyır" cümlələrini yazır. Lövhənin sağ tərəfinə şən və kədərli smaylik yapışdırır. Şagirdlər cümlələri oxuyur və smayliklərlə uyğunlaşdırırlar. Daha sonra seçimlərinin səbəbini izah edirlər. Bununla da şagirdlərin diqqəti mimikalara, bu hisslərin yaranma səbəblərinə – situasiyalara yönəlir.

### Oxuyub-qavrama

**2.2.4** **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə əvvəlki dərslərdə tanış olduqları obrazları xatırladır (Süsən, Hippo, Leylək, Nəriman Nərimanov). Onlar tapşırıqda verilmiş cümlələri oxuyur, təsvirlərə uyğun olan obrazın adını tapırlar. Tapşırıq şagirdlərə bu fəsildə oxuduqları mətnlərin məzmununu xatırlatmaqla yanaşı, onların diqqətini obrazın təsviri üçün lazımi məqamlara (obrazla ümumi tanışlıq, xarici görünüş, xarakteri) yönəldir.

### Söz ehtiyatı

**2.1.2** **Tapşırıq A (iş dəftəri).** Tapşırıqda şagirdlərə obrazların rastlaşdığı müxtəlif situasiyalar təqdim edilib. Onlar verilmiş situasiya uyğun olaraq obrazın keçirdiyi hissin adını yazmalı və həmin hiss bildirən sözə müvafiq olan smayliki müəyyənləşdirməlidirlər. Bununla şagirdlərin söz ehtiyatı möhkəmləndirilir və məntiqi təfəkkürü inkişaf etdirilir.

### Oxuyub-qavrama

**2.2.5** **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, nümunəyə əsasən cədvəli doldururlar. Bu tapşırıqda şagirdlər əsas qəhrəmanların keçirdiyi hisslərin səbəbini araşdırırlar. Şagirdlər şəxsi (Rasim), onun düşdüyü situasiyanı( komandası qalib gəlib) və bu situasiyaya uyğun keçirdiyi hissi (sevinc) fərqləndirərək cədvəlin uyğun sütunlarında qeyd edirlər.

### Danışma

**1.2.1** **Tapşırıq B (dərslik).** Şagirdlər açar sözlərdən istifadə etməklə süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışırlar. Əvvəlcə hadisələrin baş verdiyi məkanı, daha sonra əsas obrazları təsvir edirlər. Şagirdlər obrazların rastlaşdığı situasiyanı müəyyənləşdirir, onların keçirdikləri hiss-həyəcanı təsvir edirlər.

### Söz ehtiyatı

**2.1.3** **Tapşırıq C (dərslik). Dil qaydaları ilə inteqrasiya.** Şagirdlər bir-birinə əksmənalı olan sözləri müəyyənləşdirir, eyni zamanda həmin sözləri cümlədə işlətmək üçün situasiyalar düşünürlər. Bu tapşırıq şagirdlərin I sinifdə əksmənalı sözlər haqqında aldıqları məlumatı yada salır. Müəllim onların diqqətini "Bunları bilməliyik" rubrikasına yönəldir. Şagirdlərə bu mövzuda daha bir məlumat (əksmənalı sözlərin eyni suala cavab verməsi) izah edilir.

**Tapşırıq Ç (dərslik).** Bu tapşırıq şagirdlərdə ad, əlamət, say bildirən sözləri fərqləndirmək, eyni zamanda əksmənalı sözləri müəyyən etmək bacarıqlarının inkişafına yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. A (dərslik) |
| Sözlərdən situasiyaya uyğun istifadə edir. | Tap. A (iş dəftəri) |
| Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir. | Tap. B (iş dəftəri) |
| Şəkil və plan əsasında təsviri xarakterli mətn qurur. | Tap. B (dərslik) |
| Sözlərin əksmənalı qarşılığını müəyyən edir. | Tap. C, Ç (dərslik) |

LAYİHƏ

## fəsil 3 İDMAN

### 1-ci dərs. “Qələbə”

• Dərslik: səh. 49-50 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1)
• Mətndən faktlar gətirməklə fikrini əsaslandırır (st. 2.2.4).
• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Sözləri sətirdən-sətrə düzgün keçirir (st. 4.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “İdman” anlayışı üzrə şaxələndirmə |
| 2 | **Danışma** | Şəkil üzrə söhbət |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Qələbə” mətninin oxusu. "Söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Sual-cavab, obrazın xarakterinin səciyyələndirilməsi, səbəb-nəticə əlaqəli cümlələrin uyğunlaşdırılması |
| 5 | **Dil qaydaları** | Sözlərin sətirdən-sətrə keçirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə

**Şaxələndirmə.** Müəllim lövhədə dairə çəkir, içərisinə “İdman” sözünü yazır. Şagirdlər bu anlayışla bağlı sözlər (İdman növlərinin, idmançıların adı ola bilər.), fikirlər səsləndirirlər, müəllim dairənin kənarından şaxələr çəkməklə həmin fikirləri qeyd edir.

#### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər şəkildə gördüklərini təsvir edir, bildikləri məlumatlara əsasən idman növləri haqqında danışırlar. Müəllim tapşırıqda verilmiş ikinci şəklin təsviri zamanı aşağıdakı tövsiyələri nəzərə almalıdır.

**Müəllimin nəzərinə!** Bu fəsildə şagirdlərə paralimpiya haqqında məlumat veriləcək, əlil idmançıların uğurlarından bəhs ediləcək. Müəllimlərə bu həssas mövzuya diqqətlə yanaşmaları tövsiyə edilir. Bu fəslin kompetensiyasına daxildir:

• əlil insanların cəmiyyətə adaptasiyası, onların sevdikləri işlərlə məşğul olmasına şəraitin yaradılması;
• belə insanların halına acımaq əvəzinə onlarda özünəinam hissinin yaradılmasına yardım olunması;
• əlil insanlara cəmiyyətdə özlərini rahat hiss etmələri üçün sağlam mühitin yaradılması və s.

#### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). Növbəli oxu.** Şagirdlər “Qələbə” mətnini növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Hər abzası oxuyub bitirdikdən sonra müəllim faktoloji suallar verməklə şagirdlərin həmin hissəni nə dərəcədə oxuyub-qavradıqlarını yoxlayır.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

#### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər mətnin 1-ci abzasında verilmiş məlumata əsaslanaraq sualı cavablandırırlar. Bununla onlar mətni diqqətlə oxuduqlarını, mətndən aldıqları məlumatları düzgün analiz etdiklərini göstərirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyurlar. Mətndə göy rənglə fərqləndirilmiş cümlələrlə uyğunlaşdıraraq obrazın xarakterini səciyyələndirirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, mətndən aldıqları məlumatlara əsaslanaraq doğru, yoxsa yanlış olduğunu müəyyənləşdirirlər. Tapşırıq müəllimə şagirdlərin mətni nə dərəcədə diqqətlə oxuduqlarını izləməyə imkan yaradır.

2.2.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş səbəb-nəticə məzmunlu cümlələri uyğunlaşdırırlar. Məqsəd şagirdlərin diqqətini mətndəki səbəb-nəticə əlaqəsini izləməklə analiz etmək bacarığının inkişafına yönəlib.

#### Dil qaydaları

4.1.2 **Tapşırıq D (dərslik).** Tapşırıq sözlərin sətirdən-sətrə keçirilməsi qaydaları üzrə möhkəmləndirmə məqsədi daşıyır.

#### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tap. A (dərslik) |
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. B (dərslik) |
| Mətndən faktlar gətirməklə fikrini əsaslandırır. | Tap. C, Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətndəki hadisələrlə bağlı *niyə? nə üçün?* suallarına cavab verir. | Tap. B (iş dəftəri) |
| Sözləri sətirdən-sətrə düzgün keçirir. | Tap. D (dərslik) |

## 2-ci dərs. Fakt və münasibət

• Dərslik: səh. 51-52 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

• Mətndə fakt və münasibət ifadə edən fikirləri fərqləndirir (st. 2.2.2).
• Suallara və illüstrasiyalara əsasən dinlədiyi mətni şərh edir (st. 1.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Qələbə” mətnin xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | "Fakt" və "münasibət" anlayışlarının mənimsədilməsi |
| 3 | **Dinləmə** | Olimpiya oyunlarının simvolları haqqında dinləmə mətni |
| 4 | **Oxuyub-qavrama** | Fakt və münasibət bildirən cümlələrin yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edir:

– *“Qələbə” mətnindən (keçən dərs tanış olduğumuz) Olimpiya oyunları haqqında nə öyrəndiniz?*

– *Hökmdar ölkəsinə, əhalisinə necə münasibət göstərirdi?*

Şagirdlər bu sualları cavablandırarkən oxuduqları mətndəki faktları xatırlayacaq, hökmdarın xalqa olan münasibətini dəyərləndirəcəklər. Bununla da onların diqqəti “fakt və münasibət” anlayışına yönəldilir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur və hansı cümlənin münasibət bildirdiyini (*Məncə, hökmdar ədalətli hərəkət etdi*) müəyyənləşdirirlər.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edir. Şagirdlərə fakt və münasibət bildirən cümlələri fərqləndirməyin yollarını izah edir.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərə tanış olan mövzulara əsaslanaraq fakt bildirən cümlələr söyləmək tövsiyə edilir. Bu məqsədlə 1-ci sinifdə tanış olduqları “Göyqurşağı necə yaranır?”, “İlbizlər”, ”Vətənimizi tanıyaq” kimi mövzuları xatırlatmaq olar. Bu mövzularla bağlı aşağıdakı fakt bildirən cümlələrdən istifadə etmək olar:

• *Göyqurşağının yeddi rəngi var.*
• *Göyqurşağı qövs şəklindədir.*
• *İlbizlərin çanağı bərk olur.*
• *İlbizlərin kiçik buynuzları var.*
• *Azərbaycanın bayrağı üçrənglidir.*
• *Neft daşları Xəzər dənizində yerləşir.*

İlkin mərhələdə şagirdlərə elə faktlar söyləmək lazımdır ki, onları sübut etmək asan olsun; məsələn, şəkildə göyqurşağının, bayrağımızın rənglərini saymaqla, lövhədə şəklini çəkməklə, şəklini göstərməklə, toxunmaqla söylədiklərinin həqiqi olduğunu asanlıqla sübut etmək mümkündür.

Bu mövzularla bağlı aşağıdakı münasibət bildirən cümlələrdən istifadə etmək olar:

• *Məncə, göyqurşağına gözəllik verən bənövşəyi rəngdir.*
• *Mən ilbizdən qorxuram.*
• *Biz bayrağımızla fəxr edirik.*

Münasibət bildirən cümlələrdə, əsasən, hiss və emosiyalar ifadə edilir ki, bu fəsildə də məhz hiss və emosiyalarla bağlı söz ehtiyatı mənimsədilir. Bu da şagirdlərə hiss və emosiya bildirən sözlərdən düzgün istifadə etməyə, münasibət bildirməyə kömək edəcək.

**Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, fakt və ya münasibət bildirdiyini müəyyənləşdirirlər. Bununla da “Bunları bilməliyik” rubrikasından aldıqları bilikləri tətbiq edirlər. (**Düzgün cavablar:** *fakt, münasibət, münasibət, fakt*)

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda nərd oyunu haqqında verilmiş cümlələri oxuyur, fakt və ya münasibət bildirdiyini müəyyənləşdirirlər.

LAYİHƏ

Şagirdlərə cümlələri oxuduqca illüstrasiyaya baxmağı tövsiyə etmək lazımdır. Tapşırıq fakt və münasibət haqqında biliklərin möhkəmləndirilməsinə yönəlib. (**Düzgün cavablar:** *1 – fakt, 2 – münasibət, 3 – fakt, 4 – fakt, 5 – münasibət, 6 – fakt*)

**Dinləmə**

1.1.1 **Tapşırıq C (dərslik).** Müəllim Olimpiya simvolları haqqında dinləmə mətni səsləndirir. Dinləmə fəaliyyəti abzaslarla yerinə yetirilir. Müəllim hər bir abzası səsləndirdikdən sonra fasilə verir, şagirdlər dinlədikləri hissəyə aid şəkli müəyyən edirlər.

**Dinləmə mətni**

*Olimpiya oyunlarının şüarında qaçış, hündürlüyə tullanma və ağırlıq qaldırma idman növlərinin işarələri var.* (**Düzgün cavab:** *3*) *Qədim Olimpiya oyunlarında qaliblər qızıl, gümüş, bürünc medallarla deyil, müqəddəs zeytun budaqlarından hörülmüş çələnglə mükafatlandırılırdılar.* (**Düzgün cavab:** 4)

*Bir-birinə ardıcıl keçirilmiş göy, sarı, qara, yaşıl və qırmızı rəngli halqalar Olimpiya oyunlarının əsas simvoludur. Bu rənglər bütün ölkələrin bayraqlarında istifadə olunan rənglərdir. Bunlar əsl dostluq rəmzidir.* (**Düzgün cavab:** 1)

*Olimpiya məşəli Yunanıstanda Olimp dağında yandırılır. Daha sonra oyunların keçiriləcəyi ölkələr ətrafında səyahət etdirilir.* (**Düzgün cavab:** 2)

**Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqdakı cümlələri oxuyur, dinləmə mətnindən aldıqları məlumatlara əsasən uyğunlaşma aparırlar. (*1 – Olimpiya halqaları; 2 – Olimpiya şüarı; 3 – Olimpiya məşəli; 4 – Olimpiya çələngi*)

**Oxuyub-qavrama**

2.2.2 **Tapşırıq D (dərslik). Yazı ilə inteqrasiya. Qruplarla iş.** Şagirdlər dinləmə mətnindən aldıqları məlumatlara əsaslanaraq onlara təqdim edilmiş mövzuya aid fakt və münasibət ifadə edən cümlələr yazırlar. Tapşırıq yerinə yetirilməzdən öncə şagirdlərin diqqətinə "Faydalı məsləhət" rubrikasının çatdırılması tövsiyə olunur.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər xokkey idman növü haqqında fakt və münasibət bildirən cümlələr yazaraq bu mövzunu nə dərəcədə qavradıqlarını nümayiş etdirirlər. Cümlələr təxminən belə ola bilər: **Fakt** – *Xokkey buz üstündə oynanılır.* **Münasibət** – *Xokkey maraqlı oyundur.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fakt və münasibət bildirən cümlələri müəyyənləşdirir. | Tap. A,B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Suallara və illüstrasiyalara əsasən dinlədiyi mətni şərh edir. | Tap. C (dərslik)<br>Tap. Ç (dərslik) |
| Fakt və münasibət bildirən cümlələr yazır. | Tap. D (dərslik)<br>Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdlərə Paralimpiya çempionu İlham Zəkiyev haqqında məlumat veriləcək. Bu məqsədlə müəllimə növbəti dərsdə nümayiş etdirmək üçün İlham Zəkiyevin qalibiyyətlərini əks etdirən videoları əldə etmək tövsiyə olunur.

## 3-cü dərs. "Uğurun sirri" (I hissə)

• Dərslik: səh. 52-53 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**

• Suallara və illüstrasiyalara əsasən dinlədiyi mətni şərh edir (st. 1.1.1).
• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir (st. 2.2.5).
• Əsərdəki obrazın xarakterik cəhətini müvafiq əlamət bildirən sözlə adlandırır (st. 2.1.1).
• Sözün kontekstə görə mənasını yaxınmənalı sözün köməyi ilə izah edir (st. 2.1.3).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İlham Zəkiyev haqqında videonun nümayişi |
| 2 | **Dinləmə** | Paralimpiya oyunlarının yaranması haqqında dinləmə mətni |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Uğurun sirri" mətninin oxusu |
| 4 | **Danışma** | Hadisələrin davamının təxmin edilməsi |
| 5 | **Söz ehtiyatı** | Sözlərin yaxınmənalı qarşılıqlarının müəyyən olunması |
| 6 | **Oxuyub-qavrama** | Obrazın təsviri |
| 7 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

**Beyin həmləsi.** Müəllim şagirdlərə İlham Zəkiyevin qalibiyyətlərini əks etdirən videoları nümayiş etdirir.

LAYİHƏ

### Dinləmə

**1.1.1** **Tapşırıq C (dərslik).** Müəllim Paralimpiya oyunlarının yaranması haqqında dinləmə mətni səsləndirir.

**Paralimpiya haqqında dinləmə mətni**

*Dünyada Olimpiya oyunları ilə yanaşı, Paralimpiya oyunları da keçirilir. Bu idman yarışlarında əlil idmançılar iştirak edir, öz bacarıqlarını nümayiş etdirirlər.*

*Paralimpiya oyunları ilk dəfə Londonda keçirilib. Bu oyunların keçirilməsini britaniyalı həkim Lüdviq Quttman təklif edib. O, müharibədə əlil olmuş əsgərlərin müalicəsi zamanı bu fikrə gəlib. Lüdviq Quttman bilirdi ki, idman bu gənclərə həyatlarına davam etməkdə kömək edəcək.*

*Paralimpiya çempionları isə sübut etdilər ki, həqiqətən də, hər kəsin idmanla məşğul olmaq haqqı var.*

Şagirdlər dinlədikləri məlumatları əks etdirən şəkilləri müəyyən edirlər.

### Oxu. Söz ehtiyatı

Müəllim mətnin oxunmasından əvvəl şagirdlərə oxu zamanı əsas obrazın xarakterinə diqqət etməyi tapşırır.

**2.2.1** **Tapşırıq B (dərslik). Növbəli oxu.** Şagirdlər "Uğurun sirri" mətnindəki cümlələri növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Hər abzası oxuyub bitirdikdən sonra müəllim faktoloji suallarla (*İlham hansı döyüşlərdə yaralanmışdır? Neçə yaşı var idi? O nə haqda xəyallar qururdu? O, xaraktercə necə insan idi?*) şagirdlərin həmin hissəni nə dərəcədə oxuyub-qavradıqlarını yoxlayır. Müəllim şagirdlərdən tanış olmayan söz və söz birləşmələrinin (*sükuta qərq olmaq, mübarizə aparmaq, görmə qabiliyyəti, nikbin, ümidini itirmək*) təxmini mənasını soruşur. Sonra onların dəqiq mənasını açıqlayır. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

### Danışma

**2.2.5** **Tapşırıq C (dərslik).** Şagirdlər mətnin son abzasına əsaslanaraq hadisələrin davamını təxmin edirlər.

### Söz ehtiyatı

**2.1.1** **Tapşırıq Ç (dərslik).** Şagirdlər obrazın təsvirini verən sözləri dəftərlərinə qeyd edir, onları yaxınmənalı sözlərlə əvəz etməklə mənasını anladıqlarını sübut edirlər (*ucaboylu – hündür, yaraşıqlı – gözəl, yumşaq saçlar – ipək kimi saçlar, qara saçlar – tünd saçlar*).

**2.1.2** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş sözlərin yaxınmənalı qarşılığını seçməklə həmin sözlərin izahını verməyi bacardıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər "A" tapşırığındakı sözləri cümlələrdə uyğun boşluqlara yazmaqla həmin sözləri kontekstə uyğun istifadə etməyi bacardıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

**2.2.4** **Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan yaradır. Eyni zamanda şagirdlərin diqqətini obrazın təsvir edilməsi üçün lazımi məqamlara yönəldir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnin məzmununa uyğun illüstrasiyanı müəyyənləşdirir. | Tap. A (dərslik) |
| Ucadan oxuduqdan sonra mətnlə bağlı faktoloji suallara cavab verir. | Tap. B (dərslik) |
| Mətnin davamını təxmin edir. | Tap. C (dərslik) |
| Mətndən obrazı təsvir edən sözləri seçir və yaxın mənası ilə əvəz edir. | Tap. Ç (dərslik) |
| Sözün kontekstə görə mənasını yaxınmənalı sözün köməyi ilə izah edir. | Tap. A, B (iş dəftəri) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. C (iş dəftəri) |

## 4-cü dərs. "Uğurun sirri" (II hissə)

• Dərslik: səh. 54 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri**

• Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur (st. 2.2.1).
• Mətnin hissələrini yarımbaşlıqlar və ya sual cümlələri ilə ifadə edir (st. 2.2.3).
• Mətndə fakt və hadisələrin aid olduğu hissələri müəyyən edir (st. 2.2.3).
• Mətndə fakt və münasibət ifadə edən fikirləri fərqləndirir (st. 2.2.2).
• Varlığın əlamətlərini sadalamaqla təsvir edir (st. 1.2.1).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Uğurun sirri" mətninin davamının təxmin edilməsi |
| 2 | **Oxu** | "Uğurun sirri" mətninin II hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndən fakt və münasibət bildirən fikirlərin müəyyənləşdirilməsi |
| 4 | **Danışma** | Obrazın təsvir edilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər "Uğurun sirri" mətninin davamı ilə bağlı ötən dərsdə təxmin etdiklərini söyləyirlər. Bu, şagirdlərdə mətnin ikinci hissəsinin oxunmasına maraq yaradır.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərə "Uğurun sirri" mətninin II hissəsini oxumaq üçün vaxt verilir. Bu vaxt ərzində şagirdlər mətni səssiz şəkildə oxuyurlar.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş başlıqları oxuyurlar. "Uğurun sirri" mətninin nömrələnmiş abzasları ilə uyğunlaşdırırlar. Bununla da mətnin hər bir abzasının məzmununu qavradıqlarını nümayiş etdirirlər. "Qalibiyyət" – 3, "Ananın duası" – 1; "Gələcəyə inam" – 2.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər mətndəki fakt və hadisələri mətnin planına uyğun qruplaşdırmaq bacarığını nümayiş etdirirlər.

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, fakt və ya münasibət bildirdiyini müəyyənləşdirirlər. Tapşırıq "fakt" və ya "münasibət" anlayışları üzrə bilik və bacarıqların möhkəmləndirilməsinə yönəlib. (**Düzgün cavablar:** *fakt, münasibət, münasibət, fakt, münasibət*)

**Tapşırıq B (iş dəftəri).** Məqsəd mətndəki əsas fikri ifadə edən "Ümid uğurun açarıdır" nəticəsinə gəlməkdir.

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər mətnin məzmununa uyğun tərtib edilmiş plan əsasında İlham Zəkiyev obrazını təsvir edirlər. Bununla şagirdlərdə ardıcıllıqla təsviretmə bacarıqları inkişaf etdirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur. | Tap. A (dərslik) |
| Mətnin abzaslarını yarımbaşlıqlarla adlandırır. | Tap. B (dərslik) |
| Mətndə fakt və hadisələrin aid olduğu hissələri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndə fakt və münasibət ifadə edən fikirləri fərqləndirir. | Tap. C (dərslik) |
| Varlığın əlamətlərini sadalamaqla təsvir edir. | Tap. Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdləri Azərbaycan Respublikası Milli Paralimpiya komitəsi haqqında məlumatlandırmaq məqsədilə müəllimə videolar əldə etmək tövsiyə olunur.

## 5-ci dərs. "Məktub"

• Dərslik: səh. 55 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**

• Sözün kontekstə görə mənasını yaxınmənalı sözün köməyi ilə izah edir (st. 2.1.3).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Başlıq, altbaşlıq, yarımbaşlıq, epiqraf, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunun təqdim edilməsində rolunu dəyərləndirir (st. 2.2.3).
• Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
• Sözləri sətirdən-sətrə düzgün keçirir (st. 4.1.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi haqqında videoların nümayişi |
| 2 | **Oxu. Söz ehtiyatı** | Məktubun oxusu, "Söz boğçası" üzrə iş. |
| 3 | **Oxuyub-qavrama** | Mətnin tərkib hissələri və məzmunu üzrə iş. |
| 4 | **Dil qaydaları** | Sözlərin sətirdən-sətrə keçirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi haqqında videoları nümayiş etdirir və bu təşkilat haqqında məlumat verir.

LAYİHƏ

### Oxu. Söz ehtiyatı

**Tapşırıq A (dərslik).** Müəllim mətnin oxunmasından əvvəl şagirdlərə oxu prosesində hər bir abzasın məzmununa diqqət etməyi tapşırır. Bu vaxt ərzində şagirdlər mətni səssiz oxuyurlar.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin (*çəkinmək, haqq, təşkilat*) təxmini mənasını soruşduqdan sonra onların dəqiq mənasını açıqlayır. Daha sonra şagirdlər sözləri cümlələrdə işlədirlər.

2.1.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər cümlələrdəki fərqləndirilmiş sözləri yaxınmənalı qarşılığı ilə əvəz edib yazırlar. Bununla da həmin sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sualları cavablandırmaqla oxuyub-qavrama bacarıqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər mətndən “Sadəcə özünə inan, idmanla məşğul olmaq hamının haqqıdır” cümləsini seçməklə mətnin məzmunu ilə bağlı ümumiləşdirmə edirlər.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirməklə verilmiş cümlənin mətndəki yerini müəyyənləşdirmək bacarığını nümayiş etdirirlər.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər mətnə çəkilmiş illüstrasiyaya əsasən mətndə göy rənglə fərqləndirilmiş cümləni şərh edirlər. Tapşırıq onlarda illüstrasiyanın mətnin məzmununun təqdim edilməsində rolunu dəyərləndirmək bacarığını inkişaf etdirir.

2.2.5 **Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığını, həm də söz ehtiyatnı inkişaf etdirir.

### Dil qaydaları

4.1.2 **Tapşırıq E (dərslik). Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqlar şagirdlərdə sözlərin sətirdən-sətrə keçirilməsi qaydaları üzrə bilik və bacarıqların möhkəmləndirilməsi məqsədi daşıyır.

Şagirdlər tapşırıqda verilmiş sözləri oxuyur, həmin sözləri əvvəlcə hecalara ayırır, daha sonra sətirdən-sətrə keçirilməsi qaydasını izah edir, düzgün keçirilmə variantlarını göstərirlər.

> **Müəllimin nəzərinə!** Tapşırığın yerinə yetirilməsindən öncə sözün sətirdən-sətrə keçirilməsi qaydalarını xatırlatmaq tövsiyə olunur:
>
> *– Bir saitdən ibarət hecanı sətrin sonunda saxlamaq və ya yeni sətrə keçirmək olmaz.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün kontekstə görə mənasını yaxınmənalı sözün köməyi ilə izah edir. | Tap. A (iş dəftəri) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. B, C (dərslik) |
| Mətndə fakt və hadisələrin aid olduğu hissələri müəyyən edir. | Tap. B (iş dəftəri) |
| İllüstrasiyanın mətnin məzmununun təqdim edilməsində rolunu dəyərləndirir. | Tap. Ç (dərslik) |
| Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir. | Tap. D (dərslik) |
| Sözlərin sətirdən-sətrə keçirilməsi qaydalarını tətbiq edir. | Tap. E (dərslik)<br>Tap. C (iş dəftəri) |

## 6-cı dərs. Ümumiləşdirici dərs

• Dərslik: səh. 56 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri**

• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Tanış atalar sözlərindən mətnin ideyasına uyğun olanını seçir (st. 2.2.4).
• Əlamət bildirən sözləri məna qruplarına görə (rəng, dad və s.) fərqləndirir (st. 4.1.5).
• Mətndə fakt və münasibət ifadə edən fikirləri fərqləndirir (st. 2.2.2).
• Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır (st. 2.1.1).
• Sözləri sətirdən-sətrə düzgün keçirir (st. 4.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölməyə aid fəsil adlarının xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | Bölmənin fəsilləri üzrə ümumiləşdirmə |
| 3 | **Dil qaydaları** | Əlamət bildirən sözlərin məna növləri |
| 4 | **Oxuyub-qavrama** | Fakt və münasibət bildirən cümlələrin fərqləndirilməsi |
| 5 | **Söz ehtiyatı** | Hiss bildirən sözlər üzrə iş |
| 6 | **Dil qaydaları** | Sözlərin sətirdən-sətrə keçirilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

LAYİHƏ

### Mövzuya yönəltmə

Şagirdlər 2-ci bölmənin səhifələrini vərəqləyərək fəsillərin adlarını xatırlayırlar. Onlar bölmə üzrə öyrəndikləri mövzular haqqında öz təəssüratlarını bölüşürlər.

**Müəllimin nəzərinə!** Bölmə üzrə fəsillərin xatırlanması dərslikdəki "A" tapşırığının yerinə yetirilməsinə hazırlıq məqsədi daşıyır. Müəllimin yönəldici sualları vasitəsilə hər fəsil üzrə aşağıdakı anlayış və mövzular xatırlanır:

"Gün rejimi" – cədvəl, məktub, sözlərin sətirdən-sətrə keçirilməsi;

"Hisslər və emosiyalar" – təsvir, mimika və jestlər, əlamət bildirən sözlərin məna növləri;

"İdman" – Olimpiya və Paralimpiya oyunları, fakt və münasibət.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (dərslik). Dil qaydaları ilə inteqrasiya.** Şagirdlər hərflərin sıra nömrələrindən istifadə edərək açar sözləri müəyyənləşdirir, bu sözlərin bölmənin hansı fəslinə aid olduğunu tapırlar. Tapşırıq hərflərin əlifba sırasının və mövzuların təkrarına yönəlib.

Şifrlənmiş sözlər: *təsvir, məktub, paralimpiya.*

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş atalar sözünü oxuyur, hansı fəslin ideyasına uyğun olduğunu müəyyənləşdirməklə oxuduğunu qavradığını, əsas fikri müəyyənləşdirə bildiyini nümayiş etdirir.

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş tapmacaları oxuyurlar. Tapmacalarda əlamət bildirən sözləri seçərək tapmacaların cavablarını müəyyənləşdirirlər. Həmin sözləri verilmiş cədvəl üzrə qruplaşdırmaqla əlamət bildirən sözlərin məna növlərini tanıdıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq əlamət bildirən sözlərin məna növləri üzrə öyrədilən biliklərin yoxlanılmasına xidmət edir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Tapşırıq bölmənin fəsilləri üzrə ümumiləşdirmə məqsədi daşıyır. Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, cümlələrin bölmənin hansı fəslinə aid olduğunu və həmin cümlənin fakt və yaxud münasibət ifadə etdiyini müəyyənləşdirib cədvəlin müvafiq xanasında qeyd edirlər.

**Faktlar:** 1, 5, 6.

**Münasibət:** 2, 3, 4.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq C (iş dəftəri). Dil qaydaları ilə inteqrasiya.** Tapşırıq şagirdlərin bölmədə öyrədilən hiss-həyəcan ifadə edən sözlər üzrə söz ehtiyatını möhkəmləndirmək məqsədi daşıyır.

### Dil qaydaları

4.1.2 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş sözləri oxuyurlar. Hər sırada verilmiş sətirdən-sətrə keçirilə bilməyən sözləri (*inam, ümid, uğur*) müəyyənləşdirirlər. Bu tapşırıq şagirdlərin sözlərin sətirdən-sətrə keçirilməsi qaydalarını necə mənimsədiklərini yoxlamağa imkan verir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. A (dərslik) |
| Tanış atalar sözlərindən mətnin ideyasına uyğun olanını seçir. | Tap. A (iş dəftəri) |
| Əlamət bildirən sözləri məna qruplarına görə (rəng, dad və s.) fərqləndirir. | Tap. B (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Mətndə fakt və münasibət ifadə edən fikirləri fərqləndirir. | Tap. C (dərslik) |
| Verilmiş sözləri aid olduqları ümumi anlayışlar üzrə qruplaşdırır. | Tap. C (iş dəftəri) |
| Sözləri sətirdən-sətrə düzgün keçirir. | Tap. Ç (iş dəftəri) |

LAYİHƏ

# bölmə 3 TƏBİƏTİN SİRLƏRİ

| Mövzu | | **Təbiətin sirləri** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Şəkil və ya plan əsasında danışma<br>• Şəkillər üzrə kiçik dialoqun qurulması<br>• Şifahi təqdimat |
| | Söz ehtiyatı | • Sözlərin ümumi məna üzrə təsnifatlaşdırılması<br>• Yeni sözlər: qəribsəmək, okean, düz, yağıntı, qovrulmaq, yamac, çeşmə, qonur, səhra, hürgüc, tarixçə, zabit, nəvazişlə, rəhmi gəlmək, sakin, qələmə almaq, kələ-kötür, çirkin, həsrətlə, dərman, heybə, vidalaşmaq, çağırış, daşındırmaq |
| | Oxu | • Dialoqlarda obrazların nitqinin fərqləndirilməsi<br>• Obrazların nitqinin məzmununu nəzərə alaraq mətnin oxunması<br>• Bədii və elmi mətnlərin fərqləndirilməsi<br>• Qrafik simvolların təsviri |
| | Yazı | • Hekayə xəritəsinə və şəkillərə əsasən bədii mətnin yazılması<br>• Plan əsasında elmi mətnin yazılması<br>• Oxunan mətnin plan əsasında qısa məzmununun yazılması<br>• Araşdırma işi |
| Akademik biliklər | Dil qaydaları | • Dialoqda durğu işarələri<br>• Hərəkətin zamanı<br>• Sadalanan sözlər arsında vergül işarəsi<br>• Əmr cümləsi<br>• Nida cümləsi<br>• Deyilişi və yazılışı fərqlənən sözlərdə *"ü-u"* və *"k-g"* hərflərinin düzgün yazılışı |
| | Filoloji anlayışlar | • Bədii və elmi mətnlər, əmr cümləsi, nida cümləsi, vergül, dialoq, tire, qoşa nöqtə |
| Kompetensiyalar | | • Təbiətə sevgi, təbiətin qorunması, təbiətdəki varlıqlara dəyər verilməsi, canlıların həyatının bir-biri ilə sıx bağlı olması, heyvanlara qayğı, xeyirxahlıq |

Bu bölmədə müxtəlif təbiət hadisələri, səma cisimləri, heyvanlar və bitkilər aləmi ilə bağlı müxtəlif mövzulardan bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, ətraf aləmlə bağlı söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Mətndəki obrazları sadə formada təhlil edir, onlara münasibət bildirir.

• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır.

• Sözləri hecalamadan, bütöv tələffüz etməklə oxuyur.

• Mətnə diqqətlə qulaq asır, mətn oxunan zaman kitabdan izləyir.

• Hüsnxət normalarına uyğun sərbəst yazır.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

• dialoqun qurulmasıı;

• şəkil üzrə mətn qurub yazma.

**Diferensial təlim**

Bu bölmənin tədrisi zamanı bir sıra filoloji anlayışların mənimsədilməsində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma faydalı ola bilər. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

•iş vərəqləri, heyvan və səma cisimlərinin şəkilləri, yaxınmənalı və əksmənalı sözlər yazılmış kartlar və s.

LAYİHƏ

## fəsil 1 TƏBİƏT HADİSƏLƏRİ

### 1-ci dərs. “Kim daha güclüdür?”

• Dərslik: səh. 57-58 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri**
• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (ü-u, a-ə) və samitlərin (k-g, t-d) düzgün yazılış qaydalarına riayət edir (st. 4.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmənin məzmununun təxmin edilməsi |
| 2 | **Danışma** | Bölmə titulundakı şəkil və suallar üzrə iş |
| 3 | **Oxu** | "Kim daha güclüdür?" mətninin oxusu |
| 4 | **Yazı** | Şəklə uyğun mətndən cümlələrin seçilib yazılması |
| 5 | **Dil qaydaları** | "Sözlərin yazılışı" rubrikası üzrə iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə
Müəllim şagirdlərin diqqəti bölmənin titul səhifəsində verilmiş şəkillərə yönəldir və soruşur:
*– Sizcə, bu bölmədə nə haqqında danışılacaq?*

#### Danışma
1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər sualları cavablandırmaqla şəkillər üzrə danışırlar.
Bununla şagirdlərin bölmə üzrə ilkin bilikləri yoxlanılır.
**Tapşırıq B (dərslik).** Məqsəd şagirdləri həyatda gördükləri, müşahidə etdikləri təbiət hadisələri haqqında danışdırmaqla fəslin mövzusuna maraq oyatmaqdır. Şagirdlər danışarkən müəllim onların təbiət hadisələrinin adlarından istifadə etməsinə diqqət yetirməlidir (*şimşək, ildırım, qar, yağış, dolu, külək*).

#### Oxu
2.2.1 **Tapşırıq C (dərslik). Rollu oxu.** Müəllim mətndə “Günəş”, “Külək” obrazlarının və müəllifin sözlərini şagirdlər arasında bölüşdürür. Şagirdlər öz rollarına aid cümlələri oxuyarkən obrazın hiss-həyəcanını ifadə etmək üçün müvafiq səs tonu seçirlər.
2.2.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş illüstrasiyaların mətnin məzmununa uyğun ardıcıllığını müəyyənləşdirirlər. **Düzgün cavab:** 2-ci şəkil.
**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndən hər bir şəklin məzmununa uyğun müvafiq cümlələr seçib yazırlar. Bu həm şagirdlərin oxu, həm də yazı bacarıqlarını inkişaf etdirir.
Cümlələr: 1. *Bu zaman kişi bərk-bərk pencəyinə büründü.* 2. *Kişi istidən pencəyini soyundu.* 3. *Bu zaman yol ilə bir kişi gedirdi.*

#### Dil qaydaları
4.1.3 Şagirdlərin diqqəti "Sözlərin yazılışı" rubrikasına yönəldilir. Müəllim şagirdlərə rubrikadakı sözləri (“Şüa”, “qürur”, "mübahisə”) diqqətlə nəzərdən keçirməyi tapşırır. Sonra şagirdlər kitabları bağlayır, müəllimin səsləndirdiyi həmin sözləri dəftərlərinə yazırlar.
**Tapşırıq B (iş dəftəri).** Tapşırığın əsas məqsədi şagirdlərin sözlərin düzgün yazılışı üzrə biliklərini möhkəmləndirməkdir.

#### Formativ qiymətləndirmə
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Material |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tapşırıq A,B (dərslik) |
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tap. C (dərslik) |
| Şəkillərlə mətnin hissələri arasındakı uyğunluğu müəyyən edir. | Tap. Ç (dərslik) |
| Mətndən verilmiş şəklə uyğun cümlələr seçir. | Tap. A (iş dəftəri) |
| Səs və hərf tərkibi fərqlənən bəzi sözləri düzgün yazır. | Tap. B (iş dəftəri) |

### 2-ci dərs. “Günəş”

• Dərslik: səh. 59 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**
• Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir (st. 2.2.2).
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır (st. 3.1.3).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Günəşin əlamətlərinin sadalanması |
| 2 | **Oxu** | “Günəş” mətninin oxusu |
| 3 | **Yazı** | Elmi və bədii mətnin yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim lövhədə Günəş şəkli çəkir və ya “Günəş” sözünü yazır, kənarlarına isə şagirdlərin Günəş haqqında söylədikləri fikirləri qeyd edir.

**Oxu**

**Tapşırıq A, B (dərslik). Qruplarla oxu.** "Günəş" mətninin oxusundan əvvəl müəllim şagirdlərə oxu zamanı rast gəldikləri yeni məlumatları qeyd etməyi tapşırır. Qruplar mətndə oxuduqları yeni məlumatları qeyd edir, həmçinin mətnə aid üç sual tərtib edirlər. Sonda qrupların təqdimatı dinlənilir.

2.2.2 **Tapşırıq C (dərslik).** Tapşırığın məqsədi şagirdlərin diqqətini bədii mətn ilə elmi mətnlər arasındakı fərqə yönəltməkdir. Şagirdlər oxuduqları mətnləri müqayisə edərək "Günəş" mətnindən daha çox informasiya aldıqlarını söyləyirlər.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim bədii və elmi mətnlərlə bağlı verilən izahı oxuyur və yönəldici suallar verir:

– *1-ci sinifdə öyrəndiyiniz hansı mətnlərdə quşlar, heyvanlar, meyvələr, rənglər danışırlar?*

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə "Meyvələrin söhbəti", "Rənglərin söhbəti", "Qaragözün macərası", "İlbizin çanağı" və sair mətnləri xatırlada bilər.

2.2.2 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Hər qrupa mətnlərin bədii, yoxsa elmi olduğunu mətndən faktlar gətirməklə əsaslandırmaq tapşırılır. Bununla da şagirdlər elmi və bədii mətnləri fərqləndirmək bacarıqlarını nümayiş etdirirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər təxminən bu cavabları yaza bilərlər:

“**Bədii mətndir:** Günəş, Külək dil açıb danışır.
Hadisələr həqiqətə uyğun deyil”.

“**Elmi mətndir:** Günəş haqqında biliklər öyrənirik. Günəşin ulduz olması, Yerə yaxın olması, Yerə istilik və işıq verən tək səma cismi olması, Günəş olmadan heç bir canlının yaşaya bilməməsi”.

**Diferensial təlim.** Müəllim mətnin son abzası ilə bağlı fəal şagirdlərə belə bir tapşırıq verə bilər:

– “Günəş Yerə işıq və istilik verən yeganə səma cismidir” fikrini mətndən faktlar gətirməklə əsaslandırın.

**Yazı**

3.1.3 **Tapşırıq D (dərslik). Cütlərlə iş.** Tapşırıq şagirdlərin təxəyyülünü və yaradıcı təfəkkürünü inkişaf etdirməklə yanaşı, elmi mətn yazmaq bacarığını formalaşdırır. Əvvəlcə şagirdlər şəkillərə baxaraq fəsillər haqqında bildiklərini xatırlayaraq tapşırıqdakı suallar ətrafında müzakirələr aparırlar. Sonra cütlər birlikdə suallara cavab yazmaqla elmi mətn qururlar.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər əvvəlcə hekayə xəritəsini nəzərdən keçirir, hadisələrin baş verdiyi məkanı və zamanı, hadisələrin ardıcıllığını müəyyənləşdirirlər. Müəllimin "koğuş" (böyük ağacların gövdəsi içindəki boşluq) sözünün mənasını şagirdlərə izah etməsi tövsiyə olunur.

**Müəllimin nəzərinə!** Müəllim sinfin səviyyəsini nəzərə alaraq dinləmə mətni də səsləndirə bilər:

*– Biri var idi, biri yox idi. Meşədə ağacın koğuşunda arılar bal pətəyi qurmuşdular.*

*Bir yay günü ayı bal yemək istədi. O, pəncəsini ağacın koğuşuna saldı. Arılar tez ayıya hücum çəkdilər. Ayı qorxub qaçdı. Başa düşdü ki, zorla arılardan bal ala bilməyəcək.*

*Ayı arılara yavaş-yavaş yaxınlaşdı və nəzakətlə dedi: “Xahiş edirəm, mənə bal verin”. Arılar ayıya bal verdilər. Ayı arılara təşəkkür etdi.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və informativ mətnləri fərqləndirir. | Tap. A, B (dərslik) |
| Eyni mövzuda olan bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir. | Tap. C (dərslik) |
| Şəkillər və bildikləri məlumatlar əsasında elmi mətn qurur. | Tap. D (dərslik) |
| Şəkillər əsasında bədii mətn qurur. | Tap. A (iş dəftəri) |

LAYİHƏ

## 3-cü dərs. "Günəbaxan"

• Dərslik: səh. 60 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri**
• Suallara və illüstrasiyalara əsasən dinlədiyi mətni şərh edir (st. 1.1.1).
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2).
• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir (st. 2.2.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Günəbaxan və müxtəlif güllərin nümayişi |
| 2 | **Dinləmə** | Tapmacaların səsləndirilməsi; açar sözlərə görə tapmacaların cavabının müəyyən olunması |
| 3 | **Yazı** | Günəbaxanın təsviri |
| 4 | **Oxu** | "Günəbaxan" mətninin rollu oxusu, Hadisələrin səbəbinin müəyyən olunması |
| 5 | **Danışma** | Hadisələrin səbəbinin müəyyən olunması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim gətirdiyi gül şəkillərini nümayiş etdirir və güllərin və günəbaxan bitkisinin əlamətlərini sadalamağı tapşırır.

### Dinləmə

1.1.1 **Tapşırıq A (dərslik).** Müəllim tapmacaları səsləndirir:

*Günəş kimi girdədir.*
*Göydə deyil, yerdədir.*
*Rəngi qızılı-sarı,*
*Baxır günəşə sarı.* (Günəbaxan)

*Ağacın tutmaq olmaz,*
*Ətrindən doymaq olmaz.* (Qızılgül)

*Boynunu bükər durar,*
*Qar altından boylanar.*
*Adından bir rəng doğar,*
*Göyqurşağında olar.* (Bənövşə)

Şagirdlər tapmacanı dinləyir və cavabı tapmaqda kömək edən əlamətləri sadalayırlar (günəşə bənzəməsi, rənginin sarı olması, günəşə baxması və s.).

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın əsas məqsədi şagirdlərin yazı bacarığı və söz ehtiyatını inkişaf etdirməkdir. Şagirdlər şəkil üzərində verilmiş sözlərin köməyi ilə cümlələr quraraq şəkildə gördükləri varlığı təsvir edirlər.

Şagirdlər təxminən belə yaza bilərlər: *"Sarı ləçəklər var. Tumları var. Gövdəsi uzun olur. Yarpaqları enlidir".*

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** "Günəbaxan" dialoji mətn olduğu üçün rollu oxu məqsədəuyğundur. Lakin əvvəlcə müəllim özü mətni oxuyur.

**Rollu oxu.** Obrazların nitqi şagirdlər arasında bölüşdürülür.

Şagirdlər mətnlə bağlı suallara cavab verməklə mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Şagirdlər mətnin sonuncu abzasında açıq şəkildə verilməyən informasiyanı (*Ayın ətrafında ulduzlar olur*) aşkar edirlər. Bununla onların məntiqi təfəkkürü inkişaf etdirilir.

**Tapşırıq B (iş dəftəri). Təsviri incəsənət fənni ilə inteqrasiya.** Tapşırığın əsas məqsədi şagirdlərin oxuyub-qavrama bacarıqlarını inkişaf etdirməkdir. Tapşırığa əsasən şagirdlər ay və ulduzların rəsmini çəkməlidirlər.

2.2.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətndəki hadisələrin səbəbini yazmaqla mətni qavradıqlarını nümayiş etdirirlər.

### Danışma

1.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər Günəşin gündüzlər, Ayın, ulduzların isə gecələr görünməsi barədə danışmaqla sualı cavablandırırlar.

### Araşdırma

**Tapşırıq Ç (dərslik).** Dərsin sonunda şagirdlərə valideynlərindən günəbaxan haqqında əlavə məlumat toplamaq tapşırılır. Bu onların araşdırma və təqdimetmə bacarıqlarını inkişaf etdirir. Eyni zamanda elmi mətn yazmaq bacarığını təkmilləşdirir.

**Müəllimin nəzərinə!** Şagirdlərin günəbaxanlar haqqında yazdıqları elmi mətnlər növbəti sərbəst dərsdə dinlənilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Suallara və illüstrasiyalara əsasən dinlədiyi mətni şərh edir. | Tap. A (dərslik) |
| Şəkil əsasında təsviri xarakterli mətn yazır. | Tap. A (iş dəftəri) |
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. B (dərslik) Tap. B (iş dəftəri) |
| Tanış mövzu ətrafında söhbət edir. | Tap. C (dərslik) |

LAYİHƏ

## **4-cü dərs.** Dialoq

• Dərslik: səh. 61 • İş dəftəri: səh. 40

**Təlim məqsədləri**

• Dialoqlarda durğu işarələrindən (tire, qoşa nöqtə) yerli-yerində istifadə edir (st. 4.1.7).
• Dinlədiyi mətn üzrə sualları cavablandırır (st. 1.1.1).
• Dil qaydalarına əməl etməklə mətndəki səhvləri düzəldir (st. 3.1.5).
• Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (ü-u, a-ə) və samitlərin (k-g, t-d) düzgün yazılış qaydalarına riayət edir (st. 4.1.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| **1** | **Mövzuya yönəltmə** | “Günəbaxan” mətninin xatırlanması |
| **2** | **Dil qaydaları** | Dialoq və durğu işarələri üzrə biliklərin mənimsədilməsi |
| **3** | **Dinləmə** | Günəbaxanlar mətninin davamı |
| **4** | **Dil qaydaları** | Dialoq və durğu işarələri üzrə biliklərin möhkəmləndirilməsi |
| **5** | **Yazı** | Şəkil üzrə dialoqun qurulub yazılması |
| **6** | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Günəbaxanlar" mətni ilə bağlı sual verir:

*– Balaca Günəbaxan nə üçün Günəşə tərəf baxmırdı?*

### Dil qaydaları

4.1.7 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini "Günəbaxanlar" mətnində obrazların söhbətinə yönəldir. Şagirdlər cümlələri oxuyaraq cümlələrin aid olduğu obrazları müəyyən edirlər.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərə dialoq haqqında məlumat verir və rubrikada verilən dialoqu oxuyur. Şagirdlər bildikləri nağıla əsasən müəyyən edirlər ki, dialoq Div və Cırtdan obrazlarına aiddir. Müəllim şagirdlərin diqqətini nümunədəki durğu işarələrinə yönəldir.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərlə hər hansı bir mövzuda dialoq qura bilər (məsələn: *Əli, kitabxanaya getdin? Hansı kitabı oxudun? Kitab nə haqda idi? Kimlə getmişdin?* və s.). Daha sonra cütlərə müəyyən mövzu ətrafında dialoq qurmaq tapşıra bilər.

### Dinləmə-danışma

1.1.1 Müəllim ”Günəbaxanlar” mətninin ardını oxuyur:

*“Səhər açıldı. Günəş göy üzündə sevinclə parıldadı. O bütün təbiəti isti şüaları ilə salamladı. Bir də gördük ki, günəbaxanlardan biri ona baxmır. Bu, Günəşi çox təəccübləndirdi.*

*– Sənə nə olub, Günəbaxan? Çox kədərli görünürsən.*

*– Mən səndən küsmüşəm.*

*– Nə üçün?*

*– Gecə oyananda yanımda deyildin. Mən tək qalmışdım.*

*– Tək deyildin. Ay və ulduzlar vardı.*

*– Mən sənin olmağını istəyirdim.*

*– Axı mən gecələr gələ bilmirəm.*

*Günəş nə qədər desə də, Günəbaxan onunla barışmadı.*

*Günəş kədərləndi. Yavaşca buludların arxasına keçdi.*

*Bir anda hər yer qaranlıqlaşdı. Günəbaxanlar çox qorxdular:*

*– Görəsən, Günəşə nə oldu?! Hara getdi?*

*– Qoy getsin! Onsuz da keçinərik. Özümüzə başqa Günəş taparıq.*

*– Bütün canlıların bir Günəşi var. Onu da itirdik.*

*Bu sözlərdən sonra küsəyən günəbaxan fikrə getdi.*

*Günəbaxanlardan ən yaşlısı onu danladı:*

*– Sən Günəşdən nahaq küsürsən. Gecələr o, işığının bir hissəsini Aya və ulduzlara verir. Onlar da səhərə kimi yer üzünü işıqlandırır. Sən isə onu incidirsən. İstəyirsən hamımız qaranlıqda qalaq?*

*Küsəyən günəbaxan bu sözlərdən sonra səhvini başa düşdü. Səbirsizliklə Günəşin yolunu gözlədi.*

*Sübh açılanda bütün günəbaxanların ona boylandığını görən Günəş çox sevindi”.*

Mətni diqqətlə dinləyən şagirdlər müəllimin suallarına cavab verirlər:

• *Günəş nə üçün təəccübləndi?*
• *Günəbaxan nə üçün Günəşdən küsmüşdü?*
• *Yer nə üçün qaranlıqlaşdı?*
• *Yaşlı Günəbaxan nə üçün küsəyəni danladı?*
• *Günəş nə üçün çox sevindi?*

### Dil qaydaları

4.1.7 **Tapşırıq B (dərslik).** Şagirdlər dialoqun strukturu və durğu işarələri ilə bağlı öyrəndiklərini yazılı şəkildə tətbiq edirlər.

**Tapşırıq A, B (iş dəftəri).** Tapşırıqların məqsədi dil qaydaları üzrə bilikləri möhkəmləndirməkdir. Şagirdlər “B” tapşırığını yerinə yetirərkən həmçinin nitq etiketlərinin dialoqdakı yerini müəyyən edirlər.

LAYİHƏ

4.1.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda səhv verilmiş sözləri orfoqrafiya qaydalarına uyğun olaraq düzgün yazmaqla bəzi orfoqrafik normaları mənimsədiklərini nümayiş etdirirlər.

**Yazı**

3.1.5 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Məqsəd şagirdlərin yazılı şəkildə dialoq qurmaq bacarığını inkişaf etdirməkdir. Qruplar şəkil əsasında müzakirə aparır və obrazları, əsas hadisəni müəyyən edirlər. Sonra obrazların mövzuya uyğun söyləyə biləcəkləri cümlələr qururlar. Durğu işarələrindən düzgün istifadə etməklə dialoq yazırlar.

Qruplar bir-birinin dialoqunu məzmun və durğu işarələrindən istifadə baxımından yoxlayır, müvafiq təkliflər verirlər. Sonda təqdimatlar dinlənilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn uzrə faktoloji sualları cavablandırır. | MV-də fəaliyyət |
| Dialoqlarda durğu işarələrindən istifadə edir. | Tap. B (dərslik)<br>Tap. A, B<br>(iş dəftəri) |
| Başqasının yazısındakı səhvləri müəyyən edir. | Tap. C (dərslik) |
| Səs və hərf tərkibi fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir. | Tap. Ç (dərslik) |

## 5-ci dərs. "Su damcısının hekayəsi"

• Dərslik: səh. 62-63 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

• Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir (st. 1.2.1).
• Suallara və illüstrasiyalara əsasən dinlədiyi mətni şərh edir (st. 1.1.1).
• Verilmiş məlumatlardan istifadə etməklə informativ mətn qurur (st. 2.2.2).
• Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir (st. 1.2.1).
• Hərəkət bildirən sözləri zamana görə fərqləndirir (st. 4.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Stəkanda su, buz və termosda qaynar suyun nümayişi |
| 2 | Danışma | Müşahidə zamanı qazandıqları məlumatların təqdimatı |
| 3 | Dinləmə | "Su damcısının hekayəsi" mətninin dinlənilməsi |
| 4 | Danışma | Qrafik işarələrlə cümlələrin uyğunlaşdırılması, əsasən sualların cavablandırılması |
| 5 | Dil qaydaları | Hərəkət bildirən sözlərin zamana görə dəyişməsi |
| 6 | Formativ qiymətləndirmə | |

**Mövzuya yönəltmə**

Müəllim sinfə stəkanda su, termosda qaynar su gətirir.

Müəllim termosun qapağını qaldırır. Termosdan buxar qalxır və qapaqda su damcıları görünür. Müəllim:

*– Su damcıları necə yarandı? Buxar necə yarandı?*

Sonra buz parçasını göstərir.

*– Buz nədən yaranır? Buz əriyib nəyə çevrilir?*

**Danışma**

1.2.1 **Tapşırıq A (dərslik).** Əsas məqsəd şagirdlərdə suyun təbiətdə dövranı mövzusu ilə bağlı dinləmə mətninə maraq oyatmaqdır. Şagirdlər müəllimin yönəldici sualları vasitəsilə şəkillərin ortaq xüsusiyyətini müəyyən edirlər. Şəkillər əsasında müzakirə aparıb suyun bərk, maye və buxar halında olması nəticəsinə gəlirlər.

**Dinləmə**

1.1.1 Müəllim mətni səsləndirir:

**Su damcısının hekayəsi**

*Soyuq hava şəraiti olan bir yerdə kiçik su damcısı yaşayırdı. Havaların soyuq keçməsi onun heç xoşuna gəlmirdi.*

*Bir gün günəşin çıxdığını görən su damcısı çox sevinir. Günəşin altında isinməyə çalışır. Bu zaman o, buxar olub səmaya qalxır. Göy üzünə yüksəldikcə hava soyuyur və buxar yenidən suya çevrilib yağış olur. Hava lap soyuq olanda isə damcı dolu və ya qara çevrilib yerə enir. Təbiətin onunla belə oyun oynaması su damcısının xoşuna gəlir. Elə o gündən başlayaraq su damcısı yer və göy arasında dövr edir.*

**Faktoloji suallar:**

• *Su damcısı nə üçün sevinir?*
• *O, buxara nə zaman çevrilir?*
• *Su damcısı yağışa nə vaxt çevrilir?*

LAYİHƏ

• *Qar və dolu nə zaman olur?*

Müəllim şagirdlərin diqqətini "Söz boğçası"na yönəldir və onlardan yeni sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını izah edir.

**Müəllimin nəzərinə!** Müəllim *qar, yağış, dolu* sözlərinin ümumi mənasının *yağıntı* olmasını şagirdlərin nəzərinə çatdırır.

### Oxu

2.2.2 **Tapşırıq B (dərslik).** Şagirdlər illüstrasiyanı nəzərdən keçirir, dinlədikləri bədii mətndəki əsas hadisələrdən istifadə edərək informativ mətn qurur, suyun təbiətdəki dövranını izah edirlər.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə mətn qurmazdan öncə şəklə baxaraq açar sözlər (*çaylar, dəniz, göl, günəş, bulud, yağış* və s.) deməyi tapşırır: Şagirdlərin açar sözlərdən isifadə etməsi cümlələr və mətn qurmağa kömək edə bilər. Şagirdlərin qurduğu elmi mətn təxminən belə ola bilər: *Çaylarda, dənizlərdə, göllərdə su günəşin istisindən buxarlanır və buxar göyə qalxır və buluda çevrilir. Sonra bulud yağışa, qara və ya doluya çevrilir. Beləliklə, su yenidən yerə enir.*

### Danışma

1.2.1 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin işarələri sözlə təsvir etmək bacarığını inkişaf etdirir.
**Düzgün cavablar:** *1 – b; 2 – ç; 3 – e; 4 – a; 5 – c; 6 – d.*

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Bu tapşırığı yerinə yetirməklə şagirdlər piktoqramı aydınlaşdırıb yazılı şəkildə şərh edirlər.

**Müəllimin nəzərinə!** Tapşırığın sonuncu hissəsinin dil qaydaları üzrə biliyin mənimsədilməsindən sonra yerinə yetirilməsi tövsiyə olunur.

### Dil qaydaları

4.1.5 **Tapşırıq Ç (dərslik).** Tapşırığın məqsədi şagirdlərin diqqətini hərəkətin zamanı ilə bağlı dil qaydasına yönəltməkdir. Tapşırıq yerinə yetiriləndən sonra müəllim hərəkətin müxtəlif zamanlarda baş verdiyini söyləyir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim izah edir ki, hərəkət keçmişdə, indi və ya gələcəkdə icra oluna bilər. Bundan asılı olaraq hərəkət bildirən sözlər zamana görə dəyişir.

**Tapşırıq D (dərslik).** Şagirdlər cümlədəki sözlər arasında məntiqi əlaqəni müəyyənləşdirməklə uyğun hərəkət bildirən sözlər seçib yazırlar. Bununla da hərəkətin zamanı üzrə öyrəndiklərini tətbiq edirlər.

### Araşdırma

**Tapşırıq E (dərslik).** Məqsəd şagirdlərdə təqdimat etmək bacarığını inkişaf etdirməkdir.

**Müəllimin nəzərinə!** Şagirdlərin müşahidələrinə əsasən hazırladıqları hava durumu haqqında məlumat sərbəst dərsdə dinlənilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Material |
|---|---|
| Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir. | Tap. A (dərslik) |
| Suallara və illüstrasiyalara əsasən dinlədiyi mətni şərh edir. | Tap. A (dərslik), MV-də fəaliyyət |
| Elmi mətn qurur. | Tap. B (dərslik) |
| Qrafik işarələri şərh edir. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Hərəkət bildirən sözləri zamana görə fərqləndirir. | Tap. Ç, D (dərslik)<br>Tap. A (iş dəftəri) |

## 6-cı dərs. "Su". Vergül işarəsi

• Dərslik: səh. 64-65 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri**

• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Mətni durğu işarələrinə əməl etməklə düzgün intonasiya ilə oxuyur (st. 2.2.1).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Cümlədə həmcins üzvlər arasında vergül işarəsindən istifadə edir (st. 4.1.7).
•Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir (st. 1.2.1).
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Su haqqında kəlamların səsləndirilməsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Su" şeirinin oxusu, yeni sözlər üzrə iş |
| 3 | **Yazı** | Şeir parçasını köçürmə, elmi mətnin yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə aşağıdakı cümlələri yazır:

*– Su həyatdır. Susuz yaşamaq olmaz. Su təbiətə can verir. Su təmizlikdir.*

**Sual:** *– Bu fikirləri necə başa düşürsünüz?*

### Danışma

LAYİHƏ

**1.2.1** **Tapşırıq A (dərslik).** Şagirdlər müəllimin yönəldici sualları vasitəsilə suyun həyatımızdakı əhəmiyyəti haqqında bildiklərini danışırlar.

– *Biz sudan necə istifadə edirik?*
– *Suyun heyvanlara, ağaclara faydası nədir?*
– *Susuz yaşamaq olarmı?*

**Müəllimin nəzərinə!** Şəkillər ətrafında söhbətdən sonra şagirdlər hər şəklə aid bir cümlə söyləyir, müəllim lövhədə həmin cümlələri yazır. Əlavə tapşırıq:
– *Bu cümlələrdə hərəkət bildirən sözləri seçin və hərəkətin hansı zamanda olduğunu söyləyin.*

## Oxu. Söz ehtiyatı

**2.2.1** **Tapşırıq B (dərslik). İstiqamətləndirilmiş oxu.** "Su" şeirinin oxusundan əvvəl müəllim şagirdlərə oxu zamanı rast gəldikləri yeni sözləri qeyd etməyi tapşırır. Mətn şagirdlər tərəfindən növbəli oxunur. Bu zaman müəllim şeirin düzgün oxunmasına və şagirdlərin diqqətlə izləməsinə nəzarət edir. Müəllim şagirdlərə tanış olmayan sözlərin (*qəribsəmək, okean, düz, qovrulmaq, yamac, balina* və s.) mənasını əvvəlcə şagirdlərdən soruşur, sonra özü yeni sözlərin mənasını izah edir. Həmin sözlər şagirdlərin “Söz boğçası”na əlavə edilir.

## Oxuyub-qavrama

**2.2.4** **Tapşırıq C (dərslik).** Bu tapşırıq vasitəsilə şagirdlər nəzm və nəsrlə verilmiş mətn parçalarını uyğunlaşdırmaqla onları oxuyub-anladıqlarını və əsas fikri müyyənləşdirdiklərini nümayiş etdirirlər.

**Qruplarla iş.** Bir qrupun nümayəndəsi şeirin bir bəndini oxuyur, başqa bir qrupun nümayəndəsi isə həmin hissəyə uyğun nəsr parçasını tapıb təqdim edir.

## Dil qaydaları

**4.1.7** **"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərin diqqətini “C” tapşırığındakı 1-ci cümləyə yönəldir. Həmin cümlədə sadalanan ad bildirən sözlərin (*kollar, güllər, ağaclar, çiçəklər, otlar, bitkilər*) sayını artırmağı tapşırır. Şagirdlər sözləri söylədikcə müəllim lövhədə yazır və cümlədəki sözləri sadalayan zaman kiçik fasilənin olmasını və bu sözlər arasında vergülün işlənməsini şagirdlərin diqqətinə çatdırır. Rubrikada verilmiş qayda və nümunə oxunur.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqdakı cümlələri oxuyur, cümlədə sadalanan sözləri müəyyən edir və onlar arasında vergül işarəsini qoymaqla cümlələri köçürürlər.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər öyrəndikləri bilikləri müstəqil şəkildə tətbiq edirlər.

## Danışma

**1.2.1** **Tapşırıq D (dərslik). Qruplarla iş.** Məqsəd şagirdlərin verilmiş plan və açar sözlərdən istifadə edərək informativ mətn qurmaq və danışmaq bacarıqlarını inkişaf etdirməkdir. Qruplar şəkilləri nəzərdən keçirir, suallar və açar sözlərdən istifadə edərək müzakirə aparırlar. Sonra sualların ardıcıllığına əsasən mətn qururlar. Sonda təqdimatlar dinlənilir.

Qruplar bir-birinin təqdimatlarını məzmun və təqdimetmə baxımından yoxlayır, fikirlərini bildirirlər.

Elmi mətn təxminən aşağıdakı kimi qurulmalıdır:

*“Su həyatımız üçün çox vacibdir. Ancaq su insanlar tərəfindən çirklənir: zibillər, tullantılar suya atılır. Fabrik, zavodlardan çirkli sular çaylara, dənizlərə axıdılır. Bunun nəticəsində sular çirklənir. Suda yaşayan canlılar məhv olurlar. Buna görə də biz hamımız su hövzələrini çirkabdan təmizləməliyik. Ətrafdakı zibilləri yığışdırmalıyıq”.*

## Yazı

**3.1.2** **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin rabitəli yazı bacarığını inkişaf etdirmək məqsədi daşıyır. Şagirdlər verilmiş sualları cavablandırmaqla müstəqil şəkildə elmi mətn yazırlar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Material |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tap. A (dərslik) |
| Mətni durğu işarələrinə əməl etməklə düzgün intonasiya ilə oxuyur. | Tap. B (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. C (dərslik) |
| Vergül və tire işarələrindən düzgün istifadə edir. | Tap. Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Şəkillərin məzmunundan çıxış edərək informativ mətn qurur. | Tap. D (dərslik)<br>Tap. B (iş dəftəri) |

LAYİHƏ

fəsil 2 HEYVANLAR ALƏMİ

## 1-ci dərs. "Pələng"

• Dərslik: səh. 66-67 • İş dəftəri: səh. 43

**Təlim məqsədləri**

• Verilmiş sözlərə xas olan ümumi ad və ya əlaməti müəyyənləşdirir (st. 2.1.1).
• Eyni məna qrupuna aid olan varlıqlar arasındakı fərqli əlamətləri sadalayır (st. 2.1.1).
• Kontekstə uyğun olaraq sözün əksmənalı qarşılığını seçir (st. 2.1.3).
• Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (ü-u, a-ə) və samitlərin (k-g, t-d) düzgün yazılış qaydalarına riayət edir (st. 4.1.3).
• Nəqli cümlələrə sual verməklə sual cümləsi qurur (st. 4.1.7)

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif heyvan şəkillərinin nümayişi |
| 2 | **Oxu. Söz ehtiyatı** | Heyvanların əlamətlərinin sadalanması |
| 3 | **Dil qaydaları** | Sonu "g" samiti ilə bitən bəzi sözlərin düzgün yazılışı, sual cümlələrinin qurulması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim müxtəlif heyvanların şəkillərini şagirdlərə nümayiş etdirərək onların əlamətlərini soruşur.

### Oxu. Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlər şəkildə təsvir olunmuş heyvanlar haqqında verilmiş əlamətləri növbə ilə oxuyur, uyğun heyvanları müəyyən edirlər. Şagirdlərə tanış olmayan sözlər (*qonur, səhra, nəhəng, hürgüc*) üzrə iş aparılır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirməklə söz ehtiyatlarını möhkəmləndirirlər.

**Tapşırıq B (dərslik). Növbəli oxu.** "Pələng" şeiri şagirdlər tərəfindən növbəli oxunur. Müəllim şagirdlərə şeiri oxuduqca əlamət bildirən sözlərə diqqət etməyi tapşırır.

Müəllim şagrdlərin diqqətli oxuduqlarını yoxlamaq üçün suallar verir:

*– Şeirdə hansı heyvanların adları çəkilir? Müəllif pələngi hansı heyvanlara bənzədir?*

Əlavə tapşırıq. *Şeirdə adı çəkilən heyvanların (pişik, şir, pələng) əlamətlərini və aid olduğu ümumi mənanı söyləyin.* Nümunə: *şir – vəhşi, ətyeyən, nəhəng meşə heyvanıdır.*

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin oxu-yub-qavrama, eyni zamanda varlıqların əlamətlərini söyləməklə sözü izah etmək bacarığını inkişaf etdirir. (*Pələng pişiyə bənzəyir, vəhşidir, dərisi zolaqlıdır, sürətlə qaçır, sinəsi ağdır, gözləri şir gözünə bənzəyir.*)

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər ümumi mənası eyni olan varlıqlar arasındakı fərqli və oxşar əlamətləri sadalayıb yazırlar: "Pələng böyükdür, yırtıcıdır, meşədə yaşayır, dərisi zolaqlıdır" və s. "Pişik kiçikdir, ev heyvanıdır, müxtəlif rəngdə olur, insanlar üçün təhlükəli deyil" və s. "Oxşar əlamətləri – hər ikisi canlıdır, heyvandır, bir-birinə bənzəyirlər" və s.

2.1.2 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin 1-ci sinifdə öyrəndikləri əksmənalı sözlərlə bağlı biliklərini təkrarlatmaq və onların söz ehtiyatını möhkəmləndirmək məqsədi daşıyır.

Əksmənalı sözlər: hündür – alçaq, qəşəng – çirkin, sürətlə – yavaş, ağ – qara.

### Dil qaydaları

4.1.3 **"Sözlərin yazılışı" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Sözlərin yazılışı" rubrikasına yönəldir və soruşur:

*– Bu sözlərin yazılışında hansı oxşarlıq var?*

**Tapşırıq D (dərslik). Yazı ilə inteqrasiya.** Tapşırığın əsas məqsədi sonu "g" samiti ilə bitən bəzi sözlərin düzgün yazılışını şagirdlərə mənimsətməkdir.

Şagirdlər tapşırığı yerinə yetirdikdən sonra müəllim tapşırıqların yoxlanılmasını cütlərə tapşıra bilər.

4.1.7 **Tapşırıq C (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər nəqli cümlələrə sual verməklə sual cümləsi qurmaq bacarıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş sözlərə xas olan ümumi ad və ya əlaməti müəyyənləşdirir. | Tap. A, B (dərslik) Tap. A (iş dəftəri) |
| Eyni məna qrupuna aid olan varlıqlar arasındakı fərqli əlamətləri sadalayır. | Tap. B (iş dəftəri) |
| Sözlərin əksmənalı qarşılığını müəyyən edir. | Tap. Ç (dərslik) |
| Səs və hərf tərkibi fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir. | Tap. D (dərslik) |
| Nəqli cümlələrə sual verməklə sual cümləsi qurur. | Tap. C (iş dəftəri) |

LAYİHƏ

## 2-ci dərs. Əşyanın əlamətləri

• Dərslik: səh. 67-68 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**
•Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).
• Verilən təsnifat qruplarına daxil olan sözləri sadalayır (st. 2.1.1).
• Eyni məna qrupuna aid olan varlıqlar arasındakı fərqli əlamətləri sadalayır (st. 2.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Heyvananlarla bağlı oxunmuş mətnlərin xatırlanması |
| 2 | **Söz ehtiyatı** | Sözün izah edilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini “A” tapşırığında verilmiş heyvanların şəkillərinə yönəldir və soruşur:

– *Bu heyvanlar haqqında hansı mətnləri oxumusunuz?*

Şagirdlər bu mətnləri xatırlaya bilərlər: “Qaranquşun Xocalı arzusu”, “Yöndəmsiz Timsah”, “Şir və Dovşan”, “Şəngül, Şüngül, Məngül!”

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik). Cütlərlə iş.** Şagirdlər 1-ci bölmədə sözləri izah etmək və izahlı lüğət tərtib etməyi öyrənmişdilər. Müəllim cütlərə *qaranquş, keçi, şir, timsah* sözlərindən ibarət izahlı lüğət tərtib etməyi tapşırır. Bununla şagirdlər sözün izahı, əlifba və lüğət tərtib etmək üzrə öyrəndikləri bilikləri möhkəmləndirirlər. Təqdimat zamanı şagirdlərin sözlərin izahlarında əlamətləri və ümumi mənanı izah etməsi də tövsiyə olunur; məsələn, "buynuzu və saqqalı olan ev heyvanı" izahında "buynuzu və saqqalı olan" hissə əlamətləri, "ev heyvanı" isə ümumi mənanı bildirir.

2.1.1 **Tapşırıq B (dərslik).** Sözü dəqiq izah etmək üçün vacib olan anlayışlardan biri də ümumi mənanı konkretləşdirməkdir. Tapşırığın məqsədi ümumi mənası "heyvan" olan sözləri daha konkret mənalarına (*"ev heyvanları", "çöl heyvanları" və s.* ) ayırmaqdır.

**"Faydalı məsləhət" rubrikası.** Rubrikada verilmiş məlumatı oxuduqdan sonra müəllim nümunəni lövhədə yazmaqla sözü dəqiq izah etməyin yolunu başa salır.

**Tapşırıq C (dərslik). Qruplarla iş.** Qruplar müəllimin lövhədə yazaraq izah etdiyi nümunəyə əsasən tapşırığı yerinə yetirirlər. Tapşırığın əsas məqsədi şagirdlərin əlamətlərinə görə varlığı müəyyənləşdirmək və sözləri izah etmək bacarıqlarını formalaşdırmaqdır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər əlamətlərin aid olduğu varlıqların adlarını yazmaqla izah olunan sözü tanıdıqlarını nümayiş etdirirlər.

2.1.1 **Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlərdən verilmiş sözlərin aid olduqları varlıqlar arasında oxşar və fərqli xüsusiyyətləri müəyyən edib yazmaq tələb olunur. Bu, şagirdlərin varlıqları müqayisə etmək, həmçinin fikirlərini yazılı şərh etmək bacarıqlarını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş əlamətlərə uyğun sözləri müəyyən edir. | Tap. A (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Verilən təsnifat qruplarına daxil olan sözləri sadalayır. | Tap. B, C (dərslik) |
| Eyni məna qrupuna aid olan varlıqlar arasındakı fərqli əlamətləri sadalayır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə “Vinni-Puh” cizgi filmindən fraqmentlər və ya şəkillər nümayiş etdirmək üçün müəllimə hazırlıq görmək tövsiyə ol-

## 3-cü dərs. Vinni Puh və onun həyatı

• Dərslik: səh. 69-70 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st. 2.2.3).
• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür (st. 1.2.1.).
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.3)

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Vinni-Puh" cizgi filmindən fraqmentlərin və ya şəkillərin nümayişi |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Vinni Puh və onun həyat hekayəsi” mətninin oxusu |



LAYİHƏ

| | | |
|---|---|---|
| 3 | **Oxuyub-qavrama** | Abzaslara aid şəkillərin müəyyən edilməsi. Hadisələrin ardıcıllığı |
| 4 | **Danışma** | Zoopark mövzusu ilə bağlı debat |
| 5 | **Yazı** | Varlığın təsviri |
| 6 | **Dil qaydaları** | Yer, şəxs, heyvan adlarının yazılışı |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Vinni Puh" cizgi filmindən fraqmentlər və ya şəkillər nümayiş etdirir.

### Oxu

**Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti mətnin adına və məzmunu ilə bağlı şəkillərə yönəldilir. Şagirdlərin mətnin məzmununu təxmin etməsi onlarda mətnin oxunmasına maraq oyadır.

**Növbəli oxu.** Mətn növbə ilə oxunur. Şagirdlərə tanış olmayan sözlər izah edilir. Hər abzas oxunduqdan sonra şagirdlər müəllimin həmin abzasla bağlı suallarını cavablandırırlar.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər şəkli təsvir edir, şəklin aid olduğu abzası müəyyənləşdirirlər. Şagirdlər şəkil üzrə danışdıqca müəllim lövhədə şəklə aid bir neçə cümlə yazır. Sonra şagirdlərə belə bir tapşırıq verir: "Bu cümlələri ikinci abzasda hansı cümlədən sonra əlavə etmək olar?" (*O, ayı balasını ovçudan alır.*)

Əlavə olunan cümlələr: *Zabit ayıya yemək verir. Ona qulluq edir. Ayı üçün xüsusi vaxt ayırır. Ona müxtəlif oyunlar öyrədir.*

Bu fəaliyyətin qurulması şagirdlərdə aşağıdakı bacarıqları formalaşdırır:

1. İllüstrasiyanın aid olduğu abzası müəyyən etmək.
2. Əlavə olunan məlumatların mətndəki yerini müəyyən etmək.
3. Əlavə mənbələrdən istifadə etməklə mətni genişləndirmək.

**Tapşırıq C (dərslik).** Mətnin hissələri ilə şəkilləri uyğunlaşdırmaqla obrazların adlarını (Alan Miln, Robin və oyuncaq Vinni) söyləməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər şəklə aid hissəni mətndən tapıb köçürməklə oxuyub-qavrama və yazı bacarıqlarını inkişaf etdirirlər.

2.2.3 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Hər qrup mətnin bir abzasını oxuyur. Oxuduqları abzasın məzmununa uyğun suallar tərtib edirlər. Qruplar təqdimat zamanı bir-birinin suallarına cavab verirlər.

**Müəllimin nəzərinə!** Müəllim ilk abzasın kiçik olduğunu nəzərə alaraq qruplardan birinə ilk iki abzas üçün suallar tərtib etməyi tapşıra bilər.

2.2.5 **Tapşırıq D (dərslik). Cütlərlə iş.** Şagirdlərdən mətndəki hadisələrə aid qeyri-ardıcıl verilmiş cümlələrin düzgün ardıcıllığını müəyyən etmək tələb olunur. Cümlələrin ardıcıllığı belədir: 6, 3, 1, 2, 5, 4.

### Danışma

1.2.1 **Tapşırıq E (dərslik).** Müəllim yönəldici suallar vasitəsilə (*Zooparka getmisinizmi? Zooparkda xoşunuza gələn nə oldu?* və s.) şagirdlərin zooparkla bağlı təəssüratlarını bölüşməsinə şərait yaradır.

Tapşırıq debat xarakterli olduğu üçün müəllim *niyə? nə üçün?* sualları ilə onları öz fikirlərini əsaslandırmağa sövq etməlidir.

Məsələn, heyvanların zooparkda saxlanılmasını düzgün hesab edən şagirdlər belə cavab verə bilərlər:

– *Zooparklar olmasa, biz uzaq yerlərdə yaşayan heyvanları görə bilmərik. Zoopark bizə canlı aləmin müxtəlif növləri ilə yaxından tanış olmağımıza şərait yaradır. Zooparkda həmin heyvanları yemləyir və qoruyurlar.*

Əksinə, bunu düzgün hesab etməyən şagirdlər fikirlərini belə əsaslandıra bilərlər:

– *Çünki zooparkdakı heyvanlar öz yaşadığı çöllərdən, meşələrdən uzaq düşür, qəfəsə salınırlar.*

Sonra şagirdlər Vinninin taleyi ilə bağlı təxəyyüllərinə uyğun təxmin etdiklərini danışırlar.

### Dil qaydaları

**Tapşırıq B (iş dəftəri). Şaquli inteqrasiya.** Tapşırıq şagirdlərin yer, şəxs və heyvan adlarının yazılışı ilə bağlı 1-ci sinifdə öyrəndikləri dil qaydalarını xatırlatmaq məqsədi daşıyır.

### Yazı

3.1.2 **Tapşırıq C (iş dəftəri).** Müəllim əvvəlcə şagirdlərlə onların öz sevimli oyuncaqları barədə söhbət edir. Müəllim bu söhbətdə şagirdlərin varlığı təsvir etmək, tanıtmaq üçün əldə etdikləri bilik və bacarıqları xatırlada bilər. Daha sonra şagirdlər müstəqil şəkildə tapşırığı yerinə yetirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| İllüstrasiyanın aid olduğu abzası seçir. | Tap. B, C (dərslik) Tap. A (iş dəftəri) |
| Mətnin hər bir abzasına uyğun suallar tərtib edir. | Tap. Ç (dərslik) |
| Hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. D (dərslik) |
| Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür. | Tap. E (dərslik) |
| Təsviri xarakterli mətn yazır. | Tap. B (iş dəftəri) |
| Həmişə ilk hərfi böyük yazılan sözləri müəyyən edir. | Tap. C (iş dəftəri) |

## 4-cü dərs. Əmr cümləsi

• Dərslik: səh. 70-71 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

• Dinlədiyi mətn üzrə sualları cavablandırır (st. 1.1.1).
• Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir (st. 1.2.2).
• Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur (st. 4.1. 6).
• Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir (st. 1.2.1).
• Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir (st. 4.1.7).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Zooparkla bağlı sözlərin səsləndirilməsi |
| 2 | **Dinləmə** | Zoopark haqqında dinləmə mətni |
| 3 | **Danışma** | "Zoopark" şəkli üzrə danışma |
| 4 | **Dil qaydaları** | Əmr cümləsinin mənimsədilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Klaster.** Müəllim lövhədə dairənin içərisində "zoopark" yazır. Şagirdlər zooparkı xatırladan sözlər səsləndirirlər. Müəllim həmin sözləri dairənin kənarlarında yazır

### Dinləmə və danışma

Müəllim "Zoopark" dinləmə mətnini oxuyur:

*"Zooparkda dünyanın müxtəlif yerlərindən gətirilmiş heyvanlar saxlanılır. Zooparkın yaradılmasının bir neçə səbəbi var: Yer üzündə müxtəlif növ heyvanlarla tanış olmaq, onları öyrənmək; nəsli kəsilməkdə olan heyvan növlərini qorumaq.*

*Zoopark ilk dəfə alimlər tərəfindən yaradılıb. Onlar burada müxtəlif heyvan növlərini öyrənirdilər. Ona görə də ilk zooopork "Bilik parkı" adlandırılmışdır.*

*Zoopark indi böyüklərin və uşaqların ən sevimli məkanına çevrilib. Uşaqlar hər zaman şəkillərdə, filmlərdə gördükləri heyvanları indi qəfəsdə canlı olaraq izləyirlər. Ancaq burada vəhşi heyvanlar olduğu üçün ehtiyatlı olmalı, davranış qaydalarına əməl etməliyik".*

Müəllim şagirdlərin mətni diqqətlə dinlədiklərini yoxlamaq üçün suallar verir: *"Zooparklar hansı məqsədlə yaranıb? Zooparkı əvvəllər necə adlandırırdılar? Orada hansı heyvanlarla qarşılaşmaq olar?"* və s.

1.1.1 , 1.2.2 **Tapşırıq A (dərslik).** Məqsəd şagirdlərdə dinləmə mətnindən aldığı məlumatlardan yararlanaraq şəkil üzrə rabitəli nitq qurub danışma bacarığını inkişaf etdirməkdir.

Müəllimin yönəldici sualları vasitəsilə şagirdlər şəkil ətrafında danışırlar: – *Zooparkın girişində nə görürsünüz? Həmin lövhələr sizə nədən xəbər verir? Davranış qaydaları olan lövhə nə üçün zooparkın girişində verilib? İş qrafiki nə üçündür? Sizcə, ata qızına nə deyir? Kassa harada yerləşir? Zoopark saat neçədən işləyir? Bəs saat neçədə bağlanır? Həftənin hansı günü zoopark işləmir? Şəkildə hansı heyanlar təsvir olunmuşdur?*

*Sizcə, zooparkda hansı davranış qaydalarına əməl etmək lazımdır? Zooparkda hansı uşağın hərəkətini düzgün saymırsınız?*

**Müəllimin nəzərinə!** Tapşırıq qruplarla iş şəklində yerinə yetirilə bilər. Bu zaman sualları yazılı şəkildə qruplara paylamaq tövsiyə olunur.

4.1.6 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırıq şagirdlərdə bir sıra bacarıqları möhkəmləndirir:

• Şagirdlər verilmiş sözlərin düzgün ardıcıllığını müəyyən edərək cümlə qurur.
• Cümlədəki ilk sözü böyük hərflə yazır.
• Sözləri sətirdən-sətrə düzgün keçirir.
• Durğu işarələrindən (vergül və nöqtə) istifadə edir.

1.2.1 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin işarələri sözlə ifadə etmək bacarığını inkişaf etdirir. Tapşırıq həmçinin əmr cümlələri üzrə dil qaydasını mənimsətmək üçün keçid xarakteri daşıyır.

Düzgün cavablar: 1 – b; 2 – c; 3 – a; 4 – d; 5 – ç.

### Dil qaydaları

4.1.7 **"Bunları bilməliyik" rubrikası.** Müəllim əvvəlcə lövhədə nəqli və sual cümlələri yazıb şagirdlərdən soruşur:

LAYİHƏ

– *Bu cümlələr hansı cümlə növünə aiddir? Bu cümlələrin əsas məqsədi nədir?*

Daha sonra şagirdlərin diqqəti "B" tapşırığında verilmiş cümlələrə yönəldilir. Şagirdlər müəllimin köməyi ilə həmin cümlələrin məsləhət, göstəriş verdiyini söyləyirlər. "Bunları bilməliyik" rubrikası üzrə iş aparılır.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər simvollara uyğun əmr cümlələri qurmaqla yeni mənimsədilən dil qaydası üzrə biliklərini nümayiş etdirirlər.

İşarələrə uyğun cümlələr: *Kirpiyə əl vurmayın. Meşədə tonqal yandırmayın.*

**Tapşırıq C (dərslik).** Şagirdlərdən nəqli cümləları oxuyub həmin cümlələri əmr cümləsinə çevirmək tələb olunur. Müəllim "Səidə parkdakı çiçəkləri dərdi" və "Səidə, çiçəklərə əl vurma" cümlələrini müqayisə edərək birinci cümlənin məlumat verdiyini, ikinci cümlənin isə göstəriş verdiyini şagirdlərə izah edir. Sonrakı cümlələrlə bağlı fəaliyyəti şagirdlər yerinə yetirirlər.

**Tapşırıq Ç (dərslik). Yazı ilə inteqrasiya.** Tapşırığın əsas məqsədi şagirdlərin əmr cümlələri qurmaq bacarıqlarını inkişaf etdirməkdir.

**Qruplarla iş.** Müəllim qrup işindən əvvəl şagirdlərə suallar verir: "*Teatr və ya kinoteatrda olmusunuzmu? Sizcə, teatrda hansı davranış qaydaları ola bilər?*

Müəllim şagirdlərin diqqətini "B" tapşırığına yönəldir və tapşırıqda verilən cümlə və işarələri nümunə göstərir.

Qruplar şəkilləri müzakirə edərək uyğun davranış qaydaları tərtib edirlər. Hər bir davranış qaydasına uyğun işarələr düşünüb çəkirlər.

Şəkillərə uyğun cümlələr: *Tamaşa zamanı telefondan istifadə etməyin. Söhbət etməyin. Teatr zalında yemək yeməyin.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn uzrə sualları cavablandırır. | Tap. A (dərslik) |
| Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir. | Tap. A (dərslik) |
| Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur. | Tap. A (iş dəftəri) |
| Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir. | Tap. C, Ç (dərslik) Tap. A, B (iş dəftəri) |
| Qrafik işarələri cümlə şəklində ifadə edir. | Tap. B (dərslik) |

## 5-ci dərs. Heyvanları Müdafiə Günü

• Dərslik: səh. 72 • İş dəftəri: səh. 47

**Təlim məqsədləri**

• Dinlədiyi mətn uzrə sualları cavablandırır (st. 1.1.1).
• Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir (st. 3.1.3).
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır (st. 3.1.2).
• Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir (st. 4.1.6).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Heyvanları Müdafiə Günü ilə bağlı danışma |
| 2 | **Dinləmə** | Heyvanları Müdafiə Günü haqqında dinləmə mətni |
| 3 | **Yazı** | Mövzu üzrə mətnin qurulması |
| 4 | **Dil qaydaları** | Nəqli və əmr cümləsinin fərqləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Klaster.** Müəllim lövhədə "4 Oktyabr – Heyvanları Müdafiə Günü" ifadəsini yazır. Şagirdlər ilkin olaraq bu ifadə haqqında bildiklərini danışırlar.

### Dinləmə

1.1.1 **Tapşırıq A (dərslik).** Müəllim aşağıdakı mətni səsləndirir:

**Ümumdünya Heyvanları Müdafiə Günü**

*Yaşadığımız dünya həm bizim, həm də Yer üzündə yaşayan bütün canlıların evidir. Təəssüf ki, bəzən insanlar onların yaşaması, sayının artması üçün bir çox maneələr yaradırlar. Heyvanların ovlanması, meşələrin qırılması nəticəsində hər il canlı varlıqların bir çox növü yox olur; məsələn, panda, fil, maral, balina, qartal və çox sayda başqa heyvanların nəsli kəsilmək üzrədir.*

*Bu gün dünyada müxtəlif yollarla heyvanları qorumağa çalışırlar. Bunun üçün hər il dünyada 4 Oktyabr – Ümumdünya Heyvanları Müdafiə Günü qeyd olunur. Həmin gün insanlar heyvanların problemləri, onları qorumağın yolları haqqında məlumatlandırılır, müxtəlif tədbirlər görülür.*

LAYİHƏ

Mətni dinlədikdən sonra "A" tapşırığındakı suallar cavablandırılır. Əlavə suallar: "*Hansı heyvanların nəsli kəsilib? Hansı heyvanların nəsli kəsilmək üzrədir? Heyvanları qorumağa ehtiyac varmı?*

Sonuncu sualı (*Heyvanları qorumağa ehtiyac varmı?*) cavablandırarkən müəllim çalışmalıdır ki, şagirdlər heyvanların insanlara faydaları barədə nümunələr gətirməklə fikirlərini əsaslandırsınlar.

### Yazı

3.1.3 **Qruplarla iş.** Qruplar mövzu ətrafında müzakirə aprırır, kiçik mətn qururlar. Qurulan mətnlər təxmini aşağıdakı kimi ola bilər.

***Küçə heyvanları***

*Bəzi itlər və pişiklər insanlarla birlikdə yaşayırlar. Lakin elə itlər və pişiklər də var ki, sahibsizdirlər. Sahibsiz heyvanlar bəzən küçədə soyuqdan, aclıqdan əziyyət çəkirlər. Belə heyvanları qorumaq üçün onları yemləmək, sığınacaq düzəltmək lazımdır.*

***Quşlar***

*Quşlar təbiətin gözəl varlıqlarıdır. Onların nəğmələri könül oxşayır. Biz quşları sevməli və qorumalıyıq. Qış vaxtı qar yağanda onlar yem tapmaqda çətinlik çəkir. Onlar üçün quş dənlikləri hazırlayıb ağaclardan assaq və yemləsək, onlara kömək etmiş olarıq.*

***Suda yaşayan heyvanlar***

*Suda çoxlu su heyvanları yaşayır. Onların insanlar üçün faydası çoxdur. Amma sular çirkləndiyi üçün onların sayı azalır. Biz ətrafımızı və sularımızı təmiz saxlasaq, onları qorumuş olarıq.*

***Meşədə yaşayan heyvanlar***

*Meşələrdə yaşayan bəzi heyvanların sayı azalır. Onları qorumaq üçün ağacları kəsməməliyik. Meşəyə istirahətə gedən zaman yandırdığımız ocaq yanğına səbəb ola bilər. Meşələrdə odla ehtiyatlı olmalıyıq. Heyvanlara zərər verməməli, onları qorumalıyıq.*

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin rabitəli yazı bacarığını inkişaf etdirmək məqsədi daşıyır. Şagirdlər verilmiş açar sözlərdən və şəkillərdə təsvir olunmuş hadisələrdən istifadə etməklə müstəqil şəkildə bədii mətn yazırlar:

*Ana quş yuvada öz balalarını yedizdirirdi. Birdən balalarından biri yuvadan yerə düşdü. Ana quş balasını xilas etmək üçün çırpındı.*

*Bunu görən Əli tez bala quşu yuvasına qoydu. Ana quş çox sevindi. Qanadlarını çırparaq sanki Əliyə "çox sağ ol" deyirdi".*

### Dil qaydaları

4.1.6 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş nəqli və əmr cümlələrini fərqləndirməklə dil qaydaları üzrə biliklərini möhkəmləndirirlər.

### Araşdırma

**Tapşırıq C (dərslik).** Dərsin sonunda şagirdlərə valideynlərinin köməyi ilə nəsli kəsilməkdə olan heyvanlar haqqında əlavə məlumat toplamaq tapşırılır. Bu onların araşdırma və təqdimetmə bacarıqlarını inkişaf etdirir. Şagirdlərin təqdimatı növbəti sərbəst dərsdə dinlənilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə sualları cavablandırır. | Tap. A (dərslik) |
| Eşitdikləri və gördükləri haqda mətn qurur. | Tap. B (dərslik) |
| Süjetli şəkillər üzrə mətn qurub yazır. | Tap. A (iş dəftəri) |
| Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə müəllimə müxtəlif təbii bitkilər nümayiş etdirmək tövsiyə olunur.

## fəsil 3 BİTKİLƏR ALƏMİ

## 1-ci dərs. "Qanqalın nağılı" (I hissə)

• Dərslik: səh. 73-74 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

- Verilmiş sözlərə xas olan ümumi məna və ya əlaməti müəyyənləşdirir (st. 2.1.1).
- Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
- Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir (st. 2.2.5).
- Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir (st. 2.2.5).
- Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir (st. 4.1.7).
- Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir (st. 4.1.3).
- Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Təbii bitkilərin nümayişi |
| 2 | **Söz ehtiyatı** | Bitki adları üzrə iş |
| 3 | **Oxu** | "Qanqalın nağılı" mətninin oxusu<br>"Söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Verilmiş cümlələrin tamamlanması; gül şəkillərinin adlandırılması. |
| 5 | **Dil qaydaları** | Əmr cümlələrinin müəyyən olunması. Şəxs adlarının yazılışı |
| 6 | **Yazı** | Varlığın təsviri |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim müxtəlif təbii bitkilər nümayiş etdirir. Şagirdlər həmin bitkilər haqqında danışırlar.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Müəllimin yönəldici sualları vasitəsilə şagirdlər şəkillər üzrə danışırlar.

Məqsəd şagirdləri həyatda gördükləri, müşahidə etdikləri bitkilər haqqında danışdırmaqla fəslin mövzusuna maraq oyatmaqdır. Şagirdlər danışarkən müəllim onların bitkilərin adlarından istifadə etməsinə diqqət etməlidir (ot, kol, gül, ağac).

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** "Qanqalın nağılı" dialoji mətn olduğu üçün rollu oxu məqsədəuyğundur. Lakin əvvəlcə müəllim özü mətni oxuyur. Obrazların nitqindəki hiss-həyəcanı muxtəlif səs çalarları ilə ifadə edərək şagirdlərə nümayış etdirir. Şagirdlərə tanış olmayan sözləri (*kələ-kötür, çirkin, həsrətlə*) əvvəlcə şagirdlərdən soruşur, daha sonra sözlərin dəqiq mənasını izah edir. Həmin sözlər "Söz boğçası"na əlavə edilir.

**Rollu oxu.** Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Şagirdlər obrazların nitqini müxtəlif səs çalarları ilə ifadə etməklə mətni oxuyurlar.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş cümlələri tamamlamaqla mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş gül şəkillərinin adlarını söyləməklə söz ehtiyatlarını zənginləşdirir, həmçinin diqqətli oxu bacarıqlarını inkişaf etdirirlər.

2.2.5 **Tapşırıq D (dərslik).** Müəllim şagirdlərin danışma və mətnin davamını təxmin etmək bacarıqlarını üzə çıxarmaq üçün istiqamətləndirici suallar verir:

– *Sizcə, qanqalın hansı faydası ola bilər?*

### Dil qaydaları

4.1.7 **Tapşırıq E (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərin əmr cümlələri üzrə öyrəndiklərini nitqində tətbiqinə yönəlmişdir. Müəllim soruşur:

– *Qanqala hansı məsləhətləri verərsiniz ki, o ağlamasın.*

Müəllim şagirdlərin cavablarını dinlədikcə kiçik cümlələr şəklində lövhədə yaza bilər (*İnsanlardan küsmə. Səbirlə insanların yolunu gözlə. Dostlarının məsləhətinə qulaq as* və s. ).

4.1.3 **Tapşırıq B (iş dəftəri).** Müəllim şagirdlərdən soruşur:

– *Kimlərin adları bitki adları ilə bağlıdır? Adınız necə yazılır? Böyük hərflə, yoxsa kiçik hərflə? Bəs çiçəklərin adları necə yazıla bilər?*

Bununla müəllim şagirdlərin diqqətini şəxs adlarının yazılışına yönəltməklə 1-ci sinifdə öyrədilən bilikləri xatırladır.

Müəllim şagirdlərin oxu zamanı dəftərlərində qeyd etdikləri çiçək adlarını oxumağı tapşırır (*lalə, bənövşə*).

– *Sizcə, hansı çiçək adları həm də qız adı ola bilər? Həmin sözlər qız adı kimi işlənəndə necə yazılmalıdır?*

*Məqsəd şagirdlərdə bəzi sözlərin həm böyük, həm də kiçik hərflə yazılışını mənimsətməkdir.*

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər şəkildəki qanqalın gövdəsinə, yarpağına, çiçəyinin rənginə və formasına diqqət yetirib onu təxminən belə təsvir edirlər:

– *Gövdəsi düz və uzundur. Yarpaqları iri, enli, kənarları kələ-kötürdür. Çiçəkləri bənövşəyi rəngdədir. Ətrafı tikanlıdır.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş sözlərə xas olan ümumi məna və ya əlaməti müəyyənləşdirir. | Tap. A (dərslik) |
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tap. B (dərslik) |
| Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir. | Tap. C (dərslik) |



LAYİHƏ

| | |
|---|---|
| Şəkil əsasında təsviri xarakterli mətn yazır. | Tap. A (iş dəftəri) |
| Mətnə əsasən hadisələrin davamını təxmin edir. | Tap. D (dərslik) |
| Mövzu üzrə əmr cümlələri qurur. | Tap. E (dərslik) |
| Bəzi sözlərin həm böyük, həm də kicik hərflə yazıldığını bilir və yazısında tətbiq edir. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. “Qanqalın nağılı” (II hissə)

• Dərslik: səh. 74-75 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

- Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
- Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
- Mətnin məzmununa uyğun olmayan fikirləri müəyyənləşdirir (st. 2.2.4).
- Verilmiş sözlərə xas olan ümumi məna və ya əlaməti müəyyənləşdirir (st. 2.1.1).
- Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).
- Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir (st. 4.1.7).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamının proqnozlaşdırılması |
| 2 | **Danışma** | “Qanqalın nağılı” mətninin davamının oxusu, “Söz boğçası” |
| 3 | **Oxu. Söz ehtiyatı** | Səbəb və nəticə əlaqəsinin müəyyən olunması. Doğru və yanlış fikirlərin müəyyənləşdirilməsi |
| 4 | **Oxuyub-qavrama** | Əlamətə uyğun varlığın seçilməsi. Varlığın əlamətlərinin sadalanması |
| 5 | **Dil qaydaları** | Plana uyğun mətnin yazılması |
| 6 | **Yazı** | Nida cümlələrinin fərqləndirilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Proqnozlaşdırma.** Müəllim “Qanqalın nağılı” mətnini xatırladır və şagirdlərdə mətnin II hissəsinə maraq oyatmaq üçün suallar verir:

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). Rollu oxu.** Mətnin davamı I hissənin oxunduğu kimi oxunur.

**"Söz boğçası" rubrikası.** Şagirdlərə tanış olmayan söz və ifadələr (*səhhət, dərman, heybə, vidalaşmaq, gözünə sataşmaq, sevincinin həddi-hüdudu olmamaq, ağlına gəlməmək*) izah olunur.

Şagirdlər qanqal haqqında öyrəndikləri yeni məlumatları (*İnsanların sağlamlığı üçün xeyirlidir. Ondan dərman hazırlayırlar*) qeyd edirlər.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərdə mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyən etmək bacarığını inkişaf etdirir.

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər mətnlə bağlı fikirlərin doğru və ya yanlış olduğunu müəyyənləşdirməklə oxuduqları mətni qavradıqlarını nümayiş etdirirlər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (dərslik).** Tapşırığı yerinə yetirmək üçün əvvəlcə əlamətə uyğun varlıq seçilir. Daha sonra həmin varlığın digər əlamətləri sadalanır (məsələn: *ağ ləçəkli – çobanyastığıdır. Digər əlamətləri: ortası sarı rəngdədir, gövdəsi nazikdir, çiçəyi kiçikdir, günəbaxana bənzəyi*r və s.).

Məqsəd şagirdlərin verilmiş sözlərə xas olan əlaməti müəyyənləşdirmək və sözü izah etmək bacarığını inkişaf etdirməkdir.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq şagirdlərin oxuyub-qavrama, həm də plandan istifadə etməklə mətn qurmaq bacarığını inkişaf etdirir.

### Dil qaydaları

4.1.7 **Tapşırıq D (dərslik).** Şagirdlər mətndə verilən göy rəngdə olan cümlələri oxuyurlar. Şagirdlər müəyyənləşdirirlər ki, *“Necə də gözəldir!”* cümləsində heyranlıq, *"Ura, məni də dərdilər!"* cümləsində isə sevinc məzmunu ifadə olunur. Sonra müəllim onların diqqətini cümlələrin sonunda qoyulan durğu işarəsinə (!) yönəldir.

**"Bunları bilməliyik" rubrikası.** Rubrikada verilən məlumatlar oxunur və cümlənin məqsəd və intonasiyaya görə növləri xatırlanır. Müəllim lövhədə müxtəlif növlərdə olan cümlələr yazır və nida cümləsini seçməyi tapşırır. Bununla da şagirdlərin cümlələrin növləri haqqında öyrəndikləri biliklər ümumiləşdirilir.

4.1.7 **Tapşırıq E (dərslik).** Şagirdlər tapşırıqda verilmiş şəkillərə baxaraq nida cümlələri yazmaqla yeni öyrəndikləri dil qaydasını mənimsədik-

LAYİHƏ

lərini nümayiş etdirirlər (*Ay, nə yaman islanmısan! Of, əlimə tikan batdı! Kömək edin!*).

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər yeni öyrəndikləri dil qaydasına uyğun olaraq nida (*Ay aman, Qaban suya düşdü! Kömək edin!*) və əmr (*Canavar, suya atıl. Qabanı xilas elə.*) cümlələrini seçib yazmaqla öyrəndiklərini tətbiqetmə bacarığını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tap. A (dərslik) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyən edir. | Tap. B (dərslik) |
| Mətnin məzmununa uyğun olmayan fikirləri müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Verilmiş sözlərə xas olan ümumi məna və ya əlaməti müəyyənləşdirir. | Tap. Ç (dərslik) |
| Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. A (iş dəftəri) |
| Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir. | Tap. D, E (dərslik)<br>Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** 1. Müəllim şagirdlərin diqqətini dərslikdə səh. 77-də verilmiş "D" tapşırığına yönəldir və onlara növbəti dərsdə təqdimat etmək üçün məlumat vərəqi (anket) hazırlamağı tapşırır. 2. Növbəti dərsdə qantəpər bitkisinin və ya müxtəlif dərman bitkilərinin nümayiş etdirilməsi üçün müəllimə hazırlıq işləri görmək tövsiyə olunur.

## 3-cü dərs. "Qantəpər"

- Dərslik: səh. 76-77
- İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

- Şeir oxuyarkən misralar və bəndlər arasında pauza edir (st. 2.2.1).
- Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
- Eyni məna qrupuna aid olan varlıqlar arasındakı fərqli əlamətləri sadalayır (st. 2.1.1).
- Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir (st. 2.1.3).
- Müəyyən məqsədlə anket tərtib edir (st. 3.1.4).
- Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır (st. 3.1.2).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Dərman bitkilərinin nümayişi |
| 2 | **Oxu** | "Qantəpər" şeirinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Şeirə aid çəkilmiş illüstrasiya üzrə iş, varlıqların müqayisəsi |
| 4 | **Söz ehtiyatı** | Yaxınmənalı sözlər üzrə iş |
| 5 | **Yazı** | Herbari hazırlamaq üçün təlimatın yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim gətirdiyi müxtəlif dərman bitkilərini nümayiş etdirir. Şagirdlər dərman bitkiləri haqqında bildiklərini danışırlar.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** "Qantəpər" şeiri şagirdlər tərəfindən növbəli oxunur. Müəllim oxu zamanı şagirdlərin misralar və bəndlər arasında pauza etmələrinə nəzarət edir. Hər bənddən sonra şeirdə qantəpər haqqında verilən məlumatlar soruşulur. Oxu prosesinin bu cür qurulması "B" tapşırığının yerinə yerilməsinə kömək edə bilər.

Şagirdlər mətnin növünü müəyyən edirlər (bədii).

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Şəkillərlə mətnin hissələri arasındakı uyğunluğu müəyyən etməklə şeiri oxuyub-qavradıqlarını nümayiş etdirirlər. Bu tapşırığın cütlərlə iş formasında yerinə yetirilməsi məqsədəuyğundur.



LAYİHƏ

**Tapşırıq C (dərslik). Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırıqlar şagirdlərin oxuyub-qavrama və çap hərfləri ilə verilmiş mətni köçürmək bacarığını inkişaf etdirir.

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Məqsəd şagirdlərin ümumi mənası eyni olan varlıqların fərqli və oxşar əlamətlərini müəyyən etmək bacarığını inkişaf etdirməkdir. Şagirdlər qantəpər və günəbaxanı aşağıdakı kimi müqayisə edə bilərlər.

*Qantəpər* – kiçikdir, ləçəkləri xırdadır, gövdəsi nazikdir, yarpaqları ensizdir və s.

*Günəbaxan* – böyükdür, ləçəkləri iridir, gövdəsi uzundur, yarpaqları enlidir, ortasında tumu var və s.

*Oxşar cəhətləri* – hər ikisi canlıdır, bitkidir, rəngləri bənzərdir, insanlar üçün faydalıdır və s.

**Diferensial təlim.** Tapşırığı yerinə yetirməkdə çətinlik çəkən şagirdlərə müəllim fərqli əlamətləri yazılı şəkildə verib uyğun bitkini seçməyi tapşıra bilər.

**Söz ehtiyatı**

2.1.2 **Tapşırıq Ç (dərslik). Yazı ilə inteqrasiya.** Cütlərlə iş. Şagirdlər "balaca", "zərif", "gül", "yoldaş" sözlərini şeirdə verilmiş yaxınmənalı qarşılığı (*kiçik, incə, çiçək, dost*) ilə əvəz etməklə dəftərə köçürürlər.

**Yazı**

3.1.4 **Tapşırıq D (dərslik).** Şagirdlər dərman bitkiləri haqqında hazırladıqları məlumat vərəqini təqdim edirlər.

> **Müəllimin nəzərinə!** Məlumat vərəqinin hazırlanması işi ilə bağlı şagirdlərin təəssüratlarını söyləməsinə şərait yaradılmalıdır. Yönəldici suallar verilə bilər:
> – *Məlumat vərəqini hazırlayarkən hansı çətinlikləri yaşadın? Bu işdə sənə kimlər kömək etdi?*

3.1.2 **Tapşırıq C (iş dəftəri).** Məqsəd şagirdlərin şəkil üzrə hadisələrin ardıcıllığını müəyyənetmə və yazı bacarıqlarını inkişaf etdirməkdir.

Şagirdlər təxminən aşağıdakı kimi yaza bilərlər: *"Dəm çaydanına quru çay tökülür. Daha sonra üzərinə qaynar su əlavə edilir. Sonda sobanın üzərinə qoyulur".*

**Tapşırıq E (dərslik).** Müəllim şagirdlərin tapşırığı yerinə yetirməsi üçün onlara kömək məqsədilə herbarinin hazırlanmasına aid dinləmə mətni oxuyur.

**Dinləmə mətni**

*Məktəblilərin maraqlı hobbilərindən biri də herbari hazırlamaqdır.*

*Herbari yığılıb qurudulmuş bitki kolleksiyasıdır. Herbari hazırlamaq həmin bitkilər haqqında məlumat toplamaq və öyrənmək üçün yaxşı vasitədir.*

*Herbari hazırlamaq üçün rəsm albomu, rəngli qələmlər, qayçı və yapışqan lazımdır.*

*Əvvəlcə topladığımız yarpaqları yapışqanla albomun vərəqinə yapışdırırıq. Bitki vərəqdən böyük olarsa, artıq hissəni qayçı ilə kəsirik. Sonra bitkinin hissələrini oxlarla göstərib yazırıq. Yanında bitki haqqında məlumatları qeyd edirik. Toxumları varsa, kiçik torbacıqlara yığıb albomun bir hissəsinə yapışdıra bilərik.*

> **Müəllimin nəzərinə!** Şagirdlərə "kolleksiya" sözü izah edilir.
> *Kolleksiya* – müəyyən məqsədlə (elmi və ya hobbi) eynitipli əşyaların müəyyən sistem üzrə toplusu.

**Tapşırıq Ə (dərslik). Yaradıcı iş.** Dərsin sonunda şagirdlərə dərman bitkiləri haqqında valideynlərinin köməyi ilə əlavə məlumat və material toplamaqla herbari hazırlamaq tapşırılır. Bu onların araşdırma və təqdimetmə bacarıqlarını inkişaf etdirir.

> **Müəllimin nəzərinə!** Tapşırıq "Təqdimat üçün seçdiyi vizual materialları yazılı şərhləri ilə müşayiət edir (st. 3.1.4)" təlim məqsədinin reallaşdırılması üçün nəzərdə tutulmuşdur. Şagirdlərin təqdimatı növbəti sərbəst dərsdə dinlənilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeir oxuyarkən misralar və bəndlər arasında pauza edir. | Tap. A (dərslik) |
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tap. B, C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Eyni məna qrupuna aid olan varlıqlar arasındakı fərqli əlamətləri sadalayır. | Tap. B (iş dəftəri) |
| Sözlərin yaxınmənalı və əksmənalı qarşılığını müəyyən edir. | Tap. Ç (dərslik) |
| Şəkillər və bildikləri məlumatlar əsasında təlimat yazır. | Tap. C (iş dəftəri)<br>Tap. E (dərslik) |

LAYİHƏ

## 4-cü dərs. "Bağbanın səhvi"

• Dərslik: səh. 78 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
• Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir (st. 2.2.5).
• Həyatda gördüklərinə əsaslanaraq mətnin məzmununu dəyişir (st. 2.2.5).
• Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir (st. 2.2.4).
• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 2.2.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bəzi canlıların faydası haqqında danışma |
| 2 | **Oxu** | "Bağbanın səhvi" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazların səciyyələndirilməsi, mətnin məzmununun dəyişdirilməsi, mətndəki hadisələrin ardıcıllığının müəyyən edilməsi, hekayə xəritəsinin tərtibi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bəzi canlıların (arı, ağacdələn) faydası haqqında soruşur.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** "Bağbanın səhvi" mətni şagirdlər tərəfindən növbəli oxunur. Bu zaman müəllim onların obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə oxumasına nəzarət edir.

Şagirdlər mətndə adı çəkilən canlıların adlarını müəyyənləşdirirlər: sincab, sərçə, cırcırama, qarışqa, arı.

Müəllim yönəldici suallar və əlavə məlumatlar vasitəsilə şagirdlərin həmin canlıların faydası haqqında düşünməsinə və bildiklərini danışmasına kömək edir.

Sincablar meşədə palıd, şam və qayın ağaclarının qoza oxşayan meyvəsi ilə (qoza) qidalanırlar. Sincablar öz qidalarını torpağın altında gizlətməklə qış üçün ehtiyat yığırlar. Ancaq sonradan həmin qozaların yerini unutduqları üçün tapa bilmirlər. Torpağın altından cücərən qozalar meşə sahələrinin yaranmasına səbəb olur.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah etmək bacarığını inkişaf etdirir.

Cavablar:

1. ... ağac artıq bar vermirdi.
2. ... ağacımızı kəsmə.
3. ... ağacı kəsmədi.
4. ... heyvanlar yuvalarında yaşamağa davam etdilər.

**Tapşırıq C (dərslik).** Məqsəd şagirdlərin həyatda gördüklərinə əsasən mətnin məzmununu dəyişmək bacarığını inkişaf etdirir. Şagirdlər təbiətdəki canlı varlıqların bir-birinə gərəkli olduğu fikirlərini həyatdan nümunələr gətirməklə izah edirlər; ağac kəsilsəydi, quşlar, həşəratlar, heyvanlar yuvasız qalıb məhv olardılar. Quşlar olmasa, zərərverici həşəratlar artardı. Onlar bitkilərin böyüyüb inkişaf etməsinə maneə törədərdilər və s.

2.2.4 **Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Cütlər mətnin məzmununa uyğun olmayan fikri ("Meyvə verməyən ağacları kəsərlər") müzakirə edərək müəyyənləşdirirlər. Sonra mətndən və həyatdan nümunələr gətirməklə mətnlə bağlı olan fikirləri ("Ağacların faydası çoxdur". "Canlıların həyatı bir-biri ilə sıx bağlıdır") əsaslandırırlar.

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlərdən mətndəki hadisələrə aid qeyri-ardıcıl verilmiş cümlələrin düzgün ardıcıllığını müəyyən etmək tələb olunur. Cümlələrin ardıcıllığı belədir: 5, 1, 4, 3, 2.

2.2.3 **Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətnin hekayə xəritəsini tərtib etməklə mətndəki əsas faktları yadda saxladıqlarını nümayış etdirirlər.

**Müəllimin nəzərinə!** Mətndə zaman haqqında konkret məlumat yoxdur. Ona görə də şagirdlərin diqqətini mətndəki şəklə yönləndirmək tövsiyə olunur. Şagirdlər şəklə uyğun olaraq "yay" və ya "yaz" yaza bilərlər. Hekayə xəritəsində mətnin qısa məzmununu yazanda isə şagirdlərin diqqətini iş dəftərindəki "A" tapşırığına yönəltmək məsləhətdir.

LAYİHƏ

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və üsullar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tap. A (dərslik) |
| Cümlələri mətnin məzmunundan çıxış edərək tamamlayır. | Tap. B (dərslik) |
| Həyatda gördüklərinə əsaslanaraq mətnin məzmununu dəyişir. | Tap. C (dərslik) |
| Mətnin məzmununa uyğun olan fikirləri müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. B (iş dəftəri) |

## 5-ci dərs. Şüar

• Dərslik: səh. 79 • İş dəftəri: səh. 52

**Təlim məqsədləri**

• Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir (st. 4.1.7).
• Oxuduğu və dinlədiyi mətnlər arasındakı ideya yaxınlığını müəyyən edir (st. 2.2.4).
• Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir (st. 1.2.2).
• Müəyyən mövzu üzrə çağırış xarakterli cümlə yazır (st. 3.1.4).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Bağbanin səhvi” mətninin xatırlanması |
| 2 | **Dinləmə** | “Sığırçın və balaları” mətni |
| 3 | **Danışma. Söz ehtiyatı** | Şəkil üzrə iş, mənası aydın olmayan sözlərin izahı |
| 4 | **Yazı** | Şüarın yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

“Bağbanın səhvi” mətni xatırlanır.

4.1.7 **Tapşırıq A (dərslik).** Göy fonda verilmiş cümlələr şagirdlər tərəfindən təkrar oxunur. Müəllim şagirdlərin diqqətini cümlənin sonundakı durğu işarəsinə yönəldir:

*– Cümlələrin sonunda hansı durğu işarəsi qoyulub? Cümlənin sonunda nə üçün nida işarəsi qoyulduğunu izah edin.*

Onlar bağbana müraciət edərək nəyi xatırlatdılar? (*Unutma ki, biz hamımız bir-birimizə gərəyik!*)

### Dinləmə

2.2.4 Müəllim şagirdlərə tapşırır ki, mətni dinlədikcə tanış olmayan sözləri qeyd etsinlər.

**Dinləmə mətni**

*Parkda uca bir çinar ağacı var idi. Burada sığırçın yuva qurmuş, bala çıxarmışdı. Ana sığırçın bütün günü uçur, cücülər tapıb gətirirdi.*

*Parkda bir pişik çinarın ətrafında dolanır, həsrətlə yuvaya sarı baxırdı. Bir gün balalardan biri yuvadan yerə düşdü. Ana sığırçın həyəcanla vurnuxmağa başladı. O, pişiyin yaxınlaşdığını görüb onun üstünə şığıdı. Ana çırpınır, pişiyin üzünü-gözünü dimdikləyirdi. Pişik tab gətirməyib oradan uzaqlaşdı. Parkda oynayan uşaqlar isə balanı yuvaya qoydular.*

Şagirdlər yeni sözlərin təxmini mənasını söylədikdən sonra müəllim həmin sözlərin izahları ilə bağlı dəqiqləşdirmə aparır və "Söz boğça"sına əlavə edir.

Aşağıdakı sualları cavablandırmaqla mətni dinləyib anladıqlarını nümayiş etdirirlər:

*– Ana sığırçın balalarını nə ilə yedizdirirdi?*
*– Pişik nə üçün vurnuxurdu?*
*– Mətni adlandırın.*
*– Mətndə əsas fikir nədir? (ana məhəbbəti)*

*Ana məhəbbəti ilə bağlı oxuduğunuz hansı mətnləri xatırlayırsınız? (“Ana qaranquş”, “Pişik və Qaraquş”)*

Şagirdlər mətnləri müqayisə etdikdən sonra müəllim onlara ana məhəbbəti ilə bağlı qısa, aydın, təsirli nida cümlələri deməyi tapşırır. Şagirdlər nida cümlələri (*Anaları qoruyaq! Bala hər şeydən əzizdir! Ana məhəbbəti güclü olar!* və s.) söylədikcə müəllim lövhədə qeydlər aparır.

### Danışma. Söz ehtiyatı

1.2.2 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərin diqqətini şəklə yönəldərək tapşırığın şərtini aydınlaşdırır. “Çağırış” və “daşındırmaq” sözlərini izah edir. Sonra şagirdlərə yönəldici suallar verməklə onları mövzu ətrafında danışmağa sövq edir:

*– Şəkildəki oğlan nə edir? Şəkildə təsvir olunmuş hadisənin mövzusu nədir? Oğlanın hərəkəti düzgündürmü? Oğlanı bu hərəkətdən çəkindirmək üçün nə edərdiniz? Ona nə deyərdiniz?*

LAYİHƏ

### Yazı

3.1.4 **"Bunları bilməliyik" rubrikası.** Rubrikadakı məlumatlar şagirdlər tərəfindən oxunur. Müəllim rubrikada verilmiş məlumatları şərh edir.

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin təxəyyülünü və yaradıcı təfəkkürünü inkişaf etdirmək məqsədi daşıyır.

**Qruplarla iş.** Hər qrup şəkildə təsvir olunmuş hadisənin mövzusunu müəyyən edərək mövzuya uyğun şüar yazır. Təqdimatlar dinlənilir. Məqsəd şagirdlərin qısa, aydın, insanlarda hiss və həyəcan doğuran çağırışın (şüarın) yazılması bacarığının nümayiş etdirilməsidir.

Şagirdlərin cavabları təxminən belə ola bilər.

*1. Mövzu: "Ətraf mühit"*
*Şüar: "Gəlin ətraf mühitii qoruyaq!"*
*2. Mövzu: "Yaşıllıqların çoxaldılması"*
*Şüar: "Hərəmiz bir ağac əkək!"*
*3. Mövzu: "Sahibsiz heyvanlar"*
*Şüar: "Heyvanları ac buraxmayın!"*
*4. Mövzu: Suyun əhəmiyyəti.*
*Şüar: Su həyatdır!*

**Müəllimin nəzərinə!** Şagirdlər 4-cu şəkil üzrə mövzunun müəyyənləşdirilməsində çətinlik çəkə bilərlər. Bu zaman müəllimə bölmənin mövzusunu xatırlatmaq, şagirdlərin diqqətini dəniz və qağayılara yönəltmək tövsiyə olunur.

**Tapşırıq A, B (iş dəftəri).** Bu tapşırıqları yerinə yetirməklə şagirdlər qruplarla iş fəaliyyətində əldə etdikləri bilik və bacarıqları müstəqil şəkildə nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və üsullar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir. | Tap. A (dərslik) |
| Oxuduğu və dinlədiyi mətnlər arasındakı ideya yaxınlığını müəyyən edir. | MV-də fəaliyyət |
| Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir. | Tap. B, C (dərslik) |
| Müəyyən mövzu üzrə çağırış xarakterli cümlə yazır. | Tap. C (dərslik)<br>Tap. A, B (iş dəftəri) |

## 6-cı dərs. Ümumiləşdirici dərs

• Dərslik: səh. 80 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**

• Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir (st. 2.2.2).
• Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir (st. 2.2.4).
• Hərəkət bildirən sözləri zamana görə fərqləndirir (st. 4.1.5).
• Dialoqlarda durğu işarələrindən (tire, qoşa nöqtə) yerli-yerində istifadə edir (st. 4.1.7).
• Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir (st. 2.2.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə məlumatların xatırlanması |
| 2 | **Oxu** | "Gilas ağacı" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki əsas fikrin müəyyənləşdirilməsi |
| 4 | **Dil qaydaları** | Dialoqda durğu işarələrinin işlədilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmədəki mövzulara uyğun olaraq açar sözlər səsləndirir *(suyun dövranı, suların çirklənməsi, zoopark, dərman bitkiləri, təbiətin qorunması)*. Şagirdlər bu bölmədə həmin mövzular üzrə öyrəndikləri məlumatları söyləyirlər.

### Oxu

2.2.2 **Tapşırıq A (dərslik).** "Gilas ağacı" dialoji mətn olduğu üçün rollu oxu məqsədəuyğundur. Şagirdlər mətnin növünü müəyyən edərək fikirlərini əsaslandırırlar. Tapşırığın məqsədi bu bölmədə öyrədilən "mətnin növləri" və "dialoq" anlayışı üzrə bilik və bacarıqlarının möhkəmləndirilməsidir.

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər mətndəki dialoqda iştirak edən obrazları müəyyən edərək mətni oxuyub-anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər mətndəki əsas fikri müəyyənləşdirirlər: "Bütün canlılar bir-birinə kömək edir, fayda verirlər". Şagirdlər fikirlə-



LAYİHƏ

rini əsaslandırmaq üçün ağacdələni nümunə gətirə bilərlər.

Ağacdələn ağacda yaşayır və onun gövdəsindəki cücülərlə qidalanır. Ağac isə bunun nəticəsində sağlam qalır.

**Dil qaydaları**

4.1.5 **Tapşırıq Ç (dərslik).** Bu bölmədə hərəkətin zamanı ilə bağlı öyrədilən bilik və bacarıqlar ümumiləşdirilir. Şagirdlər hərəkət bildirən sözləri cümlədəki zaman bildirən sözlərin tələb etdiyi kimi işlədib cümlələri köçürürlər.

4.1.7 **Tapşırıq D (dərslik).** Şagirdlər dialoqun strukturu və durğu işarələri ilə bağlı bölmədə öyrəndikləri bilikləri yazılı şəkildə tətbiq edirlər.

**Tapşırıq A, B, C (iş dəftəri).** Şagirdlər mətndəki obrazları (Qız və Qar dənəsi) müəyyənləşdirir, “Qar dənəsi” mətninin mövzusunun “Təbiət hadisələri” fəslinə aid olduğunu müəyyən edirlər.

2.2.5 **Tapşırıq Ç (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər əvvəlcə suyun dövranı ilə bağlı 1-ci fəsildə öyrəndiklərini xatırlayıb danışırlar. Sonra şagirdlər mətnin yazılı şəkildə davamını yazırlar. Yazı təxminən bu məzmunda ola bilər:

*“Başqa su damlaları da mənim kimi buxarlanıb göyə qalxırdı. Göydə biz buxar topaları birləşib buluda çevrildik. Havalar getdikcə soyudu. Şaxta bizi qar dənəsinə çevirdi”.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və üsullar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir. | Tap. A (dərslik) |
| Mətndəki əsas fikri izah edir. | Tap. C (dərslik) |
| Hərəkət bildirən sözləri zamana görə fərqləndirir. | Tap. Ç (dərslik) |
| Dialoqlarda durğu işarələrindən istifadə edir. | Tap. D (dərslik) |
| Hadisələrin davamını təxmin edir. | Tap. Ç (iş dəftəri) |



LAYİHƏ

bölmə **4**

# YAXŞI NƏDİR, PİS NƏDİR

| Mövzu | | Yaxşı nədir, pis nədir |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Oxunan mətnin təxəyyülə uyğun davam etdirilməsi<br>• Süjetli şəkillər üzrə mətnin qurulması<br>• Mətnin plana uyğun nəql edilməsi |
| | Söz ehtiyatı | əsirgəmək, növbətçi, tumarlamaq, sinə gərmək, minnətdarlıq, boylanmaq, qırıntı, eybəcər, lağa qoymaq, xizək, kirşə, qayıq, quldur, quldurbaşı, qənaət, israf, məbləğ, monitor, ehtiyat, siyirmə.<br>• Sözün izahı |
| | Oxu | • Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnlərin oxunması<br>• Jest və mimikadan istifadə etməklə mətnin oxunması |
| | Yazı | • İllüstrasiyanın ardıcıllığına uyğun bədii mətnin yazılması<br>• Sadə anketin doldurulması<br>• Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Oxunan mətnin plan əsasında qısa məzmununun yazılması |
| Akademik biliklər | Dil qaydaları | • *-lar, -lər* – çoxluq bildirən hissəciklər<br>• Cümlənin genişləndirilməsi<br>• *-çı, -çi, -çu, -çü* hissəcikləri<br>• Gözlə görünən və gözlə görünməyən varlıqlar |
| | Filoloji anlayışlar | • Mətnin tərkib hissələri<br>• Mətndə qabardılan əsas problem və onun həlli |
| Kompetensiyalar | | • Əxlaqi dəyərlərin qorunması, yaxşı və ya pis xüsusiyyətlərin fərqləndirilməsi |

Bu bölmədə müxtəlif mənəvi dəyərlərdən, insani münasibətlərdən, dostluq və səmimi hisslərdən bəhs edən bədii mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, xarakterin səciyyələndirilməsi ilə bağlı söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Mətndəki obrazları sadə formada təhlil edir, onlara münasibət bildirir.

• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır.

• Hüsnxət normalarına uyğun yazır.

**Mənimsənilməsi çətinlik doğuran məsələlər:**

• Yaradıcı tapşırıqların yerinə yetirilməsi

• Mətnin tərkib hissələrinin fərqləndirilməsi

• Cümlənin genişləndirilməsi

Bu bölmənin tədrisi zamanı bir sıra filoloji anlayışların mənimsədilməsində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma faydalı ola bilər. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

LAYİHƏ

fəsil 1 ƏSL DOST

## 1-ci dərs. “Əsl dost”

• Dərslik: səh. 81-83 • İş dəftəri: səh. 54

**Təlim məqsədləri**

• Mətndəki fikri həyatda gördükləri ilə müqayisə edərək şəxsi qənaətini bildirir (st. 2.2.4).
Bədii mətni oxuyarkən jest və mimikadan istifadə edir (st. 2.2.1).
• Mətndə fakt və hadisələrin aid olduğu hissələri müəyyən edir (st. 2.2.3).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə titulu üzrə iş |
| 2 | **Danışma** | “Əsl dost” ifadəsinin müzakirəsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Əsl dost" şeirinin oxusu, yeni sözlər üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki obrazların təhlili, mətndəki əsas fikrin müəyyənləşdirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə yaxşı və pis xüsusiyyətlərə dair sözlər (*qayğıkeşlik, xeyirxahlıq, acgözlük, xəsislik, mehribanlıq, fədakarlıq, qəddarlıq, lovğalıq* və s.) yazaraq “Yaxşı nədir, pis nədir” mövzusunda müzakirə aparır. Şagirdlər oxuduqları mətnlərdən nümunələr gətirməklə hər bir xüsusiyyət haqqında fikirlərini əsaslandırırlar.

### Danışma

2.2.4 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini bölmə titulunda verilmiş şəkillərə yönəldir və sual verir:

– *Hansı mətnlərdə dostluq haqqında danışılır?*

Şagirdlər "Göbələk" və "Yöndəmsiz timsah" mətnlərini xatırlayır, qısa məzmununu danışır, obrazların hərəkətlərinə münasibət bildirirlər. Bununla bölmənin "Əsl dost" fəslinə keçid edilir.

**Tapşırıq B (dərslik).** Tapşırıqda verilən sual müzakirə edilir. Şagirdlər növbə ilə fikir yürüdürlər. Müəllim onların düşündüklərini sərbəst şəkildə ifadə etmələrini müşahidə edir. Sonda söylənilən fikirlər ümumiləşdirilir. Əsl dosta lazım olan xüsusiyyətlər (dözümlülük, qayğıkeşlik, səmimilik, sevgi, təmənnasız münasibət) qabardılır.

### Oxu

2.2.1 **Tapşırıq C (dərslik). Rollu oxu.** Şeirdə dörd obrazın nitqi olduğu üçün rollu oxunun qruplarla iş formasında yerinə yetirilməsi məqsədəuyğundur. Qruplar əvvəlcə dialoq üzrə biliklərindən istifadə edərək şeirdəki obrazların nitqini müəyyənləşdirir, rolları öz aralarında bölürlər. Müəllim bu mərhələdə “Söz boğçası” üzrə iş aparır. Tövsiyə olunur ki, şagirdlər oxu zamanı jest və mimikadan istifadə etsinlər.

Hazırlıq prosesindən sonra qruplar şeiri rollar üzrə oxuyurlar. Oxu prosesi bitdikdən sonra şagirdlər obrazları təhlil edir, əsl dosta lazım olan vacib xüsusiyyətləri müəyyən edirlər.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Tapşırığı yerinə yetirməklə şagirdlər şeirdə adı çəkilən, lakin nitqi verilməyən şagirdin (Cavanşirin) sözlərini müəyyənləşdirirlər, onun fikrinə münasibət bildirirlər.

**Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin oxuduqları mətni hərtərəfli analiz etmək bacarığını inkişaf etdirir. Tapşırıq üç mərhələdən ibarətdir. I mərhələdə şagirdlər nəsrlə verilmiş fikirlərin hansı obrazın dilindən söylənildiyini müəyyənləşdirirlər. II mərhələdə həmin obrazları şəkillə uyğunlaşdırırlar. III mərhələdə isə şagirdlər şəkillərdə ifadə olunmuş fikri verilmiş sözləri uyğunlaşdırırlar.

*Əliaçıqlıq, əməkdaşlıq, xeyirxahlıq* sözləri “Söz boğçası”na əlavə olunur.

**Müəllimin nəzərinə!** Tapşırığın üçüncü mərhələsi üzrə fəaliyyətə iş dəftərində verilmiş “A” tapşırığının yerinə yetirilməsindən sonra başlanılması tövsiyə olunur.

2.2.4 **Tapşırıq E (dərslik).** Tapşırığın əsas məqsədi atalar sözlərində ifadə olunan fikrin şərh edilməsi, atalar sözlərinin işlənmə məqamlarının müəyyənləşdirilməsidir. Şagirdlər 1-ci və 2-ci atalar sözləri ilə bağlı fikirlərini “Əsl dost” şeirindən nümunələr gətirməklə əsaslandırırlar.

**Diferensial təlim.** Müəllim fəal şagirdlərə 3-cü atalar sözünə uyğun situasiya düşünməyi tapşıra bilər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı müstəqil yerinə yetirməklə şeiri oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri). Şaquli inteqrasiya.** Bu tapşırıq şagirdlərin şeirdə obrazların nitqini fərqləndirmək, eyni zamanda onu nəsrə çevirərək yazmaq bacarığını inkişaf etdirir.

LAYİHƏ

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki fikri həyatda gördükləri ilə müqayisə edərək şəxsi qənaətini bildirir. | Tap. A (dərslik)<br>Tap. B (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun (jest və mimikadan istifadə etməklə) səsləndirir. | Tap. C (dərslik) |
| Verilmiş nümunələrdən mətnə uyğun olanını seçir. | Tap. Ç (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tap. D (dərslik)<br>Tap. A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə şagirdlərin sayına uyğun olaraq anket və sorğu vərəqləri hazırlamaq tövsiyə olunur. Anket və sorğu nümunələri dərsliyin 64-cü səhifəsində təqdim edilmişdir.

## 2-ci dərs. *-lar, -lər* çoxluq bildirən hissəcik

• Dərslik: səh. 84 • İş dəftəri: səh. 55

**Təlim məqsədləri**

• Ad bildirən sözlərin tək və ya cəmdə olduğunu müəyyənləşdirir (st. 4.1.5).
• Cəm şəkilçisini sözə əlavə edərkən ahəng qanununa uyğun düzgün variantını seçir (st. 4.1.5).
• Müəyyən məqsədlə anket doldurur (st. 3.1.4).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Əşyaların kəmiyyəti ilə bağlı söhbətin aparılması |
| 2 | **Dil qaydaları** | Sözlərin tək və cəmdə işlənməsi |
| 3 | **Yazı** | "Dostum haqqında məlumat" anketinin doldurulması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bir qələmi şagirdlərə göstərir və soruşur: "Bu nədir?" Şagirdlər: "Qələm" söyləyirlər. Sonra müəllim 5-6 qələmi göstərib yenidən şagirdlərə müraciət edir. Şagirdlər "çoxlu qələm", "qələmlər" və s. söyləyirlər.

### Dil qaydaları

4.1.5 **Tapşırıq A (dərslik)** Bu tapşırıqda *dost* və *dostlar* sözləri arasındakı fərqin izahı tələb olunur. Şagirdlər *dost* deyəndə bir nəfər, *dostlar* deyəndə isə bir neçə nəfərin nəzərdə tutulduğunu deyirlər. Müəllim bu fərqin necə yarandığını soruşur. Bu fərqi *-lar* şəkilçisinin yaratdığı vurğulanır. Şagirdlər tərəfindən *-lar* hissəciyinin köməyi ilə yaranmış başqa söz cütlükləri sadalanır: *kitab – kitablar, söz – sözlər, qız – qızlar* və s.

**"Bunları bilməliyik" rubrikası.** *-lar, -lər* çoxluq bildirən hissəcik kimi izah edilir. *-lar* hissəciyi ahəng qanununa uyğun olaraq sözlərin sonuna artırılaraq varlığın çox olduğunu bildirir; məsələn: *şəhər – şəhərlər, insan – insanlar* və s.

4.1.5 **Tapşırıq B (dərslik).** Şagirdlər təkdə verilmiş sözlərə müvafiq olaraq *-lar, -lər* şəkilçiləri artırmaqla sözləri cəmdə işlədirlər. Bu zaman cəm şəkilçisinin sözün son hecasından asılı olaraq dəyişməsini mənimsəyirlər: *meşə – meşələr, bağça – bağçalar və s.*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlərdən tək və cəmdə verilmiş sözləri cədvəl üzrə qruplaşdırmaq tələb olunur. Tapşırığın məqsədi şagirdlərin "tək" və "cəm" anlayışları üzrə biliklərinin möhkəmləndirilməsidir.

**Tapşırıq C (dərslik).** Şəkillərdə tək və sayca çox olan varlıqlar təsvir olunub. Şagirdlərdən həmin varlıqları düzgün ifadə etmək tələb olunur: *qızılgüllər, sincab, karandaşlar, hörümçək, ilbizlər, balıqlar*.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırığın şərtinə görə, verilmiş cümlələrdə nöqtələrin yerinə yazılacaq sözün təkdə, yoxsa cəmdə olacağını müəyyənləşdirmək lazımdır; məsələn: *Qırmızı, sarı almalar çox ətirli idi. Aytən ağacdan bir alma dərdi.* Tapşırığın məqsədi qazanılmış biliklərin möhkəmləndirilməsidir.

**Tapşırıq C (iş dəftəri)**. Tapşırığın tələbinə görə, şagirdlər təkdə verilən sözlərə cəm şəkilçisi artırmalı, sonra isə həmin sözləri cümlənin tərkibində işlətməlidirlər.

3.1.4 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərə hazır anket vərəqlərini paylayır. Hər kəs öz dostu haqqında olan anketi doldurur. Şagirdlər tərəfindən doldurulmuş anketlər sinfə təqdim olunur. Beləliklə, anketlərdə kimlərdən söhbət getdiyi müəyyənləşir. Bu tapşırıq şagirdlərin təxminetmə bacarığını inkişaf etdirir.

**Tapşırıq D (dərslik).** Şagirdlər arasında "Kimi yaxşı dost hesab edirsən?" mövzusunda yazılı sorğu keçirilir. Sinifdə çoxlarının yaxşı dost hesab etdiyi şəxs müəyyənləşir. Həmin şagirdi hamının

LAYİHƏ

dost hesab etməsinin səbəbləri (həmin şagirdin müsbət keyfiyyətləri, yoldaşlarına səmimi münasibəti, heç vaxt köməyini əsirgəməməsi, mehribanlığı) müzakirə olunur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təkdə və ya cəmdə olan sözləri fərqləndirir. | Tap. A, C (dərslik)<br>Tap. A, B (iş dəftəri) |
| Sözləri cəmdə işlədir. | Tap. B (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Müəyyən məqsədlə anket doldurur. | Tap. Ç, D (dərslik) |

## 3-cü dərs. “Çeçələ barmaq”

• Dərslik: səh. 85-86 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

• Qeyri-verbal ünsiyyət vasitələrindən (jest, mimika və s.) istifadə edir (st. 1.2.1).
• Verilən təsnifat qruplarına daxil olan sözləri sadalayır (st. 2.1.1).
• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir (st. 2.2.5).
• Mətnin adı ilə məzmunu arasındakı bağlılığı izah edir (st. 2.2.3).
• Mətnin məzmunu ilə bağlı “Səbəb-nəticə cədvəli”ni tamamlayır (st. 2.2.5).
• Tanış atalar sözlərindən mətndəki əsas fikrə uyğun olanı seçir (st. 2.2.4).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Verilmiş jestlər üzrə iş |
| 2 | **Oxu** | “Çeçələ barmaq” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin adlandırılması, obrazlara münasibət, səbəb və nəticənin müəyyən edilməsi |
| 4 | **Danışma** | Atalar sözü ilə mətnin əlaqələndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə barmaqları ilə "Sus" işarəsi göstərir və soruşur:

*– Mən bu işarə ilə sizə nə demək istədim?*

**Danışma**

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər şəkillərdə verilmiş jestlər (*əla, sus, qələbə, birlik, pis*) üzrə müzakirə edir, bunlardan əlavə, tanıdıqları jestlər haqqında danışırlar. Bu tapşırıq şagirdlərdə jestləri başa düşmək, onlardan düzgün istifadə etmək bacarıqlarını inkişaf etdirir.

**Söz ehtiyatı**

2.1.1 **Tapşırıq B (dərslik).** Tapşırıqda şagirdlərə tanış olan sanamlardan biri təqdim olunur. Sanamada obrazlı şəkildə verilmiş barmaq adlarının əslində necə adlandığı şagirdlərə mənimsədilir. Şagirdlər barmaqlarını göstərməklə hər birinin adını söyləyirlər. Bununla onların söz ehtiyatı artırılır. Bu həmçinin "Çeçələ barmaq" mətninin oxu prosesinə kömək edir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər öyrəndikləri barmaq adlarını iş dəftərində uyğun xanalarda yazırlar. Bu da barmaq adlarının yadda qalmasına xidmət edir.

**Oxu**

2.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər mətni növbə ilə oxuyurlar. Sonra sualları cavablandırırlar.

**Oxuyub-qavrama**

2.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər baş barmağı bükməklə digər barmaqların iş qabilyyətini yoxlaya bilərlər. Bu müşahidədən çıxış edərək mətndə altından xətt çəkilmiş fikri əsaslandırırlar.

2.2.3 **Tapşırıq D (dərslik). Cütlərlə iş.** Cütlər mətndəki əsas fikri müəyyənləşdirirlər, yeni ad barədə müzakirə edib mətni adlandırırlar.

Cütlər təqdimat zamanı mətnə verdikləri yeni adları əsaslandırmalıdırlar.

**Müəllimin nəzərinə!** Şagirdlər mətni təxminən belə adlandıra bilərlər: "Dost köməyi", "Yeni dostlar", "Paxıl barmaq", "Xeyirxah barmaq" və s.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər uyğun gələn açar sözləri (*zəhmətkeş, paxıl, xeyirxah*) seçməklə mətndəki əsas fikri anladıqlarını nümayiş etdirirlər.

2.2.5 **Tapşırıq C, Ç (iş dəftəri).** Tapşırıqların əsas məqsədi mətndəki səbəb və nəticə əlaqəsini müəyyən etmək bacarıqlarını inkişaf etdirir. “C” tapşırığının yerinə yetirilməsi şagirdlərə səbəb-nəticə cədvəlini tamamlamaqda kömək edir.

2.2.4 **Tapşırıq E (dərslik).** “Beş barmağın beşi də bir olmaz” atalar sözü müəllimin yönəldici sualları vasitəsilə izah olunur:

LAYİHƏ

*Eyni ölçüdə olan barmaqlarınız varmı? Onlar ölçülərindən başqa nəyə görə fərqlənirlər?* (iş qabiliyyətlərinə görə).

Atalar sözü mətnlə əlaqələndirilir. Şagirdlər mətndən çıxış edərək barmaqların eyni görünüşə və gücə malik olmadığını və atalar sözündə buna işarə edildiyini söyləyirlər. Müəllim yönəldici suallar vasitəsilə şagirdləri bu atalar sözünün mənası və işləndiyi məqamlar barədə fikir söyləməyə sövq edə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Jestlərin mənasını anlayır, istifadə edir. | Tap. A (dərslik) |
| Eyni qrupa aid olan yeni sözləri tanıyır. | Tap. B (dərslik), Tap. A (iş dəftəri) |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. C (dərslik) |
| Obrazın hərəkətlərindən çıxış edərək onun xarakterini müəyyən edir. | Tap. C, Ç (iş dəftəri) |
| Mətnin məzmunundan çıxış edərək onu adlandırır. | Tap. D (dərslik) |
| Atalar sözünün mətnlə əlaqəsini müəyyənləşdirir. | Tap. E (dərslik |
| Mətnin məzmunu ilə bağlı “Səbəb-nəticə cədvəli”ni tamamlayır. | Tap. C, Ç (iş dəftəri) |

## 4-cü dərs. Şəkil üzrə mətn qurmaq

• Dərslik: səh. 86-87 • İş dəftəri: səh. 57

**Təlim məqsədləri**

• Mətnin hissələrini yarımbaşlıqlar və ya sual cümlələri ilə ifadə edir (st. 2.2.3).
• Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir (st. 2.2.3).
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır (st. 3.1.2).
• Ad bildirən sözlərin tək və ya cəmdə olduğunu müəyyənləşdirir (st. 4.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Çeçələ barmaq" mətnindəki obrazların xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | Sualların cavablandırılması, mətnin hissələri üzrə iş |
| 3 | **Yazı** | Süjetli şəkillər üzrə mətn yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllimin yönəldici sualları ilə "Çeçələ barmaq" mətnindəki obrazlar xatırlanır:

– *Mətndə hansı obrazlar iştirak edirdi? Baş qəhrəman hansı obraz idi?*

**Oxuyub-qavrama**

2.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlər mətn üzrə suallara cavab verməklə hadisələrin gedişində yaranan problem, problemin necə həll olunması və necə nəticələnməsi barədə müzakirə aparırlar. Bu tapşırığın əsas məqsədi şagirdlərdə oxuduqları mətnin tərkib hissələrinə, əsas obrazın qarşılaşdığı problemə, bu problemin həllinə diqqət yönəltmək bacarığını inkişaf etdirməkdir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrika üzrə iş aparır. Mətnin tərkib hisssələri ilə bağlı yeni anlayışları şagirdlərə aydınlaşdırır.

**Müəllimin nəzərinə!** Bəzən mətnlər əsas və ya sonluq hissə ilə də başlayır. Ancaq şagirdlərin yaş səviyyəsini nəzərə alaraq rubrikada giriş hissə ilə başlanan mətnlərə uyğun məlumat verilib. Şagirdlər mətnin əsas hissəsini müəyyən etməkdə çətinlik çəkə bilərlər. Şagirdlərin nəzərinə çatdırılmalıdır ki, mətndəki əsas hadisələr, obrazların qarşılaşdığı problemlər və problemin necə həll olunması mətnin əsas hissəsinə aiddir.

2.2.3 **Tapşırıq A (iş dəftəri)**. Bu tapşırıqda “Çeçələ barmaq” mətninin planı qeyri-ardıcıl verilib. Şagirdlər hər bəndin qarşısında uyğun sıra nömrəsi yazmaqla mətnin ardıcıllığını bərpa edirlər. Tapşırığın əsas məqsədi şagirdlərdə hadisələrin ardıcıllığını müəyyənləşdirmək bacarığını inkişaf etdirməkdir.

**Doğru cavab:** 4, 3, 1, 2, 5.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətnin tərkib hissələrini fərqləndirməklə yeni anlayışlar üzrə biliklərini möhkəmləndirirlər.

**Giriş hissə: “**Barmağın şikayəti”. “**Əsas hissə:** “Parlaq üzük”, “Köməyə yetişən barmaq”, “Dəyişən xasiyyət”. **Sonluq hissə:** “Mehriban dostlar”.

**Yazı**

3.1.2 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda şagirdlərə süjetli şəkillər təqdim olunur. Şəkillərin üzərində isə mətnə aid açar sözlər və ya obrazların dilindən cümlələr verilir. Bu, şagirdlərə mətn qurub yazmaqda kömək edir.

Şagirdlər əvvəlcə mətnin tərkib hissələri ilə bağlı öyrəndikləri biliklərə uyğun şəkillər üzrə danışırlar. Şagirdlər 1-ci şəkildə giriş hissənin xarak-



LAYİHƏ

terinə uyğun olaraq məkanı təsvir edir, zamanı müəyyən edir, obrazları adlandırırlar. 2-ci, 3 və 4-cü şəkillər üzrə əsas hadisələr, 5-ci şəkildə isə sonluq hissəyə uyğun olaraq hadisənin nəticəsi üzrə danışırlar.

Şəkillər şifahi müzakirə edildikdən sonra şagirdlər müstəqil olaraq mətn qurub yazırlar. Sonda mətni adlandırırlar. Bu, şagirdlərin şifahi nitqini yazılı nitqə çevirmək bacarığını formalaşdırır.

**Müəllimin nəzərinə!** Şagirdlərin sözlərin sətirdən-sətrə keçirilməsinə diqqət yetirməsi tövsiyə olunur.

### Dil qaydaları

4.1.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər cümlənin məzmunundan çıxış edərək buraxılmış sözü tapıb cəmdə işlədirlər.

1. Payızda yarpaqlar (otlar) saralır.
2. Budaqlara qonmuş quşlar (bülbüllər) cəh-cəh vururdular.
3. Zəng vurulanda uşaqlar (şagirdlər) sinfə daxil oldular.
4. Binanın eyvanlarında bayraqlar dalğalanırdı.

Bu tapşırıq şagidlərin dil qaydaları üzrə biliklərini möhkəmləndirir və məntiqi təfəkkürünü inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin planının ardıcıllığını bərpa edir. | Tap. A (iş dəftəri) |
| Mətnin tərkib hissələrini fərqləndirir. | Tap. B (iş dəftəri) |
| Süjetli şəkil üzrə mətn qurub yazır. | Tap. B (dərslik) |
| Ad bildirən sözlərin tək və ya cəmdə olduğunu müəyyənləşdirir. | Tap. C (iş dəftəri) |

## 5-ci dərs. “İki gül”

• Dərslik: səh. 87-88 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**

• Müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir (st. 1.2.1).
• Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir (st. 1.2.2).
• Mətni ucadan oxuyarkən cümlələri məqsəd və intonasiyaya görə fərqləndirir (st. 2.2.1).
• Sözlərin yaxınmənalı qarşılığını müəyyən edir (st. 2.1.2).
• Mətnin giriş, əsas, sonluq hissələrini müəyyən edir (st. 2.2.3).
• Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Qayğıkeşlik nədir?” mövzusunda söhbət |
| 2 | **Danışma** | Sualların cavablandırılması; mətnin hissələri üzrə iş |
| 3 | **Oxu** | “İki gül” mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətnin tərkib hissələrinin müəyyən edilməsi |
| 5 | **Yazı** | Mətnin qısa məzmununun yazılması |
| 6 | **Söz ehtiyatı** | Yeni sözlərin yaxınmənalı qarşılığının müəyyən edilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

“Qayğıkeşlik nədir?” mövzusunda söhbət aparılır. “Yolda hadisə'' mətni xatırlanır.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Tapşırıq şagirdlərin vizual olaraq gördüklərini ardıcıllıqla nəql etməklə mətn qurmaq bacarığını möhkəmləndirmək məqsədi daşıyır.

Bu tapşırıqda süjetli şəkil üzrə mətn qurub danışmaq tələb olunur. Mətni danışan zaman şagirdlər şəkillərdə təsvir olunmuş hadisələrin ardıcıllığına diqqət etməlidirlər.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə şəkil üzrə mətn qurub danışmaq üçün plan tərtib etməyi tövsiyə edə bilər.

1.2.2 **Tapşırıq B (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərin şahidi olduğu və ya oxuduğunu mövzu ilə əlaqələndirmək bacarığını inkişaf etdirməkdir. Müəllimin yönəldici sualları vasitəsilə şagirdlər həyatdan nümunələr gətirməklə dostluq münasibətlərində qayğıkeşlik haqqında danışırlar.

Müəllimin yönəldici sualları:

*– Siz dostunuza qayğı göstərmisinizmi? Bu hadisə necə olub? Bəs sizə dostunuz nə vaxtsa qayğı göstəribmi?*

### Oxu

2.2.1 **Tapşırıq C (dərslik)** Tapşırığın əsas məqsədi oxu prosesi zamanı cümlənin məqsəd və intonasiyaya görə növlərini uyğun səs tonu ilə fərqləndirmək bacarığını inkişaf etdirməkdir. Mətndə olan nəqli, sual (*Ay oğlan, sən nə etdin?*), nida (*Axı o mənim rəfiqəmdir!*) cümlələrini uyğun intonasiya ilə oxumaqla şagirdlər düzgün oxu texnikasını mənimsədiklərini nümayiş etdirirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin mətnin tərkib hissələrinə aid bilik və bacarıqlarını möhkəmləndirmək məqsədi daşıyır.

Cavablar: giriş: 4, 7; əsas: 1, 2, 6; sonluq: 3, 5.

LAYİHƏ

**Tapşırıq D (dərslik).** Məqsəd şagirdlərə mətnin əsas fikrinin mətnin, adətən, sonluq hissəsində müəyyənləşdiyini mənimsətməkdir.

### Yazı

**3.1.2** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnə aid verilmiş şəkillərin ardıcıllığını müəyyən edir və mətnin qısa məzmununu yazır, şəkil üzrə mətn qurub danışır.

### Söz ehtiyatı

**2.1.2** **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda şagirdlər altından xətt çəkilmiş sözlərin yaxınmənalı qarşılığını seçib yazmalıdırlar. Tapşırığın əsas məqsədi şagirdlərin söz ehtiyatını möhkəmləndirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şahidi olduğu hadisə haqqında danışır. | Tap. A (dərslik) |
| Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir. | Tap. B (dərslik) |
| Mətni ucadan oxuyarkən cümlələri məqsəd və intonasiyaya görə fərqləndirir. | Tap. C (dərslik) |
| Verilmiş fikirlərin mətnin tərkib hissələrinə uyğunluğunu müəyyən edir. | Tap. Ç, D (dərslik) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. A (iş dəftəri) |
| Yaxınmənalı sözləri müəyyən edir. | Tap. B (iş dəftəri) |

# fəsil 2 SƏDAQƏT

## 1-ci dərs. "Qar kraliçası" (I hissə)

• Dərslik: səh. 89 • İş dəftəri: səh. 59

**Təlim məqsədləri**

• Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir (st. 1.2.2).
• Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur (st. 2.2.1).
• Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
• Sözlərin yaxınmənalı və əksmənalı qarşılığını müəyyənləşdirir (st. 2.1.2).
• Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir (st. 2.2.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Sədaqət" sözü ilə bağlı söhbət |
| 2 | **Danışma** | Situasiya ilə bağlı münasibət bildirilməsi |
| 3 | **Oxu** | "Qar kraliçası" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki hadisələrin ardıcıllığının müəyyən edilməsi, mətnə aid doğru fikirlərin müəyyən edilməsi |
| 5 | **Söz ehtiyatı** | "Söz boğçası"üzrə iş, yeni sözlərin cümlədə işlədilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə "sədaqət" sözünü yazır və sinfə müraciət edir:

– *Bu sözü oxuyarkən ağlınıza nə gəldi? Hansı hissləri keçirdiniz?*

Şagirdlər vəfa, etibar, dosta sadiq qalmaq və s. söyləməklə sözün mənasını açırlar.

**1.2.2** **Tapşırıq A (dərslik).** Müəllim yönəldici suallar (*Siz dostunuza qarşı kobud davranmısınızmı? Sizcə, kobudluq dostluğa mane ola bilərmi?* və s.) vasitəsilə şagirdləri mövzu ətrafında danışdırmaqla onların münasibətini öyrənir. Tapşırığın əsas məqsədi şagirdlərin konkret situasiyalarla bağlı münasibət bildirmək bacarığını inkişaf etdirməkdir.

### Oxu

**2.2.1** **Tapşırıq B (dərslik).** Bu tapşırığın yerinə yetirilməsi üçün müəllim 7-8 dəqiqə vaxt müəyyən edir. Oxu prosesi şagirdlər tərəfindən səssiz həyata keçirilir. "Qar kraliçası" mətninin səssiz oxusu zamanı şagirdlər hadisələrin hansı ardıcıllıqla cərəyan etməsini diqqətdə saxlamalıdırlar. Bu, sonradan şagirdlərin "C" tapşırığını cavablandırmasına da yardımçı olacaq.

### Oxuyub-qavrama

**2.2.5** **Tapşırıq C (dərslik).** Oxu zamanı şagirdlərin mətnin ardıcıllığına diqqət yetirməsi bu tapşırığın yerinə yetirilməsinə kömək edəcək. Belə ki, hissələrə bölünmüş mətndə hadisələrin ardıcıllığı pozulub. 2-ci hissədəki hadisə 1-ci hissədəkindən əvvəl baş verib. Diqqətlə oxuyan şagird biləcək ki, əvvəl güzgü div tərəfindən düzəldilib (2-ci hissə), sonra qırılıb Kayın gözünə düşüb (1-ci hissə). Beləliklə, diqqətli şagird mətndəki hadisələrin ardıcıllığını düzgün müəyyən edəcək. Daha sonra şagirdlərdən bu mətni hadisələrin ardıcıllığını nəzərə almaqla nəql etmək tələb olunur. Tapşırığın əsas məqsədi şagirdlərin oxuduqları mətndəki

LAYİHƏ

hadisələrin zaman ardıcıllığını müəyyənləşdirmək bacarığını inkişaf etdirməkdir.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş fikirlərin mətnə əsasən doğru, yoxsa yanlış olduğunu müəyyən etməklə mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

**Doğru cavablar:** 3, 4, 5, 6.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş sözlərin yaxınmənalı qarşılığını "Söz boğçası"ndan seçməklə söz ehtiyatlarını zənginləşdirirlər.

**Tapşırıq B (iş dəftəri). Dil qaydaları ilə inteqrasiya.** Tapşırıq şagirdlərin orfoqrafik qaydalara (cümlənin böyük hərflə başlaması, müvafiq durğu işarəsi ilə tamamlanması, sözün sətirdən-sətrə keçirilməsi) əməl etməklə düzgün cümlə qurmaq bacarıqlarını və söz ehtiyatını möhkəmləndirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir. | Tap. A (dərslik) |
| Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur. | Tap. B (dərslik) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. C (dərslik) |
| Mətnin məzmununa uyğun olan fikirləri müəyyənləşdirir | Tap. A (iş dəftəri) |
| Sözlərin yaxınmənalı qarşılığını müəyyən edir. | Tap. Ç (dərslik) |

## 2-ci dərs. "Qar kraliçası" (II hissə)

• Dərslik: səh. 90-91 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir (st. 2.2.3).
• Mətnin kompozisiyasında problemin yaranması və həlli məqamlarını müəyyən edir (st. 2.2.3).
• Dinlədiyi mətnlə bağlı analoji həyat hadisələrindən, cizgi filmlərindən misal gətirir, müqayisələr aparır (st. 1.1.1).
• Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir (st. 2.2.5).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | "Problem" anlayışının izah olunması |
| 2 | Oxu. Söz ehtiyatı | "Qar kraliçası" mətninin II hissəsinin oxusu |
| 3 | Oxuyub-qavrama | "Qar kraliçası" mətninə aid sualların cavablandırılması, mətndəki əsas hadisələrin, problemlərin müəyyən edilməsi |
| 4 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

"Qar kraliçası" mətninin 1-ci hissəsində baş verən əsas hadisələr xatırlanır.

**Suallar:**

*1. Kay və Gerda bağçada oynayarkən nə baş verdi? 2. Güzgünün adi güzgüdən fərqi nə idi? 3. Güzgü Kaya necə təsir etdi?*

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik).** Mətn şagirdlər tərəfindən növbəli oxunur. 2-ci abzasın oxusundan sonra şagirdlərin diqqəti mətnə çəkilmiş illüstrasiyaya yönəldilir. Hadisənin baş verdiyi zaman (qış), məkan (küçə) təsvir edilir. Şagirdlərə tapşırılır ki, oxu prosesində Kayın başına gələn hadisələrə – üzləşdiyi çətinliklərə (1. Kayın xizəyi kirşədən ayıra bilməməsi. 2. Kayın ürəyinin buza dönməsi. 3. Kayın ailəsini və Gerdanı unutması) diqqət yetirsinlər.

"Xizək" və "kirşə" sözləri mətnə çəkilmiş illüstrasiyada kirşə və xizəyi göstərməklə izah edilir.

### Oxuyub-qavrama

**Tapşırıq B (dərslik).** Mətnə aid suallar bir-bir şagirdlər tərəfindən səsləndirilir. Mətndən A və C bəndlərinə cavab tapılır. B bəndinin cavabı şəkildən müəyyən edilir. D bəndinin cavabı isə mətndə və şəkildə yoxdur.

Tapşırığın əsas məqsədi şagirdlərin məntiq və diqqətini inkişaf etdirməkdir.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq şagirdlərdən faktoloji sualları yazılı şəkildə cavablandırmağı tələb edir ki, bu da həm şagirdlərin oxuyub-anlama bacarıqlarını, həm də yazı vərdişlərini möhkəmləndirir.

2.2.3 **Tapşırıq C (dərslik).** Bu tapşırığın tələbinə əsasən əvvəl mətnin giriş hissəsi müəyyən edilir (1-ci abzasdakı 3 cümlə mətnin giriş hissəsidir). Qarlı bir günün olması, hər tərəfin donması, Kayın xizək sürməsi kimi məlumatlar sadalana bilər. Sonra mətnin əsas hissəsinin başlandığı hadisə müəyyənləşdirilir (kirşənin küçədə görünməsi).

LAYİHƏ

Tapşırıq şagirdlərdə mətnin tərkib hissələrini fərqləndirmək bacarığını formalaşdırır.

**“Bunları bilməliyik” rubrikası.** Məlumatlar oxunur. Şagirdlər Kayın üzləşdiyi problemləri sadalayırlar (1. Kayın xizəyi kirşədən ayıra bilməməsi. 2. Kayın ürəyinin buza dönməsi. 3. Kayın ailəsini və Gerdanı unutması).

1.1.1 Müəllimin oxuduğu dinləmə mətni ilə real hadisələr əsasında “problem” anlayışı daha dərindən mənimsədilir.

**Dinləmə mətni**

*Bir gün ailəmizlə rayondan – gəzintidən qayıdırdıq. Qardaşımla mən çox sevincli idik. Xeyli gəzib yorulmuşduq. Evimizə çatıb dincəlmək istəyirdik. Amma qatı dumandan maşını sürmək çətin idi. Atam maşını yavaş-yavaş sürürdü. Birdən maşın palçıqla dolu bir çökəyə düşdü. Maşınımız dayandı. İri palçıq topası maşının qabaq şüşəsinə töküldü. Yol görünməz oldu. Atam maşını birtəhər çökəkdən çıxardı. Şüşəni silmək üçün dəsmalı götürüb maşından düşdü. Maşının şüşəsini sildi, amma palçıq hər tərəfə yayıldı. Atam maşının şüşəsilənini işə saldı. Şüşəsilənin qabında su yox idi. Atam əlacsız halda dilləndi:*

*– Vəssalam. Su lazımdır, su da yoxdur. Görəsən, haradan su tapa bilərəm? Gözləyək, gələn maşınları saxlatdırıb soruşaq. Nə bilək, gecə vaxtı maşın olacaq, ya yox?!*

*Birdən qardaşım Sənan sevincək qışqırdı:*

*– Ata, mən suyumu içməmişəm, dayan, gətirim.*

*Sənan cəld su butulkasını gətirib atama verdi. Atam suyu şüşəsilənin qabına tökdü. Şüşəsiləni işə saldı. Şüşəsilən şüşənin üstü ilə sağa-sola gedərək onu tərtəmiz etdi. Artıq yolumuza davam edə bilərdik. Biz çox sevinirdik. Sənan bizi çətinlikdən qurtardı.*

**Müzakirə.** Mətn şagirdlər tərəfindən dinlənildikdən sonra müzakirə edilir. Mətndə ailənin hansı çətinliklə üzləşdiyi müəyyən edilir. Mətndə təsvir olunan bu çətinliyin problem olduğu şagirdlərə izah olunur. Onlarda problem barədə təsəvvür formalaşır. Şagirdlər analoji hadisələrdən nümunələr gətirməklə “problem” anlayışını mənimsədiklərini nümayiş etdirirlər.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş mətni müstəqil oxuyaraq mətndə təsvir olunan əsas problemləri və onların necə həll olunduğunu yazırlar.

**Diferensial təlim.** “Problem” anlayışının mənimsənilməsində çətinlik çəkən şagirdlərə müəllim mətnlə bağlı faktoloji suallar verməklə (*Rəşad tapşırığı yerinə yetirərkən hansı hadisələrlə üzləşdi? Leyla ona necə kömək etdi?*) mətni qavramalarına kömək edə bilər. Tapşırığın yerinə yetirilməsindən sonra müəllim şagirdlərlə ümumi müzakirə edərək “problem” anlayışı ilə bağlı öyrəndikləri bilikləri ümumiləşdirə bilər.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq şagirdlərin hadisələri izləmək, hadisələrin davamını təxmin etmək bacarıqlarını möhkəmləndirir. Həmçinin şagirdlərdə mətnin növbəti hissəsinə maraq oyadır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətn üzrə faktoloji suallara cavab verir. | Tap. A, B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətnin giriş hissəsini və həmin hissədə verilən məlumatları müəyyən edir. | Tap. C (dərslik) |
| Hadisələrin davamını təxmin edir. | Tap. Ç (dərslik) |
| Dinlədiyi mətnlə bağlı analoji həyat hadisələrdən nümunə gətirib müqayisə aparırır. | MV-də fəaliyyət |
| Mətndə problemin yaranması və həlli məqamlarını müəyyən edir. | Tap. B, C(iş dəftəri) |

## 3-cü dərs. “Qar kraliçası” (III hissə)

• Dərslik: səh. 91 • İş dəftəri: səh. 61

**Təlim məqsədləri**

• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Dinlədiyi mətni genişləndirərək nəql edir (st. 1.1.1).
• Obrazlarla bağlı fakt və hadisələri müəyyənləşdirir (st. 2.2.3).
• Dinlədiyi mətndəki məlumatları əvvəl bildikləri ilə müqayisə edir (st. 1.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Yaxşılıq nədir” mövzusunda söhbət |
| 2 | **Oxu** | Mətnin giriş hissəsinin oxusu |
| 3 | **Danışma** | Mətnin şəkillər üzrə nəql olunması |
| 4 | **Oxuyub-qavrama** | Mətnin ardıcıllığının müəyyən edilməsi. Obrazların xüsusiyyətlərinə görə fərqləndirilməsi. Dinlənən və oxunan mətnin fərqləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

LAYİHƏ

### Mövzuya yönəltmə

Müəllim sinfə “Yaxşılıq nədir?” sualı ilə müraciət edir. Şagirdlər mövzu ətrafında müzakirə aparırlar. Yaxşılığa aid müxtəlif mətnlər, nağıllar, cizgi filmləri xatırlanır. Yaxşılıq mənəvi dəyər kimi qabardılır.

### Oxu. Söz ehtiyatı

**Tapşırıq A (dərslik).** Şagirdlərdən birinə mətnin giriş hissəsinin ifadəli, hamının başa düşəcəyi tərzdə oxuması tapşırılır. Şagirdlər Gerdanın hisslərini ifadə edən cümlələri müəyyənləşdirirlər (*Gerda Kaya görə narahat idi. O hər gün ağlayırdı*).

1.1.1 Şagirdlərdən birinə mətnin giriş hissəsinin ifadəli, hamının başa düşəcəyi tərzdə oxusu tapşırılır. Oxu prosesi bitdikdən sonra dinləmə mətni müəllim tərəfindən səsləndirilir.

**Dinləmə mətni**

*Gerda sahildəki meşənin kənarı ilə gedirdi. Birdən meşənin kənarında bir kareta gördü. Karetada şahzadə əyləşmişdi. O, Gerdadan hara getdiyini soruşdu. Gerda isə dostunu axtardığını dedi və şahzadədən atla araba istədi. Şahzadə Gerdaya qəşəng bir at və araba bağışladı. Gerda yoluna davam etdi. Bir az getmişdi ki, qəribə səslər eşitdi. Bu, meşə quldurlarının səsi idi. Onlar Gerdaya yaxınlaşdılar. Qızı arabadan düşürdülər. Quldurlar atı və arabanı aldılar. Gerda yalvarmağa başladı:*

*– Məni buraxın, mən Kayı tapmalıyam.*

*Bu zaman quldurların başçısı olan balaca qız Gerdanın səsini eşitdi. Ona yaxınlaşdı. Gerdanı quldurların əlindən aldı. Quldurbaşı qızın maralı Kayı gördüyünü dedi. Qar kraliçasının Kayı Laplandiyaya apardığını söylədi. Quldurbaşı marala tapşırdı ki, Gerdanı Laplandiyaya aparsın. Gerda qıza çox təşəkkür etdi və marala minib yola düşdü. Onlar xeyli getdikdən sonra bir qarı ilə qarşılaşdılar, ondan Kayı soruşdular. Qarı Qar kraliçasının Kayı Buz sarayda saxladığını dedi. Onlar qarı ilə sağollaşıb yollarına davam etdilər.*

Şagirdlərin, adətən, nağılarda rast gəldikləri *şahzadə, quldur, quldurbaşı, qarı, kareta* sözləri izah olunaraq “Söz boğçası”na əlavə edilir.

2.2.5 **Tapşırıq B (dərslik).** Dinləmə mətni bitdikdən sonra şagirdlər mətnə çəkilmiş illüstrasiyaların ardıcıllığını müəyyən edirlər (A, Ç, C, B).

1.1.1 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Qruplar dərslikdə verilmiş şəkillər və dinləmə mətninə əsaslanaraq mətnin davamını danışırlar. Bu zaman hər qrup bir şəkil üzrə danışarkən mətndəki hadisələrin ardıcıllığını nəzərə almalıdır. Məqsəd şagirdlərin dinlədikləri və gördükləri əsasında mətn qurmaq bacarığını inkişaf etdirməkdir.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq şagirdlərin mətndəki hadisələrin ardıcıllığını müəyyənləşdirməsinə yönəlib. Düzgün ardıcıllıq: 3, 1, 4, 2.

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda mətndəki obrazları səciyyələndirən xüsusiyyətlər verilib. Şagirdlərdən həmin xüsusiyyətlərə uyğun obrazları müəyyənləşdirmək tələb olunur: 1 – Kay; 2 – Gerda; 3 – Qar kraliçası; 4 – şahzadə; 5 – quldurbaşı; 6 – qarı. Tapşırıq şagirdlərin oxuyub-anlamasını möhkəmləndirir.

1.1.2 **Tapşırıq C (iş dəftəri).** Müəllim Laplandiya haqqında dinləmə mətnini oxumazdan öncə şagirdlərə tapşırır ki, mətni dinlədikcə əsas faktlarla bağlı qeydlər götürsünlər.

**Dinləmə mətni**

*Laplandiya Finlandiya ərazisində yerləşir. O, Santa Klausun vətənidir. Burada taxtadan tikilmiş ikimərtəbəli evciklər var. Meşədə gəzişdikcə dovşan, tülkü, başqa vəhşi heyvanlar adamların yanından keçir. Nə insanlar onlardan qorxurlar, nə də heyvanlar insanlardan.*

*Laplandiyada ilin dörd fəslində də təbii tərəvəzlər, meyvələr var. İnsanlar pendiri, kəsmiyi, qatığı və yağı özləri hazırlayırlar. Laplandiyada insanlar avtomobildən çox, maral və it qoşqularından istifadə edirlər. Dünyada ən gözəl Yeni il şənliyi Laplandiyada keçirilir. Hər tərəf işıqlarla, yolkalarla bəzədilir. Hamı Santa Klausun kəndinə axışır.*

Daha sonra mətndəki faktlarla bağlı tapşırıq yerinə yetirilir. Tapşıqda verilmiş 1, 3-cü məlumatlar “Qar kraliçası”, 2, 4, 5, 6-cı məlumatlar isə dinləmə mətnlərinə aiddir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. B (dərslik) |
| Dinlədiyi mətni genişləndirərək nəql edir. | Tap. C (dərslik) |
| Obrazlarla bağlı fakt və hadisələri müəyyənləşdirir. | Tap. B (iş dəftəri) |
| Dinlədiyi mətndəki məlumatları əvvəl bildikləri ilə müqayisə edir. | Tap. C (iş dəftəri) |



LAYİHƏ

## 4-cü dərs. "Qar kraliçası" (IV hissə)

• Dərslik: səh. 92 • İş dəftəri: səh. 62

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir (st. 2.2.5).
• Mətnin əsas hissələrini ümumiləşdirərək nəql edir (st. 2.2.3).
• Mətndə fakt və hadisələrin aid olduğu hissələri müəyyən edir (st. 2.2.3).
• Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir (st. 3.1.4).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Çətinliyə düşən adama kömək etmisinizmi?" mövzusunda söhbət |
| 2 | **Oxu** | "Qar kraliçası" mətninin 4-cü hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Hadisələrin səbəbinin müəyyən olunması, mətnin hissələri üzrə iş |
| 4 | **Yazı** | Sevimli obraza məktubun yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

– *Çətinliyə düşən adama kömək etmisinizmi?*

Şagirdlər sual ətrafında müzakirə aparırlar. Müxtəlif fikirlər səsləndirilir. Kimisə çətinlikdən qurtarmaq, kiməsə yardım etmək mənəvi dəyər kimi qabardılır.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər mətni növbə ilə ucadan oxuyurlar. Tapşırığın əsas məqsədi oxu prosesi zamanı şagirdlərin bütün diqqətini mətnin məzmununa cəlb etməkdir. Oxu prosesi başa çatdıqdan sonra şagirdlər mətnin sonunda verilmiş sualları cavablandırırlar. Bu sualları cavablandırmaq üçün şagirdlər oxuduqları mətndə hadisələrin səbəbini müəyyən etməyi bacarmalıdırlar.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Bu tapşırıq şagirdlərə mənəvi dəyər aşılamaqla yanaşı, onlarda oxuduqlarını düzgün dərk etmək bacarığının möhkəmləndirilməsinə xidmət edir. Gerdanın rast gəldiyi adamların ona kömək etməsinin səbəbi kimi qızın sədaqətli və etibarlı dost olması önə çəkilir.

**Tapşırıq C (dərslik).** Bu tapşırıqda şagirdlər mətndəki əsas fikrə uyğun sözü seçməklə mətnin ideyasını anladıqlarını nümayiş etdirirlər. **Cavab:** B – sədaqət.

2.2.3 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Tapşırığa əsasən şagirdlər qruplara bölünürlər. Hər qrup "Qar kraliçası" mətninin bir hissəsini nəql edir. Tapşırıq ümumiləşdirici xarakter daşıyır. Əsas məqsəd bir neçə gün ərzində hissə-hissə oxunan mətnin ümumiləşdirilərək nəql olunmasıdır. Bu tapşırıq mətnin həm mövzu, həm də ideya baxımından şagirdlər tərəfindən daha dərindən dərk edilməsi üçün faydalıdır.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndəki əsas hadisələrin mətnin hansı tərkib hissəsinə aid olduğunu müəyyən etməklə mətnin tərkib hissələri üzrə biliklərini nümayiş etdirirlər. **Cavab:** 1 – B; 2 – A; 3 – D; 4 – C.

### Yazı

3.1.4 **Tapşırıq B (iş dəftəri).** Məqsəd şagirdlərin düşündüklərini yazılı şəkildə ifadə etmək bacarığını inkişaf etdirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətn üzrə faktoloji suallara cavab verir. | Tap. A (dərslik) |
| Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir. | Tap. B (dərslik) |
| Mətnin əsas hissələrini ümumiləşdirərək nəql edir. | Tap. Ç (dərslik) |
| Mətndə fakt və hadisələrin aid olduğu hissələri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Oxuduğu mətndəki obraza məktub yazır. | Tap. B (iş dəftəri) |

## 5-ci dərs. Cümlənin genişləndirilməsi

• Dərslik: səh. 93 • İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

• Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir (st. 4.1.6).
• Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir (st. 4.1.6).
• Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual-cavab əsasında cümlənin genişləndirilməsi |
| 2 | **Dil qaydaları** | Cümlənin genişləndirilməsi. Cümlədən çıxan fikirlərin müəyyən edilməsi |
| 3 | **Söz ehtiyatı** | Nöqtələrin yerinə uyğun sözün yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə "Qar kraliçası apardı?" cümləsini yazır. Şagirdlərə *kimi? haraya?* suallarını verməklə onlardan aldığı cavablar əsasında cümləni genişləndirir. Bununla şagirdlərin diqqəti mövzuya yönəldilir.

### Dil qaydaları

4.1.6 **Tapşırıq A (dərslik).** Tapşırığın şərtinə əsasən şagirdlər verilən cümlədə hansı sualın cavabının olmadığını müəyyənləşdirməlidirlər. "A" və "C" suallarının cavabını cümlədən müəyyən etmək olur. Lakin "B" sualının cavabı cümlədə yoxdur. Bu tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığını inkişaf etdirir.

**"Faydalı məsləhət" rubrikası.** Müəllim şagirdlərə uyğun gələn sözlər əlavə etməklə cümlənin genişləndirilməsi barədə məlumat verir.

4.1.6 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin fikirlərini daha geniş və əhatəli ifadə etmək üçün cümləni genişləndirmək bacarığı inkişaf etdirilir. Diqqətli şagirdlər qrammatik və semantik baxımdan daha çox uyğun sözlərdən istifadə etməklə cümlələri verilmiş nümunəyə uyğun olaraq genişləndirirlər; məsələn: **Kim?** – *Arif futbol oynadı.* **Harada?** – *Arif məktəbin stadionunda futbol oynadı.* **Kimlə?** – *Arif Səlimlə məktəbin stadionunda futbol oynadı.*

4.1.6 **Tapşırıq B (dərslik).** Şagirdlər oxuduqları cümlədən çıxan fikirləri müəyyənləşdirməlidirlər. Verilən cümlədən "A", "B", "D" bəndlərindəki fikirləri anlamaq mümkündür. Amma Kay və Gerdanın səhərlər oynaması haqqında cümlədə heç bir məlumat yoxdur.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin cümlədən anlaşılan məlumatları müəyyən etmək bacarığını möhkəmləndirir.

*"Sona bu gün də nənəsinin bişirdiyi piroqdan iki dilim yedi"* cümləsindən aydın olur ki, "Nənə əvvəllər də Sonaya piroq bişirib" və "Piroq dilimlərə bölünüb". Lakin Sonanın meyvəli piroqu xoşlaması, nənənin alma piroqu bişirməsi, piroqun qonaqlar üçün bişirilməsi haqqında cümlədə məlumat verilmir.

**Cavab:** – 1, 3, 5.

**Tapşırıq C (dərslik). Tapşırıq C (iş dəftəri).** Hər iki tapşırığın əsas məqsədi verbal məntiqi inkişaf etdirməkdir. Nöqtələrin yerinə uyğun sözü yazmaqla şagirdlər məntiqi düşüncələrini nümayiş etdirmiş olurlar; məsələn:

1. *Fərəh ağacdan heyva dərdi.*

Aydındır ki, çiyələk və kələm ağacda yetişmir.

2. *Dərzi parçanı kəsmək üçün qayçı götürdü.*

Şagirdlər bilməlidirlər ki, sap, eləcə də iynə ilə parça kəsmək olmaz və ya:

1. *Cavid mətni danışmaq üçün plan tərtib etdi.*

Məlumdur ki, mətni dinləmək və ya oxumaq üçün plana ehtiyac yoxdur.

2. *Hava şaxtalı olduğu üçün Əsmər əlcək geyindi.*

Köynək və ayaqqabı şaxta olmadan geyinilir, əlcəyi isə şaxtalı havada geyinirlər.

4.1.6 **Tapşırıq Ç (dərslik).** Bu tapşırığın məqsədi şagirdlərin verilmiş qısa cümlələri genişləndirməklə öyrəndiklərini möhkəmləndirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir. | Tap. A, B (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir. | Tap. C, Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |

## fəsil 3 QƏNAƏT

## 1-ci dərs. "Herbari üçün albom"

• Dərslik: səh. 94-95 • İş dəftəri: səh. 64

**Təlim məqsədləri**

• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Başlıq, altbaşlıq, yarımbaşlıq, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunun təqdim edilməsində rolunu dəyərləndirir (st. 2.2.3).
• Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir (st. 4.1.6).
• Obrazı və onun davranışlarını qiymətləndirməklə mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür (st. 2.2.4).
• Sözlərin yaxınmənalı və əksmənalı qarşılığını müəyyən edir (st. 2.1.2).
• Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir (st. 4.1.5).

LAYİHƏ

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Qənaət” sözü haqqında təxminetmə |
| 2 | **Oxuyub-qavrama** | Obrazın səciyyələndirilməsi |
| 3 | **Söz ehtiyatı** | Əksmənalı sözlər |
| 4 | **Dil qaydaları** | *-çı⁴* şəkilçisi ilə yaranan sözlər |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

– *Kimsə otaqdan işığı söndürmədən çıxanda ona “işığı söndür” deyirlər. Sizcə, bu nə üçün lazımdır?*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik). Cütlərlə iş.** Cütlər müəyyən vaxt ərzində şəkilləri nəzərdən keçirirlər. Şəkilləri müqayisə edərək ortaq fikrə gəlirlər. Sonda cütlər öz fikirlərini bildirirlər. Tapşırığın əsas məqsədi şagirdlərdə "qənaət" anlayışı ilə bağlı təsəvvür formalaşdırmaqdır.

**Müəllimin nəzərinə!** Şagirdlərə öz fikirlərini daha rahat çatdırmaq üçün onlara “qənaət”, "israf", "torşer", "su kranı" sözlərinin mənası izah olunur. Bu sözlər "Söz boğçası"na əlavə edilir.

"Torşer" – yerdən qoyulan hündür, ayaqlı lampa.

### Oxu

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlərin diqqəti əvvəlcə mətnin adına və mətnə çəkilmiş illüstrasiyaya yönəldilir.

Şəkil əsasında mətnin məzmununu təxmin edirlər. Sonra şagirdlər mətni növbə ilə ucadan oxuyurlar. Oxu prosesi bitdikdən sonra məzmunla bağlı şagirdlərin təxminləri müqayisə edilir.

### Oxuyub-qavrama

4.1.6 **Tapşırıq C (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərin oxuyub-qavrama bacarığını inkişaf etdirməkdir. Şagirdlər verilmiş cümlədən çıxan fikirləri müəyyən edirlər.

**Doğru cavab:** 1. Ülkər keçən il də kəndə getmişdi (“hər il” ifadəsinə görə); 4. Ülkər məktəblidir (“yay tətili” ifadəsinə görə); 5. Ülkərin babası şəhərdə yaşamır (“kənddə – babasıgildə” ifadəsinə görə).

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnlə bağlı doğru fikirləri müəyyənləşdirməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

*Doğru fikirlər: 2, 4, 5.*

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər obrazın hərəkətinə münasibət bildirərkən mətndən faktlar gətirməklə fikirlərini əsaslandırmalıdırlar (Türkan qənaətcildir. Eyni zamanda lazım gələndə tez bir vaxtda düzgün qərar qəbul edə bilir və s.).

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümlədə ifadə olunan fikrin mətnin ideyasına uyğunluğunu müəyyən edirlər. 1 və 3-cü cümlələr mətndəki əsas fikrə uyğundur.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq D (dərslik).** Şagirdlər mətndə fərqləndirilmiş sözlərin əksmənalı qarşılığını müəyyən edib yazmaqla söz ehtiyatlarını nümayiş etdirirlər.

2.1.1 **Tapşırıq E (dərslik).** Şagirdlər “su” və “suçu” sözlərinin fərqini izah etməyə çalışırlar. Tapşırıq vasitəsilə şagirdlərin diqqəti -çı⁴ hissəciyi ilə yaranan sözlərə yönəldilir.

**“Bunları bilməliyik” rubrikası.** -çı,-çi, -çu, -çü hissəciklərinin köməyi ilə yeni sözlərin yaranması haqqında məlumat verilir. Eləcə də bu hissəciklərin ahəng qanununa uyğun olaraq dəyişməsi və onların köməyi ilə yaranan sözlərin, adətən, peşə bildirməsi nəzərə çatdırılır.

### Dil qaydaları

4.1.5 **Tapşırıq Ə (dərslik).** Bu tapşırıqda şagirdlər nöqtələrin yerinə uyğun gələn sözlər yazmaqla cümləni tamamlayırlar. 1 – qapı; 2-piano; 3 – dəniz; 4 – gül.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin yeni söz yaratmaq, həmin sözləri cümlənin tərkibində işlətmək bacarığını möhkəmləndirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tap. A (dərslik) |
| Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Obrazı və onun davranışlarını qiymətləndirməklə mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür. | Tap. Ç (dərslik) |
| Sözlərin yaxınmənalı və əksmənalı qarşılığını müəyyən edir. | Tap. D (dərslik) |
| Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir. | Tap. E, Ə (dərslik)<br>Tap. C (iş dəftəri) |

LAYİHƏ

## 2-ci dərs. "Şahinin xahişi"

• Dərslik: səh. 96 • İş dəftəri: səh. 65

**Təlim məqsədləri**

• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 2.2.1).
• Varlığın əlamətlərini sadalamaqla təsvir edir (st. 1.2.1).
• Mətndəki fikri həyatda gördükləri ilə müqayisə edərək şəxsi qənaətini bildirir (st. 2.2.4).
• Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir (st. 3.1.4).
• Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir (st. 4.1.7).
• Cümlənin tərkibindəki sözlərlə digər sözlər arasında məna əlaqəsi yaradaraq cümləni genişləndirir (st. 4.1.6).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin yönəldici sualının cavablandırılması |
| 2 | **Danışma** | "Daxılınız varmı?" sualı ətrafında söhbət |
| 3 | **Oxu** | "Şahinin xahişi" şeirinin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Şeirin məzmunu və dili üzrə iş |
| 5 | **Yazı** | Məktubun yazılması |
| 6 | **Dil qaydaları** | Məqsəd və intonasiyaya görə cümlənin növləri üzrə iş |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

– *Pulunuz artıq olanda harada saxlayırsınız?*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər daxıllarının olub-olmaması haqqında danışırlar. Müəllim şagirdlərə yönəldici suallar verir:

– *Daxıla hansı məqsədlə pul yığırsınız? Ən çox nə qədər pul toplaya bilmisiniz? Topladığınız pula nəsə almısınızmı?*

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** "Şahinin xahişi" şeiri müəllim tərəfindən mimika və jestlərdən istifadə edilməklə ifadəli oxunur. Sonra isə şagirdlər müəllimin oxuduğu kimi düzgün səs tonu seçməklə, eləcə də jest və mimikadan yerli-yerində istifadə etməklə şeiri oxuyurlar. Tapşırığın əsas məqsədi şagirdlərin ifadəli oxu bacarığını təkmilləşdirməkdir.

### Oxuyub-qavrama

**Tapşırıq C (dərslik).** Şagirdlər şəkli diqqətlə nəzərdən keçirməklə sualları cavablandırırlar. 1-ci sualın cavabı mətnin adından müəyyən edilir (*Oğlanın adı Şahindir*). 2-ci sualın cavabı mətnə çəkilmiş şəklə əsasən şərh olunur (*Əgər oğlan əlində daxıl tutubsa, deməli, ona daxıl alınıb*).

1.2.1 Şagirdlər şəkildən istifadə etməklə şəkildəki daxılın rəngini, formasını, ölçüsünü təsvir edirlər. Tapşırığın əsas məqsədi şagirdlərin diqqətini və vizual oxu bacarığını inkişaf etdirməkdir.

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər daxılın faydasını atalar sözündə ("Dama-dama göl olar") ifadə olunan fikirlə əlaqələndirib əsaslandırırlar:

*"Bir yerdə su dama-dama (damcılayaraq) göl yaratdığı kimi, qəpiklər də bir-bir daxıla atıldıqca göl kimi böyüyür, çoxalır".*

**Tapşırıq D (dərslik).** Şagirdlər "daxılın dost köməyi" ifadəsini şərh edirlər: daxıl pulun saxlanılması üçün ən etibarlı yerdir, o sanki sədaqətli dost kimi ona atılan pulu qoruyub-saxlayır və s. fikirlər səsləndirilir. Tapşırığın məqsədi şagirdlərdə məcazi mənalı ifadələri anlamaq və izah etmək bacarığı formalaşdırmaqdır.

2.2.4 **Tapşırıq Ə (dərslik).** Şagirdlər qənaətcil olmağın faydaları haqqında həyatda müşahidə etdiklərindən nümunələr söyləməklə fikirlərini əsaslandırmalıdırlar.

### Yazı

**Tapşırıq E (dərslik). Şaquli inteqrasiya.** Bu tapşırığın tələbinə görə şagirdlər şeirdəki nəzm parçalarını verilmiş cümlələrlə uyğunlaşdırıb həmin misraları köçürməlidirlər.

Cavab:

1. *Qənaəti sevənlər*
   *Düşməzlər heç vaxt dara.*
2. *Pulu düz xərcləməsək,*
   *Bilmərik getdi hara.*
3. *Qənaətim artdıqca*
   *İsrafçılıq yox olar.*

3.1.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər nəzmlə yazılmış mətni nəsrə çevirərək məktub şəklində yazmaqla yazılı nitq bacarıqlarını inkişaf etdirirlər.

### Dil qaydaları

4.1.7 **Tapşırıq B (iş dəftəri).** Tapşırığı yerinə yetirməklə şagirdlər cümlələri məqsəd və intonasiyaya görə qrammatik normalara uyğun yazmaq (durğu işarələrindən düzgün istifadə etmək bacarıqlarını nümayiş etdirirlər.

LAYİHƏ

**Tapşırıq F ( dərslik). Qruplarla iş.** Bunun üçün sinif dörd qrupa ayrılır, hər qrupa “daxıl” sözünü cümlənin məqsəd və intonasiyaya uyğun hər hansı bir növündə cümlədə işlətmək tapşırılır. Bunun üçün onlara üç dəqiqə vaxt verilir. Cümlələr vərəqlərə yazılaraq lövhədən asılır.

4.1.6 **Tapşırıq G (dərslik).** Tapşırığın şərtinə görə şagirdlər verilən cümləni əlavə sözlərin köməyi ilə genişləndirməlidirlər; məsələn:

*Anam daxıl aldı.*

*Anam dünən daxıl aldı.*

*Anam dünən mağazadan daxıl aldı.*

*Anam dünən mənə mağazadan daxıl aldı.*

*Anam dünən mənə mağazadan qırmızı daxıl aldı* və s.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazın nitqini xarakterinə uyğun səsləndirir. | Tap. B (dərslik) |
| Varlığın əlamətlərini sadalamaqla təsvir edir. | Tap. C (dərslik) |
| Mətndəki fikri həyatda gördükləri ilə müqayisə edərək şəxsi qənaətini bildirir. | Tap. Ç, D, Ə (dərslik) |
| Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir. | Tap. F (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Cümləni genişləndirir. | Tap. G (dərslik) |

## 3-cü dərs. “Ağıllı daxıl” (I hissə)

• Dərslik: səh. 97-98 • İş dəftəri: səh. 66

**Təlim məqsədləri**

- Tanış mövzu ətrafında söhbət edir (st.1.2.1).
- Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir (st. 2.2.5).
- Varlığın əlamətlərini sadalamaqla təsvir edir (st. 1.2.1)
- Öz biliklərinə əsaslanaraq problemin həlli ilə bağlı fikir yürüdür (st. 1.2.2).
- Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir (st. 1.2.1).
- Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (2.2.5).
- Mətndə öz əksini tapmış fakt və hadisələri müəyyən edir (st. 2.2.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Əvvəlki obrazların xatırlanması |
| 2 | **Danışma** | Sual ətrafında müzakirə |
| 3 | **Oxu** | “Ağıllı daxıl” mətninin oxusu |
| 4 | **Danışma** | Mətnin davamının təxmin edilməsi |
| 5 | **Oxuyub-qavrama** | Mətnə aid sualların cavablandırılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin "Qənaət" fəslində tanış olduqları obrazları (Türkan, Ülkər, Şahin) xatırladır. Həmin obrazların xarakterik xüsusiyyəti (qənaətcil olmaları) yada salınır.

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** *“Sizcə, daxıl insanın qənaətcil olmasına kömək edirmi?”* sualı ətrafında müzakirə aparılır. Sagirdlər müxtəlif fikirlər səsləndirirlər. Müəllim çalışmalıdır ki, hər kəs sualı cavablandırarkən fikrini əsaslandırsın.

### Oxu

2.2.5 **Tapşırıq B (dərslik).** Bu tapşırığın tələbinə əsasən şagirdlər növbə ilə mətnin səsli oxusunu həyata keçirirlər. Oxu prosesi bitdikdən sonra mətndəki əsas obraz müəyyən edilir.

**Tapşırıq C (dərslik).** Şagirdlər mətndəki əsas obraza – Sevdaya öz münasibətlərini ifadə edirlər. Onun hər gördüyünü aldırması – israfçı olması Sevdanın mənfi xüsusiyyəti kimi müzakirə edilir. Şagirdlər onun müsbət xüsusiyyətlərini də (şən, dərslərini yaxşı oxuyan) sadalayırlar. Mətnin mövzusu şagirdlərin yaş səviyyəsinə uyğun olduğu üçün şagirdlər Sevdanın xasiyyətini analiz etdikcə özləri üçün də müəyyən nəticələr çıxarırlar.

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik).** Tapşırığın məqsədi şagirdlərin mətndən oxuduğu və vizual olaraq gördüyü hər hansı bir əşyanı təsvir etmək bacarığını inkişaf etdirməkdir.

Şagirdlər daxılı təxminən belə təsvir edə bilərlər:

*“Oyuncaq meymun formasındadır, sinəsinə monitor bərkidilib, qarşısında klaviatura yerləşdirilib, qəhvəyi rəngdədir, içinə pul atanda monitor işıqlanır, üstündə yazılar görünür və daxıldan səs gəlir”.*

1.2.2 **Tapşırıq D, E (dərslik).** Tapşırıqlar şagirdlərin analiz etmək, müəyyən bir situasiya ilə bağlı fikir yürütmək, hadisələrin sonunu təxmin etmək bacarığını inkişaf etdirir. Şagirdlər atanın Sevdaya daxıl almaqda məqsədini (*Qızına qənaət etməyi öyrətmək istəyir*) müəyyən edirlər.

“E” tapşırığında şagirdlər “pulu idarə etmək” ifadəsini “pulu düzgün xərcləmək”, “puldan düz-



LAYİHƏ

gün istifadə etmək" və s. kimi izah edirlər. Daxılın işlənmə prinsipini öz təxəyyüllərinə uyğun təxmin edib söyləyirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirərkən yenidən mətndəki faktları nəzərdən keçirir, Sevdanın yaşını təxmin edirlər (*Əgər Sevda ikinci sinifdə oxuyursa, 7 yaşı olar. Həm də Sevda şagirdlərlə yaşıddır*).

**1.2.1** **Tapşırıq B (iş dəftəri).** Şagirdlərin qrafik təsviri ifadə etmək bacarığı inkişaf etdirilir. Şagirdlər daxılın monitorunda göstərilən qrafik informasiyanı belə ifadə edə bilərlər:

*– Daxılda səksən qəpik var.*

**2.2.5** **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqda hadisələrin nəticəsi verilib. Şagirdlər hadisələrin səbəblərini müəyyən etməklə mətnin məzmunu ilə bağlı ümumiləşdirmələr edir və mətni anladıqlarını nümayiş etdirirlər; məsələn: **nəticə** – *Ata Sevdaya daxıl aldı*; **səbəb** – *Sevda pulu düzgün xərcləyə bilmirdi*; **nəticə** – *Sevda qəpikləri daxıla atanda təəccübləndi;* **səbəb** – *Daxıldan səs gəlirdi*.

**2.2.3** **Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər mətndəki fakt və hadisələri analiz edərək oxuyub-qavrama bacarıqlarını inkişaf etdirirlər. Aşağıdakı sualların cavabı mətndə yoxdur:

*Sevda hansı şəhərdə yaşayır? Sevdanın atasının adı nədir? Ata daxılı neçəyə aldı?*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir. | Tap. C (dərslik) |
| Varlığın əlamətlərini sadalamaqla təsvir edir. | Tap. Ç (dərslik) |
| Öz biliklərinə əsaslanaraq problemin həlli ilə bağlı fikir yürüdür. | Tap. D, E (dərslik) |
| Qrafik informasiyanı (sxemi) sözlə ifadə edir. | Tap. B (iş dəftəri) |
| Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir. | Tap. C (iş dəftəri) |
| Mətndə öz əksini tapmış fakt və hadisələri müəyyən edir. | Tap. Ç (iş dəftəri) |

## 4-cü dərs. "Ağıllı daxıl" (II hissə)

• Dərslik: səh. 98-100 • İş dəftəri: səh. 67

**Təlim məqsədləri**

- Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
- Mətndəki obrazın xarakterini səciyyələndirməklə əsas fikrə münasibətini bildirir (st. 2.2.4).
- Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir (st. 1.2.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual ətrafında söhbət |
| 2 | **Oxu** | "Ağıllı daxıl" mətninin davamının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki hadisələrin ardıcıllığının, səbəb-nəticə əlaqəsinin müəyyən edilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

*– Siz qələm, karandaş və s. dərs əşyalarının təzəsini almağa nə zaman ehtiyac duyursunuz?*

### Oxu

**2.2.1** **Tapşırıq A ( dərslik).** Şagirdlər mətni növbə ilə oxuyurlar. Müəllim şagirdlərə hər abzasın oxusundan sonra suallar verməklə onların diqqətlə oxumalarına nəzarət edir. Oxu prosesində şagirdlərə tanış olmayan sözlər izah edilir. "Söz boğçası"na əlavə olunur. Şagirdlər daxılın xüsusiyyətlərini (*robot daxıl ünsiyyət qura bilir, pul çıxarmaq üçün razılıq verəndə yaşıl işıq yanır, saxladığı məbləği göstərə bilir* və s.) sadalayır, öz münasibətlərini bildirirlər.

### Oxuyub-qavrama

**Tapşırıq B (dərslik).** Şagirdlər Sevdanın daxıldan pul çıxarmaq istəməsinin səbəbini (qələmyonan almaq) müəyyənləşdirməklə bu istəyə daxılın adekvat reaksiyasını izah edirlər.

Müəllim əlavə sual verir: *– Bəs sizcə, Sevdanın qələmyonanı qırılmasa idi, təzə bir qələmyonan istəsə idi, daxıl ona pul verəcəkdimi?*

**Tapşırıq C (dərslik).** Şagirdlər sual ətrafında müzakirə aparır və belə nəticəyə gəlirlər ki, daxıl Sevdanın pulu nə məqsədlə istədiyini soruşmaqla onu yoxlayır, Sevdanın həmin pula doğrudan da ehtiyacı olduğunu öyrənmək istəyirdi.

LAYİHƏ

**2.2.4** **Tapşırıq Ç (dərslik).** Şagirdlər müəyyənləşdirirlər ki, Sevdanı pulun qalığını daxıla atdığı üçün atası təriflədi. Sevdanın bu hərəkətinə münasibət bildirməklə şagirdlər obrazları səciyyələndirmiş olurlar.

**2.2.5** **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda şagirdlərdən verilmiş cümlələri mətnin ardıcıllığına uyğun nömrələmək tələb olunur. Cavab: 5,1, 3, 4, 2.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndəki hadisələr arasında səbəb və nəticəni müəyyənləşdirərək cümlələri tamamlayırlar.

1. .... qələmyonan almaq istəyirdi.
2. .... qələmyonan qırılmışdı.
3. ..... Sevdanın hərəkətini bəyənmişdilər.

**1.2.1** **Tapşırıq E (dərslik).** Bu tapşırığın tələbinə əsasən mətndən daxılın monitorunda görünən qrafik inforasiyaya uyğun gələn cümləni müəyyənləşdirmək lazımdır. **Cavab**: *Ata Sevdanı tərifləyib daxıla 50 qəpik atdı.*

**Tapşırıq C (iş dəftəri). Riyaziyyatla inteqrasiya.** Tapşırığın tələbinə görə şagirdlər mətndə verilmiş ədədləri nöqtələrin yerinə sözlə ifadə edərək yazmalıdırlar.

**Tapşırıq D (dərslik). Riyaziyyatla inteqrasiya.** Bu tapşırıqlarda şagirdlərdən situasiyaya uyğun misallar qurmaq və onu həll etməklə verilmiş nümunə əsasında sualları cavablandırmaq tələb olunur.

20 qəp. + 20 qəp. = 40 qəp.;

40 qəp + 50 qəp + 40 qəp = 1 man. 30 qəp.

**Tapşırıq Ç (iş dəftəri). Riyaziyyatla inteqrasiya.** Bu tapşırığın yerinə yetirilməsi üçün şagirdlər müxtəlif misallar qururlar; məsələn:

50 + 10 = 60; 10 + 10 + 10 + 10 + 20 = 60;

20 + 20 + 10 + 10 = 60 və s.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. B, C (dərslik) |
| Mətndəki obrazın xarakterini səciyyələndirməklə əsas fikrə münasibətini bildirir. | Tap. Ç (dərslik) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Qrafik informasiyanı mətnlə əlaqələndirir. | Tap. E (dərslik) |

## 5-ci dərs. "Ağıllı daxıl" (III hissə)

• Dərslik: səh. 100-102 • İş dəftəri: səh. 68

**Təlim məqsədləri**

• Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur (st. 2.2.1).
• Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir (st. 2.2.5).
• Mətndən faktlar gətirməklə fikrini əsaslandırır (st. 2.2.4).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual ətrafında müzakirə |
| 2 | **Oxu** | "Ağıllı daxıl" mətninin davamının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki hadisələrin ardıcıllığının, səbəb-nəticə əlaqəsinin müəyyən edilməsi |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlər üzrə iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim sinfə müraciət edir:

– *Uşaqlar, təsəvvür edin ki, yoldaşlarınızda olan hər hansı bir əşya çox xoşunuza gəlir, onu almaq sizə çətin deyil, amma sizin ona ehtiyacınız yoxdur. Necə hərəkət edərdiniz: ehtiyacınız olmasa da, alardınız, yoxsa "buna ehtiyacım yoxdur" deyib almaq istəməzdiniz?*

Müzakirə şagirdləri mətnin davamını oxumağa həvəsləndirir.

### Oxu

**2.2.1** **Tapşırıq B (dərslik).** Müəllim mətnin səssiz oxusu üçün müəyyən vaxt ayırır. Mətn şagirdlər tərəfindən fərdi qaydada oxunur. Oxu prosesinə ayrılan zaman bitdikdən sonra şagirdlər Sevda və daxıl obrazlarına öz münasibətlərini bildirirlər. Mətnin səssiz oxunması şagirdlərin sərbəst şəkildə oxuyub-qavrama bacarığını möhkəmləndirir.

### Oxuyub-qavrama

**2.2.5** **Tapşırıq C (dərslik).** "Nə üçün daxıl xətkeş almaq üçün pul vermədi" sualı şagirdlər tərəfindən "*Çünki Sevdanın xətkeşi var idi*", "*Sevdanın*

LAYİHƏ

*xatkeşə ehtiyacı yox idi"* və s. şəkildə cavablandırılır.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər Sevdanın xarakterində müşahidə etdikləri digər xüsusiyyətlər haqqında danışmaqla obrazı səciyyələndirirlər; məsələn: *"Sevda səhvini etiraf etməyi bacarandır, insanlara diqqətcildir (anasının ad günündə ona hədiyyə alır)"*. Bununla şagirdlərin obrazları təhlil etmək bacarığı inkişaf etdirilir.

2.2.4 **Tapşırıq D (dərslik).** Şagirdlər mətndən Sevdanın puldan düzgün istifadə etməsini təsdiqləyən faktlar gətirməklə fikirlərini əsaslandırırlar.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda hadisələrin mətnin hansı tərkib hissələrinə uyğun gəldiyi soruşulur. 1-ci cümlə "Sonluq", 2-ci cümlə "Giriş", 3-cü, 4-cü cümlələr isə "Əsas" hissəyə aiddir. Şagirdlər bu uyğunluğu müəyyən etməklə mətnin tərkib hissələrini fərqləndirmək bacarığını möhkəmləndirirlər.

2.2.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş cümləlİəri mətnin ardıcıllığına uyğun nömrələməklə mətni qavradıqlarını nümayiş etdirirlər. Cümlələrin ardıcıllığı belə olmalıdır: 2, 4, 3, 1, 5

**Tapşırıq E (dərslik).** Şagirdlər bu tapşırıq vasitəsilə "istək" və "ehtiyac" anlayışlarını fərqləndirirlər. Tapşırığın cavabı belədir: 1A , 2B – İSTƏK; 1B, 2A – EHTİYAC.

### Söz ehtiyatı

**Tapşırıq C (iş dəftəri).** Tapşırığı yerinə yetirməklə şagirdlər "istək" və "ehtiyac" anlayışlarını öz nümunələrində fərqləndirə bildiklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir. | Tap. C, Ç (dərslik) |
| Mətndən faktlar gətirməklə fikrini əsaslandırır. | Tap. D (dərslik) |
| Mətndə fakt və hadisələrin aid olduğu hissələri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tap. C (iş dəftəri) |

## 6-cı dərs. "Ağıllı daxıl" mətni üzrə ümumiləşdirmə

• Dərslik: səh. 102 • İş dəftəri: səh. 69

**Təlim məqsədləri**

• Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir (st.1.2.2).
• Mətni tərtib etdiyi plan əsasında nəql edir (st. 2.2.3).
• Mətnin kompozisiyasında problemin yaranması və həlli məqamlarını müəyyən edir (st.2.2.3).
• Tanış atalar sözlərindən mətndəki əsas fikrə uyğun olanını seçir (st. 2.2.4).
• Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir (st.3.1.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mənfi xüsusiyyətin müəyyən olunması |
| 2 | **Danışma** | Mənfi xüsusiyyətlərin dəyişdirilməsi barədə söhbət |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki problemin müəyyənləşdirilməsi, mətn üzrə plan tərtib edib danışma |
| 4 | **Yazı** | Mövzu haqda kiçik mətnin yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə tapşırır:

– *Mənfi hesab etdiyiniz bir xüsusiyyətinizi yazın.*

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər dəyişmək istədikləri mənfi xüsusiyyətlərini söyləyir və bunu necə aradan qaldıracaqları barədə düşünüb danışırlar. Müəllim mənfi xüsusiyyətləri (əsəbilik, küsəyənlik, lovğalıq, israfçılıq, tənbəllik və s.) şagirdlərə xatırlatmaqla həmin xüsusiyyətlərin özlərinə aid olub-olmamağı barədə təhlil aparmaqda onlara kömək edir. Tapşırıq şagirdlərdə özünə tənqidi yanaşma, xasiyyətindəki qüsurları görmək və etiraf etmək bacarığı formalaşdırır. Bundan başqa, şagirdlər qüsurlardan xilas olmaq yolları barədə düşünməklə özlərini müsbət tərəfə dəyişmək üçün həvəslənirlər.

2.2.3. **Tapşırıq B (dərslik). Qruplarla iş.** Tapşırığa əsasən şagirdlər 3 qrupa bölünürlər: hər qrup mətnin bir hissəsinə aid plan tərtib edir və mətnin məzmununu ümumiləşdirərək plan əsasında danışır; məsələn:

<u>1-ci qrup – I hissə</u>

*1) Ailənin sevimlisi*

*2) Valideynlərin narahatlığı*



LAYİHƏ

*3) Atanın hədiyyəsi*
*4) Danışan Kinq-Konq*

<u>2-ci qrup – II hissə</u>
*1) Qırılan qələmyonan*
*2) Yaşıl işıq*
*3) Pulun qalığı*
*4) Atanın razılığı*

<u>3-cü qrup – III hissə</u>
*1) Sevdanın istəyi*
*2) Qırmızı işıq*
*3) Küsəyən qız*
*4) Əvəzsiz dost*

Bir qrup mətnin özünə aid hissəni danışarkən digər iki qrup həmin hissə üzrə suallar düşünür, sonra həmin sualları danışan qrupa ünvanlayır. Beləliklə, hər qrup özünə aid olan hissəni daha yaxşı mənimsəyir və nəticədə bütün sinif mətni nəql etməklə yanaşı, həm də dərs prosesində aktivlik nümayiş etdirmiş olur.

**Oxuyub-qavrama**

2.2.3. **Tapşırıq C (dərslik).** Tapşırıq sxem şəklində təqdim olunub. Sxemdə "Ağıllı daxıl" mətnində yaranan problemlə bağlı suallar öz əksini tapıb.

*Mətnin əsas hissəsindəki problem: israfçılıq. Problemin bağlı olduğu obraz: Sevda.*

*Problemin həllinə kömək edən obraz: Sevdanın atası.*

*Problem necə həll olundu: Sevdanın atası Sevdaya robot-daxıl aldı. Həmin daxıl Sevdaya pulu idarə etməyi öyrətdi.*

*Problemin həlli nə ilə nəticələndi: Sevda pula qənaət etməyi bacardı.*

Bu tapşırıq şagirdlərin mətndəki problemləri müəyyənləşdirmək bacarığını inkişaf etdirir. Şagirdlər problemi, problemin həlli yollarını, problemin mərkəzində duran və onun həllinə çalışan obrazları müəyyən etməklə sualları cavablandırırlar. Tapşırığın əsas məqsədi şagirdlərin təfəkkürünü və şifahi nitq bacarığını möhkəmləndirməkdir.

**Tapşırıq A (iş dəftəri)**. Tapşırığın şərtinə görə şagirdlər "Ağıllı daxıl" mətninin hər bir hissəsində yaranan problemi müəyyənləşdirməli və cədvəlin uyğun hissəsində qeyd etməlidirlər.

I hissədəki problem: Sevdanın israfçı olması;
II hissədəki problem: qələmyonanın qırılması;
III hissədəki problem: daxılın pul verməməsi.

2.2.4. **Tapşırıq Ç (dərslik).** "İşləməyən dişləməz" atalar sözünün mətnin ideyasına uyğun olmadığını müəyyən etməklə şagirdlər mətndəki əsas fikri anladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər bilməcəni həll etməklə qənaət haqqında atalar sözünü müəyyənləşdirib yazırlar ("*Qənaət edən ac qalmaz*").

**Yazı**

3.1.3. **Tapşırıq D (dərslik).** Şagirdlər qənaətcil olub-olmadıqları barədə təhlil aparır, özləri haqda fikirlərini yazırlar. Tapşırıq şagirdlərin yazılı nitq bacarığını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tap. A (dərslik) |
| Mətni tərtib etdiyi plan əsasında nəql edir. | Tap. B (dərslik) |
| Mətndəki problemi müəyyən edir. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Tanış atalar sözlərindən mətnin ideyasına uyğun olanını seçir | Tap. Ç (dərslik) |
| Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir. | Tap. D (dərslik) |

## 7-ci dərs. Gözlə görünən və gözlə görünməyən varlıqlar

• Dərslik: səh. 103 • İş dəftəri: səh. 70

**Təlim məqsədləri**

• Gözlə görünən və gözlə görünməyən varlıqları fərqləndirir (st. 4.1.5).

• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Gözlə görünən və gözlə görünməyən varlıqlar barədə söhbət |
| 2 | **Dil qaydaları** | Gözlə görünən və gözlə görünməyən varlıqların müəyyənləşdirilməsi |
| 3 | **Söz ehtiyatı** | Verilən izahlara aid sözlərin müəyyən edilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə sinifdə olan bəzi əşyaları (kitab, marker, qələm və s.) gətirməyi tapşırır. Şagirdlər müəllimin istədiyi əşyaları müəllimə verdikdən sonra o söyləyir:



LAYİHƏ

*– İndi isə mənə ağıl, arzu, ehtiyac gətirin.*

Müəllim bununla şagirdlərə izah edir ki, dilimizdə olan bəzi sözlər gözlə görünməyən varlıqları ifadə edir. Həmin varlıqların ölçüsü, forması, rəngi və s. olmur.

### Dil qaydaları

4.1.5 **Tapşırıq A ( dərslik).** Şagirdlər verilmiş sözlərin ifadə etdiyi varlıqları (sevinc, istək, ehtiyac) şəkildə təsvir etməyin mümkün olmadığını müəyyənləşdirirlər.

**"Bunları bilməliyik" rubrikası.** Rubrikada gözlə görünən və gözlə görünməyən varlıqlar haqqında verilmiş məlumat izah olunur.

4.1.5 **Tapşırıq B (dərslik).** Şagirdlər gözlə görünən və gözlə görünməyən varlıqları qruplaşdırmaqla yeni anlayışları mənimsədiklərini nümayiş etdirirlər.

**Tapşırıq C (dərslik). Yazı ilə inteqrasiya.** Tapşırıq yeni anlayışların mənimsədilməsinə kömək edir. Şagirdlərdən nöqtələrin yerinə mötərizədə verilmiş iki sözdən birini – gözlə görünən varlıq bildirən sözü seçməklə cümlələri tamamlayıb köçürmək tələb olunur; məsələn:

*– Bu kitab çox maraqlıdır.*

**Tapşırıq A (iş dəftəri). Şaquli inteqrasiya.** Bu tapşırığın tələbinə görə şagirdlər verilmiş cümlədən ad, əlamət və hərəkət bildirən sözləri seçib yazırlar. Tapşırığın məqsədi qazanılmış biliklərin daha da möhkəmləndirilməsidir.

**Tapşırıq B (iş dəftəri). Şaquli inteqrasiya.** Şagirdlər nöqtələrin yerinə gözlə görünən varlıqların adını bildirən sözlər yazmaqla yeni mövzunu mənimsədiklərini nümayiş etdirirlər (məsələn: beş karandaş, iki ağac, üç boşqab, altı vərəq).

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq C (iş dəftəri).** Tapşırığın tələbinə əsasən şagirdlər verilən izahlara uyğun olan sözləri müəyyən etməli, eləcə də həmin sözlərin ifadə etdiyi varlıqların gözlə görünüb-görünmədiyini qeyd etməlidirlər. Tapşırıq şagirdlərin söz ehtiyatının möhkəmləndirilməsinə, həmçinin yeni öyrədilən filoloji anlayışların mənimsədilməsinə yönəlmişdir.

**Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Müəllim şagirdləri 4 qrupa bölür. Hər qrupa iki söz təqdim edir və həmin sözlərin ifadə etdiyi varlıqları təsvir etməyi tapşırır.

1-ci qrup: *qorxu, təəccüb*

2-ci qrup: *kədər, qələbə*

3-cü qrup: *yuxu, birlik*

4-cü qrup: *fikir, sülh*

Şagirdlər sözlərin yaratdığı təəssürata uyğun təsvirlər çəkməyə cəhd edirlər. Sözlərin mənasını vizual olaraq təsvir etməyə çalışırlar. Tapşırıq şagirdlərin düşünmə qabiliyyətini inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Gözlə görünən və gözlə görünməyən varlıqları fərqləndirir. | Tap. B, C (dərslik) |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tap. C (iş dəftəri) |

## 8-ci dərs. Ümumiləşdirici dərs

• Dərslik: səh. 104 • İş dəftəri: səh. 71

**Təlim məqsədləri**

• Mətni hissələrə ayıraraq plan tərtib edir (st. 2.2.3).
• Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir (st. 2.2.3).
• Mətnin kompozisiyasında problemin yaranması və həlli məqamlarını müəyyən edir (st. 2.2.3).
• Gözlə görünən və gözlə görünməyən varlıqları fərqləndirir (st. 4.1.5).
• Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir (st. 4.1.6).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə ümumiləşdirici suallar |
| 2 | **Dil qaydaları** | Gözlə görünən və gözlə görünməyən varlıqların müəyyənləşdirilməsi |
| 3 | **Söz ehtiyatı** | Verilən izahlara aid sözlərin müəyyən edilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

*– Mətnin giriş hissəsində nədən danışılır? Mətndəki problem hansı hissədə öz əksini tapır? Əsas hadisələr mətnin hansı hissəsində baş verir? Mətnin sonluq hissəsi ilə bağlı nə deyə bilərsiniz?*

### Oxuyub-qavrama

2.2.3. **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə tapşırır ki, mətni oxuya-oxuya hadisələrin ardıcıllığına diqqət yetirsinlər. Hər abzasın sonunda ümumiləşdirmə aparıb planın tərtibi üçün baş-

LAYİHƏ

lıqlar düşünsünlər. Şagirdlər növbə ilə mətni oxuyurlar. Hər abzas bitdikdən sonra müzakirə yolu ilə mətnin planı üçün başlıqlar hazırlanır. Plan lövhədə yazılır.

1. *Pişiyin yuvası, bağçadakı pişik* və s.

2. *Pişiyin gəlinciyi tapması, tapılan gəlincik, pişiyin gəlinciyi evə aparması* və s.

3. *Qızın pişiyi axtarması, ananın qızı danlaması, ağlayan qız* və s.

4. *Pişiyin qızgilə gəlməsi, pişiyin gəlinciyi qıza gətirməsi* və s.

5. *Qızın sevinci, qızın gəlinciklə oynaması* və s.

6. *Yeni dostlar, pişiyin dost qazanması* və s.

Bu tapşırığı yerinə yetirməklə şagirdlər mətn üzrə plan qurmaq bacarığını inkişaf etdirirlər. Sonda şagirdlər mətni plan üzrə nəql edirlər.

2.2.3. **Tapşırıq B (dərslik).** Tapşırığın tələbinə görə şagirdlər mətnin tərkib hissələrini onlara verilən adlarla uyğunlaşdırmalıdırlar. **Cavab:** giriş hissə – “Bağçada yaşayan pişik”; Əsas hissə – “Düzgün qərar”; Sonluq hissə – “Yeni dostlar”.

Şagirdlər bu tapşırığı yerinə yetirməklə mətnin tərkib hissələri haqqında öyrəndiklərini daha da möhkəmləndirirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilən sualı təxminən belə cavablandıra bilərlər: *Qızın ağlaması pişiyə pis təsir etdi. Düşündü ki, gəlinciyin əsl sahibi qızdır. Gəlinciyi qıza vermək daha ədalətli qərardır* və s.

4.1.5. **Tapşırıq Ç (dərslik).** Şagirdlər *gəlincik, küçə, nimçə, süd* sözlərinin gözlə görünən varlıqları bildirdiyini müəyyənləşdirməklə həmin sözləri cümlələrdə işlədirlər.

2.2.3. **Tapşırıq A, B (iş dəftəri).** Müəllim şagirdlərə mətni diqqətlə oxumağı tapşırır. Şagirdlər mətni oxuduqdan sonra mətndəki problemin 3-cü cümlədə (*Birdən külək Nigarın papağını uçurdu*) əks olunduğunu müəyyən edirlər.

2.2.3. **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlərin mətnin tərkib hissələri ilə bağlı bölmədə öyrəndikləri bilikləri ümumiləşdirilir.

**Düzgün cavab:** giriş hissə – 1, 2; əsas hissə – 3, 4, 5, 6, 7; sonluq hissə – 8.

4.1.5. **Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin gözlə görünən və görünməyən varlıqları bildirən sözlər üzrə bilikləri ümumiləşdirilir.

4.1.6. **Tapşırıq D (iş dəftəri).** Şagirdlər mətnin üçüncü cümləsindən (*Birdən külək Nigarın papağını uçurdu*) anlaşılan fikirləri yazırlar:

*1. Hava küləkli idi. 2. Nigarın başında papaq var idi. 3. Güclü külək əsirdi. 4. Nigar başıaçıq qaldı* və s.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni hissələrə ayıraraq plan tərtib edir. | Tap. A (dərslik) |
| Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir. | Tap. B (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Mətndəki problemi müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Gözlə görünən və gözlə görünməyən varlıqları fərqləndirir. | Tap. Ç (dərslik)<br>Tap. Ç (iş dəftəri) |
| Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir. | Tap. D (iş dəftəri) |



LAYİHƏ

Ülkər Nurullayeva
Aysel Xanalıyeva
Şəhla Zahidova
Könül Məhyəddinova

# AZƏRBAYCAN DİLİ 2

# METODİK VƏSAİT



## 2-ci hissə

Ümumtəhsil məktəblərinin
2-ci sinfi üçün Azərbaycan dili fənni üzrə
METODİK VƏSAİT

Tədris Resursları Mərkəzi

Nəşrlə bağlı irad və təklifləri
derslik@arti.edu.az
və derslik@edu.gov.az
elektron ünvanlarına
göndərə bilərsiniz.

LAYİHƏ

**GİRİŞ** ........ 3

**V BÖLMƏ. NAĞILLAR ALƏMİNDƏ**

Bölmənin icmalı ........ 7

- Nağıl obrazları ........ 8
- Xəyal gücü ........ 17
- Ağıl dəryası ........ 26

**VI BÖLMƏ. VƏTƏNİM AZƏRBAYCAN**

Bölmənin icmalı ........ 34

- Vətən sevgisi ........ 35
- Mən sülhə səs verirəm ........ 46
- Milli dəyərlərimiz ........ 54

**VII BÖLMƏ. ÜNSİYYƏT NƏDİR**

Bölmənin icmalı ........ 66

- Qədimdə informasiya ........ 67
- Şəkillərdən hərflərə ........ 78
- Müasir dövrdə informasiya ........ 87

**VIII BÖLMƏ. ƏTRAF MÜHİT VƏ BİZ**

Bölmənin icmalı ........ 95

- Təbiət bizə nə verir ........ 96
- Təbiəti qoruyaq ........ 103
- Yenidən istifadə ........ 112

LAYİHƏ

# GİRİŞ

## 1. Dərsliyin strukturu

**Tədris vahidlərinin saatlar üzrə bölgüsü.** 2-ci sinfin 2-ci yarımili üçün tədris materialları 4 bölmədə qruplaşdırılmışdır. Bölmələr fəsillərə, fəsillər isə dərslərə bölünür. Hər bölmə 16-18 dərs, hər dərs bir qoşasaat (2 dərs saatı – 90 dəq) üçün nəzərdə tutulmuşdur.

1-ci yarımil üçün bölmə və fəsillərin saatlar üzrə bölgüsü aşağıdakı kimidir.

| | Fəsil | Dərs | Saat |
|---|---|---|---|
| 5-ci bölmə. NAĞILLAR ALƏMİNDƏ | | | |
| 1 | Nağıl obrazları | 6 | 12 |
| 2 | Xəyal gücü | 6 | 12 |
| 3 | Ağıl dəryası | 4 | 8 |
| Ümumiləşdirici təkrar | | 1 | 2 |
| 5-ci bölmə üzrə cəm | | 17 | 34 |
| 6-cı bölmə. VƏTƏNİM AZƏRBAYCAN | | | |
| 1 | Vətən sevgisi | 7 | 14 |
| 2 | Mən sülhə səs verirəm | 5 | 10 |
| 3 | Milli dəyərlərimiz | 5 | 10 |
| Ümumiləşdirici təkrar | | 1 | 2 |
| 6-cı bölmə üzrə cəm | | 18 | 36 |
| 7-ci bölmə. ÜNSİYYƏT NƏDİR | | | |
| 1 | Qədimdə informasiya | 7 | 14 |
| 2 | Şəkillərdən hərflərə | 5 | 10 |
| 3 | Müasir dövrdə informasiya | 4 | 8 |
| Ümumiləşdirici təkrar | | 1 | 2 |
| 7-ci bölmə üzrə cəm | | 17 | 34 |
| 8-ci bölmə. ƏTRAF MÜHİT VƏ BİZ | | | |
| 1 | Təbiət bizə nə verir | 5 | 10 |
| 2 | Təbiəti qoruyaq | 7 | 14 |
| 3 | Yenidən istifadə | 3 | 6 |
| Ümumiləşdirici təkrar | | 1 | 2 |
| 8-ci bölmə üzrə cəm | | 16 | 32 |
| 2-ci sinifdə keçilənlərin təkrarı | | 1 | 2 |
| Cəmi | | 69 | 138 |

1-ci yarımil üçün Azərbaycan dili üzrə dərs saatlarının sayı həftədə 10 saat olmaqla 17 həftə üçün 170 saat (85 dərs) təşkil edir. Həftə üçün ayrılmış 5 dərsdən biri sərbəst dərs kimi nəzərdə tutulmuşdur. Müəllimlərə həmin saatlarda dərsi aşağıdakı fəaliyyətlər üzrə qurmaq tövsiyə olunur:

1. Sinifdənxaric oxu
2. Müxtəliftipli imla mətnlərinin yazılması
3. Həftə ərzində gözlənilən səviyyədə reallaşmamış təlim nəticələri üzrə iş
4. Dərslərdə aşağı nəticələr göstərən şagirdlərlə diferensial təlimin təşkili
5. “Söz boğçası” üzrə iş
6. Nitq bacarıqlarını inkişaf etdirən intellektual oyunlar
7. Layihə tapşırıqları üzrə təqdimatlar
8. Həftə ərzində keçilmiş materiallar üzrə formativ qiymətləndirmə və özünüqiymətləndirmə
9. Kiçik summativ qiymətləndirmənin təşkili

LAYİHƏ

## 2. İmla yazıları

Sərbəst dərslər üçün nəzərdə tutulmuş fəaliyyət növlərindən biri də imla yazılarıdır.

İmla yazıları ilk növbədə şagirdlərin orfoqrafiya normalarına uyğun yazı bacarıqlarının inkişafına xidmət edir. Lakin ilk dövrlərdə elə mətnlər seçmək lazımdır ki, orada deyilişi və yazılışı fərqlənən sözlər az olsun. Bu dövrdə əsas məqsəd dinlədiyi mətni yazıya köçürmək, hüsnxət normalarına uyğun yazmaq bacarıqlarını formalaşdırmaq və yazı sürətini artırmaqdır.

İmla mətnləri üzrə işi səmərəli qurmaq üçün müəllim mətndən deyilişi və yazılışı fərqlənən sözləri seçməlidir. Azərbaycan dilində bir çox sözlərin orfoepiya normalarında qeyri-müəyyənlik mövcuddur. Ona görə də ibtidai siniflərdə əsas diqqət sözlərin necə tələffüz olunduğuna deyil, düzgün yazılışına yönəlməlidir.

**Səhv yanaşma**: ~~Bu sözlər belə yazılır, belə tələffüz olunur.~~

**Düzgün yanaşma**: Bu sözlər bəzən belə deyilsə də, bu cür yazılır.

Sinfin səviyyəsindən asılı olaraq müxtəlif üsullar tətbiq oluna bilər:

1. Müəllim deyilişi və yazılışı fərqlənən sözləri lövhədə orfoqrafik normalara uyğun yazır, fərqi şagirdlərə başa salır. Mətnin oxusuna keçəndə sözlər lövhədə qala və ya silinə bilər. Daha sonra müəllim mətni orfoepiya normalarına uyğun oxuyur.

2. Müəllim imla mətnini oxuyarkən deyilişi və yazılışı fərqlənən sözləri əvvəl orfoepik, sonra orfoqrafik normalara uyğun oxuyur.

3. Müəllim imla mətnini orfoepik normalara uyğun oxuyur, sonra deyilişi və yazılışı fərqlənən sözlər üzərində iş gedir.

2-ci sinifdə bəzi punktuasiya (durğu işarələrinin işlənməsi) qaydaları verilir: vergül, tire, qoşa nöqtə, nida işarəsi. Bundan əlavə, 1-ci yarımildə şagirdlər abzas anlayışı ilə də tanış olmuşlar. İmla mətnləri vasitəsilə bu qaydaların necə mənimsənildiyini də yoxlamaq olar. Lakin mətndə şagirdə məlum olmayan bir qaydanı tətbiq etmək lazımdırsa, müəllim mətni oxuyarkən empirik göstərişlər verməlidir (məsələn, *o, bu* əvəzliklərindən sonra vergülün qoyulması).

Bəzi hallarda imla yazıları dil qaydaları üzrə tapşırıqlarla müşayiət oluna bilər.

İmla mətnlərindən həm öyrətmə, həm də qiymətləndirmə vəsaiti kimi istifadə etmək olar.

Aşağıda imla yazısı üçün mətn nümunələri və metodik tövsiyələr verilir.

**ARININ İSTƏYİ** (57 söz)

**Məqsəd:**

1) hüsnxət normalarına uyğun yazı bacarığını formalaşdırmaq;

2) yazı sürətini artırmaq;

3) sözlərin sətirdən-sətrə keçirilmə qaydalarını daha dərindən mənimsətmək.

Əsli eyvanda oturmuşdu. O, albomda şəkil çəkirdi. Bir azdan çox gözəl qırmızı gül şəkli hazır oldu.

Bu zaman bir arı uçub gəldi. Əsli onu qovmağa çalışdı. Amma arı daha da yaxınlaşdı. Əsli qorxdu ki, onu sancacaq. Tez otağa keçdi. Pəncərədən baxmağa başladı.

Arı albomdakı gülün üstünə qondu. Əsli indi başa düşdü. Arı bal çəkmək üçün gül axtarırmış.

LAYİHƏ

**Dil qaydaları ilə bağlı tapşırıqlar:**

1. Mətndən birhecalı sözləri seçib yazın.
2. Mətndən sətirdən-sətrə keçirilməsi mümkün olmayan ikihecalı sözləri seçib yazın.

## TOP ZƏRBƏSİ ( 55 SÖZ)

**Məqsəd:**

1) hüsnxət normalarına uyğun yazı bacarığını formalaşdırmaq;
2) "l" samiti ilə başlayan şəkilçilərin deyilişi ilə yazılışı arasındakı fərqi göstərmək.

Mələk divanda oturub cizgi filminə baxırdı. Birdən böyük bir top pəncərənin şüşəsinə dəydi. Zərbə çox güclü idi. Yaxşı ki şüşə sınmadı.

Mələk səsdən diksindi. O, pəncərəyə yaxınlaşdı. Çölə baxdı. Toplan qızın pəncərədən baxdığını gördü. O, başını sağ tərəfə çevirdi. Hürməyə başladı. Mələk həmin istiqamətə boylandı. Qonşu Tələt sürətlə qaçırdı.

Beləliklə, sədaqətli Toplan günahkarı Mələyə tanıtdı.

**Deyilişi və yazılışı fərqlənən sözlər:** güclü [gücdü], yaxınlaşdı [yaxınnaşdı], başladı [başdadı], sürətlə [sürətnən], sədaqətli [sədaqətdi].

## GECİKMİŞ QONAQ (56 söz)

**Məqsəd:**

1) deyilişi ilə yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını mənimsətmək;
2) şəxs adlarının böyük hərflə yazılışına dair qaydaların mənimsədilməsi;
3) uzun saitli sözlərlə iki eyni saitin yanaşı işləndiyi qoşasaitli sözlərin deyilişi və yazılışını müqayisə edir.

Sənanın ad günü idi. O, qonşuluqda yaşayan dostlarını evə dəvət etmişdi. Hamı gəlmişdi. Ancaq Alim yox idi. Sənan narahat oldu. Alim liftdə qala bilərdi.

Uşaqlar deyib-gülürdülər. Hələ yeməyə başlamamışdılar. Coşqunla Sənan aşağı endilər. Alimi görəndə çox təəccübləndilər. O, yarım saatdan artıq idi ki, liftin qabağında gözləyirmiş. Amma lift təmir olunduğu üçün işləmirdi.

Oğlanlar gülə-gülə evə qalxdılar.

**Deyilişi və yazılışı fərqlənən sözlər:** qonşuluqda [qonşuluxda], dostlarını [dosdarını], liftdə [lifdə], uşaqlar [uşaxlar], başlamamışdılar [başdamamışdılar], artıq [artıx], gözləyirmiş [gözlüyürmüş], işləmirdi [işdəmirdi], oğlanlar [oğlannar].

**Dil qaydaları ilə bağlı tapşırıqlar:**

1. Mətndən insan adlarını seçib yazın.
2. Mətndə verilən hansı insan adlarını kiçik hərflə də yazmaq olar? Onları uyğun cümlələrdə kiçik hərflə işlədib yazın.
3. "Təəccüb", "saat" sözləri ilə "alim", "dəvət", "təmir" sözlərinin deyilişi ilə yazılışını müqayisə edin.

LAYİHƏ

**DOSTLUQ** (60 söz)

**Məqsəd:**

1) yazı sürətini artırmaq;

2) "q" samiti ilə bitən sözlərin yazılışı.

Namiq və Sadıq dostdurlar. Onlar eyni sinifdə oxuyurlar. Hər ikisi dərslərə diqqətlə qulaq asır. Çətin tapşırıq olanda birlikdə həll edirlər. Bəzən sinifdə onların səmimi dostluq etməsinə paxıllıq edənlər də olur.

Hər ikisinin evində onların dərslə məşğul olmaları üçün otaq ayrılıb. Artıq onlar bir-birinin evində özlərini qonaq deyil, ev sahibi kimi hiss edirlər. Bu dostluğu qorumaq üçün ailələr də əllərindən gələni əsirgəmirlər.

**Deyilişi və yazılışı fərqlənən sözlər:** Namiq [namik], Sadıq [sadıx], qulaq [qulax], tapşırıq [tapşırıx], dostluq [dosdux], paxıllıq [paxıllıx], otaq [otax], artıq [artıx], qonaq [qonax], qorumaq [qorumax].

## 3. Filoloji anlayışlar

Dilin tədrisinə müasir yanaşma şagirdlərə yalnız dil qaydalarının öyrədilməsini deyil, həm də oxu və yazı bacarıqlarının formalaşdırılmasını və inkişafını tələb edir. Bu isə dilçiliklə yanaşı, ədəbiyyatşünaslıq üzrə bir sıra termin və anlayışların mənimsənilməsini nəzərdə tutur. Bu proses 1-ci sinifdən başlanır və ibtidai siniflərdə şagirdlər bir çox sadə və daha ümumişlək terminləri mənimsəmiş olurlar. Əks halda müəyyən deklarativ bilikləri şagirdlərə başa salmaq, onlarla intellektual səviyyədə ünsiyyət qurmaq mümkün deyil. Həmin biliklər və ünsiyyət nitq bacarıqlarının yüksək səviyyədə inkişafını təmin edir.

2-ci sinif dərsliyində "Bunları bilməliyik" və "Faydalı məsləhət" rubrikalarında aşağıdakı termin və anlayışlar öz əksini tapır. Müəllimlər şagirdlərin bu anlayışları mənimsədiklərinə əmin olmalıdırlar.

| Dil qaydaları üzrə | Oxu və yazı bacarıqları üzrə | |
|---|---|---|
| • ahəng qanunu | • açıqça | • mənfi obraz |
| • cümlənin əsası | • anket | • məzmun |
| • -çı$^4$ hissəciyi | • alqış | • mimika |
| • dırnaq işarəsi | • atalar sözləri | • mövzu |
| • dodaqlanan | • bədii mətn | • müsbət obraz |
| • dodaqlanmayan | • cədvəl | • plakat |
| • əmr cümləsi | • daxili əlifba | • rəy |
| • gözlə görünən və görünməyən varlıqlar | • dialoq | • sonluq |
| • hərəkət bildirən sözlərin təsdiq və inkarı | • elmi mətn | • sözün ümumi mənası |
| • hərəkətin zamanı | • əsas hissə | • şüar |
| • hiss, həyəcan bildirən sözlər | • fakt və münasibət | • tapmaca |
| • incə sait | • giriş | • təşəkkürnamə |
| • qalın sait | • gündəlik | • yarımbaşlıq |
| • -lar$^2$ hissəciyi | • hekayə xəritəsi | |
| • -lı$^4$ hissəciyi | • ideya | |
| • müraciət bildirən sözlər | • izahlı lüğət | |
| • nida cümləsi | • jest | |
| • sıra sayı | • qaravəlli | |
| • tire | • lüğət | |
| • vergül | | |



LAYİHƏ

bölmə **5** 

# NAĞILLAR ALƏMİNDƏ

| BÖLMƏNİN İCMALI | | |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışma, şagirdlərin mövzu üzrə şifahi təqdimatı<br>• Dinlənilən və ya oxunan mətnin təxəyyülə uyğun dəyişdirilməsi və ya davam etdirilməsi<br>• Mətnin plana uyğun nəql edilməsi |
| | Söz ehtiyatı | Dilək, yuvarlamaq, imarət, bar, sübh, minarə, ox-kaman, bağrı yarılmaq, lələk, xəyalpərəst, çaxnaşma, ödəmək, məyus, ləpir, and-aman eləmək, kamal, girdə, müşahidə, vəzir, məkrli, talan eləmək, tədbir, inişil, çapar, tabe olmaq, fəth etmək, yerləyeksan etmək<br>**Frazeoloji birləşmələr:** daşı daş üstə qoymamaq, bəxtindən küsmək, qəhqəhə çəkmək, mühasirəyə almaq, aradan götürmək, keşik çəkmək |
| | Oxu | • Dinləyicinin başa düşəcəyi tərzdə, aydın oxuyur<br>• Başlıq, altbaşlıq, yarımbaşlıq, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunun təqdim edilməsində rolunu dəyərləndirir<br>• Obrazların səciyyələndirilməsi<br>• Səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi |
| | Yazı | • Oxunan mətnin plan əsasında qısa məzmununun yazılması<br>• Rəy yazılması<br>• Şəkil və ya plan əsasında təsviri mətnin yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Cümlənin əsası<br>• Hərəkət bildirən sözlərin təsdiq və inkarda işlənməsi |
| | Filoloji anlayışlar | • Qaravəllilər<br>• Nağıl obrazları |
| Kompetensiyalar | | Şifahi xalq yaradıcılığı, real və ya mifik, mənfi və müsbət obrazlarla tanışlıq, şəxsiyyətin formalaşmasında zəruri olan xarakterik cəhətlərin fərqləndirilməsi |

V bölmənin "Nağıl obrazları" adlı fəslində şagirdlərə Azərbaycan xalq nağıllarından "Uçan xalça" və "Məlikməmməd" nağılı təqdim edilməklə bərabər, onlara müsbət və mənfi, real və sehrli nağıl obrazları haqqında da məlumat verilir.

Bölmənin ikinci fəslindəki mətnlərdə güclü təxəyyülə, nağıl uydurmaq bacarığına malik uşaq obrazları verilib. Şagirdlərə yalnız gözəl, insanlara xeyir gətirəcək xəyallarla yaşamaq, özünə, ətrafdakılara ziyan vura biləcək yalanlardan uzaq olmaq tövsiyə edilir.

Bölmənin üçüncü fəslində ağılın, zəkanın gücündən bəhs edən mətnlər təqdim olunur.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Mətndəki obrazları sadə formada təhlil edir, onlara münasibət bildirir.

• Hüsnxət normalarına uyğun yazır.

• Sözləri hecalamadan, bütöv tələffüz etməklə oxuyur.

• Sadə təqdimatlar edir.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

• Şəkil üzrə təsviri mətnin (nağılın) yazılması.

• Cümlənin əsasının müəyyənləşdirilməsi.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vasitələr:**

• Əvvəlcədən hazırlanmış sual kartları.

• Nağıl obrazlarının şəkli.

• Nağıllara çəkilmiş cizgi filmləri.

LAYİHƏ

fəsil 1 NAĞIL OBRAZLARI

## 1-ci dərs. "Uçan xalça" (I hissə)

• Dərslik: səh. 6-8 • İş dəftəri: səh. 2

**Təlim məqsədləri**
• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur (st. 2.2.1).
• Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək və s.) müəyyən edir (st. 2.2.2).
• Mətnin hissələrini yarımbaşlıqlar və ya sual cümlələri ilə ifadə edir (st. 2.2.3).
• Oxuduğu və ya dinlədiyi mətnlə bağlı düşüncələrini ifadə edir (bəyəndim, bəyənmədim, yazığım gəldi, təəccübləndim) və əsaslandırır (st. 1.2.2).
• Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

• **Köməkçi vasitələr (təchizat):** müxtəlif nağıl kitabları.

• **Qeyd:** Bu dərsin məktəbin kitabxanasında keçirilməsi daha məqsədəuyğundur.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Nağıl kitablarının seçimi |
| 2 | **Danışma** | Bölmə titulundakı şəkil və suallar üzrə iş |
| 3 | **Oxu. Söz ehtiyatı** | Qaravəllinin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Müəllifin məqsədinin müəyyənləşdirilməsi |
| 5 | **Oxu. Söz ehtiyatı** | "Uçan xalça" nağılının I hissəsinin oxusu |
| 6 | **Oxuyub-qavrama** | Mətnin abzasları üzrə iş |
| 7 | **Danışma** | Debat |
| 8 | **Yazı** | Mətnin qısa məzmununun yazılması |
| 9 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Bu dərsin əvvəlində şagirdləri məktəb kitabxanasına aparmaq tövsiyə olunur. Şagirdlər kitabxanadan hər hansı bir nağıl kitabı seçirlər. Daha sonra sinifdə həmin kitabın cildinə və nağıla çəkilmiş illüstrasiyalara baxaraq nağılın məzmununu təxmin edirlər. Müəllim yönəldici sualların köməyi ilə şagirdləri müzakirəyə cəlb edir:

– Siz nə üçün məhz bu kitabı seçdiniz?

Şagirdlər seçimlərinin səbəbini izah edirlər. Onlar seçdikləri kitabı həftə ərzində oxumaq üçün evə götürə bilərlər. Sərbəst saatlardan biri həmin kitablar üzrə işə həsr oluna bilər.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Danışma fəaliyyəti titul səhifəsində verilmiş şəkillər əsasında yerinə yetirilir. Şagirdlər tapşırıqdakı suallara cavab verməklə şəkildə gördüklərini təsvir edir, mövzu ilə bağlı müzakirədə iştirak edirlər. Müəllim şagirdləri danışma fəaliyyətinə həvəsləndirmək üçün mövzunu onların şəxsi həyatı ilə əlaqələndirir:

• Siz hansı nağılları oxumusunuz?
• Nağılı oxumağı, yoxsa dinləməyi xoşlayırsınız?

**Müəllimin nəzərinə!** Titul səhifəsində verilmiş şəkillər sehrli nağıl obrazları haqqında ümumi təsəvvür yaradır. Burada uçan oğlan C.M.Barrinin "Piter Pen", supərisi isə H.X.Andersenin "Kiçik supərisi" nağılındandır. Digər obrazlarla şagirdlər bu bölmədə tanış olacaqlar.

Daha sonra müəllim kiçikhəcmli bir nağıl danışır. Nağıla qaravəlli ilə başlayır. Danışarkən nağıllara aid hazır ifadələrin ("Biri var idi, biri yox idi", "Göydən üç alma düşdü", "Az getdilər, üz getdilər, dərə-təpə, düz getdilər" və s.) istifadəsinə xüsusi diqqət edilməlidir. Müəllim yönəldici sual vasitəsilə şagirdlərin diqqətini qaravəlliyə cəlb edir.

– Nağıla başlayarkən söylədiyim şeir xoşunuza gəldimi? Niyə?

### Oxu. Söz ehtiyatı

2.2.1, 2.1.2 **Tapşırıq B (dərslik).** Şagirdlər müəyyən vaxt ərzində onlara təqdim edilmiş qaravəllini səssiz oxuyurlar. Müəllim şagirdlərə tanış olmayan sözlərin (qaradinməz, lal axmaq, ulamaq, dəymədüşər) mənasını izah edir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin diqqəti qaravəllinin xüsusiyyətlərinə (məzəli, ritmik olmasına) cəlb edilir. "Hürməyən itlər", "Ulamayan çaqqallar" ifadələri müzakirə edilir.

**"Faydalı məsləhət" rubrikası.** Qaravəlli haqqında verilmiş məlumat şagirdlərə izah edilir.

LAYİHƏ

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq Ç (dərslik). Növbəli oxu.** Şagirdlər "Uçan xalça" nağılındakı cümlələri növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Hər abzası oxuyub bitirdikdən sonra müəllim faktoloji suallar verməklə şagirdlərin həmin hissəni nə dərəcədə oxuyub-qavradıqlarını yoxlayır.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(qəssab, dilək, bəxtindən küsmək, yuvarlamaq, imarət)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***qəssab*** – qoyun, mal və s. kəsib ətini satmaqla məşğul olan adam, ***dilək*** – arzu, istək, ***bəxtindən küsmək*** – narazı olmaq, ***yuvarlamaq*** – diyirlətmək, ***imarət*** – böyük, qəşəng bina. Şagirdlər sözləri cümlələrdə işlədirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq D (dərslik).** Şagirdlər tapşırıqda verilmiş başlıqları oxuyurlar. "Uçan xalça" nağılının nömrələnmiş abzasları ilə uyğunlaşdırırlar. Bununla da nağılın hər bir abzasının məzmununu qavradıqlarını nümayiş etdirirlər. **Düzgün cavab:** 1 – C, 2 – A, 3 – B.

### Danışma

1.2.2 **Tapşırıq E (dərslik). Debat. Qruplarla iş.** Şagirdlər dörd qrupa ayrılırlar. Debat zamanı aşağıdakı arqumentlər səsləndirilə bilər:

**1-ci qrup:** Heyvanları xilas etmək üçün bir gün ac qalmaq olar. Əhmədin bu hərəkəti onun xeyirxah və mərhəmətli olduğunu göstərir.

**2-ci qrup:** Əhmədin nənəsi evdə çörək gözlədiyi üçün Əhməd çörəkpulunu başqa məqsədlə istifadə etməməli idi. Əhməd nənəsinin sözünə əməl etməli idi.

**3-cü qrup:** Divlər bu əşyalardan xeyirli bir iş üçün istifadə edə bilməyəcəkdilər. Bu əşyalar Əhmədə daha çox xeyir gətirə bilərdi.

**4-cü qrup:** Məqsədə çatmaq üçün yalana əl atmaq düzgün deyil. Divlər Əhməddən kömək istəmişdilər, Əhməd isə onları aldatdı.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq iki mərhələdə yerinə yetirilir. Şagirdlər:

1. Mətnə əsasən şəkillərin düzgün ardıcıllığını müəyyənləşdirir və uyğun rəqəmləri boş xanaya yazırlar. (**Doğru cavab:** 4, 2, 1, 3.)

2. Hər şəkli bir cümlə ilə ifadə edərək yazırlar. Şəklə aid cümlələr təxminən belə ola bilər: 1. Əhməd çörəkpulunu iti döyən adamlara verib onu aldı. 2. Səhəri gün Əhməd çörəkpulunu verib pişiyi qəssabın əlindən xilas etdi. 3. Divlər Əhmədin yuvarlatdığı daşların ardınca qaçdılar. 4. Əhməd sehrli üzüyü barmağına taxıb gözəl bir imarət arzuladı.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tapşırıq A (dərslik) |
| Mətni müəyyən olunmuş vaxt ərzində düzgün oxuyur. | Tapşırıq B, Ç (dərslik) |
| Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək) müəyyən edir. | Tapşırıq C (dərslik) |
| Mətnin hissələrini yarımbaşlıqlar və ya sual cümlələri ilə ifadə edir. | Tapşırıq D (dərslik) |
| Oxuduğu və ya dinlədiyi mətnlə bağlı düşüncələrini ifadə edir və əsaslandırır. | Tapşırıq E (dərslik) |
| Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tapşırıq A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə şagirdlərlə "Uçan xalça" nağılının I hissəsinə aid sual-cavab keçirəcək. Bu məqsədlə növbəti dərsdə istifadə etmək üçün suallar hazırlamaq tövsiyə olunur.

"Uçan xalça" nağılının I hissəsinə aid suallar:

1. Əhmədin ailəsi neçə nəfərdən ibarət idi?
2. Əhmədgil necə dolanırdılar?
3. Əhməd hansı heyvanları xilas etdi?
4. Əhmədin heyvanları xilas etməsi onun hansı xarakterindən xəbər verir?
5. Nağılda hansı xəyali obrazlar iştirak edir?
6. Nağılda hansı sehrli əşyalardan danışılır?
7. Divlər Əhmədə nə təklif etdilər?
8. Divlərin təklifi onların hansı xarakterindən xəbər verir?
9. Əhmədin divlərə qarşı hərəkətinə münasibət bildirin.
10. Əhməd sehrli üzükdən nə istədi?

LAYİHƏ

## **2-ci dərs.** "Uçan xalça" (II hissə)

• Dərslik: səh. 8-9 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 2.2.1).
• Mətnin məzmunu ilə bağlı "Səbəb-nəticə cədvəli"ni tamamlayır (st. 2.2.5).
• Obrazı və onun davranışlarını qiymətləndirməklə (xeyirxahdır, qəddardır, yaxşı davrandı, pis davrandı və s.) mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür (st. 2.2.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Nağılın davamının təxmin edilməsi |
| 2 | **Oxu** | "Uçan xalça" nağılının II hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi; obrazın təsviri |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə "Uçan xalça" nağılının I hissəsi ilə bağlı suallar verir. Şagirdlər nağılın II hissəsinə aid illüstrasiyaya baxaraq nağılın davamını təxmin edirlər. Bununla şagirdlərdə mətnin davamını oxumağa maraq yaranır. Eyni zamanda şagirdlərin təxminetmə bacarığı inkişaf etdirilir.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu.** Şagirdlər "Uçan xalça" nağılının II hissəsini növbə ilə oxuyurlar. Müəllim şagirdlərə tapşırır ki, obrazların hiss-həyəcanını müvafiq səs çalarları ilə oxusunlar. Yeri gəldikcə onlara müəyyən göstərişlər verir. Məsələn: padşahın nitqinə aid cümlələr amiranə, hökmlü tərzdə səsləndirilməli, küpəgirən qarının nitqində hiyləgərlik, nənənin nitqində isə mehribanlıq, səmimiyyət hiss olunmalıdır.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin (*vahimə basmaq, ağzıbütöv*) təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***vahimə basmaq*** – bərk qorxmaq, ***ağzıbütöv*** – sözünün üstündə duran, sirr saxlayan.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edirlər. Müəllim səbəb-nəticə əlaqəsinin düzgün qurulmasının mətndə məntiqi ardıcıllığın yaranması üçün vacib olduğunu xatırladır. Hadisələrin səbəbini asanlıqla tapmaq üçün "Niyə?" sualını verməyi, hadisələrin nəticəsini tapmaq üçün isə "Nəticədə", "Buna görə də" ifadələrindən istifadə etməyi şagirdlərə tövsiyə edir.

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər nağıldan küpəgirən qarının təsvir edildiyi cümlələri tapıb oxuyurlar. (Küpəgirən qarının təsvir edildiyi cümlələr: *Padşahın adamları dünyanın ən hiyləgər qarısını tapıb gətirdilər. Qarı nə qarı, üzünə baxanda adamı vahimə basır: alt dodağı yer süpürür, üst dodağı göy.*) Bununla da nağılın məzmununu necə qavradıqlarını nümayiş etdirirlər.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlərə müsbət və mənfi nağıl obrazları haqqında məlumat verilir. Nağıllardan nümunələr gətirməklə onların xarakterləri əsaslandırılır, izah edilir. Sehrli qüvvələrin *(Zümrüd quşu, sehrli xalça, sehrli üzük, sehrli papaq)* nağıl qəhrəmanlarına köməyi haqqında danışılır.

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərə oxuduqları nağılları xatırlamağa imkan yaradır. Eyni zamanda müsbət və mənfi obrazları müəyyənləşdirmək, nümunələr gətirməklə fikirlərini əsaslandırmaq bacarığını inkişaf etdirir.

**Tapşırıq B (iş dəftəri).** Möhkəmləndirmə xarakterli bu tapşırıq şagirdlərin diqqətini yenidən obrazın təsvirinə yönəldir.

> **Müəllimin nəzərinə!** Obrazı təsvir edərkən diqqət edilməli məqamları (*obrazla ümumi tanışlıq, xarici görünüşü, xarakteri*) şagirdlərə xatırlatmaq tövsiyə edilir. Bu məqsədlə dərsliyin I hissəsinin 47-ci səhifəsində "Faydalı məsləhət" rubrikasında obrazın təsviri haqqında verilmiş məlumatlardan istifadə etmək olar.

**Şagirdlər aşağıdakıları müəyyən edirlər:**

"Nağıl obrazlarından biridir" cümləsi tanışlığa, "Alt dodağı yer süpürür, üst dodağı göy", "Üzünə baxanda adamı vahimə basır" cümlələri xarici görünüşə, "Dünyanın ən hiyləgər qarısıdır" cümləsi isə xarakterə aiddir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | Tapşırıq A (dərslik) |
| Mətnin məzmunu ilə bağlı “Səbəb-nəticə cədvəli”ni tamamlayır. | Tapşırıq A (iş dəftəri) |
| Obrazı və onun davranışlarını qiymətləndirməklə (xeyirxahdır, qəddardır, yaxşı davrandı, pis davrandı və s.) mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür. | Tapşırıq B, C (dərslik), Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə şagirdlərlə “Uçan xalça” nağılının I və II hissəsinə aid sual-cavab keçirəcək. Bu məqsədlə növbəti dərsdə istifadə etmək üçün suallar hazırlamaq tövsiyə olunur. Sualları hazırlamağı şagirdlərə tapşırmaq olar. Şagirdlər evdə hazırladıqları sualları növbəti dərsdə bir-birinə təqdim edə bilərlər.

## 3-cü dərs. “Uçan xalça” (III hissə)

• Dərslik: səh. 10-11 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 2.2.3).
• Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir (st. 2.2.5).
• Cümlədə subyekt və hərəkəti müəyyən edir (st. 4.1.6).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Nağılın davamının təxmin edilməsi |
| 2 | **Oxu** | “Uçan xalça” nağılının III hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | “Uçan xalça” nağılı üzrə hekayə xəritəsinin tərtibi; obrazların xarakterinin müəyyənləşdirilməsi |
| 4 | **Dil qaydaları** | Cümlənin əsası |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdləri “Uçan xalça” nağılının I və II hissəsi ilə bağlı sual-cavab edir. Şagirdlər bu hissələrlə bağlı evdə hazırladıqları sualları bir-birinə təqdim edir, onları cavablandırırlar. Daha sonra hadisələrin davamını təxəyyüllərinə uyğun təxmin edirlər.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini nağıla çəkilmiş illüstrasiyaya yönəldir. Şagirdlər illüstrasiyadan aldıqları məlumatlarla öz təxminlərini müqayisə edir və əlavələr edirlər. Nağıl şagirdlər tərəfindən növbəli şəkildə oxunur. Müəllim faktoloji sualların vasitəsilə şagirdlərin nağılın məzmununu necə qavradıqlarını yoxlayır. Şagirdlərin “Uçan xalça” nağılının hissələrini müxtəlif günlərdə oxuduqlarını nəzərə alaraq faktoloji sualların bütün üç fəsli əhatə etməsi tövsiyə edilir. Şagirdlər həmin suallara cavab verməklə “Uçan xalça” nağılının 1-ci, 2-ci və 3-cü hissələrində baş verən əsas hadisələrin ardıcıllığını xatırlayır, nağıl üzrə ümumiləşdirmə aparırlar.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Müəllim lövhədə hekayə xəritəsinin sxemini nümayiş etdirərək onun ünsürlərini xatırladır. Tapşırıq qruplarla iş formasında yerinə yetirilir. Hər qrup mətnin bir hissəsinə aid hekayə xəritəsi tərtib edir.

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, nümunəyə əsasən cədvəli doldururlar. Tapşırıqda təsvir edilmiş davranışlara uyğun olaraq obrazın xarakterini və adını müəyyənləşdirirlər. Bununla da həm nağılın məzmununu anladıqlarını, həm də obrazların davranışlarını analiz etmək bacarıqlarını nümayiş etdirirlər.

### Dil qaydaları

4.1.6 **Tapşırıq C (dərslik).** Tapşırıqda “Uçan xalça” nağılının məzmununu əks etdirən cümlələr verilib. Şagirdlər bu cümlələri oxuyur, hərəkətin hansı obraza aid olduğunu, yəni hərəkətin hansı obraz tərəfindən icra edildiyini müəyyənləşdirirlər. Bu, cümlənin əsası haqqında qaydaları izah etmək üçün yönəldici tapşırıqdır.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldərək cümlənin əsası haqqında məlumatları şərh edir. Şərhlərdən sonra fəaliyyət müxtəlif cümlələrdə hərəkəti və onun icraçısını tapmaqla davam etdirilir.

LAYİHƏ

**Müəllimin nəzərinə!** Şagirdlərə cümlənin əsası ilə bağlı dil qaydasını mənimsətmək onların danışma və yazı bacarıqlarının inkişafına xidmət edir. İndiki mərhələdə şagirdlərə yalnız hərəkət və onu icra edən (icraçı) haqqında məlumat verilir. “Mübtəda”, “xəbər” terminlərinin adlarının çəkilməsi, onlar haqqında ətraflı məlumatların verilməsi məqsədəuyğun deyil.

**Tapşırıq Ç (dərslik). Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqlar şagirdlərin cümlənin əsası haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tapşırıq B (dərslik) |
| Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir. | Tapşırıq A (iş dəftəri) |
| Cümlədə subyekt (icraçı) və hərəkəti müəyyən edir. | Tapşırıq C, Ç (dərslik), Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllimə müxtəlif nağıllar əsasında çəkilmiş cizgi filmlərindən fraqmentlər və ya şəkillər nümayiş etdirmək üçün hazırlıq görmək tövsiyə olunur.

## 4-cü dərs. “Məlikməmməd” (I hissə)

• Dərslik: səh. 12-13 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir (st. 2.1.3).
• Mətnə əsasən obrazın yazılı portretini yaradır (st. 3.1.2).
• Dinlədiyi və oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya sualının müzakirəsi |
| 2 | **Oxu** | “Məlikməmməd” nağılının I hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Hadisələrin ardıcıllığı; səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi |
| 4 | **Söz ehtiyatı** | Sözün yaxınmənalı qarşılığının müəyyənləşdirilməsi |
| 5 | **Yazı** | Obrazın təsviri; mətnin qısa məzmununun yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim müxtəlif nağıllar əsasında çəkilmiş cizgi filmlərindən fraqmentləri və ya şəkilləri nümayiş etdirərək *“Sevimli nağıl qəhrəmanınız kimdir? Nə üçün məhz bu obrazı bəyənirsiniz?”* sualları ilə şagirdləri müzakirəyə cəlb edir.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu.** “Məlikməmməd” nağılının oxusundan əvvəl müəllim şagirdlərin diqqətini nağıla çəkilmiş illüstrasiyaya yönəldir. Şagirdlər illüstrasiyalara əsasən mətndə hansı nağıl obrazlarının iştirak etdiyini təxmin edirlər. Daha sonra nağılın I hissəsi şagirdlər tərəfindən növbə ilə ucadan oxunur. Hər abzas oxunduqdan sonra müəllim faktoloji suallar verməklə şagirdlərin həmin hissəni nə dərəcədə oxuyub-qavradıqlarını yoxlayır.

**“Söz boğçası” rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin (*bar, sübh, cəzalanmaq, ox-kaman, keşik çəkmək, bağrı yarılmaq, qıfıllanmaq*) təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***bar*** *– meyvə, məhsul,* ***sübh*** *– səhər tezdən,* ***cəzalanmaq*** *– cəza almaq,* ***ox-kaman*** *– silah,* ***keşik çəkmək*** *– qorumaq,* ***bağrı yarılmaq*** *– qorxmaq,* ***qıfıllanmaq*** *– bağlanmaq.* Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər “Məlikməmməd” nağılının I hissəsində baş verən əsas hadisələrin ardıcıllığını müəyyənləşdirməklə mətnin məzmunu qısa şəkildə bərpa etmiş olurlar.

**Düzgün cavab:** 1. Div padşahın bağından sehrli almaları oğurlayırdı.

LAYİHƏ

2. Padşah oğluna oğrunu tapmağı tapşırdı.
3. Div nərilti-gurultu ilə bağa girdi.
4. Məlikməmməd ağacın arxasında gizləndi.
5. Məlikməmməd divi yaraladı.
6. Məlikməmməd almaları atasına apardı.

**Tapşırıq B (dərslik).** Şagirdlər tapşırığı yerinə yetirməklə mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirirlər.

**Müəllimin nəzərinə!** Müəllim, yeri gəlmişkən, hadisələrin səbəbini söyləyərkən "çünki", "ki" kimi sözlərdən istifadə edildiyini şagirdlərin nəzərinə çatdıra bilər. Əlbəttə, bu zaman "bağlayıcı" termininin adını çəkməyə və bağlayıcılar haqqında ətraflı məlumatlara ehtiyac yoxdur.

**Düzgün cavab:**

*a) Padşah bağındakı almalardan yeyə bilmirdi, çünki kimsə onları oğurlayırdı.*

*b) Məlikməmməd ox-kaman götürüb bağa yollandı ki, almaları oğurlayanı tutsun.*

*c) Məlikməmməd yaralanmış divin ardınca getdi, çünki qayıdıb camaata zərər verəcəyindən çəkinirdi.*

### Söz ehtiyatı

2.1.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş sözlərin yaxınmənalı qarşılığını "Söz boğçası"ndan seçməklə söz ehtiyatlarını zənginləşdirirlər.

**Doğru cavab:**

*Səhər – sübh, qorxmaq – bağrı yarılmaq, bağlanmaq – qıfıllanmaq, qorumaq – keşik çəkmək.*

### Yazı

3.1.2 **Tapşırıq C (dərslik).** Şagirdlər nağıldan div obrazını təsvir edən cümlələri seçib dəftərlərinə yazırlar. (*Bir də baxdı, bir div gəlir, boyu minarə kimi, adam baxanda bağrı yarılır. Elə bilirsən, dağ qopub gəlir.*) Nağılın məzmununa və çəkilmiş illüstrasiyaya əsaslanaraq div obrazının təsvirinə əlavələr də edirlər. (*Divin qorxunc görkəmi var idi. Onun iri buynuzları, yekə ağzı, tüklü bədəni adamı vahiməyə salırdı.*) Bununla da keçmiş dərslərdə obrazın təsviri üzrə aldıqları məlumatları yenidən təkrar edir və bu bacarığı inkişaf etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər bu tapşırıqla nağılın məzmununu necə qavradıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** *alma, cavanlaşardı, üç, səhər, kor-peşman.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tapşırıq A (iş dəftəri), Tapşırıq B (dərslik) |
| Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir. | Tapşırıq Ç (dərslik) |
| Mətnə əsasən obrazın yazılı portretini yaradır. | Tapşırıq C (dərslik) |
| Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə şagirdlərlə "Məlikməmməd" nağılının I hissəsinə aid sual-cavab keçirəcək. Bu məqsədlə növbəti dərsdə istifadə etmək üçün suallar hazırlamaq tövsiyə olunur.

"Məlikməmməd" nağılının I hissəsinə aid suallar:
1. Nağılda hansı sehrli qüvvədən söhbət gedir?
2. Padşahın bağındakı almalar nə üçün sehrli hesab edilirdi?
3. Padşah nə üçün bağındakı almalardan dada bilmirdi?
4. Div obrazını təsvir edin.
5. Məlikməmməd kim idi? Məlikməmməd obrazını təsvir edin.
6. Məlikməmməd nə üçün yaralı divi tapmağa getdi?
7. "Altdan geyinib üstdən qıfıllandı, üstdən geyinib altdan qıfıllandı" ifadəsini necə anlayırsınız?

## 5-ci dərs. "Məlikməmməd" (II hissə)

• Dərslik: səh. 13-14 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Mətndən faktlar gətirməklə fikrini əsaslandırır (st. 2.2.4).
• Frazeoloji ifadələrlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.4).
• Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir (st. 4.1.6).

LAYİHƏ

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Nağılın davamının təxmin edilməsi |
| 2 | **Oxu** | “Məlikməmməd” nağılının II hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazın xarakterinin səciyyələndirilməsi |
| 4 | **Dil qaydaları** | Cümlənin genişləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

Müəllim nağılın I hissəsi ilə bağlı sual-cavab edir. Yönəldici suallar vasitəsilə şagirdlərdən nağılın II hissəsi ilə bağlı təxminlərini soruşur.

**Yönəldici suallar:**

1. Sizcə, Məlikməmməd divi tapa biləcəkmi?
2. Div harada gizlənə bilər?

## Oxu

2.2.1 **Tapşırıq A (dərslik). İstiqamətləndirilmiş oxu.** Müəllim lövhədə “cəsur”, “dözümlü”, “güclü” sözlərini yazaraq həmin sözlərin mənalarını izah edir.

Sözlərin izahı: ***cəsur*** *– igid, qorxmaz, cəsarətli,* ***dözümlü*** *– əziyyətlərə tab gətirən, davamlı, mətanətli,* ***güclü*** *– qüvvətli.* “Məlikməmməd” nağılının oxusundan əvvəl şagirdlərə oxu zamanı baş qəhrəmanın davranışlarına diqqət edərək lövhədəki sözlərlə əlaqələndirmək tapşırılır.

Nağılın ikinci hissəsi şagirdlər tərəfindən növbə ilə oxunur. Müəllim şagirdlərin diqqətini illüstrasiyaya yönəldir və onlara tapşırıq verir:

*– Şəklə baxaraq mətni bir neçə cümlə ilə davam etdirin.*

() Şagirdlər tapşırığı şifahi və yazılı yerinə yetirə bilərlər.

## Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyurlar. Nağılda göy rənglə fərqləndirilmiş cümlələrlə uyğunlaşdıraraq obrazın xarakterini səciyyələndirirlər.

**Doğru cavab:**

a) Məlikməmməd cəsurdur.

Məlikməmməd dedi:

– Divdən qorxan divdən betər olsun.

O oturub divin oyanmağını gözləməyə başladı.

b) Məlikməmməd güclüdür.

Məlikməmməd bir dəfə güc verməklə daşı götürüb kənara atdı.

c) Məlikməmməd dözümlüdür.

Məni quyuya sallayın, amma nə qədər “yandım” desəm, ipi çəkməyin.

## Söz ehtiyatı

2.1.4 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin nitqinin bədii ifadə vasitələrindən istifadə etməklə zənginləşdirilməsinə xidmət edir. Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyurlar. Oxuduqları cümləni həmin fikri təsvir edən şəkillə uyğunlaşdırırlar. Mavi çərçivədə verilmiş sözlərdən istifadə edərək cümlədə ifadə olunmuş fikri müəyyən edirlər.

**Doğru cavab:**

1-C. Məlikməmməd altdan geyinib üstdən qıfıllandı, üstdən geyinib altdan qıfıllandı. Mənası: silahlandı.

2-A. Elə bilirsən, dağ qopub gəlir. Mənası: çox böyükdür.

3-B. Adam baxanda bağrı yarılır. Mənası: çox qorxuludur.

## Dil qaydaları

4.1.6 **Tapşırıq C (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin fikirlərini daha geniş və əhatəli ifadə etmək üçün cümləni genişləndirmək bacarığı inkişaf etdirilir. Şagirdlər cümlələrə qoyulmuş suallara cavab vermək üçün qrammatik və semantik baxımdan daha çox uyğun sözlərdən istifadə etməklə cümləni genişləndirirlər.

**Doğru cavab:**

*a) Məlikməmməd* ***quyuya*** *düşdü.*

*b) Div* ***xorhaxor*** *yatırdı.*

*c) Məlikməmməd* ***qırx qapı*** *açdı.*

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Mətndən faktlar gətirməklə fikrini əsaslandırır. | Tapşırıq B (dərslik) |
| Frazeoloji ifadələrlə onların izahlarını uyğunlaşdırır. | Tapşırıq A (iş dəftəri) |
| Sözlər arasında məna əlaqələrini müəyyənləşdirməklə cümləni genişləndirir. | Tapşırıq C (dərslik) |

LAYİHƏ

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə şagirdlərlə "Məlikməmməd" nağılının I və II hissəsinə aid sual-cavab keçirəcək. Bu məqsədlə növbəti dərsdə istifadə etmək üçün suallar hazırlamaq tövsiyə olunur. Sualları hazırlamağı şagirdlərə tapşırmaq olar. Şagirdlər evdə hazırladıqları sualları növbəti dərsdə bir-birinə təqdim edə bilərlər.

## 6-cı dərs. "Məlikməmməd" (III hissə)

• Dərslik: səh. 15-16 • İş dəftəri: səh. 7

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir (st. 2.2.5).
• Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir (st. 2.2.3).
• Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur (st. 4.1.6).
• Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir (st. 4.1.6).
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə |
| 2 | **Oxu** | "Məlikməmməd" nağılının III hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazın xarakterinin səciyyələndirilməsi; mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi |
| 4 | **Dil qaydaları** | Cümlədə söz sırasının bərpası; cümlənin genişləndirilməsi |
| 5 | **Yazı** | Süjetli şəkillər üzrə mətn yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdləri "Məlikməmməd" nağılının I və II hissəsi ilə bağlı sual-cavab edir. Şagirdlər bu hissələrlə bağlı evdə hazırladıqları sualları bir-birinə təqdim edir, onları cavablandırırlar. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərdən nağılın III hissəsi ilə bağlı təxminlərini soruşur.

**Yönəldici suallar:**

1. Məlikməmmədlə divin döyüşünü necə təsəvvür edirsiniz?

2. Sizcə, bu döyüşdə kim qalib gələcək?

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini nağıla çəkilmiş illüstrasiyaya yönəldir. Şagirdlər illüstrasiyadan aldıqları məlumatlarla öz təxminlərini müqayisə edir və əlavələr edirlər. Nağıl şagirdlər tərəfindən növbəli şəkildə oxunur. Müəllim faktoloji suallar vasitəsilə şagirdlərin nağılın məzmununu necə qavradıqlarını yoxlayır. Şagirdlərin "Məlikməmməd" nağılının hissələrini müxtəlif günlərdə oxuduqlarını nəzərə alaraq faktoloji sualların üç hissəni əhatə etməsi tövsiyə edilir. Şagirdlər həmin suallara cavab verməklə "Məlikməmməd" nağılının 1-ci, 2-ci və 3-cü hissələrində baş verən əsas hadisələrin ardıcıllığını xatırlayır, nağıl üzrə ümumiləşdirmə aparırlar.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(işıqlı dünya, lələk)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***işıqlı dünya*** *– yaşadığımız dünya, bu həyat;* ***lələk*** *– quşların tükü.* Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə istifadə edirlər.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin obrazın mənfi və ya müsbət olmasını müəyyənləşdirmək bacarığının inkişafına yönəlib. Müəllim şagirdlərin diqqətini "Məlikməmməd" nağılında iştirak edən obrazlara yönəldir. Şagirdlər həmin obrazların davranışlarını xatırlayır, hərəkətlərinin səbəbini müzakirə edir, onların mənfi və ya müsbət (xeyirxah) xarakterli obraz olduğunu müəyyənləşdirirlər.

**Müəllimin nəzərinə!** Tapşırıq sinfin səviyyəsindən və ayrılmış vaxtdan asılı olaraq şifahi və yazılı şəkildə yerinə yetirilə bilər.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq fəsildə verilmiş hər iki nağılı əhatə edir və bir növ yekunlaşdırıcı xarakter daşıyır. Şagirdlər verilmiş xüsusiyyətlərin aid olduğu obrazı müəyyən edir, həmin obrazın adını uyğun dairəyə yazırlar. Nağılda iştirak edən obrazların şəkilləri şagirdlərə onların adını xatırlamağa kömək edəcək.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin mətnin tərkib hissələrinə aid bilik və bacarıqlarını möhkəmləndirmək məqsədi daşıyır. Şagirdlər tapşırıqda verilmiş və nağıllarda tez-tez rast gələnən standart ifadələri oxuyur, bu ifadələrin nağılın hansı hissəsində istifadə edildiyini müəyyənləşdirirlər.

LAYİHƏ

**Doğru cavab:** 1 – c, 2 – a, 3 – b, 4 – c, 5 – b.

### Dil qaydaları

4.1.6 **Tapşırıq C (dərslik).** Şagirdlər cümlələrdəki söz sırasını sualların köməyi ilə bərpa edib oxuyurlar. Tapşırıq sözlərin hansı suala cavab verdiyini müəyyənləşdirmək və cümlədəki söz sırasını bərpa etmək bacarığının inkişafına yönəlib.

**Doğru cavab:**

*1. Məlikməmməd qırx qapı açdı.*
*2. Məlikməmməd divlə güləşdi.*
*3. Əjdaha ağaca dırmaşdı.*

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin fikirlərini daha geniş və əhatəli ifadə etmək üçün cümləni genişləndirmək bacarığı inkişaf etdirilir. Şagirdlər cümlələrə qoyulmuş suala cavab vermək üçün qrammatik və semantik baxımdan daha çox uyğun sözlərdən istifadə etməklə cümləni genişləndirirlər. Tapşırıq eyni zamanda şagirdlərin nağılın məzmununu necə qavradıqlarını yoxlamağa imkan verir.

**Doğru cavab:**

*1. Bağçada **sehrli** alma ağacı var idi.*
*2. Məlikməmməd **divi** yaraladı.*
*3. Padşah **xeyli** düşündü.*
*4. Bunlar **qırx** gün, **qırx** gecə güləşdilər.*
*5. Onlar işıqlı **dünyaya** çatdılar.*

### Yazı

3.1.2 **Tapşırıq D (dərslik).** Bu tapşırıqda şagirdlərə süjetli şəkillər təqdim olunur. Şagirdlər əvvəlcə mətnin tərkib hissələri ilə bağlı öyrəndikləri biliklərə uyğun şəkillər üzrə danışırlar.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərin diqqətini Ç tapşırığında verilmiş cümlələrə yönəltmək tövsiyə edilir. Bu cümlələr nağıllarda işlənən hazır ifadələrdir və onlar şagirdlərin şəkillər üzrə yazdıqları nağılın daha maraqlı alınması üçün çox vacibdir.

Şagirdlər birinci şəkildə giriş hissənin xarakterinə uyğun olaraq məkanı təsvir edir, zamanı müəyyən edir və obrazları adlandırırlar.

**Nümunə:** *Biri var idi, biri yox idi, keçmiş zamanlarda hündür dağların arasında kiçik bir kənd var idi. Bu kəndin camaatı əkinçiliklə məşğul olurdu. Əkinçilər dağlardan axan çayın gur suyu ilə əkin sahələrini sulayırdılar.*

Tapşırıqda verilmiş ikinci və üçüncü şəkillər üzrə əsas hadisələr təsvir edilir. Şagirdlər şəkildə gördüklərini təxəyyüllərinə uyğun təsvir edirlər.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə "Məlikməmməd" nağılında Məlikməmmədin döyüşdüyü yeddibaşlı əjdaha və Zümrüd quşu obrazını xatırladır. Zümrüd quşunun öz lələklərindən birini nə üçün Məlikməmmədə verdiyini soruşur. Bu, şagirdlərin əsas hissədə baş verən hadisələr haqqında ideyalarının formalaşmasına təkan verir.

**Nümunə:** *Günlərin bir günü dağların arxasında yaşayan yeddibaşlı əjdaha çayın qarşısını kəsdi. Susuzluqdan bütün əkin sahələri yandı. Ağaclar, güllər-çiçəklər məhv oldu. Yamyaşıl kənd bomboz sahəyə çevrildi.*

*Kənd camaatı çox düşündü, bu dərdə bir çarə axtardı. Şah oğlu Məlikməmmədə müraciət etdilər. Məlikməmməd Zümrüd quşunun ona verdiyi lələyi xatırladı. Bir kənara çəkilib lələyi yandırdı. Həmin andaca Zümrüd quşu uçub gəldi. Məlikməmməd Zümrüd quşunun belinə qalxıb əjdaha ilə döyüşə getdi. Onlar yeddi gün, yeddi gecə döyüşdülər. Nəhayət, Məlikməmməd əjdahaya qalib gəldi.*

Tapşırıqda verilmiş dördüncü şəkildə isə sonluq hissəyə uyğun olaraq hadisənin nəticəsi üzrə danışılır.

**Nümunə:** *Məlikməmməd çayın qarşısını açdı. Çayın bol suyu ətrafa yayıldı. Əkin sahələri cana gəldi. Hər tərəf yenidən yamyaşıl, güllü-çiçəkli oldu. Xalq öz qəhrəmanına "Afərin" dedi. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl söyləyənin.*

Şəkillər şifahi şəkildə müzakirə edildikdən sonra şagirdlər müstəqil olaraq nağıl qurub yazırlar. Sonda nağılı adlandırırlar. Bu fəaliyyət şagirdlərin yazı bacarığının inkişafına kömək edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir. | Tapşırıq B (dərslik), Tapşırıq B (iş dəftəri) |



LAYİHƏ

| | |
|---|---|
| Mətnin giriş, əsas, sonluq hissələrini müəyyən edir. | Tapşırıq Ç (dərslik) |
| Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikri ifadə edən cümlə qurur. | Tapşırıq C (dərslik) |
| Sözlər arasında məna əlaqələrini müəyyənləşdirməklə cümləni genişləndirir. | Tapşırıq A (iş dəftəri) |
| Şəkillər və bildiyi məlumat əsasında elmi və ya bədii mətn yazır. | Tapşırıq D (dərslik) |

**Növbəti dərsə hazırlıq:** Müəllimə şagirdlərə müxtəlif nağıllarda iştirak edən sevimli qəhrəmanları (bu obrazlar real və xəyali ola bilər) haqqında kiçik təqdimat hazırlamağı tapşırır.

## fəsil 2 XƏYAL GÜCÜ

### 1-ci dərs. "Xəyalpərəstlər" (I hissə)

• Dərslik: səh. 17-18 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

• Mövzu ilə bağlı araşdırma apararaq sadə formalı təqdimatlar edir (st. 1.2.1).
• Bədii mətni oxuyarkən jest və mimikadan istifadə edir (st. 2.2.1).
• Qeyri-verbal ünsiyyət vasitələrindən (jest, mimika) istifadə edir (st. 1.2.1).
• Dialoqlarda durğu işarələrindən (tire, qoşa nöqtə) yerli-yerində istifadə edir (st. 4.1.7).
• Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Fəslin adının müzakirəsi |
| 2 | **Danışma** | Təqdimatların müzakirəsi |
| 3 | **Oxu** | "Xəyalpərəstlər" mətninin I hissəsinin oxusu |
| 4 | **Söz ehtiyatı** | "Söz boğçası" rubrikası üzrə iş |
| 5 | **Danışma** | Rollar üzrə nəqletmə |
| 6 | **Dil qaydaları** | Durğu işarələrinin istifadəsi |
| 7 | **Yazı** | Şəkil üzrə dialoqun qurulub yazılması |
| 8 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldərək soruşur:

*– Sizcə, bu fəsildə biz nə haqqında müzakirələr aparacağıq?*

Şagirdlər sual ətrafında fikirlərini söyləyir, fəslin mövzusunu təxmin edirlər.

#### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər bir-bir lövhəyə çıxır, sevimli xəyali qüvvəni və yaxud sehrli obrazı təqdim edir, onun sehrinin mahiyyətini izah edir. Niyə məhz bu qəhrəmanı seçməsinin səbəbini açıqlayır.

Müəllim yönəldici suallarla şagirdləri tapşırıqda qoyulmuş sualların müzakirəsinə cəlb edir:

• Xəyali obrazlar real obrazlardan nə ilə fərqlənir?

• Sehrli obrazların, xəyali qüvvələrin iştirak etdiyi nağıllarda sizi nə cəlb edir? Səbəbini izah edin.

• Yalan danışmaq ilə xəyal qurmaq arasında hansı fərqlər var?

• Qeyri-adi qüvvələr, sehrli obrazlar düşünməyi, onların iştirakı ilə hadisələr uydurmağı necə adlandırmaq olar? Yalançılıq, yoxsa xəyalpərəstlik?

#### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). Rollu oxu.** Oxuya başlamazdan əvvəl müəllim şagirdlərə obrazların uydurduğu əhvalatlara diqqət etməyi tapşırır. Şagirdlər onlara verilmiş vaxt ərzində "Xəyalpərəstlər" mətninin I hissəsini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Daha sonra müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etməsinə, obrazın nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə çatdırmasına diqqət etməlidir. Müəllim şagirdlərdən tanış olmayan sözlərin (*xəyalpərəst, azik-üzük, qəhqəhə çəkmək*) təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***xəyalpərəst*** *– xəyala, düşüncələrə qapılmağı sevən adam,* ***azik-üzük*** *– çox əzilmiş,* ***qəhqəhə çəkmək*** *– bərkdən, səslə gülmək.* Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər. Oxudan sonra müəllim aşağıdakı suallar vasitəsilə şagirdləri müzakirəyə cəlb edir:

LAYİHƏ

*1. Mişa və Saşanın uydurduğu əhvalatlar sizə necə təsir bağışladı?*

*2. Bu əhvalatlardan hansı nisbətən inandırıcı səslənir?*

### Danışma

**1.2.1** **Tapşırıq B (dərslik).** Şagirdlər mətndə göy rənglə verilmiş cümlələrin Saşanın nitqinə, qırmızı rənglə verilmiş cümlələrin isə Mişanın nitqinə aid olduğunu müəyyənləşdirir və həmin hissələri öz sözləri ilə nəql edirlər.

Müəllim dialoq zamanı şagirdlərin jest və mimikalardan düzgün, yerli-yerində istifadə etmələrinə diqqət edir.

### Dil qaydaları

**4.1.7** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər dialoqda buraxılmış durğu işarələrini bərpa etməklə dialoqun strukturu və durğu işarələri ilə bağlı biliklərini nümayiş etdirirlər.

### Yazı

**3.1.2** **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda şagirdlər "Xəyalpərəstlər" mətninin qəhrəmanları (Mişa və Saşa) arasındakı dialoqun məzmununu yazırlar. Tapşırıq şagirdlərin mətnin qısa məzmununu yazmaqla bərabər dialoqun strukturu və durğu işarələri ilə bağlı biliklərinin inkişafına yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı araşdırma apararaq sadə formalı təqdimatlar edir. | Tapşırıq A (dərslik) |
| Bədii mətni oxuyarkən jest və mimikadan istifadə edir. | Tapşırıq B (dərslik) |
| Qeyri-verbal ünsiyyət vasitələrindən (jest, mimika) istifadə edir. | Tapşırıq B (dərslik) |
| Dialoqlarda durğu işarələrindən (tire, qoşa nöqtə) yerli-yerində istifadə edir. | Tapşırıq A (iş dəftəri) |
| Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə şagirdlərə "Xəyalpərəstlər" mətninin I hissəsinin məzmununu, xüsusilə Mişa və Saşanın uydurduğu əhvalatları xatırladacaq. Bu məqsədlə növbəti dərsdə istifadə etmək üçün həmin əhvalatlarla bağlı şəkillər hazırlamaq tövsiyə olunur. Bu işi şagirdlərə tapşırmaq olar. Şagirdlər evdə daha çox bəyəndikləri əhvalata aid illüstrasiyalar çəkə bilərlər. Şəkilləri növbəti dərsdə bir-birinə təqdim edər, aid olduğu əhvalatı yada salıb danışarlar.

## 2-ci dərs. "Xəyalpərəstlər" (II hissə)

• Dərslik: səh. 18-19 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 2.2.1).
• Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir (st. 2.2.5).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Dinlədiyi mətndəki əsas fikri şərh edir (st. 1.1.2).
• Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Xəyalpərəstlər" mətninin I hissəsinin xatırlanması |
| 2 | **Oxu** | "Xəyalpərəstlər" mətninin II hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazların təhlili; faktların seçilməsi |
| 4 | **Dinləmə** | "Yalançı çoban" dinləmə mətninin səsləndirilməsi |
| 5 | **Yazı** | Məktubun yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər Mişa və Saşanın uydurduğu əhvalatlara aid çəkdikləri illüstrasiyaları bir-birinə təqdim edir, həmin şəklin aid olduğu əhvalatı yada salıb danışırlar. Beləliklə, şagirdlər "Xəyalpərəstlər" mətninin I hissəsində baş verən hadisələri xatırlayır, II hissəsini oxumaq üçün həvəslənirlər.

### Oxu

**2.2.1** **Tapşırıq A (dərslik). Növbəli oxu.** Oxuya başlamazdan əvvəl müəllim şagirdlərə obraz-



LAYİHƏ

ların davranışına diqqət etməyi tapşırır. Mətnin II hissəsi şagirdlər tərəfindən növbə ilə oxunur. Müəllim şagirdlərin obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə etməsinə diqqət edir.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Tapşırıq vasitəsilə şagirdlər obrazları təhlil edir, onların hərəkətlərinə münasibət bildirirlər. Müəllim çalışmalıdır ki, şagirdlər obrazlara münasibət bildirərkən fikirlərini əsaslandırsınlar. Obrazların hərəkətlərini təhlil etməklə düzgün nəticənin çıxarılması şagirdlərdə bir sıra əxlaqi dəyərlərin formalaşmasına müsbət təsir göstərir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnə əsasən obrazların davranışlarının səbəbini yazmaqla mətni qavradıqlarını nümayiş etdirirlər. Tapşırıq eyni zamanda yazı məzmun xətti ilə inteqrasiyaya imkan yaradır. Müəllim şagirdlərin böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazmasına diqqət edir.

2.2.4 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər İqorun düzgün hərəkət etmədiyini göstərən cümlələri seçməklə mətni diqqətlə oxuduqlarını və qavradıqlarını nümayiş etdirirlər.

**Doğru cavab:** 2, 3, 5.

### Dinləmə

1.1.2 Müəllim “Yalançı çoban” nağılının adını söyləmədən mətni səsləndirir.

**“Yalançı çoban” nağılı**

*Ucqar dağ kəndində bir çoban yaşayırdı. O hər gün səhər kənd camaatının qoyun-quzusunu yığıb otarmağa aparır, bütün gününü qoyunlarla keçirirdi.*

*Bir gün çoban həmişəki kimi sürüsünü otarırdı. O çox darıxırdı. Ətrafda kəlmə kəsməyə bir adam yox idi. Qoyunlar da danışa bilmirdi ki, onlarla söhbət etsin. Axırda çoban qərara gəldi ki, kənd camaatı ilə zarafat etsin. Kəndin yaxınlığındakı təpənin üstünə çıxıb var gücü ilə qışqırdı:*

*– Ay camaat, köməyə gəlin! Sürüyə canavar girib!*

*Kəndlilər onun səsini eşitdilər. Kimisi əlinə yaba, kimisi də balta alıb otlağa tərəf qaçdı. Gəlib gördülər ki, canavar-zad yoxdur. Çoban çomağını əlinə alıb “Aldatdım, aldatdım” deyə oynamağa başladı.*

*Adamlar başlarını bulayıb narazı halda kəndə qayıtdılar.*

*Aradan bir neçə gün keçdi. Bir gün axşamüstü yenə təpənin başından çobanın səsi gəldi:*

*– Ay aman, imdad! Canavar qoyunu apardı!*

*Adamlar yenə də əllərinə keçəni götürüb təpənin o tayına qaçdılar. Çoban yenə gülə-gülə onları lağa qoydu.*

*Bir müddət də keçdi. Günlərin bir günü çoban yenə qoyunları otarırdı. Birdən meşədən üç canavar çıxıb sürüyə hücum etdi. Başladılar əllərinə keçən qoyun-quzunu parçalamağa. Çoban gördü ki, canavarlarla bacarmayacaq. Kəndə tərəf qaçıb qışqırmağa başladı:*

*– Ay camaat, qoymayın! Canavar sürünü qırıb qurtardı.*

*Kənd camaatı həyət-bacada öz işi ilə məşğul idi. Adamlar səs gələn tərəfə baxdılar. Ancaq heç kim yerindən tərpənmədi. Onlar artıq çobana inanmırdılar. Beləcə, canavarlar sürünün axırına çıxdı.*

**Şagirdlər mətni dinlədikdən sonra aşağıdakı suallara cavab verirlər:**

1. Siz bu nağılı necə adlandırardınız? Niyə?
2. Sizcə, çoban xəyalpərəstdir, yoxsa yalançı? Çobanın davranışlarına əsaslanaraq onun xarakterini müəyyənləşdirin.
3. Hansı atalar sözü mətnin ideyasına uyğundur?

a) Qurddan qorxan qoyun saxlamaz.

b) Yalançının evi yandı, heç kəs ona inanmadı.

**Tapşırıq C (dərslik).** Tapşırıqda şagirdlər “Yalançı çoban” dinləmə mətnindəki çoban obrazı ilə oxu materialı “Xəyalpərəstlər” mətnindəki İqor obrazı arasındakı oxşarlığı müəyyənləşdirirlər. Müəllim yönəldici suallar vasitəsilə şagirdləri istiqamətləndirir:

1. “Yalançılıq” və “xəyalpərəstlik” xüsusiyyətləri haqqında düşünün. Bu xüsusiyyətlər nə ilə fərqlənir?
2. Dinlədiyiniz “Yalançı çoban” mətnindəki çobanın uydurması ilə Mişa və Saşanın uydurmalarını eyniləşdirmək olarmı? Fikrinizi əsaslandırın.
3. Bəs çobanın uydurması ilə İqorun uydurması arasında oxşarlıq varmı? Onların yalanları nə ilə nəticələndi? Kimə, ya nəyə isə zərər dəydimi?

**Müzakirəni təxminən belə yekunlaşdırmaq olar:**

LAYİHƏ

Xəyalpərəstlik – fantaziya heç kimə zərər vermir. Fantaziya yeniliklər yaratmağa kömək edir. Yalançı isə yalnız özü üçün faydalı ola biləcək yalanlar danışır. Yalançılıq ətrafdakılara zərər verir.

### Yazı

3.1.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər onlara təqdim edilmiş plana uyğun olaraq İqora məktub yazırlar. Ona səhvlərini izah edir, məsləhətlər verirlər.

**Diferensial təlim**

Məktub yazarkən məsləhət verməkdə çətinlik çəkən şagirdlər dərslikdə onlara təqdim edilmiş məsləhətlərdən istifadə edə bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | Tapşırıq A (dərslik) |
| Obrazların hərəkətlərinin səbəbini onların xarakteri ilə izah edir. | Tapşırıq B (dərslik), Tapşırıq A (iş dəftəri) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tapşırıq B (iş dəftəri) |
| Dinlədiyi mətndəki əsas fikri şərh edir. | Tapşırıq C (dərslik) |
| Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir. | Tapşırıq Ç (dərslik) |

## 3-cü dərs. “Dondurma saray”

• Dərslik: səh. 20 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**

• Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir (st. 1.2.1).
• Dinlədiyi mətndəki məlumatları əvvəl bildikləri ilə müqayisə edir (st. 1.1.2).
• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar üzrə müzakirə |
| 2 | **Danışma** | Şəkil üzrə mətn qurulması |
| 3 | **Dinləmə** | Tərtib etdiyi və dinlədiyi mətnin müqayisəsi |
| 4 | **Söz ehtiyatı** | Krossvord üzrə iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

• Dondurmanı nədən hazırlayırlar? Valideynləriniz sizə nə qədər dondurma yeməyə icazə verir?

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik). Qruplarla iş.** Müəllim şagirdləri qruplara ayırır. Qruplaşma zamanı şagirdlərin bilik səviyyəsinin nəzərə alınması məqsədəuyğundur. Təsviretmə, nəqletmə bacarıqları yüksək olan şagirdlər bir qrupda, bu bacarıqları orta səviyyədə olan şagirdlər isə digər qrupda toplanırlar.

**Birinci qrupdakı şagirdlər** tapşırıqda onlara təqdim edilmiş şəkil əsasında nağıl qururlar. Müəllim onların diqqətini tapşırıqda verilmiş plana (mətnin tərkib hissələri haqqında məlumata) yönəldir və nağılı həmin plan əsasında qurmaq üçün istiqamətləndirir. Şagirdlər nağılın giriş hissəsində şəkildəki sarayı təsvir edəcək, nağılda iştirak edəcək obrazlar haqqında danışacaqlar. Nağılın əsas hissəsində isə obrazların bu sarayda başlarına gələn hadisələrdən bəhs edəcəklər. Nağılın sonluğunda hadisələrin nəticəsi haqqında danışacaqlar. Müəllim bu qrupu qiymətləndirərkən mətnin tərkib hissələri haqqında aldıqları biliklərin nə dərəcədə tətbiq olunmasına diqqət edir.

**İkinci qrupdakı şagirdlərə** tapşırığı uğurla yerinə yetirmək üçün köməkçi material təqdim edilməlidir. Bu məqsədlə mətnin tərkib hissələrinə aid tərtib edilmiş suallar vermək olar.

*Giriş hissə*

1. Nağıllar, adətən, necə başlayır?
2. Şəkildə gördüyünüz sarayın hansı şəhərdə olmasını istəyərdiniz?
3. Şəkildəki sarayın divarları nədən hazırlanıb? Bəs sarayın qapı-pəncərələrini hazırlamaq üçün nədən istifadə ediblər?

LAYİHƏ

4. Sarayın ətrafındakı uşaqlar kimdir?

Əsas hissə

1. Uşaqlar sarayı görəndə hansı hissi keçirdilər?

2. Uşaqlar bu sarayda gəzmək istəyərdilərmi? Nə üçün?

3. Əgər gün çıxsa, hava isti olsa, sarayın aqibəti necə olar?

Sonluq

1. Siz də belə sarayda gəzmək istərdinizmi?

2. Nağıllar, adətən, necə bitir?

Müəllim bu qrupu qiymətləndirərkən təqdim olunmuş suallara şagirdlərin nə qədər ətraflı cavab verməsi, hadisələri mətnin tərkib hissələrinə uyğun nəql etməsinə diqqət edir.

### Dinləmə

1.1.2 **Tapşırıq B (dərslik).** Müəllim Canni Rodarinin "Dondurma saray" nağılını səsləndirir.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə əvvəlcədən nağılı diqqətlə dinləməyi və uydurduqları nağıl ilə müqayisə edəcəklərini söyləyir.

**"Dondurma saray" nağılı**

*İndi mən sizə qəribə bir hadisə nəql edəcəyəm. Bir dəfə Bolonya şəhərinin mərkəzi küçələrindən birində qəribə bir saray tikildi. Soruşa bilərsiniz ki, şəhərdə saray tikilər də, burada qəribə nə var ki?! Düz fikirləşirsiniz. Amma maraqlısı bu idi ki, bu saray adi saraylar kimi daşdan, qumdan, taxtadan tikilməmişdi. Sarayın divarları vaflidən, qapı-pəncərəsi isə şokoladdan hazırlanmışdı. Sarayın damı çırpılmış qaymaqdan, bacalardan çıxan tüstü burulmuş şəkərdən, bacalar özü isə şəkərli meyvədən hazırlanmışdı. Qalan hər şey dondurmadan idi: dondurma masa, dondurma divan, dondurmadan daha nələr, nələr...*

*Dondurma sarayın xəbəri bütün şəhərə yayılmışdı. Uşaqlar əllərində qaşıq, çəngəl şəhərin hər yerindən axışıb gəlmişdilər. Bu gün bayram etmək istəyirdilər, "Dondurma" bayramı.*

*Uşaqlardan biri dondurmadan hazırlanmış masanın ayağından tutub yeməyə başladı. Sonra ikincisini, üçüncüsünü yedi. Dördüncü ayağını yeyəndə masanın üzərinə düzülmüş şokolad nimçələr onun üzərinə töküldü.*

*Günəş parıldayır, hava qızırdı. Dondurma saray yavaş-yavaş əriyirdi. Çiyələkli qaymaq çahrayı çay kimi axıb gedirdi. Saray mühafizəçisi hər kəsi saraya dəvət etdi:*

*– Tez olun, bura gəlin! Dondurmanı tez yemək lazımdır. Əriyib axmasına imkan verməyin!*

*Bəli, Bolonyada böyük bir gün idi. Əsl tətil! Çoxlu dondurma yeməsinə baxmayaraq həkimlərin göstərişi ilə heç bir uşaq xəstələnmədi.*

**Müəllim müqayisə üçün aşağıdakı suallardan istifadə edə bilər?**

1. Uydurduğunuz nağıldakı hadisələr harada baş vermişdi? Bəs dinlədiyiniz nağıldakı hadisələr hansı şəhərdə baş verib?

2. Uydurduğunuz və dinlədiyiniz nağıllarda hansı obrazlar iştirak etdi?

3. Dondurma sarayın təsvirində hansı fərqli məqamlar var idi?

– Dinlədiyiniz nağıldakı sarayın divarları nədən idi? Bəs siz necə təsvir etmişdiniz?

– Sarayın qapı-pəncərəsi nədən hazırlanmışdı? Bəs siz necə təsvir etmişdiniz?

4. Dinlədiyiniz nağılda hansı fərqli hadisələr baş vermişdi?

Şagirdlər "Dondurma saray" nağılını dinləyir və öz uydurduqları nağıl ilə müqayisə edirlər. Oxşar məqamlara görə müəllim şagirdləri dünya şöhrətli yazıçı ilə müqayisə edib həvəsləndirə bilər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda şagirdlər sözlərin izahını oxuyur, şəkillərin məzmununa uyğun gələn sözləri krossvordun uyğun xanalarına yazırlar. Ümumiyyətlə, tapşırıq şagirdlərin söz ehtiyatının inkişafına yönəldilmişdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir. | Tapşırıq A (dərslik) |
| Dinlədiyi mətndəki məlumatları əvvəl bildikləri ilə müqayisə edir. | Tapşırıq B (dərslik) |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tapşırıq A (iş dəftəri) |



LAYİHƏ

## 4-cü dərs. “Məktəbdə bir gün” mətni

• Dərslik: səh. 20-22 • İş dəftəri: səh. 11

**Təlim məqsədləri**
• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Mövzu ilə bağlı təxəyyülünə uyğun mətn qurub danışır (st. 1.2.2).
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2).
• Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir (st. 3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar üzrə müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Məktəbdə bir gün” mətninin oxusu |
| 3 | **Danışma** | Mətnin sonunun təxmin edilməsi |
| 4 | **Yazı** | Nağıllar haqqında rəy yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

• Görünməz olmaq istərdinizmi? Görünməz olsaydınız, nə edərdiniz?

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər mətni növbə ilə oxuyurlar. Sonra isə sualları cavablandırırlar. Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(çaxnaşma, dəcəllik, ödəmək)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***çaxnaşma** – qarışıqlıq, **dəcəllik** – nadinclik, **ödəmək** – pulunu vermək.* Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə istifadə edirlər.

### Danışma

1.2.2 **Tapşırıq B (dərslik).** Şagirdlər İlkinin taleyi haqqında düşünür, hekayənin sonluğunu təxəyyüllərinə uyğun davam etdirirlər. **Müəllim aşağıdakı suallarla şagirdləri istiqamətləndirə bilər:**

*1. Necə düşünürsünüz, İlkin yenidən gözə görünə biləcəkmi?*

*2. Sizcə, İlkin gözə görünə bilərsə, davranışlarında hansı dəyişiklikləri edər?*

*3. Əgər İlkin gözəgörünməz olaraq qalarsa, hadisələr necə davam edər?*

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan yaradır. Eyni zamanda şagirdlərdə düşüncələrini yazı ilə ifadə etmə bacarığını inkişaf etdirir.

3.1.3 **Tapşırıq C (dərslik).** Bu tapşırıq şagirdlərdə mövzu haqqında fikir söyləmək, arqumentlər gətirməklə münasibətini bildirmək kimi bacarıqları inkişaf etdirir.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edir. Şagirdlərə rəy yazarkən tanış olduqları bir əsər haqqında fikir söyləməyin, fikirlərini arqumentlərlə əsaslandırmağın ardıcıllığını, mərhələlərini izah edir.

**Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Müəllim şagirdləri 4 qrupa ayırır. Püşk atmaq üsulu ilə hər qrupa “Sehrli xalça”, “Məlikməmməd”, “Yalançı çoban”, “Məktəbdə bir gün” nağıllarından biri verilir. Hər qrup dərslikdəki nümunə əsasında müvafiq nağıl haqqında rəy hazırlayıb təqdim edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Mövzu ilə bağlı təxəyyülünə uyğun mətn qurub danışır. | Tapşırıq B (dərslik) |
| Şəkil və plan əsasında təsviri xarakterli mətn yazır. | Tapşırıq A (iş dəftəri) |
| Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir. | Tapşırıq C, Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq:** Müəllimə fantastik filmlərdən fraqmentlər və ya şəkillər nümayiş etdirmək üçün hazırlıq görmək tövsiyə olunur.

LAYİHƏ

## **5-ci dərs.** "Alisa möcüzələr diyarında"

• Dərslik: səh. 22-23 • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**

• Dinləyicilərin başa düşəcəyi tərzdə oxuyur (st. 2.2.1).
• Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir (st. 2.2.4).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir (st. 1.2.1).
• Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir (st. 4.1.6).
• Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir (st. 3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar üzrə müzakirə |
| 2 | **Oxu** | "Alisa möcüzələr diyarında" nağılının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazların davranışına münasibət bildirilməsi, faktların seçilməsi |
| 4 | **Danışma** | Şəkillər üzrə mətn qurub nəqletmə |
| 5 | **Dil qaydaları** | Cümlənin genişləndirilməsi |
| 6 | **Yazı** | Nağıl haqqında rəy yazılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə fantastik filmlərdən fraqmentlər və ya şəkillər nümayiş etdirərək soruşur:

• Uydurma hadisələrdən bəhs edən fantastik filmləri sevirsinizmi? Səbəbini izah edin.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Oxuya başlamazdan əvvəl müəllim şagirdlərə xəyali hadisələrə diqqət etməyi tapşırır. Şagirdlər mətni növbə ilə oxuyurlar. Oxudan sonra nağıldakı xəyali və həqiqi hadisələri fərqləndirirlər.

**Həqiqi hadisələr:**
Alisa bacısı ilə dincəlirdi.
Yaxınlıqdan qaça-qaça bir dovşan keçdi.
Alisa dovşanın dalınca düşdü.
Qapının açar yerindən gözəl bir bağ görünürdü.

**Xəyali hadisələr:**
Dovşan danışırdı.
Alisa sürətlə balacalaşmağa başladı.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər təhlükəsizlik qaydaları haqqında öyrəndikləri məlumatlardan istifadə edərək Alisanın davranışlarına aydınlıq gətirirlər. Hansı təhlükəsizlik qaydasını pozduğunu müzakirə edirlər.

**Doğru cavab:** Alisa ona tanış olmayan bir mayeni içmişdi.

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər cavabını tapa bilmədikləri sualları seçməklə mətni diqqətlə oxuduqlarını və qavradıqlarını nümayiş etdirirlər. **Doğru cavab:** 1, 4.

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Şagirdlər qruplara ayrılırlar. Tapşırıqda təqdim edilmiş illüstrasiyalardan birini seçərək "Alisa möcüzələr diyarında" nağılının sonluğunu şəklin məzmununa əsasən davam etdirirlər. **Müəllim aşağıdakı cümlələrlə şagirdləri istiqamətləndirə bilər:**

– Məlum olduğu kimi "Alisa möcüzələr diyarında" nağılının sonluğu verilməyib. Alisa şüşədəki mayeni qəbul edərək balacalaşdı. Əli masaya çatmadığı üçün masanın üzərindəki açarı götürə bilmədi. Zalın bağa açılan balaca qapısını isə məhz bu açar ilə açmaq mümkündür. Siz tapşırıqdakı şəkillərdən birini seçərək nağılın sonluğunu uydurmağa çalışın.

**Şagirdlərin cavabları təxminən belə ola bilər:**

**I şəklin təsviri**

*Birdən masanın altındakı qutu Alisanın gözünə sataşdı. Qutunun üzərində "Ye məni!" yazılmışdı. Alisa qutunu açdı. Burada cürbəcür konfetlər var idi. Alisa onlardan birini yedi. O dəqiqə sürətlə böyüməyə başladı. O, masanın üstündəki açarı götürüb qapını açdı. Daha sonra şüşədəki mayedən bir qurtum içərək yenidən balacalaşdı və bağa daxil oldu.*

**II şəklin təsviri**

*Ətrafda rəngli kəpənəklər uçuşurdu. Onlar Alisanın kədərləndiyini görüb ona kömək etmək istədilər. Kəpənəklərin hərəsi açarın bir ucundan yapışdı. Onu havaya qaldırıb Alisanın qarşısında dayandılar. Alisa açarı alıb onlara təşəkkür etdi. Alisa bağın qapısını açıb içəri keçdi.*

LAYİHƏ

### Dil qaydaları

**4.1.6** **Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin cümləni genişləndirməklə fikirlərini daha geniş və əhatəli ifadə etmək bacarığını inkişaf etdirir. Şagirdlər cümlələrin daxilində verilmiş suallara mətnə əsasən cavab verməklə genişləndirirlər.

**Doğru cavab:**

*a)* ***İsti*** *yay günü idi.*

*b) Alisa* ***bacısı ilə ağacın altında*** *dincəlirdi.*

*c) Birdən qaça-qaça* ***bir dovşan*** *keçdi.*

*ç)* ***Kənardakı*** *masanın üzərinə* ***şüşə*** *və* ***açar*** *qoyulmuşdu.*

### Yazı

**3.1.3** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda şəkli verilmiş kitabın üz qabığındakı məlumatları oxuyurlar. Onlara təqdim edilmiş suallar əsasında həmin nağıl haqqında ("Alisa möcüzələr diyarında") rəy yazırlar. Tapşırıq şagirdlərdə mövzu haqqında fikir söyləmək, arqumentlər gətirməklə münasibətini bildirmək kimi bacarıqların inkişafına yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinləyicilərin başa düşəcəyi tərzdə oxuyur. | Tapşırıq A (dərslik) |
| Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir. | Tapşırıq B (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tapşırıq C (dərslik) |
| Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir. | Tapşırıq D (dərslik) |
| Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir. | Tapşırıq A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə riyaziyyatçı alimlər haqqında kiçik məlumatlar verəcək. Bu məqsədlə nümayiş etdirmək üçün bir neçə riyaziyyatçı alimin şəkillərini əldə etmək tövsiyə olunur. Məsələn: *Müəllim şagirdlərin yaxşı tanıdığı Venn diaqramını nümayiş etdirib onu icad edən ingilis alimi Con Vennin şəklini təqdim edə bilər.*

## 6-cı dərs. "Nağılçı alim"

• Dərslik: səh. 24 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Obrazlarla bağlı fakt və hadisələri müəyyənləşdirir (st. 2.2.4).
• Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir (st. 1.2.1).
• Mətndə fakt və münasibət ifadə edən fikirləri fərqləndirir (st. 2.2.2).
• Cümlələrdə mətnin məzmununa uyğun düzəlişlər edir (st. 3.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Con Venn və Venn diaqramı haqqında məlumat |
| 2 | **Oxu** | "Nağılçı alim" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki obrazlarla bağlı faktların təhlili |
| 4 | **Danışma** | Kerrol diaqramının şərhi |
| 5 | **Oxuyub-qavrama** | Fakt və ya münasibət bildirən cümlələrin müəyyənləşdirilməsi |
| 6 | **Yazı** | Mətnin məzmununa aid sualların tərtib edilməsi və cavablandırılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə Venn diaqramını nümayiş etdirib soruşur:

• Siz bu diaqramın adını bilirsinizmi? Hansı dərslərdə bu diaqramdan istifadə edirsiniz?

Daha sonra Con Vennin şəklini təqdim edib onun haqqında az da olsa, məlumat verir:

• Con Venn ingilis alimi, riyaziyyatçıdır. Venn diaqramının əsasını o qoymuşdur.

Müəllim soruşur:

• Sizcə, riyaziyyatçı nağıl, şeir yaza bilərmi?

### Oxu

**2.2.1** **Tapşırıq A (dərslik).** Şagirdlər "Nağılçı alim" mətnini növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Hər abzası oxuyub bitirdikdən sonra müəllim faktoloji suallar verməklə şagirdlərin həmin hissəni nə dərəcədə qavradıqlarını yoxlayır.

LAYİHƏ

**I abzasa aid suallar:**

*1. Lüis Kerrol kimdir?*

*2. Alisa kim idi?*

*3. Lüis Alisa ilə harada rastlaşmışdı?*

*4. Lüisin nağıl uydurmasının səbəbi nə idi?*

*5. Alisa sizə hansı nağılı xatırlatdı?*

**II abzasa aid suallar:**

*1. Bu abzasda hansı ölkənin kraliçasından danışılır?*

*2. Kraliça nə üçün təəccüblənmişdi?*

*3. Lüis Kerrolun kitabları niyə ancaq riyaziyyata aid idi?*

**III abzasa aid suallar:**

*1. Lüis Kerrolun hansı bacarığından danışılır?*

*2. Lüis Kerrol hansı diaqramı yaradıb?*

*3. Mətndə bu diaqramı izah edən cümləni tapın.*

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın yerinə yetirilməsi ilə mətndəki faktların şagirdlər tərəfindən necə qavranıldığı yoxlanılır.

**Doğru cavablar:** 1, 4.

**Yanlış cavablar:** 2, 3, 5.

### Danışma

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş diaqramı şərh edirlər. Tapşırığın asanlıqla yerinə yetirilməsi üçün müəllim şagirdləri istiqamətləndirir. Əvvəlcə mətndə diaqram haqqında verilmiş məlumatlar yenidən oxunur.

2. Yönəldici suallardan istifadə edir:

• Diaqramda fiqurlar hansı xüsusiyyətlərinə görə qruplaşdırılıb? (Cavab: *üçbucaq olanlar və üçbucaq olmayanlar, mavi olanlar və mavi olmayanlar.)*

• Mavi və üçbucaq izahlarının qarşısındakı qrafada hansı fiqurun şəkli var? (Cavab: *mavi üçbucaq.*)

• Mavi olmayan və üçbucaq izahının qarşısındakı qrafada hansı fiqurların şəkli var? (Cavab: *yaşıl, sarı, qırmızı üçbucaq.*)

• Mavi və üçbucaq olmayan izahlarının qarşısındakı qrafada hansı fiqurların şəkli var? (Cavab: *mavi romb, kvadrat, beşbucaqlı, dairə, altıbucaq.*)

• Mavi olmayan və üçbucaq olmayan izahlarının qarşısındakı qrafada hansı fiqurların şəkli var? (Cavab: *narıncı kvadrat, bənövşəyi dairə, çəhrayı oval, yaşıl ulduz.*)

Tapşırıq şagirdlərə Kerrol diaqramının xüsusiyyətini izah etməklə yanaşı, eyni zamanda onlarda qrafik informasiyanı şifahi təqdim etmək bacarıqlarının inkişafına yönəlib.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda şagirdlər onlara təqdim edilmiş nağıl obrazlarının adlarını Kerrol diaqramı üzrə qruplaşdırırlar.

**Doğru cavab:**

• Müsbət və sehrli obraz izahlarının kəsişdiyi qrafada "Zümrüd quşu" ifadəsi yazılacaq.

• Müsbət və real obraz izahlarının kəsişdiyi qrafada "Məlikməmməd" sözü yazılacaq.

• Mənfi və sehrli obraz izahlarının kəsişdiyi qrafada "Küpəgirən qarı" ifadəsi yazılacaq.

• Mənfi və real obraz izahlarının kəsişdiyi qrafada "İqor" sözü yazılacaq.

Tapşırıq şagirdlərə mənfi və müsbət, sehrli (xəyali) və real (həqiqi) obrazlar haqqındakı bilikləri xatırladır. Onlar tanıdıqları obrazları Kerrol diaqramında qruplaşdırmaqla bu diaqramın mahiyyətini anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, fakt və ya münasibət bildirildiyini müəyyənləşdirirlər. (Düzgün cavablar: *fakt, münasibət, fakt, münasibət*). Bu tapşırıq informativ mətnlərdə verilmiş əsas məlumatları seçmək bacarığının inkişafına yönəlib.

### Yazı

3.1.5 **Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Bu tapşırıq cütlərlə yerinə yetirilir. Şagirdlər öz dəftərlərində "Nağılçı alim" mətninə aid üç sual tərtib edirlər. Daha sonra cütlərdəki şagirdlər dəftərlərini bir-biri ilə dəyişirlər. Hər bir şagird yoldaşının tərtib etdiyi sualları cavablandırır. Yenidən dəftərləri dəyişirlər və cavabları yoxlayırlar. Müəllim prosesə nəzarət edir, şagirdləri istiqamətləndirir. Şagirdlərə yoldaşlarının yazısını yoxlamaq imkanını yaratmaq onların məsuliyyətli olmasına kömək edir, eyni zamanda özünəinam hissi yaradıb həvəsləndirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Obrazlarla bağlı fakt və hadisələri müəyyənləşdirir. | Tapşırıq A (iş dəftəri) |
| Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir. | Tapşırıq B (dərslik) |
| Mətndə fakt və münasibət ifadə edən fikirləri fərqləndirir. | Tapşırıq C (dərslik) |
| Cümlələrdə mətnin məzmununa uyğun düzəlişlər edir. | Tapşırıq Ç (dərslik) |

fəsil 3 AĞIL DƏRYASI

## 1-ci dərs. "Üç qardaş" (I hissə)

• Dərslik: səh. 25-27 • İş dəftəri: səh. 14

**Təlim məqsədləri**

• Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir (st. 1.2.1).
• Dinləyicilərin başa düşəcəyi tərzdə oxuyur (st. 2.2.1).
• Mətnin əsas hissələrini ümumiləşdirərək nəql edir (st. 2.2.3).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Mətndəki obrazın xarakterini səciyyələndirməklə əsas fikrə münasibətini bildirir (st. 2.2.4).
• Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait və samitlərin düzgün yazılış qaydalarına riayət edir (st. 4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Fəslin adının müzakirəsi |
| 2 | **Danışma** | Şaxələndirmə şəklində verilmiş sxemin şərhi |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Üç qardaş" nağılının oxusu; "Söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Nəqletmə; nağıldakı fakt və hadisələrin yerinin müəyyənləşdirilməsi; əsas fikrin müəyyənləşdirilməsi; obrazın xarakterinin səciyyələndirilməsi |
| 5 | **Dil qaydaları** | Bəzi sözlərin düzgün yazılışının mənimsədilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldərək soruşur:

– *Sizcə, bu fəsildə biz nə haqqında müzakirələr aparacağıq?*

Şagirdlər sual ətrafında fikirlərini söyləyir, fəslin mövzusunu təxmin edirlər.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sxemi şərh edirlər. Tapşırığın asanlıqla yerinə yetirilməsi üçün müəllim yönəldici suallarla şagirdlərə istiqamət verir.

**Köməkçi suallar:**

1. "Ağıl" sözü hansı ifadələrlə izah edilib?
2. Sizcə, ağıllı olmaq üçün bu xüsusiyyətlərdən hansı daha vacibdir? Fikrinizi əsaslandırın.
3. I sinifdə siz "Biləndərin macəraları" adlı silsilə nağıllar oxudunuz. Sizcə, "Bir parça köz" nağılında Biləndərin hansı xüsusiyyətindən danışılır?
4. Sizcə, "Daş paltar" nağılında Biləndərin hansı xüsusiyyəti açıqlanır?
5. "Qəribə qız" mətnində (II sinif, I yarımil) Leyla adlı bir qızla tanış olmuşduq. Leyla babasının quyuya düşmüş bıçağını maqnitin köməyi ilə çıxarmışdı. Sizcə, bu işdə Leylaya hansı xüsusiyyəti kömək etmişdi?

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, müəllim "Bir parça köz", "Daş paltar" nağıllarının və "Qəribə qız" mətninin qısa məzmununu şagirdlərə xatırlatsın.

**Doğru cavablar:**

*1. "Bir parça köz" nağılında Biləndərin məntiqi düşüncəsinin yüksək olmasından danışılır.*

*2. "Daş paltar" nağılında Biləndər hazırcavablılığı ilə kəndlərini düşmənlərdən xilas edir.*

*3. "Qəribə qız" mətnində Leyla çox mütaliə edir və qazandığı biliklər hesabına babasına kömək edir.*



LAYİHƏ

### Oxu

**2.2.1 Tapşırıq B (dərslik). Qruplarla iş.** “Üç qardaş” nağılının həcmi böyük olduğu üçün fərqli oxu üsulu ilə oxunması tövsiyə edilir. Aşağıda təklif olunan üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə kömək edə bilər yaradır.

“Üç qardaş” nağılı dörd hissədən ibarətdir. Şagirdlər 4 qrupa ayrılırlar. Hər qrupa bir ekspert və bir qiraətçi (oxucu) təyin edilir. Ekspert kimi seçilən şagirdin dinləmə və danışma bacarıqları yüksək səviyyədə olmalıdır. Qiraətçi isə deklamasiya (ifadəli oxu) bacarıqlarına malik olmalıdır. Hər bir qrupun qiraətçisi nağılın müvafiq hissəsini qrup yoldaşlarının eşidəcəyi səslə, digər qruplara mane olmadan oxuyur. Qrup üzvləri diqqətlə onu dinləyir. Ekspert oxunmuş hissənin məzmununu qrup yoldaşlarına nəql edir. Qrup üzvləri eksperti diqqətlə dinləyir, onun səhvlərini düzəltməyə çalışır, yaddan çıxan məqamları xatırladırlar.

### Oxuyub-qavrama. Söz ehtiyatı

**2.2.3 Tapşırıq C (dərslik)**. Bu mərhələdə qrupların təqdimatları dinlənilir. Hər bir qrupun eksperti “Üç qardaş” nağılının müvafiq hissəsini nəql edir. Əsas məqsəd mətnin vahid süjet xətti üzrə nəql edilərək sinfə təqdim olunmasıdır.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(ləpir, and-aman eləmək, kamal, girdə, müşahidə, vazir)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***ləpir*** – heyvanın ayaq izi; ***and-aman eləmək*** – and içmək; ***kamal*** – ağıl; ***girdə*** – yumru; ***müşahidə*** – diqqətlə baxaraq, araşdıraraq öyrənmə; ***vazir*** – padşahın məsləhətçisi olub dövlət işlərinə baxan şəxs. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə istifadə edirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur və hansı obrazın nitqinə aid olduğunu müəyyənləşdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıqda “Üç qardaş” nağılının planı və nağıla aid cümlələr təqdim edilib. Şagirdlər cümlələri plan üzrə qruplaşdırmaqla mətnin quruluşu və struktur elementləri haqqındakı biliklərini təcrübədə tətbiq edirlər.

**2.2.4 Tapşırıq Ç (dərslik).** Tapşırıqda “Üç qardaş” nağılının əsas fikrini əks etdirən şeir parçası verilmişdir. Şagirdlər nağıldan arqumentlər gətirməklə bu fikri əsaslandırırlar.

**Doğru cavab:** *Qardaşların ağlı, kamalı onlara çətin günlərində kömək oldu. Onları atlının şərindən qurtardı. Qardaşlar öz ağlı, kamalı sayəsində padşahın rəğbətini qazandılar.*

**Tapşırıq D (dərslik).** Şagirdlər “Üç qardaş” nağılındakı obrazları xarakterizə etməklə analitik bacarıqlarını nümayiş etdirirlər.

### Dil qaydaları

**4.1.3 “Sözlərin yazılışı” rubrikası.** Müəllim şagirdlərin diqqətini rubrikada verilmiş qoşasaitli sözlərə cəlb edir. Sözləri düzgün tələffüz etməklə oxuyur. Tələffüzdə bəzi qoşa saitlərin arasına *“y”* samitinin əlavə edildiyi haqqında məlumat verir. Nümunələr əsasında izah edir.

**Tapşırıq E (dərslik).** Tapşırıq “Sözlərin yazılışı” rubrikasında verilmiş məlumatı möhkəmləndirmək məqsədi daşıyır. Müəllim tapşırığı düzgün yerinə yetirən şagirdlərə yoldaşlarının yazdıqlarını yoxlamağı tapşıra bilər. Bu onlarda məsuliyyət hissini gücləndirir və verilmiş biliyi səhvlər üzrə işləməklə yenidən təkrarlayır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir. | Tapşırıq A (dərslik) |
| Dinləyicinin başa düşəcəyi tərzdə oxuyur. | Tapşırıq B (dərslik) |
| Mətnin hissələrini ümumiləşdirərək nəql edir. | Tapşırıq C (dərslik) |
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tapşırıq A, B (iş dəftəri) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tapşırıq Ç (dərslik) |
| Mətndəki obrazın xarakterini səciyyələndirməklə əsas fikrə münasibətini bildirir. | Tapşırıq D (dərslik) |
| Bir sıra qoşasaitli sözlərin düzgün yazılış qaydalarına riayət edir. | Tapşırıq E (dərslik) |

LAYİHƏ

**Növbəti dərsə hazırlıq:** 1. Müəllim növbəti dərsdə şagirdlərlə "Üç qardaş" nağılına aid sual-cavab keçirəcək. Bu məqsədlə növbəti dərsdə istifadə etmək üçün suallar hazırlamaq tövsiyə olunur. Sualları hazırlamağı şagirdlərə də tapşırmaq olar. Şagirdlər evdə hazırladıqları sualları növbəti dərsdə bir-birinə təqdim edə bilərlər.
2. Müəllim növbəti dərsdə şagirdlərə təsdiq və inkarda işlənən hərəkət bildirən sözlər haqqında məlumat verəcək. Bu məqsədlə ona üzərində təsdiq və inkarda işlənən hərəkət bildirən sözlər yazılmış kartlar hazırlamaq tövsiyə edilir.

## 2-ci dərs. Hərəkətin təsdiqi və inkarı

• Dərslik: səh. 28 • İş dəftəri: səh. 15

**Təlim məqsədləri**

• Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
• Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir (st. 1.2.1).
• Hərəkət bildirən sözlərin təsdiq və ya inkarda olduğunu müəyyən edir (st. 4.1.5).
• Cümlələrdə mətnin məzmununa uyğun düzəlişlər edir (st. 3.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Üç qardaş" nağılının xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | Səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi |
| 3 | **Danışma** | Şəkil üzrə mətn qurub danışma |
| 4 | **Dil qaydaları** | Hərəkət bildirən sözlərin təsdiq və inkarda işlənməsi |
| 5 | **Yazı** | Cümlələrdə mətnin məzmununa uyğun düzəlişlər edib yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə "Üç qardaş" nağılına aid suallar təqdim edir. Frontal sorğu zamanı şagirdlər keçən dərsdə oxuduqları nağılın məzmununu xatırlayırlar.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq A (dərslik).** Tapşırıqda ikisütunlu cədvəl verilib. Cədvəlin bir sütununda "Üç qardaş" nağılındakı qardaşların müşahidələri qeyd olunub. Şagirdlər bu müşahidələrə əsasən qardaşların hansı nəticəyə gəldiklərini müəyyənləşdirib cədvəlin ikinci sütununa qeyd edirlər. Tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamaqla bərabər, eyni zamanda səbəb-nəticə əlaqəsini müəyyənləşdirmək bacarığının inkişafına da yönəldilib.

### Danışma

1.2.1 **Tapşırıq B (dərslik). Qruplarla iş.** Şagirdlər püşkatma üsulu ilə qruplara ayrılır. Hər bir qrupa tapşırıqda verilmiş bir şəkil təqdim olunur. Qrup üzvləri şəkildə müşahidə etdikləri məqamları təsvir edirlər. Tapşırığın məqsədi şagirdlərin müşahidəetmə və təsviretmə bacarığının inkişafına yönəldilib. Şəkillərin təsviri təxminən belə ola bilər.

**I şəkil haqqında:** *Qış fəslidir. Qar yağır. Hər tərəf ağappaq rəngə bürünüb. Hava təmiz və soyuqdur. Uşaqlar isti geyinib həyətə düşüblər. Toplan da onların yanındadır.*

**II şəkil haqqında:** *Yaz fəslidir. Artıq ağaclar yaşıl donunu geyinib. Uşaqlar meşədə göbələk toplayırlar. Rəsul göbələklə dolu səbəti əlində saxlayır. Ayla isə göbələkləri ona verir.*

**Müəllimin nəzərinə!** Məlumdur ki, göbələklər həm də payız fəslində çox olur. Şəkildə otlar, ağaclar yaşıl rəngdə təsvir edilib. Əgər payız fəsli olsaydı, saralmış yarpaqlar, otlar verilərdi. Şagirdlər məhz bu məqamı nəzərə almalı, verilmiş şəklin hər bir detalına diqqət yetirməklə nəticə çıxarmalıdırlar.

**III şəkil haqqında:** *Artıq gecdir. Hava qaralıb. Ayın işığı isə pəncərədən otağa düşür. Samir ayı balasını qucaqlayaraq yuxuya gedib. Yəqin, bu onun ən sevimli oyuncağıdır. Toplan da Samirin yatağının qarşısındakı yerində yatır. Samir yuxuda ona hədiyyələr gətirmiş Santa Klausu görür.*

### Dil qaydaları

4.1.6 **Tapşırıq C (dərslik).** Müəllim lövhədə ikisütunlu cədvəl çəkir. Cədvəlin birində "edirəm", digərində "etmirəm" sözlərini yazır. Əvvəlcədən hazırladığı üzərində təsdiq və inkarda işlənən hərəkət bildirən sözlər yazılmış kartları masanın üzərinə düzür. Şagirdlər növbə ilə masaya yaxınlaşır, kartların birini qaldırıb üzərində



LAYİHƏ

yazılmış sözü oxuyur və kartı lövhədəki cədvəlin uyğun sütununa yapışdırır. Yəni cədvəlin sütununda yazılmış sözləri məntiqə əsasən davam etdirir. Bu üsulla dərslikdə verilmiş C tapşırığı da yerinə yetirilə bilər. **Müəllim şagirdlərə yönəldici suallar verir:**

*1. Hansı sütundakı sözlər hərəkətin yerinə yetirildiyini, icra edildiyini bildirir?*

*2. Hansı sütundakı sözlər hərəkətin icra edilmədiyini göstərir?*

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada təsdiq və inkarda işlənən hərəkət bildirən sözlər haqqında məlumatı şərh edir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda təsdiq formasında verilmiş hərəkət bildirən sözləri inkarda işlədirlər. Bununla da hərəkətin təsdiqi və inkarı haqqında aldıqları bilikləri təcrübədə tətbiq edir, möhkəmləndirirlər.

### Yazı

3.1.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlərə bu tapşırıqda "Üç qardaş" nağılından bir hissə təqdim edilib. Şagirdlər tapşırıqdakı cümlələri oxuyur, inkar formasında verilmiş hərəkət bildirən sözləri təsdiq formasında yazırlar. Tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamaqla yanaşı, dil qaydası haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə də kömək edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir. | Tapşırıq A (dərslik) |
| Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir. | Tapşırıq B (dərslik) |
| Hərəkət bildirən sözlərin təsdiq və ya inkarda olduğunu müəyyən edir. | Tapşırıq C Ç (dərslik), Tapşırıq A (iş dəftəri) |

## 3-cü dərs. "Ağıllı uşaq" nağılı

• Dərslik: səh. 29-30 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri**
- Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
- Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
- Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya sualının müzakirəsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Ağıllı uşaq" nağılının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi |
| 4 | **Yazı** | Oxuduğu mətnin qısa məzmununun yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim yönəldici sual vasitəsilə şagirdlərin diqqətini mövzuya yönəldir:

– Vətənin düşmənlərdən müdafiəsi hər kəsin borcudur. Sizcə, vətənin layiqli müdafiəçisi olmaq üçün hansı keyfiyyətlərə malik olmaq lazımdır?

Şagirdlər öz fərziyyələrini söyləyirlər. Cəsarət, vətənpərvərlik, mərdlik, qorxmazlıq və bu kimi fikirlər səslənə bilər.

### Oxu. Söz ehtiyatı

Müəllim mətnin oxunmasından əvvəl şagirdlərə oxu zamanı əsas obrazın xarakterinə diqqət etməyi tapşırır.

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu.** Şagirdlər "Ağıllı uşaq" nağılındakı cümlələri növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Hər abzası oxuyub bitirdikdən sonra müəllim faktoloji suallarla şagirdlərin həmin hissəni oxuyub-qavradıqlarını yoxlayır. Müəllim şagirdlərdən tanış olmayan söz və söz birləşmələrinin (*məkrli, talan etmək, tədbir, aradan götürmək, inişil, çapar*) təxmini mənasını soruşur. Sonra onların dəqiq mənasını açıqlayır: ***məkrli*** – aldadıcı, hiyləli; ***talan etmək*** – dağıtmaq; ***tədbir*** – bir işi görmək,

LAYİHƏ

həyata keçirmək üçün üsullar, yollar; ***aradan götürmək*** – yox etmək; ***inişil*** – keçən ildən qabaqkı il; ***çapar*** – atla bir yerə məktub, əmr, xəbər aparıb-gətirən şəxs. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

**Müəllimin nəzərinə!** Müəllim motivasiya üçün verdiyi sualı bir daha təkrar edir:
– Vətənin layiqli müdafiəçisi olmaq üçün hansı keyfiyyətlərə malik olmaq lazımdır?

"Ağıllı uşaq" nağılını oxuduqdan sonra şagirdlər bu sual ətrafında bir daha düşünür, cavablandırır, dərsin əvvəlində verdikləri cavabla müqayisə edirlər. **Müəllim bütün fikirləri təxminən aşağıdakı kimi ümumiləşdirə bilər:**

*Çox zaman ağıl, tədbir, məntiq gücə üstün gəlir. Vətəni qorumaq üçün fiziki güclə bərabər, bilik, savad qazanmalı, məntiqi düşüncəni inkişaf etdirmək lazımdır.*

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Bu tapşırıq şagirdlərin "Ağıllı uşaq" nağılını diqqətlə oxuduqlarını yoxlayır, eyni zamanda onların analitik bacarıqlarını möhkəmləndirir.

**Doğru cavablar:** 1 – b, 2 – c, 3 – a.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin yazı bacarıqlarının inkişafına yönəlməklə bərabər, mətnin məzmununu necə qavradıqlarını da yoxlamağa imkan verir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ucadan oxuduqdan sonra mətnlə bağlı faktoloji suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir. | Tapşırıq B (dərslik) |
| Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tapşırıq A (iş dəftəri) |

## 4-cü dərs. "İsgəndər" mətni

• Dərslik: səh. 30-31 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

- Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 2.2.1).
- Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
- Mətndən faktlar gətirməklə fikrini əsaslandırır (st. 2.2.4).
- Dinlədiyi mətndəki məlumatları əvvəl bildikləri ilə müqayisə edir (st. 1.1.2).
- Oxuduğu və ya dinlədiyi mətnlə bağlı emosional düşüncələrini ifadə edir (bəyəndim, bəyənmədim, yazığım gəldi, təəccübləndim) və əsaslandırır (st. 1.2.2).
- Frazeoloji ifadələrlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya sualının müzakirəsi |
| 2 | **Oxu** | "İsgəndər" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazın davranışlarının səbəbinin müəyyənləşdirilməsi; mətndən faktlar gətirməklə obrazın xarakterinin səciyyələndirilməsi |
| 4 | **Dinləmə** | "Alim və yolçu" dinləmə mətni |
| 5 | **Danışma** | Oxuduğu və dinlədiyi mətnlərlə bağlı düşüncələrinin ifadə edilməsi |
| 6 | **Söz ehtiyatı** | Frazeoloji ifadələrin mənaları ilə uyğunlaşdırılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Əqli hücum.** Müəllim yönəldici sual vasitəsilə şagirdlərin diqqətini mövzuya yönəldir:

– Ağıllı insanlar hansı xüsusiyyətləri ilə fərqlənirlər? Həyatdan misallar gətirməklə fikrinizi əsaslandırın.

Şagirdlər öz fərziyyələrini söyləyirlər.

### Oxu. Söz ehtiyatı

Müəllim mətnin oxunmasından əvvəl şagirdlərə oxu zamanı obrazların davranışlarına fikir verməyi tapşırır.

2.2.1 **Tapşırıq A (dərslik). Rollu oxu.** Şagirdlər birinci dəfə "İsgəndər" mətnini səssiz şəkildə

LAYİHƏ

oxuyur, mətnlə tanış olurlar. Daha sonra isə müəllim mətni rollar üzrə oxumaq üçün rol bölgüsü keçirir. Şagirdlər obrazın nitqinə aid cümlələri onların xarakterinə uyğun səsləndirərək oxuyurlar. Müəllim şagirdlərdən tanış olmayan söz və söz birləşmələrinin (*daşı daş üstə qoymamaq, mühasirəyə almaq, fəth etmək, tabe olmaq, yerləyeksan etmək*) təxmini mənasını soruşur. Sonra onların dəqiq mənasını açıqlayır: ***daşı daş üstə qoymamaq*** – dağıtmaq; ***mühasirəyə almaq*** – hər tərəfdən əhatə olunmaq; ***fəth etmək*** – tutmaq, silah gücü ilə almaq; ***yerləyeksan etmək*** – dağıtmaq. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

**Müəllimin nəzərinə!** Müəllim motivasiya üçün verdiyi sualı bir daha təkrar edir:
– Ağıllı insanlar hansı xüsusiyyətləri ilə fərqlənirlər?

"İsgəndər" mətnini oxuduqdan sonra şagirdlər bu sual ətrafında bir daha düşünür, cavablandırır, dərsin əvvəlində verdikləri cavabla müqayisə edirlər. **Müəllim bütün fikirləri təxminən aşağıdakı kimi ümumiləşdirə bilər:**

*Səbirli olmaq, hadisələri, problemləri ətraflı analiz etmək, düşünülmüş addım atmaq, vəziyyətdən çıxış yolu tapmaq, hazırcavablılıq ağıllı insanları fərqləndirən xüsusiyyətlərdir.*

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Bu tapşırıq şagirdlərin "İsgəndər" mətnini diqqətlə oxuduqlarını yoxlayır, eyni zamanda onların analitik bacarıqlarını möhkəmləndirir. Əsas məqsəd şagirdlərin diqqətini alimin xarakterinə, onun hazırcavablılığına yönəltməkdir.

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyurlar. Mətndə göy rənglə fərqləndirilmiş cümlələrlə uyğunlaşdıraraq obrazın xarakterini səciyyələndirirlər.

**Doğru cavablar:**

*1. İsgəndər çox inadkar və tərs idi. – Müəllim and içirəm ki, bu dəfə sənin xahişinə əməl etməyəcəyəm.*

*2. İsgəndərin müəllimi hazırcavab insan idi. – Alim İsgəndərə yaxınlaşıb yüksək səslə deyir:*

*– İsgəndər, səndən xahiş edirəm, bu şəhəri tut və yerləyeksan et.*

*3. İsgəndər verdiyi sözə həmişə əməl edərdi. – Böyük sərkərdənin bir xasiyyəti də varmış: əgər and içib söz verdisə, bu sözünün üstündə mütləq durarmış.*

### Dinləmə

**Müəllimin nəzərinə!** Müəllim "Şair və yolçu" mətnini səsləndirir. Müəllim əvvəlcədən şagirdlərə mətni diqqətlə dinləməyi tapşıraraq oxuduqları mətn ilə müqayisə edəcəklərini söyləyir.

**"Şair və yolçu" dinləmə mətni**

*Qədim zamanlarda bir şair yaşayırmış. O öz dürüstlüyü ilə hamının hörmətini qazanıbmış. Şəhərbəşəhər gəzər, şeirləri ilə hamını öyrədərmiş ki, yalan danışmasınlar, xəbərçilik etməsinlər, qanun-qaydaya hörmətlə yanaşsınlar.*

*Bir gün şair yol kənarında bir daş üstündə oturub dincini alırmış. Bu zaman göy pencəkli, qara papaqlı bir adam onun yanından keçir. Şairi tanıyıb ayaq saxlayır, deyir:*

*– Şair, mən şahın qəzəbinə gəlmişəm. Şahın adamları məni axtarırlar. Sən Allah, hara getdiyimi soruşsalar, onlara heç nə demə.*

*Yolçu bu sözləri deyib yoluna davam edir.*

*Şairi fikir götürür. Necə etsin ki, qanunu pozmasın, yalan danışmasın, eyni zamanda xəbərçilik də etməsin. Axırda ağlına bir fikir gəlir. Oturduğu daşın üstündən qalxıb başqa bir daşın üstündə oturur.*

*Bir azdan şahın adamları gəlib həmin yerə çıxırlar. Şairi görüb soruşurlar:*

*– Ey şair! Buradan göy pencəkli, qara şalvarlı bir adam keçməyib?*

*Şair cavab verir:*

*– Mən bu daşın üstündə oturandan bəri elə bir adam görməmişəm.*

1.1.2 **Tapşırıq Ç (dərslik).** Müəllim müqayisə üçün aşağıdakı suallardan da istifadə edə bilər:

1. Şairin hansı xüsusiyyəti onu yalan danışmaqdan, xəbərçilik etməkdən xilas etdi?
2. Sizcə, şairin və İsgəndərin müəlliminin xarakterləri arasında oxşarlıq varmı? Niyə belə düşünürsünüz? Fikrinizi əsaslandırın.

**Ümumiləşdirmə təxminən belə ola bilər:**

*Hazırcavablılıq şairin və İsgəndərin müəlliminin oxşar xüsusiyyətidir. Onların ikisi də hazırcavablılığı ilə çətin vəziyyətdən çıxış yolu tapır.*

LAYİHƏ

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq şagirdlərin oxuduğu "İsgəndər" və dinlədiyi "Alim və yolçu" mətnlərindəki faktların müqayisəsinə yönəldilib.

**Doğru cavablar:** *Tapşırıqda verilmiş 1-ci, 3-cü, 6-cı məlumatlar "İsgəndər", 2-ci, 4-cü, 5-ci məlumatlar isə "Alim və yolçu" mətninə aiddir.*

### Danışma

1.2.2 **Tapşırıq D (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sualı müzakirə edərkən III fəsildə oxuduqları mətnlərdən arqumentlər gətirməklə fikirlərini əsaslandıracaq, eyni zamanda bu fəsildə öyrəndiklərini ümumiləşdirəcəklər.

### Söz ehtiyatı

2.1.4 **Tapşırıq B (dərslik).** Tapşırıqda "İsgəndər" mətnində istifadə olunan bəzi frazeoloji birləşmələr verilib. Tapşırıq şagirdlərin "Söz boğçası" rubrikasında verilmiş bu ifadələrin mənalarını nə qədər mənimsədiklərini yoxlamağa imkan verir.

**Doğru cavablar:** 1 – c, 2 – ç, 3 – b, 4 – a.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | Tapşırıq A (dərslik) |
| Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir. | Tapşırıq B (dərslik) |
| Mətndən faktlar gətirməklə fikrini əsaslandırır. | Tapşırıq C (dərslik) |
| Dinlədiyi mətndəki məlumatları əvvəl bildikləri ilə müqayisə edir. | Tapşırıq Ç (dərslik), Tapşırıq A (iş dəftəri) |
| Oxuduğu və dinlədiyi mətnlə bağlı emosional düşüncələrini ifadə edir (bəyəndim, bəyənmədim, yazığım gəldi, təəccübləndim) və əsaslandırır. | Tapşırıq D (dərslik) |
| Frazeoloji ifadələrlə onların izahını uyğunlaşdırır. | Tapşırıq B (iş dəftəri) |

## 5-ci dərs. Ümumiləşdirici təkrar

• Dərslik: səh. 32 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri**

• Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur (st. 2.2.1).
• Başlıq, altbaşlıq, yarımbaşlıq, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunun təqdim edilməsində rolunu müəyyənləşdirir (st. 2.2.3).
• Obrazı və onun davranışlarını qiymətləndirməklə (xeyirxahdır, qəddardır, yaxşı davrandı/pis davrandı və s.) mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür (st. 2.2.4).
• Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir (st. 4.1.6).
• Təqdimat üçün seçdiyi vizual materialları yazılı şərhləri ilə müşayiət edir (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölməyə aid fəsil adlarının xatırlanması |
| 2 | **Oxu** | "Nağıl olmaq istəyirəm" şeirinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Nağıllara məxsus ifadələrin seçilməsi; nağıl obrazlarının iştirak etdikləri nağılların adlarının müəyyənləşdirilməsi; obrazların səciyyələndirilməsi |
| 4 | **Dil qaydaları** | Cümlənin genişləndirilməsi |
| 5 | **Yazı** | V bölmə haqqında rəy yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər üçüncü bölmənin səhifələrini vərəqləyərək fəsillərin adlarını xatırlayırlar. Onlar bölmə üzrə öyrəndikləri mövzular haqqında öz təəssüratlarını bölüşürlər.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şeirin oxunmasından əvvəl şagirdlərə oxu zamanı şeirdə rast gəldikləri nağıl qəhrəmanlarının adını qeyd etməyi tapşırır. Şagirdlər dəftərlərində qeyd etdikləri obrazların adlarından növbəti tapşırıqları yerinə yetirərkən istifadə edəcəklər.

**Müəllimin nəzərinə!** Tapşırıqda təqdim olunmuş şeiri ilk dəfə müəllimin oxuması tövsiyə edilir.

LAYİHƏ

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər nağıllarda tez-tez işlədilən ifadələri şeirdə tapmaqla nağılın struktur elementlərini tanıdıqlarını nümayiş etdirirlər. Nağıllara məxsus belə ifadələr haqqında həm bu bölmədə, həm də I sinif Azərbaycan dili dərsliyində də məlumat verilib.

**Doğru cavablar:** *"Az gedərəm, üz gedərəm, dərə-təpə, düz gedərəm", "Dərələrdən sel kimi, təpələrdən yel kimi", "Göydən düşən almalar".*

**Tapşırıq C (dərslik).** Müəllim şagirdlərin diqqətini "Nağıl olmaq istəyirəm" şeirinə çəkilmiş illüstrasiyalara cəlb edir. Şagirdlər şeiri oxuyarkən qeyd etdikləri obrazların adlarını səsləndirir və hansı nağılda iştirak etdiklərini müəyyənləşdirirlər. Beləliklə, bu bölmədə oxuduqları nağılları bir daha xatırlayırlar.

**Doğru cavablar:** *Məlikməmməd, div obrazları "Məlikməmməd" nağılında, Küpəgirən qarı obrazı "Uçan xalça" nağılında iştirak edirlər.*

**Müəllim aşağıdakı sual vasitəsilə şagirdlərin diqqətini yoxlayır:**

– İllüstrasiyalara diqqətlə baxın. "Nağıllar aləmində" bölməsində hansı nağılları oxumamısınız?

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər "Nağıl olmaq istəyirəm" şeirindəki obrazların adlarını mənfi və müsbət başlıqları altında qruplaşdırmaqla mənfi və müsbət obrazlar haqqında verilmiş məlumatları nə dərəcədə mənimsədiklərini nümayiş etdirirlər. Şagirdlər nağıllardan arqumentlər gətirməklə seçimlərini izah edir, fikirlərini əsaslandırırlar.

**Doğru cavablar:**

**Müsbət obraz:** *Məlikməmməd – Məlikməmməd atasının bağından sehrli almaları oğurlayan divi məğlub etdi; Divin illərdir tutub saxladığı gözəl qızı onun əlindən xilas etdi; Zümrüd quşunun balalarını əjdahanın əlindən xilas etdi.*

**Mənfi obraz:** *Div – sehrli almaları padşahın bağından oğurlayırdı; Gözəl qızı dərin bir quyuda əsir saxlayırdı.*

*Küpəgirən qarı – hiyləgərlik edib Əhmədin nənəsini aldatdı, Uçan xalçanı və sehrli üzüyü Əhmədin evindən oğurladı.*

### Dil qaydaları

4.1.6 **Tapşırıq D (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin fikirlərini daha geniş və əhatəli ifadə etmək üçün cümləni genişləndirmək bacarığı inkişaf etdirilir. Şagirdlər cümlələrə qoyulmuş suallara cavab vermək üçün qrammatik və semantik baxımdan daha çox uyğun sözlərdən istifadə etməklə cümlələri genişləndirirlər.

**Doğru cavab:**

*a) Balaları **zalımlardan** qoruyaram.*
*b) Almalardan **pay** alaram.*
*c) Təpələrdən **yel kimi** keçərəm.*

### Yazı

3.1.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər bu tapşırıqda V bölmə haqqında rəy yazacaqlar. Bununla da bu bölmə haqqında fikirlərini, münasibətlərini bildirəcəklər. Tapşırıq vasitəsilə şagirdlər rəy haqqında aldıqları bilikləri təcrübədə tətbiq edirlər. Eyni zamanda bölmə üzrə ümumiləşdirmə aparırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur. | Tapşırıq A (dərslik) |
| Başlıq, altbaşlıq, yarımbaşlıq, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunun təqdim edilməsində rolunu müəyyənləşdirir. | Tapşırıq B, C (dərslik) |
| Obrazı və onun davranışlarını qiymətləndirməklə (xeyirxahdır, qəddardır, yaxşı davrandı/pis davrandı və s.) mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür. | Tapşırıq Ç (dərslik) |
| Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir. | Tapşırıq D (dərslik) |
| Təqdimat üçün seçdiyi vizual materialları yazılı şərhləri ilə müşayiət edir. | Tapşırıq A (iş dəftəri) |

LAYİHƏ

# bölmə 6 VƏTƏNİM AZƏRBAYCAN

| Mövzu | | VƏTƏNİM AZƏRBAYCAN |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Tanış mövzular üzrə müzakirə<br>• Mövzu üzrə aparılan araşdırmanın şifahi təqdimatı<br>• Mətni obrazların dilindən nəqletmə |
| | Söz ehtiyatı | muğam, tar, kamança, qaval, yovşan, müdrik, ədalətsiz, elçi, cıdır, jokey, mötəbər, yalman, mehtər, baytar, ram etmək, köhlən, xiffətini çəkmək və s. |
| | Oxu | • Kiçikhəcmli mətnlərin oxunması<br>• Mətnin mövzu, məzmun və ideyasının müəyyən olunması<br>• Mətn üzrə yarımbaşlıqların tərtibi |
| | Yazı | • Deyilişi və yazılışı fərqlənən sözlərin (şokolad, konfet) yazılış qaydalarının (o, yoxsa a) mənimsədilməsi<br>• Şəkil və ya plan əsasında mətnin qısa məzmununun yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Dırnaq işarəsi<br>• Nitq etiketləri |
| | Filoloji anlayışlar | • Mövzu, məzmun, ideya, atalar sözü, yarımbaşlıq, dırnaq işarəsi |
| Kompetensiyalar | | • Vətənini tanımaq, vətənə sevgi, insanlara mərhəmət, milli dəyərlərə hörmət, qədim abidələrə, qədim əşyalara dəyər verilməsi və s. |

Bu bölmədə Azərbaycanla bağlı müxtəlif mövzulardan (Azərbaycanın milli dəyərləri, işğal olunmuş torpaqları, qəhrəmanları və s.) bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Bölmədə müharibə və sülh mövzusu şagirdlərin yaş səviyyəsinə uyğun olaraq bəşəri bir problem kimi nəzərdən keçirilmişdir. Müharibədən əziyyət çəkmiş insanların vəziyyəti, onlara mənəvi və maddi dəstəyin göstərilməsi, vətənpərvərlik, humanistlik, qayğıkeşlik və başqa mənəvi keyfiyyətlərin aşılanması, xalqın milli dəyərlərinə hörmət edilməsi və s. məsələlər bölmənin aparıcı xəttini təşkil edir. Əsas məqsəd isə bu və ya digər mövzulardan istifadə etməklə şagirdlərin dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• mətndəki obrazların xarakterini təhlil edir, onlara münasibət bildirir;

• mövzu ilə bağlı şifahi təqdimat hazırlayır;

• mətni məzmuna müvafiq səs tonu ilə oxuyur;

• mətnə diqqətlə qulaq asır, mətn oxunduqca kitabdan izləyir;

• fikirlərini sərbəst şəkildə yazır;

• cümlənin növlərini fərqləndirir;

• ad, əlamət və hərəkət bildirən sözləri fərqləndirir.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

• Mətnin məzmununun yazılması;

• Mətn üzrə yarımbaşlıqların tərtibi.

**Diferensial təlim**

Bu bölmənin tədrisi zamanı mövzuların mənimsədilməsində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma faydalı ola bilər. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

milli (muğam, saz havası) və xarici (rok, caz və s.) mahnı nümunələri, "Əsgər marşı", İçərişəhərə aid şəkil və ya videoçarx, Novruz atributları və s.

LAYİHƏ

fəsil 1 VƏTƏN SEVGİSİ

## 1-ci dərs. “Doğma yurdun yovşanı” (I hissə)

• Dərslik: səh. 33-34 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri**
• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Əsərdəki obrazın xarakterik cəhətini müvafiq əlamət bildirən sözlə adlandırır (st. 2.1.1).
• Nəqli cümlələrə sual verməklə sual cümləsi qurur (st. 4.1.7).
• Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Söz assosiasiyası |
| 2 | **Danışma** | Bölmə titulundakı şəkil və suallar üzrə iş |
| 3 | **Oxu** | “Doğma yurdun yovşanı” (I hissə) mətninin oxusu |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Dil qaydaları** | Sual cümlələrinin qurulması |
| 6 | **Yazı** | Obrazların adından məktubun yazılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Söz assosiasiyası.** Müəllim “Azərbaycan” sözünü lövhədə yazır. Şagirdlərə deyir: “Azərbaycan”la bağlı bildiyiniz məlumatları söyləyin.

Bununla bölmənin mövzusu üzrə əvvəlki biliklər xatırladılır və şagirdlərin mövzu ilə bağlı ilkin bilik səviyyəsi müəyyən edilir.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər 1-ci sualı cavablandırmaqla Qız qalası, İçərişəhər haqqında bildiklərini danışırlar. Əgər bu yerləri görən şagirdlər varsa, müəllim onların həmin yerlər haqqında təəssüratlarını bölüşmələrinə vaxt ayırmalıdır. Yaxşı olardı ki, İçərişəhərdən bəhs edən videoçarx nümayiş olunsun.

**Musiqi ilə inteqrasiya.** Müəllim şagirdlərə bir tanınmış xanəndənin muğam ifasını dinlədə bilər. (Tacir Şahmalıoğlunun uşaq vaxtı oxuduğu bayatı-şirazın səsləndirilməsi tövsiyə olunur.)

Sonra tapşırıqdakı 2-ci sual cavablandırılır. Bu sualla şagirdlərin söz ehtiyatı yoxlanılır. Milli musiqi alətlərinin adları (tar, qaval, kamança) söz boğçasına əlavə olunur.

Tapşırıqdakı 3-cü sual cavablandırılır. Müəllim Şəhidlər xiyabanı haqqında şagirdlərin ilkin biliklərini yoxladıqdan sonra dinləmə mətnini səsləndirə bilər:

*1990-cı ilin yanvar ayının 20-də gecə ikən rus ordusu Bakıya daxil oldu. Şəhərin küçə və meydanlarında tanklardan və avtomatlardan dayanmadan atəş açdılar. Torpağımızı müdafiə etmək istəyən silahsız insanlar rus ordusunun qarşısına çıxdı. Həmin gecə şəhid olanlar şəhərin ən hündür yerində – Dağüstü parkda dəfn olundu. O gündən sonra həmin yer Şəhidlər xiyabanı adlanır. İndi bura Azərbaycan xalqının ziyarətgahına çevrilib. Xalq öz qəhrəmanlarını heç vaxt unutmur.*

Müəllim soruşur: *“Şəhidlər xiyabanı” haqda nə sualınız var?*

Bununla şagirdlərdə hər hansı məqamı aydınlaşdırmaq məqsədilə sual vermək bacarığı formalaşdırılır.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik). Növbəli oxu.** Müəllim şagirdlərə əvvəlcədən tapşırır ki, mətndə rast gəldikləri yeni sözləri qeyd etsinlər. Şagirdlər mətni növbə ilə, bir-birini izləyərək oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin mətni diqqətlə oxuduğunu və ya yoldaşını izlədiyini yoxlamaq və mövzu ətrafında düşündürmək üçün suallar verir.

Suallar: *Nə üçün həkimə “loğman” deyirdilər? Həkim nə üçün vətənini tərk etdi? Ölkənin əvvəlki hökmdarı necə adam idi? Ölkənin yeni hökmdarı loğmanla bağlı hansı qərara gəldi? Sizcə, nə üçün yeni hökmdar loğmanı vətəninə qaytarmaq istəyirdi? O, loğmanın yanına kimləri göndərdi? Hökmdar loğmana nə göndərdi? Loğman onun istəyinə nə cavab verdi?* və s.

### Söz ehtiyatı

**“Söz boğçası” rubrikası.** Müəllim şagirdlərin oxu zamanı qeyd etdikləri tanış olmayan sözlərin *(müdrik, zülm, ədalətsiz, loğman, elçi, rədd, yovşan)* mənasını əvvəlcə şagirdlərdən soruşur, sonra sözlərin dəqiq izahını verir. “Yovşan” sözünün

LAYİHƏ

mənası mətnin ikinci hissəsində aydın olur. Ona görə də müəllim bu dərsdə şagirdlərə "yovşan"ın mənasını lüğətdən tapmağı tapşıra bilər. Bu da şagirdlərin lüğətlə işləmək bacarıqlarını möhkəmləndirir.

**Müəllimin nəzərinə!** Növbəti dərsə hazırlıq məqsədilə şagirdlərin diqqətini dərsliyin 35-ci səhifəsindəki B tapşırığına yönəltmək və şagirdlərə yovşan bitkisi (ətri, görünüşü, növləri, faydası və s.) haqqında araşdırma aparmağı tapşırır.

**Diferensial təlim**

Yovşan bitkisinin ən geniş yayılmış növlərindən biri tərxundur. Müəllim araşdırma aparmaqda çətinlik çəkən şagirdlərə valideynlərindən tərxun bitkisi haqqında məlumat öyrənməyi və ya tərxun bitkisini əldə etməyi tapşıra bilər.

2.1.1 **Tapşırıq A (iş dəftəri). Dil qaydaları ilə inteqrasiya.** Şagirdlər 2-ci cümlənin məzmununa diqqət etməklə 1-ci cümlədəki buraxılmış sözü ("zalım" və ya "zülmkar") tapırlar. Şagirdlər əlavə etdikləri sözün əlamət bildirdiyini müəyyən etməklə dil qaydaları üzrə biliklərini də möhkəmləndirmiş olurlar.

## Dil qaydaları

4.1.7 **Tapşırıq B (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərin sual tərtib etmək bacarığını möhkəmləndirməkdir. Şagirdlər hər bir cümlədəki fikrə uyğun müxtəlif sual cümlələri qura bilərlər; məsələn, 2-ci cümləyə müxtəlif suallar qoymaq olar: *Loğman nə üçün vətəni tərk etdi? Kim hökmdardan incidi? Loğman incidiyinə görə nə etdi?*

## Yazı

3.1.4 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Sinifdəki şagirdlərin sayından asılı olaraq müəllim şagirdləri bir neçə qrupa ayırır. Qrupların yarısına hökmdarın dilindən loğmana, digər yarısına isə loğmanın dilindən hökmdara cavab məktubu yazmağı tapşırır. Sonra tapşırıqda verilmiş məsləhətlər oxunur. Müəllim məktubun tərkib hissələri ilə bağlı xatırlatma edir, qruplara məktubun məzmunu ilə bağlı əlavə tövsiyələr verir. Müəllim şagirdlərə hökmdarın loğmana və loğmanın hökmdara yazdığı məktubların rəsmi xarakter daşıdığını nəzərə almağı və məktubları yazarkən bu məqama diqqət etmələrini tapşırır. Həmçinin qruplara hazır qiymətləndirmə meyarları verir və tapşırır ki, məktublarınızı bu meyarlara uyğun yazın. Çünki sonda bir-birinizin məktubunu qiymətləndirəcəksiniz.

Qruplar işlərini bitirdikdən sonra məktublarını növbə ilə təqdim edirlər. Hər təqdimatdan sonra qruplar meyarlar əsasında təqdimat edən qrupun məktubunu qiymətləndirirlər. Sonda daha inandırıcı, uğurlu məktub seçilir.

Müəllim qrupların fəaliyyətini belə də qura bilər:

Bütün qruplar əvvəlcə eyni vaxtda hökmdarın dilindən məktub yazırlar. Qruplar məktublarını bir-biri ilə dəyişib oxuyurlar, müəllimin hazırladığı meyarlar əsasında qiymətləndirirlər. Sonra loğmanın hökmdara cavab məktubu yazılır. Yenə eyni qayda ilə qruplar bir-birinin məktubunu oxuyub qiymətləndirmə aparırlar. Müəllim qiymətləndirmə vərəqlərini yoxlayıb uğurlu və inandırıcı məktubu seçir.

Məktubların qiymətləndirmə meyarları:

**Hökmdarın dilindən yazılan məktub:**

*1. Məktubda salamlaşma varmı?*
*2. Hökmdar özünü təqdim edibmi?*
*3. Hökmdar məktubu yazma səbəbini göstəribmi?*
*4. Loğmanla sağollaşıbmı?*
*5. Məktubun sonunda ad, ünvan, tarix yazılıbmı?*
*6. Məktub inandırıcıdırmı?*
*7. Məktub təsirli yazılıbmı? Yəni Loğman bu məktubu oxusa, vətəninə qayıdarmı?*

**Loğmanın hökmdara cavab məktubu:**

*1. Loğman hökmdarı salamlayıbmı?*
*2. Loğman onu hökmdar seçildiyinə görə təbrik edibmi?*
*3. Hökmdara dəvətinə görə təşəkkür edibmi?*
*4. Loğman vətəni ilə bağlı hökmdara ümid və arzularını bildiribmi?*
*5. Rədd cavabına görə üzrxahlıq edibmi?*
*6. Hökmdarla sağollaşıbmı?*
*7. Loğman məktubu yazarkən hökmdara hörmətlə yanaşıbmı? Yəni hökmdar məktubu oxusa, qəzəblənərmi?*

**Məktub nümunələri:**

**Hökmdarın adından:**

*Salam, həkim!*

*Necəsiniz? İşləriniz necə gedir? Mən ölkənin yeni hökmdarıyam. İstəyirəm ki, ölkəmdə sizin kimi gərəkli alimlər, həkimlər çox olsun. Sizin haqqınızda çox eşitmişəm. Bilirəm ki, bu ölkədən*

LAYİHƏ

*inciyib getmisiniz. Ancaq indi vəziyyət başqadır. Ölkədə qanun-qayda yaratmağa çalışıram. Mən hökmdar olduğum dövrdə heç kəs əziyyət çəkməyəcək. Siz bizim ölkəmizə çox lazımsınız. Mən söz verirəm ki, insanlara kömək etmək üçün sizə hər cür imkan yaradacağam.*

*Hörmətlə, sizin yeni hökmdarınız.*

**Loğmanın adından:**

*Salam, hörmətli hökmdar!*

*Hökmdar seçilməyinizə görə sizi təbrik edirəm. Sizə uğurlar arzulayıram. İnanıram ki, ölkəmiz getdikcə inkişaf edəcək. İnsanlar daha rahat, xoşbəxt yaşayacaqlar. Ancaq mən qayıda bilmərəm. Buradakı insanların da mənə ehtiyacı var. Ölkədə mənim kimi həkimlər çoxdur, onları axtarıb-tapın.*

*Hörmətlə, loğman.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tapşırıq A (dərslik) |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq B (dərslik) |
| Əsərdəki obrazın xarakterik cəhətini müvafiq əlamət bildirən sözlə adlandırır. | Tapşırıq A (iş dəftəri) |
| Nəqli cümlələrə sual verməklə sual cümləsi qurur. | Tapşırıq B (iş dəftəri) |
| Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir. | Tapşırıq C (dərslik) |

**Növbəti dərsə hazırlıq:** Növbəti dərsdə yovşan bitkisinin (və ya tərxunun) nümayiş etdirilməsi tövsiyə olunur.

## 2-ci dərs. "Doğma yurdun yovşanı" (II hissə)

• Dərslik: səh. 35-36 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**

- Öz biliklərinə əsaslanaraq problemin həlli ilə bağlı fikir yürüdür (st. 1.2.2).
- Mövzu ilə bağlı araşdırma apararaq sadə formalı təqdimatlar edir (st. 1.2.1).
- Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
- Mətnin kompozisiyasında problemin yaranması və həlli məqamlarını müəyyən edir (st. 2.2.3).
- Sözün kontekstə görə mənasını yaxınmənalı sözün köməyi ilə izah edir (st. 2.1.3).
- Əsərdəki obrazın xarakterik cəhətini müvafiq əlamət bildirən sözlə adlandırır (st. 2.1.1).
- Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir (st. 2.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin 1-ci hissəsinin xatırlanması |
| 2 | **Danışma** | Mətndəki problemin həlli üçün fikirlərin irəli sürülməsi; Yovşan bitkisi haqqında təqdimatın dinlənilməsi |
| 3 | **Oxu** | "Doğma yurdun yovşanı" (II hissə) mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətnin mövzu və ideyası üzrə iş |
| 5 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim mətnin əvvəlini xatırladır:

– *Yeni hökmdar loğmanı ölkəyə qaytarmaq üçün nələr etdi?*

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Tapşırıq şagirdlərdə problemlərin həlli yollarını tapmaq bacarıqlarını inkişaf etdirir. Müəllim şagirdləri düşündürüb təkliflərini dinləyir.

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlərin yovşan bitkisi haqqında hazırladıqları təqdimatlar dinlənilir. Yovşanın Azərbaycanda geniş yayılmış ətirli bitki olması, onun bir çox növlərinin qədim

LAYİHƏ

zamanlardan dərman bitkisi kimi istifadə edilməsi, yovşanın bir növü olan tərxunun Azərbaycan mətbəxində geniş istifadə edilməsi kimi məlumatlar şagirdlərin mətni daha dərindən qavramalarına kömək edir.

1.2.1 **Tapşırıq C (dərslik).** Tapşırığın məqsədi "vətən həsrəti" mövzusunu şagirdlərin yaş səviyyəsinə uyğunlaşdırmaqdır. Şagirdlər özlərinə doğma olan məkan, insanlar, əşyalar haqqında düşünürlər. Bu tapşırıq loğmanın düşdüyü vəziyyəti anlamağa kömək edəcək.

### Oxu

**Tapşırıq Ç (dərslik). Növbə ilə oxu.** Şagirdlər A tapşırığını yerinə yetirən zaman problemin müxtəlif həll yollarını düşünmüşdülər. Müəllim indi şagirdlərin diqqətini mətnə çəkilmiş illüstrasiyaya yönəldir və soruşur:

*– Şəkildə kimlər təsvir olunmuşdu? Sizcə, bu bitki nə üçün loğmanın vətənə qayıtmasına səbəb oldu?*

Bu sual mətnin davamının təxmin edilməsinə və mətnin ikinci hissəsinin oxunmasına maraq yaradır.

Sonra mətnin oxusuna başlanır. Oxu zamanı şagirdlərə tanış olmayan sözlər izah olunur.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndəki problem və problemin həlli yollarını analiz edərək oxu zamanı mətndəki əsas hadisələri qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq D (dərslik). Rollu oyun.** Şagirdlər rollu oyuna başlamazdan öncə müəllim sual verir:

*– Məgər loğmanın yaşadığı ölkədə yovşan yox idi? Sizcə, niyə çobanın gətirdiyi yovşan loğmanın vətənə dönməsinə səbəb oldu?*

Şagirdlər təxminən belə cavab verməlidirlər:

*– Çobanın gətirdiyi yovşanın ətri loğmana keçmiş günlərini, dostlarını, yaxınlarını, doğma yurd-yuvasını xatırlatdı. Vətən sevgisi onu doğma yurduna qaytardı.*

Müəllimin yönəldici sualı ilə şagirdlər mətnin adı ilə məzmunu arasında olan bağlılığı da analiz edirlər. Bununla da şagirdlər "doğma yurd" anlayışını daha dərindən qavrayırlar. Bu, rollu oyun zamanı loğmanın keçirdiyi hissləri mimika və jestlərin köməyi ilə ifadə etmələrinə yardım edəcək. Şagirdlər mətndə təsvir edilməyən epizodu öz təxəyyüllərinə uyğun canlandırmaqla şifahi nitq bacarıqlarını, həmçinin məntiqi və yaradıcı təfəkkürlərini inkişaf etdirirlər. Şagirdlərin müəllimin yönəltməsi ilə rollu oyun zamanı nitq etiketlərindən (salamlaşma, təşəkkür, sağollaşma) istifadə etməsi məqsədəuyğundur.

2.2.4 **Tapşırıq E (dərslik).** Tapşırıqdakı suallara cavab verməklə şagirdlər "Doğma yurdun yovşanı" mətnini ümumiləşdirirlər. Bu tapşırıq oxuyub-qavrama bacarığının inkişaf etdirilməsi üçün vacib olan filoloji anlayışların "mövzu" və "ideya"nın mənimsədilməsi üçün motivasiya rolunu oynayır.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər müəllimin köməyi ilə rubrikadakı məlumatları oxuyub analiz edirlər.

**Tapşırıq Ə (dərslik). Qruplarla iş.** Qruplara 1-ci yarımildə keçdikləri mətnlərin mövzu və ideyasını müəyyənləşdirmək tapşırılır. Sonda şagirdlərin təqdimatları dinlənilir. Müəllim qrupların bir-birinin təqdimatını dinlədikdən sonra fikir bildirməsinə, lazım gələrsə, müvafiq düzəliş etməsinə diqqət yetirməlidir.

Qruplar mətnlərin mövzu və ideyasını təxminən belə yaza bilərlər:

<u>"Ağıllı daxıl" mətni:</u>
Mövzu: qənaət
İdeya: Hamı qənaət etməyi bacarmalıdır.

<u>"Qar kraliçası" mətni:</u>
Mövzu: dostluq
İdeya: Dost dosta sədaqətli olmalıdır.

<u>"Qanqalın nağılı" mətni:</u>
Mövzu: Qanqalın faydalı bitki olması
İdeya: Hər bitkinin öz gözəlliyi, faydası var.

<u>"Padşah və müəllim" mətni:</u>
Mövzu: Müəllimə hörmətlə yanaşan padşah
İdeya: Müəlliminə hörmət etmək hər kəsin borcudur və ya müəllimlik bütün peşələrdən üstündür.

### Söz ehtiyatı

2.1.3 **"Söz boğçası" rubrikası.** Rubrikadakı sözlərin mənaları yaxınmənalı sözlər vasitəsilə izah olunur. ***Məhəl qoymamaq*** *– saymamaq,* ***bəxşiş*** *– hədiyyə,* ***təmkinlə*** *– səbirlə,* ***ürəyi sızlamaq*** *– çox darıxmaq* və s.

**Tapşırıq B, C (iş dəftəri).** Tapşırıqlar şagirdlərin söz ehtiyatını zənginləşdirmək məqsədi daşıyır. B tapşırığındakı bəzi sözlər şagirdlərə tanış olmaya bilər. Bu zaman həmin sözlər müəllim tərəfindən izah olunur və "Söz boğçası"na əlavə

LAYİHƏ

olunur. <u>Loğmanın xarakterini göstərən sözlər:</u> *qürurlu, vətənpərvər, bilikli.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki problemin həlli ilə bağlı fikir yürüdür. | Tapşırıq A (dərslik) |
| Mətnin kompozisiyasında problemin yaranması və həlli məqamlarını müəyyən edir. | Tapşırıq A (iş dəftəri) |
| Əsərdəki obrazın xarakterik cəhətini müvafiq əlamət bildirən sözlə adlandırır. | Tapşırıq B (iş dəftəri) |
| Mövzu ilə bağlı araşdırma apararaq sadə formalı təqdimatlar edir. | Tapşırıq B (dərslik) |
| Mətnin mövzu və ideyasını müəyyənləşdirir. | Tapşırıq E, Ə (dərslik) |

## 3-cü dərs. "Bir parça torpaq"

• Dərslik: səh. 36-37 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**

• Səs tonunu mətnin məzmununa uyğun tənzimləyir (st. 2.2.1).
• Kontekstdən çıxış edərək frazeoloji ifadələrin mənasını izah edir (st. 2.1.4).
• Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir (st. 2.2.4).
• Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir (st. 2.2.2).
• Hərəkət bildirən sözlərin təsdiq və ya inkarda olduğunu müəyyən edir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual ətrafında müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Bir parça torpaq"mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin plan əsasında nəql olunması |
| 4 | **Dil qaydaları** | İnkarda işlənən hərəkət bildirən sözlər |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim sual verir:

– *"Torpaq ən qiymətli nemətdir" nə deməkdir? Nə üçün insanlar torpaq uğrunda müharibələr edirlər?*

Müəllim bu sualla şagirdləri torpağın əhəmiyyəti (canlıların məskəni, əkib-becərilməsi, yaşıllığın faydası, yeraltı sərvətlər, qiymətli metallar, neft və s.) barədə düşünməyə sövq edir. Bu isə şagirdlərin "Bir parça torpaq" mətninin ideyasını anlamasına kömək edəcək.

**Oxu. Söz ehtiyatı**

2.2.1 **Tapşırıq A (dərslik). Növbə ilə oxu.** Şagirdlər mətni növbə ilə oxuyurlar. Müəllim şagirdlərin oxu zamanı bir-birini izləməsini yoxlamaq üçün hər abzasın məzmununa uyğun suallar verir. Bu zaman suallar vasitəsilə şagirdlərin diqqətini baş qəhrəmanın qərarlarına yönəltmək tövsiyə edilir.

Oxu zamanı şagirdlərə tanış olmayan sözlərin mənasını müəllim əvvəlcə şagirdlərdən soruşur. Şagirdlər mətnin məzmunundan, obrazların düşdüyü situasiyalardan çıxış etməklə həmin sözlərin mənasını təxmin edirlər. Sonra müəllim sözlərin izahını verir. Yeni sözlər "Söz boğçası"na əlavə olunur.

2.1.4 **Tapşırıq B (dərslik).** Şagirdlər mətndə altından xətt çəkilmiş cümlədəki frazeoloji ifadələrin mənasını baş qəhrəmanın keçirdiyi hiss-həyəcanı təxmin etməklə izah edirlər.

**Oxuyub-qavrama**

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər mətnin məzmunu ilə bağlı doğru və yanlış fikirləri müəyyənləşdirməklə mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Doğru cavablar:** 1, 3, 5.

Şagirdlər baş qəhrəmanın problemi həll etmək üçün verdiyi qərarlara görə onun xarakterini təsvir edə bilərlər. Məsələn, *Böyük ata müdrik, səbirli və ədalətlidir.*

Bu zaman müəllim şagirdlərin fikirlərini əsaslandırmasına çalışmalıdır. Məsələn, Böyük ata ədalətli və dözümlüdür, çünki müharibənin qarşısını almaq üçün öz oğlunu da düşmənə verməyə razı olur.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərə "məzmun" anlayışını izah etmək üçün əvvəlcə sual verir:

– *Mətndə hansı hadisələr baş verir?*



LAYİHƏ

Sonra şagirdlərin fikirlərini ümumiləşdirir:

– *Söylədiyiniz hadisələr mətnin məzmununu təşkil edir.*

2.2.5 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırığın məqsədi şagirdlərə "məzmun" anlayışını mənimsətməkdir. Şagirdlər boşluqlarda uyğun söz və sətirlərdə cümlələr yazmaqla mətndəki əsas hadisələri təsvir edir, bununla da mətnin məzmununu ifadə etmiş olurlar.

**Tapşırıq Ç (dərslik).** Müəllimin yönəldici sualları ilə şagirdlər "Doğma yurdun yovşanı" və "Bir parça torpaq" mətnlərini mövzu, məzmun və ideya baxımından müqayisə edirlər. Müzakirə əsasında məlum olur ki, hər iki mətnin mövzusu (vətən) eynidir, ideyası çox yaxındır: *Vətən torpağı hər şeydən üstündür.* Məzmunu isə müxtəlifdir. Müəllim izah edir ki, mətnlərin mövzu və ideyası eyni ola bilər, ancaq hər mətnin məzmunu fərqli olur.

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin məntiqi təfəkkürünü, həmçinin redaktəetmə bacarıqlarını inkişaf etdirir. Şagirdlər mətndən verilmiş cümlələri oxuyarkən müəyyən edir ki, cümlənin məzmununa görə "edin", "yarın", "axıdın" sözləri, əslində, inkar formada işlənməlidir. Şagirdlər həmin uyğunsuzluğu aradan qaldıraraq cümlələri düzgün şəkildə yenidən yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Səs tonunu mətnin məzmununa uyğun tənzimləyir. | Tapşırıq A (dərslik) |
| Kontekstdən çıxış edərək frazeoloji ifadələrin mənasını izah edir. | Tapşırıq B (dərslik) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tapşırıq C (dərslik) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tapşırıq A (iş dəftəri) |
| Oxuduğu mətnləri mövzu, məzmun və ideyasına görə müqayisə edir. | Tapşırıq Ç (dərslik) |
| Hərəkət bildirən sözlərin təsdiq və ya inkarda olduğunu müəyyən edir. | Tapşırıq B (iş dəftəri) |

## 4-cü dərs. Atalar sözləri

• Dərslik: səh. 38 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri**
- Tanış atalar sözlərindən mətndəki əsas fikrə uyğun olanını seçir (st. 2.2.4).
- Atalar sözlərini mövzulara görə qruplaşdırır (st. 2.1.4).
- Həyatda gördüklərindən verilmiş atalar sözünə uyğun nümunə gətirir (st. 1.2.2).
- Kontekstə uyğun olaraq sözün əksmənalı qarşılığını seçir (st. 2.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | "Bir parça torpaq" mətninin xatırlanması |
| 2 | Oxuyub-qavrama | "Bir parça torpaq" mətninin ideyasının atalar sözü ilə ifadəsi |
| 3 | Danışma | Verilmiş atalar sözlərinə uyğun mətnlərin qurulması |
| 4 | Söz ehtiyatı | Atalar sözləri üzrə iş |
| 5 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

"Bir parça torpaq" mətni xatırlanır. Müəllim suallar verir:

– *Böyük ata necə insan idi? Sizcə, ona nə üçün Böyük ata deyirdilər? O öz igidlərinə hansı məsləhətləri verirdi?*

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (dərslik).** Şagirdlər "Bir parça torpaq" mətninin ideyasını uyğun cümlə seçməklə müəyyənləşdirirlər. Müəllim tapşırıqda verilən qısa, lakin dolğun fikirli cümlələrin atalar sözləri adlandığını söyləyir və hər bir atalar sözünü həyatdan nümunələr gətirməklə izah edir.

**"Bunları bilməliyik" rubrikası.** Rubrikada verilən məlumatlar oxunur və müəllim atalar sözləri ilə bağlı ətraflı izah verir:

*Hər bir xalqın özünəməxsus atalar sözləri olur. Azərbaycan xalqına məxsus xeyli sayda atalar sözləri var. Bu sözlər yığcam, bitkin, müdrik fikir ifadə edir. Atalar sözlərinin müəllifi bilinmir. Ata-babalar həyatda baş verən hadisələrlə bağlı müdrik fikirlər söyləyirlər. Həmin fikirlər ağızdan-ağıza düşür. Hamı öz nitqində yeri gəldikcə bu fikirlərdən istifadə edir. Beləliklə, atalar sözləri ana dilimizlə birlikdə nəsildən-nəslə ötürülür.*

LAYİHƏ

*Atalar sözləri fikirlərimizin daha təsirli, dolğun ifadə edilməsinə kömək edir. Hər kəs öz ana dilinin atalar sözlərini bilməli, ondan öz nitqində istifadə etməlidir.*

**Tapşırıq B (dərslik). Cütlərlə iş.** Cütlər tapşırıqda verilmiş situasiyaları oxuyaraq uyğun atalar sözlərini müəyyənləşdirirlər. Düzgün cavabları yazılı şəkildə təqdim edirlər.

**Düzgün cavablar:** 1 – A; 2 – C; 3 – B.

**Tapşırıq C (dərslik).** Şagirdlər oxuduqları mətnləri xatırlayaraq onların ideyasını müəyyənləşdirib uyğun atalar sözləri ilə ifadə edirlər.

Turpun nağılı – *Güc birlikdədir.*

Əkinçi və Canavar – *İşləməyən dişləməz.*

Uçan xalça – *Yaxşılıq itməz.*

Müəllim əlavə şərh verir:

– Mətnlərin ideyasını daha aydın ifadə etmək üçün çox vaxt atalar sözləri köməyimizə çatır.

### Danışma

1.2.2 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Şagirdlər qruplara ayrılırlar. Müəllim qruplara verilmiş atalar sözlərində ifadə olunmuş fikirləri aydınlaşdırmağa kömək edir.

**1. Özgəsinə quyu qazan özü düşər.** Heç kim başqasına pislik etməməlidir. Kiməsə pislik etsən, mütləq cəzanı çəkərsən.

**2. Könlü balıq istəyənin quyruğu suda gərək.** Nəticə əldə etmək üçün zəhmət çəkmək lazımdır.

**3. Dost çətin gündə tanınar.** Yaxşı dost dostu çətin vəziyyətə düşəndə ona kömək etməlidir.

**4. Yalançının evi yandı, heç kəs inanmadı.** Bu atalar sözünün yaranması "Yalançı çoban" hekayəsinə bağlıdır. Şagirdlər əvvəlki bölmədə bu mətnlə tanış olmuşlar. Qrup iştirakçılarına mətn qurarkən "ev yanma" deyil, başqa bir situasiya düşünmək tapşırılır.

Qruplar atalar sözünə uyğun situasiyalar düşünüb mətn qururlar. Sonda təqdimatlar dinlənilir.

### Söz ehtiyatı

2.1.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş atalar sözlərini mövzular üzrə qruplaşdırırlar. Həmçinin kitabın struktur elementləri (mündəricat, başlıqlar və s.) üzrə biliklərini möhkəmləndirirlər.

2.1.3 **Tapşırıq B (iş dəftəri). Dil qaydaları ilə inteqrasiya.** Şagirdlər natamam verilmiş atalar sözlərini tamamlamaqla atalar sözləri üzrə söz ehtiyatlarını zənginləşdirirlər.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərin söz ehtiyatını artırmaq məqsədilə onlara tapşırmalıdır ki, atalar sözləri üzrə dəftər ayırıb rast gəldikləri atalar sözlərini həmin dəftərə yazıb öyrənsinlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış atalar sözlərindən mətndəki əsas fikrə uyğun olanını seçir. | Tapşırıq A, B, C (dərslik) |
| Verilmiş atalar sözlərinə uyğun mətn qurub danışır. | Tapşırıq Ç (dərslik) |
| Atalar sözlərini mövzulara görə qruplaşdırır. | Tapşırıq A (iş dəftəri) |
| Kontekstə uyğun olaraq sözün əksmənalı qarşılığını seçir. | Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** 1. Şagirdlərə ata, əmi, dayı və b. qohumlarından birinin əsgərlik şəklini gətirmək və ya onların əsgərlik xatirələrini öyrənmək tapşırılır. 2. Növbəti dərsdə "Əsgər marşı"nın səsləndirilməsi tövsiyə olunur.

## 5-ci dərs. "Vətənin keşiyində"

• Dərslik: səh. 39 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri**

• Həyatda gördüklərindən verilmiş atalar sözünə uyğun nümunə gətirir (st. 1.2.2).
• Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur (st. 2.2.1).
• Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir (st. 4.1.7).
• Vasitəsiz nitqdə (dialoqlarda, obrazların nitqində) durğu işarələrindən (tire, qoşa nöqtə, dırnaq) yerli-yerində istifadə edir (st. 4.1.7).
• Dinlədiyi mətnlə bağlı analoji həyat hadisələrindən, cizgi filmlərindən misal gətirir, müqayisələr aparır (st. 1.1.1).
• Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).
• Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür (st. 1.2.1).

LAYİHƏ

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Əsgər marşı”nın səsləndirilməsi |
| 2 | **Danışma** | Atalar sözlərinin izahı |
| 3 | **Oxu** | “Vətənin keşiyində” şeirinin oxusu |
| 4 | **Dil qaydaları** | Obrazın nitqinin dırnaq içərisində yazılması |
| 5 | **Dinləmə** | “Əsgərə hörmət” mətninin dinlənilməsi |
| 6 | **Yazı** | Şəkillər üzrə mətnin qurulması |
| 7 | **Danışma** | Əsgər geyiminin rəngi üzrə müzakirə |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Musiqi ilə inteqrasiya.** Müəllim “Əsgər marşı”nı səsləndirir.

**Yönəldici suallar:** *Dinlədiyiniz mahnının mövzusu nədir? Bu mahnını nə üçün çox sevirsiniz? Yadınızda qalan misraları söyləyin.*

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini A tapşırığında verilmiş atalar sözlərinə yönəldir. Şagirdlər atalar sözlərini izah edirlər. Sonra müəllimin yönəldici sualları ilə şagirdlər şəkillər üzrə danışır. *Şəkildə kimləri görürsünüz? Onlar nə işlə məşğuldurlar?* (Müəllim “səngər” və “pilot” sözlərini izah edir.) *Azərbaycanın hansı qəhrəmanlarını tanıyırsınız? Nə üçün biz onları unutmuruq?*

Sonra müəllim şagirdlərin diqqətini pilot Təbriz Musayevin şəklinə yönəldərək məlumat verir:

*2016-cı il aprelin əvvəllərində Azərbaycanın cəbhə bölgələri Ermənistan ordusu tərəfindən atəşə tutuldu. Milli ordumuz bu atəşləri cavabsız qoymadı. Bir neçə günlük döyüş oldu. Döyüş Azərbaycanın qələbəsi ilə nəticələndi. İşğal altında olan bir sıra torpaqlarımız işğaldan azad olundu. Həmin döyüşdə harbi helikopterimiz düşmən tərəfindən vuruldu. Helikopterin pilotu Təbriz Musayev və başqaları şəhid oldular. İndi biz həmin şəhidlərlə qürur duyuruq. Onları unutmuruq.*

Şagirdlər gətirdikləri əsgər şəkilləri və dinlədikləri əsgərlik xatirələri haqqında danışırlar.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlərə şeirin məzmunu ilə tanış olmaq üçün bir neçə dəqiqə vaxt verilir. Daha sonra şagirdlər növbə ilə şeiri ifadəli oxuyurlar.

Şeirdə tanış olmayan sözlər (sərhəd, keşiyində durmaq) üzrə iş aparılır.

### Dil qaydaları

4.1.7 **Tapşırıq C (dərslik).** Şagirdlər ananın məsləhətlərinin əmr cümləsi ilə ifadə olunduğunu müəyyənləşdirməklə əmr cümlələri üzrə biliklərini möhkəmləndirirlər.

4.1.7 **Tapşırıq Ç (dərslik).** Şagirdlər şeirin məzmunundan çıxış edərək ananın sözlərindən ibarət misraları müəyyən edirlər. Sonra müəllim həmin sözlərin dırnaq işarəsi ilə ayrıldığını onların diqqətinə çatdırır.

**“Bunları bilməliyik” rubrikası.** Rubrikada verilən qayda və cümlə oxunub təhlil edilir. Müəllim bu barədə şagirdlərə əlavə məlumat verir: *Danışarkən və ya yazarkən bəzən başqasının nitqini (onun dediyini və yazdığını) dinləyiciyə, oxucuya olduğu kimi çatdırmaq lazım gəlir. Bu zaman yazıda başqasının nitqi dırnaq işarəsi ilə ayrılır.*

Bu qaydanı mənimsətmək üçün müəllim şagirdlərdən birinin mövzu barədə söylədiyi fikrini nümunə gətirib lövhədə müvafiq durğu işarələri ilə birlikdə yaza bilər.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq dırnaq işarəsi ilə bağlı öyrədilən qaydanın tətbiqinə yönəlmişdir.

### Dinləmə

1.1.1 Müəllim “Əsgərə hörmət” mətnini səsləndirir:

**Dinləmə mətni**

*Xalqımızın gözəl adət-ənənələrindən biri də əsgər yola salmaq, əsgər yolu gözləmək və əsgər qarşılamaqdır. Gənclər əsgər gedəndə şadlıq məclisi qurulur, qohumlar, dost-tanışlar bir araya toplaşıb əsgər ata-anasına gözaydınlığı verirlər. Qohum-əqrəba əsgərin vətənə xidmət edib sağ-salamat qayıtmasını səbirsizliklə gözləyir, ona məktublar yazır, onu ziyarətə gedirlər. İnsanlar yolda, avtobusda əsgər görəndə ona salam verib hörmətlərini bildirirlər. Xalqının hörmətini, qayğısını daim hiss edən əsgərlər bu adı şərəflə daşıyırlar.*

Şagirdlər mətni dinlədikdən sonra müəllim suallar verir:

– *İnsanlar əsgərə hörmət etdiklərini necə bildirirlər? Belə hadisələrin şahidi olmusunuzmu?*



LAYİHƏ

*Sizin də yaxınlarınızdan əsgər gedən varmı? Əsgəri yola salanda ona nə arzu edərlər?* və s.

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri)**. Müəllim mətni səsləndirir:

*Əsgərlikdə idim. 8 Mart Qadınlar bayramı idi. Anamı təbrik etmək üçün məzuniyyət götürüb evə gəldim. Anam məni gözləmirdi. Gəlişim onun üçün sürpriz oldu. Səhəri gün anamı da götürüb bayram konsertinə getmək qərarına gəldim.*

*Bilet almaq lazım idi. Ancaq xeyli gecikmişdik. Kassanın qarşısında uzun bir növbə vardı. Bir xeyli gözlədim. Bir oğlan mənə yaxınlaşıb əsgər salamı verdi.*

*– Salam, əsgər! Deyirlər, bilet çox az qalıb, inanmıram sənə çata. Gözləmə, al bu ikinəfərlik bileti.*

*Gözlərimə inanmadım.*

*– Axı bəs siz?*

*– Məni düşünmə, mən hər vaxt burdayam. Ancaq sən əsgərsən, qayıdacaqsan. Özü də bizi, vətənimizi qorumağa.*

*Mən ona təşəkkür edib əsgər olmağımdan qürur hissi keçirdim.*

Şagirdlər mətni dinlədikdən sonra şəkillər əsasında mətnin qısa məzmununu və ideyasını yazırlar. Məqsəd şagirdlərin mövzu, məzmun və ideya anlayışları üzrə bilik və bacarıqlarını möhkəmləndirməkdir.

**Diferensial təlim**

Sinfin səviyyəsi yüksəkdirsə, müəllim dinləmə mətnini səsləndirməyə bilər.

### Danışma

1.2.1 **Tapşırıq D (dərslik). Müzakirə.** Şagirdlərin diqqəti şəkillərə yönəldilir. Əsgər geyiminin rəngi müzakirə olunur. Müəllim şagirdlərin *“Sizcə, nə üçün əsgərlərin geyimi xaki rəngindədir?”* sualı ətrafında əvvəlcə bir qədər düşünməsinə imkan yaratmalıdır. Sonra yönəldici suallar vasitəsilə şagirdləri doğru cavaba istiqamətləndirə bilər. **Yönəldici suallar:** *Ətraf nə rəngdədir, torpaq, yaşıllıq, səma? Sərhəddə dayanan əsgərlər düşmənin diqqətini çəkməmək üçün nə edirlər?* və s.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördüklərindən verilmiş atalar sözünə uyğun nümunə gətirir. | Tapşırıq A (dərslik) |
| Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur. | Tapşırıq B (dərslik) |
| Əmr cümləsini fərqləndirir. | Tapşırıq C (dərslik) |
| Obrazın nitqini dırnaq içərisində yazır. | Tapşırıq A (iş dəftəri) |
| Dinlədiyi mətnin qısa məzmununu yazır. | Tapşırıq B (iş dəftəri) |
| Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür. | Tapşırıq D (dərslik) |

## 6-cı dərs. “Əsgərə hədiyyə” (I hissə)

• Dərslik: səh. 40-41 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri**

• Mətni səsli oxuyarkən deyilişi çətin olan söz və ifadələri düzgün tələffüz edir (st. 2.2.1).
• Verilmiş plan əsasında mətni genişləndirir (st. 1.2.2).
• Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
• Cümlələrdə mətnin məzmununa uyğun düzəlişlər edir (st. 3.1.5).
• Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (ü-u, a-ə, o-a) və samitlərin (k-g, t-d) düzgün yazılış qaydalarına riayət edir (st. 4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı ətrafında söhbət |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Əsgərə hədiyyə” (I hissə) mətninin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Yazı** | Mətnin məzmununa görə cümlədə düzəlişin olunması |
| 5 | **Dil qaydaları** | “O” ilə yazılıb “a” kimi tələffüz olunan sözlər üzrə iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

LAYİHƏ

### Mövzuya yönəltmə

Müəllim soruşur: *Təsəvvür edin ki, yaxın bir qohumunuz əsgərdir və onun ad günüdür. Siz onu təbrik etmək üçün nə edərdiniz?*

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). Növbə ilə oxu.** Şagirdlər mətni növbə ilə oxuyurlar və bu zaman obrazların adlarını qeyd edirlər. Müəllim oxu prosesində şagirdlərin mətndə işlənən deyilişi və yazılışı fərqlənən sözləri necə oxumalarına diqqət edir. Oxu prosesində həmin sözləri düzgün tələffüz etməyən şagirdlərə irad tutulmamalıdır. Bu onların mətnin məzmunu ilə bağlı diqqətini yayındıra bilər.

**"Söz boğçası" rubrikası.** Oxu prosesində şagirdlərə tanış olmayan yeni sözlər izah olunur, "Söz boğçası"na əlavə edilir. Oxu prosesi bitdikdən sonra müəllim şagirdlərin oxuyub-qavramasını yoxlamaq üçün suallar verir:

– *Eyvazla Başir necə tanış olublar? Kimin doğum günü idi? Başirlə Lalə Eyvazı təbrik etmək üçün nə etdilər? Eyvaz nə üçün "Qalx" əmrinə gecikdi?*

**Müəllimin nəzərinə!** Müəllim əsgərlik qanun-qaydası olan "Qalx!" əmri ilə bağlı məlumat verir: "Qalx" siqnalı ilə bütün əsgərlər yuxudan oyanıb tələb olunan işləri yerinə yetirməlidirlər. Məsələn, əsgərlər qalxdıqdan sonra yataqlarını yığmalı, otaqlarını səliqəyə salmalı, səhər gimnastikası etməlidirlər. Səhər baxışı zamanı əsgərlərin yerində olması, xarici görkəmi və şəxsi gigiyena qaydalarına riayət etmələri yoxlanılır.

### Danışma

1.2.2 **Tapşırıq B (dərslik).** Şagirdlər şəkillərə baxaraq Lalə ilə Başirin qurduqları planı ardıcıllıqla danışırlar.

**Tapşırıq C (dərslik). Rollu oyun.** Müəllim şagirdlərin diqqətini yenidən mətnin 2-ci abzasına yönəldir və Eyvazla Başirin tanış olması epizodunu xatırladır. Şagirdlər həmin abzasda verilən faktlardan çıxış edərək həmin hissəni səhnələşdirirlər. Müəllim rollu oyun zamanı şagirdlərin istifadə edəcəyi nitq etiketlərini *(salamlaşma, xahişetmə, tanışolma, təşəkkür)* diqqətə çatdırır.

Şagirdlər aşağıdakı cümlələrdən istifadə edə bilərlər.

*Salam, dostum, velosipedin xarab olub?*
*Xahiş edirəm, mənə kömək edin.*
*Tanış olduğumuza şadam.*
*Çox sağ olun, təşəkkür edirəm.*
*Sağ olun, görüşənədək.*

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətni mənimsədiklərini nümayiş etdirirlər. Şagirdlər cümlələri belə tamamlaya bilərlər:

*Uşaqlar Eyvaza sürpriz etdilər, çünki Eyvazın ad günü idi.*

*Komandir Eyvazı öz otağına çağırdı, çünki Eyvaz "Qalx" əmrinə gecikmişdi.*

### Yazı

3.1.5 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin oxu zamanı diqqətli olmalarını yoxlayır. Şagirdlər mətnin məzmununa uyğun gəlməyən cümlələrdəki sözləri mətndəki faktlara uyğun sözlərlə əvəz edib yenidən yazırlar.

1. ***Eyvazın*** *doğum günü idi.*
2. *Başirin velosipedini* ***Eyvaz*** *təmir etdi.*
3. *Uşaqlar paltarları* ***evdə*** *yudular.*

### Dil qaydaları

4.1.3 **"Sözlərin yazılışı" rubrikası.** Müəllim lövhəyə rubrikadakı sözləri yazır. Şagirdlər həmin sözləri oxuyur. Müəllim "a" kimi tələffüz edilən "o" saiti ilə yazılan bəzi sözlərin düzgün yazılışını və tələffüzünü diqqətə çatdırır.

**Tapşırıq C (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərə "sözlərin yazılışı" rubrikasında verilməyən, lakin eynitipli yeni sözlərin düzgün yazılışını öyrətməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş plan əsasında mətni genişləndirir. | Tapşırıq B (dərslik) |
| Cümlələri mətnə uyğun fikirlərlə tamamlayır. | Tapşırıq A (iş dəftəri) |
| Cümlələrdə mətnin məzmununa uyğun düzəlişlər edir. | Tapşırıq B (iş dəftəri) |
| "A" saiti ilə tələffüz edilən bəzi sözləri "o" saiti ilə yazır. | Tapşırıq C (iş dəftəri) |



LAYİHƏ

## 7-ci dərs. “Əsgərə hədiyyə” (II hissə)

• Dərslik: səh. 41-42 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri**
• Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
• Mətnin əsas hissələrini ümumiləşdirərək nəql edir (st. 2.2.3).
• Qeyri-verbal ünsiyyət vasitələrindən (jest, mimika) istifadə edir (st. 1.2.1).
• Yazılı təqdimatını struktur xüsusiyyətlərinə uyğun olaraq tərtib edir (st. 3.1.4).
• Sualları cavablandırmaqla cümləni genişləndirir (st. 4.1.6).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamının təxmin edilməsi |
| 2 | **Oxu** | Mətnin davamının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin qısa məzmununun nəql olunması |
| 4 | **Danışma** | Mətndən bir epizodun səhnələşdirilməsi |
| 5 | **Dil qaydaları** | Cümlənin növləri və cümlənin genişləndirilməsi |
| 6 | **Yazı** | Açıqça və təşəkkürnamə yazılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim suallar vasitəsilə mətni xatırladır və soruşur:

– *Sizcə, hadisələr necə davam edəcək? Başırgilin atası Eyvazı cəzalandıracaqmı? Uşaqların yerinə siz olsaydınız, Eyvazı cəzadan necə xilas edərdiniz?*

### Oxu

1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər mətni növbə ilə oxuyurlar. Oxu prosesində müəllim şagirdlərin obrazların nitqini müvafiq səs tonu ilə səsləndirməsinə nəzarət edir. Onların mətni diqqətlə oxuduqlarını yoxlamaq üçün suallar verir.

Oxu prosesi bitdikdən sonra şagirdlər mətnin davamı ilə bağlı təxminlərini oxuduqları hissənin məzmunu ilə müqayisə edirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər plan əsasında “Əsgərə hədiyyə” mətnini ümumiləşdirib danışırlar. Şagirdlərin danışma fəaliyyəti belə qurula bilər: Şagirdlər mətni istədikləri hər hansı bir obrazın dilindən nəql edirlər.

Məsələn, şagirdlər özlərini komandirin yerində təsəvvür edib vəziyyətlə bağlı düşüncələrini, hiss və həyəcanlarını aşağıdakı kimi ifadə edə bilərlər:

*Əsgərlərə “Qalx” əmri vermişdim. Hər kəs hazırlanıb vaxtında sırada dayandı. Bircə Eyvaz axırda gəldi. Tapşırıqlarımı verib iş otağına yollandım. Gecikməyinin səbəbini bilmək üçün onu otağıma çağırdım. Eyvaz elə otağa girən kimi üst-başının yaş olduğunu gördüm. Çox təəccübləndim. Narahat oldum ki, yəqin, başına iş gəlib. Yaxınlıqdakı çaya yıxılıb.*

*Soruşduqca “bilmirəm” dedi. Lap əsəbiləşdim. Axı bu necə ola bilər? Əsgər niyə belə danışsın ki?!*

*Elə bu vaxt Başir qapını açıb həyəcanlı vəziyyətdə içəri girdi. Üzündən hiss olunurdu ki, qorxub. Başir baş verənləri danışanda məni gülmək tutdu. Özümü güclə saxlayıb Eyvazın ad gününü təbrik etdim, uşaqlara isə rəsmi təşəkkürümü bildirdim. Onlar öz əsgər dostlarına hədiyyə etmək istəyiblər.*

### Danışma

1.2.1 **Tapşırıq C (dərslik). Rollu oyun.** Şagirdlər mətndə baş verən hadisələri danışarkən müvafiq səs tonundan, jest və mimikalardan istifadə edirlər.

### Dil qaydaları

4.1.6 **Tapşırıq A, B (iş dəftəri).** Tapşırıqlar şagirdlərin cümlənin növləri və cümlənin genişləndirilməsi üzrə biliklərini möhkəmləndirir.

### Yazı

3.1.4 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər Eyvazı təbrik etmək üçün açıqça yazaraq mövzu ilə bağlı hiss və duyğularını ifadə etmək bacarıqlarını inkişaf etdirirlər.

**Tapşırıq D (dərslik). Qruplarla iş.** Şagirdlər əvvəlcə nümunəni oxuyurlar. “Təşəkkürnamə”-nin struktur elementləri ilə tanış olurlar. Qruplara müvafiq mövzu üzrə təşəkkürnamə yazmaq tapşırılır.

**Müəllimin nəzərinə!** Şagirdlər ətraf mühitin təmizlənməsi, kimsəsiz uşaqlara yardım edilməsi üzrə işlərə yönəldilə bilər. Bu

LAYİHƏ

işlərdə fərqlənən şagirdlərə məktəb rəhbərliyi tərəfindən rəsmi "təşəkkürnamə"-lər təşkil etmək olar. Belə işlər şagirdlərin sosiallaşmasını təmin edir, onların əməkdaşlıq mühitində yoldaşları və əlaqədar şəxslərlə ünsiyyət qurmaq bacarıqlarını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tapşırıq A (dərslik) |
| Mətnin əsas hissələrini ümumiləşdirərək nəql edir. | Tapşırıq B (dərslik) |
| Situasiya zamanı jest, mimikadan istifadə edir. | Tapşırıq C (dərslik) |
| Cümlənin növlərini fərqləndirir. | Tapşırıq A (iş dəftəri) |
| Sualları cavablandırmaqla cümləni genişləndirir. | Tapşırıq B (iş dəftəri) |
| Açıqçanı struktur xüsusiyyətlərinə görə tərtib edir. | Tapşırıq C (iş dəftəri) |
| Təşəkkürnaməni struktur xüsusiyyətlərinə görə tərtib edir. | Tapşırıq Ç, D (dərslik) |

fəsil 2 MƏN SÜLHƏ SƏS VERİRƏM

## 1-ci dərs. "Bəyaz və Cubbulu" (I hissə)

• Dərslik: səh. 43 • İş dəftəri: səh. 26

**Təlim məqsədləri**
• Mətndən faktlar gətirməklə fikrini əsaslandırır (st. 2.2.4).
• Obrazlarla bağlı fakt və hadisələri müəyyənləşdirir (st. 2.2.4).
• Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir (st. 2.1.3).
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2).
• Gündəlik tərtib edərkən onun struktur xüsusiyyətlərinin tələblərinə əməl edir (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı ətrafında söhbət |
| 2 | **Oxu** | "Bəyaz və Cubbulu" (I hissə) mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki fakt və hadisələrin təhlili |
| 4 | **Söz ehtiyatı** | Yaxınmənalı sözlər üzrə iş |
| 5 | **Yazı** | Obrazın təsviri, gündəliyin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Suallar: *"Elə bir sevimli oyuncağınız varmı ki, günün çox hissəsində o sizin yanınızda olur? Bəs ev heyvanınız, sevimli itiniz və ya pişiyiniz və s. varmı? Onunla vaxtınızı necə keçirirsiniz? Nə oynayırsınız? Ondan uzaqda olanda darıxırsınızmı?"*

### Oxu

2.2.4 **Tapşırıq A (dərslik). Növbə ilə oxu.** Şagirdlər bir-birini izləyərək mətni oxuyurlar. Mətn oxunduqca müəllim şagirdlərin diqqətini yoxlamaq üçün suallar verir:

*– Süræyya göyərçininə və gəlinciyinə nə ad qoymuşdu? Sizin də belə dostlarınız varsa, adları nədir? Atışma vaxtı Süræyya nə edirdi? Süræyyagilin evinin pəncərəsi niyə sındı? Süræyyanın gəlinciyi harada qalmışdı? və s.*

*Mətn oxunduqdan sonra "Söz boğçası" üzrə iş aparılır.*

**Müəllimin nəzərinə!** Mətndə "Süræyyagilin kəndi sərhəddə idi" cümləsi ilə başlayan hissənin oxusu zamanı müəllimə yönəldici suallar vasitəsilə cəbhə bölgəsində yaşayan, tez-tez atəşkəs rejiminin pozulması ilə qarşılaşan şagirdlərin təəssüratlarını bölüşməsinə imkan yaratmaq tövsiyə olunur.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin oxu zamanı diqqətini və məntiqi təfəkkürünü yoxlayır. Şagirdlər mətndən faktlar gətirməklə tapşırıqdakı fikirləri təhlil edirlər.

**Doğru cavab**: Tapşırıqdakı 1-ci cümlə mətnin məzmununa uyğundur. 3-cü cümlə isə mətnin məzmununa ziddir. Belə ki, mətndə göstərilir ki, Süræyya atışma vaxtı tez-tələsik qonşunun maşınına minəndə gəlinciyini də götürmək istədi,

LAYİHƏ

ancaq macal tapmadı. 2-ci və 4-cü cümlələrdəki fikirlər isə mətndə öz əksini tapmayıb, ancaq ola bilər.

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndəki hadisələrin baş verdiyi məkanı müəyyənləşdirib yazmaqla mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri). Dil qaydaları ilə inteqrasiya.** Tapşırıq şagirdlərin yeni informasiya əldə etmək, saitlərin növlərini fərqləndirmək və cümlə qurmaq bacarıqlarını inkişaf etdirir.

Şagirdlər saitlərin növləri üzrə biliklərindən istifadə etməklə Sürəyyagilin rayonunun adını (Kəlbəcər) müəyyənləşdirirlər.

**Müəllimin nəzərinə!** 1. Müəllim tapşırıqda verilən yer adlarının Azərbaycanın işğal altında olan rayonlarının adları olduğunu şagirdlərin diqqətinə çatdıra bilər. Həmçinin Kəlbəcərin işğal olduğu gün, ay, il (2 aprel 1993-cü il) barədə şagirdlərə məlumat vermək tövsiyə olunur. Bu məlumat gündəliyin yazılması zamanı şagirdlərə həmin günün tarixini qeyd etməyə kömək edəcək.

2. Müəllim şagirdlərin diqqətini dərsliyin 45-ci səhifəsindəki Ç tapşırığına yönəldərək Azərbaycanın işğal olunmuş torpaqları barədə araşdırma işi aparmağı tapşırmalıdır.

### Söz ehtiyatı

2.1.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlərin söz ehtiyatını möhkəmləndirmək məqsədi daşıyır.

***Doğru cavablar:*** *tamaşa edirdi – baxırdı, macal – vaxt, gözünün yaşını axıdırdı – ağlayırdı.*

### Yazı

3.1.2 **Tapşırıq C (dərslik).** Şagirdlərə I yarımildə obrazın təsvir edilməsi öyrədilmişdir. Bu tapşırıq vasitəsilə şagirdlərin bilik və bacarıqları möhkəmləndirilir.

Şagirdlər mətn və şəkildən aldıqları informasiya əsasında Sürəyyanı təxminən belə təsvir edirlər:

*“Bəyaz və Cubbulu” hekayəsinin qəhrəmanı Sürəyyanın 6 yaşı var. Onun qısa qəhvəyi saçları var. Çox sakit qızdır. Öz sevimli oyuncağı ilə oynamağı sevir.*

3.1.4 **Tapşırıq Ç (dərslik).** Tapşırığın məqsədi şagirdləri müharibə mövzusunda daha dərindən düşündürməkdir. Şagirdlər mətndəki faktlardan çıxış edərək özlərini Sürəyyanın yerində təsəvvür etməklə onun adından gündəlik yazırlar. Bununla da onların yazı bacarıqları inkişaf etdirilir.

**Diferensial təlim**

Müəllim gündəliyi yazmaqda çətinlik çəkən şagirdlərə suallardan ibarət plan verə bilər.

**Plan:** *Kənddə atışma günün hansı vaxtında (səhər, gecə, günorta) baş verdi?*

*2. Həmin vaxt Sürəyya harada idi?*

*3. Otaqda nə baş verdi?*

*4. Sürəyya evdə kiminlə idi? O kiminlə həyətə qaçdı?*

*5. Həyətdə kimi gördülər?*

*6. Sürəyyagil hara getdilər?*

*7. Sürəyya xalasıgildə gecə niyə yata bilmirdi?*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən faktlar gətirməklə fikrini əsaslandırır. | Tapşırıq B (dərslik) |
| Obrazlarla bağlı fakt və hadisələri müəyyənləşdirir. | Tapşırıq A, B (iş dəftəri) |
| Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir. | Tapşırıq C (iş dəftəri) |
| Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır. | Tapşırıq C (dərslik) |
| Gündəlik tərtib edərkən onun struktur xüsusiyyətlərinin tələblərinə əməl edir. | Tapşırıq Ç (dərslik) |

## 2-ci dərs. “Bəyaz və Cubbulu” (II hissə)

• Dərslik: səh. 44-45 • İş dəftəri: səh. 27

**Təlim məqsədləri**

• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Şəklə, bilik və təxəyyülünə əsaslanaraq mətnin məzmununu dəyişir və ya davam etdirir (st. 2.2.5).
• Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir (st. 2.2.2).
• Mətnin hissələrini yarımbaşlıqlar və ya sual cümlələri ilə ifadə edir (st. 2.2.3).
• Mətnin adı ilə məzmunu arasındakı bağlılığı izah edir (st. 2.2.3).
• Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir (st. 2.1.3).
• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).

LAYİHƏ

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Bəyaz və Cubbulu" mətninin davamının təxmin edilməsi |
| 2 | **Oxu** | "Bəyaz və Cubbulu" (II hissə) mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Bədii və elmi mətnin fərqləndirilməsi; yarımbaşlıqlar üzrə iş |
| 4 | **Söz ehtiyatı** | Yeni mənimsədilən sözlərin möhkəmləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər müəllimin suallarına cavab verməklə mətni xatırlayırlar. Mətnin davamını təxmin edirlər.

### Oxu

2.2.3 **Tapşırıq A (dərslik).** Mətnin birinci hissəsi xatırladılır. Şagirdlər mətni növbə ilə səsli oxuyurlar. "Məhəccər" sözü izah olunur. Şagirdlər mətndən illüstrasiyanın əks etdirdiyi müvafiq hissəni seçib yenidən oxuyurlar.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Şagirdlər şəkillər əsasında mətni davam etdirirlər. Müəllim şagirdlərə şəkillər üzrə danışarkən obrazın hiss-həyəcanını ifadə etməyi tapşırır. Tapşırıq şagirdlərin oxuyub-qavrama, həmçinin danışma bacarıqlarını inkişaf etdirir.

**Tapşırıq A (iş dəftəri)**. Şagirdlər mətn üzrə həqiqi (1-ci, 3-cü, 5-ci cümlələr), xəyali (2-ci və 4-cü cümlələr) hadisələri fərqləndirirlər. Bu tapşırığın yerinə yetirilməsi şagirdlərin dərslikdəki C tapşırığı üzrə fikirlərini əsaslandırmağa kömək edəcək.

2.2.3 **Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər tapşırıqda verilmiş illüstrasiyadan aldıqları informasiyanın mətndən sözlü təsvirini seçib yazırlar. Bununla onların oxuyub-qavrama və yazı bacarıqları inkişaf etdirilir.

2.2.3 **Tapşırıq C, Ç (dərslik).** Şagirdlər "Bəyaz və Cubbulu" mətninin bədii olmasını təxminən belə əsaslandıra bilərlər:

*Mətndə qeyri-real hadisələr təsvir edilir; Quş və gəlincik danışır, darıxır; Quş gəlinciyi dimdiyinə alıb Sürəyyanın yaşadığı yerə gəlir və s.*

Daha sonra şagirdlər işğal olunmuş rayonlar haqqında araşdırma aparıb hazırladıqları elmi mətni təqdim edirlər. Hər iki mətn müqayisə olunur.

2.2.3 **Tapşırıq D (dərslik).** Müəllim tapşırığın yerinə yetirilməsindən öncə "yarımbaşlıq" anlayışını şagirdlərə izah edir.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlərlə müəllimin ünsiyyətini təmin etmək üçün bəzi filoloji anlayışların şagirdlərə tanıdılması vacibdir. Şagirdlərin oxuyub-qavrama bacarığının inkişaf etdirilməsi üçün "yarımbaşlıq" anlayışından tez-tez istifadə olunur. İndiki mərhələdə şagirdlərə yalnız anlayışın özü tanıdılır. Sonrakı mərhələlərdə isə şagirdlərdə mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırmaq bacarığı formalaşdırılacaq.

**Cütlərlə iş.** "Bəyaz və Cubbulu" mətni 5 bitkin hissəyə ayrılmışdır. Bu hissələr mətn boyunca rəqəmlərlə göstərilmişdir. Tapşırıqda verilmiş yarımbaşlıqları oxuyan cütlər mətni bütövlükdə nəzərdən keçirib uyğun nömrələnmiş hissəni müəyyən etməlidirlər. Müəllim tapşırıqdakı 1-ci yarımbaşlığı özü izah edir.

**Düzgün cavablar:**

a. Kənddə baş verən atışma – 2
b. Dostların Sürəyyanı axtarması – 5
c. Bəyazla Cubbulunun darıxması – 4
ç. Sürəyyanın gəlinciklə oynaması – 1
d. Sürəyyanın xalasıgilə gəlməsi – 3

Daha sonra müəllim yarımbaşlıqların düzülüş ardıcıllığını düzgün şəkildə lövhədə yazır. Bir neçə şagird növbə ilə yarımbaşlıqlar üzrə mətni bütövlükdə nəql edirlər.

Bu tapşırığı yerinə yetirməklə şagirdlər "yarımbaşlıq" anlayışını mənimsəyir, hadisələrin ardıcıllığını müəyyən etməklə mətnin planını qurmaq, həmçinin plan əsasında mətni nəql etmək bacarıqlarını inkişaf etdirirlər.

2.2.3 **Tapşırıq E (dərslik).** Şagirdlər təqdim olunmuş iki başlıqdan birini seçməklə mətndəki əsas fikri müəyyənləşdirməyə çalışırlar. Hər iki başlıq mətnin ideyasını əks etdirir. Şagirdlər öz seçimlərini əsaslandırmağa çalışırlar.

### Söz ehtiyatı

2.1.3 **Tapşırıq Ə (dərslik).** Mətndə şagirdlər üçün ümumişlək olan "uçmaq" sözü iki mənada (qanadlanmaq və dağılmaq) işlənmişdir. Müəllim şagirdlərin diqqətini həmin sözə yönəldərək onların nəzərinə çatdırır ki, sözü izah edərkən (yaxınmənalı söz seçərkən) sözün cümlədəki mənasına diqqət etmək lazımdır.

LAYİHƏ

2.1.1 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətndə öyrəndikləri yeni sözün (məhəccər) izahını oxuyub uyğun şəkli seçməklə həmin sözü mənimsədiklərini nümayiş etdirirlər.

**Müəllimin nəzərinə!** Sonda mətnin ümumi təhlilini aparmaq üçün şagirdlərə hekayə xəritəsi qurmaq tapşırıla bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tapşırıq A (dərslik), Tapşırıq A (iş dəftəri) |
| Şəkillər əsasında mətnin məzmununu davam etdirir. | Tapşırıq B (dərslik) |
| Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir. | Tapşırıq C, Ç (dərslik), Tapşırıq B (iş dəftəri) |
| Mətnin hissələrini yarımbaşlıqlarla uyğunlaşdırır. | Tapşırıq D (dərslik) |
| Mətni ideyasına uyğun başlıqla adlandırır. | Tapşırıq E (dərslik) |
| Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir. | Tapşırıq Ə (dərslik) |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tapşırıq C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə müharibə ilə bağlı fotolar əldə etmək tövsiyə olunur. Şəkillər uşaqların yaş səviyyəsinə uyğun olaraq seçilməlidir.

Müəllim üzərində xaç və ya aypara işarəsi olan hər hansı tibb ləvazimatı (tibb çantası, tibb xalatı, fanendoskop, Qızıl Aypara Cəmiyyətinə məxsus geyim və s.) gətirə bilər.

## 3-cü dərs. “Beynəlxalq yardım təşkilatı”

• Dərslik: səh. 46-47 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri**

• Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir (st. 1.2.1).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir (st. 2.2.4).
• Mətni obrazlardan birinin dilindən nəql edir (st. 2.2.3).
• Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir (st. 4.1.6).
• Vasitəsiz nitqdə (dialoqlarda, obrazların nitqində) durğu işarələrindən (tire, qoşa nöqtə, dırnaq) yerli-yerində istifadə edir (st. 4.1.7).
• Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır (st. 2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin gətirdiyi şəkillər üzrə söhbət |
| 2 | **Danışma** | Şəkil və açar sözlərin köməyi ilə müharibə mövzusunda danışma |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Beynəlxalq yardım təşkilatı” mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətn üzrə iş. Mətnin obrazın dilindən nəql olunması |
| 5 | **Dil qaydaları** | Obrazın nitqinin dırnaq içərisində yazılması |
| 6 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim gətirdiyi şəkilləri şagirdlərə nümayiş etdirərək soruşur:

*– Bu şəkillərin mövzusu nədir?*

Şagirdlər şəkillərdə gördüklərinin müharibəyə aid olduğunu müəyyənləşdirir və şəkillər üzrə danışırlar.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini açar sözlərə yönəldərək hər birini şəkillərdən çıxış edərək cümlədə işlətməyi tapşırır. Şagirdlər bütün açar sözlərə aid cümlələr

LAYİHƏ

qurduqdan sonra müharibənin yaratdığı problemlər haqqında rabitəli şəkildə mətn qurub danışırlar.

### Oxu. Söz ehtiyatı

2.2.4 **Tapşırıq B (dərslik). İstiqamətləndirilmiş oxu.** Oxudan əvvəl müəllim lövhədə suallar yazır və tapşırır:

– Mətni oxuduqca lövhədəki suallara cavab axtarın.

Suallar:

*1. Beynəlxalq yardım təşkilatını kim yaradıb?*
*2. O bu təşkilatı yaratmaq üçün nə etdi?*
*3. Təşkilat hansı işləri görür?*
*4. Azərbaycandakı hansı cəmiyyət Beynəlxalq yardım təşkilatının üzvüdür?*

**"Söz boğçası" rubrikası.** Şagirdlərə tanış olmayan sözlər izah olunur: **səfər** – səyahət, yola çıxma; **könüllü** – öz xoşu, öz razılığı, öz istəyi ilə; **tərəfdar** – birinin tərəfini saxlayan, onu müdafiə edən adam; **fövqəladə** – qeyri-adi, görünməmiş.

### Oxuyub-qavrama

Oxu prosesindən sonra şagirdlər sualları cavablandırırlar.

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlərə ötən dərslərdə əsərin ideyası anlayışı mənimsədilmişdir. Bu mətn vasitəsilə şagirdlərə bir daha aydın olur ki, hər bir müəllifin əsərini yazmaqda məqsədi – oxuculara çatdırmaq istədiyi fikirləri olur. Mətnə görə Anri Dünanın "Solfereno xatirələri" əsərini yazmaqda məqsədi beynəlxalq yardım təşkilatının yaradılması üçün özünə tərəfdarlar toplamaq və onların köməyi ilə belə bir təşkilatı yaratmaq idi.

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlərə "beynəlxalq" sözünün mənası 1-ci sinifdən məlumdur. Ona görə də tapşırığın məqsədi şagirdlərin söz ehtiyatından istifadə edərək fikirlərini əsaslandırmasına yönəlmişdir. Şagirdlər fikirlərini təxminən belə əsaslandıra bilərlər:

*Müharibələr, adətən, iki tərəf arasında (xalq, dövlət və s.) olur. Anri Dünan da istəyirdi ki, elə bir təşkilat yaratsın ki, həmin təşkilat beynəlxalq olsun, yani dünyada bütün ölkələr tərəfindən tanınsın və müharibə vaxtı bu təşkilat 3-cü bir tərəf kimi müharibədə əziyyət çəkən hər iki tərəfə kömək edə bilsin.*

Müəllim əlavə məlumat verə bilər:

*– Beynəlxalq yardım təşkilatının özünün işarəsi ("xaç" və "aypara") var. Bu işarələr dünyada tanınır. Beynəlxalq təşkilatın könüllüləri öz geyimlərində, sığınacaq üçün qurduqları çadırlarda, maşınların və onlara məxsus digər şeylərin üzərində həmin işarələrdən istifadə edirlər. Bu işarələr müharibə vaxtı könüllüləri toxunulmaz edir və onlar bitərəf kimi bütün insanlara kömək edə bilirlər.*

2.2.3 **Tapşırıq D (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərin yaradıcı təfəkkürünün və nəqletmə bacarığının inkişaf etdirilməsidir. Şagirdlər mətndə müəllifin dilindən təsvir olunan hadisələri obrazın dilindən danışırlar; məsələn:

*– Səfərə çıxmışdım. Solfereno kəndinə yaxınlaşanda orada döyüş getdiyini öyrəndim. Ancaq yolumu dəyişmədim. Kəndə daxil oldum. Gördüklərim məni dəhşətə gətirdi...*

**Diferensial təlim**

Müəllim çətinlik çəkən şagirdlərə bir neçə cümləni özü söyləyə bilər.

Təxəyyülü inkişaf etmiş və dünyagörüşlü şagirdlərə isə hadisələri (müharibə səhnəsini) geniş təsvir etmək imkanı yaradılmalıdır.

### Dil qaydaları

4.1.6 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin mətndə rast gəldikləri çətin qavranılan geniş cümlələr üzrə təhlil aparmaq bacarığının formalaşdırılmasına yönəlmişdir.

**Doğru cavab:** 4-cü cümlə.

**Müəllimin nəzərinə!** Növbəti dərslərdə mətnlərin oxu prosesində informasiya yükü çox olan, feili tərkiblər işlənmiş cümlələr üzərində təhlil aparmaq tövsiyə olunur. Müəllim geniş cümlələrdəki fikirlərə uyğun sual sözlərindən istifadə etməklə də təhlil apara bilər.

4.1.4 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin durğu işarələri üzrə biliklərinin möhkəmləndirilməsinə xidmət edir.

### Söz ehtiyatı

4.1.6 **Tapşırıq C (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin yeni öyrəndikləri sözlərin mənimsənilmə səviyyəsi yoxlanılır.

**Müəllimin nəzərinə!** Dərsin sonunda müəllim şagirdlərin diqqətini dərsliyin 47-ci səhifəsindəki B tapşırığına yönəldir. Şagirdlər ətrafdakı insanlardan tez-tez qaç-

LAYİHƏ

qın və məcburi köçkün sözlərini eşidirlər. Müəllim bu sözlərin mənalarını izah edib şagirdlərə tapşırıqla bağlı təlimat verir.

*Məcburi köçkün* (ölkə daxilində köçürülmüş şəxs) – hərbi təcavüz, təbii fəlakət nəticəsində daimi yaşayış yerini tərk edib öz ölkəsi daxilində başqa yerə köçmüş şəxs. Azərbaycanın işğal olunmuş rayonlarının sakinləri hazırda Azərbaycanın digər rayon və şəhərlərində məskunlaşıblar. Həmin şəxslər "məcburi köçkün" hesab olunur.

*Qaçqın* – xarici vətəndaşlığı olan, müharibə və ya digər səbəblərlə öz ölkəsindən başqa bir ölkəyə köçmək məcburiyyətində qalan şəxs. Ermənistanın Azərbaycana məxsus tarixi torpaqlarında yaşayan azərbaycanlılar Ermənistandan məcburi şəkildə qovulub Azərbaycan Respublikası ərazisində məskunlaşdılar. Bu şəxslər hazırda "qaçqın" statusu daşıyır.

Tapşırıq üzrə fəaliyyət cütlərlə və ya qruplarla iş formasında da yerinə yetirilə bilər. Şagirdlər öz valideynləri, həmçinin bir neçə yoldaşı ilə məcburi köçkünün evinə gedir və ondan mövzu ətrafında müsahibə alırlar. Bununla da şagirdlərin araşdırma, məlumat toplama, müsahibə aparmaq bacarıqları inkişaf etdirilir. Şagirdlərin təqdimatı növbəti dərsdə dinləniləcək.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş şəkillər əsasında mövzu üzrə danışır. | Tapşırıq A (dərslik) |
| Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir. | Tapşırıq C, Ç (dərslik) |
| Mətni obrazlardan birinin dilindən nəql edir. | Tapşırıq D (dərslik) |
| Cümlədəki fikrə uyğun olan məlumatları müəyyənləşdirir. | Tapşırıq A (iş dəftəri) |
| Obrazın nitqini dırnaq içərisində yazır. | Tapşırıq B (iş dəftəri) |
| Cümlədə buraxılmış sözləri müəyyən edir. | Tapşırıq C (iş dəftəri) |

## 4-cü dərs. "Qızıl Aypara Cəmiyyəti"

• Dərslik: səh. 47-48 • İş dəftəri: səh. 29

**Təlim məqsədləri**

• Öz biliklərinə əsaslanaraq problemin həlli ilə bağlı fikir yürüdür (st. 1.2.2).
• Mövzu ilə bağlı araşdırma apararaq sadə formalı təqdimatlar edir (st. 1.2.1).
• Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir (st. 3.1.3).
• Dinlədiyi informativ mətndəki məlumatlara aydınlıq gətirmək üçün suallar verir (st. 1.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı ətrafında söhbət |
| 2 | **Danışma** | Şəkil üzrə danışma, müsahibə əsasında təqdimat |
| 3 | **Yazı** | Mövzu üzrə essenin yazılışı |
| 4 | **Dinləmə** | Qızıl Aypara Cəmiyyəti haqqında dinləmə mətni üzrə iş |
| 5 | **Danışma** | Mövzu üzrə kiçik hekayələrin qurulması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

*– Sizcə, müharibə və ya fövqəladə vəziyyətlərdə insanlara necə kömək etmək olar?*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti fotoşəkillərə yönəldilir. Müəllim onlara şəkillərə aid açar sözlər söyləməyi tapşırır. Şagirdlər şəkillərdə gördüklərinə aid sözlər (daşqın, xilas etmək, ərzaq, geyim, könüllülər və s.) söyləyirlər. Müəllim həmin sözləri lövhədə yazır. Şagirdlər o sözləri cümlələrdə işlətməklə şəkillər üzrə danışırlar.

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər məcburi köçkünlərlə görüşüb onlardan aldıqları müsahibə haqqında növbə ilə danışırlar. Müəllim yönəldici suallarla şagirdlərin həmsöhbəti ilə bağlı təəssüratlarını bölüşməsinə imkan yaratmalıdır.

### Yazı

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlərin fikir və duyğularını yazı vasitəsilə çatdırmaq bacarığının inkişafına yönəlmişdir. Şagirdlər müsahibə aldıqları şəxsə öz kəndlərinə, rayonlarına qayıtmaqla bağlı arzularını bildirirlər.

LAYİHƏ

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər bilməcəni həll etməklə Qızıl Aypara Cəmiyyətini yaradan şəxsin adını (Əliağa Şıxlinski) öyrənirlər.

## Dinləmə

1.1.1 Müəllim Qızıl Aypara Cəmiyyəti haqqında aşağıdakı mətni səsləndirir.

**Dinləmə mətni:**

*Azərbaycan Qızıl Aypara Cəmiyyəti vətənimizdə fəaliyyət göstərən ən böyük humanitar təşkilatdır. Cəmiyyət dünyanın ən nəhəng humanitar təşkilatı olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının üzvüdür.*

*Azərbaycan Qızıl Aypara Cəmiyyəti 100 il əvvəl mart ayının 10-da yaradılmışdır. Cəmiyyətin yaradılmasının təşəbbüskarı general Əliağa Şıxlinski olmuşdur. Generalın həyat yoldaşı Nigar Şıxlinskaya isə Azərbaycanın ilk könüllü tibb bacısı kimi döyüşlərdə yaralanmış əsgər və zabitlərə yardım göstərmişdir. Xocalı soyqırımı vaxtı Azərbaycana gələn Beynəlxalq Qızıl Xaç Komitəsi burada nümayəndəliyini yaratdı və Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlığa başladı. Bütün qaçqın və məcburi köçkünlər üçün sığınacaq yerləri, çadır şəhərcikləri salındı, onlar ərzaq və geyimlə təmin edildilər.*

*Həmçinin beynəlxalq təşkilatın köməyi ilə 600-dək vətəndaşımız erməni əsirliyindən azad edilib ailələrinə qaytarıldı. Bu proses bu gün də davam edir.*

*Bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyəti də dünyada baş vermiş fövqəladə halların nəticələrinin aradan qaldırılmasında uğurla iştirak edir. İndiyədək 11 nəfər azərbaycanlı öz fədakar xidmətlərinə görə Beynəlxalq yardım təşkilatının ən yüksək medalını qazanmışdı.*

Şagirdlər mətni dinlədikdən sonra müəllim onlara dinlədikləri mətnlə bağlı sual verməyi tapşırır. Bu zaman şagirdlər dinləmə zamanı yadda saxlaya bilmədikləri faktlara aid suallar verməyə çalışırlar. Bununla şagirdlərdə diqqətlə dinləmə və dinləyib-qavrama bacarıqları formalaşır.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirməklə dinləmə zamanı diqqətli olduqlarını nümayiş etdirirlər. **Doğru cavab:** c.

## Danışma

**Tapşırıq C (dərslik). Qruplarla iş.** Müəllim şagirdləri qruplara ayıraraq müvafiq mövzu üzrə müzakirə etməyi tapşırır. Hər bir fövqəladə vəziyyətlə bağlı (zəlzələ, daşqın, yoluxucu xəstəlik, müharibə) müəllim şagirdləri məlumatlandırır və ya yönəldici suallarla mövzular üzrə onları danışdırır. Şagirdlər özlərini könüllülərin yerində təsəvvür edib situasiya üzrə kiçik hekayə qururlar.

**Nümunə:** *İstirahət günü idi. Cəmiyyətin bir qrup könüllüləri bir yerə yığılmışdı. Bizi təcili Afrika ölkələrindən birinə göndərirdilər. Orada yoluxucu xəstəlik yayılmışdı. İnsanlar təhlükə qarşısında idi. Biz həkimlərə zəng edib kömək istədik. Uzaq səfərə çıxmaq üçün lazım olan əşyaları hazır etdik. Özümüzlə xeyli sayda iynə, dərman, respirator və s. tibb əşyaları götürdük. Təyyarə ilə həmin yerə getdik. Həkimlərimiz sağlam insanları peyvənd etdilər ki, onlar xəstəliyə yoluxmasınlar.*

**Müəllimin nəzərinə!** Qızıl Aypara Cəmiyyətinin könüllülərindən biri ilə görüş təşkil etmək olar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Öz biliklərinə əsaslanaraq problemin həlli ilə bağlı fikir yürüdür. | Tapşırıq A, C (dərslik) |
| Mövzu ilə bağlı araşdırma apararaq sadə formalı təqdimatlar edir. | Tapşırıq B (dərslik) |
| Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir. | Tapşırıq A (iş dəftəri) |
| Dinlədiyi informativ mətndəki məlumatlara aydınlıq gətirmək üçün suallar verir. | MV – dinləmə mətni |
| Dinlədiyi mətnə uyğun olmayan fikri müəyyən edir. | Tapşırıq C (iş dəftəri) |

LAYİHƏ

## 5-ci dərs. “Mən sülhə səs verirəm”

• Dərslik: səh. 48 • İş dəftəri: səh. 30

**Təlim məqsədləri**

• Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur (st. 2.2.1).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Kontekstə uyğun olaraq sözün əksmənalı qarşılığını seçir (st. 2.1.3).
• Sözün mənasını kontekstə görə müəyyənləşdirir (st. 2.1.2).
• Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir (st. 1.2.1).
• Dinlədiyi mətndə mənavi dəyərlərlə bağlı məqamlara münasibət bildirir (st. 1.1.2).
• Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Sülh nağməsi” mahnısının səsləndirilməsi |
| 2 | **Oxuyub-qavrama** | “Mən sülhə səs verirəm” şeirinin nəsrə çevrilməsi |
| 3 | **Söz ehtiyatı** | Sözün mənası və əksmənalı sözlər üzrə iş |
| 4 | **Danışma** | Şəkil üzrə mətn qurma |
| 5 | **Dinləmə** | “Göyərçin” mətninin dinlənilməsi |
| 6 | **Yazı** | Dinlədiyi mətn üzrə dialoqun qurulması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Musiqi ilə inteqrasiya.** Müəllim “Sülh nəğməsi” mahnısını səsləndirir.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərə müəyyən vaxt verilir, hamı səssiz şəkildə şeiri nəzərdən keçirir. Şeirin adı, müəllifi, məzmunu ilə tanış olurlar. *Milyon, bomba, abidə, top, intizarda qalmaq, darda qalmaq* sözləri izah edilib “Söz boğçası”na əlavə olunur.

Sonra şeirin mövzu və ideyasını müəyyənləşdirirlər.

**Xorla oxu.** Əvvəlcə müəllim özü şeirin məzmununa müvafiq intonasiya ilə şeiri səsləndirir. Şagirdləri 6 qrupa ayırıb hər qrupa bir bənd şeiri bir neçə dəfə oxumağı tapşırır. Qruplar növbə ilə öz bəndlərini çağırış intonasiyası ilə söyləyirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin nəzmi nəsrə çevirmək bacarığının inkişafına yönəlmişdir. Şeiri xorla oxuyan hər qrup tapşırıqda verilən cümlələrdən öz bəndlərinə uyğun gələnini müəyyənləşdirir. Sonda müəllim cümlələri oxuyur, uyğun qrup əlini qaldıraraq uyğun bəndi səsləndirir.

### Söz ehtiyatı

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin söz ehtiyatı yoxlanılır.

Tapşırıqda verilən sözlərin əksmənalı qarşılığı:

1. müharibə, 2. yatmaq, 3. kiçik, 4. abad, 5. yeni, 6. qara, 7. qoca.

**Tapşırıq B (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərin söz ehtiyatını artırmaqdır. Şagirdlər “top” sözünün “oyuncaq” mənasında işləndiyini bilirlər. Şeirdə isə “top” sözü silah mənasında işlənmişdir. Şagirdlər tapşırığı yerinə yetirməklə “top” sözünün şeirdəki mənasını mənimsədiklərini nümayiş etdirirlər.

**Doğru cavab:** *Şəhər top atəşinə tutuldu.*

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlərin diqqəti şəklə yönəldilir. Müəllim əvvəlcə şagirdlərdən şəkildə nə gördüklərini soruşur. Sonra açar sözlər deyir: *döyüşçü, döyüşə çağırmaq, döyüş papağı, göyərçin, yuva.* Şagirdlər bu sözlərdən istifadə etməklə kiçik bir hekayə qurmağa çalışırlar. Müəllim şagirdlərə bir neçə dəqiqə düşünməyə vaxt verir.

**Diferensial təlim**

Təxminetmədə çətinlik çəkən şagirdlərə müəllim yönəldici suallar verə bilər. Məsələn, *Sanca, döyüşçülərdən birinin niyə başında papaq yoxdur? O, papaqsız necə döyüşə bilər? Göyərçinin yuvasını dağıtmaq düzgündürmü? Onlar belə vəziyyətdə hansı qərara gələ bilərlər?*

### Dinləmə

1.1.2 **Tapşırıq Ç (dərslik).** Müəllim “Göyərçin” əfsanəsini səsləndirir.

*Qədim zamanlarda xeyirxah bir padşah yaşayırdı. O öz ölkəsini əmin-amanlıqla idarə eləyirdi.*

*Günlərin bir günü qonşu ölkənin hökmdarı onun ölkəsinə hücum edib padşahı təkbətək döyüşə çağırdı.*

*Padşah çoxdan idi ki, müharibə etmirdi. Odur ki dava paltarını sarayın çardağında, əl-ayaqdan*

LAYİHƏ

*uzaq yerdə saxlayırdı. Savaşa bir gün qalmış şah anasından xahiş elədi ki, onun qılıncı ilə dəbilqəsini gətirsin.*

*Anası getdi. Çox çəkmədi ki, oğlunun qılıncını, qalxanını gətirdi. Padşah anasından soruşdu:*

*Bəs döyüş papağım hanı?*

*Ana dedi:*

*– Səni and verirəm halal südümə, dəbilqəyə dəymə!*

*– Anacan, mən padşaham! Padşah isə döyüş meydanına dəbilqəsiz çıxa bilməz.*

*Anası çardaqda gördüklərini deməli oldu:*

*– Bala, sənin döyüş papağının içində bir ağ göyərçin yuva qurub. Özünün də iki körpə balası var. Mən bu günahsız balalara toxunsam, ağ göyərçin bizdən küsüb gedər. Yetim balaların ahnaləsi ölkəmizə bəlalar gətirər. Gəl bu dəfə döyüşə dəbilqəsiz get.*

*Bu sözləri eşidən padşah heç nə demədi, düşmənlə təkbətək döyüşə başıaçıq çıxdı. Qonşu ölkənin hökmdarı onu dəbilqəsiz görüb bunun səbəbini soruşdu.*

*Padşah dedi:*

*– Mənim döyüş papağımda göyərçin iki bala çıxarıb. Anam and verdi ki, balalara toxunmayım.*

*Bunu eşidən düşmən hökmdar qılıncını qınına qoydu, əlini düşməninə uzadıb dedi:*

*– Gəl barışaq! Sənin anan bir quşun – ağ göyərçinin evini dağıtmaq istəmədi. Biz niyə nahaq qan töküb minlərlə insanın evini dağıdaq?!*

*Onlar barışdılar. O gündən ağ göyərçin sülh quşu hesab olunur.*

Sonra şagirdlər dinlədikləri mətni qurduqları hekayə ilə müqayisə edirlər.

Şagirdlər müəllimin yönəldici sualları ilə obrazlara münasibət bildirirlər.

**Yazı**

**3.1.2** **Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin dinlədikləri mətn üzrə dialoq qurmaq, həmçinin cümlənin növlərini fərqləndirmək bacarıqlarını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur. | Tapşırıq A (dərslik) |
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tapşırıq B (dərslik) |
| Kontekstə uyğun olaraq sözün əksmənalı qarşılığını seçir. | Tapşırıq A (iş dəftəri) |
| Sözün mənasını kontekstə görə müəyyənləşdirir. | Tapşırıq B (iş dəftəri) |
| Verilmiş şəkillər əsasında mövzu üzrə mətn qurub nəql edir. | Tapşırıq C (dərslik) |
| Dinlədiyi mətndə mənəvi dəyərlərlə bağlı məqamlara münasibət bildirir. | Tapşırıq Ç (dərslik) |
| Dinlədiyi mətnin məzmununa uyğun dialoq qurub yazır. | Tapşırıq C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə səsləndirmək məqsədilə müəllimin müxtəlif xalqlara məxsus musiqi parçaları (rok, caz, saz havası və s.) əldə etməsi tövsiyə olunur.

## fəsil 3 MİLLİ DƏYƏRLƏRİMİZ

### 1-ci dərs. “Qarabağ atının şöhrəti”

• Dərslik: səh. 49-51 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir (st. 2.2.5).
• Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir (st. 2.2.5).
• Əlifba sırasından istifadə etməklə izahlı lüğətdən lazım olan sözü tapır (st. 4.1.4).
• Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür (st. 1.2.1).
• Dinlədiyi mətn üzrə sualları cavablandırır (st. 1.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif xalqlara məxsus musiqilərin səsləndirilməsi |
| 2 | **Oxu** | Mətnin oxusu, davamının təxmin edilməsi |
| 3 | **Söz ehtiyatı** | Lüğətin köməyi ilə yeni sözlərin mənimsədilməsi |
| 4 | **Danışma** | Milli dəyərlərin təbliği mövzusunda müzakirə |
| 5 | **Dinləmə** | Əli Tağıyev haqqında mətnin səsləndirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |



LAYİHƏ

### Mövzuya yönəltmə

**Musiqi ilə inteqrasiya.** Müəllim müxtəlif xalqlara məxsus musiqi parçalarını səsləndirir və soruşur:

*– Dinlədiyiniz hansı musiqi sizə Azərbaycanı xatırlatdı? Hansı musiqi daha çox xoşunuza gəldi? Səbəbini izah edin.*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərin Azərbaycanın milli dəyərləri ilə bağlı ilkin bilikləri yoxlanılır. Şagirdlər şəkillərə baxaraq sual ətrafında bildiklərini danışırlar. “Milli dəyərlər” anlayışının mənasını təxmin edib fəslin mövzusunu müəyyən edirlər. Müəllim “milli dəyərlər” anlayışını sadə formada belə izah edə bilər:

*– Hər bir xalqı digərlərindən fərqləndirən xüsusiyyətlər həmin xalqın milli dəyərləridir. Hər xalqın özünəməxsus mətbəxi, geyimləri, musiqisi və s. olur.*

Sonra müəllim auksion keçirə bilər:

*– Milli şirniyyat, yemək adları söyləyin.*

Sonuncu adı söyləyən şagird auksionun qalibi olur.

### Oxu

2.2.5 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərə mətni oxumaq üçün vaxt verir. Şagirdlər mətni təxminetmə sualına qədər müstəqil şəkildə səssiz oxuyurlar. Mətnin bu hissəsinin oxusu bitdikdən sonra müəllim şagirdlərə həmin hissəyə aid faktoloji suallar verir:

*– Kimin ad günü idi? Cıdır yarışı nə üçün keçirilirdi? Yarış harada keçirilirdi? Azərbaycanı təmsil edən jokeyin və atın adı nə idi? Yarışın qalibi kim oldu? Kraliça köməkçisinə nə tapşırdı?*

Suallar cavablandırıldıqdan sonra şagirdlər mətnin davamını təxmin edirlər. Mətnin davamı növbə ilə oxunur. Mətnin sonunda verilmiş faktoloji və düşündürücü suallar cavablandırılır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər qarşılaşdırma məzmunlu cümlələri tamamlamaqla mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Doğru cavab:** 1 – Ç, 2 – A, 3 – B, 4 – C.

2.2.5 **Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırıq şagirdlərin oxuduqlarını öz sözləri ilə ifadə etmək bacarığını inkişaf etdirir. Şagirdlər cümlələri mətnin məzmununa uyğun təxminən belə tamamlaya bilərlər:

*1. Zaman yarışda iştirak etmək istəmirdi, çünki o, vətənindən və sahibindən uzaq düşmüşdü.*

*2. Kraliça qəzəbləndi, çünki o, ölkəsində Zamanı idarə edə bilən jokey tapa bilmirdi.*

### Söz ehtiyatı. Dil qaydaları

4.1.4 **“Söz boğçası” rubrikası.** Müəllim oxu prosesində şagirdlərə tanış olmayan sözlərin mənasını ilkin olaraq şagirdlərdən soruşur. Şagirdlər cümlədəki fikirdən çıxış edərək həmin sözlərin mənasını təxmini izah edirlər. Oxu bitdikdən sonra şagirdlər “Söz boğçası”ndakı sözlərin mənalarını lüğət vasitəsilə dəqiqləşdirirlər. Bu işi cütlərlə və ya qruplarla yerinə yetirmək olar.

### Danışma

1.2.1 **Tapşırıq C, Ç (dərslik).** Şagirdlər milli dəyərlərin təbliği mövzusunda müzakirə aparırlar. Müəllim yönəldici suallarla müzakirəni bu istiqamətdə qura bilər:

*– Dünyada xeyli sayda tanınmış xalqlar, tanınmış dövlətlər mövcuddur. Biz hər birimiz Azərbaycanı dünyada tanıtmaq üçün çalışmalıyıq. Bunun üçün Azərbaycana məxsus milli dəyərlərimizi təbliğ etməliyik. İndi Azərbaycanı daha yaxından tanımaq üçün dünyanın əksər ölkələrindən turistlər gəlir.*

### Dinləmə

1.1.1 **Tapşırıq D (dərslik).** Müəllim Azərbaycanın ilk jokeyi Əli Tağıyev haqqında mətn səsləndirir:

**Dinləmə mətni**

*Azərbaycanın ilk jokeyi Əli Tağıyev olub. İngiltərədə keçirilən yarışda Zamanla birlikdə qazandığı qələbə onu dünyada məşhurlaşdırıb. O, ömrünün sonlarına qədər jokeylik etmiş, 1500 dəfə qalib olmuşdur.*

*Bir gün Əli kişi Konfet adlı atı ilə Gürcüstana yarışa gedir. Yarış başlamamışdan qabaq Rusiyanın ən güclü jokeylərindən biri Əli kişinin “Konfet” adlı atını göstərib deyir ki, bunu kim minəcək?*

*Qıraqda dayanan Əli kişini göstərirlər. Rus təəccüblənir, gülərək deyir:*

*– Bu ki qoca kişidir!*

*Yarışı məhz 60 yaşlı Əli kişi udur.*

*Əli Tağıyevin qazandığı şöhrətin nəticəsi idi ki, illər sonra kraliça Əli kişinin nəvələrini İngiltərəyə*



LAYİHƏ

*dəvət edir. Onun nəvəsi Qarabağ atı ilə yenidən kraliçanın rəğbətini qazanır.*

***Natavan Abdulla***

Müəllim şagirdlərə mətni dinlədikdən sonra tapşırıqdakı sualı səssiz şəkildə oxuyub doğru cavabı vərəqdə qeyd etməyi tapşırır.

**Doğru cavab:** 2-ci və 3-cü cümlə.

Sonra hər kəs yazdığı vərəqi yuxarı qaldırmaqla cavabı göstərir. Bununla şagirdlər dinləmə zamanı nə dərəcədə diqqətli olduqlarını nümayiş etdirirlər.

Sonra tapşırıqdakı suallar şifahi şəkildə cavablandırılır, müzakirə olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tapşırıq A (dərslik) |
| Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir. | Tapşırıq B (dərslik) |
| Əlifba sırasından istifadə etməklə izahlı lüğətdən lazım olan sözü tapır. | “Söz boğçası” rubrikası |
| Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür. | Tapşırıq C, Ç (dərslik) |
| Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir. | Tapşırıq B (iş dəftəri) |
| Dinlədiyi mətn üzrə sualları cavablandırır. | Tapşırıq D (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə Bəxtiyar Vahabzadənin “Qarabağ atı” şeiri əsasında çəkilmiş eyniadlı animasiya filmini nümayiş etdirə bilər.

## 2-ci dərs. “Milli çövkən oyunu”

• Dərslik: səh. 51-52 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

- Mətndə rast gəldiyi frazeologizmləri həqiqi mənalı sözlərlə əvəz edir (st. 2.1.4).
- Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
- Mətndəki problemin həllini öz həyat təcrübəsində seçdiyi həll yolu ilə əlaqələndirir (st. 2.2.4).
- Fikir bildirərkən aldığı məlumatdakı faktlara əsaslanır (st. 1.1.2).
- Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır (st. 2.1.1).
- Sualları cavablandırmaqla cümləni genişləndirir (st. 4.1.6).
- Cəm şəkilçisini sözə əlavə edərkən ahəng qanununa uyğun düzgün variantı seçir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Qarabağ atı” animasiya filminin nümayişi |
| 2 | **Oxu** | “Qarabağ atı” şeirinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Şeirin “Qarabağ atının şöhrəti” mətni ilə əlaqələndirilməsi |
| 4 | **Yazı** | Atın üzləşdiyi problemi həll etmək üçün təkliflərin verilməsi |
| 5 | **Dinləmə** | Milli çövkən oyunu haqqında mətnin səsləndirilməsi |
| 6 | **Söz ehtiyatı** | Peşə bildirən sözlərdən ibarət lüğətin tərtibi |
| 7 | **Dil qaydaları** | Cümlələrin genişləndirilməsi; -lar cəm şəkilçisi üzrə bilik və bacarıqların möhkəmləndirilməsi |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərə ötən dərs xatırladılır. Elektron imkanları olan siniflərdə şagirdlər müəllimin nümayiş etdirdiyi “Qarabağ atı” animasiya filmini izləyirlər.

### Oxu. Söz ehtiyatı

2.1.4 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini şəklə yönəldir. Şəkildəki atın şən, yoxsa qəmgin olduğuna diqqət edilir. Müəllim şeirin adını və müəllifini şagirdlərdən soruşur.

Şagirdlər şeiri növbə ilə bir-birini izləyərək oxuyurlar. Tanış olmayan sözlər (*köhlən, xiffətini*

LAYİHƏ

*çəkmək*) izah olunaraq “Söz boğçası”na əlavə edilir.

Şagirdlərə “köhlən” sözü “xüsusi bəslənilmiş at” şəklində izah oluna bilər.

“Xiffət çəkmək” frazeoloji birləşməsinin mənası əvvəlcə şagirdlərdən soruşulur. Onlar şeirin məzmunundan çıxış edərək “darıxmaq” sözünü yada sala bilərlər.

Sonra *“Şeir hansı hadisəyə həsr olunub?”* sualı əsasında şeirin mövzusu müəyyən edilir.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlərin eyni mövzuya aid olan iki müxtəlif quruluşlu (nəzm və nəsr) bədii mətn arasında uyğunluğu müəyyən etməsi onların oxuyub-qavrama bacarıqlarını inkişaf etdirir. Hər iki mətndə Qarabağ atına xüsusi qulluq edilməsinə baxmayaraq atın vətən həsrəti çəkməsindən və günü-gündən zəifləməsindən danışılır.

**Cütlərlə iş.** Cütlər tapşırığı yerinə yetirmək üçün “Qarabağ atının şöhrəti” mətnini nəzərdən keçirərək şeirin məzmununu təsdiq edən cümlələri seçirlər:

*“Zaman kraliçanın ən sevimli atı olur. Onun tapşırığına əsasən mehtərlər ata xüsusi qulluq edirdilər”.*

*“Kraliça Zamanın yarışa qatılması üçün ölkənin ən məşhur jokeylərini gətizdirir. Ancaq heç kim Zamanı ram edə bilmir”.*

*“Bir gün baytarlardan biri  atın xəstəliyinin səbəbini belə izah etdi:*

*– At vətən həsrəti çəkir”.*

2.2.4 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər qarşıya çıxan problemin həlli yollarını düşünməklə mühüm həyati bacarığa yiyələnmiş olurlar. Tapşırıq həmçinin şagirdlərin fikirlərini yazılı şəkildə ifadə etmək bacarığını inkişaf etdirir. Şagirdlər Zamanın vəziyyəti ilə bağlı əsasən iki çıxış yolu təklif edə bilərlər:

1. Zamanı vətəninə yola salmaq.
2. Zamanın sahibini İngiltərəyə gətirmək.

**Diferensial təlim**

Çıxış yolu təklif etməkdə çətinlik çəkən şagirdlərə müəllim problemi xatırladan suallar verməklə kömək edə bilər:

*– Zaman niyə günü-gündən arıqlayırdı? O hara üçün darıxırdı? Niyə Əli gedəndən sonra Zaman heç bir jokeyi yaxına buraxmırdı?*

Yazı işi bitəndən sonra şagirdlər öz qərarlarını təqdim edib müzakirə aparırlar.

Sonda müəllim bir təklifi də özü verə bilər.

*– İngiltərədə Zamanın böyüdüyü yerləri xatırladan Cıdır düzü saldırmaq olardı. Sizcə, belə etsəydi, Zaman yarışlara qoşulardımı?*

Şagirdlər müəllimin təklif etdiyi qərara münasibət bildirdikdən sonra müəllim bu vəziyyətə bənzər analoji hadisə danışır:

*– Keçmiş zamanlarda Ağabəyim adlı bir xan qızı Qarabağdan uzaq ellərə gəlin köçür. Orada yaşamalı olur. Onun könlünü şad etmək, onu sevindirmək üçün Fətəli şah möhtəşəm bir bağ saldırır. Xankəndidə, Şuşada bitən bütün ağac, gül-çiçəyi burada əkdirir ki, Ağabəyim doğma yerlərin havasını bu bağdan ala bilsin. Hətta bağbanı da Şuşadan gətirirlər. Bu gülüstanın da adını "Vətən bağı" qoyurlar. Amma Ağabəyim həmin bağa seyrə çıxarkən çox qəmlənir. Dərindən ah çəkərək ağlayır. Bütün saray əhli bu vəziyyətə heyrətlənir.*

Şagirdlər dinlədikləri mətni analiz edirlər. Məqsəd şagirdlərə vətən sevgisini dərindən hiss etdirmək, həmçinin onların məntiqi təfəkkürünü inkişaf etdirməkdir.

**Müəllimin nəzərinə!** Zamanın taleyi ilə bağlı məlumat verilə bilər.

“Zaman adlı at çox yaşamır. Ömrünün son günlərini  İngiltərədə keçirir. Orada ölür”.

### Dinləmə

1.1.2 **Tapşırıq C (dərslik).** Şagirdlərin diqqəti şəkillərə yönəldilir. Şəkillər nəzərdən keçirilir. Müəllim sual verir:

*– Şəkillərdə nə təsvir olunmuşdu?*

Şəkillər üçün ortaq xüsusiyyət müəyyən edilir. Hər üç şəkildə atla oynanılan oyunlar təsvir edilmişdir.

Hansı şəkil sizə tanış olan oyun növünü xatırlatdı? (3-cü şəkil – *basketbol*). Şagirdlər şəkillər ətrafında müzakirə edirlər.

Müəllim soruşur:

*– Sizcə, bu oyunlardan hansı milli oyundur?*

Şagirdlər 2-ci şəkildəki oyun iştirakçılarının geyimlərindən sualın cavabını təxmin edirlər. Sonra müəllim şagirdlərə öz təxminlərini dəqiqləşdirmələri üçün çövkən oyunu haqqında mətni səsləndirir:

LAYİHƏ

**Dinləmə mətni**

*Çövkən atüstü oyunu Azərbaycanın çox qədim milli idman növüdür. Bu oyun onu oynayan zaman işlədilən, ağacdan hazırlanmış alətin adı ilə belə adlandırılıb.*

*Oyun meydançada keçirilir. İştirakçılar iki komandaya ayrılır. Hər komandada iştirakçıların sayı 7 olur. Komandalar geyimlərinə görə fərqlənirlər. Oyunda kiçik top və "çövkən" adlanan alətdən istifadə edilir. Top rəqib qapısından keçirilməlidir. Oyun iki mərhələdə keçirilir. Hər mərhələ 30 dəqiqə davam edir.*

*Oyunçunun xüsusi geyim formasına papaq, çuxa, at minmək üçün gen şalvar, yüngülboğazlı çəkmə daxildir.*

Şagirdlər mətni dinlədikdən sonra uyğun şəkli müəyyən edirlər. 2-ci şəklin mətnə aid olduğunu sübut edən faktlar gətirirlər. Sonra oyunun yadda qalan qaydalarını söyləyirlər.

2.1.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər çövkən oyunu haqqındakı mətni dinlədikdən sonra tapşırığı yerinə yetirirlər.

**Doğru cavablar:** 2, 3, 4.

## Söz ehtiyatı

2.1.1. **Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Bu tapşırıq mənimsədilən yeni sözlər üzrə ümumiləşdirici tapşırıq hesab oluna bilər. Cütlər yeni öyrəndikləri sözlərin mənalarını müəyyənləşdirdikdən sonra *baytar, jokey, mehtər* sözlərinin bildirdiyi məna qrupunu müəyyən edirlər: peşə adları. "Kraliça" sözünün isə peşə deyil, titul, vəzifə bildirdiyi qənaətinə gəlirlər.

Sonra müəllim cütlərə tapşırıqda verilən sözlər üzrə kiçik lüğət tərtib etməyi tapşırır. Şagirdlər sözləri əlifba sırası ilə düzərək hər bir sözün izahını yazırlar.

**Müəllimin nəzərinə!** Müəllimin istəyindən asılı olaraq lüğət üzrə fəaliyyət qruplarla iş formasında genişləndirilə bilər. 1-ci və 3-cü qruplara peşə bildirən sözlərdən ibarət kiçik lüğət tərtib etmək, 2-ci və 4-cü qruplara isə oyun adlarından ibarət lüğət tərtib etmək tapşırıla bilər.

## Dil qaydaları

4.1.6 **Tapşırıq D (dərslik).** Şagirdlər verilmiş sual sözlərinə cavab verməklə cümlələri genişləndirirlər.

4.1.5 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq I yarımildə şagirdlərin *-lar, -lər* cəm şəkilçisi üzrə öyrəndikləri bilik və bacarıqların möhkəmləndirilməsi məqsədi daşıyır.

**Doğru cavab:** 2-ci cümlədə "baytar" sözünə *-lar* şəkilçisi əlavə edilməlidir.

Müəllim ahəng qanunu üzrə bilikləri təkrarlamaq məqsədilə sual verə bilər:

*– Nə üçün "baytar" sözünə -lər deyil, -lar şəkilçisi əlavə etdiniz?*

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə rast gəldiyi frazeologizmləri həqiqi mənalı sözlərlə əvəz edir. | Tapşırıq A (dərslik) |
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tapşırıq B (dərslik) |
| Mətndəki problemin həllini öz həyat təcrübəsində seçdiyi həll yolu ilə əlaqələndirir. | Tapşırıq A (iş dəftəri) |
| Dinlədiyi mətndən əsas faktları seçir. | Tapşırıq C (dərslik), Tapşırıq C (iş dəftəri) |
| Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır. | Tapşırıq Ç (dərslik) |
| Mətnin məzmununa əsaslanaraq verilmiş cümləni genişləndirir. | Tapşırıq D (dərslik) |
| Cəm şəkilçisini sözə əlavə edərkən ahəng qanununa uyğun düzgün variantı seçir. | Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə İçərişəhərə aid şəkillər və ya videoçarx nümayiş etdirə bilər.

LAYİHƏ

## 3-cü dərs. "İçərişəhər"

• Dərslik: səh. 52-53 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
• Obrazı və onun davranışlarını qiymətləndirməklə (xeyirxahdır, qəddardır, yaxşı davrandı/pis davrandı və s.) mətndəki əsas fikirlə bağlı mülahizə yürüdür (st. 2.2.4).
• Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir (st. 2.2.4).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir (st. 2.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Yeni mənzil haqqında söhbət |
| 2 | **Oxu** | "İçərişəhər" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki fakt və hadisələr üzrə iş; mətndəki əsas fikrin müəyyən olunması və obrazlara münasibət; mətnin mövzu, məzmun və ideyası üzrə iş |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

– *Yeni mənzilinizin harada və necə olmasını istəyərsiniz?*

Şagirdlər arzuladıqları yeni mənzillərini təxəyyülərində canlandırıb təsvir edirlər.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Müəllim mətn oxunmazdan əvvəl İçərişəhərdə olan şagirdlərin təəssüratlarını öyrənir.

**Növbəli oxu.** Mətn növbə ilə oxunur. Müəllim şagirdlərə tapşırır ki, mətni oxuduqca məkanların təsvirinə diqqət etsinlər. Müəllim oxu prosesində şagirdlərin obrazların nitqini səsləndirərkən müvafiq səs çalarlarından istifadə etməsinə nəzarət edir.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər obrazların fikirlərinə münasibət bildirirlər. Müəllim çalışmalıdır ki, şagirdlər münasibət bildirərkən fikirlərini əsaslandırsınlar. Məsələn, *Mən Altayla razı deyiləm. Çünki İçərişəhər keçmiş zamanlardan yadigar olduğu üçün biz də onu qorumalıyıq; Mən Altayla razıyam, çünki İçərişəhərin küçələri çox dardır. Adamın ürəyi sıxılır. Oynamağa geniş meydançalar yoxdur* və s.

**Tapşırıq C (dərslik).** Şagirdlər mətnin sonluğunu oxuyaraq öz fikirləri ilə müqayisə edirlər.

2.2.4 **Tapşırıq Ç (dərslik).** Mətndəki əsas fikri müəyyənləşdirə bilən şagirdlər "İçərişəhərimizin o dar küçələrini də bax beləcə qoruyub saxlamalıyıq" fikrini seçməklə mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

2.2.3 **Tapşırıq D (dərslik).** Şəkildən aydın olur ki, qonşu binalar bir-birinə çox yaxındır. Mətndə bu təsvirə uyğun cümlə budur:

*Altayla Aydın İçərişəhərdə qonşu idilər. Küçə o qədər dar idi ki, üzbəüz pəncərədən bir-biri ilə söhbət edirdilər.*

**Müəllimin nəzərinə!** Müəllim İçərişəhərə aid şəkillər və videoçarx nümayiş etdirməklə İçərişəhərdə olmayan şagirdlərdə İçərişəhərlə bağlı təsəvvürün formalaşmasına kömək edə bilər.

**Tapşırıq E (dərslik).** Tapşırıq şagirdlərin mətni diqqətlə oxuduğunu yoxlayır. Mətndə Aydının nitqində Qız qalası, Şirvanşahlar sarayının adı çəkilir.

**Müəllimin nəzərinə!** Şagirdlərə adıçəkilən tarixi abidələr haqqında araşdırma aparmaq tapşırıla bilər. Şagirdlərin təqdimatı növbəti sərbəst dərs saatında dinlənilə bilər.

2.2.4 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər dərslikdəki tapşırıqlar vasitəsilə mətni analiz etdikdən sonra müstəqil şəkildə ümumiləşdirmə apararaq mətnin mövzusunu, məzmun və ideyasını yazırlar.

**Diferensial təlim**

Müəllim mətnin məzmununu yazmaqda çətinlik çəkən şagirdlərə mətnin məzmunu ilə bağlı konkret suallar verib o suallara cavab yazmağı tapşıra bilər. Bu zaman şagirdlərin hər bir sualı bütöv şəkildə cavablandırması məqsədəuyğundur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tapşırıq B (dərslik) |
| Mətndəki obrazların fikirlərinə münasibət bildirir. | Tapşırıq C (dərslik) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tapşırıq Ç (dərslik) |
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tapşırıq D, E (dərslik) |
| Mətnin mövzu, məzmun və ideyasını müəyyənləşdirir. | Tapşırıq A (iş dəftəri) |

## 4-cü dərs. "Sehrli söz" dinləmə mətni. Nitq etiketləri

• Dərslik: səh. 54 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri**

• Dinlədiyi mətnlə bağlı analoji həyat hadisələrindən, cizgi filmlərindən misal gətirir, müqayisələr aparır (st. 1.1.1).
• Dinlədiyi mətndəki əsas fikri şərh edir (st. 1.1.2).
• Situasiyadan asılı olaraq nitqində müvafiq nitq etiketlərindən (salamlaşma, sağollaşma, üzrxahlıq) istifadə edir (st. 1.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmənin mövzularının xatırlanması |
| 2 | **Dinləmə** | "Sehrli söz" mətninin dinlənilməsi |
| 3 | **Dinləyib-anlama** | Obrazın xarakterinə münasibət bildirilməsi |
| 4 | **Dil qaydaları** | Nitq etiketlərinin mənimsədilməsi |
| 5 | **Danışma** | Rollu oyun |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə söyləyir:

*– Təsəvvür edin ki, bacınız və ya qardaşınızın robot kuklası var və siz bu oyuncaqla oynamaq istəyirsiniz. Bacınız isə öz oyuncağını paylaşmaq istəmir. Siz necə edərdiniz ki, bacınız onu sizə verməyə razı olsun.*

### Dinləmə

1.1.1 **Tapşırıq A (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir.

**Dinləmə mətni: "SEHRLİ SÖZ"**

**I hissə**

*Parkdakı skamyada qoca bir kişi oturmuşdu.*

*Balaca Pərviz qocaya yaxınlaşıb acıqlı səslə dedi:*

*– Bir az çəkilin. Mən də oturmaq istəyirəm.*

*Qoca kənara çəkilib Pərvizə yer verdi. Balacanın qızarmış, hirsli üzünə baxıb dedi:*

*– Sənə nə olub?*

*– Mənə heç nə. Nədir ki?*

*– Sən kimdənsə küsmüsən. Özün də ağlamısan.*

*– Düzdür. Haradan bildiniz?*

*– Mən sehrbazam.*

*– Bah! Elə bilirsiniz, uşağam? Yox, mən belə şeylərə inanmıram.*

*– Demək istəyirsən ki, heç kimdən küsməmisən? – qoca incik səslə soruşdu.*

*– Yox. Düzdür, mən evdəkilərdən küsmüşəm. Belə getsə, evdən qaçacağam.*

*– Qaçacaqsan?*

*– Hə, qaçacağam. Leylanın nə qədər flomasteri var, birini də mənə vermir.*

*– Buna görə evdən qaçarlar?*

*– Təkcə bu olsaydı, nə var idi! Nənəm bir qoğala görə məni mətbəxdən qovdu. Qardaşım qayıq sürməyə gedir, məni aparmır. Heç kim məni sevmir. Yox, qaçacağam evdən.*

*Qoca bir qədər fikrə getdi. Sonra üzünü Pərvizə çevirib dedi:*

*– Hə, balaca, mən sənə kömək edə bilərəm. Bir sehrli söz bilirəm. Onu kimə desən, səndən heç nə əsirgəməz. Ancaq bu sözü deyəndə həmin adamın düz gözlərinə baxmaq lazımdır.*

*Pərviz qocanın sözlərinə inanmasa da, yavaşca soruşdu:*

*– O nə sözdür elə?*

*Qoca əyilib oğlanın qulağına nə isə pıçıldadı və ucadan dedi:*

*– Amma sözü demək qaydasını unutma ha!*

*– Mən indi yoxlayaram.*

*Bunu deyib Pərviz ayağa qalxdı və evlərinə sarı qaçdı.*

**Müəllim mətnin davamı ilə bağlı şagirdlərin təxminlərini soruşur.**

*– Sizcə, ailə üzvlərinin Pərvizə olan münasibəti niyə belədir? Sizcə, qoca Pərvizə nə dedi? Siz də evdə bacı-qardaşlarınızdan küsürsünüzmü? Nə üçün?*



LAYİHƏ

Şagirdlər Pərvizin ailə üzvləri ilə münasibətinə və onun gəldiyi qərara (qaçmaq) dair fikirlərini bildirirlər. Pərvizin vəziyyətini öz həyatlarında gördükləri ilə (analoji hadisələrlə) müqayisə edirlər. Söhbət zamanı şagirdlər Pərvizin "evdən qaçmaq" fikrinin doğru olmadığı qənaətinə gəlirlər.

**Sonra müəllim mətnin davamını səsləndirir:**

**II hissə**

*Leyla masa arxasında oturub nəsə çəkirdi. Qarşısında rəngli flomasterlər var idi. Pərvizi görən kimi flomasterləri qabağına çəkib əli ilə üstünü örtdü.*

*– "Qoca aldatdı məni, – Pərviz düşündü. – Beləsinə söz təsir edər?!" – Pərviz bacısına yaxınlaşdı, düz onun gözlərinə baxıb yavaşca dilləndi:*

*– Leyla, mənə flomaster ver də... Zəhmət olmasa...*

*Leyla gözlərini süzdü, sonra diqqətlə Pərvizə baxdı, əlini flomasterlərin üzərindən çəkib dedi:*

*– Hansını istəyirsən?*

*– Mmməən?.. Göyü.*

*Leyla göy flomasteri götürüb Pərvizə verdi.*

*Pərviz bu işə mat qaldı. "Gedim nənəmin yanına, görüm, indi də məni qovacaqmı?"*

**Müəllim mətni dayandırıb şagirdlərə sual verir:**

*– Sizcə, Leylanın Pərvizə münasibəti niyə dəyişdi?*

**Müəllim şagirdlərin fikirlərini dinlədikdən sonra mətnin davamını səsləndirir:**

*Nənə mətbəxdə qoğal bişirirdi. Balaca Pərviz onun yanına gəlib yavaşca ətəyindən dartdı. Nənəsi üzünü ona sarı çevirəndə düz gözlərinə baxıb dedi:*

*– Nənə, zəhmət olmasa, mənə bir dənə qoğal ver.*

*Nənənin üzü sanki işıqlandı. O, şirin səslə dedi:*

*– Gözəl balam isti qoğal istəyir? Nənə sənə qurban, bu dəqiqə ən dadlısını seçəcəyəm sənin üçün.*

*Pərviz nənəsinin boynuna sarılıb onun qırışmış üzündən öpdü.*

*Nahar vaxtı idi. Pərviz sakitcə dayanıb qardaşı Kamranın söhbətinə qulaq asırdı. Kamran dedi ki, sabah qayıqla göldə gəzintiyə çıxacaq. Bu zaman Pərviz qardaşına yaxınlaşıb əlini onun çiyninə qoydu və düz gözlərinə baxıb yavaşca dedi:*

*– Kamran, zəhmət olmasa, sabah məni də özünlə gəzintiyə apar.*

*Hamı birdən susdu. Kamran təəccüblə əvvəl nənəsinə, sonra bacısına baxdı.*

*– Apar da onu, – Leyla dilləndi. – Səndən nə gedir ki...*

*– Niyə də aparmayasan? – nənə gülümsündü. – Uşaqdır da, könlü istəyir.*

*– Zəhmət olmasa... – Pərviz təkrar etdi.*

*– Yaxşı da, sən deyən olsun, – Kamran, nəhayət, dilləndi. – Get hazırlaş. Səhər yola çıxırıq.*

*Pərvizin sevincinin həddi-hüdudu yox idi. "Alındı! Hamıya təsir etdi. O, doğrudan da, sehrbazdır".*

*Pərviz yerindən sıçrayıb küçəyə çıxdı. Parka kimi dayanmadan qaçdı. Amma qoca orada yox idi.*

***V.Oseyevanın eyniadlı hekayəsi əsasında***

**Müəllim şagirdlərdən soruşur:**

*– Qocanın Pərvizə öyrətdiyi "sehrli söz" hansı idi? Siz də belə sözlər söyləyin.*

1.2.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin dinlədikləri mətni analizetmə bacarıqlarını inkişaf etdirir. Şagirdlər mətnin baş qəhrəmanının – Pərvizin mətnin əvvəlində kobud, səbirsiz, mətnin sonunda isə xarakterinin dəyişilərək mehriban, səbirli olmasını müəyyən edirlər. Bunun səbəbini isə qocanın ona öyrətdiyi sehrli sözdən istifadə etməsi ilə izah edirlər. Şagirdlər tapşırığı yerinə yetirməklə bu cür sözlərin nəzakətli davranış üçün vacib olması qənaətinə gəlirlər.

## Danışma

1.2.3 **"Bunları bilməliyik" rubrikası.** Şagirdlər indiyə qədər nəzakətli ifadələrlə ayrı-ayrı tapşırıqlarda tanış olmuş, müəllimin yönəltməsi ilə rollu oyunlar zamanı müxtəlif mövzulara uyğun nitq etiketlərindən istifadə etmişlər. Bu dərsdə isə nitq etiketləri dil qaydası kimi sistemli şəkildə nəzərdən keçirilir.

Müəllim rubrikada verilən nitq etiketləri ilə bağlı məlumatı şagirdlərlə birlikdə oxuyub izah verir.

**Müəllimin nəzərinə!** Şagirdlərin yaş səviyyəsi nəzərə alınaraq "nitq etiketləri" termini "nəzakətli ifadələr" şəklində təqdim olunmuşdur. Bu cür təqdimat şagirdlərin

LAYİHƏ

mövzunu daha asan qavramasına və yadda saxlamasına kömək edəcək. Dinləmə mətnindən də aydın olur ki, nitq etiketlərinin insanlar arasında münasibətlərin qurulmasında böyük rolu var.

**Tapşırıq B (dərslik), tapşırıq B (iş dəftəri).** Bu tapşırıqların əsas məqsədi şagirdlərə danışarkən nəzakətli ifadələrdən məqamında istifadə edilməsinin vacibliyini mənimsətməkdir. Şagirdlər verilmiş situasiyalara uyğun nəzakətli ifadələr seçməklə mövzunu mənimsədiklərini nümayiş etdirirlər.

**Doğru cavablar:** 1 – ç, 2 – d, 3 – b, 4 – c, 5 – a.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər şəklə əsasən müvafiq nitq etiketlərindən istifadə etməklə kiçik dialoq quraraq həm də yazı bacarıqlarını inkişaf etdirirlər.

Şagirdlərin qurduqları dialoq təxminən belə olmalıdır:

*Oğlan: – Salam, ay nənə, pulunuz yerə düşüb.*

*Nənə: – Çox sağ ol, oğlum. Nə yaxşı ki xəbər verdin.*

**Əlavə tapşırıq. Auksion.** Sonda müəllim şagirdlərlə nitq etiketləri üzrə auksion keçirə bilər. Uşaqlar "sehrli sözlər" (nitq etiketləri) söyləyirlər:

*– Zəhmət olmasa...*
*– İcazənizlə...*
*– Çox sağ ol...*
*– Təşəkkür edirəm...*
*– Xahiş edirəm...*
*– Məmnuniyyətlə...*
*– Üzr istəyirəm...*
*– Bağışlayın...*

Sonuncu sehrli sözü deyən şagird qalib olur.

**Topla oyun.** Bu fəaliyyət topla oyun şəklində də qurula bilər. Şagirdlər topu bir-birinə ötürərək "sehrli sözlər" söyləyirlər. Müəllim hər bir şagirdin neçə nitq etiketi söylədiyini qeyd edir. Sonda ən çox nitq etiketi söyləyə bilən şagird qalib olur.

**Tapşırıq C (dərslik).** Sonda şagirdlər "İçərişəhər" mətni üzrə Aydınla Altayın yeni mənzildə görüşməsi epizodunu səhnələşdirirlər. Məqsəd şagirdlərin situasiya zamanı müvafiq nitq etiketlərindən istifadə etmək bacarıqlarını inkişaf etdirməkdir.

*Altayın dilindən:* Salam, xoş gördük, xoş gəlmisən, həmişə siz gələsiniz, bu, xoş sürpriz oldu və s.

*Aydının dilindən:* Yeni eviniz mübarəkdir, sağlığınıza qismət, həmişə şad günlərə gələk və s.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki hadisələri həyatda gördükləri ilə müqayisə edir. | Tapşırıq A (dərslik) |
| Dinlədiyi mətndəki əsas fikri şərh edir. | Tapşırıq A (iş dəftəri) |
| Situasiyaya uyğun nitq etiketindən istifadə edir. | Tapşırıq B, C (dərslik), Tapşırıq B, C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq**. Müəllimə növbəti dərsdə sorğu keçirmək üçün dərsliyin 55-ci səhifəsindəki D tapşırığı ilə tanış olmaq tövsiyə olunur. Müəllim tapşırıqda verilən anket nümunəsi əsasında iri vərəqdə sinifdəki şagirdlərin siyahısını yazıb anket tərtib etməlidir.

## 5-ci dərs. Novruz bayramı

• Dərslik: səh. 54-55 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**

• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Mətnin hissələrini yarımbaşlıqlar və ya sual cümlələri ilə ifadə edir (st. 2.2.3).
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2).
• Yazılı təqdimatını struktur xüsusiyyətlərinə uyğun olaraq tərtib edir (st. 3.1.4).
• Saitləri növlərinə görə qruplaşdırır (st. 4.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Novruz atributunun nümayişi |
| 2 | **Oxu** | "Novruz bayramı" mətni üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətnin yarımbaşlıqlarla ifadəsi |
| 4 | **Dil qaydaları** | Sözlərin düzgün yazılışı |
| 5 | **Yazı** | Açıqcanın yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

LAYİHƏ

## Mövzuya yönəltmə

Müəllim sinifə Novruz atributlarından birini (*bəzəkli yumurta, şəkərbura, səməni* və s.) gətirir və soruşur:

*– Sizcə, bugünkü dərsimizin mövzusu nədir?*

## Oxu. Söz ehtiyatı

2.2.3 **Tapşırıq A (dərslik). Qruplarla oxu.** Müəllim şagirdləri qruplara ayırır, mətni oxuyub 5 sual tərtib etməyi tapşırır. Müəllim qrupların diqqətinə çatdırır ki, sual tərtib edərkən mətnə çəkilmiş illüstrasiyadan da istifadə edə bilərsiniz.

Qruplar hazırladıqları sualları bir-birinə təqdim edirlər. Suallar yazılı şəkildə cavablandırılır. Sonda qrupların fəaliyyəti müzakirə olunur.

Müəllim ehtiyac duyarsa, mətni yenidən özü və ya şagirdlərdən biri bütöv şəkildə səsləndirir. Sonra mətndəki yeni sözlər üzrə iş aparılır. Həftənin 2-ci və 3-cü günlərinin adlarındakı "çərşənbə" sözünü xatırladaraq bu sözü Novruz bayramı ilə əlaqələndirir. "Yel" *(külək)* və "rəmz" *(simvol, işarə)* sözlərinin mənası açıqlanır. Söz boğçasına əlavə olunur.

Müəllimin yönəldici sualları ilə şagirdlər mətnə çəkilmiş illüstrasiya üzrə danışırlar.

**Suallar:** *Şəkildə qızlar, oğlanlar hansı milli rəqsimizi oynayırlar? Şəkildə hansı Novruz rəmzləri təsvir edilmişdir?*

## Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin mətni diqqətli oxuduğunu yoxlayır. Şagirdlər müəyyən etməlidirlər ki, mətndə yumurta döyüşdürmək adəti haqqında məlumat yoxdur. Şagirdlər mətndə 1-ci və 3-cü şəklin aid olduğu hissəni (2-ci və 3-cü abzas) tapıb yenidən oxuyurlar.

**Müəllimin nəzərinə!** Müəllim bu tapşırıqla şagirdlərin oxuyub-qavramasını effektiv yoxlamaq üçün şagirdlərə sualın cavabını vərəqdə yazıb yuxarı qaldıraraq göstərməyi tapşıra bilər. Bu zaman müəllim bütün şagirdlərin mətni hansı səviyyədə mənimsəməsini asanlıqla müəyyən edə bilər.

2.2.3 **Tapşırıq C (dərslik).** Tapşırığın məqsədi şagirdlərin yarımbaşlıq filoloji anlayışı üzrə mənimsədikləri bilik və bacarıqlarının yoxlanılmasıdır. Müəllim şagirdlərə əvvəlcə mətnin giriş və sonluq hissələrini müəyyənləşdirməyə kömək edir. Mətnin əsas hissəsində hər abzasda bir çərşənbə haqqında məlumat verildiyi üçün şagirdlər yarımbaşlıqları asanlıqla müəyyənləşdirə bilərlər.

1. Xalqımızın milli bayramı
2. Su çərşənbəsi
3. Od çərşənbəsi
4. Yer çərşənbəsi
5. Torpaq çərşənbəsi
6. Novruzun rəmzi obrazları

## Yazı

3.1.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlərə I yarımildə açıqça tərtib etmək öyrədilmişdir. Bu tapşırıq vasitəsilə həm açıqçanın tərtibi, həm də nitq etiketləri üzrə mənimsədilən bilik və bacarıqlar möhkəmləndirilir.

**Diferensial təlim**

Müəllim açıqçanın yazılması zamanı şagirdlərə nəzarət edir. Açıqça yazmaqda çətinlik çəkən şagirdləri açıqçanın tərtibi ilə bağlı sorğu-sual etməklə onların biliklərini xatırladır.

Xüsusi rəssamlıq qabiliyyəti olan şagirdlərə açıqçanı Novruz bayramı mövzusuna uyğun bəzəməyi tapşıra bilər.

3.1.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər xalqımızın bayram vaxtı gördükləri, bildikləri əsasında Novruz adətləri – papaqatdı və yumurta döyüşdürmənin qaydaları barədə kiçik mətn yazırlar. Şagirdlər təxminən belə yaza bilərlər:

*Uşaqlar torbalarını və ya papaqlarını gətirib qonşunun həyətinə atırlar. Qapını döyüb sonra da cəld evin yaxınlığında gizlənirlər. Ev yiyəsi qapını açıb papağı və ya torbanı götürür. İçərisinə bayram payı qoyur. Sonra həmin yerə gətirir. Papağın yiyəsi gəlib payını götürür.*

3.1.2 **Tapşırıq D (dərslik).** Müəllim tərtib etdiyi anketi lövhədən asır. Şagirdlər anket nümunəsi ilə tanış olurlar. Şagirdlər kiçik vərəqlərdə adlarını və ən çox sevdikləri bayramı yazıb müəllimə təqdim edirlər. Müəllim vərəqləri bir-bir oxuyub anket cədvəlinin uyğun xanasında qeydlər edir.

Anket doldurulduqdan sonra müəllim lövhədə bayram adlarını yazır və hər bayram adının qarşısında həmin bayramı sevən şagirdlərin sayı qədər kublar çəkir. Diaqram hazır olduqdan sonra şagirdlər sorğunun nəticələrini yönəldici suallar əsasında şərh edirlər.

**Suallar:** *Sorğu neçə bayram üzrə keçirilib? Sorğuda neçə nəfər iştirak edib?*



LAYİHƏ

*Ən çox sevilən bayram hansıdır?*
*Ən az sevilən bayram hansıdır?* və s.

### Dil qaydaları

4.1.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərin I yarımildə saitlərin növləri üzrə öyrəndikləri biliklərin yoxlanılmasıdır. Şagirdlər şəkildə gördükləri Novruz atributlarının adlarını şifahi səsləndirməklə saitlərin növlərini müəyyən edirlər.

**Diferensial təlim**
Saitlərin növlərini fərqləndirməkdə çətinlik çəkən şagirdlərə şəkildəki Novruz atributlarının adlarını yazmaq tapşırıla bilər. Sözü yazılı şəkildə görən şagirdlər saitlərin növlərini göz yaddaşına uyğun müəyyənləşdirə bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır. | Tapşırıq B (dərslik) |
| Eyni məna qrupuna aid olan sözləri müəyyən edir. | Tapşırıq C (dərslik) |
| Yer adlarını böyük hərflə yazır. | Tapşırıq A (dərslik) |
| Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir. | Tapşırıq Ç (dərslik), Tapşırıq B (iş dəftəri) |
| Məktub yazaraq öz arzu və hisslərini ifadə edir. | Tapşırıq D (dərslik) |

## 6-cı dərs. Ümumiləşdirici dərs

• Dərslik: səh. 56 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri**
• İnformativ mətni oxuyarkən əsas məlumatları qeyd edir (st. 2.2.2).
• Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir (st. 2.2.2).
• Atalar sözlərini mövzulara görə qruplaşdırır (st. 2.1.4).
• Frazeoloji ifadələrlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.4).
• Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (ü-u, a-ə, o-a) və samitlərin (k-g, t-d) düzgün yazılış qaydalarına riayət edir (st. 4.1.3).
• Vasitəsiz nitqdə (dialoqlarda, obrazların nitqində) durğu işarələrindən (tire, qoşa nöqtə, dırnaq) yerli-yerində istifadə edir (st. 4.1.7).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmənin mövzularının xatırlanması |
| 2 | **Oxu** | “Dünyanın ən qədim xalçası” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin mövzu və məzmunu üzrə iş |
| 4 | **Söz ehtiyatı** | Atalar sözləri və frazeoloji ifadələr üzrə söz ehtiyatının yoxlanılması |
| 5 | **Dil qaydaları** | Sözlərin düzgün yazılışı, dırnaq işarəsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmədəki mövzuları xatırlatmaq üçün suallar verir:

*Bu bölmədə hansı mövzular barədə oxudunuz? Hansı mövzularda mətnlər dinlədiniz? Hansı mövzular barədə araşdırma etdiniz? Hansı mövzularda təqdimat hazırladınız? Sizin üçün bölmədə ən maraqlı mətn hansı idi?*

Şagirdlər bölmə üzrə tədris olunan mövzular üzrə öz təəssüratlarını bölüşürlər.

### Oxu

2.2.2 **Tapşırıq A (dərslik).** Mətn kiçik olduğu üçün müəllim şagirdlərə mətni müstəqil oxuyub 3 əsas məlumatı qeyd etməyi tapşırır. Tapşırığın məqsədi şagirdlərin oxuyub-qavramasını, informativ mətndə məlumatlar içərisindən əsas olanı

LAYİHƏ

seçmək bacarığının inkişafına yönəlmişdir. Müəllim şagirdlərə xatırladır ki, mətni oxuduqca tanış olmayan sözlərin (*mədəniyyət, nadir, toxucu, xalı* və s.) mənasını soruşsunlar.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq B, C (dərslik).** Bu bölmədə şagirdlərə mövzu, məzmun anlayışları öyrədilmişdir. Tapşırıqların məqsədi şagirdlərin öyrəndikləri filoloji anlayışların mənimsənilmə səviyyəsinin yoxlanılmasıdır.

B tap: Doğru cavab: 2; C tap: Doğru cavab: 1.

### Söz ehtiyatı

2.1.4 **Tapşırıq Ç (dərslik), tapşırıq A (iş dəftəri).** Şagirdlərə bölmənin tədrisində atalar sözləri də mənimsədilmiş, atalar sözlərinin mövzusu, işlənmə məqamları haqqında bilik və bacarıqlar aşılanmışdır. Tapşırıq bu bilik və bacarıqların tətbiqinə yönəlmişdir.

Ç tapşırığı üzrə doğru cavab: 3.

A tapşırığında atalar sözləri belə tamamlanmalıdır: *Zəhmət çəkməyən **bal** yeməz.*
*Yırtıq tor ilə **balıq** tutmaq olmaz.*
*Od yanmasa, **tüstü** çıxmaz.*
*Sürüdən ayrılan qoyunu **qurd** yeyər.*

2.1.4 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin bölmədə öyrəndikləri frazeoloji ifadələr üzrə söz ehtiyatını yoxlayır. Şagirdlər bölmə boyunca yeni öyrəndikləri frazeoloji ifadələrə uyğun sözü seçməklə frazeoloji ifadələrin mənasını mənimsədiklərini nümayiş etdirirlər.

**Doğru cavablar:**
*qəm dəryasına batmaq – kədərlənmək*
*özünü ələ almaq – sakitləşmək*
*xiffətini çəkmək – darıxmaq*
*yerləyeksan etmək – dağıtmaq*

### Dil qaydaları

4.1.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər deyilişi və yazılışı fərqlənən sözlərin (komanda, şokolad, konfet, kolbasa) düzgün yazılışını müəyyən etməklə bölmə üzrə əldə etdikləri orfoqrafik biliklərini nümayiş etdirirlər.

4.1.3 **Tapşırıq D (dərslik).** Bu bölmədə şagirdlər durğu işarələrindən dırnaq işarəsi ilə tanış olmuş, cümlədə vasitəsiz nitqin dırnaq işarəsi içərisində yazıldığını öyrənmişdilər. Tapşırığın məqsədi dırnaq işarəsi üzrə mənimsədilən bilik və bacarıqların yoxlanılmasıdır.

*1. Heydər Əliyev demişdi: "Mən fəxr edirəm ki, azərbaycanlıyam".*

*2. Bəxtiyar Vahabzadə deyib: "Vətən borclu deyil, biz borcluyuq vətənə".*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən əsas məlumatları seçir. | Tapşırıq A (dərslik) |
| İnformativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir. | Tapşırıq B, C (dərslik) |
| Frazeoloji ifadələrlə onların izahlarını uyğunlaşdırır. | Tapşırıq B (iş dəftəri) |
| Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir. | Tapşırıq C (iş dəftəri) |
| Vasitəsiz nitqdə durğu işarələrindən (qoşa nöqtə, dırnaq) yerli-yerində istifadə edir. | Tapşırıq D (dərslik) |



LAYİHƏ

bölmə **7** # ÜNSİYYƏT NƏDİR

| Mövzu | | **ÜNSİYYƏT NƏDİR** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Şəkillər əsasında mövzu ilə bağlı bildiklərini danışma<br>• Nitqdə arzu ifadə edən etiketlərdən (alqışdan) istifadə |
| | Söz ehtiyatı | ünsiyyət, informasiya, poçt, poçtalyon, teleqram, kanal, jurnal, qəzet, internet, əsr, Oğuz eli, xatun, yüyrək, alqış, üstələmək, cəng arabası, dirəmək, həlak olmaq, təslim olmaq, məlhəm, zindan, qandal, məmləkət, nişanə, sim, tədbirli, tacir, tələffüz, siqnal, naqil, cihaz, çaşqın, ciyilti, heyrət, monitor, minnətdarlıq<br>Frazeoloji birləşmələr: hay salmaq, bir göz qırpımında, üz tutmaq, rəngi ağarmaq |
| | Oxu | • Mətni oxuyarkən səs tonu ilə obrazların nitqini müəllif nitqindən fərqləndirmə<br>• Mətn parçalarını vahid süjet üzrə birləşdirərək nəql etmə |
| | Yazı | • Oxunulan və ya dinlənilən mətnin məzmununun yazılması<br>• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətnin yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Sıra saylarının yazıda qısa ifadəsi, hissəciklərin (şəkilçilərin) ahəng qanununa görə dəyişməsi |
| | Filoloji anlayışlar | • Sözün müxtəlif mənalar kəsb etməsi, daxili əlifba |
| Kompetensiyalar | | • Dünya tarixinə, yeni ideya və texnologiyalara maraq |

*Bu bölmənin mövzusu bilavasitə dil və onun sosial funksiyası – ünsiyyətlə bağlıdır. Şagirdlər dərk etməlidirlər ki, dil əsas ünsiyyət vasitəsidir. Onun vəzifəsi informasiyanı qəbul etmək və ötürməkdir. Şagirdlər əsas dil vahidlərinin – səsin (hərfin), sözün, cümlənin mahiyyətini dərk etməli, onların nitqdəki rolunu izah etməyi bacarmalıdırlar. Sözsüz ki, bölmədə bütün bu məlumatlar şagirdlərə akademik tərzdə deyil, sadə bədii və informativ mətnlər vasitəsilə çatdırılır.*

**Öncədən vacib olan bilik və bacarıqlar:**

– bədii və ya elmi-kütləvi mətndə rast gəldiyi informasiya haqqında rabitəli cümlələrlə danışır;

– dinlədiyi informativ mətndəki əsas məlumatlarla bağlı suallara cavab verir;

– sözləri hecalamadan bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur;

– sözə artırılmış leksik şəkilçinin semantik funksiyasını izah edir;

– empirik şəkildə (sual verməklə) sıra sayını miqdar sayından fərqləndirir;

– səslə hərfin fərqini izah edir;

– nitq etiketləri arasından arzu ifadə edən etiketləri seçir;

– hərfləri əlifba sırası ilə sadalayır.

**Diferensial təlim**

Bölmədəki bəzi mətnlər ("Qələbə xəbəri", "Əlifba", "Morzenin sirri") oxuyub-anlama bacarığı kifayət qədər inkişaf etməmiş uşaqlar üçün çətinlik yarada bilər. Bu mətnlər mənimsədilərkən şagirdlərin fəaliyyətinə diferensial yanaşmaq tövsiyə olunur. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

– Bəzi ümumişlək olmayan sözlərin – arxaizm və terminlərin izah edilməsi (*tacir, zindan, məlhəm, naqil, monitor* və s.);

– rəqəmlə ifadə olunan sıra saylarında -ıncı$^{4}$ şəkilçisinin yazılışı;

– lüğətdən istifadə zamanı daxili əlifba üzrə biliklərin tətbiqi.

**1-ci bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** *izahlı lüğət, üzərində sözlərin izahı yazılmış kartlar, kustar "telefon" düzəltmək üçün plastik stəkanlar, ip* və s.

LAYİHƏ

fəsil 1 QƏDİMDƏ İNFORMASİYA

## 1-ci dərs. "Xəbərləşmə" (I hissə)

• Dərslik: səh. 57-58 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri**
• Şəkillərə baxaraq mövzu ilə bağlı bildiklərini danışır (st. 1.2.1).
• Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur (st. 2.2.1).
• Mətndəki faktların məntiqi ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).
• Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İnformasiyanın mənimsənilməsi ilə bağlı oyun-tapşırıq |
| 2 | **Danışma** | Ünsiyyət haqqında ilkin məlumat |
| 3 | **Oxu** | İnformativ mətn üzərində iş |
| 4 | **Yazı** | Mətnin qısa məzmununun yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə tapşırır ki, gözlərini yumsunlar. Daha sonra qapıya tərəf gedərək onu açır və örtür. Bu hərəkətləri yerinə yetirərkən müəllim çalışır ki, şagirdlər onun addım səslərini, qapının açılıb-örtülməsini aydın eşitsinlər. Daha sonra şagirdlər gözlərini açırlar. Müəllim soruşur:

*– Siz gözünüzü yumarkən mən nə etdim?*

Şagirdlərin cavabları dinlənilir. Çalışmaq lazımdır ki, şagirdlər müəllimin hərəkətlərini detalları ilə təsvir etsinlər.

Müəllim:

*– Bəs siz mənim hərəkətlərim haqqında məlumatları necə əldə etdiniz? Axı gözlərinizi yummuşdunuz?*

Müzakirə nəticəsində şagirdlər bu qənaətə gəlirlər ki, bir çox məlumatları dinləmək yolu ilə də əldə etmək mümkündür. Bu qənaət sonradan dörd nitq bacarığı (dinləmə, danışma, oxu, yazı) haqqında məlumatların dərindən mənimsənilməsinə kömək edəcək.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Danışma fəaliyyəti 7-ci bölmənin titul səhifəsində verilmiş şəkil və suallar əsasında yerinə yetirilir. Şagirdlər əvvəlcə "ünsiyyət" sözünün mənasını mənimsəyirlər: məlumat alma və ötürmə. Daha sonra şagirdlər titul səhifəsindəki şəkillərə baxaraq buradakı sualları öz bilikləri səviyyəsində cavablandırırlar.

**Müəllimin nəzərinə!** Buradakı şəkillərlə bağlı bölmənin müxtəlif fəsillərində ətraflı informasiya verilir. Buna görə də titul səhifəsindəki materiallardan müşahidə əsasında diaqnostik qiymətləndirmə kimi istifadə etmək tövsiyə olunur. Bununla belə, müəllim şagirdlərin məntiqi düşünmə və təxminetmə bacarığını yoxlamaq üçün bəzi şəkillərlə bağlı yönəldici suallar da verə bilər:

• Sizcə, xəbər ötürmək üçün niyə dağ başında ocaq qalayırdılar? (Cavab: Çünki dağın başı hər tərəfdən görünür.)
• Heç poçtalyon göyərçinlər haqqında eşitmisinizmi? Onlar necə xəbər çatdırırdılar? (Cavab: Balaca kağızda xəbər yazıb öyrədilmiş göyərçinin ayağına bağlayırdılar.)
• Dəniz sahilində quraşdırılan mayakın vəzifəsi nədir? və s. (Cavab: İşıq vasitəsilə uzaqda olan gəmilərə sahilin yerini göstərmək.)

**Tapşırıq B (dərslik).** Şagirdlər əvvəlki təhsil pillələrində duyğu orqanları haqqında məlumat alıblar. Tapşırığa keçməzdən əvvəl həmin məlumatlar təkrarlanır.

Müəllim bu fəaliyyətə əyləncə məqamları qata bilər. Məsələn, şagirdlərdən biri gözlərini yumur. Müəllim ona qoxulamaq üçün hər hansı göyərti və ya ərzaq verir. Şagird qoxuladığı əşyanın nə olduğunu deyir. Digər şagird gözünü yumur, müəllim onun əlinə pambıq və ya plastilin qoyur. Şagird toxunmaqla bu əşyanı təsvir edir və ya onun nə olduğunu deyir.

Bu tapşırıqda əsas məqsəd duyğu orqanlarını informasiya mübadiləsi kontekstində nəzərdən keçirməkdir. Buna görə də sonda şagirdlər B tapşırığının şərtini oxuyurlar və şəkillərə baxaraq duyğu orqanlarının informasiyanın mənimsənilməsindəki rolu haqqında danışırlar.

Müəllim bu tapşırıq üzrə fəaliyyəti aşağıdakı kimi yekunlaşdırıb növbəti tapşırığa keçid ala bilər:

LAYİHƏ

– Ətraf aləm haqqında tam informasiya almaq üçün bütün duyğu orqanlarımıza ehtiyac var. Bəs, sizcə, informasiyanın əldə edilməsində hansı duyğu orqanlarımızın rolu daha böyükdür?

**Tapşırıq C (dərslik).** Şagirdlərin diqqəti tapşırıqda verilmiş müasir informasiya vasitələrinə yönəldilir. Şagirdlər bu vasitələrlə məlumat alarkən hansı duyğu orqanlarından istifadə edildiyini müəyyənləşdirirlər:

- telefon – eşitmə
- radio – eşitmə
- televizor – eşitmə və görmə
- kompüter – eşitmə və görmə

### Oxu

2.2.1 **Tapşırıq Ç (dərslik).** Şeiri oxumağa başlamazdan əvvəl şagirdlərə sualla müraciət olunur:

– Qədimdə televizor, kompüter kimi informasiya vasitələri yox idi. Sizcə, o zaman insanlar bir-birinə xəbəri necə çatdırırdılar?

Şagirdlərin mülahizələri dinlənildikdən sonra şeirin məzmunu ilə tanış olmaq üçün onlara bir neçə dəqiqə vaxt verilir. Daha sonra bir neçə şagirdə şeiri ifadəli oxumaq tapşırılır.

Şeirin məzmununun qavranılması ilə bağlı suallar cavablandırıldıqdan sonra şagirdlər şeiri nəsrə çevirərək öz sözləri ilə məzmununu ifadə edirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər şeirdə məlumatların hansı ardıcıllıqla verildiyini müəyyən edirlər.

### Yazı

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlərin nəzmlə verilmiş mətni yazıda öz sözləri ilə ifadə etməsi bacarığı yoxlanılır.

### Söz ehtiyatı

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər kontekstə uyğun gələn sözləri seçib cümlədə yerinə yazmaqla yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkillərə baxaraq mövzu ilə bağlı bildiklərini danışır. | Tapşırıq A, B (dərslik) |
| Mətndəki faktların məntiqi ardıcıllığını müəyyən edir. | Tapşırıq A (iş dəftəri) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tapşırıq B (iş dəftəri) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tapşırıq C (iş dəftəri) |

## 2-ci dərs. “Xəbərləşmə” (II hissə)

• Dərslik: səh. 59-60 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**

- İnformativ mətni oxuyarkən əsas məlumatları qeyd edir (st. 2.2.2).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Sözləri müəyyən olunmuş xətt boyunca düzgün yazır (st. 3.1.1).
- Sözün mənasını kontekstə görə müəyyənləşdirir (st. 2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Keçən dərslə mövzu əlaqəsinin yaradılması |
| 2 | **Oxu** | Qeyd götürməklə oxu bacarığının formalaşdırılması |
| 3 | **Söz ehtiyatı** | Söz və ifadənin həqiqi və məcazi mənasının fərqləndirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim keçən dərsdə mövzu (ünsiyyət, xəbərləşmə) ilə bağlı şagirdlərə verilmiş məlumatları xatırladır:

*– Qədimdə uzaq məsafəyə məlumat ötürmək üçün hansı vasitələrdən istifadə edirdilər?*

Şagirdlərin fikirləri dinlənildikdən sonra mövzunun davamı ilə bağlı şagirdlərin bilik səviyyələri yoxlanılır:

*– Bəs bu gün uzaq məsafəyə məlumat çatdırmaq üçün hansı vasitələr var?*

### Oxu

2.2.2 **Tapşırıq A, B (dərslik).** “Xəbərləşmə” şeirinin oxunması və buradakı məlumatların mənimsənilməsini aşağıdakı ardıcıllıqla həyata keçirmək olar:

1. Şagirdlər şeiri səssiz oxuyur, A tapşırığında deyildiyi kimi, informasiya vasitələrinin adlarını vərəqdə qeyd edirlər.

2. **Dinləmə ilə inteqrasiya.** Şeirin hissələri ayrı-ayrı şagirdlər tərəfindən ifadəli oxunur. Şagirdlər dinlədikcə öz qeydlərinə düzəlişlər edirlər.

LAYİHƏ

3. B tapşırığı yerinə yetirilir və şagirdlər qeyd etdikləri informasiya vasitələrinin şeirdəki ardıcıllığını müəyyən edirlər.

### Söz ehtiyatı

4. **İş dəftərindəki A tapşırığını** yerinə yetirməklə şagirdlər verilmiş bəzi sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

5. **Yazı ilə inteqrasiya.** 3.1.1 **İş dəftərindəki B tapşırığı** yerinə yetirilir.

6. **Danışma ilə inteqrasiya.** Müəllim şagirdlərə tapşırır ki, yazdıqları sözlərdən də istifadə etməklə şeirdəki məlumatları öz sözləri ilə genişləndirib danışsınlar.

**Diferensial təlim**

Şagirdlərdə danışma bacarığının inkişaf səviyyəsindən asılı olaraq sonuncu mərhələ çətinlik yarada bilər. Buna görə də müəllim özü başlanğıc üçün nümunə verə bilər:

"İnsanlar yazmağı öyrənəndən sonra uzaqda yaşayan qohumlarına və tanışlarına məlumatları məktub vasitəsilə göndərirdilər. Bu məktubları poçtalyonlar çatdırırdılar. Sonra qəzet və jurnallar çap eləməyə başladılar..."

### Söz ehtiyatı

**Tapşırıq C (dərslik). Dil qaydaları ilə inteqrasiya (ad, əlamət, say, hərəkət bildirən sözlər).** Şeirdə eyni rənglə verilmiş sözlər arasında iki əksmənalı söz cütlüyü var: sevinc – kədər, acı – şirin. Şagirdlər bu cütlükləri müəyyən etdikdən sonra onlardan hansının əlamət bildirdiyini deməlidirlər. Bu zaman onlar çətinlik çəksələr, tövsiyə olunur ki, əvvəlcə həmin sözlərin hansı suala cavab verdiyini müəyyən etsinlər.

**Müəllimin nəzərinə!** Növbəti tapşırıqlar sözün həqiqi və məcazi mənası ilə bağlıdır. Şeirlərdə çox tez-tez məcazi mənalı söz və ifadələrə rast gəlmək olar. Onların mənalarını izah etmədən oxuyub-anlama bacarığını tam olaraq formalaşdırmaq mümkün deyil.

2.1.2 **Tapşırıq Ç (dərslik).** Şeirdə altından xətt çəkilmiş "Daşıdılar sevincləri, kədərləri" cümləsində bədii ifadə vasitəsi olaraq metonimiyadan istifadə olunmuşdur.

Şagirdlərə bu məqamı başa salmaq üçün onların diqqəti sağ tərəfdəki şəklə yönəldilir. Şəkildə daşınan arabada sevincli və kədərli smayliklər təsvir olunmuşdur. Müəllim bildirir ki, rəssam şəkildə həmin cümləni hərfi mənada əks etdirmişdir. Əslində, poçtalyonun daşıdığı sevinc, kədər deyil, bu duyğular əks olunmuş məktublardır.

**Tapşırıq D (dərslik).** Bu misralarda da bədii ifadə vasitəsindən istifadə olunmuşdur: telefon məsafəni qısalda bilməz. Sadəcə, uzun yol qət edib çatdırılacaq məlumatı telefonla bir anda çatdırmaq olur.

**Tapşırıq E (dərslik).** Bu tapşırıq vasitəsilə sözün mənaları haqda nəzəri məlumata keçid edilir.

**"Faydalı məsləhət" rubrikası.** Rubrikada verilmiş məlumatlar söz ehtiyatı (Standart 2.1.2) ilə bağlıdır. Şagirdlər indiyə kimi "Söz boğçası" rubrikası üzərində işləyərkən bir çox sözlərin mənalarını bu və ya digər üsullarla izah etməyə çalışmışlar. Lakin onların nəzərində bir sözün yalnız bir mənası ola bilər. İlk dəfə olaraq şagirdlərə sözün çoxmənalılığı barədə məlumat verilir.

**Müəllimin nəzərinə!** Sözün çoxmənalılığı onun ilkin mənası ilə yanaşı, məcazi (törəmə) mənaya malik olmasını nəzərdə tutur. Məsələn, rubrikada verilmiş "böyük" sözünün ilkin mənası "iri, geniş"dir. Başqa sözlə, ilkin mənada bu söz ölçü bildirir. Lakin tanınmış şəxsiyyətlərlə bağlı bu söz "məşhur, istedadlı" mənasında işlənir. Bu linqvistik bilgilər 2-ci sinif şagirdinin intellektual səviyyəsinə uyğun deyil. Ona görə də hələ ki "çoxmənalı", "ilkin məna", "məcazi məna" kimi terminlərdən istifadə etməyə ehtiyac yoxdur. Bu mərhələdə əsas məqsəd bir çox sözlərin bir neçə məna ifadə etməsi faktını şagirdlərin nəzərinə çatdırmaqdır.

**Tapşırıq Ə (dərslik).** Bu tapşırıq vasitəsilə şagirdlərin əldə etdikləri yeni nəzəri məlumat möhkəmləndirilir. Cavab:

1. Bir şeyin ən yuxarı hissəsi, təpəsi, zirvəsi.
2. Heyvan bədəninin ağız, göz, qulaq yerləşən yuxarı hissəsi.
3. Birinci; rəhbər vəzifəsində olan.

**Əlavə tapşırıq.** İnsanın bədən üzvlərini bildirən bir sıra sözlər çoxmənalıdır. Müəllim bunu şagirdlərin nəzərinə çatdırıb bir neçə sözü nümunə gətirə bilər: 1) pişiyin ağzı, qapının ağzı; 2) insanın ayağı, kəndin ayağı; 3) uşağın qolu, çayın qolu və s.

LAYİHƏ

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq cümləyə (kontekstə) görə sözün mənasını müəyyənləşdirmək bacarığını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İnformativ mətni oxuyarkən əsas məlumatları qeyd edir. | Tapşırıq A (dərslik) |
| Sözün mənasını kontekstə görə müəyyənləşdirir. | Tapşırıq Ç, Ə (dərslik), Tapşırıq C (iş dəftəri) |

## 3-cü dərs. "Qədim Oğuz eli" (I və II hissələr)

• Dərslik: səh. 60-61 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri**

• Obrazların nitqini müəllif nitqindən ayıran durğu işarələrini tanıyır (st. 2.2.1).
• Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 2.2.1).
• Oxuduğu mətndəki faktlar üzrə mülahizələr yürüdür (st. 2.2.2).
• Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
• Oxuduğu və ya dinlədiyi mətndən gəldiyi nəticəni yazıda ifadə edir (st. 3.1.2).
• Situasiyadan asılı olaraq nitqində müvafiq nitq etiketlərindən (arzu) istifadə edir (st. 1.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu ilə bağlı sualların müzakirəsi |
| 2 | **Oxu** | "Qədim Oğuz eli" mətninin (I hissə) oxusu |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin izahı |
| 4 | **Oxu** | "Qədim Oğuz eli" mətninin (II hissə) oxusu |
| 5 | **Danışma** | Nitqdə arzu etiketlərinin (alqışların) işlənməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bu bölmənin 1-ci dərsində oxunmuş şeirdən misraları xatırladır:

*Ocaqları qura-qura...*
*Hay salarmış yerə-göyə,*
*Çağırarmış o, köməyə...*

Sual:

*– Sizcə, ocaq yandırmaqla necə xəbər çatdırmaq olar?*

### Oxu

**2.2.1** **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini mətnin birinci hissəsinə çəkilmiş illüstrasiyaya yönəldir. Diqqətli şagirdlər şəkildə dağ başında ocağı görüb bölmənin ilk dərsində verilmiş məlumatları xatırlaya bilərlər.

Mətnin 1-ci hissəsi şagirdlər tərəfindən növbə ilə oxunur. Müəllim tapşırır ki, şagirdlər mətni oxuyarkən obrazların nitqini onların yaşlarına uyğun səsləndirsinlər.

**2.2.2** **Tapşırıq B (dərslik).** Müəllim bu sualla bağlı (Nə üçün məhz ocaq?) şagirdlərin cavablarını dinlədikdən sonra ümumiləşdirmə apara bilər:

*– Uzağa xəbər çatdırmaq üçün elə bir işarə lazım idi ki, onu həm gecə, həm də gündüz uzaqdan görmək mümkün olsun.*

### Söz ehtiyatı

**2.1.2** **Söz boğçası.** Mətnin 2-ci hissəsi üzərində işə keçməmişdən əvvəl söz boğçasında verilmiş sözlərin mənalarını açıqlamaq tövsiyə olunur. Xüsusilə "Oğuz eli", "yüyrək", "xatun" kimi ümumişlək olmayan söz və ifadələrə diqqət yetirmək lazımdır.

***Oğuz eli.*** Şagirdlərə ümumi şəkildə məlumat verilir ki, Azərbaycanda müxtəlif xalqların nümayəndələri yaşayır: ləzgilər, talışlar, kürdlər və s. Onlardan hər birinin öz dili, adət-ənənələri olsa da, hamısı azərbaycanlı adlanır. Əhalinin böyük hissəsini isə Azərbaycan türkləri təşkil edir. Dövlət dilimiz olan Azərbaycan dili də məhz Azərbaycan türklərinin dilidir. Azərbaycan türklərinə qədimdə oğuzlar deyirdilər.

***Xatun***. Qədim türklərdə hökmdara xaqan, onun arvadına və şahzadə qızlara isə xatun deyirdilər. Sonralar bu söz daha geniş mənada – *xanım* mənasında işlənməyə başladı. Müasir dilimizdəki *qadın* sözü həmin sözdən yaranıb.

***Yüyrək***. Şagirdlərə nağıllarda işlədilən özünəməxsus ifadələr xatırladılır: *Az getdi, üz getdi, dərə, təpə düz getdi; Altdan geyindi, üstdən qıfıllandı...* və s. Daha sonra şagirdlərin diqqəti

LAYİHƏ

"Qədim Oğuz eli" mətninin 2-ci hissəsinin 1-ci cümləsinə yönəldilir: "Nağıl dili yüyrək olar". Bu ifadənin mənası açıqlanır: *Nağılda hər şey çox tez baş verir*. "Yüyrək" sözünün mənası: bərk qaçan, itigedən (çox zaman at haqqında deyilir).

Şagirdlərə yeni tanış olduqları sözləri cümlələrdə işlətmək tapşırılır.

### Oxu

2.2.1 **Tapşırıq C (dərslik). Təxminetmə.** Sual şagirdlərin təxəyyülünə yönəlmişdir. Müxtəlif fərziyyələr ola bilər. Diqqətli şagirdlər illüstrasiyaya baxaraq dağ başında iki ocaq qalandığını deyə bilərlər.

Daha sonra şagirdlər mətni növbə ilə oxuyurlar.

### Yazı

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər şəkillərə baxaraq mətndən çıxan nəticəni və təxminlərini qısa cümlələrlə ifadə edib yazırlar.

### Danışma

2.2.4 Müəllim 6-cı bölmədə keçilmiş nəzakətli ifadələr (səh. 54) dərsini xatırladır. Uşaqlara bir neçə təşəkkür, xahiş, təbrik bildirən nəzakətli ifadə deməyi tapşırır. Daha sonra ümumi məlumat verir:

– Elə nəzakətli ifadələr də var ki, onların vasitəsilə insanlar bir-birinə xoş arzularını ifadə edir. Məsələn, xəstə adama baş çəkərkən ona "Yastığın yüngül olsun" deyirlər.

**Müəllimin nəzərinə!** Alqış müstəqil folklor janrı olsa da, onu arzu ifadə edən nitq etiketi kimi qəbul etmək olar. Ona görə də alqışla bağlı bu və növbəti dərsdəki tapşırıqlar şagirdlərin nitqinin zənginləşdirilməsi məqsədi daşıyır.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər situasiya ilə bağlı öz variantlarını dedikdən sonra "Bunları bilməliyik" rubrikasındakı məlumat mənimsədilir.

**Tapşırıq D (dərslik), tapşırıq B (iş dəftəri).** Bu tapşırıqlar vasitəsilə alqışla bağlı mənimsədilmiş biliklər möhkəmləndirilir.

**Müəllimin nəzərinə!** Alqış mövzusu ilə bağlı tətbiqetmə mərhələsi növbəti dərsdə həyata keçiriləcək.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | Tapşırıq A, C (dərslik) |
| Oxuduğu mətndəki faktlar üzrə mülahizələr yürüdür. | Tapşırıq B (dərslik) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | "Söz boğçası" rubrikası |
| Oxuduğu və ya dinlədiyi mətndən gəldiyi nəticəni yazıda ifadə edir. | Tapşırıq A (iş dəftəri) |
| Situasiyaya uyğun arzu etiketi seçir. | Tapşırıq Ç, D (dərslik), Tapşırıq B (iş dəftəri) |

## 4-cü dərs. "Qədim Oğuz eli" (III hissə)

• Dərslik: səh. 62 • İş dəftəri: səh. 40

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 2.2.1).
• Oxuduğu və ya dinlədiyi mətndən gəldiyi nəticəni yazıda ifadə edir (st. 3.1.2).
• Situasiyadan asılı olaraq nitqində müvafiq nitq etiketlərindən (arzu) istifadə edir (st. 1.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Qədim Oğuz eli" mətninin əvvəlki hissələri üzrə sual-cavab |
| 2 | **Oxu** | "Qədim Oğuz eli" mətninin oxusu; rollu oyun |
| 3 | **Yazı** | Mətndəki fikirlərlə bağlı mühakimələrin yazılması |
| 4 | **Danışma** | Nitqdə arzu etiketlərinin (alqışların) işlənməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim mətnin birinci və ikinci hissələri ilə bağlı sual-cavab edir. Sual-cavab nəticəsində şagirdlərdə qədim oğuzların adət-ənənələri, yaşayış tərzi haqqında dolğun təsəvvür yaranır. İmkan olarsa, "Dədə Qorqud" filmindən fraqmentlər göstərilir.

**Tapşırıq A (dərslik).** Şagirdlər mətnə çəkilmiş illüstrasiyaya baxaraq suala bağlı fərziyyələrini söyləyirlər.



LAYİHƏ

## Oxu

2.2.1 Şagirdlər mətni növbə ilə oxuyurlar. Dialoq oxunarkən şagirdlərə tapşırılır ki, səs tonlarını obrazların yaşına və xarakterinə uyğun dəyişsinlər.

Mətndəki faktoloji materialın qavranması yoxlanılır:

– Bu dəfə dağ başında neçə ocaq qalanmışdı?

– Bu ocaqlar insanları nəyə səsləyirdi?

**Tapşırıq B (dərslik).** Bu tapşırıq mətnin hissələrini ümumiləşdirməyə imkan verir.

**Rollu oyuna hazırlıq.** Müəllim dialoqla bağlı 1-ci yarımildə (3-cü bölmədə) verilmiş məlumatları xatırladır:

– Dialoq nədir? (Cavab: iki və daha çox adam arasında söhbət.)

– Dialoqda hər bir obrazın nitqinin əvvəlində hansı işarə qoyulur? (Cavab: tire işarəsi.)

**Rollu oyun (Cütlərlə iş).** Şagirdlər cütlərlə işləyərək “Qədim Oğuz eli” mətnindəki dialoqları rollu oyun şəklində səhnələşdirirlər. Müəllim bu fəaliyyətlə bağlı tapşırıqlar verir:

1. Obrazların nitqini öz sözlərinizlə ifadə etməli və genişləndirməlisiniz.

2. Obrazların nitqi onların yaşına uyğun ifadəli səsləndirilməlidir.

Daha sonra müəllim bildirir ki, cütlərin təqdimatı zamanı seyrçi şagirdlər onların fəaliyyətini qiymətləndirməlidirlər. Bunun üçün müəllim lövhədə “Şagirdlərin bir-birini qiymətləndirməsi” cədvəli çəkə bilər:

| | Meyar | Bal |
|---|---|---|
| 1 | Aydın səslə danışırdılar. | |
| 2 | Jest və mimikaları danışığa uyğun idi. | |
| 3 | İfadəli və təsiredici danışırdılar. | |

Yaxşı olar ki, cütlərə məşq və müzakirə üçün bir qədər vaxt verilsin. Vaxt bitdikdən sonra bir neçə cütün təqdimatı izlənilir və müzakirə edilir.

## Yazı

3.1.2 Müəllimin tapşırığı ilə şagirdlər əvvəlcə mətnin 3-cü hissəsindən babanın sözlərini bir daha oxuyurlar. Bu cümlələrin mahiyyətini daha dərindən dərk etmələri üçün müəllim yönəldici məlumatlar və suallar verə bilər:

– Belə bir ifadə var: “Torpaq uğrunda ölən varsa, vətəndir”. Bu sözləri necə başa düşürsünüz?

– Anadan olduğumuz yerə vətən deyirik. Lakin vətəni sadəcə olaraq sevmək azdır. Onu qorumaq, abadlaşdırmaq lazımdır. Yalnız bu halda biz vətənə layiq övlad ola bilərik.

Daha sonra **iş dəftərindəki A tapşırığı** yerinə yetirilir.

## Danışma

2.2.4 Müəllim ötən dərsdə keçilmiş alqışlarla bağlı məlumatları xatırladır. Şagirdlərin bu mövzunu dərindən mənimsədiklərinə əmin olmaq üçün **iş dəftərindəki B tapşırığı** yerinə yetirilir. Tapşırıqda verilmiş aşağıdakı cümlələr alqışdır.

- Adın dillər əzbəri olsun.
- Başın bəlalar görməsin.
- Elindən ayrı düşməyəsən.
- İşin avand olsun.

Şagirdlər nə üçün məhz bu cümlələri seçdiklərini əsaslandırmalıdırlar. (Bu ifadələrdə qarşı tərəfə xoş arzu ifadə olunur.)

**Tapşırıq C (dərslik).** Bu tapşırıq vasitəsilə şagirdlər arzu ifadə edən etiketləri öz şifahi nitqlərində işlətməyi öyrənirlər. Bu zaman onlar yalnız dilimizdə mövcud olan standart etiketləri deyil, öz səmimi arzularını da ifadə edə bilərlər.

## Dil qaydaları

**Tapşırıq C (iş dəftəri). Fəndaxili şaquli inteqrasiya (1-ci sinif: ad, əlamət).** Bu tapşırıq vasitəsilə şagirdlər ad, əlamət, say, hərəkət bildirən sözlərlə bağlı biliklərini təkrar etmiş olurlar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | Rollu oyun (MV) |
| Oxuduğu və ya dinlədiyi mətndən gəldiyi nəticəni yazıda ifadə edir. | Tapşırıq B (dərslik), Tapşırıq A (iş dəftəri) |
| Situasiyadan asılı olaraq nitqində müvafiq nitq etiketlərindən (arzu) istifadə edir. | Tapşırıq C (dərslik), Tapşırıq B (iş dəftəri) |

LAYİHƏ

## 5-ci dərs. "Qələbə xəbəri" (I hissə)

• Dərslik: səh. 63-64 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir (st. 2.2.1).
• Verilmiş məna qrupuna aid sözləri müəyyənləşdirir (st. 2.1.1).
• Mətndəki obrazın xarakterini səciyyələndirməklə əsas fikrə münasibətini bildirir (st. 2.2.4).
• Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəbini izah edir (st. 2.2.5).
• İnformativ mətndəki əsas məlumatları qeyd edir (st. 2.2.2).
• Miqdar və sıra saylarını fərqləndirir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzuya uyğun coğrafi anlayışlarla bağlı ilkin məlumatlar |
| 2 | **Oxu** | Rollu oxu |
| 3 | **Söz ehtiyatı** | Mətndə adıçəkilən şəxs və coğrafi adlar |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 5 | **Dil qaydaları** | Miqdar və sıra sayları |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

"Qələbə xəbəri" mətninin məzmununu qavramaq üçün şagirdlər müəyyən coğrafi biliklərə malik olmalıdırlar. Bu məqsədlə müəllim xəritədə və ya qlobusda Azərbaycanı və Xəzər dənizini göstərir. Sual:

*– Azərbaycanla qonşu olan hansı ölkələri tanıyırsınız?*

2-ci sinif uşaqlarının bu sualla bağlı bilikləri az ola və ya heç olmaya bilər. Onlara xəritədə qonşu ölkələr, o cümlədən İran göstərilir. Daha sonra onların diqqəti Türkiyə və Yunanıstanın ərazisinə yönəldilir. Bildirilir ki, çox qədimdə indiki Türkiyənin ərazisi də Yunanıstana daxil idi. Beləliklə, İran və Yunanıstan qonşu dövlətlər idi. Daha sonra şagirdlərin "paytaxt" anlayışı ilə bağlı bilikləri yoxlanılır:

*– Ölkənin mərkəzi şəhəri başqa cür necə adlanır?*

*– Azərbaycanın paytaxtı hansı şəhərdir?*

*– Nə üçün düşmənlər ölkəyə hücum edəndə ilk növbədə paytaxtı tutmağa çalışırlar?* (Cavab: Çünki dövlət başçısı və hökumət paytaxtdan bütün ölkəni idarə edirlər.)

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Müəllim bildirir ki, "Qələbə xəbəri" mətni üç hissədən ibarətdir. O, şagirdlərə tapşırır ki, dərsliyin 63, 65 və 66-cı səhifələrində mətnə çəkilmiş illüstrasiyalara nəzər salsınlar. Daha sonra şagirdlərin diqqətini mətnin adına yönəldir. Sual:

*– Sizcə, bu mətndə nədən danışılır? Nə üçün mən dərsin əvvəlində İran və Yunanıstan dövlətlərinin adını çəkdim?*

Şagirdlərin fərziyyələri dinlənildikdən sonra onlara tapşırılır ki, mətnin 1-ci hissəsini bir dəfə səssiz oxusunlar. Müəllim bunun üçün vaxt təyin edib şagirdlərin oxu sürətinin monitorinqini apara bilər.

Səssiz oxu bitdikdən sonra müəllim mətndəki obrazlarla bağlı şagirdlərin fikrini soruşur:

*– Mətndə neçə obraz var?*

*– Hansı ağsaqqalları müdrik, ehtiyatlı hesab etmək olar?*

*– Bəs hansı ağsaqqalın çıxışı onun qorxaq olduğunu göstərir?*

*– Hansı obrazı cəsur adlandırmaq olar?*

**Müəllimin nəzərinə!** Obrazların təhlili, onlara münasibətin bildirilməsi oxu prosesinin növbəti mərhələsi – Rollu oxu üçün vacibdir. Belə ki, şagirdlər obrazların nitqini onların xarakterinə uyğun səsləndirməlidirlər.

**Rollu oxu.** Şagirdlər mətnin 1-ci hissəsinin məzmunu ilə tanış olduqdan sonra Rollu oxu üsulu tətbiq edilir. Mətndə dörd obrazın nitqi verilmişdir: üç ağsaqqal və sərkərdə Miltiad. Şagirdlər arasından 5 "aktyor" seçilir: müəllif və obrazlar. Hərə ardıcıllığı gözləməklə mətndən özünə aid olan hissəni oxuyur.

**Müəllimin nəzərinə!** Bu cür mətnləri "Rollu oxu" üsulu ilə oxumaq şagirdlərdə dinləyərək mətni izləmək, durğu işarələrinin köməyi ilə müəllif nitqini obrazların nitqindən fərqləndirmək kimi bacarıqları inkişaf etdirir.

Müəllim keçən dərsdə olduğu kimi, bu dəfə də şagirdlərin bir-birini qiymətləndirməsi cədvəlindən istifadə edə bilər. Bu zaman aşağıdakı meyarlar tətbiq oluna bilər:

1. Aydın səslə oxuyurdu.

LAYİHƏ

2. Jest və mimikaları nitqinə uyğun idi.

3. Obrazın nitqini onun xarakterinə uyğun səsləndirirdi.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq B (dərslik).** Mətndə adların çoxluğu, adətən, onun qavranılmasını çətinləşdirir. Doğrudur, dərsin mövzuya yönəltmə mərhələsində İran və Yunanıstan yer adları açıqlanmışdır. Bununla belə, digər adların da (Afina, Marafon, Miltiad) mənimsədilməsi mətni daha dərindən anlamağa kömək edərdi.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq C (dərslik).** Mətndə 3-cü ağsaqqalın çıxışı onun qorxaq, vətənin taleyinə laqeyd olduğunu göstərir. Bu tapşırıq şagirdlərdə oxuyub-qavrama, danışma bacarıqlarının inkişafı ilə yanaşı, vətənpərvərlik hissi aşılayır.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş cümlələri tamamlamaqla hadisələrin və obrazların davranışının səbəbini izah etmiş olurlar.

**Tapşırıq D (dərslik).** Mətnin son cümləsində ifadə olunmuş məlumatlardan düzgün nəticə çıxarmaqla şagirdlər mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

2.2.2 **Tapşırıq A (iş dəftəri).** Mətndə ölkə, şəhər və obrazlarla bağlı bir sıra məlumatlar öz əksini tapmışdır. Həmin məlumatları qeyd etməklə şagirdlər mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

### Dil qaydaları

4.1.5 **Tapşırıq E (dərslik).** Mətndə sözlə ifadə olunmuş bir neçə miqdar və sıra sayı qırmızı və mavi rənglərdə verilmişdir. Şagirdlər riyaziyyat dərslərində əldə etdikləri biliklərdən istifadə etməklə miqdar və sıra sayları arasındakı fərqi izah edirlər. Tapşırıqda verilmiş sxem bu işdə onlara kömək edə bilər.

**"Bunları bilməliyik" rubrikasında** verilmiş nəzəri məlumatlar mənimsədilir. Rubrikada miqdar və sıra sayının fərqləri ilə yanaşı, rəqəmlə ifadə olunan sıra saylarının düzgün yazılışı haqqında məlumat verilir. Qeyd etmək lazımdır ki, şagirdlər məhz bu sayların yazılışında tez-tez səhvə yol verirlər.

**Tapşırıq Ə, F (dərslik), tapşırıq B, C (iş dəftəri).** Miqdar və sıra saylarının kontekstə görə fərqləndirilməsi, sıra saylarının yazılışı ilə bağlı nəzəri məlumatları möhkəmləndirir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. | Tapşırıq A (dərslik) |
| Verilmiş sözləri aid olduqları ümumi məna üzrə qruplaşdırır. | Tapşırıq B (dərslik) |
| Mətndəki obrazın xarakterini səciyyələndirməklə əsas fikrə münasibətini bildirir. | Tapşırıq C (dərslik) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəbini izah edir. | Tapşırıq Ç (dərslik) |
| İnformativ mətndəki əsas məlumatları qeyd edir. | Tapşırıq A (iş dəftəri) |
| Miqdar və sıra saylarını fərqləndirir. | Tapşırıq E, Ə, F (dərslik), Tapşırıq B, C (iş dəftəri) |

## 6-cı dərs. "Qələbə xəbəri" (II hissə)

• Dərslik: səh. 65 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri**

• Mətni oxuyarkən tanış olmayan sözləri qeyd edir (st. 2.2.1).
• Mətndə rast gəldiyi frazeologizmləri həqiqi mənalı sözlərlə əvəz edir (st. 2.1.4).
• Faktlar arasında səbəb-nəticə əlaqəsindən çıxış edərək mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• İllüstrasiyaya baxaraq mətni genişləndirib nəql edir (st. 2.2.3).

• **Köməkçi vasitələr (təchizat):** *izahlı lüğət*

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin mövzusu üzrə əsas anlayışların qavradılması |
| 2 | **Oxu** | Mətnin oxunması, yeni söz və ifadələrin qeyd olunması |
| 3 | **Söz ehtiyatı** | İzahlı lüğət üzrə iş, izahlı lüğətin tərtibi |
| 4 | **Oxuyub-qavrama** | Vizual qavrama |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Qələbə xəbəri" mətninin 1-ci hissəsi üzrə sual-cavab edir. Situasiya xatırladılır. Şagirdlərin təxminləri soruşulur.

LAYİHƏ

*– Mətnin 1-ci hissəsində obrazlar hansı problemlə qarşılaşmışdılar?*

*– Sizcə, mətnin növbəti hissələrində nə haqda danışılacaq?*

*– Mətnin 1-ci hissəsində ortaya çıxmış problem necə həll olunacaq?*

Daha sonra müəllim “döyüş” və “müharibə” sözlərinin mənaları arasındakı fərqi soruşur.

Müharibə – dövlətlər arasında silahlı mübarizə;

Döyüş – vuruşma, savaş, dava.

Müəllim bildirir ki, müharibə uzun çəkən prosesdir. O bəzən illərlə uzanır. Döyüş müharibənin bir fraqmentidir; o, bir neçə saat, ən çox bir neçə gün davam edə bilər.

**Müəllimin nəzərinə!** “Qələbə xəbəri” mətninin 2-ci hissəsi Marafon döyüşü haqqındadır. Bu döyüş miladdan öncə 490-cı il sentyabrın 12-də baş verib. Şagirdlərə bu tarixi, sadəcə, “təxminən 2500 il əvvəl” deyə çatdırmaq olar. Mətni daha dərindən qavramaq üçün şagirdlər o dövrdə baş verən döyüşləri təsəvvür etməlidirlər. Bunun üçün müəllim bəzi yönəldici suallar verə bilər:

*– Müasir dövrdə döyüş zamanı hansı silahlardan və nəqliyyat vasitələrindən istifadə olunur (müxtəlif odlu silahlar: avtomat, pulemyot, qumbara, tank, qırıcı və bombardman təyyarələr, sualtı gəmilər və s.)?*

*– Bəs sizin fikrinizcə, 2500 il əvvəl hansı silah və minik vasitələrindən istifadə olunurdu (qılınc, nizə, yay-ox, at, cəng arabası, döyüş filləri və s.)?*

## Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik).** Mətn növbə ilə şagirdlər tərəfindən oxunur. Müəllimin tapşırığı ilə dinləyən şagirdlər mətni kitabdan izləməklə yanaşı, rast gəldikləri tanış olmayan sözləri vərəqdə yazırlar.

Oxu prosesi bitdikdən sonra şagirdlər qeyd etdikləri tanış olmayan sözləri lövhədə yazırlar. (Sözlər təkrar olunmamalıdır.) Daha sonra lövhədəki siyahı söz boğçasındakı siyahı ilə müqayisə olunur və sözlərin izahı üzrə iş aparılır.

**Tapşırıq B (dərslik).** Mətndəki bədii ifadələr üzrə iş aparılır. **Yönəldici suallar:**

*– Doğrudanmı, oxlar Günəşin qarşısını tuta bilər? Bəs nə üçün müəllif belə yazır? (Oxların və düşmən əsgərlərinin çox olduğunu göstərmək üçün.)*

*– Mətndə “ilanın başı” dedikdə nə nəzərdə tutulur? (Düşmən ordusunun başçısı.)*

2.1.4 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda şagirdlər kontekstdən çıxış edərək frazeoloji birləşmələri yaxınmənalı sözlərlə əvəz edirlər.

1. Cəld xəncərini çıxarıb sərkərdənin boğazına dirədi.
2. Döyüşçülərinə de ki, təslim olsunlar.
3. Sərkərdə qorxdu.

## Oxuyub-qavrama

**Tapşırıq C (dərslik), tapşırıq B (iş dəftəri).** Bu tapşırıqlar vasitəsilə şagirdlər mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

2.2.5 **Tapşırıq C (iş dəftəri).** Mətndəki hadisələrin ardıcıllığını müəyyən etmək növbəti tapşırığa keçidi təmin edir. Mətndəki hadisələrin ardıcıllığını müəyyən etdikdən sonra şagirdlər iş dəftərindəki cümlələri ardıcıllıqla oxuyurlar.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq şagirdlərdə vizual qavrama və nəqletmə bacarığını inkişaf etdirir. Bu fəaliyyəti səmərəli təşkil etmək üçün müəllimin köməyi, yönəldici sualları olmalıdır. Ona görə də tapşırığı aşağıdakı mərhələlərlə yerinə yetirmək tövsiyə olunur:

1. Müəllim şagirdlərin diqqətini mətnə çəkilmiş illüstrasiyaya yönəldir. Yönəldici suallar verməklə şəkli təsvir etməyi tapşırır:

*– Şəkildə sərkərdə Miltiadı göstərə bilərsinizmi? Nədən bildiniz ki, bu, Miltiaddır?*

*– Ön planda yerə yıxılmış əsgər yunan əsgəridir, yoxsa İran?*

*– Yunan və İran əsgərlərinin döyüş geyimi nə ilə fərqlənir?*

*– Bəs onların qılıncları necə fərqlənir?*

2. Müəllim təklif edir ki, şagirdlər gözlərini yumsunlar və döyüşü xəyallarında təsəvvür etsinlər. Bu zaman müəllim onlara suallar verir:

*– Nə görürsünüz? Təsvir edin. (Şagirdlər şəkildə gördüklərini və mətndən döyüşün təsviri ilə bağlı oxuduqlarını danışırlar.)*

*– Bəs nə eşidirsiniz? (Dəmirlərin cingiltisi, əsgərlərin nərəsi, yaralıların iniltisi, oxların vıyıltısı, at kişnərtisi...)*

Şagirdlər suallara cavab verərkən gözlərini açmamalıdırlar. Bu, təxəyyülü və beyində canlandırmanı daha da gücləndirir.

LAYİHƏ

3. Şagirdlər döyüşlə bağlı indicə təsəvvür etdiklərini də əlavə etməklə Marafon döyüşü haqda mətni nəql edirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən tanış olmayan sözləri qeyd edir. | Tapşırıq A (dərslik) |
| Mətndə rast gəldiyi frazeologizmləri həqiqi mənalı sözlərlə əvəz edir. | Tapşırıq A (iş dəftəri) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tapşırıq C (iş dəftəri) |
| İllüstrasiyaya baxaraq mətni genişləndirib nəql edir. | Tapşırıq Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə tapşırılır ki, qaçış idman növü haqqında məlumat toplasınlar.

## 7-ci dərs. “Qələbə xəbəri” (III hissə)

• Dərslik: səh. 66 • İş dəftəri: səh. 43

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqini müəllif nitqindən fərqləndirmək üçün müxtəlif səs tonundan istifadə edir (st. 2.2.1).
• Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəbini izah edir (st. 2.2.5).
• Sözün mənasını kontekstə görə müəyyənləşdirir (st. 2.1.2).
• Mətndə rast gəldiyi frazeologizmləri həqiqi mənalı sözlərlə əvəz edir (st. 2.1.4).
• Mətnin hissələrini vahid süjet xətti üzrə birləşdirir (st. 2.2.3).
• Oxuduqlarını həyatda gördükləri ilə müqayisə edir (st. 1.2.1).

• **Köməkçi vasitələr (təchizat):** *izahlı lüğət*

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin məzmununun “Marafon yarışı” ifadəsi ilə əlaqələndirilməsi |
| 2 | **Oxu** | Sözlərin əlifba sırası ilə düzülüşü |
| 3 | **Söz ehtiyatı** | Məcazi mənalı sözlər və frazeologizmlər üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | “Qələbə xəbəri” mətni üzrə ümumiləşdirici tapşırıqlar |
| 5 | **Danışma** | Biliklərindən istifadə etməklə fikir yürütmə |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllimin tapşırığı ilə şagirdlər qaçış idman növü ilə bağlı topladıqları məlumatları təqdim edirlər.

**Əlavə məlumat.** Qaçış üzrə idman növləri ilk növbədə məsafəyə görə fərqlənir. Sprint qaçışında idmançılar 100, 200, 400 metr məsafəyə qaçırlar. Orta məsafə 800 metrdən 3000 metrə qədər olur. Uzaq məsafə 5000 və 10000 metr sayılır. Nəhayət, qaçışda ən uzun məsafə 42 km-dir ki, bu, Marafon qaçışı adlanır.

Müəllim yönəldici suallar vasitəsilə “Marafon qaçışı” ifadəsinin səslənməsinə nail olmalıdır. Daha sonra bu yarış növü ilə bağlı suallar verilir:

*– Marafon yarışında idmançılar hansı məsafəyə qaçırlar? (42 km)*

**Müəllimin nəzərinə!** Şagirdlər riyaziyyat fənnindən hələ ki “kilometr” anlayışını mənimsəməyiblər. Ona görə də müəllim əyani nümunələrlə bu məsafə haqqında şagirdlərdə ümumi təsəvvür yaratmalıdır. Məsələn: “Bizim rayon mərkəzindən qonşu rayon mərkəzinə qədər olan məsafə” və ya “Bakıdan Sumqayıta qədər olan məsafədən bir qədər çox”.

*– Marafon şəhəri ilə paytaxt Afina arasındakı məsafə nə qədər idi?*

*– Sizcə, nə üçün bu yarış “Marafon qaçışı” adlanır? Bu yarış növünün “Qələbə xəbəri” mətnində oxuduğunuz Marafon şəhəri və Marafon döyüşü ilə nə əlaqəsi ola bilər?*

Şagirdlərin bu suallarla bağlı təxminləri mətnin sonuncu hissəsini oxumağa stimul yaradır. Müəllim bildirir ki, mətnin sonuncu hissəsini oxuduqdan sonra onlar bir daha bu suallara cavab verməli və bu cavabı öz təxminləri ilə müqayisə etməlidirlər.

LAYİHƏ

### Oxu

Müəllim sual-cavab yolu ilə “Qələbə xəbəri” mətninin əvvəlki hissələrini xatırladır. Mətnin 1-ci hissəsində ağsaqqalların Miltiada dedikləri sözlər şagirdlərin diqqətinə çatdırılır: “Üç gün ərzində səndən xəbər çıxmasa, biz qadınları və uşaqları şəhərdən çıxaracağıq”.

Suallar:

*– Bu söhbətdən neçə gün sonra Marafon döyüşü baş verdi?*

*– Bu döyüşdə kim qalib gəldi?*

*– Sizcə, həmin gün Afinada nə baş verirdi? (Qadınları və uşaqları şəhərdən çıxarmağa hazırlaşırdılar.)*

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər mətni növbə ilə oxuyurlar. Oxu zamanı müəllif nitqini obrazların nitqindən intonasiya vasitəsilə fərqləndirməyə xüsusi diqqət yetirilir.

2.2.5 Mətndən sonra (şəklin altında) qoyulmuş suallar şərhetmə xarakterlidir. Belə ki, mətndə bu sualların birbaşa cavabı yoxdur. Şagirdlər hadisələrdən, dialoqlardan nəticə çıxararaq bu suallara cavab verməlidirlər:

• Nəyə görə Afinaya xəbəri gecikdirmək olmazdı?

<u>Cavab</u>: Çünki xəbər geciksəydi, qadın və uşaqları şəhərdən çıxarıb dağlara aparacaqdılar.

• Nə üçün Afina qalasının gözətçiləri Marafon tərəfə intizarla baxırdılar?

<u>Cavab</u>: Onlar qələbə xəbəri gözləyirdilər.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq B (dərslik).** Bu dərsdə sözün mənaları üzrə əvvəlki dərslərdə verilmiş bilik və bacarıqlar təkrar olunur. Şagirdlər verilmiş cavab variantları arasından “ağır döyüş” ifadəsindəki “ağır” sözünün mənasını seçməlidirlər. (**Düzgün cavab:** b) şiddətli, amansız.) Hər bir izahdan sonra mötərizədə verilmiş söz birləşməsi (kontekst) sözün mənasını daha yaxşı başa düşməyə xidmət edir.

2.1.4 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda şagirdlər frazeoloji birləşmənin kontekstə görə mənasını müəyyən etməlidirlər. (**Düzgün cavab:** B) getməyə başladı.)

### Oxuyub-qavrama

2.2.3 Növbəti tapşırıqlarda müxtəlif dərslərdə oxunmuş mətn parçalarını birləşdirərək vahid mətn üzrə iş aparmaq tələb olunur.

**Tapşırıq C (dərslik).** Şagirdlər üç qrupa ayrılırlar. Hər qrupa mətnin bir hissəsi verilir. Şagirdlər müəyyən vaxt ərzində verilmiş hissəni bir daha nəzərdən keçirir, əsas hadisələri xatırlayır və mətnin planını tuturlar.

**Diferensial təlim**

Mətndən əsas hadisələri seçmək və onları yarımbaşlıqlarla adlandırmaq xüsusi bacarıq tələb edir. 2-ci sinif şagirdlərində bu bacarıq tam formalaşmayıb. Ona görə də bu tapşırığın yerinə yetirilməsində müəllimin iştirakı vacibdir. O, bir-bir qruplara yanaşmalı, əvvəlcə əsas hadisələri seçməkdə, sonra isə bu hadisələri lakonik cümlə və ya söz birləşməsi ilə adlandırmaqda şagirdlərə yardımçı olmalıdır.

**Tapşırıq Ç (dərslik).** “Qələbə xəbəri” mətnində baş verən hadisələri yaddaşda təzələdikdən sonra şagirdlər mətnin hekayə xəritəsini qururlar. Bunun üçün müəllim lövhədə hekayə xəritəsinin sxemini çəkə bilər.

**Tapşırıq B (iş dəftəri).** Müəllim mətnin tərkib hissələri haqda bilikləri şagirdlərə xatırladır:

*Mətnin <u>giriş hissəsində</u> hadisələrin baş verdiyi yer, vaxt, burada iştirak edən obrazlar haqqında ümumi məlumat verilir.*

*<u>Əsas hissədə</u> baş verən hadisələr nəql olunur.*

*<u>Sonluqda</u> hadisələrin nə ilə nəticələndiyi, problemin necə həll olunduğu bildirilir.*

Şagirdlər B tapşırığını yerinə yetirmək üçün əvvəlcə cümlələri sıralayır, daha sonra onları tərkib hissələri üzrə bölüşdürürlər:

<u>Giriş:</u>

• Yunanıstanla İran arasında müharibə gedirdi.

<u>Əsas hissə:</u>

• Ağsaqqallar məşvərətə yığışdılar.

• Miltiad öz ordusu ilə düşmənə qarşı döyüşə çıxdı.

• Yunan ordusu iranlılara qalib gəldi.

<u>Sonluq</u>:

• Yunan əsgəri qələbə xəbərini Afinaya vaxtında çatdırdı.

### Danışma

**Müəllimin nəzərinə!** “Qələbə xəbəri” mətni şagirdlərə vətənpərvərlik, iradə, mübarizlik ruhu aşılamaqla yanaşı, onların dünyagörüşünü genişləndirir, belə ki, şagirdlərə qədim dövlətlər – Yunanıstan, İran haqqında, eləcə də “Marafon qaçışı” ifadəsinin mənşəyi ilə bağlı sadə məlu-

LAYİHƏ

matlar verir. Bununla belə, sonda bu mətnin mövzusunu bölmənin mövzusu ilə ("Ünsiyyət nədir") əlaqələndirmək vacibdir. Növbəti tapşırıq məhz bu məqsədə xidmət edir.

**1.2.1** Müəllim şagirdlərə belə bir sualla müraciət edir:

– *Oxuduğunuz mətndə yunan döyüşçüsü qələbə xəbərini paytaxta çatdırmaq üçün 42 km məsafəni dayanmadan qaçır. Təsəvvür edin ki, Qarabağda gedən döyüşlərin birində siz də iştirak etmisiniz. Siz qələbə xəbərini paytaxt Bakıya hansı informasiya vasitələri ilə çatdırardınız?*

Bu sual vasitəsilə şagirdlər müasir rabitə texnologiyaları haqqında biliklərindən istifadə etməklə öz fikirlərini ifadə edirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunundan çıxış edərək hadisələrin səbəbini izah edir. | Tapşırıq A (dərslik) |
| Sözlərin və frazeologizmlərin mənasını kontekstə görə müəyyənləşdirir. | Tapşırıq B (dərslik), Tapşırıq A (iş dəftəri) |
| Mətnin hissələrini vahid süjet xətti üzrə birləşdirir. | Tapşırıq C, Ç (dərslik), Tapşırıq B (iş dəftəri) |
| Oxuduqlarını həyatda gördükləri ilə müqayisə edir. | MV |



## 1-ci dərs. "Bir qalanın sirri" (I hissə)

• Dərslik: səh. 67-68 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**
- Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
- Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
- Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir (st. 2.2.4).
- Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir (st. 2.1.3).
- Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

• **Köməkçi vasitələr (təchizat):** "Bir qalanın sirri" bədii filmindən mətnin məzmununa uyğun fraqmentlər https://www.youtube.com/watch?v=IiKzdxfQh6w&t=1402s

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Qutudakı əşyanın "oxunması" |
| 2 | **Danışma** | Şəkil üzrə danışma |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Bir qalanın sirri" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Əşyalarla ifadə olunmuş fikrin müəyyənləşdirilməsi |
| 5 | **Söz ehtiyatı** | Sözlərin izahları ilə uyğunlaşdırılması |
| 6 | **Yazı** | Mətnin qısa məzmununun yazılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim qutuya kiçik bir daş və dəmir parçası qoyur. Bu qutunu sinfə nümayiş etdirərək deyir:

– Mən bu qutunun içindəki əşyalarla oxuduğum nağılın adını xəbər vermək istəyirəm.

Qutunu açmaq üçün püşkatma üsulu ilə şagirdlərdən biri seçilir. Həmin şagird qutunu açır, qutudakı əşyalara baxıb nağılın adını təxmin edir. Lakin əşyaları qutudan çıxarmır ki, digər şagirdlər görməsin. Bu fəaliyyət nağılın adı düzgün təxmin edilənə qədər davam etdirilir.

LAYİHƏ

**Doğru cavab:** "Daşdəmir"in nağılı.

Müəllim növbəti sual ilə şagirdləri müzakirəyə cəlb edir:

– Sizcə, sizə demək istədiyim bütün məlumatları bu üsulla çatdıra bilərəmmi?

Sual ətrafında müzakirələr aparılır, şagirdlər öz fərziyyələrini söyləyirlər.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər qruplara ayrılır. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş şəklə yönəldir. Hər bir qrup şəkillərdə təsvir edilmiş əşyalar vasitəsilə hansı xəbəri aldıqlarını müəyyənləşdirirlər. Tapşırığın qruplarla yerinə yetirilməsində əsas məqsəd eyni əşyalardan alınacaq məlumatların müxtəliflik dərəcəsini yoxlamaqdır. Yəni, görəsən, müxtəlif qruplar tapşırıqda təsvir edilmiş əşyalardan eyni məlumatımı alacaqlar?

**Şəkillərdə təsvir edilmiş əşyalar təxminən bu məlumatı ötürür:** *Yaz gəlir.*

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). Növbəli oxu.** Şagirdlər "Bir qalanın sirri" mətnindəki cümlələri növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Oxuyub bitirdikdən sonra şagirdlər mətnə yönəldilmiş sualları cavablandırmaqla həmin hissəni necə oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(məlhəm, zindan, sim, qandal)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***məlhəm*** – yaraya və ya ağrıyan yerlərə sürtülən yağlı dərman, ***zindan*** – həbsxana, dustaqxana, ***nişanə*** – əlamət, ***sim*** – simli musiqi alətlərinə çəkilən və tərpəndikdə səs verən elastiki tel, ***qandal*** – keçmişdə ağır cinayət işləmiş məhbusların əl və ayaqlarına keçirilən dəmir halqalı zəncir. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə istifadə edirlər.

> **Müəllimin nəzərinə!** Müəllimlərə təqdim olunmuş link vasitəsilə "Bir qalanın sirri" bədii filmindən oxu materialına aid hissəni şagirdlərə nümayiş etdirmək tövsiyə edilir. (https://www.youtube.com/watch?v=liKzdxfQh6w&t=1402s)

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər qızıl və qandal haqqında bildikləri məlumatlardan çıxış edərək Simnar xanın həkimə nə demək istədiyini təxmin edirlər. **Şagirdlərin cavabları təxminən belə ola bilər:** *Həkim ya qızılı seç, dərmanın sirrini bizə söylə, ya da qandalı seç, qalan ömrünü zindanda keçir.*

> **Müəllimin nəzərinə!** Müəllimə aşağıdakı məlumatların şagirdlərin nəzərinə çatdırması tövsiyə edilir.

Qədimdə uzaq məsafəyə məlumat ötürmək üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Siz artıq onlardan bəzisini tanıyırsınız. Keçən dərslərdə tonqallarla məlumat çatdırılması haqqında mətnlə tanış oldunuz. Qədimdə insanlar əşyalar vasitəsilə də ünsiyyət saxlayırdılar. Yəni məktub yerinə insanlar bir-birinə müəyyən əşyalar göndəriblər. Məsələn: Bir ölkənin padşahı digərinə ox göndərərdisə, deməli, həmin ölkəyə müharibə elan edirdi. Və yaxud, əksinə, göyərçin göndərirdisə, sülh bağlamaq istədiyini bildirirdi.

### Söz ehtiyatı

2.1.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər "Söz boğçası" rubrikasında öyrəndikləri yeni sözləri həmin sözlərin izahları ilə uyğunlaşdırırlar. Bununla da yeni sözlərin mənalarını mənimsədiklərini nümayiş etdirirlər. **Doğru cavablar:** 1 – c, 2 – b, 3 – d, 4 – a.

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq iki mərhələdə yerinə yetirilir. Şagirdlər:

1) mətnə əsasən şəkillərin düzgün ardıcıllığını müəyyənləşdirir və uyğun rəqəmləri boş xanaya yazırlar. **Doğru cavab:** 2, 3, 1.

2) hər şəkli bir və ya bir neçə cümlə ilə ifadə edərək yazırlar. **Şəklə aid cümlələr təxminən belə ola bilər:** 1. Həkim baba bütün çiçəklərin, otların sirrini yaxşı bilirdi. O, dərman bitkilərindən məlhəm hazırlayardı. 2. Simnar xan dərmanın sirrini öyrənmək istədi. Həkim babanın qarşısına bir qabda qızıl, digər qabda isə qandal qoyub seçim etməsini istədi. 3. Həkim baba dərmanın sirrini söyləmədi. Simnar xanın adamları həkim babanın qollarına qandal vurub apardılar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tapşırıq A (dərslik) |
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq B (dərslik) |
| Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir. | Tapşırıq C (dərslik) |
| Kontekstə uyğun olaraq sözün yaxınmənalı qarşılığını seçir. | Tapşırıq A (iş dəftəri) |
| Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə şagirdlərlə "Bir qalanın sirri" mətninin I hissəsinə aid sual-cavab keçirəcək. Bu məqsədlə növbəti dərsdə istifadə etmək üçün suallar hazırlamaq tövsiyə olunur.

"Bir qalanın sirri" mətninin I hissəsinə aid suallar:

1. Mətndə hansı obrazlar iştirak edir?
2. Hadisələr, əsasən, kimin ətrafında baş verir?
3. Həkim baba dərman bitkilərindən nə hazırlayırdı? Bu işdə ona kim kömək edirdi?
4. Simnar xan hansı yolla camaatı özünə tabe edirdi?
5. Həkimin düzəltdiyi dərman kənd camaatına necə kömək edə bilərdi?
6. Simnar xan həkim babadan nə istəyirdi?
7. Simnar xan həkim babaya nə təklif etdi?
8. Həkim babanın seçimi nə oldu?

## 2-ci dərs. "Bir qalanın sirri" (II hissə)

• Dərslik: səh. 68-69 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
• Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir (st. 2.2.4).
• Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir (st. 2.2.5).
• Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
• Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamının təxmin edilməsi |
| 2 | **Oxu** | "Bir qalanın sirri" mətninin II hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Əşyalarla ifadə olunmuş fikrin müəyyənləşdirilməsi; süjetli şəkil kompozisiyası üzrə mətnin sonluğunun təxmin edilməsi; hadisələrin ardıcıllığının bərpası |
| 4 | **Dil qaydaları** | -lı hissəciyi haqqında məlumat |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdləri "Bir qalanın sirri" mətninin I hissəsi ilə bağlı sual-cavab edir. Şagirdlər mətnin II hissəsinə aid illüstrasiyaya baxaraq hadisələrin davamını təxmin edirlər. Bununla şagirdlərdə mətnin davamını oxumağa maraq yaranır. Eyni zamanda şagirdlərin təxminetmə bacarığı inkişaf etdirilir.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu.** "Bir qalanın sirri" mətninin II hissəsi şagirdlər tərəfindən növbə ilə oxunur. Müəllim şagirdlərə obrazların nitqinə aid cümlələri oxuyarkən onların hiss-həyəcanını müxtəlif səs çalarları ilə ifadə etmələrinə nəzarət edir. Yeri gəldikcə onlara müvafiq göstərişlər verir.



LAYİHƏ

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər nar, sim, qanlı daş və qıfıl haqqında bildikləri məlumatlardan çıxış edərək həkim babanın yaxınlarına çatdırmaq istədiyi məlumatı təxmin edirlər. **Şagirdlərin cavabları təxminən belə ola bilər:** *Məni Simnar xan tutub Qanlı Qayadakı zindana salıb.*

Tapşırığı qruplarla da yerinə yetirmək olar. Bu zaman müxtəlif qrupların tapşırıqda təsvir edilmiş əşyalardan eyni və yaxud müxtəlif məlumatlar alması yoxlanılır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər dərslikdə kollektiv və yaxud qruplarla yerinə yetirdikləri B tapşırığından sonra bu tapşırığı fərdi şəkildə icra edirlər. Tapşırıq yazı məzmun xətti ilə inteqrasiya yaratmağa imkan verir. **Şagirdlər müxtəlif əşyalar təsvir edilmiş şəkillərin qarşısında təxminən aşağıdakı cümlələri yaza bilərlər:**

***Sim və nar*** *– Məni Simnar xan tutub.*

***Qıfıl*** *– Məni zindana salıblar.*

***Qanlı daş*** *– Mən Qanlı Qayadayam.*

2.2.5 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin təxminetmə bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda təqdim edilmiş süjetli şəkillərə əsasən oxuduqları mətnin sonluğunu, həkim babanın aqibətinin necə olacağını təxmin edirlər. **Şagirdlər təxminən aşağıdakı cümləri söyləyə bilərlər:**

*Elşən el igidlərini də başına toplayıb Qanlı Qayaya yola düşdü. Simnar xanın əsgərləri ilə döyüşüb həkim babanı xilas etdi.*

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər "Bir qalanın sirri" mətnində baş verən əsas hadisələrin ardıcıllığını müəyyən etməklə mətn üzrə ümumiləşdirmə aparırlar. **Doğru cavab:** 2, 4, 3, 1.

### Dil qaydaları

Dərslikdə verilmiş Ç və D tapşırıqları vasitəsilə şagirdlərin diqqəti *-lı* hissəciyi ilə yaranan sözlərə yönəldilir.

4.1.5 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda təsvir edilmiş tarın simlərinə yönəldərək "Bu nədir?" sualını verir. Daha sonra isə "Tar necə alətdir?" sualı ilə "sim" və "simli" sözlərinin fərqini izah edir.

**Tapşırıq D (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözləri nümunəyə əsasən cədvəl üzrə qruplaşdırırlar. "Nə?" sualına cavab verən sözləri bir sütunda, "Necə?" sualına cavab verən sözləri isə digər sütunda yazırlar.

**"Bunları bilməliyik" rubrikası.** *-lı, -li, -lu, -lü* hissəciklərinin köməyi ilə ad bildirən sözlərdən əlamət bildirən sözlərin yaranması haqqında məlumat verilir. Eləcə də bu hissəciklərin ahəng qanununa uyğun olaraq dəyişməsi nəzərə çatdırılır.

**Tapşırıq E (dərslik).** Möhkəmləndirmə xarakterli bu tapşırıq şagirdlərə "Bunları bilməliyik" rubrikasından aldıqları bilikləri tətbiq etmək imkanı yaradır. Tapşırıqda ad və əlamət bildirən sözlərin cütlüyü müəyyənləşdirilir.

**Doğru cavab:** *tədbir – tədbirli, ağıl – ağıllı, duz – duzlu, daş – daşlı, sirr – sirli.*

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq şagirdlərdə *-lı* hissəciyinin əlamət bildirən sözlər yaratması haqda təsəvvür yaradır. **Doğru cavablar:** 2 – bilikli, 3 – güclü, 4 – yağlı, 5 – sulu, 6 – südlü.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tapşırıq A (dərslik) |
| Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir. | Tapşırıq (B dərslik), Tapşırıq A (iş dəftəri) |
| Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir. | Tapşırıq C (dərslik) |
| Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir. | Tapşırıq B (iş dəftəri) |
| Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir. | Tapşırıq Ç, D, E (dərslik), Tapşırıq C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə şagirdlərə şəkli yazılar haqqında məlumat verəcək. Bu məqsədlə növbəti dərsdə əyani vəsait kimi istifadə etmək üçün şəkli yazı nümunələri (Şagirdlərin birinci sinifdə öyrəndikləri yol nişanları ola bilər) hazırlamaq tövsiyə olunur.

LAYİHƏ

## 3-cü dərs. “Sirli hekayə”

• Dərslik: səh. 69-71 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Qrafik təsvirlərin mətnin məzmunu ilə bağlılığını müəyyən edir (st. 2.2.3).
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır (st. 3.1.2).
• Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkli yazı nümunələrinin müzakirəsi |
| 2 | **Oxu** | “Sirli hekayə” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Eyni məzmunlu şəkil və cümlələrin uyğunlaşdırılması |
| 4 | **Yazı** | Şəklə əsasən mətnin yazılması |
| 5 | **Dil qaydaları** | *-lı* hissəciyi ilə düzələn sözlərin cümlədə işlədilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə simvollarla məlumat ötürən şəkillər nümayiş etdirir və yönəldici suallarla onları müzakirəyə cəlb edir:





– Sizcə, şəkillər vasitəsilə insanlara hansı mesaj ötürülür?

– Təsəvvür edin ki, bu şəkillərə müxtəlif dillərdə (rus, ingilis, fransız və sairə) danışan insanlar baxır. Necə düşünürsünüz, həmin insanların hamısı şəkillərin ötürdüyü məlumatı anlaya biləcəkmi? Yoxsa onlara tərcüməçi lazım olacaq?

Suallar ətrafında müzakirələr aparılır, şagirdlər öz fərziyyələrini söyləyirlər.

1-ci şəkil: Dünyamızı qayğı ilə əhatə edək.
2-ci şəkil: İnsan təbiətlə dost olmalıdır.
3-cü şəkil: Yerə zibil atmaq olmaz.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini mətnin adına və mətnə çəkilmiş illüstrasiyaya yönəldir. Şagirdlər mətnin adından və illüstrasiyalardan aldıqları məlumatlara əsasən mətnin məzmununu təxmin edirlər. Mətndəki cümlələr şagirdlər tərəfindən növbəli şəkildə oxunur. Müəllim faktoloji suallar vasitəsilə şagirdlərin hekayənin məzmununu necə qavradıqlarını yoxlayır.

**“Sirli hekayə” mətninə aid suallar:**

1. Mətndə hansı obrazlar iştirak edir?
2. Hadisələr, əsasən, harada baş verir?
3. Ata nə üçün qayaların üzərindəki şəkilləri “Sirli hekayələr” adlandırırdı?
4. Sizcə, uzun illər bundan əvvəl yaşamış insanlar nə üçün qayaların üzərində şəkillər çəkiblər? Onlar bizə hansı məlumatları ötürmək istəyiblər?

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Mətndə yaşıl və narıncı rəngdə cümlələr verilmişdir. Şagirdlər cümlələri oxuyur və B tapşırığında təqdim edilmiş şəkillərlə uyğunlaşdırırlar. Tapşırıq şagirdlərdə illüstrasiyaların mətnin məzmunu ilə bağlılığını müəyyənləşdirmək, eyni zamanda şəkli yazıları oxumaq bacarıqlarının inkişafına yönəlib.

**Doğru cavablar:** *1 – Qədimdə ovu uğurlu keçən insanlar rəqs edib əylənirmişlər.*

*2 – Görünür, qədim insanlar ova gedirmişlər. Həm də qayıqla dənizə çıxıb balıq tuturmuşlar.*

**Tapşırıq C (dərslik). Cütlərlə iş.** Tapşırıq iki mərhələdə yerinə yetirilir:

1. İlkin mərhələdə şagirdlər şəkil vasitəsilə parta yoldaşına hər hansı bir məlumat ötürməyə çalışır. Bu məqsədlə şəkli yazıdan istifadə edir. Yəni demək istədiklərini şəkildə təsvir edir.

2. Növbəti mərhələdə yanaşı əyləşən şagirdlər çəkdikləri şəkilləri dəyişirlər. Bir-birinə düşünmək üçün bir neçə dəqiqə vaxt verirlər. Daha sonra isə şəkildən aldıqları məlumatları şərh edirlər. İkinci mərhələ müəllimin müşayiəti ilə həyata keçirilir.

**Müəllimin nəzərinə!** Müəllimə aşağıdakı məlumatların şagirdlərin nəzərinə çatdırılması tövsiyə edilir.

*Şəkli yazı ünsiyyət qurmaq üçün universal bir yoldur. Ən azı təsvirlərdə şifrlənən mesajın mənasını anlamaq üçün xüsusi bilik və bacarıqlara ehtiyacınız yoxdur. Müxtəlif dillərdə danışan və hətta oxuya bilməyən*

LAYİHƏ

*insanlar bu cür ibtidai rəsmləri asanlıqla başa düşə bilərlər.*

*Şəkil, bir qayda olaraq, müəyyən bir obyekt, hərəkət və ya hadisə haqqında məlumat verir. Müasir dövrdə də çox vaxt hər hansı bir məlumatı aydın və sadə şəkildə ötürmək üçün şəkillərdən istifadə olunur. Məsələn: bıçaq və çəngəl təsviri yaxınlıqda bir restoran olduğunu və ya yanacaqdoldurma işarəsi yaxınlıqda yanacaqdoldurma məntəqəsi olduğunu göstərir.*

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş şəklə baxaraq şəkildən aldıqları məlumatları yazı vasitəsilə təsvir edirlər.

**Diferensial təlim**

Müəllim yönəldici suallar vasitəsilə təsviretmə və yazı bacarıqları kifayət qədər yüksək olmayan şagirdləri istiqamətləndirə bilər:

*1. Qədim insanlar qayaların üzərində hansı heyvanların şəklini təsvir edib?*

*2. Sizcə, bu heyvanları necə əldə ediblər?*

*3. Təsvirdəki insanların əlində hansı əşyaları görürsünüz?*

*4. Sizcə, onlar bu əşyalardan nə üçün istifadə ediblər?*

**Müəllim şagirdlərə yazı prosesində istifadə üçün sözlər də təqdim edə bilər:** *qədim insanlar, ov, məşğuliyyət, dağ keçisi, öküz, ox, yay, nizə, ovlamaq.*

**Yazı təxminən bu məzmunda ola bilər:**

*Qədim insanların məşğuliyyətlərindən biri də ovçuluq idi. Ova gedərkən ox, kaman, nizə kimi silahlardan istifadə edirdilər. Bu insanlar, əsasən, keçi, öküz kimi heyvanları ovlayırdılar.*

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (iş dəftəri).** Möhkəmləndirmə xarakterli bu tapşırıq şagirdlərə keçən dərsdə *-lı* hissəciyi haqqında aldıqları bilikləri tətbiq etmək üçün imkan yaradır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Başlıq, altbaşlıq, yarımbaşlıq, qrafik təsvirlər kimi mətn elementlərinin məzmunla bağlılığını müəyyən edir. | Tapşırıq (B dərslik) |
| Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır. | Tapşırıq A (iş dəftəri) |
| -lı[4] şəkilçisinin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir. | Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Növbəti dərsdə şəkli yazılara aid olan simvollardan bəhs ediləcək. Bu məqsədlə müəllimə növbəti dərsdə əyani vəsait kimi istifadə etmək üçün yol hərəkəti, xəbərdarlıq, qadağa nişanları hazırlamaq tövsiyə olunur.

## 4-cü dərs. “Simvollar”

• Dərslik: səh. 71-72 • İş dəftəri: səh. 47

**Təlim məqsədləri**

• Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir (st. 1.2.1).
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və bədii mətn yazır (st. 3.1.2).
• Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir (st. 4.1.5).
• Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir (st. 4.1.6).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif cür nişanların müzakirəsi |
| 2 | **Danışma** | Simvolların şərh edilməsi; Azərbaycanın pul əsginasları üzərindəki simvolların təsviri |
| 3 | **Yazı** | Şəklin təsviri |
| 4 | **Dil qaydaları** | Buraxılmış sözləri artırmaqla cümlənin tamamlanması, cümlənin genişləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim müxtəlif yol hərəkəti, xəbərdarlıq, qadağa nişanlarını nümayiş etdirərək *“Bu nişanlardan hansını tanıyırsınız? Bu nişanlar bizə hansı məlumatı ötürür?”* sualları ilə şagirdləri müzakirəyə cəlb edir.

LAYİHƏ

### Danışma

2.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda təsvir edilmiş simvollara cəlb edir. Şagirdlər bu simvollara baxarkən hansı fənni xatırladıqlarını söyləyir və fikirlərini əsaslandırırlar.

**Tapşırıq B (dərslik).** Müəllim bu tapşırığı asanlıqla və uğurla yerinə yetirmək üçün şagirdləri yönəldici suallarla istiqamətləndirə bilər. Bu məqsədlə lövhədə istiqamətləndirici suallar və yaxud istifadə üçün sözlər yazmaq olar.

**İstiqamətləndirici suallar:**

*1. Əsginasın ön tərəfində nə təsvir edilib?*

*2. Bu əşyaları siz daha harada görmüsünüz?*

*3. Bu əşyaların aid olduğu ümumi məna qrupu necə adlanır?*

*4. Əsginasın arxa tərəfində nə təsvir edilib?*

*5. Buradakı naxışlar sizə nəyi xatırladır?*

**İstifadə üçün söz və ifadələr:** *əsginas, ön, arxa, birmanatlıq, beşmanatlıq, musiqi alətləri, qaval, tar, kamança, Azərbaycanın xəritəsi, naxışlar, kitab, heykəl, yazıçı, şair* və sairə.

**Şagirdlər təxminən aşağıdakı məzmunda cümlələr qura bilərlər:**

*Bu, Azərbaycanın birmanatlıq əsginasıdır. Birmanatlıq əsginasın ön tərəfində musiqi alətləri – tar, kamança, qaval şəkilləri təsvir edilib. Bu, Azərbaycanın muğam sənətinə işarədir. Əsginasın arxa tərəfində milli ornamentlər və Azərbaycan xəritəsi təsvir edilib.*

*Bu, Azərbaycanın beşmanatlıq əsginasıdır. Beşmanatlıq əsginasın ön tərəfində şair və yazıçıların, qədim kitabların şəkilləri təsvir edilib. Burada Azərbaycan dövlət himnindən bir parça da verilib. Əsginasın arxa tərəfində Qobustan qayalarının üzərindəki işarələr, qədim türk əlifbası ilə mətn parçası və Azərbaycan xəritəsi təsvir edilib.*

> **Müəllimin nəzərinə!** Şagirdlərdən yuxarıda təqdim edilmiş cümlələri eyni məzmunda və eyni ardıcıllıqla söyləmək tələb olunmur. Tapşırıqda verilmiş əsginasları qısa cümlələrlə təsvir etmələri belə kifayətdir. Lakin müəllim tapşırıq üzrə işi yekunlaşdırarkən metodik vəsaitdə təqdim edilmiş cümlələri nümunə kimi şagirdlər üçün səsləndirə bilər.

**Tapşırıq C (dərslik). Qruplarla iş.** Şagirdlər üç qrupa ayrılırlar. Püşkatma üsulundan istifadə edərək tapşırıqda təsvir edilmiş şəkillər qruplar arasında paylaşdırılır (hər qrupa iki şəkil olmaqla). Qrup üzvləri onlara təqdim edilmiş simvolları müəyyən vaxt ərzində nəzərdən keçirir, həmin simvollar haqqında nə deyəcəklərini düşünür, bir-birini dinləyir, müzakirə aparır və təqdim edirlər.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlərin diqqəti tapşırıqda verilmiş şəklə cəlb edilir. Onlar məntiqlərinə və informatika fənnindən öyrəndikləri məlumatlara əsaslanaraq simvolların mənalarını yazırlar. Bu tapşırıq qrafik informasiyanı anlamaq bacarığının inkişafına yönəlib.

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümlələrdə nöqtələrin əvəzinə ad və ya əlamət bildirən sözlər əlavə edərək cümlələri tamamlayırlar. Bu tapşırıq şagirdlərin *-lı* hissəciyi, həm də ad və əlamət bildirən sözlər haqqında aldıqları bilikləri tətbiq edərək möhkəmləndirməyə kömək edir.

4.1.6 **Tapşırıq C (iş dəftəri).** Möhkəmləndirmə xarakterli bu tapşırıq şagirdlərin fikirlərini daha geniş və əhatəli ifadə etmək üçün cümləni genişləndirmək bacarığının inkişafına yönəlib. Şagirdlər qrammatik və semantik baxımdan daha çox uyğun sözlərdən istifadə etməklə cümlələri genişləndirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir. | Tapşırıq A, B, C (dərslik) |
| Şəkillər və bildiyi məlumatlar əsasında elmi və bədii mətn yazır. | Tapşırıq A (iş dəftəri) |
| Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir. | Tapşırıq B (iş dəftəri) |
| Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir. | Tapşırıq C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllimə növbəti dərsin motivasiyasında istifadə etmək üçün aşağıdakıları hazırlamaq tövsiyə edilir:
*Kiçikölçülü qutu, qələm, dəftər vərəqi, "yazı yazmaq" anlayışını verən şəkil, bir neçə konvert.*



LAYİHƏ

## 5-ci dərs. "Əlifbanın kəşfi"

• Dərslik: səh. 72-73 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

• Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir (st. 1.2.2).
• Bədii və informativ mətnləri oxuyarkən müvafiq səs tonu seçir (st. 2.2.1).
• Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
• Mətnin məzmunu ilə bağlı səbəb-nəticə cədvəlini tamamlayır (st. 2.2.5).
• Mətndən əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Əlifba sırasından istifadə etməklə izahlı lüğətdən lazım olan sözü tapır (st. 4.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Məktubların oxunması |
| 2 | **Danışma** | Hərf və səs anlayışları haqqında müzakirə |
| 3 | **Oxu** | "Əlifbanın kəşfi" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Səbəb-nəticə cədvəlinin tamamlanması; hərflərin şərti işarə olmasının mənimsədilməsi |
| 5 | **Dil qaydaları** | Daxili əlifba |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim əvvəlcədən hazırladığı məktubları şagirdlərə verir. Bu məktublarda eyni məlumat müxtəlif yazı növlərindən və əlifbalardan istifadə edilərək yazılmalıdır.

***1-ci məktub.*** Müəllim kiçik bir qutunun içinə qələm və dəftər vərəqi qoyur.

***2-ci məktub.*** Konvertin içərisinə aşağıdakı şəkli yerləşdirir.



***3-cü məktub.*** Məktubda aşağıdakı cümləni yazır: *Biz bu gün imla yazı yazacağıq.*

***4-cü məktub.*** Məktubda eyni cümləni kiril əlifbası ilə yazır: *Биз бу күн имла јазы јазаҹағыз.*

Görəsən, hansı şagird ona yazılan məlumatı daha tez və düzgün şəkildə anlayacaq? Bəs bəzi şagirdlər məlumatı niyə oxuya bilməyəcəklər? Müəllimin məqsədi şagirdlərin diqqətini əlifba və hərflərə cəlb etməkdir.

### Danışma

**1.2.2** **Tapşırıq A (dərslik).** Tapşırıqdakı sualın birinci hissəsini izah etmək üçün müəllim şagirdləri təxminən belə istiqamətləndirə bilər:

Müəllim şagirdlərə müxtəlif səslər (çəpik səsi, tıqqıltı səsi) nümayiş etdirərək soruşur:

– Bunlar nədir? Siz bunları eşidirsiniz, yoxsa görürsünüz? Bu səslərlə danışmaq olarmı?

Daha sonra bəzi danışıq səslərini tələffüz edərək ([A],[n]) soruşur:

– Bəs bu səslər sizə nəyi xatırladır?

Müəllim aşağıdakı cümlələrlə fikrini ümumiləşdirir:

– Hərflər bir işarədir. Biz danışıq səslərini hərflərlə işarə edirik.

Tapşırıqdakı sualın ikinci hissəsini izah etmək üçün müəllim şagirdlərə körpə uşaqları xatırladaraq sual verir:

– Sizcə, körpə uşaqlar birinci nəyi öyrənirlər: danışmağı, yoxsa yazmağı?

– Necə düşünürsünüz, sizcə, səslər birinci yaranıb, yoxsa hərflər?

Şagirdlər suallar ətrafında müzakirələr aparaq öz fikirlərini əsaslandırmağa çalışırlar. **Müəllim müzakirəni təxminən bu məzmunda yekunlaşdıra bilər:**

– *İnsanlar əvvəlcə danışmağı, daha sonra isə yazmağı öyrəniblər. Bu səbəbdən hərflər daha sonra yaranıb. Keçən dərslərdən öyrəndiyiniz məlumatlara əsasən deyə bilərik ki, qədim insanlar məlumatları uzaq məsafəyə əşyalar və şəkillər vasitəsilə ötürüblər. Daha sonralar isə danışıq səslərini müxtəlif işarələrlə göstəriblər.*

### Oxu. Söz ehtiyatı

**2.2.1** **Tapşırıq B (dərslik).** Şagirdlər "Əlifbanın kəşfi" mətnindəki cümlələri növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Müəllim şagirdlərin səs tonunun informativ mətnə uyğun olmasını izləyir, yeri gəldikcə məsləhətlər verərək onları istiqamətləndirir.



LAYİHƏ

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(tacir, tələffüz)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***tacir*** – ticarətlə məşğul olan adam, ***tələffüz*** – bir hərfi və ya sözü, kəlməni söyləmə xüsusiyyəti. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

## Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqdakı sual ətrafında düşünür, mətnin məzmununa əsasən qədim insanların hərfləri kəşf etmə səbəblərini müəyyənləşdirirlər.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq mətndəki səbəb-nəticə əlaqəsini müəyyən etmək bacarığının inkişafına yönəlib.

**Doğru cavablar:**

*Nəticə: İnsanlar danışıq səslərini işarələmək üçün hərfləri yaratdılar.*

*Səbəb: Bağlamaq istədiyi razılaşmanın şərtlərini qeyd etmək istəyirdi.*

2.2.4 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş şəkillərə yönəldir. Şagirdlər şəkillərə diqqətlə baxaraq burada təsvir edilmiş əşyaların hansı hərfi xatırlatdığını təxmin edirlər.

**Tapşırıq D (dərslik), tapşırıq B (iş dəftəri).** Tapşırıqlarda qədim türk əlifbasına aid hərflərlə latın qrafikalı hərflərin qarşılığı verilmişdir. Şagirdlər tapşırıqlarda nümunə kimi verilmiş açar sözdən istifadə edərək şərti işarələri transliterasiya etməklə digər sözləri oxumağa çalışırlar.

**D tapşırığında verilmiş sözlər:** *türk, igid, kənd, baş, bir.*

Bu tapşırıqlar hərflərin şərti işarələr olduğunu şagirdlərin diqqətinə çatdırmaq məqsədi daşıyır.

4.1.4 **Tapşırıq E (dərslik).** Şagirdlər D tapşırığında oxuduqları sözləri əlifba sırası ilə düzürlər. Təbii ki, bəzi şagirdlər eyni hərflə başlanan sözlərin hansını birinci yazacaqları haqqında sual verəcəklər. Bununla bağlı şagirdlərin fikirləri dinlənilir. Sonda müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik" rubrikasına yönəldərək daxili əlifba anlayışını izah edir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada daxili əlifba haqqında məlumatı şərh edir.

**Tapşırıq Ə (dərslik), tapşırıq C (iş dəftəri).** Tapşırıqlar şagirdlərin daxili əlifba haqqında aldıqları biliklərin tətbiqinə imkan yaradır. Tapşırıqların çətinlik dərəcəsinin yüksək olduğunu nəzərə alaraq müəllim 1-ci söz sırasını şərh edir. "Toz" sözü "o" hərfinə, "taya" sözü "y" hərfinə görə "tamaşa" sözündən əvvəl yazıla bilməz. **Doğru cavab:** "tala".

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir. | Tapşırıq A (dərslik) |
| Bədii və informativ mətnləri oxuyarkən müvafiq səs tonu seçir. | Tapşırıq B (dərslik) |
| Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir. | Tapşırıq C (dərslik) |
| Mətnin məzmunu ilə bağlı səbəb-nəticə cədvəlini tamamlayır. | Tapşırıq A (iş dəftəri) |
| Mətndən əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tapşırıq Ç, D (dərslik), Tapşırıq B (iş dəftəri) |
| Əlifba sırasından istifadə etməklə izahlı lüğətdən lazım olan sözü tapır. | Tapşırıq E, Ə (dərslik), Tapşırıq C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Növbəti dərsdə şagirdlər təlimata uyğun olaraq plastik qabdan və ya kibrit qutusundan telefon düzəltməlidirlər.
Bu məqsədlə müəllim gələn dərsə 2 ədəd plastik stəkan (və ya kibrit qutusu), kibrit çöpləri, 4–5 m uzunluqda ip gətirməyi tapşırır.

LAYİHƏ

fəsil 3 MÜASİR DÖVRDƏ İNFORMASİYA

## 1-ci dərs. “Morzenin sirri” (I hissə)

• Dərslik: səh. 74-75 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

• Mətndə müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir (st. 2.2.2).
• Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
• Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir (st. 2.2.4).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir (st. 2.2.4).

• **Köməkçi vasitələr (təchizat):** *plastik stakanlar, 5-6 metr uzunluğunda ip, qayçı*

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar üzrə müzakirə |
| 2 | **Oxuyub-qavrama** | Yaradıcı iş – telefon hazırlanması |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Morzenin sirri” mətninin (I hissə) oxusu |
| 4 | **Danışma** | Mətndən aldığı məlumatların bildikləri ilə müqayisəsi |
| 5 | **Oxuyub-qavrama** | Mətndəki fakt və hadisələrin şərhi; şərti işarələrin transliterasiyası; doğru, yoxsa yanlış fikirlərin müəyyənləşdirilməsi; cümlələrin mətnin məzmununa uyğun tamamlanması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldərək soruşur:

– Biz ətrafda baş verən hadisələr haqqında necə məlumat alırıq?

Sual ətrafında müzakirələr aparılır, şagirdlər öz fərziyyələrini söyləyirlər.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər qruplara ayrılır. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş şəklə yönəldir. Hər bir qrup tapşırığı yerinə yetirmək üçün verilmiş təlimatı oxuyur, eyni zamanda şəkillərdən də istifadə edərək telefon düzəldirlər. Tapşırıq şagirdlərdə təlimatdan istifadə etmək bacarığının inkişafına yönəldilib.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). Növbəli oxu.** Şagirdlər “Morzenin sirri” mətninin I hissəsindəki cümlələri növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Müəllim şagirdlərin obrazların nitqinə aid cümlələri onların hiss-həyəcanlarını nəzərə alaraq oxumalarını izləyir, yeri gəldikcə məsləhətlər verərək onları istiqamətləndirir.

**“Söz boğçası” rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(siqnal, naqil)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***siqnal*** – hər hansı bir məlumatı, xəbəri, komandanı və s.-ni uzaqlara vermək üçün şərti səs və ya işıq işarəsi, ***naqil*** – elektrik cərəyanını, səsi, istiliyi və s.-ni öz daxilindən keçirən cisim. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə işlədirlər.

### Oxuyub-qavrama. Danışma

2.2.4 **Tapşırıq C (dərslik). Danışma ilə inteqrasiya.** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur və bu fikirləri əvvəlki bilikləri ilə müqayisə edərək şərh edirlər.

3-cü və 5-ci cümlələrdə ifadə olunmuş fikirlər uşaqlara əvvəlki dərslərdən tanışdır. “Qədim Oğuz eli” mətnində ocaq qalamaqla işıq siqnallarının ötürülməsi haqqında məlumat verilir. Şagirdlər mayak haqqında 1-ci sinifdə öyrəndikləri biliklərdən, həm də “Morzenin sirri” mətnində atanın Nihada verdiyi məlumatlardan çıxış edərək danışa bilərlər.

**Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş işarələrə yönəldir. Şagirdlər tapşırıqda ipucu kimi verilmiş işarələrdən istifadə etməklə yeni səs işarələri düşünürlər. Bu tapşırıq hərflərin şərti işarələr olduğunu şagirdlərin diqqətinə çatdırmaq məqsədi daşıyır. Tapşırıq eyni zamanda şagirdləri Morze əlifbasının məğzini anlamağa istiqamətləndirir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda onlara təqdim edilmiş cümləni oxuyur, cümlədən

LAYİHƏ

hansı məlumatları aldıqlarını nümayiş etdirirlər. Tapşırıq şagirdlərin oxuyub-anlama bacarığının inkişafına yönəlib. **Doğru cavablar:** 1, 3.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, fikirlərin mətnə əsasən doğru, yoxsa yanlış olduğunu müəyyən edirlər. Bununla da mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

**Doğru cavablar:** 1, 2, 5, 6.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq dil qaydaları ilə inteqrasiya imkanları yaradır. Şagirdlər cümlələri "Morzenin sirri" mətninin I hissəsinin məzmununa uyğun tamamlamaqla yanaşı, sayların sözlərlə yazılışını da təkrar edirlər. Bununla da oxuduqları mətnin məzmununu qavradıqlarını və keçən dərslərdə say haqqında öyrəndikləri qaydaları mənimsədiklərini nümayiş etdirirlər.

**Doğru cavablar:**

*1. Elçin Nihaddan üç yaş böyük idi.*

*2. Morze əlifbasında iki səs siqnalından istifadə edilir.*

*3. Yüz əlli il əvvəl Amerikada Morze əlifbası yaradıldı.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir. | Tapşırıq A (dərslik) |
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tapşırıq B (dərslik) |
| Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir. | Tapşırıq C (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tapşırıq D (dərslik), Tapşırıq A, C (iş dəftəri) |
| Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir. | Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə şagirdlərlə "Morzenin sirri" mətninin I hissəsinə aid sual-cavab keçirəcək. Bu məqsədlə növbəti dərsdə istifadə etmək üçün suallar hazırlamaq tövsiyə olunur.

**"Morzenin sirri" mətninin I hissəsinə aid suallar:**

*1. Mətndə hansı obrazlar iştirak edir?*

*2. Nihad atasından nə öyrənmək istəyirdi?*

*3. Mətndə hansı informasiya vasitələri haqqında məlumat verilib?*

*4. Morze kim idi?*

## 2-ci dərs. "Morzenin sirri" (II hissə)

• Dərslik: səh. 76-77 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

• Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir (st. 2.2.1).
• Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir (st. 2.2.4).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir (st. 2.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamının təxmin edilməsi |
| 2 | **Oxu** | "Morzenin sirri" mətninin II hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Şərti işarələrin transliterasiyası ilə sözlərin oxunması; hadisələrin ardıcıllığının sıralanması; mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdləri "Morzenin sirri" mətninin I hissəsi ilə bağlı sual-cavab edir. Şagirdlər mətnin II hissəsinə aid illüstrasiyaya baxaraq hadisələrin davamını təxmin edirlər. Bununla şagirdlərdə mətnin davamını oxumağa maraq yaranır. Eyni zamanda şagirdlərin təxminetmə bacarığı inkişaf etdirilir.



LAYİHƏ

## Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu.** "Morzenin sirri" mətninin II hissəsi şagirdlər tərəfindən növbə ilə oxunur. Müəllim şagirdlərin diqqətini yönəldici suala cəlb edərək onlara oxu zamanı Morze əlifbası haqqındakı məlumatlara diqqət etmələrini tapşırır. Eyni zamanda obrazların nitqinə aid cümlələri oxuyarkən onların hiss-həyəcanını müxtəlif səs çalarları ilə ifadə etmələrinə nəzarət edir. Yeri gəldikcə onlara müvafiq göstərişlər verir.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(cihaz, çaşqın, ciyilti)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***Cihaz*** – hər hansı bir işi görmək üçün alət, aparat, ***çaşqın*** – çaşıb-qalmış, nə edəcəyini bilməyən, özünü itirmiş, ***ciyilti*** – cikkilti, cüyültü, cük-cük səsini bildirən təqlidi söz. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə istifadə edirlər.

## Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərin diqqətini Morzenin Nihada göndərdiyi mesaja yönəldir. Şagirdlər tire və nöqtələr arasında qoyulmuş şaquli xətlərin nə bildirdiyini təxmin edirlər. Məntiqi xarakterli bu tapşırığı cavablandırmaq üçün şagirdlərin müxtəlif fərziyyələri ola bilər.

**Doğru cavab:** *Hərflər arasında bir şaquli xətdən, sözlər arasında isə iki şaquli xətdən istifadə olunur.*

**Tapşırıq C (dərslik). Qruplarla iş.** Püşkatma üsulundan istifadə edilərək şagirdlər qruplara ayrılır. Qrup iştirakçıları "Morzenin sirri" mətnində Morzenin Nihada göndərdiyi mesajdan ipucu kimi istifadə edərək şifrlənmiş sözləri oxumağa çalışırlar.

**Doğru cavablar:**

I qrup: *masa, nail*
II qrup: *misal, mala*
III qrup: *adam, ilham*
IV qrup: *maili, alim*

Bu tapşırıq hərflərin şərti işarələr olduğunu şagirdlərin diqqətinə çatdırmaq məqsədi daşıyır. Tapşırıq eyni zamanda şagirdlərin Morze əlifbası haqqında öyrəndikləri məlumatları möhkəmləndirməsinə imkan yaradır.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, "Morzenin sirri" mətninin məzmununa uyğun olaraq sıralayırlar. Şagirdlər tapşırıq vasitəsilə mətnin məzmununu necə qavradıqlarını nümayiş etdirirlər.

**Doğru cavablar:** 2, 4, 1, 5, 3.

**Tapşırıq B (iş dəftəri).** Yazı məzmun xətti ilə inteqrasiya yaradan bu tapşırıq eyni zamanda şagirdlərin mətnin tərkib hissələri haqqında biliklərinin möhkəmləndirilməsinə yönəlib.

**Doğru cavablar:**

***Giriş:*** Nihad əmisi oğlu Elçinlə telefonla danışdı.

***Əsas hissə:*** Nihad atasından soruşdu:

– Nə üçün telefonla danışanda danışdığımız adam şəhərin o biri başında olsa da, səsimizi eşidir?

Atası Nihada telefon, teleqraf, Morze haqqında danışdı. Amma Nihad heç nə anlamadı. Nihad yatdı. Yuxuda Morzeni gördü. Morze yaratdığı əlifbanı Nihada öyrətdi.

***Nəticə:*** Nihad yuxudan oyandı. Morzeni yanında görməyib təəccübləndi.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən obrazların nitqindəki hiss-həyəcanı müxtəlif səs çalarları ilə ifadə edir. | Tapşırıq A (dərslik) |
| Öz biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələrə aydınlıq gətirir. | Tapşırıq B (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tapşırıq C (dərslik) |
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tapşırıq A (iş dəftəri) |
| Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir. | Tapşırıq B (iş dəftəri) |

LAYİHƏ

## 3-cü dərs. "Sirli ekran"

• Dərslik: səh. 77-78 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

• Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur (st. 2.2.1).
• Mətndən faktlar gətirməklə fikrini əsaslandırır (st. 2.2.4).
• Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir (st. 1.2.2).
• Dinlədiyi və oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).
• Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir (st. 3.1.3).
• Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir (st. 4.1.7).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar üzrə müzakirə |
| 2 | **Oxu** | "Sirli ekran" şeirinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndən faktlar gətirməklə fikrin əsaslandırılması |
| 4 | **Danışma** | Verilmiş mövzu haqqında fikir və münasibətlərin bildirilməsi |
| 5 | **Yazı** | Mətnin məzmununa əsasən yazı; verilmiş mövzu ilə bağlı fikir və münasibətlərin ifadəsi |
| 6 | **Dil qaydaları** | Cümlənin məqsəd və intonasiyaya görə növləri |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim aşağıdakı suallar vasitəsilə şagirdləri müzakirəyə cəlb edir:

– Sizə lazım olan məlumatı almaq üçün nələrdən istifadə edirsiniz?

– Hansı qəzet və jurnalları tanıyırsınız?

– Sizin abunə olduğunuz qəzet və jurnal varmı?

– Hansı televizor verilişlərinə baxırsınız?

– Sizə lazım olan informasiyanı tez bir zamanda əldə etmək üçün hansı informasiya vasitəsindən istifadə edirsiniz? Seçiminizi izah edin.

a) Kitab
b) İnternet
c) Televizor

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini yönəldici suala cəlb edərək onlara oxu zamanı informasiya vasitələri haqqındakı məlumatlara diqqət etmələrini tapşırır. Şeir ilk dəfə müəllim tərəfindən oxunur. Müəllim şeirdəki televiziya verilişlərinin adlarını sadalama intonasiyası ilə oxuyur. Daha sonra şagirdlər şeiri növbə ilə oxuyurlar.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər "sirli, sehrli ekran" anlayışını izah etməyə çalışırlar. Bunun üçün şeirin uyğun misralarını oxuyur, fikirlərini əsaslandırırlar.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

*Şair "sirli, sehrli ekran" deyərkən televizoru nəzərdə tutur. Uşaqlar da, böyüklər də ona baxmağı sevir. Televizorda müxtəlif dillərdə verilişlər göstərilir. Televizorda müxtəlif verilişlər nümayiş etdirilir: cizgi filmi, kino, xəbər.*

**Tapşırıq C (dərslik).** Şagirdlər şeirin məzmununa və təxəyyüllərinə əsasən tapşırıqda təqdim edilmiş sualı cavablandırırlar.

### Danışma

1.2.2 **Tapşırıq Ç (dərslik).** Müəllimə şagirdlərə tapşırıqdakı sualı ətraflı cavablandırmaq üçün əlavə izahlar və yönəldici suallar vermək tövsiyə edilir:

1. Texnika insanların onlardan daha rahat istifadəsi üçün dayanmadan inkişaf edir: ölçüləri, funksiyaları, keyfiyyəti günü-gündən təkmilləşdirilir. "Sirli ekran" şeirinin hansı misraları bu fikri təsdiq edir? Sizcə, televizorları daha necə təkmilləşdirmək olar? Siz gələcək televizorları necə təsəvvür edirsiniz?

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər "Sirli ekran" şeirində adıçəkilən televiziya verilişlərinin adını yazmaqla şeiri nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Doğru cavablar:** *kino, xəbər, musiqi, cizgi filmi.*

3.1.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər sevdiyi televiziya verilişlərinin adını qeyd edir. Həmin verilişləri seçmə səbəblərini yazaraq münasibətlərini bildirirlər.



LAYİHƏ

### Dil qaydaları

4.1.7 **Tapşırıq D (dərslik), tapşırıq C (iş dəftəri).** Möhkəmləndirmə xarakterli bu tapşırıqlar şagirdlərə cümlənin məqsəd və intonasiyaya görə növlərini xatırladır və bu mövzuda qazandıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslikdə təqdim edilmiş D tapşırığı üçün doğru cavablar belə olmalıdır:**

*1. Nida cümləsi.*
*2. Nəqli cümlə.*
*3. Əmr cümləsi.*
*4. Sual cümləsi.*

**İş dəftərində təqdim edilmiş C tapşırığı üçün doğru cavablar təxminən belə ola bilər:**

Nəqli cümlə: *Axşam Aysel televizorda uşaq verilişinə baxacaq.*

Sual cümləsi: *Axşam Aysel televizorda hansı verilişə baxacaq?*

Əmr cümləsi: *Aysel, axşam televizorda uşaq verilişinə bax.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur. | Tapşırıq A (dərslik) |
| Mətndən faktlar gətirməklə fikrini əsaslandırır. | Tapşırıq B, C (dərslik) |
| Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir. | Tapşırıq Ç (dərslik) |
| Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tapşırıq A (iş dəftəri) |
| Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir. | Tapşırıq B (iş dəftəri) |
| Cümlənin məqsəd və intonasiyaya görə növlərini müəyyən edir. | Tapşırıq D (dərslik), Tapşırıq C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Növbəti dərsdə internetdən istifadə edərək ünsiyyət qurmaq haqqında danışılacaq. Bu məqsədlə müəllimə “skype” haqqında məlumat toplamaq tövsiyə edilir.

## 4-cü dərs. “Anamla danışmaq istəyirəm”

• Dərslik: səh. 78-79 • İş dəftəri: səh. 52

**Təlim məqsədləri**

• Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir (st. 2.2.1).
• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Vizual informasiyanın qrafik strukturunu müəyyənləşdirməklə ondan səmərəli istifadə edir (st. 2.2.3).
• Müəyyən məqsədlə anket doldurur (st. 3.1.4).
• Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir (st. 3.1.3).
• Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır (st. 2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Skype” proqramı haqqında məlumat |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Anamla danışmaq istəyirəm” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Hadisələrin ardıcıllığının sıralanması; diaqramın oxusu |
| 4 | **Yazı** | Sorğu keçirməklə diaqramın hazırlanması; kompüterin faydası haqqında yazı |
| 5 | **Söz ehtiyatı** | Buraxılmış sözləri artırmaqla cümlələrin tamamlanması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim “skype” haqqında aşağıdakı məlumatları verə bilər: Skype Estoniyada yaranan səsli və görüntülü danışmağa imkan verən kompüter proqramıdır. Bu proqram vasitəsilə siz skype hesabı olan digər dostlarınızla dünyanın harasında olmasından asılı olmayaraq pulsuz əlaqə saxlaya bilərsiniz. Müəllimə imkan daxilində "skype" vasitəsilə şagirdlərlə birlikdə hər hansı bir valideynlə və yaxud digər siniflərin şagirdləri ilə ünsiyyət yaratmaq, “skype” proqramından istifadəni əyaniləşdirmək tövsiyə edilir.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu.** “Anamla danışmaq istəyirəm” mətninin cümlələri şagirdlər tərəfindən növbə ilə oxunur. Şa-

LAYİHƏ

girdlər mətnin məzmununa əsasən mətnə yönəlmiş sualları cavablandırırlar.

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin *(internet, heyrət, monitor, minnətdarlıq)* təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır: ***internet*** – kompüter şəbəkəsi, ***heyrət*** – təəccüb, ***monitor*** – ekran, ***minnətdarlıq*** – təşəkkür. Şagirdlər sözlərin dəqiq izahından sonra onları müxtəlif cümlələrdə istifadə edirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, "Anamla danışmaq istəyirəm" mətninin məzmununa uyğun olaraq sıralayırlar. Bu tapşırıq vasitəsilə mətnin məzmununu necə qavradıqlarını nümayiş etdirirlər.

**Doğru cavablar:** 4, 3, 2, 5, 1.

2.2.3 **Tapşırıq B (dərslik).** Tapşırıqda 2-ci sinif şagirdlərinin kompüterdən istifadə məqsədləri haqqında məlumatları əks etdirən diaqram təqdim edilir. Əvvəlcə şagirdlərə riyaziyyat dərsində diaqram haqqında aldıqları məlumatlar xatırlanır. Daha sonra onlara tapşırıqda təqdim olunmuş diaqramla tanış olmaq, məlumatları oxumaq üçün müəyyən vaxt verilir. Ayrılan vaxt bitdikdən sonra şagirdlər diaqrama aid sualları cavablandırırlar. **Müəllim diaqrama aid əlavə suallardan da istifadə edə bilər:**

*1. Diaqram hansı sinif haqqında məlumatları əks etdirir?*

*2. Diaqrama əsasən kompüterdən hansı məqsəd üçün daha az istifadə edilir?*

*3. Bu sinfin şagirdləri haqqında "musiqi həvəskarı" demək olarmı? Fikrinizi açıqlayın.*

### Yazı

3.1.2 **Tapşırıq C (dərslik).** Bu tapşırıqda şagirdlər öz sinif yoldaşlarının kompüterdən istifadə məqsədləri haqqında məlumatları əks etdirən diaqram hazırlamalıdırlar. Tapşırığın asanlıqla və uğurla yerinə yetirilməsi üçün müəllim şagirdləri "addım-addım" təlimatlandırır.

**I addım.** Şagirdlər sorğu anketini doldururlar. Sorğu anketinin nümunəsi dərslikdə verilib. Hər bir şagird dəftərində anketdə seçim etdiyi məqsədləri qeyd edir. Və yaxud müəllim imkan daxilində sorğu anketinin üzünü çoxaldaraq istifadə edir.

**II addım.** Sorğu anketləri bir yerə toplanır. Şagirdlər növbə ilə anketlərdən birini götürüb oxuyurlar. Müəllim isə lövhədə həmin məlumatları simvollarla qeyd edir; məsələn: "Cizgi filmlərinə baxıram" qırmızı kub ilə işarə edilir. Beləliklə, bütün anketlərdə olan məlumatlar diaqramda əks etdirilir.

**III addım.** Fəaliyyət yoxlama ilə yekunlaşır: Sorğu neçə nəfər arasında keçirilib? Diaqramda qeyd olunan məlumat neçə nəfərə aiddir? və sairə.

3.1.3 **Tapşırıq B (iş dəftəri).** Bilirik ki, keçən və cari tədris ilində şagirdlər bir çox təqdimatlar hazırlamışlar. Bu təqdimatları hazırlayarkən, çox güman ki, internetdən istifadə etmişlər. Şagirdlər bu tapşırıqda təqdimatları hazırlayarkən internetdən necə faydalandıqlarını açıqlayacaq, öz münasibətlərini bildirəcəklər.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq modeli oxuyub-qavrama bacarığını və məntiqi təfəkkürü inkişaf etdirmək üçün effektiv üsullardan biridir. Şagirdlər natamam cümlədəki açar sözlərə (əlamətlərə) diqqət edir, sözlər arasında məntiqi əlaqə qurmaqla cümləni tamamlayırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ucadan oxuduqdan sonra mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tapşırıq A (iş dəftəri) |
| Vizual informasiyanın qrafik strukturunu müəyyənləşdirməklə ondan səmərəli istifadə edir. | Tapşırıq B (dərslik) |
| Müəyyən məqsədlə anket doldurur. | Tapşırıq C (dərslik) |
| Mövzu ilə bağlı mətn yazarkən problemə münasibətini ifadə edir. | Tapşırıq B (iş dəftəri) |
| Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır. | Tapşırıq C (iş dəftəri) |

LAYİHƏ

**Növbəti dərsə hazırlıq:** Müəllimə növbəti dərsin motivasiyasında istifadə etmək üçün aşağıdakıları hazırlamaq tövsiyə edilir:
*Kiçikölçülü qutu, qələm, dəftər vərəqi, "yazı yazmaq" anlayışını verən şəkil, bir neçə konvert.*

## 5-ci dərs. Ümumiləşdirici təkrar

• Dərslik: səh. 80 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**
• Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur (st. 2.2.1 ).
• Mətndəki əsas fikri həyatda gördükləri ilə müqayisə edərək şəxsi qənaətini bildirir (st. 2.2.4).
• Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir (st. 2.2.2).
• Miqdar və sıra saylarını fərqləndirir (st. 4.1.5).
• Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə məlumatların xatırlanması |
| 2 | **Oxu** | "Mayak" şeirinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | İnformasiya vasitələrinin müqayisəsi; alqışların fərqləndirilməsi |
| 4 | **Dil qaydaları** | Miqdar və sıra saylarının fərqləndirilməsi; -lı, -li, -lu, -lü şəkilçiləri ilə əlamət bildirən sözlərin düzəlməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmədəki mövzulara uyğun olaraq şəkillər nümayiş etdirir (bölmənin şmustitulundakı şəkilləri nümayiş etdirmək də olar) və açar sözlər səsləndirir:

Dağ başında ocaq, səmada göyərçin, qayaüstü təsvirlər, dənizdə mayak, qaya parçasını kiçik daşlarla döyəcləyən adam, telefon, radio, televizor, kompüter.

Şagirdlər bu bölmədə həmin mövzular üzrə öyrəndikləri məlumatlar haqqında danışırlar.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər "Mayak" şeirini növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Müəllim şagirdlərin şeiri məzmununa uyğun oxumasını izləyir, yeri gəldikcə məsləhətlər verərək onları istiqamətləndirir. Şagirdlər şeirdən qafiyələnən sözləri seçib yazırlar. Bu tapşırıq şagirdlərə qafiyə haqqında öyrəndikləri bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Doğru cavablar:** *batır – yatır, mayak – oyaq, fırtına – hər yana, duman – güman, çatan – kapitan.*

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqdakı şəkillərdə təsvir edilmiş informasiya vasitələrini müəyyənləşdirir və onları mayakın ötürdüyü siqnal ilə müqayisə edirlər. **Doğru cavab:** *Mayak işıq vasitəsilə informasiya ötürür, bu baxımdan onu dağ başında qalanmış ocaq ilə müqayisə etmək olar.*

2.2.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq müəllimə şagirdlərin alqışlar haqqında öyrəndikləri bilikləri nə dərəcədə mənimsədiklərini yoxlamağa imkan verir. Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, onların arasından alqışları seçirlər.

**Doğru cavablar:**
• *Ömrün uzun olsun.*
• *Zəhmətin hədər getməsin.*
• *Ana-atanın fəxri olasan.*

### Dil qaydaları

4.1.5 **Tapşırıq C (dərslik).** Şagirdlər onlara təqdim edilmiş dörd sözdən birini fərqləndirməklə miqdar və sıra sayları haqqında qazandıqları bilikləri nümayiş etdirirlər.

**Doğru cavablar:**

*1) Birinci sırada D variantında verilmiş söz sıra sayıdır, digərləri isə miqdar sayıdır.*

*2) İkinci sırada C variantında verilmiş söz miqdar sayıdır, digərləri isə sıra sayıdır.*

**Tapşırıq B (iş dəftəri).** Tapşırıqda kiçik bir dialoq təqdim edilmişdir. Burada bəzi cümlələrdə sıra sayları buraxılmışdır. Şagirdlər cümlənin məzmununa uyğun olaraq buraxılmış sıra saylarını artıraraq cümlələri tamamlayırlar. Tapşırıq sıra sayları haqqında aldıqları bilikləri möhkəmləndirməyə xidmət edir.

LAYİHƏ

**Tapşırıq Ç (dərslik), tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş ad bildirən sözlərə *-lı, -li, -lu, -lü* şəkilçilərindən uyğun gələnini artırmaqla əlamət bildirən sözlər yaradırlar. Bununla da bu haqda öyrəndiklərini nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur. | Tapşırıq A (dərslik) |
| Mətndən əsas fikri həyatda gördükləri ilə müqayisə edərək şəxsi qənaətini bildirir. | Tapşırıq B (dərslik) |
| Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir. | Tapşırıq A (iş dəftəri) |
| Miqdar və sıra saylarını müəyyənləşdirir. | Tapşırıq C (dərslik), Tapşırıq B (iş dəftəri) |
| Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı mənanı müəyyənləşdirir. | Tapşırıq Ç (dərslik), Tapşırıq C (iş dəftəri) |



LAYİHƏ

bölmə 8

# ƏTRAF MÜHİT VƏ BİZ

| Mövzu | | **ƏTRAF MÜHİT VƏ BİZ** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Tanış mövzular üzrə müzakirə<br>• Qrafik informasiyanın şifahi təqdimatı<br>• Şəkil əsasında danışma |
| | Söz ehtiyatı | • barama, mum, pətək, neştər, nektar, agah olmaq, odlu silah, tilov, qarmaq, əcinnə, ləngər vurmaq, təqib etmək, çömbəlmək, avar, qalaq, yaramaq, ağzı açıq qalmaq, məişət və s. |
| | Oxu | • bədii və elmi mətnlərin oxunması<br>• qrafik informasiyanın oxunması<br>• mətnin mövzu, məzmun və ideyasının müəyyən olunması |
| | Yazı | • şəkil və ya plan əsasında təsviri xarakterli mətnin yazılması<br>• mətnin plan əsasında yazılması<br>• plakat tərtib edilməsi<br>• məktubun müxtəlif məqsədlərlə yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Müraciət bildirən sözlərlə vergülün işlənməsi<br>• Hiss-həyəcan bildirən sözlərin işlənməsi<br>• Gələcək zamanda işlənən feillərin düzgün yazılışı |
| | Filoloji anlayışlar | • Müraciət bildirən sözlər, hiss-həyəcan bildirən sözlər, plakat, həm böyük, həm də kiçik hərflə yazılan sözlər |
| Kompetensiyalar | | • Təbiətə sevgi, təbiətin qorunması, təbiətdəki varlıqlara dəyər verilməsi, canlıların həyatının bir-biri ilə sıx bağlı olması, ətraf mühitin təmizliyi |

Bu bölmədə təbiətin bizə verdiyi nemətlər, insanın təbiətə olan münasibəti, təbiətə qayğı və sevgi ilə yanaşmağın vacibliyi, maddi nemətlərin qənaətlə istifadəsi kimi müxtəlif mövzulardan bəhs edən bədii və informativ mətnlər təqdim edilir. Əsas məqsəd bu mövzulardan istifadə etməklə dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, bu mövzularla bağlı söz ehtiyatını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• mətndəki obrazların xarakterini təhlil edir, onlara münasibət bildirir;

• mətnə diqqətlə qulaq asır, mətn oxunduqca kitabdan izləyir;

• fikirlərini sərbəst şəkildə yazır;

• cümlənin növlərini fərqləndirir;

• məktubun struktur xüsusiyyətlərini bilir;

• şüar yazır.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

• Mətnin qısa məzmununun yazılması;

• Plakatın tərtibi;

• Nidaların, müraciət bildirən sözlərin müəyyənləşdirilməsi, yerinə görə müvafiq durğu işarələrindən (vergül, nida) istifadə.

**Diferensial təlim**

Bu bölmənin tədrisi zamanı mövzuların mənimsədilməsində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma faydalı ola bilər. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

*ətraf mühitin çirklənməsi ilə bağlı şəkillər, "qurama" üsulu ilə tikilən hər hansı bir əşya və yaxud qurama sənət nümunəsini əks etdirən şəkillər, plastik butulkalar və s.*

LAYİHƏ

fəsil **1** TƏBİƏT BİZƏ NƏ VERİR

## 1-ci dərs. "İpəkqurdu"

• Dərslik: səh. 81-83 İş dəftəri: səh. 54

**Təlim məqsədləri**
• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir (st. 2.2.2).
• Verilmiş sözlərə xas olan ümumi məna və ya əlaməti müəyyənləşdirir (st. 2.1.1).
• Qrafik informasiyanı (sxem, cədvəl, diaqram və s.) şifahi təqdim edir (st. 1.2.1).
• Hər hansı prosesin mərhələlərini ardıcıllıqla sadalayır (st. 1.2.1).
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Ətraf mühit" anlayışının şaxələndirilməsi |
| 2 | **Danışma** | Bölmə titulundakı şəkil və suallar üzrə iş |
| 3 | **Oxu** | "İpəkqurdu" mətninin oxusu; qrafik informasiyanın oxunması |
| 4 | **Söz ehtiyatı** | "Söz boğçası" üzrə iş |
| 5 | **Danışma** | İpəyin alınması mərhələləri üzrə danışma |
| 6 | **Yazı** | İpəyin alınması ardıcıllığının yazılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Klaster. Şaxələndirmə.** Müəllim sual verir: *"Ətraf mühit" dedikdə nə başa düşürsünüz?* Ətraf mühiti izah edən sözlər deyin. Şagirdlər müxtəlif sözlər səsləndirə bilərlər: hava, su, meşə, dəniz, bitkilər, heyvanlar, binalar və s.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Danışma fəaliyyəti müəllimin yönəldici sualları və titul səhifəsində verilmiş şəkillər vasitəsilə həyata keçirilir.

**Yönəldici suallar:** *1. Təbiətdə hansı canlılar var? Bizim üçün canlıların hansı faydaları var?*

*2. Biz təbiəti necə qorumalıyıq? Hansı şəkillərdə təbiətə qayğıkeş münasibət ifadə edilib? Təbiətə daha necə qayğı göstərə bilərik?*

*3. Sizcə, ağacların kəsilməsi təbiətə necə ziyan vurur? (hava çirklənir, oksigen azalır, insanların sağlamlığına mənfi təsir göstərir və s.)*

*4. Bir əşyanız köhnəldikdə onunla nə edirsiniz? Sizcə, biz ondan yeni bir əşya hazırlaya bilərikmi? Şəkildə gördüyünüz uşaqlar nə hazırlayırlar?*

**Müəllimin nəzərinə!** Titul səhifəsində verilmiş nümunə əsasında şagirdlər növbəti sərbəst dərsdə və ya texnologiya dərsində köhnə əşyalardan yeni əşyalar hazırlaya bilərlər.

**Tapşırıq B (dərslik). Həyat bilgisi fənni ilə inteqrasiya.** Şagirdlər şəkillərə baxır və müəllimin yönəldici sualları vasitəsilə gördükləri canlıların faydaları haqqında bildiklərini danışırlar.

Suallar: *Şəkildə hansı canlıları görürsünüz? Birinci şəkildə gördüyünüz bitki necə adlanır? İnsanlar ondan necə istifadə edirlər? Bəs qoyun bizə nə verir? Üçüncü şəkildə təsvir olunmuş arı, sizcə, nə edir? Bal yemisinizmi? Balın dadı, rəngi necə olur? Balın insanlar üçün hansı faydalarını bilirsiniz? (Qida məhsulu və dərman vasitəsi kimi istifadə olunur.)*

**Əlavə tapşırıq:** Hər bir canlının aid olduğu ümumi məna qrupunu *(bitki, heyvan, həşərat)* müəyyən edin. Bu məna qruplarına daxil olan başqa canlı adlarını söyləyin.

Bitki: *ağac, ot, çiçək, kol* və s.

Heyvan: *it, pişik, inək, qoyun, keçi, dəvə* və s.

Həşərat: *kəpənək, qarışqa, hörümçək* və s.

### Oxu

2.2.2 **Tapşırıq C (dərslik).** Müəllim oxuya başlamazdan əvvəl mətnin növlərini (bədii və informativ) xatırladır və soruşur: *Mətnin hansı növü bizə daha çox məlumat verir?*

Şagirdlər "İpəkqurdu" mətnini səsli oxuyurlar.

Müəllim şagirdlərə oxuduqları mətnin növünü müəyyənləşdirməyi tapşırır. Müəllimin köməyi ilə şagirdlər mətnin ilk iki abzasının bədii, sonrakı abzasların informativ xarakter daşıdığı qənaətinə gəlirlər. Mətnin abzasları təhlil edilir: *Mətndə neçə abzas var? Mətnin hansı abzaslarında ipəkqurdu haqqında daha çox məlumat verilir?* (4-cü, 5-ci abzaslar)

Müəllim mətnin necə qavranıldığını müəyyən etmək üçün mətnlə bağlı faktoloji suallar da verə bilər: *Mətnə əsasən ipəyin vətəni hara sayılır? Şahzadənin fincanına nə düşmüşdü? İpəkqurdu nə ilə qidalanır?*

LAYİHƏ

### Söz ehtiyatı

2.1.1 **“Söz boğçası” rubrikası.** Şagirdlər mətndən öyrəndikləri yeni sözlərin (*ipəkqurdu, ipək, barama, tırtıl*) mənalarını izah edirlər. Bununla da şagirdlərin söz ehtiyatı artırılır, həmçinin oxuyub-qavrama bacarıqları inkişaf etdirilir.

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıqda mətndə ipəyin alınması mərhələləri haqqında verilmiş məlumatlar şagirdlərə qrafik şəkildə təqdim edilmişdir. Bu, qrafik informasiyanın oxunması və nəql olunması bacarığının formalaşmasına xidmət edir. Müəllim şagirdlərin sxem vasitəsilə mətndən aldıqları informasiyaları ümumiləşdirmələri üçün onların diqqətini aşağıdakı suallarla sxemin strukturuna yönəldir:

*Sxemdə ipək parçanın alınması üçün neçə mərhələ göstərilmişdir? Sxemdəki ox işarələri bizə danışmağa necə kömək edir? Sxemdə ilk və son mərhələ hansıdır? Hər bir mərhələni necə adlandıra bilərik? (Kəpənəyin yumurta qoyması, kiçik qurdların – tırtılların yaranması, tırtılın böyüməsi, baramanın əmələ gəlməsi, tırtılın kəpənəyə çevrilməsi, ipək sapın hazırlanması, ipək parçanın toxunması.)*

**Diferensial təlim**

İpəyin alınması mərhələlərini ardıcıl danışmaqda çətinlik çəkən şagirdlərə mətnin son iki abzasını yenidən oxumaq tapşırılır.

1.2.1 **Tapşırıq D (dərslik).** Şagirdlər fərdi qaydada mətndən və sxemdən əldə etdikləri məlumatlar əsasında tapşırıqda verilmiş cümlələrin düzgün ardıcıllığını müəyyən edib vərəqdə ardıcıllığa uyğun rəqəmləri qeyd edirlər. Sonra müəllim düzgün cavabı (2-ci, 5-ci, 1-ci, 4-cü, 3-cü) lövhədə yazmaqla şagirdlərin cavab variantlarını yoxlayır.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər ipəyin alınma prosesinin mərhələlərini ardıcıl yazmaqla həm mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər, həm də yazı bacarıqlarını inkişaf etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tapşırıq A, B (dərslik) |
| Bədii və informativ mətni fərqləndirir. | Tapşırıq C (dərslik) |
| Sxemdə verilmiş informasiyanı şifahi təqdim edir. | Tapşırıq Ç (dərslik) |
| Hər hansı prosesin mərhələlərinin ardıcıllığını müəyyən edir. | Tapşırıq D (dərslik) |
| Şəkillər və bildiyi məlumatlar əsasında elmi və ya bədii mətn yazır. | Tapşırıq A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimin növbəti dərsdə nümayiş etdirmək üçün ipək kəlağayı və ya başqa ipək geyim, yun jaket və pambıq köynək gətirməsi tövsiyə olunur.

## 2-ci dərs. “Geyimlərin hazırlanması”

• Dərslik: səh. 83-84 İş dəftəri: səh. 55

**Təlim məqsədləri**

• Tanış mövzu ətrafında söhbət edir (st. 1.2.1).
• Hər hansı prosesin mərhələlərini düzgün ardıcıllıqla sadalayır (st. 1.2.1).
• Şəkillər və bildiyi məlumatlar əsasında elmi mətn yazır (st. 3.1.2).
• Dinlədiyi mətnlə bağlı sualları cavablandırırlar (st. 1.1.1).
• Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı yeni mənanı müəyyənləşdirir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif materiallardan hazırlanmış geyimlərin nümayişi |
| 2 | **Danışma** | Müxtəlif geyimlər haqqında danışma; yun parçanın alınması haqqında danışma |
| 3 | **Dinləmə** | Dinləmə mətni üzrə iş |
| 4 | **Yazı** | Yun parçanın alınması üzrə mətn qurma |
| 5 | **Dil qaydaları** | *-çı, -çi, -çu, -çü* hissəciyi ilə bağlı biliklərin möhkəmləndirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

LAYİHƏ

### Mövzuya yönəltmə

Müəllim gətirdiyi geyimləri şagirdlərə göstərir və soruşur:

*Sizcə, bu geyimlər nədən hazırlanıb? Sizcə, hansı daha qalındır? Geyimlərdən hansını yayda, hansını qışda geyinsək, daha yaxşı olar?*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərin əyani olaraq parçalara toxunması tapşırıqda verilmiş geyimlər haqqında daha ətraflı danışmağa kömək edir.

1.2.1 **Tapşırıq B (dərslik)**. Şagirdlər şəkillərin altında verilmiş hərəkət bildirən sözlərdən istifadə edərək yun parçanın hazırlanması haqqında danışırlar. Müəllim ilk olaraq şagirdlərin diqqətini şəkillərin altında verilmiş hərəkət bildirən sözlərə yönəldir. Verilmiş ardıcıllığa uyğun olaraq yun parçanın alınması haqqında mətn qurub danışırlar. Tapşırıq eyni zamanda şagirdlərin söz ehtiyatını artırır və möhkəmləndirir.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər dərslikdəki B tapşırığında yun parçanın alınması prosesinin ardıcıllığını öyrəndikdən sonra iş dəftərindəki tapşırığı fərdi şəkildə yerinə yetirirlər. Bu, şagirdlərin həm şəkillərdə verilmiş informasiyanı qavramaq, həm də prosesi yazıda ifadə etmək bacarığını inkişaf etdirir.

### Dinləmə

1.1.1 **Tapşırıq C (dərslik).** Əvvəlcə müəllim şagirdlərin diqqətini şəklə yönəldərək suallar verir:

*Şəkildəki qadınlar nə edirlər? Pambıq bitkisi görmüsünüzmü?*

Sonra "Pambığın hekayəsi" mətnini səsləndirir:

**"Pambığın hekayəsi"**

*Biz bir vaxtlar kiçik toxumlar idik. Bir əkinçi bizi tarlada torpağa səpdi. Bir müddət sonra cücərdik və çiçək açmağa başladıq. Sonra qozalar yarandı. Tam yetişdikdən sonra qozalar açıldı və içərisindəki pambıq üzə çıxdı. Bizi tarladan yığdılar. Daha sonra torbalara doldurub fabrikə apardılar. Dəzgahda əyirib saplar hazırladılar. Rəngbərəng boyalarla boyadılar. Saplardan parçalar toxudular.*

Mətni dinlədikdən sonra şagirdlər aşağıdakı sualları cavablandırırlar:

*Mətn kimin dilindən söylənilir? Pambıq harada yetişir? Bəs pambıq parça harada hazırlanır?*

Dərslikdəki tapşırıq yerinə yetirilir. Şagirdlər cümlələri düzgün ardıcıllıqla oxuyurlar: 2, 4, 5, 1, 3.

**Əlavə tapşırıq.** Pambıq parçanın yaranma prosesi ilə bağlı tapşırıq yerinə yetirilir. Bunun üçün müəllim lövhədə aşağıdakı sxemi çəkir və altında *toxum, çiçək, qoza, pambıq, sap* sözlərini qarışıq şəkildə yazır. Şagirdlərin köməyi ilə sözləri sxemin üzərində düzgün ardıcıllıqla yerləşdirir.




### Dil qaydaları

4.1.5 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin keçmiş biliklərini yada salır. Hansı hissəciklər peşə bildirən sözlər yaradır? Şagirdlər *-çı, -çi, -çu, -çü* hissəciyi ilə bağlı biliklərindən istifadə edərək *traktorçu, əkinçi, pambıqçı, üzümçü* sözlərini yaradırlar. Yaranmış peşə adlarını izah edirlər. Hər bir peşə sahibi haqqında danışırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış mövzu ətrafında söhbət edir. | Tapşırıq A (dərslik) |
| Hər hansı prosesin mərhələlərini düzgün ardıcıllıqla sadalayır. | Tapşırıq B (dərslik) |
| Şəkillər və bildiyi məlumatlar əsasında elmi mətn yazır. | Tapşırıq A (iş dəftəri) |
| Dinlədiyi mətnlə bağlı sualları cavablandırırlar. | Tapşırıq C (dərslik) |
| Bəzi leksik şəkilçilərin sözə qoşularaq yaratdığı yeni mənanı müəyyənləşdirir. | Tapşırıq Ç (dərslik) |

LAYİHƏ

## 3-cü dərs. "Arı"

• Dərslik: səh. 84-85 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

• Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür (st. 1.2.1).
• Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur (st. 2.2.1).
• Dinlədiyi mətn əsasında şəkil üzrə danışır (st. 1.1.1).
• Dinlədiyi mətnin qısa məzmununu yazır (st. 3.1.2).
• Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır (st. 2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapmacanın söylənilməsi |
| 2 | **Danışma** | Arıçılıq haqqında danışma |
| 3 | **Oxu** | "Arı" şeirinin oxunması; suallar üzrə iş |
| 4 | **Dinləmə** | "Bal arısının ailəsi" mətninin dinlənilməsi |
| 5 | **Yazı** | "Bal arısının ailəsi" mətni üzrə yazı işi |
| 6 | **Söz ehtiyatı** | Yeni sözlər üzrə iş |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim arı ilə bağlı tapmaca səsləndirir:

*Qanadı var uçmağa,*
*İynəsi var sancmağa,*
*Sevir işi, zəhməti,*
*Odur ki var hörməti.*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini şəklə yönəldərək şəkil əsasında sözlər deməyi tapşırır. Bununla şagirdlərin mövzu üzrə ilkin söz ehtiyatı *(arı, arıçı, yeşiklər, pətək, şan, bal və s.)* yoxlanılır. Müəllim yönəldici suallar verməklə "arıçı" peşə sahibinin işi haqqında onları danışdırır:

*Sizcə, arılar balı necə hazırlayırlar? Arılar nə ilə qidalanırlar? Arıçı görmüsünüzmü? Şəkildəki arıçının geyiminə diqqət edin. Nə üçün o belə geyinmişdir?*

Müəllim "arıçı" peşə sahibi haqqında məlumat verir: "Arılara qulluq edən, onları çiçəklər çox olan ərazilərə aparan, arı pətəklərindən balı yığan insan arıçı adlanır. Onların arı sancmalarından qorunması üçün xüsusi geyimləri olur.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** Şeirin intonasiyalı oxusu təşkil edilir. Şagirdlərə tanış olmayan sözlər izah olunur.

**Müəllimin nəzərinə!** Sözlərin izahı: ***mum*** – bal arılarının hazırladığı və şan düzəltmək üçün istifadə etdikləri maddə; ***nektar*** – çiçəklərin ifraz etdiyi şəkərli şirə; ***şan*** – balı saxlamaq üçün arıların pətəkdə mumdan düzəltdikləri gözcüklər; ***neştər*** – arının sancmaq üçün istifadə etdiyi zəhərli iynəsi.

Şagirdlər sualları cavablandırmaqla şeiri oxuyub-qavradıqlarını nümayiş etdirirlər. *"Sizcə, arı ilin hansı aylarında çalışmır?* (Qış aylarında) *Sizcə, nə üçün bu aylarda bal arıları bal hazırlamırlar?* (Çünki gül-çiçək mövsümü deyil)" sualları ətrafında müzakirə aparılır.

Şeir oxunduqdan sonra müəllim şagirdlərə şeirin strukturu ilə bağlı (şeirin adı, müəllifi, qafiyələnməsi və s.) əvvəlki biliklərini xatırlada bilər.

**Əlavə tapşırıq.** Müəllim hər şagirdə şeirdən iki qafiyələnən söz seçib yazmağı tapşıra bilər.

**Əlavə tapşırıq.** Şagirdlərə arıların faydası (məişətdə, təbabətdə istifadəsi) haqqında araşdırma aparmaq tapşırılır. Təqdimatlar növbəti sərbəst dərsdə dinlənilə bilər.

### Dinləmə

1.1.1 **Tapşırıq C (dərslik).** Müəllim *"Sizcə, heyvanların və ya həşəratların ailəsi ola bilərmi? Onlar da bizim kimi ailədaki vəzifələrini bölə bilərlərmi?* kimi yönəldici suallar səsləndirir.

Müəllim "Bal arısının ailəsi" mətnini oxuyur:

**"Bal arısının ailəsi"**

*Bal arıları ailə şəklində olur. Bu ailədə hərənin öz işi, öz vəzifəsi var. Arı ailəsində minlərlə arı yaşayır. Lakin ana arı bircə dənə olur. Onun əsas vəzifəsi dünyaya yeni arılar gətirmək və onları bəsləyib boya-başa çatdırmaqdır.*

*Kəşfiyyatçı arı gedib çölü-çəməni gəzir və pətəyə – ailənin evinə qayıdır. O özü ilə çiçəklərin ətrini gətirir və çəmənliyin yerini işçi arılara nişan verir. İşçi arılar həmin yerlərə uçur, çiçəklərdən nektar toplayır və onu bala çevirib şana doldururlar.*

LAYİHƏ

*Ailədə keşikçi arılar da olur. Onlar pətəyi düşmənlərdən qoruyurlar. Bu arıların bir başqa vəzifəsi də tənbəllik edən işçi arıları cəzalandırmaqdır. Keşikçi arılar çölü-çəməni boş-boş gəzib geriyə balsız dönən işçi arıları pətəyə buraxmırlar.*

Mətni dinlədikdən sonra şagirdlər mətn və şəkillər əsasında arı ailəsi haqqında danışırlar.

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Arı ailəsinin üzvlərinin vəzifələri haqqında yazı tapşırığı yerinə yetirilir.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıqda yeni sözlər şəkillərlə izah edilmişdir. Şagirdlər həmin şəkillərin köməyi ilə yeni sözləri öyrənir və cümlədə işlətməklə mənimsədiklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür. | Tapşırıq A (dərslik) |
| Şeiri məzmununa uyğun intonasiya ilə oxuyur. | Tapşırıq B (dərslik) |
| Dinlədiyi mətn əsasında şəkil üzrə danışır. | Tapşırıq C (dərslik) |
| Dinlədiyi mətnin qısa məzmununu yazır. | Tapşırıq A (iş dəftəri) |
| Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır. | Tapşırıq B (iş dəftəri) |

## 4-cü dərs. “Boyanmış yumurtalar”

• Dərslik: səh. 86-87 • İş dəftəri: səh. 57

**Təlim məqsədləri**

• Həyatda gördüklərinə və oxuduqlarına əsaslanaraq fikir yürüdür (st. 1.2.1).
• Mətndə oxuduqlarından çıxış edərək həyatda qarşılaşdığı məsələlərə aydınlıq gətirir (st. 2.2.4).
• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).
• Şəkillər əsasında ardıcıllığa uyğun olaraq təlimat yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Əşyaların nədən hazırlanması barədə sorğu-sual |
| 2 | **Danışma** | Şəkilli sxem əsasında bitkilərdən alınan əşyalar haqqında danışma |
| 3 | **Oxuyub-qavrama** | “Boyanmış yumurtalar” mətninin oxunması |
| 4 | **Yazı** | Yumurta boyanması üzrə təlimatın yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

*– Sizcə, ətrafda gördüyünüz əşyaları hazırlamaq üçün nədən istifadə edirlər? (parta, kitab və s.)*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər şəkillər üzrə verilmiş bitkilərdən nələr alındığı haqqında danışırlar. Nələrinsə hazırlanması üçün istifadə olunan daha hansı bitkiləri tanıyırsınız? Müəllim I yarımildə tədris olunmuş “Təbiətin sirləri” bölməsini xatırlada bilər: Dərman bitkiləri və s.

**Tapşırıq B (dərslik).** *Daha çox hansı rəngdə olan geyimləri sevirsiniz? Sizcə, geyimləri necə boyayırlar? Qədim dövrlərdə insanlar bunu necə edirdilər?*

Şagirdlər eşitdiklərinə və ya oxuduqlarına əsaslanaraq qədim dövrdə geyimlərin necə boyandığı haqqında fərziyyələr irəli sürürlər. Müəllim o dövr insanlarının boya əldə etmək üçün təbiətdə olan bitki və həşəratlardan istifadə etdiyini şagirdlərin diqqətinə çatdırır.

### Oxu. Söz ehtiyatı

2.2.4 **Tapşırıq C (dərslik).** Mətn oxunmazdan öncə müəllim şagirdlərdən Novruz yumurtalarının boyanması haqqında bildiklərini soruşur:

*– Valideynlərinizlə birlikdə Novruz yumurtaları boyamısınızmı? Necə boyayırlar? Mətnə çəkilmiş şəkildə oğlan yumurtanı necə boyayır? Sizcə, o düzgün edirmi?*

Şagirdlər mövzu ətrafında bildiklərini danışır, fikirlərini əsaslandırırlar. Sonra mətn şagirdlər tərəfindən müəyyən vaxt ərzində səssiz oxunur. Şagirdlər yeni öyrəndikləri məlumatları söyləyirlər. Həyatda gördükləri analoji hadisələrlə oxuduqlarını müqayisə edirlər.

LAYİHƏ

### Oxuyub-qavrama

**Tapşırıq Ç (dərslik).** Müəllim sual-cavab əsasında şagirdlərin mətni oxuyub-qavradıqlarını yoxlayır. Şagirdlər *"Nəyə görə nənə təbii boyaları üstün tuturdu?"* sualını cavablandırmaq üçün mətndən nənənin bu barədə dediyi fikirləri *(Adil, yumurtanı belə boyamazlar. Axı sonra onu bişirib yeməli olacaqsan. Bu boya isə zəhərlidir, sağlamlığa ziyandır.)* seçirlər.

Müəllim şagirdlərə belə bir izah da verə bilər: Novruz təbiətin oyanması bayramıdır. Bu bayram süfrəsində təbiətin verdiyi təbii nemətlərdən istifadə olunmalıdır. Novruz yumurtaları da təbii boyalarla rənglənməlidir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlərin diqqəti yenidən nənə ilə Adilin dialoquna yönəldilir. Dialoqdan məlum olur ki, soğan, çuğundur, zəfəran, göyərti məhsullarından təbii boyalar əldə etmək olar. Müəllim bu haqda şagirdləri müzakirəyə cəlb edir:

*– Sizcə, bu bitkilərdən hansı rəngləri ala bilərik?*

Sonra iş dəftərindəki A tapşırığını müstəqil yerinə yetirən şagirdlər həm yeni rəng adları ilə tanış olur, həm də bu adların necə yarandığını öyrənirlər.

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Müəllim əvvəlcə soğan qabığı ilə yumurta boyanması barədə şagirdlərin ilkin biliklərini yoxlayır:

*– Analarınız, nənələriniz soğan qabığı ilə yumurta boyayanda görmüsünüzmü? Bunu necə edirlər?*

Sonra şagirdlər iş dəftərlərində şəkillər əsasında təlimat hazırlamağa başlayırlar. Əvvəlcə lazım olan ləvazimatları yazırlar. Daha sonra boyama prosesini ardıcıl olaraq izah edirlər.

Təxminən belə yaza bilərlər:

Yumurtanın boyanması haqqında təlimat nümunəsi: **Lazım olan əşyalar:** *qazan, su, soğan qabığı, soba, sap, keşniş və ya şüyüd.*

**Hazırlanma qaydası:**

1. Qazana su tökülür.
2. Sonra soğanın qabıqları əlavə edilir.
3. Sobanın üzərində qaynadılır.
4. Yumurtaların üzərinə sapla keşniş və ya şüyüd bağlanır.
5. Rəngi dəyişilmiş qaynar suya yumurta salınır.
6. 10-15 dəqiqə qaynadıqdan sonra sudan çıxarılır. Boyanmış yumurtalar hazırdır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördüklərinə və oxuduqlarına əsaslanaraq fikir irəli sürür. | Tapşırıq A, B (dərslik) |
| Mətndə oxuduqlarından çıxış edərək həyatda qarşılaşdığı məsələlərə aydınlıq gətirir. | Tapşırıq C, Ç (dərslik) |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tapşırıq A (iş dəftəri) |
| Şəkillər əsasında ardıcıllığa uyğun olaraq təlimat yazır. | Tapşırıq B (iş dəftəri) |

## 5-ci dərs. Müraciət bildirən sözlər

• Dərslik: səh. 87 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**

• Dinlədiyi mətndəki əsas fikri şərh edir (st. 1.1.2).
• Müraciət bildirən sözlərdən sonra vergül işarəsindən istifadə edir (st. 4.1.7).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ağacların faydası haqqında danışma |
| 2 | **Dinləmə** | "Kağızın alınması" mətninin dinlənilməsi və suallara cavab verilməsi |
| 3 | **Dil qaydaları** | Müraciət bildirən sözlərin mənimsədilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

*– Hansı ağacları tanıyırsınız? Ağacların bizim üçün hansı faydası var? Biz ağacdan nələr hazırlaya bilərik? Hər gün istifadə etdiyimiz kağızı nədən hazırlayırlar?*

### Dinləmə

1.1.1 **Tapşırıq A (dərslik).** Müəllim kağızın alınması ilə bağlı mətn səsləndirir:

LAYİHƏ

**Dinləmə mətni**

*Yazmaq və ya kitab nəşr etmək üçün xüsusi bir material lazımdır. Bizim üçün həmin material kağızdır. Lakin bu həmişəmi belə olub?*

*Kağız yaranana qədər insanlar qayalarda, gil lövhələrdə, heyvan dərisi və ya bitki yarpaqları üzərində yazırdılar. Bizim bu gün istifadə etdiyimiz kağızı isə ilk dəfə çinlilər hazırlayıblar. Çinlilər kağızı əvvəllər əllə hazırlayırdılar. Onlar daha çox tut ağacının qabıqlarını isladır, yayır və qurudaraq kağız alırdılar. Sonradan müxtəlif ağacların qabıqlarından istifadə etməyə başladılar. Sonralar isə kağız hazırlamaq üçün xüsusi dəzgahlar yaradıldı.*

*İndi kağız ən çox istifadə edilən yazı vasitəsidir. Ancaq kağızların çox istifadə edilməsi, qənaət etmədən işlədilməsi təbiətə ziyan verir. Daha çox kağız istifadə etmək daha çox ağacların kəsilməsinə və meşələrin qırılmasına səbəb olur.*

Şagirdlər mətni dinləyir və suallara cavab verirlər: *Dinlədiyiniz mətn ağacların hansı faydası haqqında məlumat verir? Kağızı ilk dəfə harada hazırlayıblar? Çinlilər kağızı hazırlamaq üçün nədən istifadə ediblər? Kağız necə hazırlanırdı?* Dinləmə mətnində təbiəti qorumaq üçün hansı yol göstərilir?

**4.1.7** **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərin diqqətini "Boyanmış yumurtalar" mətninə yönəldib soruşur:

*– Adil nənəsinə necə müraciət edirdi? (nənə, nənəcan) Bəs nənəsi Adilə necə müraciət edirdi? (a bala, ağıllı bala, mənim balam)*

Şagirdlər mətndən həmin hissələri tapıb yenidən oxuyurlar.

Sonra müəllim şagirdlərə sual verir: *Biz bir-birimizi necə çağırırıq? (Şagirdlər adlarımızla deyə cavab verə bilərlər.) Bəs ailə üzvlərimiz, qohumlarımız bizə necə müraciət edirlər? (qızım, oğlum, dostum, bala, bacı və s.)*

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər rubrikada müraciət bildirən sözlərlə bağlı verilən məlumatı oxuyurlar. Müəllim bu sözlərin cümlədə digər sözlərdən vergül işarəsi ilə ayrılmasını nümunələr əsasında şərh edir: Əgər müraciət bildirən söz cümlənin əvvəlində işlənərsə, ondan sonra, sonunda işlənərsə, ondan əvvəl, cümlənin ortasında işlənərsə, hər iki tərəfində vergül işarəsi qoyulur.

**Tapşırıq C (dərslik). Yazı ilə inteqrasiya.** Tapşırıq dil qaydası üzrə yeni öyrədilən biliklərin möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər tapşırığı yerinə yetirdikdən sonra müəllim düzgün variantı izah edir. Şagirdlər öz tapşırıqlarını nəzərdən keçirirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətni oxuyur, müraciət bildirən sözləri tapır və altından xətt çəkirlər. Müraciət bildirən sözlərin işlənmə məqamlarından asılı olaraq vergül işarələrini mətnə əlavə edirlər.

**Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırıq şagirdlərin dialoq qurmaq və müraciət bildirən sözlərdən düzgün şəkildə (vergül işarəsini işlətməklə) istifadə etmək bacarıqlarını möhkəmləndirir. Tapşırığı yerinə yetirdikdən sonra şagirdlər öz işlərini şifahi şəkildə təqdim edə bilərlər. Təqdimat zamanı istifadə etdikləri müraciət bildirən sözləri də söyləyirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki əsas fikri şərh edir. | Tapşırıq A (dərslik) |
| Müraciət bildirən sözlərdən sonra vergül işarəsindən istifadə edir. | Tapşırıq B, C (dərslik), Tapşırıq A, B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimin dərslikdə səhifə 88-də verilmiş "Ana Təbiətin uşaqlara məktubu" mətnini öncədən məktub formasında hazırlaması, zərfə qoyaraq sinfə gətirməsi tövsiyə olunur.

LAYİHƏ

fəsil 2 TƏBİƏTİ QORUYAQ

## 1-ci dərs. "Ana Təbiətin uşaqlara məktubu"

• Dərslik: səh. 88-89 • İş dəftəri: səh. 59

**Təlim məqsədləri**
• Öz biliklərinə əsaslanaraq fikir irəli sürür (st. 1.2.2).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Müəyyən mövzu üzrə çağırış xarakterli cümlə yazır (st. 3.1.4).
• Oxuduqlarını həyatda gördükləri ilə müqayisə edir (st. 1.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Məktub zərfinin nümayişi |
| 2 | **Danışma** | Ana təbiət ifadəsi üzrə müzakirə |
| 3 | **Oxuyub-qavrama** | "Ana Təbiətin uşaqlara məktubu" mətninin oxunması |
| 4 | **Yazı** | Uşaqların insanlara müraciəti; Ana Təbiətə cavab məktubu |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sinfə gətirdiyi zərfi nümayiş etdirərək zərfin üzərini oxuyur:

– *Ana Təbiətdən 2 ... sinfinin uşaqlarına məktub*

**Müəllimin nəzərinə!** Daha inandırıcı olsun deyə müəllim nöqtələrin yerinə dərs keçdiyi sinfin hərflə ifadə olunmuş işarəsini səsləndirir: 2A, 2B, 2C, 2D...

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Müəllim məktubu oxumazdan öncə soruşur:

*– Sizcə, nə üçün təbiət anaya bənzədilir?*

Şagirdlər ana ilə təbiəti müqayisə edirlər.

### Oxu. Söz ehtiyatı

2.2.4 **Tapşırıq B (dərslik).** Müəllim məktubu ucadan oxuyur, şagirdlər diqqətlə dinləyirlər. Sonra müəllim soruşur:

*– Ana Təbiət bu məktubu sizə nə üçün yazıb?*

Sonra şagirdlərdən bir neçəsi növbə ilə mətni oxuyurlar. Tanış olmayan sözlər *(agah olmaq, odlu silah)* izah olunur. Suallar əsasında mətn təhlil olunur. Mətnin ideyası sonuncu abzasdan aydın olur.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər fərdi şəkildə suallara cavab yazmaqla mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

### Yazı

3.1.4 **Tapşırıq B (iş dəftəri).** Məktubun sonuncu abzasında Ana Təbiət uşaqlardan xahiş edir ki, insanları başa salın ki, təbiət onların evidir. Müəllim şagirdlərə bu hissəni yenidən oxumağı tapşırır. Sonra şagirdlər insanlara müraciət xarakterli cümlələr yazırlar.

**Təxminən belə yaza bilərlər:**

*Əziz insanlar, Ana Təbiət bizə məktub göndərib. O bizdən inciyib və deyir ki, biz təbiətə ziyan vururuq. Ətraf mühiti çirkləndiririk, ağacları kəsirik, heyvanları öldürürük. Gəlin yaşadığımız dünyanı qoruyaq, Təbiətin qayğısına qalaq. Əgər belə etsək, Ana Təbiət bizə təşəkkür edər.*

Sonda şagirdlərin yazıları oxunub müzakirə edilir. Tapşırıq şagirdlərin həm müraciət bildirən sözlər üzrə biliklərini möhkəmləndirir, həmçinin yazı bacarıqlarını inkişaf etdirir.

### Danışma

1.2.1 **Tapşırıq C (dərslik).** Əvvəlki bölmələrdə də ətraf mühitin qorunması mövzusuna müəyyən qədər toxunulmuşdur. Şagirdlər şəkildə gördüklərindən və əvvəlki biliklərindən istifadə etməklə mövzu üzrə ümumiləşdirmə aparıb ətraflı şəkildə danışırlar. Müəllim şagirdlərin mövzu üzrə ətraflı danışmasını təmin etmək üçün soruşur:

*– Başqa nə cür təbiətin qayğısına qala bilərik? (heyvanların qayğısına qalmaq, quşlara yuva tikmək, dənizi çirkləndirməmək və s.)*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Öz biliklərinə əsaslanaraq fikir irəli sürür. | Tapşırıq A (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tapşırıq B (dərslik), Tapşırıq A (iş dəftəri) |

LAYİHƏ

| | |
|---|---|
| Müəyyən mövzu üzrə çağırış xarakterli cümlə yazır. | Tapşırıq B (iş dəftəri) |
| Müşahidə etdikləri və oxuduqları əsasında şəkil üzrə danışır. | Tapşırıq C (dərslik) |

## 2-ci dərs. Məktubun yazılma məqsədi

• Dərslik: səh. 89-90 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**

• Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir (st. 2.2.2).
• Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Ana Təbiətin uşaqlara məktubu” mətninin xatırlanması |
| 2 | **Oxu** | Ana Təbiətin uşaqlara məktubunun quruluşu və yazılma məqsədinin müəyyən olunması |
| 3 | **Yazı** | Müxtəlif məqsədlərlə məktubun yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

“Ana Təbiətin uşaqlara məktubu” mətninin məzmunu xatırlanır.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər I yarımildə məktubun strukturu ilə tanış olmuşlar. Müəllim onların bu biliklərini soruşur. Sonra tapşırıq yerinə yetirilir. Şagirdlər verilmiş plan əsasında Ana Təbiətin uşaqlara məktubunun strukturunu izah edirlər. Onların nitqi təxminən belə ola bilər:

*1. Ana Təbiət məktubunda uşaqlara “Əziz balalar” deyə müraciət etmişdir.*

*2. Ana Təbiət özünü Yer üzündəki bütün canlıların anası kimi təqdim etmişdir.*

*3. Ana Təbiət insanların təbiətə ziyan vurmasından şikayətlənir.*

*4. Ana Təbiət istəyir ki, insanlar təbiəti də öz evləri kimi təmiz saxlasınlar, digər canlıları məhv etməsinlər, qorusunlar.*

*5. Ana Təbiət məktubunu uşaqlara sevgi və məhəbbətini ifadə etməklə bitirir.*

**Tapşırıq B (dərslik).** Məktubun yazılma məqsədi müzakirə edilir.

**Doğru cavab:** B.

**“Faydalı məsləhət” rubrikası.** Rubrikada məktubun müxtəlif məqsədlərlə yazılması ilə bağlı məlumat verilmişdir. Bununla şagirdlərin məktubla bağlı bilikləri genişləndirilir.

### Yazı

3.1.4 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Şagirdlər 4 qrupa bölünür. Hər qrup verilmiş mövzulara uyğun məktub yazır. Qrupların təqdimatı dinlənilir və qiymətləndirilir.

**Müəllimin nəzərinə!** Tapşırıq yerinə yetirildikdən sonra hər bir qrup yazdığı məktubun məqsədini müəyyənləşdirməlidir. Məktubun yazılma səbəbi tapşırıqda verilmiş situasiyaya müvafiq olmalıdır. 1-ci məktub təbrik, 2-ci məktub təşəkkür etmək üçün yazılır. 3-cü məktub başqa ölkəyə köçmüş rəfiqəsinə duyğularını (onu məhəbbətlə xatırladığını, onun üçün darıxdığını) bildirmək, eləcə də özü haqqında məlumat vermək üçün yazıla bilər. 4-cü məktubda şagird həm öz uğuru haqqında müəlliminə məlumat verir, həm də ona bu uğurun qazanılmasında böyük zəhməti olduğuna görə minnətdarlığını bildirir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər fərdi şəkildə Yer üzünün uşaqları adından Ana Təbiətə cavab məktubu yazırlar. Müəllim sinfin səviyyəsindən asılı olaraq şagirdlərə nümunə məktub səsləndirə bilər:

**Ana Təbiətə uşaqların məktubu**

*Salam, əziz Ana Təbiət!*

*Biz məktubunu oxuyub kədərləndik. Ona görə ki sənin qəmgin olmağının səbəbkarı biz insanlarıq. Yaratdığın gözəllikləri biz öz əllərimizlə məhv edirik.*

*Biz şagirdlər söz veririk ki, kəsilmiş hər bir ağacın əvəzinə çoxlu ağac əkəcəyik, quş yuvaları düzəldəcəyik, parkda, küçədə, çimərlikdə yerə zibil atmayacağıq.*

*Anamız Təbiət, biz bütün insanların əvəzindən səndən üzr istəyirik. Ana Təbiət, biz hər yerdə sənin məktubundan danışıb insanları xeyirxahlığa, təmizliyə, təbiəti qorumağa çağıracağıq.*



LAYİHƏ

*Söz veririk ki, biz səni və özümüzü xilas edəcəyik. Bizə inan!*

*Hörmətlə: Sənin övladların.*

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər yazdıqları məktubun məqsədini müəyyən edirlər. Tapşırıq yerinə yetirildikdən sonra şagirdlər öz məktublarının məzmununa uyğun seçdikləri məqsədi əsaslandırmalıdırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məktubun quruluşunu izah edir. | Tapşırıq A, B (dərslik), Tapşırıq B (iş dəftəri) |
| Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir. | Tapşırıq C (dərslik), Tapşırıq A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə növbəti dərsdə ətraf mühitin çirklənməsi ilə bağlı şəkillər nümayiş etdirmək tövsiyə olunur.

## 3-cü dərs. "Uzaylının dərsi"

• Dərslik: səh. 90-91 • İş dəftəri: səh. 61

**Təlim məqsədləri**

• Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir (st. 2.2.5).
• Obrazın davranışının səbəbini onun xarakteri ilə izah edir (st. 2.2.5).
• Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq və s.) müəyyən edir (st. 2.2.2).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 2.2.3).
• Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin gətirdiyi şəkillər üzrə söhbət |
| 2 | **Oxu** | "Uzaylının dərsi" mətninin oxunması |
| 3 | **Oxuyub-qavrama** | Obrazların davranışlarının təhlili |
| 4 | **Yazı** | Uzaylıya məktubun yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim ətraf mühitin çirklənməsi ilə bağlı şəkillər nümayiş etdirir və sual verir:

*– Sizcə, biz niyə belə vəziyyətlə qarşılaşırıq? Səbəbi nədir?*

Şagirdlər şəkillərdə gördüklərinə münasibət bildirirlər. İnsanlar ətraf mühiti çirkləndirirlər. Bunun səbəbi onların laqeydliyi, məsuliyyətsizliyi, tənbəlliyi, pintiliyi, səliqəsizliyi və s.-dir.

### Oxu

2.2.5 **Tapşırıq A (dərslik). Proqnozlaşdırılmış oxu.** Mətn "O qərara aldı ki, bu oğlana dərs versin" cümləsinə qədər oxunur. Müəllim soruşur:

*– Sizcə, uzaylı uşağa necə dərs verəcək?*

Şagirdlər fərziyyələrini söyləyirlər. Mətn "O, gecəyarısına kimi çarpayısını təmizləməklə məşğul oldu" cümləsinə qədər oxunur. Şagirdlərin söylədikləri fərziyyələrlə oxunan hissə müqayisə olunur.

Müəllim soruşur:

*– Sizcə, bundan sonra Aydın nə edəcək?*

Şagirdlərin fərziyyələri dinlənilir və növbəti abzas oxunur. Oxunan hissə şagirdlərin fərziyyələri ilə müqayisə olunur.

Şagirdlər sonuncu abzası oxuduqdan sonra müəllim şagirdlərə dərslikləri bağlamağı tapşırır və sual verir:

*– Sizcə, uzaylı uşaq məktubda nə yazmışdı?*

Şagirdlərin fərziyyələri dinlənildikdən sonra mətnin oxusu davam etdirilir. Şagirdlərin fərziyyələri ilə məktubun məzmunu müqayisə olunur.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Şagirdlər Aydının hərəkətinin səbəbini onun xarakteri ilə izah edirlər. Aydının davranışları əsasında onun xarakteri təhlil olunur. Məlum olur ki, hekayənin əvvəlində pinti, laqeyd, məsuliyyətsiz olan Aydın

LAYİHƏ

uzaylının ona verdiyi dərsdən sonra səliqəli, qayğıkeş olmağa başlayır. Şagirdlər Aydının hərəkətlərini müzakirə edib öz şəxsi keyfiyyətləri ilə müqayisə edirlər.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** “Uzaylının dərsi” mətninin hekayə xəritəsini tərtib edirlər.

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər əvvəlki dərsdə məktubun yazılma məqsədləri ilə bağlı biliklərini xatırlayaraq məktubun yazılma məqsədini *(təşəkkür)* müəyyən edirlər. Şagirdlər səssiz şəkildə uzaylı uşağın məktubunu bir də oxuyurlar və müzakirə edirlər.

### Yazı

3.1.4 **Tapşırıq Ç (dərslik).** Verilmiş plan əsasında uzaylı uşağın dilindən Yer kürəsindəki uşaqlara məktub yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki fakt və hadisə ilə tanış olduqdan sonra onun mümkün nəticələrini təxmin edir. | Tapşırıq A (dərslik) |
| Obrazın davranışının səbəbini onun xarakteri ilə izah edir. | Tapşırıq B (dərslik) |
| Müəllifin məqsədini müəyyən edir. | Tapşırıq C (dərslik) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tapşırıq A (iş dəftəri) |
| Məktub yazarkən mətnin tərkib hissələrinin ardıcıllığına əməl edir. | Tapşırıq Ç (dərslik) |

## 4-cü dərs. Həm böyük, həm də kiçik hərflə yazılan sözlər

• Dərslik: səh. 92 • İş dəftəri: səh. 62

**Təlim məqsədləri**

• Bəzi sözlərin cümlədə yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir (st. 4.1.3).

• Dil qaydalarına əməl etməklə mətndəki səhvləri düzəldir (st. 3.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Böyük hərflə yazılan sözlər üzrə dil qaydasının xatırlanması |
| 2 | **Dil qaydaları** | Həm böyük, həm də kiçik hərflə yazılan sözlər üzrə iş |
| 3 | **Yazı** | Mətndəki səhvlərin düzəldilərək yenidən yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim yönəldici suallarla şagirdlərin sözlərin böyük, yoxsa kiçik hərflə yazılmasına dair biliklərini xatırladır:

*– Hansı sözlər böyük hərflə yazılır? Elə adlar deyin ki, həm qız adı olsun, həm də gül adı? Sizcə, belə sözlər böyük, yoxsa kiçik hərflə yazılır?*

### Dil qaydaları

4.1.3 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini “Uzaylının məktubu” mətnində mavi rəngdə verilmiş sözlərə yönəldir. Bu sözlərdən hansının böyük, hansının kiçik hərflə yazılması müzakirə edilir. Şəxs adlarının həmişə böyük hərflə yazılması qaydasını xatırlayan şagirdlər “Aydın” sözünün başqa kontekstdə kiçik hərflə yazıldığını görürlər. Kiçik hərflə yazılmış sözün mənasını izah edərək bu sözün yazılışı barədə düşünürlər. Bəzi şəxs adlarının belə sözlərdən yaranmasını nümunə gətirirlər. Məsələn, *sevinc, arzu* və s.

**“Bunları bilməliyik” rubrikası.** Böyük və kiçik hərflə yazılan sözlərə aid məlumat və nümunələr oxunub təhlil edilir. Müəllim sinifdəki şagirdlərin adlarından mövzuya uyğun nümunə (əgər elə bir şagird adı varsa) gətirə bilər. Bununla mövzu şagirdlərin şəxsi müstəvisinə keçirilir və dil qaydası dərindən mənimsənilir.

Müəllim lövhədə mətndən aşağıda verilmiş iki cümləni yazır və yer, Yer sözlərini işarə edir.

*“Uzaylı buludların arasından* ***Yerə*** *endi”.*

*“Hətta dostlarından da xahiş etdi ki,* ***yerə*** *zibil atmasınlar”.*

Müəllimin yönəldici sualları ilə şagirdlər 1-ci cümlədəki sözün nə üçün böyük hərflə yazıldığını müzakirə edirlər.

**Tapşırıq B (dərslik).** Şagirdlər cümlədən asılı olaraq həm böyük, həm də kiçik hərflə yazılan sözləri seçirlər. Materialı daha yaxşı dərk etmək



LAYİHƏ

üçün müəllim seçilən sözləri cümlədə işlətməyi tapşıra bilər.

**Doğru cavab:** Ceyran, Mahir, Qərənfil, Səma, Polad.

**Tapşırıq C (dərslik).** Cümlələrdə altından xətt çəkilmiş sözlərin ümumi isim kimi işləndiyi hallara uyğun cümlələr qururlar.

Nümunələr:

1. O, yarışda mütləq qalib gələcək.
2. Sənə sağlamlıq arzu edirəm.
3. Anası qızına güllü don tikdi.

**Tapşırıq Ç (dərslik).** Verilən sözlər gözlə görünməyən varlıqlar olduğu üçün müəllim şagirdlərin diqqətini əvvəlcə sözlərin mənasına yönəldir. Bu, şagirdlərə verilən sözlərə uyğun cümlələr qurmaqda köməklik edəcək. Sonra şagirdlər nümunəyə uyğun olaraq sözləri cümlələrdə işlədirlər.

Nümunə:

1. Etibar yarışda qalib gəldi // Mən dostuma etibar edirəm.
2. Bu zaman o mənə yaxınlaşdı // Zaman kraliçanın sevimli atı idi.
3. Mübariz İbrahimov Azərbaycanın milli qəhrəmanıdır // O çox mübariz insandır.

### Yazı

3.1.5 **Tapşırıq A (iş dəftəri).** Verilmiş tapşırıq dərs boyunca şagirdlərin öyrənmiş olduğu biliklərinin möhkəmləndirilməsi məqsədi daşıyır.

**Müəllimin nəzərinə!** Müəllim bu dərsdə mövzuya uyğun cümlələr söyləməklə imla yazdıra bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir. | Tapşırıq A, B, C, Ç (dərslik) |
| Dil qaydalarına əməl etməklə mətndəki səhvləri düzəldir. | Tapşırıq A (iş dəftəri) |

## 5-ci dərs. “Təbiəti sevənlər komandası” (I hissə)

• Dərslik: səh. 92-94 • İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

• Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür (st. 1.2.1).
• Mətni səsli oxuyarkən deyilişi çətin olan söz və ifadələri düzgün tələffüz edir (st. 2.2.1).
• Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir (st. 2.2.5).
• Yazılı təqdimatını struktur xüsusiyyətlərinə uyğun olaraq tərtib edir (st. 3.1.4).
• Hərəkət bildirən sözlərdə gələcək zaman şəkilçisini (yazacağam, gələcəyəm) düzgün yazır (st. 4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı ətrafında söhbət |
| 2 | **Danışma** | Havanın çirklənməsi mövzusu üzrə müzakirə |
| 3 | **Oxu** | “Təbiəti sevənlər komandası” mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətn üzrə iş |
| 5 | **Danışma** | Tədbirlər planının tərtibi |
| 6 | **Dil qaydaları** | Gələcək zamanda işlənən hərəkət bildirən sözlərin yazılışı |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

– *Tüstü görmüsünüzmü? Harada və nə zaman? Təsəvvür edin ki, olduğunuz yerdə hər tərəfdən havaya tüstü qalxır. Bu zaman özünüzü necə hiss edərsiniz?*

Müəllim hava çirklənməsini təsvir edən şəkil və ya video nümayiş etdirib soruşa bilər: *Hava çirklənməsinə nələr səbəb olur? Bunun qarşısını necə ala bilərik?*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Avtomobillərin, zavodların havaya buraxdığı zəhərli qazların insanlara verdiyi ziyan barədə müzakirə aparılır.

LAYİHƏ

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik). Rollu oxu.** Şagirdlər növbə ilə mətni oxuyurlar. Müəllim mətndə işlənən tələffüzü və yazılışı fərqli olan sözlərin (*komanda, müəllim, təbiət* və s.) düzgün səsləndirilməsinə nəzarət edir. Mətn oxunduqdan sonra müəllim rollu oyun təşkil edir. Mətndəki söhbət əsasında dialoq qurularaq mətn səhnələşdirilir.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik), tapşırıq A (iş dəftəri).** Bu tapşırıqlar müəllimə imkan verir ki, şagirdlərin mətni nə dərəcədə qavradıqlarını müəyyən etsin.

**Tapşırıq C (dərslik):** Doğru cavablar: 1 – ç), 2 – a), 3 – b), 4 – c).

**Tapşırıq A (iş dəftəri):** Şagirdlər təxminən belə yaza bilərlər.

2. ... ətraf mühiti çirkləndirməsin.
3. ... quşların ölməsini istəmirdi.
4. ... ağacların kəsilməsinin qarşısını alsın.
5. ... bitkilərin qayğısına qalırdı.

**Tapşırıq Ç (dərslik).** Müəllim vatman kağızında tapşırıqda verilmiş cədvəli çəkir. Şagirdlər müəllimin yönəldici sualları ilə mətndən və həyatda gördüklərindən çıxış edərək təbiətin çirklənməsinə dair nümunələr söyləyirlər. *"Siz olsaydınız, təbiəti çirklənmədən qorumaq üçün nələr edərdiniz?"* sualına cavab verməklə tədbirlər planının hazırlanmasında iştirak edirlər. Kollektiv müzakirə nəticəsində "Təbiəti sevənlər komandası"nın tədbirlər planı hazırlanır.

Şagirdlərin ümumi müzakirəsindən sonra tədbirlər planına aşağıdakı mövzular daxil edilə bilər:

1. Məktəbyanı sahənin təmizlənməsi
2. Ağacların əkilməsi
3. Quşlar üçün yuvaların hazırlanması
4. Digər siniflərin məlumatlandırılması

**Müəllimin nəzərinə!** 1. Cədvəlin "icraçılar" xanasına sinfin adı qeyd oluna bilər. Yaxşı olardı ki, bu tədbirlər planı real olaraq həyata keçirilsin.

2. Hazırlanmış tədbirlər planının sinifdə saxlanılması tövsiyə olunur. Bu, növbəti dərsdə şagirdlərin qruplarla iş fəaliyyətinə kömək edəcək.

### Dil qaydaları

4.1.3 **Tapşırıq D (dərslik).** Müəllim şagirdlərin diqqətini mətndə göy rənglə verilmiş cümlələrin sonundakı sözlərə yönəldir. Həmin sözlərin yanlış formasını (atacam, başlamayacam, kömək edəcəm) lövhədə yazır və soruşur:

– *Sizcə, hansı doğrudur? Mətndə verilən, ya lövhədə yazdığımız?*

Müzakirə edilir. Şagirdlər buna bənzər sözlər səsləndirirlər.

**"Sözlərin yazılışı" rubrikası**. Şagirdlər rubrikadakı sözlərə diqqət yetirməklə gələcək zamanda işlənən hərəkət bildirən sözlərin düzgün yazılışını mənimsəyirlər.

Sonra müəllim belə sözlərin işləndiyi imla mətni deməklə şagirdlərin qaydanı necə mənimsəməsini yoxlayır.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq dil qaydası üzrə möhkəmləndirmə məqsədi daşıyır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür. | Tapşırıq A (dərslik) |
| Mətni səsli oxuyarkən deyilişi çətin olan söz və ifadələri düzgün tələffüz edir. | Tapşırıq B (dərslik) |
| Mətnin məzmunu ilə bağlı sadə ümumiləşdirmələr edir. | Tapşırıq C (dərslik), Tapşırıq A (iş dəftəri) |
| Yazılı təqdimatını struktur xüsusiyyətlərinə uyğun olaraq tərtib edir. | Tapşırıq Ç (dərslik) |
| Gələcək zamanda işlənən hərəkət bildirən sözləri düzgün yazır. | Tapşırıq B (iş dəftəri) |

LAYİHƏ

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə dərslikdə səhifə 94-də A tapşırığında verilmiş şəkillər üzrə iş vərəqində suallar hazırlaması tövsiyə olunur.
1-ci şəkil üzrə suallar:
*1. "Təbiəti sevənlər" komandası hardadır? 2. Komandanın üzvləri nə edirlər? 3. Onlar digər siniflərə hansı məlumatları verə bilərlər? 4. Lövhədən asılmış plakatda nə təsvir olunub? 5. Onlar bu plakatla hansı məlumatları çatdırmaq istəyirlər?*
2-ci şəkil üzrə suallar:
*1. Təmizlik festivalı dedikdə nə başa düşürsünüz? 2. "Təbiəti sevənlər" komandası hardadır? 3. Komandanın üzvləri nə edirlər? 4. Ətraf mühitin çirklənməsinə nə səbəb olub? 5. Ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün nə tövsiyə edərdiniz?*
3-cü şəkil üzrə suallar:
*1. "Yer kürəsi günü" dedikdə nə başa düşürsünüz? 2. "Təbiəti sevənlər" komandası hardadır? 3. Komandanın üzvləri nə edirlər? 4. Sizcə, onlar nə üçün məhz ağac əkirlər? 5. Uşaqlar ağac əkdikləri günü nə üçün "Yer kürəsi" günü adlandırıblar?*

## 6-cı dərs. "Təbiəti sevənlər komandası" (II hissə)

• Dərslik: səh. 94-95 • İş dəftəri: səh. 64

**Təlim məqsədləri**
• Şəklə, bilik və təxəyyülünə əsaslanaraq mətnin məzmununu dəyişir və ya davam etdirir (st. 2.2.5).
• Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).
• Mövzu üzrə çağırış xarakterli cümlə yazır (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tədbirlər planının nəzərdən keçirilməsi |
| 2 | **Oxuyub-qavrama** | "Təbiəti sevənlər komandası" mətninin davamının oxunması |
| 3 | **Yazı** | Mətnin qısa məzmununun yazılması; mövzu üzrə şüarların yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim əvvəlki dərsdə şagirdlərlə hazırladığı tədbirlər planı cədvəlini lövhəyə asır. Şagirdlər tədbirlər planını nəzərdən keçirirlər.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq A (dərslik). Qruplarla iş.** Şagirdlər 3 qrupa bölünür. Müəllim suallardan ibarət iş vərəqlərini qruplara paylayıb tapşırıqdakı plakatları suallar əsasında şərh etməyi tapşırır. Şagirdlər şəkillərdə "Təbiəti sevənlər" komandasının həyata keçirdiyi tədbirlər haqqında təqdimat hazırlayıb təqdim edirlər. Sonda "Təbiəti sevənlər" komandasının tədbirlərini özlərinin hazırladıqları tədbirlər planı ilə müqayisə edirlər. Bu tapşırıq şagirdlərin danışma bacarığını inkişaf etdirməklə yanaşı, həm də onlarda ətraf mühit və təbiətə qayğıkeş münasibət formalaşdırır.

2.2.4 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərə mətni səssiz oxumağı və "Təbiəti sevənlər" komandasının uğurlarını qeyd etməyi tapşırır. Komandanın uğurları: məktəb direktorunun və bütün məktəb şagirdlərinin komandaya qoşulması onların uğuru idi.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş plan əsasında mətnin qısa məzmununu yazmaqla həm mətni oxuyub-qavradıqlarını, həm də yazı bacarıqlarını nümayiş etdirirlər.

3.1.4 **Tapşırıq C (dərslik). Cütlərlə iş.** Müəllim şagirdlərin köhnə biliklərini yada salır. Sonra cütlər "Təbiəti qoruyaq" mövzusuna uyğun şüarlar yazırlar.

**Diferensial təlim**
Müəllim çətinlik çəkən şagirdlərə kömək məqsədilə müxtəlif mövzular təklif edə bilər: ətraf ərazinin yaşıllaşdırılması, ətraf mühitin zibillərdən təmizlənməsi, suyun və havanın çirklənməsinin qarşısının alınması və s.

**Müəllimin nəzərinə!** Şagirdlərin yazdıqları şüarlar növbəti dərsdə plakat hazırlanması işində istifadə oluna bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| Şəklə, bilik və təxəyyülünə əsaslanaraq mətnin məzmununu dəyişir və ya davam etdirir. | Tapşırıq A, B (dərslik) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tapşırıq A (iş dəftəri) |
| Mövzu üzrə çağırış xarakterli cümlə yazır. | Tapşırıq C (dərslik) |

## 7-ci dərs. "Ətraf mühitin mühafizəsi günü"

• Dərslik: səh. 95 • İş dəftəri: səh. 65

**Təlim məqsədləri**

• Mətnin mövzusunu müəyyən edir (st. 2.2.4).
• Dinlədiyi mətn əsasında suallara cavab verir (st. 1.1.1).
• Təqdimat üçün seçdiyi vizual materialları yazılı şərhləri ilə müşayiət edir (st. 3.1.4).
• Müəyyən mövzu üzrə çağırış xarakterli cümlə yazır (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Fəsil üzrə xatırlatma |
| 2 | **Oxu** | Meşələrin qırılması ilə bağlı mətnin oxusu |
| 3 | **Dinləmə** | "Ətraf mühitin mühafizəsi günü" mətninin dinlənilməsi |
| 4 | **Yazı** | Mövzular üzrə plakatların tərtibi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bu fəsildə keçirilən mətnləri ("Ana Təbiətin uşaqlara məktubu", "Uzaylının dərsi", "Təbiəti sevənlər komandası") xatırladır və suallar verir: *Mətnlərin əsas mövzusu nə idi? (Təbiət, ətraf mühitin çirklənməsi) Hər üç mətnin ideyası nədir? Bu mətnlərin müəllifləri bizi nəyə səsləyir? (İnsanlar ətraf mühiti çirkləndirməməli, təbiəti qorumalıdırlar)*

### Oxu

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətni səssiz oxuyurlar və fərdi şəkildə tapşırığı yerinə yetirirlər. **Doğru cavab:** meşələrin qırılması.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərin mətndə rast gəldikləri *fidan* və *səhra* sözlərinin mənasını əvvəlcə şagirdlərdən soruşur. Şagirdlər kontekstdən çıxış edərək sözləri izah edirlər. Sözlər: ***fidan*** – ağac və kolların kötüyündən göyərən və sonradan başqa yerdə əkilən cavan ağac; ***səhra*** – susuz və bitkisiz geniş çöl, düz. Sözlər "Söz boğçası"na əlavə olunur.

Tapşırıq yerinə yetiriləndən sonra müəllim suallar verir: *Bu mətndə təbiətə və ətraf mühitə qarşı hansı münasibət ifadə olunub? Sizcə, bu, doğrudurmu?* Müzakirə aparılır.

### Dinləmə

1.1.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini şəklə yönəldir və soruşur:

– *Ətraf mühitin mühafizəsi dedikdə nə başa düşürsünüz? Sizcə, həmin gün insanlar nə edə bilərlər?*

Müəllim şagirdlərə I yarımildən tanış olan "Heyvanları müdafiə günü" ilə bağlı xatırlatma edə bilər.

Şagirdlərin cavabları dinlənildikdən sonra dinləmə mətni səsləndirilir.

**"Ətraf mühitin mühafizəsi günü"**

*Yer kürəsi bütün insanların evidir. Təəssüf ki, bəzən insanlar bu evə laqeyd yanaşırlar: ətrafı çirkləndirir, ağacları kəsir, canlıları məhv edirlər. Təbiətə qarşı bu davranış bütün Yer kürəsinin gələcəyi üçün böyük təhlükə yaradırdı. Odur ki bir çox dövlətlərin nümayəndələri bir yerə yığışaraq bu problemi müzakirə etdilər. Onlar "ya biz çirklənməyə son qoymalıyıq, ya da çirklənmə həyatımıza son qoyar" şüarı ilə insanlara səsləndilər. Nümayəndələr bütün dünyanı bu problemin həllinə çağırmaq məqsədilə iyunun 5-ni "Ətraf mühitin mühafizəsi günü" elan etdilər. Artıq hər il iyunun 5-də dünyanın bir çox ölkələrində insanlar təbiəti qorumaq üçün tədbirlər təşkil edirlər. Bizim ölkəmizdə də "Ətraf mühitin mühafizəsi günü" qeyd edilir. Hər il bu tarixdə ağacəkmə tədbirləri təşkil edilir, dənizkənarı və digər ərazilərdə təmizlik işləri aparılır.*

Mətn əsasında dərslikdə verilmiş suallar müzakirə edilir. **Əlavə suallar:**

– *Hər il iyunun 5-də bir çox dünya dövlətlərində hansı işlər görülür? "Ya biz çirklənməyə son*



LAYİHƏ

*qoymalıyıq, ya da çirklənmə həyatımıza son qoyar" şüarını necə başa düşürsünüz?*

### Yazı

3.1.4 **Tapşırıq B (dərslik).** Tapşırığın məqsədi plakat haqqında nəzəri məlumatın mənimsədilməsinə maraq oyatmaqdır. Müəllim şagirdlərin diqqətini "Təbiəti sevənlər komandası" mətninin son abzasına yönəldir. *Sizcə, Anar müəllimin şagirdləri niyə plakat hazırlamaq qərarına gəldilər?*

**Doğru cavab:** Onlar fikirlərini daha çox insana çatdırmaq istəyirdilər.

Müəllimin "*Plakat görmüsünüzmü? Harada? Plakat nə haqda idi?* və s. yönəldici sualları ilə mövzu şagirdlərin həyatı ilə əlaqələndirilir. Şagirdlər sinif divarlarında olan plakatları da müzakirə edə bilərlər.

**"Faydalı məsləhət" rubrikası.** Rubrikada şüarları əks etdirən plakat haqqında məlumat verilir. Şagirdlər rubrikadakı təlimat xarakterli məlumatı oxuyurlar.

**Müəllimin nəzərinə!** Şagirdlərin nəzərinə plakatın müxtəlif məqsədlərlə hazırlandığı çatdırıla bilər. *Plakat* – küçə və ya ictimai yerlərdə təbliğat, məlumat və ya reklam məqsədilə asılan qısa mətnli iri şəkil.

**Tapşırıq C (dərslik). Təsviri incəsənət fənni ilə inteqrasiya. Qruplarla iş.** Şagirdlər 3 qrupa bölünür. Hər qrupa vatman kağızı və ya A3 vərəqi təqdim olunur və mövzulara uyğun plakat hazırlamaq tapşırılır.

1. Qrup üzvləri əvvəlcə mövzu ətrafında şüarlar düşünür, qeyd vərəqlərində şüarlar yazırlar. Sonra müzakirə edərək plakat üçün uğurlu bir şüar seçirlər.

2. Plakatda mövzuya uyğun hansı şəkli çəkəcəklərini müzakirə edirlər. Plakat üçün uyğun şəkil seçirlər. Şəkli və mətni plakatda necə yerləşdirəcəklərini qərarlaşdırırlar.

3. Plakatı yerləşdirmək üçün məkan haqqında müzakirə aparırlar. Müəllim kömək məqsədilə şagirdlərə müzakirə üçün sual verir:

*– Plakatı harada yerləşdirsək, daha çox insan görüb məlumatlana bilər?*

Şagirdlər müzakirə edərək plakat üçün uğurlu məkan seçirlər.

Şagirdlərin müzakirəsi bitdikdən sonra qruplar işə başlayır. Plakat üzərində şüarı diqqəti cəlb etmək üçün tünd böyük hərflərlə yazırlar. Plakatda uyğun rəsmlər çəkirlər. Plakatı cəlbedici rəngli uyğun naxışlarla bəzəyirlər. Sonda qrupların təqdimatı dinlənilir.

**Müəllimin nəzərinə!** Qrupları müəyyənləşdirərkən hər qrupda rəsm çəkməyi bacaran bir şagirdin olmasına diqqət etmək lazımdır.
Tərtib olunmuş plakatların məktəb daxilində və ya məktəbyanı sahədə yerləşdirilməsinin təşkil edilməsi tövsiyə olunur. Bu kimi işlərin təşkili şagirdlərin sosial bacarıqlarını inkişaf etdirir.

3.1.4 **Tapşırıq B (iş dəftəri). Təsviri incəsənətlə inteqrasiya.** Bu tapşırıq şagirdlərin yaradıcı düşüncələrinin inkişafına xidmət edir. Şagirdlər ətraf mühitin mühafizəsi anlayışını nə dərəcədə dərk etdiklərini öz yaradıcılıqları ilə nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin mövzusunu müəyyən edir. | Tapşırıq A (iş dəftəri) |
| Dinlədiyi mətn əsasında suallara cavab verir. | Tapşırıq A (dərslik) |
| Verilmiş mövzuya uyğun plakat hazırlayır. | Tapşırıq C (dərslik) |
| Müəyyən mövzu üzrə çağırış xarakterli cümlə yazır. | Tapşırıq B (iş dəftəri) |



LAYİHƏ

fəsil 3 YENİDƏN İSTİFADƏ

## 1-ci dərs. “Kürən pişiyin əşyaları” (I hissə)

• Dərslik: səh. 96-97 • İş dəftəri: səh. 66

**Təlim məqsədləri**

• Qrafik informasiyanı şifahi təqdim edir (st. 1.2.1).
• Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir (st. 2.2.5).
• Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir (st. 2.2.4).
• Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir (st. 2.1.1).
• Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir (st. 4.1.6).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Yenidən istifadə” anlayışının müzakirəsi |
| 2 | **Danışma** | Şüarlar və şəkillər üzrə danışma |
| 3 | **Oxu. Oxuyub-qavrama** | “Kürən pişiyin əşyaları” mətninin oxusu |
| 4 | **Söz ehtiyatı** | “Söz boğçası” üzrə iş |
| 5 | **Dil qaydaları** | Cümlələrin genişləndirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim yönəldici suallarla diqqəti fəslin adına yönəldir:

– *“Yenidən istifadə” dedikdə nə başa düşürsünüz? Əşyalarınız köhnəldikdə onlarla necə davranırsınız? Köhnə bir əşyanızdan yeni bir əşya hazırlamısınızmı? Tutaq ki, qələmqabınız qırılıb və siz qələmlərinizi bir yerə yığmaq istəyirsiniz. Bu zaman nədən istifadə edərdiniz?*

Şagirdlər suallara cavab verməklə fəslin mövzusunu müəyyənləşdirirlər.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Danışma fəaliyyəti müəllimin yönəldici sualları və tapşırıqda verilmiş şəkillər vasitəsilə həyata keçirilir. Fəslin mövzusu üzrə şagirdlərin söz ehtiyatını artırmaq üçün onlara müəyyən sözləri *(tullantı, təkrar istehsal)* tanıtmaq məqsədəuyğundur. Bu sözlər şagirdlərin aktiv lüğət ehtiyatına keçməsə də, bu fəslin mövzusunun qavranılması üçün vacibdir.

**Yönəldici suallar:** *1. Şəkillərin üçündə də eyni olan nədir? Bu işarəni başqa harada görmüsünüz?*

Müəllim təkrar emal işarəsi haqqında kiçik məlumat verə bilər.

*Zibil qutularının üzərində və müxtəlif plakatlarda gördüyünüz işarə yenidən istifadənin işarəsidir. Bu işarə 1960-cı ildə 23 yaşlı gənc bir oğlan tərəfindən yaradılmışdır. İşarənin mənası “sonsuzluq” deməkdir. İşarədə 3 ox var. Birinci ox – köhnə əşyaları toplamaq, ikinci ox – çevirmək, yeni nə isə hazırlamaq, üçüncü ox – yenidən istifadə etmək deməkdir. Bu gün, demək olar ki, dünyanın bütün ölkələrində bu işarə tanınır.*

*1-ci şəkil* üzrə yönəldici suallar: *Sizcə, niyə birinci şəkildə müxtəlifrəngli zibil qutuları qoyulmuşdur? Şəkildə hansı əşyaları görürsünüz? Nə üçün tullantıları materialına görə ayıraraq uyğun qutulara atmaq lazımdır? “Əşyalara ikinci həyat verək” dedikdə nə başa düşürsünüz? Biz bunu necə edə bilərik?*

**Şüarın mənası:** Köhnə və lazımsız hesab etdiyimiz əşyalardan da yenidən istifadə etmək olar.

*2-ci şəkil* üzrə yönəldici suallar: *Kağız nədən hazırlanır? Kağıza qənaət etməklə nəyi qoruyuruq? “Hər kağızı bir yarpağa dəyişək” dedikdə nə başa düşürsünüz?*

**Şüarın mənası:** Kağıza qənaət etməklə ağacların kəsilməsinin qarşısını alırıq.

**Müəllimin nəzərinə!** Əvvəlki dərslərin birində kağızın istehsalı haqqında dinləmə mətni verilmişdir. Şagirdlər kağızın ağacın qabığından (oduncağından) hazırlandığını bilirlər. Müəllim yönəldici suallarla şagirdlərin kitabın, dəftərin vərəqlərinin yarpağa bənzədiyi qənaətinə gəlməsinə nail ola bilər. Bu, şüarın mənasını daha dərindən anlamasına kömək edəcək.

*3-cü şəkil* üzrə yönəldici suallar: *Təbiətə ziyan vuran insanlar təbiəti necə dəyişirlər? (meşələri qırmaqla canlıların həyatına təhlükə yaradırlar, səhralaşma baş verir və s.) İnsanlar təbiətə qarşı hansı düşüncələrini, davranışlarını dəyişsələr, təbiəti qorumuş olarlar?*

Şagirdlər şüarı izah edərkən vizual görüntünün aydınlaşdırıcı imkanlarına diqqət etməlidirlər. Məsələn, üçüncü şəkildəki yaşıl ağac təbiətin



LAYİHƏ

rəmzidir. Onun bir hissəsini insanların düşüncəsiz fəaliyyəti nəticəsində məhv olmaq təhlükəsi gözləyir. Bunun qarşısını almaq üçün isə insanlar özünün təbiətə yanlış münasibətini dəyişərək ona qayğı göstərməlidirlər.

**Şüarın mənası:** Biz səhv davranışımızla təbiətə ziyan vururuq. Səhvlərimizi başa düşüb təbiətə qayğı ilə yanaşsaq, onu da, özümüzü də xilas edərik.

### Oxu. Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik). Həyat bilgisi fənni.** Şagirdlər "Kürən pişiyin əşyaları" mətnini səssiz oxuyurlar. Qeyd vərəqində Kürənin keçirdiyi hissləri qeyd edirlər. Mətn oxunduqdan sonra Kürənin keçirdiyi hisslər üzrə klaster yaradılır. Səbəbləri müzakirə edilir.

**Tapşırıq C (dərslik).** Müəllim şagirdlərin diqqətini mətnin son abzasına yönəldir: abzas yenidən oxunur. Şagirdlər pişiyin keçirdiyi hissləri nəzərə alaraq onun hərəkətlərini təkrar edirlər.

*Hərəkətlər: Əlləri ilə başını tutdu, gözlərini yumdu və yerə çömbəldi. Var gücü ilə qışqırıb dostlarını səslədi...*

2.2.4 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin mətndə açıq şəkildə verilməyən informasiyanı aşkar etmək, qavramaq bacarığının inkişafına xidmət edir. Şagirdlərin bu sual ətrafında düşünmələrinə və öz fikirlərini söyləmələrinə bir qədər vaxt ayrılmalıdır.

**Diferensial təlim**

Sualın cavabını birbaşa bilməyən şagirdlərə müəllim yönəldici suallar verə bilər:

*– Dənizlərə, çaylara çoxlu zibil atılsa, suyu çirklənsə, nə baş verər? Suda yaşayan canlıların həyatına necə təsir göstərər?*

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər Kürən pişiyin təbiətə laqeyd münasibətini ifadə edən cümlələri seçib yazmaqla mövzunu nə dərəcədə anladıqlarını nümayiş etdirirlər.

**Cümlələr:** *Bir əşyası azacıq köhnələn kimi yaxınlıqdakı gölə tullayır və dərhal yenisini alır.*

*Əslində, neçə vaxtdır ki, göldə balıq yoxa çıxıb. Ancaq bu, Kürənin vecinə deyil.*

### Söz ehtiyatı

2.1.1 **"Söz boğçası" rubrikası.** Şagirdlər söz boğçasında verilən sözlərin mənasını kollektiv şəkildə araşdırırlar. Bunun üçün şagirdlər həmin sözlərin mənasını mətndə işləndiyi cümlələri səsli oxuyaraq və cümlənin məzmunundan çıxış edərək izah edirlər, sonra lüğətdən istifadə edərək dəqiqləşdirirlər. Bununla şagirdlərin mətnin oxusu zamanı tanış olmayan sözlərin mənasını cümlənin məzmunundan çıxış edərək anlamaq və lüğətlə işləmək bacarıqları inkişaf etdirilir.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin söz ehtiyatını möhkəmləndirmək məqsədi daşıyır.

**Doğru cavab:** qarmaq, tilov, avar.

**Tapşırıq C (iş dəftəri).** "Söz boğçası" rubrikasında verilmiş hərəkət bildirən sözlərin yaxınmənalı qarşılığını müəyyən etməklə şagirdlər yeni öyrəndikləri sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Doğru cavab:** *ləngər vurmaq* – yırğalanmaq, *təqib etmək* – izləmək, *həzz almaq* – xoşlanmaq.

### Dil qaydaları

4.1.6 **Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin həm oxuyub-qavrama, həm də cümlədə ifadə olunan fikirlərin genişləndirilməsi bacarığının inkişafına yönəlmişdir.

**Cümlələr:**

*1. Kürən yeni əşyalar aldığı zaman sevinirdi.*

*2. Kürən yeni əşyalardan həzz alırdı.*

*3. Kürənin qarmağına böyük nəsə bir şey düşəndə həyəcanlandı.*

*4. Kürən suyun üzünə dəhşətli bir varlıq çıxanda qorxdu.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Plakatda ifadə olunan fikirləri şərh edir. | Tapşırıq A (dərslik) |
| Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir. | Tapşırıq B, C (dərslik) |
| Mətndə əsas fikrin açılmasına xidmət edən faktları seçir. | Tapşırıq Ç (dərslik), Tapşırıq A (iş dəftəri) |
| Verilmiş izahın, əlamətlərin aid olduğu sözü müəyyən edir. | Tapşırıq B, C (iş dəftəri) |
| Sözlər arasında məna əlaqəsini müəyyənləşdirməklə cümləni genişləndirir. | Tapşırıq D (dərslik) |

LAYİHƏ

## **2-ci dərs.** "Kürən pişiyin əşyaları" (II hissə)

• Dərslik: səh. 97-99 • İş dəftəri: səh. 67

**Təlim məqsədləri**

• Fakt və hadisələrin mətndəki yerini müəyyən edir (st. 2.2.3).
• Obrazı və onun davranışlarını qiymətləndirməklə (xeyirxahdır, qəddardır, yaxşı davranırdı/pis davranırdı və s.) mətndəki əsas fikirlərlə bağlı mülahizə yürüdür (st. 2.2.4).
• Mətnin mövzu və ideyasını müəyyən edir (st. 2.2.4).
• Mətnin kompozisiyasında problemin yaranması və həlli məqamlarını müəyyən edir (st. 2.2.3).
• Cümlələrdə hiss, həyəcan bildirən sözləri (nidaları) müəyyən edir, vergül və nida işarələrindən yerli-yerində istifadə edir (st. 4.1.7).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin I hissəsində baş verən hadisələrin xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | Mətnin I və II hissəsindəki hadisə və faktların müqayisəsi; baş qəhrəmana münasibət bildirilməsi; əsas problemin və mətnin ideyasının müəyyənləşdirilməsi |
| 3 | **Dil qaydaları** | Hiss və həyəcan bildirən sözlər |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Kürən pişiyin əşyaları" mətnində baş verən hadisələrə aid suallar verməklə mətni xatırladır.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (dərslik).** Müəllimin sualları əsasında şagirdlər əvvəlcə şəkildə Kürənin qarmağına düşən əcinnənin nə olduğunu müəyyənləşdirirlər.

**Yönəldici suallar:** *Sizcə, Kürən nə üçün qarmağa düşənin "əcinnə" olduğunu düşünürdü? Kürənin tilovuna düşənlər nədir?*

Sonra şagirdlər tapşırıqda verilən şəklin mətnin hansı hissəsinə uyğun gəldiyini müəyyən edirlər.

Cavab: Mətnin əsas hissəsinə (4-cü abzas: – *O, tilovu çəkdi. Suyun üzünə dəhşətli bir varlıq çıxdı*).

2.2.4 **Tapşırıq B (dərslik). Proqnozlaşdırılmış oxu.** Müəllim oxuya başlamazdan əvvəl mətndəki son hadisəni yada salır və sual verir:

*– Sizcə, bundan sonra nə baş verəcək? Dostları onun köməyinə gələcəkmi?*

Şagirdlər birinci şəklə baxaraq hansı dostlarının gəldiyini müəyyənləşdirirlər.

Müəllim şagirdlərə mətni oxuyarkən Kürənin davranışlarına diqqət etməyi tapşırır. Sonra şagirdlər mətni növbə ilə oxumağa başlayırlar. Mətn "Birdən onlar gölün sahilində köhnə əşyalar qalağı gördülər" cümləsinə kimi oxunur. Müəllim sual verir:

*– Sizcə, dostlar bu atılmış əşyalarla nə edəcəklər?*

Şagirdlərin cavab versiyaları dinlənilir. Mətnin oxusu davam etdirilir. "Dostlarını görüb onları xəbərdar etmək üçün sahilə qaçdı" cümləsinə kimi oxunur. Müəllim sual verir:

*– Kürən nəyi xəbər vermək istəyirdi?*

Mətnin davamı "Hm, mənim bir fikrim var" cümləsinə kimi oxunur. Müəllim sual verir:

*– Kürən nə etmək istəyirdi? Sizcə, o, köhnə əşyalarını nə edəcək?*

Şagirdlərin cavabları dinlənilir. Mətn sona qədər oxunur.

**Tapşırıq C (dərslik).** Şagirdlər "Kürən pişiyin əşyaları" mətninin I hissəsində Kürənin əşyalarla necə davrandığını müzakirə edirlər. Sonra isə II hissədə Kürənin əşyalara münasibətinin necə dəyişməsi haqqında fikirlərini bildirirlər. Müəllim sual verir:

*– Sizcə, onun əşyalara münasibətinin dəyişməsinə nə səbəb oldu? (Kürən dostlarının onun köhnə əşyalarını tapanda sevindiyini, onları evlərinə aparmaq istədiyini görəndə öz hərəkətlərinə görə utandı. O, səhvini başa düşərək köhnə əşyalarından yenilərini düzəltməyə başladı. Onun düzəltdikləri hamının xoşuna gəldi.)*

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər baş qəhrəmanın xarakterini analiz etdikdən sonra mətnin mövzu və ideyasını asanlıqla müəyyənləşdirə bilərlər.

**Mövzu:** köhnə əşyaların yenidən istifadəsi.

LAYİHƏ

**Mətnin əsas ideyası:** İnsanlar köhnəlmiş əşyaları atmaq əvəzinə onlardan yeni əşyalar hazırlaya bilərlər.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər fərdi şəkildə hekayə xəritəsini tamamlayırlar. Bununla da mətni bütövlükdə qavradıqlarını nümayiş etdirirlər.

**Diferensial təlim**

Müəllim problemin həllini yazmaqda çətinlik çəkən şagirdlərin diqqətini mətnin sonuncu abzasına yönəldə bilər.

Əsas obrazın problemi: Kürənin tilovuna böyük bir varlıq – əcinnə düşmüşdü.

Problemin həlli: Kürən köhnə əşyalardan yeni əşyalar hazırladı.

## Dil qaydaları

4.1.7 **Tapşırıq D (dərslik).** Müəllim şagirdlərə intonasiyalı oxu qaydalarını izah edir. Bu zaman durğu işarələrinə, obrazların keçirdiyi hisslərə diqqət etmək lazım olduğunu deyir. Sonra şagirdlərə tapşırıqda verilmiş cümlələri nəzərdən keçirib intonasiyalı oxumağı və oxuyarkən fərqləndirilmiş sözlərə diqqət etməyi tapşırır. Cümlələr oxunduqdan sonra onları söyləyən obrazın keçirdiyi hisslər müzakirə edilir. *(1. Sevinc, 2. Qorxu, 3. Təəccüb, 4. Təəccüb.)* Sonra müəllim şagirdlərə tapşırır ki, bu cümlələri fərqləndirilmiş sözlər olmadan oxusunlar. Hər iki oxu zamanı cümlələr arasında yaranan fərq müzakirə olunur. Müəllim bu cür sözlərin hiss və həyəcanımızı bildirmək üçün istifadə olunduğunu bildirir.

**“Bunları bilməliyik” rubrikası.** Rubrikadakı məlumatlar izah edilir və hiss, həyəcan bildirən sözlərdən (nidalardan) sonra qoyulan durğu işarələri şagirdlərin diqqətinə çatdırılır.

**Tapşırıq E (dərslik). Cütlərlə iş.** Tapşırıqda verilmiş nidaları şagirdlər gündəlik həyatlarında empirik yolla mənimsəmiş və nitqlərində istifadə edirlər. Bu tapşırıqda verilmiş nidaların hansı hiss və həyəcanı bildirməsi şagirdlərin müzakirə predmetinə çevrilir və cütlərin fəal iştirakını təmin edir. Cütlər əvvəlcə hər bir cümlədə ifadə edilən hissi müəyyən edirlər *(1. Yorğunluq, 2. Sevinc, 3. Kədər, 4. Təəssüf).* Sonra sözləri əlavə etməklə cümlələri oxuyur, bir-biri ilə müzakirə edirlər. İş vərəqində cümlələri tamamlayıb yazırlar. Müəllim durğu işarələrindən düzgün istifadə etmək lazım olduğunu onların diqqətinə çatdırır. Hər bir cütün müəyyən etdiyi cavablar əsasında tapşırıq kollektiv müzakirə olunur.

**Cümlələr belə tamamlanmalıdır:**

1. Of, lap yoruldum!
2. Aha, axır ki, əlimə keçdin!
3. Oy, əlimə tikan batdı!
4. Eh, elə bildim cavabı tapmısan.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin cümlə qurmaq bacarığının və hiss, həyəcan bildirən sözlərlə bağlı biliklərinin möhkəmləndirilməsinə xidmət edir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fakt və hadisələrin mətndəki yerini müəyyən edir. | Tapşırıq A (dərslik) |
| Baş qəhrəmanın davranışlarını müqayisə edir. | Tapşırıq C (dərslik) |
| Mətnin mövzu və ideyasını müəyyən edir. | Tapşırıq Ç (dərslik) |
| Mətnin kompozisiyasında problemin yaranması və həlli məqamlarını müəyyən edir. | Tapşırıq A (iş dəftəri) |
| Nida cümləsində hiss, həyəcan bildirən sözləri (nidaları) müəyyən edir. | Tapşırıq D, E (dərslik), Tapşırıq B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** 1. Müəllim şagirdlərə tapşırır ki, növbəti dərsə evlərində olan müxtəlifrəngli köhnə geyimlər (*köynək, şalvar, döşəküzü, yorğanüzü* və s.) gətirsinlər. Eyni zamanda karton, yapışqan və karandaşdan istifadə olunacağı qeyd edilir.
2. Müəllimin növbəti dərsdə nümayiş etdirməsi üçün “qurama” üsulu ilə tikilən hər hansı bir əşya və yaxud qurama sənət nümunəsini əks etdirən şəkillər gətirməsi tövsiyə olunur.

LAYİHƏ

## **3-cü dərs.** "Qədim sənət nümunəsi"

• Dərslik: səh. 99-100 • İş dəftəri: səh. 68

**Təlim məqsədləri**

• Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür (st. 1.2.1).
• İnformativ mətni oxuyarkən əsas məlumatları qeyd edir (st. 2.2.2).
• İnformativ mətndəki məlumatları həyatda gördükləri ilə müqayisə edir (st. 2.2.2).
• Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır (st. 2.1.2).
• Hər hansı prosesin mərhələlərini düzgün ardıcıllıqla sadalayır (st. 1.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Qurama sənət nümunəsinin nümayişi |
| 2 | **Danışma** | "Köhnə əşyalar" mövzusu üzrə danışma |
| 3 | **Oxu** | "Qədim sənət nümunəsi" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətn üzrə iş |
| 5 | **Danışma** | Şifahi təqdimat |
| 6 | **Söz ehtiyatı** | Cümlələrin tamamlanması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "qurama" sənət nümunəsini şagirdlərə tanıtmaq üçün gətirdiyi əşya və şəkilləri nümayiş etdirir və şagirdlərin bu sənət növü ilə bağlı ilkin biliklərini öyrənir. Ola bilsin ki, hər hansı bir şagirdin evində belə nümunələr var və ya valideynləri (anası, nənəsi və ya digər qohumları) bu cür tikmələr hazırlayanda görüb. Bu məqamda müəllim həmin şagirdin gördüklərini danışmasına vaxt ayırmalı və dərs boyunca yeri gəldikcə həmin şagirdin biliklərindən digər şagirdlərin faydalanması üçün istifadə etməlidir. Bir şagirdin digər şagirdlərə nə vaxtsa müşahidə etdiklərini, biliklərini ötürməsi dərs prosesini daha maraqlı edir.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş suala yönəldir. Şagirdlər köhnəlmiş əşya və ya geyimlərdən hazırlana biləcək əşya və geyimlər haqqında mülahizələrini yürüdürlər. Tapşırığın məqsədi şagirdləri mövzu ətrafında düşündürməklə onların yaradıcı təfəkkürlərini inkişaf etdirməkdir.

### Oxu

2.2.2 **Tapşırıq B (dərslik). İstiqamətləndirilmiş oxu.** Müəllim lövhədə üç sual yazır və şagirdlərə tapşırır ki, mətni oxuduqca bu suallara cavab tapın:

*1. Mətndə hansı sənət nümunəsindən danışılır?*

*2. Qurama nümunələrini hazırlamaq üçün nədən istifadə edirlər?*

*3. Qurama nümunələrini necə hazırlayırlar?*

Mətn səssiz oxunur. Şagirdlər iş vərəqlərində qeydlər edirlər. Bununla şagirdlərin informativ mətndəki əsas məlumatları seçmək bacarıqları inkişaf etdirilir.

İş vərəqləri müzakirə edildikdən sonra müəllim mətnin qavranılmasını yoxlamaq üçün əlavə suallar verə bilər:

– *Əvvəllər insanlar köhnə parçalardan nə üçün istifadə edirdilər?*

– *Necə oldu ki, qurama sənəti yarandı?*

– *Qurama üsulu ilə nə hazırlayırlar?* və s.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C, Ç (dərslik).** Şagirdlər mətndəki məlumatlardan və həyatda gördüklərinə əsasən qurama nümunələrinin parçadan düzəldilən digər əşyalardan nə ilə fərqləndiyini izah edirlər. Bu tapşırıq informativ mətndəki məlumatın nə dərəcədə qavranıldığını yoxlayır.

Quramanı digər nümunələrdən fərqləndirən xüsusiyyətlər bunlardır: köhnəlmiş parçalardan hazırlanır; parçalar müxtəlif formalarda, daha çox həndəsi fiqurlar formasında kəsilməklə hazırlanır; parçaları bir-birinə tikməklə və ya yapışdırmaqla hazırlanır.

Şagirdlər evdə gündəlik istifadə olunan əşyaların (*yorğan, yastıq, qazan, fincan* və s.) məişət əşyası, gözoxşayan, evə yaraşıq verən əşyaların (*qurama, rəsm, kiçik heykəllər* və s.) isə sənət nümunəsi olduğunu söyləyə bilərlər.

### Danışma

1.2.1 **Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin informativ mətndə öyrəndiklərini praktik tətbiq

LAYİHƏ

etməsinə və yaradıcı təfəkkürünün formalaşmasına xidmət edir. Təlimat oxunur. Şagirdlər cütlərə ayrılır. Lazım olan əşyalar hazırlanır. Müəllim şagirdlərin gətirdikləri müxtəlif köhnə geyimləri kəsib cütlərə paylaya bilər. Burada məqsəd hər cütlükdə fərqli rəngli parçaların olmasını təmin etməkdir. Hazırlanma qaydasına əsasən hər cütlük öz nümunəsini hazırlayır və təqdim edir. Təqdimat zamanı müəllim şagirdlərin təlimat əsasında hansı işi və hansı ardıcıllıqla hazırladıqlarını ətraflı və ardıcıl şəkildə danışmalarını tələb etməlidir. Tapşırığın əsas məqsədi şagirdlərin hər hansı prosesin mərhələlərini düzgün ardıcıllıqla sadalamaq bacarıqlarını inkişaf etdirməkdir.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq söz ehtiyatını zənginləşdirir və eyni zamanda şagirdlərin dünyagörüşünün artırılmasına xidmət edir. Tapşırığa uyğun olaraq sözlər boşluqlara aşağıdakı ardıcıllıqla yazılır: sərgisi, qurama, sənətkar, muzeyə.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq hər bir şagirdə özünü dəyərləndirmə imkanı yaradır. Dərsin sonunda şagird nə öyrəndiyini, daha nələri bilmək istədiyini müəyyənləşdirir. Hər kəs tapşırığı fərdi olaraq yerinə yetirir və sonda təqdim edir. Müəllim şagirdlərin öyrənmək istədiklərini ümumiləşdirərək onlara araşdırma mövzusu verə bilər və sərbəst dərsdə müzakirə oluna bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördüklərinə əsaslanaraq fikir yürüdür. | Tapşırıq A (dərslik) |
| İnformativ mətni oxuyarkən əsas məlumatları qeyd edir. | Tapşırıq B (dərslik) |
| İnformativ mətndəki məlumatları həyatda gördükləri ilə müqayisə edir. | Tapşırıq C (dərslik) |
| Hər hansı prosesin mərhələlərini düzgün ardıcıllıqla sadalayır. | Tapşırıq D (dərslik) |

| | |
|---|---|
| Sözlər arasındakı məntiqi əlaqəni müəyyən etməklə cümləni müvafiq sözlə tamamlayır. | Tapşırıq A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərs üçün bölmə üzrə yekunlaşdırıcı tapşırıq verə bilər. Bunun üçün şagirdlərə növbəti dərsə plastik su butulkaları gətirməyi tapşırmalıdır.

## 4-cü dərs. Ümumiləşdirici təkrar

• Dərslik: səh. 101 • İş dəftəri: səh. 69

**Təlim məqsədləri**
- Mətnin məzmununa uyğun olan (olmayan) fikirləri müəyyənləşdirir (st. 2.2.4).
- Nida cümləsində hiss, həyəcan bildirən sözləri (nidaları) müəyyən edir, vergül və nida işarələrindən yerli-yerində istifadə edir (st. 4.1.7).
- Müraciət bildirən sözlərdən sonra vergül işarəsindən istifadə edir (st. 4.1.7).
- Hərəkət bildirən sözlərdə gələcək zaman şəkilçisini (yazacağam, gələcəyəm) düzgün yazır (st. 4.1.3).
- Oxuduğu və ya dinlədiyi mətndən gəldiyi nəticəni yazıda ifadə edir (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə xatırlatma |
| 2 | **Oxu** | Bölmənin mövzusunu ümumiləşdirən mətnin oxusu |
| 3 | **Dil qaydaları** | Müraciət bildirən sözlər, nidalar üzrə iş |
| 4 | **Yazı** | Bölmənin əsas ideyasının bir neçə cümlə ilə ifadə olunması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərdən soruşur:

*– Bölmədə ən çox yadınızda qalan mətn hansı oldu? Hansı mətn sizin xarakterinizdə müsbət dəyişikliyə səbəb oldu?* və s. Bu suallarla şagirdlərin bölmə haqqında təəssüratlarını bölüşməsinə imkan yaratmaq olar.

LAYİHƏ

## Oxu

**2.2.4** **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş bir neçə cümlədən ibarət kiçik mətni oxuyur və mətndəki əsas fikirlə bağlı olmayan cümləni (Sağlam olmaq üçün idman etmək lazımdır.) müəyyən edirlər. Sonra müəllim soruşur:

*– Mətndəki hansı cümləni mətnin əsas ideyası hesab etmək olar?* Şagirdlər mətndəki cümlələrdən birini seçməklə fikirlərini əsaslandırırlar.

## Dil qaydaları

**4.1.7** **Tapşırıq B (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin bölmədə hiss-həyəcan bildirən sözlərlə (nidalar) bağlı öyrəndikləri biliklərin mənimsənilmə səviyyəsi yoxlanılır.

**4.1.7** **Tapşırıq C (dərslik), tapşırıq A (iş dəftəri).** Hər iki tapşırıq bölmədə müraciət bildirən sözlərlə bağlı tədris olunan nəzəri materialın qavranılmasını yoxlayır. Dərslikdəki C tapşırığını şagirdlər kollektiv şəkildə yerinə yetirirlər. Müəllim cümlələri bir-bir lövhədə yazır. Şagirdlər növbə ilə lövhə qarşısına gəlib cümlələrdə uyğun yerlərdə vergül işarələrini qoyur və fikirlərini əsaslandırırlar.

**4.1.3** **Tapşırıq Ç (dərslik).** Tapşırıq vasitəsilə bölmədə öyrədilən orfoqrafik biliklərin şagirdlər tərəfindən mənimsənilmə səviyyəsi yoxlanılır.

## Yazı

**3.1.2** **Tapşırıq B (iş dəftəri).** Şagirdlər bölmənin ideyasına uyğun bir neçə cümlə yazmaqla bölmə üzrə tədris olunan mövzuları qavradıqlarını nümayiş etdirirlər.

**Əlavə tapşırıq:** "Köhnəlmiş əşyalara ikinci həyat verək" şüarı altında daxıl, qələmqabı, gülqabı və s. hazırlana bilər. Bu fəaliyyəti qruplarla və ya cütlərlə iş formasında yerinə yetirmək olar.

**Müəllimin nəzərinə!** Tapşırıqla bağlı nümunə bölmənin titul səhifəsində (səh. 81) göstərilmişdir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmununa uyğun olmayan cümləni müəyyən edir. | Tapşırıq A (dərslik) |
| Nida cümləsində hiss, həyəcan bildirən sözləri (nidaları) müəyyən edir. | Tapşırıq B (dərslik) |
| Müraciət bildirən sözlərdən sonra vergül işarəsindən istifadə edir. | Tapşırıq C (dərslik), Tapşırıq A (iş dəftəri) |
| Hərəkət bildirən sözlərdə gələcək zaman şəkilçisini (acaq, əcək) düzgün yazır. | Tapşırıq Ç (dərslik) |
| Oxuduğu və ya dinlədiyi mətndən gəldiyi nəticəni yazıda ifadə edir. | Tapşırıq B (iş dəftəri) |



LAYİHƏ

# 2-ci sinifdə keçilənlərin təkrarı

• Dərslik: səh. 102-103 • İş dəftəri: səh. 70-71

Tədris ilinin sonunda dərslik və iş dəftərində II sinifdə keçilən dil qaydaları və filoloji anlayışlarla bağlı təqdim olunan tapşırıqlar müvafiq standartların nə dərəcədə reallaşdığını yoxlamağa imkan verir. Tapşırıqlar, əsasən, dil qaydalarını əhatə edir. Həmçinin oxu (söz ehtiyatı) və yazı məzmun xətti üzrə mənimsədilən bir sıra filoloji anlayışlarla bağlı (fakt və münasibət, atalar sözü, mövzu, sözün mənası, ümumi məna, nəzakətli sözlər) tapşırıqlar da verilmişdir. Tapşırıqlar tətbiqi xarakterlidir və şagirdlərin nitq bacarıqlarını üzə çıxarır. Dərslikdə verilən bir sıra tapşırıqlar kollektiv şəkildə müzakirə yolu ilə yerinə yetirilə bilər. Fərdi yerinə yetirilən tapşırıqların sonda ümumi siniflə müzakirə edilməsi məqsədəuyğundur. Tapşırıqlar aşağıdakı təlim məqsədlərinin reallaşdırılmasına xidmət edir.

| Məzmun standartları | Təlim məqsədləri | Materiallar |
|---|---|---|
| 4.1.5. Ad, əlamət, say, hərəkət bildirən sözlərin bəzi qrammatik xüsusiyyətlərini müəyyənləşdirir. | Əlamət bildirən sözləri məna qruplarına görə (rəng, dad və s.) fərqləndirir. | Tapşırıq A (dərslik) |
| 2.2.2. Bədii və informativ mətnləri fərqləndirir. | Mətndə fakt və münasibət ifadə edən fikirləri fərqləndirir. | Tapşırıq B (dərslik) |
| 4.1.6. Cümlənin qrammatik əsasını müəyyən edir və məqsəddən asılı olaraq cümləni genişləndirir. | Cümlədə subyekt və hərəkəti müəyyən edir. | Tapşırıq C (dərslik) |
| 2.1.1. Yeni sözləri müvafiq məna qrupuna aid edir və anlayışın əlamətlərini sadalayır. | Varlığın əlamətlərini və aid olduğu ümumi mənanı bildirməklə sözü izah edir. | Tapşırıq Ç (dərslik), A (iş dəftəri) |
| 4.1.5. Ad, əlamət, say, hərəkət bildirən sözlərin bəzi qrammatik xüsusiyyətlərini müəyyənləşdirir. | Hərəkət bildirən sözlərin təsdiq və ya inkarda olduğunu müəyyən edir. | Tapşırıq D (dərslik) |
| 4.1.3. Səs və hərf tərkibi fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir. | Deyilişi və yazılışı fərqlənən sözlərdə bir sıra sait (ü-u, a-ə, o-a) və samitlərin (k-g, t-d) düzgün yazılış qaydalarına riayət edir. | Tapşırıq E (dərslik) |
| 4.1.1. Saitləri növlərinə görə (qalın, incə, dodaqlanan, dodaqlanmayan) fərqləndirir. | Ahəng qanununa tabe olan sözləri müəyyən edir. | Tapşırıq Ə (dərslik) |
| 1.2.3. Danışarkən fəal leksikadan və sadə sintaktik konstruksiyalardan istifadə edir. | Situasiyadan asılı olaraq nitqində müvafiq nitq etiketi seçir. | Tapşırıq F (dərslik) |
| 4.1.7. Cümlədə durğu işarələrindən (sual işarəsi, nida işarəsi, vergül, qoşa nöqtə, tire) yerli-yerində istifadə edir. | Vasitəsiz nitqdə (dialoqlarda, obrazların nitqində) durğu işarələrindən (tire, qoşa nöqtə, dırnaq) yerli-yerində istifadə edir. | Tapşırıq G (dərslik), D (iş dəftəri) |
| 4.1.5. Ad, əlamət, say, hərəkət bildirən sözlərin bəzi qrammatik xüsusiyyətlərini müəyyənləşdirir. | Hərəkət bildirən sözləri zamana görə fərqləndirir. | Tapşırıq B (iş dəftəri) |
| 4.1.5. Ad, əlamət, say, hərəkət bildirən sözlərin bəzi qrammatik xüsusiyyətlərini müəyyənləşdirir. | Miqdar və sıra saylarını fərqləndirir. | Tapşırıq C (iş dəftəri) |
| 2.1.2. Kontekstdən çıxış edərək söz və ya ifadənin mənasını müəyyən edir. | Sözün mənasını kontekstə görə müəyyənləşdirir. | Tapşırıq Ç (iş dəftəri) |
| 4.1.5. Ad, əlamət, say, hərəkət bildirən sözlərin bəzi qrammatik xüsusiyyətlərini müəyyənləşdirir. | Şəkilçiləri *(-lar, -çı, -lı)* sözə əlavə edərkən ahəng qanununa uyğun düzgün variantı seçir. | Tapşırıq E (iş dəftəri) |
| 2.1.4. Sadə frazeoloji ifadələrin mənasını izah edir. | Atalar sözlərini mövzulara görə qruplaşdırır. | Tapşırıq Ə (iş dəftəri) |



LAYİHƏ

*BURAXILIŞ MƏLUMATI*

*Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün Azərbaycan dili (tədris dili kimi) fənni üzrə metodik vəsait (I və II hissə)*

**Tərtibçi heyət**

Müəlliflər **Ülkər Nurullayeva**
**Aysel Xanalıyeva**
**Şəhla Zahidova**
**Könül Məhyəddinova**
**İradə Bayramova**

Layihə rəhbəri **Rafiq İsmayılov**

Bədii redaktor **Taleh Məlikov**
Dil-üslub redaktoru **Dilrüba Cəfərova**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Korrektor **Fəridə Ziyadova**

*Ümumtəhsil məktəblərinin 2-ci siniflərində sınaq məqsədilə çap edilir.*

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi 2019-134**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Fiziki çap vərəqi . Səhifə sayı .
Kağız formatı 57×82 1/8. Tiraj . Pulsuz.
"Çaşıoğlu" mətbəəsində çap olunmuşdur.
Bakı ş. M.Müşfiq küç., 2 A.

LAYİHƏ

Pulsuz

LAYİHƏ